Azərbaycan Respublikasının Prezidenti
yanında Elmin İnkişafı Fondunun qrant
layihəsi çərçivəsində nəşr olunmuşdur.

**İSMAYIL HACIYEV, EMİN ŞIXƏLİYEV,
ELMAN CƏFƏRLİ, MEHMAN ŞABANOV**

# BÖYÜK GÜCLƏRİN AZƏRBAYCANLA BAĞLI GEOSİYASİ MARAQLARINDA NAXÇIVANIN YERİ

**BAKI – ELMİN İNKİŞAFI FONDU – 2017**

*Elmi redaktor*:
**Hacıfəxrəddin SƏFƏRLİ**
*AMEA-nın müxbir üzvü, tarix üzrə elmlər doktoru, professor*

*Rəyçilər*:
**Oktay SULTANOV**
*tarix üzrə elmlər doktoru, professor*
**Şamxal MƏMMƏDOV**
*tarix üzrə fəlsəfə doktoru, dosent*
**Elbrus İSAYEV**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

**İ.M.Hacıyev, E.A.Şıxəliyev, E.Y.Cəfərli, M.S.Şabanov. Böyük güclərin Azərbaycanla bağlı geosiyasi maraqlarında Naxçıvanın yeri.** – Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2017. – 300 səh.

Monoqrafiyada Böyük Britaniya, Rusiya, Türkiyə və Azərbaycanın arxiv mənbələri və müxtəlif dillərdə nəşr edilmiş ədəbiyyat materialları əsasında böyük dövlətlərin Cənubi Qafqaz siyasətində Azərbaycan, eləcə də Naxçıvanın yeri kimi məsələlər araşdırılmışdır. Mənbələrin bir qismi elmi dövriyyəyə ilk dəfə gətirilmişdir.

Monoqrafiya tarixçilər, tədqiqatçılar, siyasətçilər və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**Monoqrafiya Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun qrant layihəsi çərçivəsində çap olunmuşdur: Qrant № EİF/MQM-3-Şuşa-2014-7(22)-05/01/5**

**Bu əsər 06 aprel 2015-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu tərəfindən Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyində qeydiyyatdan keçirilmiş və əsərin qeydiyyatı haqqında 8433 nömrəli Şəhadətnamə (qeydiyyat nömrəsi: 04/C-16/C-7925-15) verilmişdir.**

**ISBN: 978-9952-516-00-5**

© Azərbaycan Respublikasının Prezidenti yanında
Elmin İnkişafı Fondu, 2017
© İ.M.Hacıyev, E.A.Şıxəliyev, E.Y.Cəfərli, M.S.Şabanov, 2017

# MÜNDƏRİCAT

**GİRİŞ........................................................................................................ 4**

**I fəsil. ÇAR RUSİYASININ CƏNUBİ QAFQAZ SİYASƏTİNDƏ NAXÇIVAN**
1.1. Çar Rusiyasının Cənubi Qafqaz siyasətində "erməni məsələsi". Ermənilərin Azərbaycan torpaqlarına, o cümlədən Naxçıvana köçürülməsi........................................................................ 9
1.2. Ermənilərin Naxçıvan əhalisinə qarşı soyqırımlarının başlanması (1905-1907-ci illər) ........................................ 49

**II fəsil. SOVET RUSİYASININ CƏNUBİ QAFQAZ SİYASƏTINDƏ NAXÇIVAN**
2.1. Sovet Rusiyasının Cənubi Qafqazda milli siyasəti və Naxçıvan məsələsi ................................................ 67
2.2. Ermənilərin Naxçıvanda törətdiyi soyqırım (1918-1920-ci illər)...116

**III fəsil. TÜRKİYƏNİN CƏNUBİ QAFQAZ SİYASƏTİNDƏ "ERMƏNİ MƏSƏLƏSİ" VƏ NAXÇIVAN**
3.1. Türkiyənin Cənubi Qafqaz siyasəti və "erməni məsələsi"..................137
3.2. Türkiyənin Cənubi Qafqaz siyasətində Naxçıvan..................................154

**IV fəsil. İNGİLTƏRƏNİN AZƏRBAYCANLA BAĞLI GEOSİYASİ MARAQLARINDA "ERMƏNİ AMİLİ" VƏ ONUN NAXÇIVANA TƏSİRİ**
4.1. İngiltərənin Azərbaycanla bağlı geosiyasi maraqlarında "erməni amili" ........................................................................204
4.2. İngiltərənin Azərbaycanla bağlı geosiyasi maraqları və Naxçıvan.........................................................................236

**V fəsil. ABŞ-IN CƏNUBİ QAFQAZ SİYASƏTİNDƏ "ERMƏNİ AMİLİ", MANDATLIQ MƏSƏLƏSİNƏ MÜNASİBƏTİ VƏ AZƏRBAYCANLA BAĞLI GEOSİYASİ MARAQLARINDA NAXÇIVANIN YERİ**
5.1. ABŞ-ın Cənubi Qafqaz siyasətində "erməni amili" və mandatlıq məsələsi..........................................................253
5.2. ABŞ-ın Azərbaycanla bağlı geosiyasi maraqlarında Naxçıvanın yeri ......................................................................256

**NƏTİCƏ.....................................................................................................274**

**ƏDƏBİYYAT ...........................................................................................281**

# GİRİŞ

Cənubi Qafqaz öz geosiyasi və geostrateji əhəmiyyətinə görə olduqca önəmli bir coğrafiyada yerləşir. Bölgənin geosiyasi rolu istər potensialına, istərsə də geostrateji mövqeyinə görə unikal dərəcədə əhəmiyyətlidir. Yaxın Şərq, Avropa və Asiya arasında yerləşən, tarix boyu geosiyasi maraqların toqquşduğu arena olan Cənubi Qafqazı öz coğrafi əhəmiyyətinə və enerji mənbəyinə görə "Avrasiyanın dayaq nöqtəsi" kimi xarakterizə etmək mümkündür. Əsrlər boyu imperialist güclər bu bölgəyə sahib olmağı hədəfləmiş və öz nüfuz dairələrini digər ərazilərə yaymaq üçün məhz Cənubi Qafqazdan baza kimi yararlanmaq istəmişlər. Qeyd etmək lazımdır ki, tarixən hər bir böyük güc öz imperialist siyasətini həyata keçirərkən müxtəlif bəhanələrdən və amillərdən istifadə etmiş və bu gün də etməkdədirlər. Bu baxımdan böyük güclərin Cənubi Qafqazda öz geosiyasi maraqlarını həyata keçirməsində başlıca rol oynayan amillərdən biri də məhz ermənilər olmuşdur. Bu da bir həqiqətdir ki, ermənilər böyük güclərin geosiyasi maraqlarının icraçısına çevrilsə də, öz növbəsində bu güclərdən qarşılıqlı olaraq öhdəliklər də tələb etmişdilər ki, həmin öhdəliklər son nəticədə erməni dövlətinin qurulması istəyindən başqa bir şey deyildi.

Şübhəsiz ki, böyük dövlətlərin ayrı-ayrılıqda geosiyasi maraqlarında "erməni məsələsi"nin özünəməxsus yeri olmuşdur. Eyni zamanda hər bir böyük güc ayrı-ayrılıqda sərhədləri müəyyənləşdirilən yeni yaradılacaq süni "erməni dövləti"ni də öz nəzarətinə keçirməyi planlaşdırmışdır. Əslində bu məsələdə hal-hazırki vəziyyət də əvvəlkindən fərqli deyildir. Bu baxımdan mövcud situasiyanı araşdırıb təhlil etmək üçün böyük dövlətlərin "erməni məsələsi" ilə bağlı ənənəvi və planlı siyasətlərinin keçmişinə nəzər salmağı vacib hesab edirik.

Hələ XVII əsrdən erməni tacir-ideoloqlarının öz "milli məsələləri"nə diqqətini cəlb etmək üçün cidd-cəhdlə çalışdıqları çar Rusiyasının XIX əsrin əvvəllərindən etibarən gerçəkləşdirdiyi "ermənilərin məskun-

laşdırılması" siyasəti Azərbaycan torpaqlarının demoqrafik strukturunun Rusiyanın maraqları çərçivəsində formalaşmasına səbəb olmuşdur. Rusiya ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi məsələsini təmin etmək üçün İrəvan və Naxçıvanda köç komitələri yaratmış və köçürülənlərə xüsusi imtiyazlar vermişdir. Bu mənada ermənilər xüsusilə Naxçıvan, İrəvan və Qarabağa yerləşdirilmiş və beləliklə, Azərbaycan torpaqlarının demoqrafik strukturunda böyük dəyişikliklər baş vermişdir. Rusiya bu siyasətlə Qafqazdakı etnik tərkibi dəyişdirərək bu ərazilərdə uzunmüddətli hakimiyyət qurmağı planlaşdırmış, Qacarlara və Osmanlılara qarşı güclü sədd yaradaraq güclü iqtisadi, hərbi və siyasi imkanlar qazanmaq məqsədini güdmüş, gələcəkdə Osmanlı dövləti üzərinə təzyiq qurmaq məqsədilə ermənilərdən faydalanmışdır.

1914-1918-ci illərdə Birinci Dünya müharibəsinin baş verməsi, xüsusilə 1917-ci ildə nəhəng Rusiya imperiyasının daxilində gedən çox ciddi ictimai-siyasi proseslər; fevral inqilabı nəticəsində Romanovlar sülaləsinin süqutu və Müvəqqəti hökumətin qurulması, oktyabr ayında isə Leninin başçılığı altında oktyabr sosialist inqilabı nəticəsində bolşevik diktaturasının qurulması Cənubi Qafqazda da vəziyyətə ciddi şəkildə təsir etmişdi. Sovet Rusiyası Osmanlı imperiyasının torpaqlarını ələ keçirməklə bağlı xüsusi bir plana malik olmasa da, Cənubi Qafqaza dair müstəmləkəçi planları sələfi olan iqtidarlardan fərqlənmirdi. Bu baxımdan sovet hakim dairələri "erməni məsələsi"ni nəinki öz xarici siyasət müstəvisindən çıxardı, əksinə, onu həm də daxili siyasətin mühüm faktoruna çevirdi.

Rusiyadan fərqli olaraq İngiltərənin siyasətində ermənilərin xüsusi çəkiyə sahib olması və daha vacib amil kimi yer tutması isə XIX əsrin 70-ci illərinin sonlarına təsadüf edir. İngilis imperiyasının müstəmləkə yolları üçün təhdidə çevrilən Rusiyanın imperialist fəaliyyətləri ilə bu hərəkətlər fonunda ermənilərin yaşadığı türk torpaqlarının strateji dəyəri ingilis maraqları baxımından son dərəcə əhəmiyyətli idi. Osmanlı dövləti üzərində təzyiq və təsir qurmaq istəyən Rusiya kimi İngiltərə də "erməni məsələsi"ndən bir vasitə olaraq yararlanmışdır. Müxtəlif dövrlərdə ermənilərdən faydalanaraq qarşılıqlı əməkdaşlıq çərçivəsində formalaşan rus və ingilis siyasətləri Şərqi Anadoluda yaşayan türklərlə birlikdə, Qafqaz-

dakı Azərbaycan türkləri üçün də fəlakət mənbəyi olaraq ortaya çıxmış və on minlərlə türkün ermənilər tərəfindən soyqırımına məruz qalmasına səbəb olmuşdur. Xüsusilə Birinci Dünya müharibəsinin sonlarına doğru dünyanın siyasi mənzərəsində önəmli dəyişikliklərin baş verməsi, daha doğrusu 1917-ci ildə oktyabr çevrilişinin baş verməsi ilə "erməni məsələsi" müvəqqəti olaraq İngiltərənin inhisarına keçmiş, nəticədə geosiyasi planlar və maraqlar çərçivəsində erməni təşkilatlarına dəstək verilərək etnik-milli münaqişələrə təşviq edilmiş, ermənilərin siyasi gələcəyinə dair öhdəliklər götürülmüş, "müstəqil Ermənistan" üçün ciddi vədlər verilmiş, sadəcə Şərqi Anadoluda deyil, Cənubi Qafqazda da onlardan yararlanılmış, Azərbaycanda və onun ayrılmaz parçası olan Naxçıvanda ciddi etnik təmizləmə siyasəti gerçəkləşdirilmişdir. Tədqiqat işində ermənilərin ciddi şəkildə silahlandırılmasının, "erməni məsələsi"nin Azərbaycanda və onun ayrılmaz parçası olan Naxçıvanda gündəmdə tutulmasının, "erməni dövləti"nin yaradılması planının Cənubi Qafqaza ixrac edilməsinin pərdə arxası səbəblərinə və mahiyyətinə açıqlıq gətirilməyə çalışılmışdır.

Vaxtilə ermənilərdən Panturanizm təhlükəsinə qarşı baryer kimi istifadə olunması müqabilində Ermənistanın gələcəyi üçün öhdəlik götürən İngiltərə sonradan əlavə maddi yükün altına girmək istəməmiş, ABŞ-ın Cənubi Qafqaza yönləndirilməsi daha məqbul hesab olunmuşdur. Qeyd etmək lazımdır ki, ABŞ əvvəllər Qafqaza hərbi birlik yerləşdirmək yerinə yardım kampaniyaları ilə məşğul olurdu. Lakin Birinci Dünya müharibəsindən sonra bölgənin artan strateji mövqeyi ABŞ-ın diqqətini daha çox çəkməyə başladı. Buradan gələcəkdə nəinki Azərbaycana, Ermənistana, İran və Türkiyəyə, eləcə də bütün Yaxın və Orta Şərqə çox asanlıqla nüfuz etmək olardı. İngilislərin bölgəni tərk etməsiylə ABŞ "sahibsiz" görünən Cənubi Qafqazda mandatlıq rejimi yaratmağa çalışmış, bu vasitə ilə Hindistan yolu üzərində yeni nüfuz sahələri əldə etmək və Qafqazın neft qaynaqlarına da yaxın olmaq istəmişdir. ABŞ-ın əsas məqsədlərindən biri də Naxçıvanda neytral zona yaradaraq tam səlahiyyətli bir amerikan general-qubernatorluğunun təsis edilməsi idi. Lakin amerikalıların planı uğursuzluqla nəticələnmiş, ümumilikdə ABŞ-ın Cənubi Qafqazda mandatlıq istəyi reallaşmamışdır.

Əsərdə böyük güclərin hər birinin ayrı-ayrılıqda Cənubi Qafqazla bağlı geosiyasi maraqları, Azərbaycanın, onun ayrılmaz parçası olan Naxçıvanın bu dövlətlərin gizli planlarında tutduğu yerdən, bu planlarda "erməni amili"nin oynadığı roldan ətraflı bəhs edilmişdir. Xüsusilə Cənubi Qafqazda cərəyan edən geosiyasi oyunlar, qarşılıqlı istifadə və faydalanma münasibətləri çərçivəsində vəd edilən "Böyük Ermənistan" dövləti yaradılmasına dair planlar, Türkiyə ilə türk dünyası arasında tampon dövlət olaraq daşnak Ermənistan dövlətinin qurulması, ümumtürk birliyi arasına baryer kimi ermənilər yerləşdirilməsi, Panturanizmin qarşısına sədd çəkilməsi, bu yolda xərclənən milyonlarla vəsait əsərin əsas mahiyyətini və məğzini təşkil edir.

Birinci Dünya müharibəsinin iştirakçısı olan iri dövlətlərin hər birinin ayrı-ayrılıqda Osmanlı Dövləti haqqında imperialist planları var idi. Osmanlı Dövləti isə Cənubi Qafqaza, xüsusilə Azərbaycana münasibətdə həmin dövrdə bölgədə maraqları olan bütün güclərdən fərqli mövqe sərgiləyirdi. Bir tərəfdən müharibədə məğlub dövlət kimi son dərəcə çətin vəziyyətə düşərək təslimçi sülhə imza atmaq məcburiyyətində qalan, digər tərəfdən özünün dövlətçilyini, ərazi bütövlüyünü qorumaq uğrunda gərgin mübarizə dövrünü yaşayan Türkiyənin daxilində ikihakimiyyətliliyin yaranması, dövlətin onun taleyini müəyyənləşdirəcək ictimai-siyasi proseslərin fəallaşması onun Cənubi Qafqazla bağlı planlarına həlledici təsir göstərmədi. Çünki Rusiya istisna olmaqla, Cənubi Qafqazda "erməni məsələsi"ndən fəal siyasət predmeti olaraq istifadə edən iri dövlətlərin heç biri bölgə dövləti deyildi, ərazi baxımından bu coğrafiyada yerləşmirdi. Məhz bu mənada Türkiyə üçün tarixən həmişə özünəməxsus mövqeyə və nüfuza malik olduğu Cənubi Qafqaz məsələsi bütövlükdə bir tərəfdən özünün ərazi bütövlüyünün qorunmasında həyati əhəmiyyətə malik idisə, digər tərəfdən Türkiyə bu bölgənin ərazicə ən böyük dövləti olan Azərbaycanla tarixi-coğrafi, milli-etnik, mədəniyyət-dil, dini-sosial və s. bu kimi amillər baxımından sarsılmaz bağlılığa malik idi. Üçüncü bir tərəfdən Cənubi Qafqazda və bütövlükdə Yaxın Şərqdə özündən sonra yeganə türk dövləti olan Azərbaycanın varlığının və təhlükəsizliyinin təmin edilməsi Türkiyənin milli maraqları və özünün gələcək varlığı baxımından əhəmiyyəti ölçüyə gəlməyən məsələ idi. Ən nəhayət, Azərbaycan

Türkiyə üçün bütün türk dünyasına açılan qapı, əsas coğrafi əlaqə məkanı idi.

Bu baxımdan Böyük Güclərin geosiyasi maraqlarının toqquşması kontekstində erməni məsələsinin yeri, bu dövlətlərin siyasətlərinə uyğun olaraq silahlandırılan və güc qazanan ermənilər tərəfindən gerçəkləşdirilən kütləvi qırğınların mahiyyətinin araşdırılması, rəqabət və təhriklər nəticəsində ortaya çıxan problemin Azərbaycan üzərindəki ağır nəticələrinin xarici mənbələr və arxiv materialları əsasında aşkara çıxarılaraq təhlil edilməsi son dərəcə elmi, siyasi əhəmiyyət kəsb edir. Bu araşdırma zəngin ədəbiyyat materialları, Azərbaycan, Türkiyə arxivləri və başlıca olaraq da Böyük Britaniyanın Milli Arxivində yer alan sənədlər əsasında hazırlanmışdır. Xüsusilə İngiltərə arxivləri ermənilərin törətdikləri cinayətlərlə bağlı reallıqların aşkara çıxarılmasında əsas rol oynayan qiymətli materiallara sahibdir. Bu sənədlərdə erməni faktorunun böyük güclər üçün əhəmiyyətini ifadə edən ingilis dövlət adamlarının öz aralarındakı yazışmaları və yüksək səviyyəli rəsmi şəxslər tərəfindən imzalanmış çox gizli raportlar mövcuddur. Qənaətimizcə, İngiltərə arxivlərində yer alan sənədlər tarixi reallıqların ortaya çıxarılması və araşdırılan problemin daha obyektiv kriteriyalar içərisində dəyərləndirilməsi baxımından olduqca vacibdir. Arxiv materialları ilə yanaşı rus, ingilis, türk, erməni alimlərinin və rəsmi nümayəndələrin tarixi sənəd mahiyyətindəki əsərlərinə də geniş yer verilmişdir. Müəlliflər inanırlar ki, təqdim edilən bu əsərdən tədqiqatçılar, tarixçilər, müvafiq profil üzrə mütəxəssislər və geniş oxucu kütləsi faydalana biləcəklər.

# I fəsil

# ÇAR RUSİYASININ CƏNUBİ QAFQAZ SİYASƏTİNDƏ NAXÇIVAN

## 1.1. Çar Rusiyasının Cənubi Qafqaz siyasətində "erməni məsələsi". Ermənilərin Azərbaycan torpaqlarına, o cümlədən Naxçıvana köçürülməsi

Ermənilərin XX əsrədək olan tarixi heç də ürəkaçan olmamış, müxtəlif imperiyaların tərkibində keçmişdir. Xüsusən orta əsrlərin sonlarına doğru onların müstəqillik arzularını, Şərqi Anadolu və Cənubi Qafqazda öz dövlətini qurmaq niyyəti istiqamətində göstərdikləri hər bir cəhd erməni qriqorian kilsəsinin siyasi-hərbi fəaliyyətinin nəticəsi kimi meydana çıxmışdır. Məlumdur ki, ermənilərin özlərinin qondarma və saxta tarixi əsasında formalaşdırdıqları xəyali "böyük Ermənistan"ı "bərpa etmək" ideyasını özləri üçün cəlbedici erməni milli təşviq və təhrik ideyasına çevirmişlər. Lakin tarixi əsaslardan və reallıqdan uzaq olduğu, başqa xalqların və dövlətlərin tarixən mövcud olub yaşadıları əraziləri qəsb etmək planlarını nəzərdə tutduğu üçün heç vaxt həyata keçməyəcək bu xülyanı reallaşdırmaq naminə ermənilərin xüsusən son iki-üç əsr ərzində güclənən mübarizəsinin təşkilatçılıq və hərbi dəstək funksiyası uzun müddət məhz erməni kilsəsinə məxsus olmuşdur.

Tarixən mövcud olmuş bütün türkdilli dövlətlərdə dinc yanaşı yaşamaq arzusu olan, separatizmə meyl etməyən qeyri-türk etnoslara münasibətdə tolerantlıq nümayiş etdirilmişdir. Orta əsrlər boyu ermənilər Bizansla müqayisədə tabeçiliyini daha rahat və xoş qarşıladıqları Osmanlı imperiyasının tərkibində XIX əsrədək tamamilə sabit və rahat bir həyat sürdükləri bir vaxtda onlarda öz dövlətini qurmaq meylinin

yaranması XVI-XVII əsrlərdə güclü mərkəzləşdirilmiş dövlətə, XVIII yüzilliyin əvvəllərində isə imperiyaya çevrilən xristian Rusiya dövlətinin beynəlxalq hərbi-siyasi müstəvidə öz varlığını göstərməyə başlaması ilə bilavasitə bağlı olmuşdur. Bu zaman xüsusən XVII əsrdə rus çarlarının dövründə Rusiyanın cənuba – Qafqaza və Osmanlı imperiyasının ərazilərinə işğalçı maraqlarının yaranması, bu marağın I Pyotrun dövründə (1689-1725) daha da güclənməsi ermənilərin mənafeyinə uyğun gəlirdi. Belə ki, türk-müsəlman xalqlarının əhatəsində və təbəəliyində yaşayan xristian ermənilər Rusiyanın bölgə dövlətləri ilə gələcək işğalçılıq mübarizəsində özlərinin müttəfiqlik təklifinin rus çarları, xüsusən türklərə kor nifrəti ilə ad çıxarmış, İstanbulun və Qafqazın işğalı, islam əqidəsinin Asiyadan uzaqlaşdırılması, xristian dininin və mədəniyyətinin burada yayılması ilə bağlı plana malik I Pyotr üçün maraqlı olacağını yaxşı başa düşmüşdülər.

Beləliklə, nəzərdə tutulan məqsədin – erməni dövləti yaratmaq planının həyata keçirilməsi üçün lazımi siyasi fəaliyyət formulu və hərbi güc tapılmış olurdu: Rusiya bu qondarma dövlətin yaradıcısı və siyasi-hərbi istinadgahı, erməni dövləti isə Rusiyanın "müttəfiqi" adı altında forpostu olacaqdı. Elə həmin dövrdən bu günədək ruslarla ermənilərin münasibətlərini, bir-birlərindən qarşılıqlı məkrli və işğalçı planlar naminə istifadə etməsini məhz bu iki istiqamət üzrə izah etmək mümkündür.

XVII-XVIII əsrlərdə öz məkrli və işğalçı planlarını reallaşdırmaq üçün lazımi tarixi şəraitin yetişdiyini anlayan ermənilər kilsənin rəhbərliyi və təşkilatçılığı ilə hərəkətə keçdilər. Bu zamanadək nəinki öz dövlətlərinə və ya konkret siyasi təşkilatlarına, heç bir tarixi siyasi lider və ya qüvvəyə malik olmayan ermənilər üçün orta əsrlərin dini sxolastikasından güclü təsir vasitəsi kimi istifadə edən qriqorian kilsəsi siyasi-ideoloji mərkəz rolunu oynamağa başladı. Bunda əsas məqsəd həm də dini amildən istifadə edərək xristian dövlətlərinin fəal himayəsini qazanmaq idi. Qriqorian kilsəsi sonrakı dövrdə öz mənfur məqsədlərinə doğru irəlilədikcə eyni zamanda terror mərkəzi və hərbi

cəbbəxana rolunu da uğurla həyata keçirməyə başladı. Onun bu funksiyası hətta XIX əsrin sonlarında ilk erməni siyasi terrorçu təşkilatları yarandıqdan sonra da uzun müddət davam etdi.

İlk əvvəllər Osmanlı Türkiyəsinin Van gölü ətrafı vilayətlərinin ərazilərinə iddialı olan ermənilər XIX əsrdə çarizm tərəfindən həyata keçirilən kütləvi köçürülmələrdən və həmin yüzilliyin sonunda Anadoludakı fitnəkar əməllərinin məğlubiyyətə düçar olmasından sonra XX əsrin əvvəllərində Cənubi Qafqaza – Azərbaycan torpaqlarının qəsbinə meyl etməyə başladılar. Lakin onlar heç vaxt Türkiyə ərazilərinə olan iddialarından da geri çəkilmədilər. Ermənilərin Cənubi Qafqaza kütləvi köçürülməsi rusların bu günədək davam edən imperialist siyasətlərinə zəmin hazırlamaq planlarının tərkib hissəsi idi. Məhz bu plana xidmət etmələrinin nəticəsidir ki, ermənilər Cənubi Qafqaz və Şərqi Anadolu bölgəsində baş verən münaqişələrdə (o cümlədən və xüsusən Birinci Dünya müharibəsində) daim rus siyasətinin aləti rolunda çıxış edərək yerli xalqlara xəyanət mövqeyində dayanmışlar.

Rusiya ilə özlərinin məkrli planlarına və mənafeyinə uyğun münasibətlərin qurulmasında bu dövlətlə ticarət əlaqələri olan erməni tacirləri ciddi rol oynadılar. Öz dövlətlərini qurmaq planlarına dəstək əldə etmək məqsədi ilə Bolqarıstana, Almaniyaya, İtaliyaya, Norveçə və digər Avropa ölkələrinə səfər edən erməni tacir-ideoloqlarının niyyətləri bu dövr üçün puça çıxdıqdan sonra bütün ümidləri Rusiyaya yönəlmişdi. Rusiyada İran ipəyinin ticarəti ilə məşğul olan isfahanlı tacir Xoca Zakar Sarhadov (Sarhadyan) hələ 1660-cı il avqustun 28-də rus çarı Aleksey Mixayloviçlə görüşdə öz məqsədləri naminə etdiyi qiymətli hədiyyələrlə çara təsir göstərə bilmişdi. Moskva Kremlinin Silahlar otağında indiyədək saxlanılan həmin hədiyyələrdən biri də "Almaz taxt"dır. Qızıl, gümüş və fil sümüyündən Şərq üslubunda düzəldilən, 987 almaz, 1298 yaqut, 18 mindən çox firuzə ilə bəzədilən bu taxtın ümumi dəyəri 22599 manat (*o dövr üçün bu çox böyük məb-*

*ləğ idi – Red.*) idi. Hədiyyələr arasında İntibah dövrünün böyük rəssamı Leonardo da Vinçinin "Sirli gecə" tablosunun surəti də vardı.[1]

1669-cu il dekabrın 3-də İsfahan ermənilərindən Stepan Mişseqov və Boqdan Salbanov rus çarına eyni niyyətlə növbəti qiymətli hədiyyələr təqdim etmişdilər. 1673-cü ildə yenə də İsfahandan olan erməni taciri Stepan Ramadamski Rusiya hökmdarına 9062 manat dəyərində qiymətli bəxşişlər vermişdi.[2]

Rus tarixçisi M.Solovyovun əsərlərində erməni tacirlərinin rus hakim dairələri ilə bu qəbildən olan əlaqələri barədə verdiyi məlumatlar sırasında İsrael Orinin xidmətləri daha bariz nəzərə çarpır. İyirmi il İtaliya və Almaniyada yaşayıb ermənilərin ümumi mənafeyi naminə geniş iş aparan bu şəxs Avropada real nəticə əldə edə bilmədikdən sonra özünün fəaliyyət məkanı olaraq Rusiyanı seçmişdi. 1677-ci ildə katalikos Akopun başçılığı ilə Üçmüəzzində keçirilən yığıncaqda Avropa ölkələrinə göndərilmək üçün təşkil edilən nümayəndə heyəti İstanbulda olarkən Akop öldüyündən bütün nümayəndələr geri qayıtsalar da, yalnız İ.Ori "ümumi iş"i davam etdirmişdi. O, arximandrit Minas Vardapetlə birlikdə 1701-ci ilin oktyabr ayında I Pyotrla görüşərək çara və onun arvadına qiymətli hədiyyələr vermişdilər. I Pyotra Cənubi Qafqaz bölgəsi haqqında öz mənafelərinə uyğun məlumatı verən erməni tacir-diplomatı çarda bu bölgəyə qarşı maraq oyada bilmişdi. Məhz buna görədir ki, I Pyotr İ.Oriyə polkovnik rütbəsi verərək onu 50 nəfərlik nümayəndə heyətinin rəhbəri kimi İrana göndərmişdi. 1709-cu ildə İranda özünü Səfəvi şahı Hüseynə Roma papasının nümayəndəsi kimi təqdim edən İ.Ori iki il sonra öldüyündən, onun fəaliyyəti yarımçıq qalmışdı. Yeri gəlmişkən qeyd edək ki, onun Azərbaycan torpaqlarının işğalına dair hazırladığı layihənin 11-ci bəndi bilavasitə Naxçıvanla bağlı idi.[3]

---

[1] Собрание актов, относящихся к обозрению истории армянского народа. 4. 1-й, Москва: 1833, с.328

[2] Yenə orada, s.332

[3] Nəcəfli G. Azərbaycan torpaqlarında erməni dövləti yaradılması məqsədilə tərtib olunan layihələr (XVIII əsrin I rübü) / http://1905.az

Beləliklə, rus müstəbidlərinin tamah dişini yoxlayan ermənilər öz məqsədlərini reallaşdırmaq üçün effektli üsula – rüşvətə əl atmışdılar.

XVIII əsrin əvvəlləri Azərbaycanda Səfəvilər xanədanının zəifləməsi, tənəzzülü və süqutu, əvəzində isə məşhur sərkərdə Nadir xanın (şahın) nüfuzunun artması və onun özünün başçılıq etdiyi dövləti qurması mərhələsi kimi səciyyələnir. Lakin ömrü çox qısa olan Nadir şah imperiyasının dağılmasından sonra Azərbaycanda mərkəzləşdirilmiş vahid dövlət yox, ayrı-ayrı bölgələrdə böyük nüfuza malik feodal nəsillərinin yaratdığı dövlət qurumları – xanlıqlar təşəkkül tapdı. Belə feodal dövlətlərdən biri olan Qarabağ xanlığının əhatə etdiyi ərazidən başqa xanlığa vassal asılılığı ilə tabe olan feodal hakimliyinin – beş məlikliyin (Xaçın, Vərəndə, Çiləbörd, Talış (Gülüstan) və Dizaq) mövcudluğu onun digər xanlıqlardan fərqləndirən mühüm amillərdən idi. Bu məlikliklərdən yalnız Xaçın məlikliyinin əhalisi əsasən islam dininə etiqad edirdi. Digər məlikliklərin əhalisi isə xristian dininə etiqadlarını qoruyub saxlamış qədim alban tayfalarının nəsillərindən ibarət idi. Məlikliklərin əhalisinin və məliklərin özünün xüsusən sovet dövrü elmi ədəbiyyatında "erməni" adlandırılmasına gəlincə, bu, göstərildiyi kimi, alban nəsillərinin həmin dövrdə hələ də xristianlığa etiqad etməsi ilə bağlı yol verilən səhv mühakimə idi. Belə ki, Vərəndə məliyi Şahnəzər istisna olmaqla, digər dörd məliklik Qarabağ xanlarına qarşı daim mübarizə aparmışdır. Erməni tacir-diplomatı İ.Ori məhz bu baxımdan burada xristian təəssübkeşliyi amilindən bacarıqla istifadə edərək məlikliklərin əhalisinin ermənilərdən ibarət olduğuna Rusiya rəsmi dairələrini inandıra bilmişdi.[1]

Rusiya hökmdarları I Pyotrdan başlayaraq ermənilərin Cənubi Qafqaza köçürülməsi siyasətini fəal şəkildə yürütməyə və "erməni amili"ndən istifadə edərək buradan yerli əhalinin – Azərbaycan türklərinin Cənubi Qafqazdan sıxışdırılıb çıxarılmasına çalışırdılar. Çünki

---

[1] Эзов Г.А. Сношения Петра Великого с армянским народом. Спб.: Тип Императорской Российской Академии, 1893, с. LXIV-IXVI

bölgəni daha asanlıqla işğal etmək naminə çarizm tərəfindən aparılan bütün təbliğat işlərinə, rus çarlarının Azərbaycan xanlıqlarına ünvanladığı müraciət və manifestlərə baxmayaraq yerli əhali rusların Azərbaycana gəlişini (əslində işğal cəhdlərini) heç də isti qarşılamırdı.[1]

I Pyotrun Cənubi Qafqaza 1722-1723-cü illərdəki yürüşləri nəticəsində İranla bağladığı (*bu zaman Səfəvilər dövlətinin mərkəzi İran hesab olunurdu – Red.*) 12 sentyabr 1723-cü il tarixli Peterburq müqaviləsinə görə Xəzəryanı vilayətlər Rusiyaya tabe edildi. Çarın işğal olunmuş ərazilərə ermənilərin köçürülməsi haqqında verdiyi xüsusi fərmanda deyilirdi ki, rus dövləti xristianlıq naminə "qardaş erməni xalqını" himayəyə götürür. 1725-ci ilin yanvar ayında I Pyotrun ölümü ilə Rusiyada başlanan saray çəkişmələri ermənilərin və ermənilərlə bağlı çarizmin planlarını uzun müddət təxirə saldı. Lakin I Pyotrun yerinə taxta çıxan arvadı I Yekaterina, özü rus zadəganlarının əlində oyuncaq olsa da, erməniləri unutmamış, 1726-cı il fevralın 22-də onlara mərhəmət edilməsi və ermənilərin himayə olunması haqqında fərman vermişdi.[2]

XVIII əsrin ikinci yarısında müxtəlif ölkələrdə yaşayan varlı ermənilərin "ümumi iş"ə qoşulması ilə ermənilər yenidən fəallaşdılar. 1760-cı ildə Hindistanda yaşayan erməni taciri İosif Emin rus hakim dairələri ilə əlaqə yaradaraq bildirmişdi ki, əgər Rusiya Türkiyə və İrana qarşı müharibəyə başlasa, ermənilərin köməyinə bel bağlaya bilər. Həştərxan ermənisi Movses Safarov rus imperatriçasına müraciət edərək "Ermənistan torpaqları"nı azad etməyi və Rusiyanın tərkibində onu dirçəltməyi xahiş edirdi. 1780-ci ildə erməni keşişi İosif Arqutinski (Hovsep Arqutyan) və Moskva varlısı Ovanes Lazaryan Türkiyə və İran dövlətlərinin ərazilərinin kəsişdiyi sərhəddə erməni dövləti

---

[1] Cəfərli E. Naxçıvanda erməni-azərbaycanlı münaqişəsi, s.62
[2] Собрание актов, относящихся к обозрению истории армянского народа, c.43

yaratmaq haqqında Rusiya hökumətinin nümayəndələri ilə sövdələşmə aparmışdılar.[1]

Həm İ.Emin, həm də İ.Arqutinski öz sələfləri İ.Ori kimi Azərbaycan torpaqlarının Rusiyanın köməyi ilə qəsb olunmasına dair xüsusi layihələr hazırlamışdılar. İ.Arqutinskinin layihəsinin 7-ci maddəsi Naxçıvan torpaqlarının ermənilərin idarəçiliyinə verilməsini nəzərdə tuturdu. Bu onunla bağlı idi ki, ermənilər üçün Naxçıvanın işğalı planı ətraf və digər Azərbaycan ərazilərinin istilası üçün bir vəsilə rolunu oynayırdı.[2]

Ermənilər bu qəsbkarlıq planları ilə ruslarda lazımi reaksiyanı oyada bilmişdilər. Belə ki, II Yekaterina 1768-ci ildə Rusiya imperiyasının erməniləri himayəyə götürməsi haqqında fərman vermişdi. Bundan başqa, o, 1779-cu il sentyabrın 1-də verdiyi xüsusi fərmanla 2 minə yaxın İran ermənisini Rusiya təbəəliyinə qəbul etmişdi. 1783-cü il mayın 19-da Q.A.Potyomkin II Yekaterinaya yazdığı məktubda erməni dövləti qurmaqla bağlı fikirlərini belə açıqlamışdı: "...Fürsət tapan kimi Qarabağı dərhal ermənilərin nəzarətinə vermək və beləcə Asiyada bir xristian dövləti qurmaq üçün lazım olanı edəcəyik".[3] Çar I Aleksandr isə 1802-ci ildə Cənubi Qafqaza yürüşə hazırlaşan rus ordu hissələrinin komandanı A.Sisianova Azərbaycan torpaqlarının ələ keçirilməsində ermənilərdən istifadə etməyi tapşırmışdı.[4]

Rusiyanı Cənubi Qafqaza hücuma təhrik etmək və razı salmaq üçün bütün vasitələrdən istifadə edən ermənilər, eyni zamanda, bölgənin yerli əhalisi arasında Rusiyaya loyal münasibət yaratmaq üçün öz məqsədlərinə uyğun geniş təbliğat aparırdılar. XVIII əsrin sonu-XIX

---

[1] Arzumanlı V., Mustafa N. Tarixin qısa səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı: Qartal, 1998, s.14

[2] Иоаннисян А.Р.Россия и армянское освободительное движение в 80-х г. XVIII века. Ереван, 1947, с. 206-212

[3] Cabbarlı H. Geçmişten Günümüze Ermenistanda Azerbaycan Türkleri // "Ermeni Araştırmaları" Üç Aylık Tarih, Politika ve Uluslararası İlişkiler Dergisi, Ankara: Aralık 2001-Ocak-Şubat 2002, Sayı 4, s. 126.

[4] Abbasbəyli A.N., Yusifzadə S.Z. Beynəlxalq münasibətlər tarixi (ən qədim dövrlərdən XIX yüzilliyin 70-ci illərinin sonuna qədər). Dərslik. Bakı: "Təhsil" NPM, 2009, s. 253-256

əsrin əvvəllərində Azərbaycan torpaqları uğrunda Rusiya, İran və Türkiyə arasında gedən mübarizənin kəskinləşdiyi bir vaxtda bəzi Azərbaycan xanlarının Rusiyaya meyl etməsində erməni təbliğatının da təsiri öz rolunu oynamışdı. Bununla belə, rus qoşunlarının tərkibində Azərbaycana gələn erməni Artemi Araratskinin yazdığı "azərbaycanlıların çoxu ruslarla birlikdə öz həmdinlərinin əleyhinə vuruşmağa hazır idi"[1] sözləri həqiqətdən daha çox rusların işğalçı yürüşlərinə haqq qazındırmaq cəhdinin ifadəsi idi. Çünki XIX yüzilliyin əvvəllərində Azərbaycan xanlarının çoxunun Rusiyaya qarşı kəskin mübarizə apardığı məlumdur. Rusiyaya müəyyən meyl isə daha çox xristian dininə sitayiş edən əhalinin yaşadığı ərazilərdə müşahidə oluna bilərdi. Təsadüfi deyildir ki, 1796-cı ildə V.Zubovun komandanlığı altında Azərbaycana yürüş edən rus qoşunlarının tərkibində olan arxiyepiskop İ.Arqutinski Cənubi Qafqaz xristianlarına, xüsusilə də Qarabağ məliklərinə məktub göndərib belə bir şayiə yaymışdı ki, guya V.Zubovun gəlişinin əsl məqsədi xristianları müsəlmanların zülmündən azad etmək və burada möhtəşəm xristian dövləti yaratmaqdan ibarətdir. Lakin bu xəbər Azərbaycan xanlıqlarına gəlib çatdıqda onların çoxu bundan təşvişə düşmüşdü.[2]

Rusiyada xüsusən II Yekaterinanın (1762-1796) dövründə güclənən erməni təbliğatı çariçanın ölümü ilə yenidən müəyyən müddət üçün ləngiməyə məruz qaldı. Lakin XIX yüzilliyin əvvəllərində İran və Türkiyə ilə Rusiya arasından uzun müddətdən bəri başlamasına canfəşanlıq etdikləri müharibələrin alovlanması ilə ermənilərin arzuladığı tarixi şərait yetişdi. 1804-1813-cü illər və 1826-1828-ci illər Rusiya-Qacarlar İranı, 1806-1812-ci illər və 1828-1829-cu illər Rusiya-Türkiyə müharibələrində ermənilər rusların qələbə çalması üçün onlara bacardıqları qədər kömək etdilər.

Cənubi Qafqaza, o cümlədən xüsusən Azərbaycana qarşı Rusiyanın imperialist siyasətinin başlaması I Pyotrun adı ilə bağlı olsa da,

---

[1] Babayev A. Rusiyaya qovuşmaq ərəfəsində. Bakı: Azərnəşr, 1988, s.8-9.
[2] Yenə orada, s.91-92

onlar üçün ən böyük işləri I Pyotrun məlum vəsiyyətnaməsinə həvəslə əməl edən I Nikolay gördü. Məhz onun dövründə Rusiya bölgədə imperialist maraqlarının toqquşduğu iki dövləti – Qacarlar İranı ilə Türkiyəni neytrallaşdıra bildi. Rusiyanın Qacarlar İranı ilə bağladığı 12 oktyabr 1813-cü il Gülüstan müqaviləsi ilə İrəvan və Naxçıvan xanlıqları, eləcə də Ordubad mahalı istisna olmaqla, Araz çayından şimaldakı Azərbaycan torpaqları Rusiyaya ilhaq edildi. Eyni dövlətlər arasında 1828-ci il fevralın 10-da imzalanmış Türkmənçay müqaviləsi əvvəlki müqavilədə istisna edilən torpaqlarla birlikdə Şimali Azərbaycan ərazilərinin tamamilə Rusiya müstəmləkəçiliyinə tabe edilməsi, Cənubi Azərbaycanın isə Qacarların tərkibində qalması rəsmiləşdirdi. Başqa sözlə, Azərbaycan dövlətləri olan Naxçıvan (1827, iyun) və İrəvan (1827, oktyabr) xanlıqlarının da ərazisi Rusiya tərəfindən işğal olundu.

Naxçıvan xanlığı Rusiya tərəfindən, əsasən dinc yolla ələ keçirildi. Lakin çar hökuməti bu yolla ələ keçirdiyi Qarabağ, Şəki və Şirvan xanlıqlarından fərqli olaraq, Naxçıvan xanlığı ilə müqavilə imzalamadı. Bununla birgə, Rusiya imperiyası tərkibində Naxçıvan xanlığına müəyyən imtiyazlar verildi. Naxçıvan və Ordubadın ələ keçirilməsində Kalbalı xanın oğlanları Ehsan xan və Şıxəli bəyin xidməti nəzərə alınaraq onlar həmin torpaqlara naib təyin edildi.[1]

İrəvan xanlığı süqut etdikdən sonra xanlıq üsuli-idarəsi dərhal ləğv olundu. “Gəncə xanlığı istisna olmaqla Gülüstan müqaviləsinə kimi işğal olunmuş Azərbaycan xanlıqları ərazisində xanlıq üsul-idarəsi dərhal ləğv edilməmişdi”.[2] Xanlığın ləğv edilməsi bir tərəfdən xanlıq üsuli-idarəsinin saxlanmasının təhlükəli nəticələr verə biləcəyi ilə, digər tərəfdən də İrəvan xanlığının ərazisində etnik tərkibin dəyişdirilməsi planları ilə bağlı idi.

---

[1] Şahverdiyev Z. Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində. Bakı: Elm, 2008, s.41
[2] Süleymanov M. Erməni millətçiliyi və təcavüzkarlığı tarixindən. Bakı: Hərbi nəşriyyat, 2008, s. 358

İrəvan qalasının işğalından cəmi bir neçə gün sonra, hələ müharibə başa çatmamış, Qafqazda hərbi əməliyyat aparan rus qoşunlarının baş komandanı İ.F.Paskeviç 1827-ci il oktyabr ayının 6-da İrəvan Müvəqqəti İdaretmə Komitəsi təşkil etdi. Bu komitə üç üzvdən ibarət idi: general-leytenant Krasovski (sədr), İrəvan qalasının komendantı podpolkovnik Borodin və bir də erməni yepiskopu Nerses Aştaraketsi.[1] Xanlıq ərazisində azərbaycanlı əhali mütləq çoxluğa malik olmasına baxmayaraq, Müvəqqəti Idarəetmə Komitəsinin tərkibinə azərbaycanlıların nümayəndəsi salınmamışdı. Müvəqqəti İdarəetmə Komitəsi aşağıdakı vəzifələri yerinə yetirməli idi:

1. Xanlıq ərazisində idarəetmə işlərinin həyata keçirilməsi və həmin ərazidə Rusiyanın mənafeyinə uyğun gələn qayda-qanunların bərqərar edilməsi;

2. Xanlığın sərhədlərinin, xanlıq daxilində olan İrəvan və Sərdarabad qalalarının mühafizəsinin və bu ərazidə yerləşən rus qoşunlarının təminat və təchizat məsələlərinin həll edilməsi;

3. Xanlıq ərazisində təhlükəsizliyin təmin edilməsi, xanlıq daxilində qarovul xidmətinin təşkili üçün erməni əhalidən piyada və süvari druginaların təşkil edilməsi;

4. Gürcüstanla işlək əlaqələrin təmin edilməsi və həmin əlaqələrin Dilican və Aparandan keçməklə yaradılması;

5. Gürcüstanla ticarət əlaqələrinin bərpa edilməsi, xanlıq ərazisində pambıqçılığın inkişaf etdirilməsi və duz mədənlərində duz hasilatının artırılması;

6. İrəvan xanının bütün əmlakının siyahıya alınması və onun dövlətin xeyrinə müsadirə olunması.[2]

Naxçıvan və Ordubadda Ehsan xan və Şıxəli bəy naib kimi fəaliyyət göstərir və onlara rus məmurlarından pristavlar təyin edilmişdi.

---

[1] Naxçıvan Ensiklopediyası. 2 cilddə. Cild 1. Naxçıvan: 2005, s.144

[2] Парсамян В.А. История армянского народа (1801-1900). Книга первая. Ереван: Айастан, 1972, s.71

Bütün idarəetmə məsələləri onların qarşılıqlı razılığı əsasında həll edilməli idi.[1]

Naxçıvan və İrəvan xanlıqlarının işğalı və Rusiyaya ilhaq edilməsi ermənilərin Azərbaycan torpaqları hesabına erməni dövləti yaratmaq arzusuna yeni təkan verdi. Onlar Rusiyaya bağlı erməni inzibati-ərazi vahidi yaradılmasını istəyirdilər. Hətta bu barədə əslən erməni olan X.Y.Lazarev çar I Nikolaya layihə də təklif etmişdi. Lakin belə bir qurumun yaradılması Rusiyanın maraqlarına uyğun deyildi. Rusiya İrəvan xanlığı ərazisində elə bir ərazi-idarəetmə vahidinin yaradılmasını məqsədəuyğun hesab edirdi ki, o, Rusiyanın mənafeyinə uyğun gəlsin. Rusiya əraziyə erməniləri köçürsə də, bu ərazilərin idarəsinin ermənilərə tapşırılmasını məqsədəuyğun hesab etmirdi.[2]

Ermənilərin Cənubi Qafqaza kütləvi köçürülməsi də məhz 1826-1828-ci illər Rusiya-Qacarlar İranı və 1828-1829-cu illər Rusiya-Türkiyə müharibələrinin gedişində başladı və həmin müharibələrin nəticəsində imzalanmış müqavilələrdən sonra genişləndi və sürətləndi. Belə ki, Türkmənçay müqaviləsinin 15-ci maddəsi diplomatik ifadələrlə məhz ermənilərin İrandan Cənubi Qafqaza köçürülməsini nəzərdə tuturdu. Eyni zamanda belə bir ciddi ehtimal (Qacarlar İranından ermənilərin köçürülməsinin planlı və mütəşəkkil şəkildə həyata keçirilməsi də bunu sübut edir) da vardır ki, Türkmənçay müqaviləsinin ermənilərin köçürülməsini nəzərdə tutan maddəsindən doğan ayrıca bir razılaşma da olmuşdur.[3]

1829-cu il sentyabrın 2-də Rusiya ilə Türkiyə arasında bağlanmış Ədirnə müqaviləsinin 13-cü maddəsinə görə isə dövlətlər öz tabeliyində olub müharibə zamanı qarşı tərəfi müdafiə edən təbəələrini bağışlayırdılar. İstədikləri yerə getmək üçün belələrinə 18 ay vaxt da verilirdi. Bununla ruslar, o zamanadək ermənilərin rahat yaşadıqları

---

[1] Мильман А. Политический строй Азербайджана в XIX-начале XX веков. Баку: 1966, с.72

[2] Hacıyev İ. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri. Naxçıvan: "Əcəmi" NPB, 2012, s. 29

[3] Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1989, s. 286

Osmanlı dövlətindən köçürülməsini təmin etmək üçün hiylə işlətməyi planlaşdırırdılar. Çünki onlar məhz ermənilərin sayəsində bir sıra uzunmüddətli iqtisadi, siyasi və hərbi mənafelərini təmin etməyi düşünürdülər.[1]

Beləliklə, Ədirnə sülhünə əsasən, Türkiyənin işğal olunmuş torpaqlarındakı ermənilərə 18 ay ərzində daşınan əmlakları ilə bərabər Rusiya təəbəliyinə keçmək hüququ verilmişdi. Türkiyədə yaşayan erməniləri yenicə işğal olunmuş Azərbaycan ərazilərinə köçürmək, həmçinin Türkiyə ilə sərhədboyu ərazilərdə də ermənilərin say üstünlüyünü təmin etmək məqsədilə 1829-cu il oktyabrın 10-da İ.Paskeviç rus imperatoru I Nikolaya raport yazıb Ərzurumda və Qarsda yaşayan ermənilərdən 10 min nəfərin Gürcüstanda və "erməni vilayətində" yerləşdirilməsinə icazə istəmişdi. 1829-cu il noyabrın 18-də hərbi nazir A.Çernişev İ.Paskeviçə çar I Nikolayın onun təklifini bəyəndiyini bildirdi.

Türkiyənin Qars və onun ətrafından köçürülən ermənilər yaşadıqları ərazilərin iqliminə uyğun olaraq Ələyəz (Alagöz) dağı ətrafındakı boşaldılmış Azərbaycan kəndlərində yerləşdirildi. Rus general-mayoru Bercman Qarsdan Gümrüyə yola salınan 400 erməni ailəsinə sənəd təqdim etdiyini bildirirdi. İrəvan yaxınlığında Sərdarabad qalasında olan 270 ev həmin vaxt ermənilər tərəfindən zəbt edilmişdi. Bir qədər keçdikdən sonra M.Vladkin ermənilərin bu əraziyə köçürülməsi haqqında yazırdı: "İrəvan quberniyasında yaşayan ermənilərin əksəriyyəti buranın yerli sakinləri olmayıb, 1828-1829-cu illər müharibəsindən sonra Türkiyədən bu ərazilərə köçürülmüşlər".[2]

1830-cu il yanvarın 22-də Paskeviçin Çernişevə verdiyi məlumata görə, Qars və ətraf ərazilərdən köçən 2500 erməni ailəsi onun sərəncamına əsasən yaşadıqları yerin iqliminə uyğun olan Ələyəz dağı

[1] Kop Y. 1828-1829 Osmanlı-Rus Savaşında Ermeniler // Ermeni Araştırmaları. 1. Türkiye Kongresi Bildirileri. I cilt. Avrasya Stratejik Araştırmalar Merkezi, Ermeni Araştırmaları Enstitüsü Yayınları, Ankara: 2003, s. 557-668

[2] Cümşüdlü F. Ermənilərin əzəli Azərbaycan torpaqlarında yerləşdirilməsi çarizmin mənfur siyasətinin nəticəsi idi / Xalq qəzeti, 2012, 4 noyabr.

ətrafında – Pəmbək distansiyasındakı boşaldılmış Azərbaycan kəndlərində yerləşdirildi. Türkiyədən köçürülən ermənilər Axıska, Pəmbək-Şorəyel və "erməni vilayətində" məskunlaşdırılmışdı. Talış mahalı, Göyçə gölü ətrafı və Baş Abarana 14044 erməni ailəsi köçürülmüşdü. Ərzurumdan köçürülən 7288 erməni ailəsindən 500-ü, eləcə də Ərdahandan gətirilən 67 erməni ailəsi Axıska paşalığı ərazisində, 1050 ailə Borçalı distansiyasında və Çalqa ətrafında, qalan 1305 ailə isə Pəmbək və Şorəyel distansiyalarında yerləşdirilmişdi. Hesablama komissiyasının sayına görə, Osmanlı dövlətinin ərazisindən 84 min nəfərdən artıq erməni və yunan əhalinin köçürüldüyü məlum olur. Lakin 1831-ci il aprelin 24-də qraf Paskeviçin adına verilmiş əlahəzrətin buyruğunda rus dövləti tərəfindən Türkiyədən köçürülmüş xristianlar, yəni erməni və yunanlardan ibarət 14 mindən çox ailə (90 min nəfərə qədər) üçün 380 min gümüş pulun ayrıldığı bildirilirdi. İ.Şopenin apardığı siyahıyaalmanın nəticələrinə görə, 1828-1829-cu illər Rusiya-Türkiyə müharibəsindən sonra "erməni vilayəti"nə Türkiyədən 21666 nəfər (3682 ailə) erməni, 324 nəfər (67 ailə) yezidi kürdü köçürülmüşdü.[1]

Ermənilərin Cənubi Qafqazda Rusiyanın müstəmləkəçi maraqlarının təmin edilməsi üçün köçürülməsi ideyasının müəlliflərindən və əsas təşkilatçılarından biri olan rus diplomatı A.S.Qriboyedov yazırdı: "Ermənilərin ilk dəfə buraxıldıqları torpaqlara əbədi sahib duracaqlarından müsəlmanlar içərisində yaranan qorxunu aradan qaldırmaq və (sonuncuların) düşdükləri ağır vəziyyətin uzun sürməyəcəyini bildirməklə, onları sakitləşdirmək məsələsini biz... dəfələrlə götür-qoy etmişik".[2] Lakin çarizmə Cənubi Qafqazda Azərbaycan torpaqları hesabına birbaşa və dərhal müstəqil erməni dövləti yaratmağa mane olan əsas amil yerli türk-müsəlman əhalinin kəskin müqavimət göstərəcəyi qorxusundan daha çox özünün imperialist maraqları idi. Türkmənçay

---

[1] Cümşüdlü F. Ermənilərin əzəli Azərbaycan torpaqlarında yerləşdirilməsi çarizmin mənfur siyasətinin nəticəsi idi / Xalq qəzeti, 2012, 4 noyabr.

[2] Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1989, s. 299

müqaviləsi bağlandıqdan sonra, İrəvan və Naxçıvan xanlıqlarının idarəçiliyi dəyişdirildi. Çar I Nikolayın 1828-ci il martın 21-də verdiyi fərman ilə Irəvan və Naxçıvan xanlıqları əsasında "Erməni vilayəti" yaradıldı. Həmin fərmanda deyilirdi: "İranda bağlanan traktata uyğun olaraq İrandan Rusiyaya birləşdirilmiş İrəvan və Naxçıvan xanlıqları bundan sonra bütün işlərdə "Erməni vilayəti" adlandırılsın və o, bizim titula daxil edilsin. Bu vilayətin quruluşu və onun idarə edilməsi qaydaları haqqında hökumət öz vaxtında lazımi göstərişlər alacaqdır".[1] Bununla da, Rusiya özünün tam nəzarəti altında erməniləri tarixi Azərbaycan torpaqlarında məskunlaşdıraraq onların heç bir tarixi-coğrafi və siyasi-iqtisadi əsası olmayan iddialarının gerçəkləşdirilməsi üçün etnososial zəmin hazırladı.

"Erməni vilayəti" İrəvan və Naxçıvan xanlıqlarının ərazisi əsasında yaradılan müvəqqəti inzibati-idarəetmə vahidi idi. Bu fərmanın imzalanması ilə əvvəlcə yaradılmış İrəvan Müvəqqəti İdarəetmə Komitəsi ləğv edildi. "Erməni vilayəti" heç də erməni dövləti deyildi. Lakin bu tarixi Azərbaycan torpaqlarında İrəvan və Naxçıvan xanlıqlarının ərazisində yaradılacaq gələcək Ermənistanın təməli idi. Çar hökuməti tarixi Azərbaycan torpaqları əsasında "Erməni vilayəti" yaratması ilə I Pyotrdan başlayaraq ermənipərəst siyasətin həyata keçirildiyini təsdiq edirdi.[2]

Əlahiddə Qafqaz korpusunun komandiri, general-adyutant Paskeviçlə Krasovski arasında ziddiyyətlər yarandı. Nerses Aştaraketsinin fırıldaqları və azərbaycanlılara qarşı qəddarlıqları üzə çıxdı. Ona görə də 1828-ci ilin aprelində Krasovski İrəvanı tərk etdi. Arxiyepiskop Nerses isə Rusiyanın maraqlarını əks etdirməyən bir ruhani kimi qiymətləndirildi və tezliklə onun zərərli bir adam kimi "Erməni vilayəti"ndən sürgün edilməsi məqsədəuyğun hesab edildi. Bunun üçün bir

[1] Собрание актов, относящихся к обозрению истории армянского народа, с. 178-179
[2] Hacıyev İ. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri, s. 29-30

bəhanə də tapıldı. Paskeviç onu Bessarabiyadakı erməni yeparxiyasının rəhbəri vəzifəsinə göndərilməsinə nail oldu.[1]

"Erməni vilayəti" inzibati planda iki qəza və bir dairədən ibarət idi. İrəvan və Naxçıvan qəzaları və Ordubad dairəsi. Qəza rəhbərləri kimi Ehsan xan və Şıxəli bəy öz vəzifələrində saxlanılmışdı. Ermənilər isə güman edirdilər ki, Rusiya qoşunlarının vilayətə gəlməsi ilə hər şey onların dediyi kimi olacaq, azərbaycanlı bəylər və xanlar qarşısında olan borclarını daha yerinə yetirməyəcəklər. Qəzalar rayonlara bölünürdü. Rayonların rəhbərliyində mirablar, məliklər, ağalar saxlanıldı. Vilayət idarəsinin rəisi vəzifəsinə A.Çavçavadze təyin edildi. İdarənin üzvlüyünə iki rus hərbiçisi, erməni və azərbaycanlılardan ibarət imtiyazlı təbəqənin nümayəndələri daxil idi. Vilayətin idarəçiliyi, polis, məhkəmə orqanları, maliyyə təsərrüfatı rus hərbiçilərinin, mülki məmurların əlində idi.[2]

1830-cu ildən "Erməni vilayəti"nin idarəsi əslən erməni olan D.O.Bebutova (Bebutyan) həvalə edildi. D.Bebutov fəaliyyətinin ilk dövründən burada ermənilərin mövqelərini gücləndirməyə başladı.[3] Azərbaycanlı xanlara, bəylərə, ağalara qarşı güclü bir təqib kampaniyası başladı, idarəetmə metodunda dəyişiklik edildi. D.Bebutovun təkbaşına rəisliyi gücləndirildi, əvvəllər mövcud olan məşvərətçi orqanlar ləğv edildi.[4]

Ermənilərin təkidi ilə vilayətin yeni statusunun möhkəmləndirilməsi naminə onun gerbi də qəbul olundu. Gerbdə həmin ərazilərin türklərlə bağlılığını xatırladan heç bir əlamət yox idi. Gerbin aşağı hissəsində Ağrı dağının şəkli çəkilmişdi. Onun fonunda tac və Eçmiədzin (Üçmüəzzin) monastırı, gerbin yuxarı hissəsində isə Rusiya

---

[1] Rəhimova A. "Erməni vilayəti"nin tarixşünaslığına dair // "Tarix və onun problemləri" jurnalı. Bakı, 2002, № 3, s. 366
[2] Yenə orada, s. 192
[3] Hacıyev İ. Ermənilərin Naxçıvana qarşı ərazi iddialarının əsassızlığı və tarixi həqiqətlər // Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri (9-10 iyun 2006-cı ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Bakı: Təhsil, 2006, s.41
[4] Süleymanov M. Erməni millətçiliyi və təcəvüzkarlığı tarixindən, s. 367

taxt-tacının emblemi olan ikibaşlı qartal təsvir edilmişdi. Gerb Rusiya çarı tərəfindən 1833-cü il fevral ayının 27-də təsdiq olundu.[1]

Çar hökuməti 1833-cü il iyunun 23-də "Ermәni vilayәti"nin idarәsinin quruluşu haqqında Əsasnamə qəbul etdi. İrəvan vilayətinin inzibati-ərazi bölgüsündə dəyişiklik edildi. Əyalət dörd dairəyə – İrəvan, Şərur, Sürməli və Sərdarabada bölündü. Dairələr də mahallardan ibarət idi. Naxçıvan əyaləti və Ordubad dairəsi əvvəlki inzibati-ərazi bölgüsündə qalırdı.[2] Bu Əsasnamə Naxçıvan əyaləti və Ordubad dairəsində polis idarə sistemini olduğu kimi saxladı. Polismeyster təyin olunan Ehsan xan və Şıxəli bəy bilavasitə "Ermәni vilayәti" rəisinə tabe idi.[3] Məhkəmə sistemində dəyişiklik edildi. Naxçıvan əyalət məhkəməsi yaradıldı.

1836-cı ildə "Rusiyanın erməni kilsəsinin idarə edilməsi haqqında Əsasnamə" qəbul edildi. Əsasnamə erməni ruhanilərinin siyasi hüquqlarını konkret çərçivəyə salırdı və onlara dövlət işlərinə qarışmağı qadağan edirdi.[4] Rusiya ərazisində yaşayan ermənilər yeparxiyada birləşməli idilər. Əsasnaməyə əsasən, Qarabağdakı katolikosluq ləğv olunur və Eçmiədzinin bir yeparxiyasına çevrilirdi. Ermənilər Qarabağ katolikosluğunun müstəqilliyinə son qoydular. Qarabağ yeparxiyası Rusiya ərazisində yaradılan 7 erməni yeparxiyasından birinə çevrildi və tamamilə erməni kilsəsindən asılı vəziyyətə düşdü.[5]

Çar Rusiyasının və onun işğalçılıq siyasətinə xidmət edən ermənilərin Azərbaycan torpaqları olan İrəvan və Naxçıvan əyalətlərini "Ermәni vilayәti" kimi qələmə verməsini təkzibedilməz tarixi faktlar rədd edir. Çunki çar Rusiyasının erməniləri İran və Türkiyədən həmin ərazilərə kütləvi surətdə köçürməsindən əvvəl, sonradan "Ermәni vilayәti" adlandırılan ərazinin əhalisi 107224 nəfər idi. Əhalinin 76,5 fai-

[1] Köçərli T. Yaddan çıxmaz Qarabağ. Nəqşi-cahan Naxçıvan. Bakı: Elm, 1998, s. 78
[2] Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье. СПб.: 1911, с. 448
[3] Piriyev V. Azərbaycanın tarixi-siyasi coğrafiyası. Bakı: Müəllim, 2006, s. 72
[4] Köçərli T. Yaddan çıxmaz Qarabağ. Nəqşi-cahan Naxçıvan, s. 168
[5] Парсамян В.А. История армянского народа (1801-1900). Книга первая, с. 81-82

zini azərbaycanlılar, 24,5 faizini ermənilər təşkil edirdi.[1] Azərbaycanlıların əhalinin etnik tərkibində bu cür üstünlüyü təşkil etməsi həmin torpaqların tarixi Azərbaycan ərazisi olduğunu təsdiq edir.

Rusiya-Qacarlar İranı (1826-28) və Rusiya-Türkiyə (1828-29) müharibələri dövründə və müharibədən sonra Qacarlar İranından və Türkiyədən ermənilərin kütləvi surətdə bu yerlərə köçürülüb gətirilməsinə baxmayaraq, çar hakimiyyət orqanları "Erməni vilayəti" ərazisində demoqrafik vəziyyəti birdən-birə dəyişdirə bilmədi. İrəvan və Naxçıvan xanlıqlarının işğalını həyata keçirmiş rus generalı Paskeviç, hətta ermənilərin köçürülüb gətirilməsindən sonra belə, İrəvan bölgəsi əhalisinin dörddə üç hissəsinin Azərbaycan türkləri olduğunu etiraf edirdi.[2] Fransız mənşəli rus tədqiqatçısı İ.Şopen Paskeviçin tapşırığı ilə 1829-32-ci illərdə "Erməni vilayəti"ndə kameral siyahıyaalma keçirmişdir. Burada kəndlərin və əhalinin sayı göstərilmişdir. "Erməni vilayəti"ndə olan 1125 kəndin 1111-də ancaq Azərbaycan türkləri yaşayırdı.[3] Müharibə nəticəsində vilayətin ərazisində 359 kənd, o cümlədən 310 kənd İrəvan əyalətində, 42 kənd Naxçıvan əyalətində, 6 kənd Ordubad dairəsində xaraba qalmış, əhalisi didərgin düşmüşdü.[4]

İ.Şopenin kameral təsvirinin nəticəsinə görə, burada 164450 nəfər əhali qeydə alınmışdı. Onlardan 81749 nəfər azərbaycanlılar, 25151 nəfər köçürülməyədək burada yaşayan ermənilərdir. Müharibədən sonra buraya Qacarlar İranından 35560 nəfər, Türkiyədən isə 21666 nəfər erməni köçürülmüşdü.[5]

"Erməni vilayəti"nin əyalət və dairələrində gəlmə ermənilərin artımı və yerli azərbaycanlıların çar təzyiqinə davam gətirməyərək Qacarlar İranı və Türkiyə ərazilərinə köçməsi nəticəsində əhalinin

---

[1] Naxçıvan Ensiklopediyası. 2 cilddə. Cild 1, s. 144
[2] Вердиева Х.Ю. Переселенческая политика Российской империи в Северном Азербайджане (XIX-начале XX вв). Баку: Алтай, 1999, с. 888
[3] İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi (AMEA-nın müxbir üzvü Y.Mahmudovun elmi redaktorluğu ilə). Bakı: Çaşıoğlu, 2009, s. 26
[4] Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье, с.510
[5] Мильман А. Политический строй Азербайджана в XIX-начале XX веков, с. 144-145

etnik tərkibindəki fərq ermənilərin xeyrinə dəyişirdi. Məsələn, "Erməni vilayəti"ndə Türkmənçay müqaviləsinə qədər 22,5 min erməni yaşayırdısa, sonrakı iki il ərzində onların sayı az qala üç dəfə artdı və 64, 5 min nəfərə çatdırıldı. Naxçıvan əyalətində ermənilərin sayı 2,1 min nəfərdən 1,7 min nəfərə, Ordubad dairəsində isə 1,8 min nəfərdən 3,3 min nəfərə çatdırıldı.[1] İrəvan əyalətinin 119 kəndinə, Naxçıvan əyalətinin 61 kəndinə, Ordubad dairəsinin 11 kəndinə ermənilər köçürüldü.[2] Buna baxmayaraq, azərbaycanlılar yenə də əhalinin böyük əksəriyyətini təşkil edirdi.

Çar hökuməti Şimali Azərbaycanın işğalı zamanı erməni amilindən bir alət kimi istifadə etdi. Rusiaya hökuməti ermənilərin çar ordusuna göstərdiyi "xidmət" müqabilində onlara işğal olunmuş Azərbaycan torpaqlarında – İrəvan və Naxçıvan xanlıqlarının ərazilərində "Erməni vilayəti" adlandırılan ərazini "bəxşiş" verdi. Bununla ermənilər çap Rusiyasının himayəsi və köməyi ilə Cənubi Qafqazda özlərinə ərazi bazası yaratdılar. Çarizmin bu əyalətlərində, bütövlükdə Şimali Azərbaycanda yaratdığı inzibati-idarə sistemi əhali arasında ciddi narazılıq yaradırdı. Buna görə də çar hökuməti vəziyyəti stabilləşdirmək məqsədilə inzibati-idarə sahəsində islahatlar hazırlamağa başladı.[3]

1837-ci ildə bölgəyə senator Qanın sədrliyi altında komissiya göndərildi. Ona yerlərdə müvafiq məlumatlar toplamaq və idarələr yaratmaq üçün layihə hazırlamaq göstərişi verilmişdi. Lakin komissiya diyarı öyrənmədən müəyyən təkliflər əsasında islahat lahiyəsini hazırladı. Çar I Nikolay 1840-ci il aprelin 10-da "Zaqafqaziya diyarının idarəsi üçün təsisatlar" adlı sənədi imzaladı. Çar hökuməti Cənubi Qafqazın işğalını və burada möhkəmlənməklə bağlı siyasətini həyata keçirdikdən sonra 1840-cı il 10 aprel qanunu ilə "Erməni vilayəti"ni

---

[1] Собрание актов, относящихся к обозрению истории армянского народа. ч. 1-й, с. 230

[2] Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. СПб.: Типография Императорской Академии Наук, 1852, с.

[3] Hacıyev İ. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri, s. 35

ləğv etdi.[1] Cənubi Qafqazın ərazisi müəyyənləşdirildi və onun idarə edilməsi üçün Gürcüstan-İmeretiya quberniyası və Xəzər vilayəti yaradıldı. Quberniya və vilayət qəzalara, qəzalar sahələrə bölünürdü. İrəvan və Naxçıvan ərazisi çar Rusiyasının inzibati bölgüsünə əsasən "qəza" statusu ilə 1841-ci il yanvarın 1-də Gürcüstan-İmeretiya quberniyasının tərkibinə qatıldı. Ordubad vilayəti Naxçıvanla birlikdə Naxçıvan qəzasını əmələ gətirirdi.[2] Naxçıvan qəzası Naxçıvan, Ordubad və Dərələyəz sahəsinə (nahiyəsinə) ayrılırdı.

1840-cı il 10 aprel qanunu yeni idarə sistemi yaratdı, yerli məmurlar vəzifələrindən kənarlaşdırıldı. Bu dəyişikliklər Naxçıvanda da tətbiq edildi, Ehsan xan və Şıxəli bəy vəzifəsindən çıxarıldı. Ehsan xan süvari dəstəsinin komandiri təyin olundu.

Çarizmin Cənubi Qafqazın idarə edilməsi ilə bağlı həyata keçirdiyi islahat özünü doğrultmadı. Əhali bu idarəetmə formasından ciddi narazı idi. Ona görə də çar I Nikolayın göstərişi ilə Qafqazda canişinlik yaradıldı. 1846-cı il 14 dekabr fərmanı verildi. Bu fərmanla Cənubi Qafqazın inzibati-idarə sistemində dəyişiklik edildi. Dörd quberniya – Tiflis, Kutais, Şamaxı və Dərbənd – yaradıldı. İrəvan və Naxçıvan qəzalarının tərkibinə daxil olan Naxçıvan bölgəsi də Tiflis quberniyasına verildi. 1849-cu il iyunun 9-da isə İrəvan quberniyası yaradıldı. Quberniyanın təşkilində 5 qəza müəyyən edildi: İrəvan, Aleksandropol, Novobayazit, Naxçıvan və Ordubad. Naxçıvan qəzası Naxçıvan və Dərələyəz sahələrinə (məntəqələrinə) bölünmüşdü. Ordubad qəzası 1870-ci ildə, Şərur sahəsi də Naxçıvan qəzası ilə birləşdirildi. 1874-cü ildə Şərur-Dərələyəz və Sürməli qəzaları yaradıldı. Beləliklə, 1840-cı ildən yaradılan 1841-ci ildən tətbiq edilən quberniya və qəza inzibati-ərazi bölgüsü müxtəlif dəyişikliklərə məruz qalsa da 1917-ci ilə qədər qalmışdır.

Çar Rusiyası Qafqazı, eləcə də Cənubi Qafqazı işğal etmək üçün müəyyən yol və vasitələrdən istifadə etdi. Belə vasitələrdən biri də er-

---

[1] Naxçıvan Ensiklopediyası. 2 cilddə. Cild 1, s.145
[2] Şahverdiyev Z. Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində, s. 44, 101

mənilər idi. Çarizm ermənilərin "xidmətləri"ni qiymətləndirdi, onlara güzəştlər edildi, dövlətlərini yaratmaq üçün şərait yaratdı, lakin XIX əsrdə bunu reallaşdıra bilmədi. "Erməni vilayəti"ni yaratmaqla qondarma inzibati-ərazi vahidi formalaşdırdı. Bu isə gələcəkdə erməni dövlətinin yaradılmasına hesablanmış bir addım idi.[1]

Yeri gəlmişkən qeyd edək ki, ermənilərin Azərbaycan ərazisində məskunlaşması prosesi 1441-ci ildə erməni katalikosluğunun Kilikiyadan Azərbaycan Qaraqoyunlu dövlətinin ərazisi olan Üçkilsəyə köçürülməsindən sonra başlanmışdır. Ermənilərin İrəvan torpaqlarını hansı vasitələrlə ələ keçirmələri haqqında Matendaranda (əslində, Mətndaran – əlyazma saxlanan yer) qorunan 1687-ci ilə aid tarixi sənəddə göstərilir ki, biz (yəni ermənilər) Azərbaycan türklərinə məxsus olan torpaqları "...Ya satın alır, ya işğal edir, ya sahibinin əlindən çıxarır, ya rüşvət verib alır, ya bəxşiş kimi əldə edir, ya da zorla ələ keçiririk".[2]

Ermənilərin kütləvi köçürülməsinədək Cənubi Qafqazda əhalinin böyük əksəriyyətini azərbaycanlılar təşkil edirdi. Ermənilərin isə bu torpaqlara A.Qriboyedovun təbirincə desək, "ilk dəfə buraxıldıqlarını" o dövrə dair bütün tarixi qaynaqlar yekdilliklə təsdiqləyir. Bu baxımdan erməni tarixçisi V.A.Parsamyanın guya "Rusiyaya birləşdirilənədək Şərqi Ermənistanın (*Qərbi Azərbaycanın – Red.*) 169155 nəfər əhalisinin 57305-i (33,8 faizi) erməni, 84089-u (49,7 faizi) Azərbaycan türkləri, 26911-i (16 faizi) kürd və 850-si (0,5 faizi) digər millətlər idi"[3] fikri, bölgədə azərbaycanlı əhalinin çox olduğunu bildirməsinə rəğmən, reallığı düzgün əks etdirmir. Çünki erməni mənbələrindən başqa heç bir qaynaq həmin dövrdə bölgədə ermənilərin bu qədər kütləvi şəkildə yaşamasını, bir etnos kimi mövcudluğunu təsdiqləmir.

---

[1] Hacıyev İ. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri, s. 36-37
[2] Cümşüdlü F. Ermənilərin əzəli Azərbaycan torpaqlarında yerləşdirilməsi çarizmin mənfur siyasətinin nəticəsi idi, 4 noyabr
[3] Şihaliyev E.A. Türkiye ve Azerbaycan Açısından Ermeni Sorunu. Ankara: 2002, s. 32

Amerika alimi C.Makkarti "Genosid olmuşdurmu?" kitabında yazır ki, İrəvan quberniyasında 1828-ci elədək əhalinin 80 faizi Azərbaycan türkləri (müsəlmanlar) olmuşdur. 1826-1828-ci illər Rusiya ilə Qacarlar İranı arasındakı müharibə zamanı rus ordusunun zəbt etdiyi İrəvan xanlığının yalnız bir hissəsində mövcud olan 737 yaşayış məntəqəsindən cəmi 38-ində ermənilər yaşamış, kəndlərin 25-i qarışıq, qalanı isə yalnız azərbaycanlıların yaşadığı kəndlər olmuşdur. Müharibədə 420 kənd tamamilə dağıdılmış, bu kəndlərin müsəlman əhalisi isə İrana köçməyə məcbur edilmişdir. 1873-cü elədək burada təbii artım və kənardan köçürülənlər hesabına 148 yeni erməni kəndi salınmışdı. 1831-ci illə müqayisədə bu ərazidə Azərbaycan türklərinin yaşadığı kəndlərin sayı 208 vahid azalmışdır.[1] Azərbaycanlıların yaşadığı kəndlərin sayının bu qədər azalması Rusiya ilə Qacarlar İranı arasındakı müharibənin gedişində sonradan erməniləri köçürmək üçün məqsədli şəkildə boşaldılması hesabına baş verdiyi şübhəsizdir.

Belə ki, 1828-ci ildəki köçürmələrdən əvvəl təkcə Naxçıvanda əhalinin 29440 nəfəri və ya 92 faizi azərbaycanlılar idi.[2] İrəvan xanlığı, Naxçıvan xanlığı və Ordubad mahalının ərazisini əhatə edən qondarma "Erməni vilayəti"ndə azərbaycanlıların (müsəlman türklərin) əhalinin ümumi sayındakı xüsusi çəkisi 1828-ci ildə 73,8 faiz idisə, bu rəqəm 1834-1835-ci illərdə 46,2 faizə enmişdi. Naxçıvan əyalətində isə Türkmənçay müqaviləsindən əvvəl 2791 azərbaycanlı ailəsi və 434 erməni ailəsi var idisə, sonradan köçürülənlər hesabına erməni ailələrinin sayı artıb 2719-a (*bu rəqəmə Ordubad mahalına köçürülən 266 erməni ailəsi daxil deyil – Red.*) çatmışdı. 1832-ci il kameral sayımına görə Qarabağ əyalətində 32,4 min (64,8 faiz) azərbaycanlı və 17,4 min (34,8 faiz) erməni qeydə alınmışdı. Başqa sözlə, Qarabağda erməni-

---

[1] Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı: Gəmclik, 1995, s. 74-75

[2] Статическое описание Нахичеванской провинции составленное В.Г. (В.Григоревым). СПб.: Типография Департамента Внешней Торговли, 1833, с. 83

lərin sayı qısa müddətdə 1823-cü ildəki 8,4 faizdən köçürülmələr hesabına dörd dəfə artmışdı.[1]

XIX əsrin əvvəllərində Rusiyanın Qacarlar İranı və Türkiyə ilə müharibələrinin müasiri olmuş S.N.Qlinkanın məlumatları ermənilərin həm geniş miqyaslı, həm də əvvəlcədən planlaşdırılmış və məqsədli olduğu haqqında fikirləri gücləndirir. Hətta belə qənaətə gəlmək də mümkündür ki, köçürülmələr bir sıra hallarda heç də könüllü xarakter daşımamışdır. Həmin qənaətə Qacarlar İranının vəliəhdi Abbas Mirzə ilə 1828-ci ildən başlayaraq kütləvi və aradıcıl xarakter daşıyan ermənilərin köçürülməsinə rəhbərlik edən rus ordusunun erməni əsilli polkovniki Q.Lazarevin (Qazaros Lazaryan) məktublaşmalarını izləməklə gəlmək mümkündür. Lazarev Abbas Mirzəyə yazdığı məktubda Türkmənçay müqaviləsinin 15-ci maddəsinə əsasən həyata keçirilən ermənilərin (*mətndə "xristianların" – Red.*) köçürülməsinin qraf Paskeviç tərəfindən ona tapşırıldığını yazırdı.[2] Hələ 1827-ci ilin mayında general İ.Paskeviçin xüsusi tələbnaməsi əsasında ermənilər arasında nüfuz sahibi olan polkovnik Lazarev köçürülmə işlərinə rəhbərlik etmək üçün Təbrizə komendant təyin edilmişdi. Rus ordularının 1827-ci il oktyabrın 13-də Təbrizə basqını zamanı Lazarevin çağırışından riqqətə gələn ermənilər bu zamandək yaşadıqları dövlətə (Qacarlar İranına) xəyanət edərək Təbrizin darvazalarını rus ordusunun üzünə açmışdılar.

Lazarevin Urmiya şəhərindən köçürülənlərə 1828-ci il martın 30-da etdiyi müraciət köçürülmənin heç də həmişə könüllü olmadığı barədə fikirlərimizi təsdiqləyir: "...Rusiya monarxı köçmək istəyənlərə öz dövlətində etibarlı, sakit və xoşbəxt sığınacaq verir. İrəvan, Naxçıvan və Qarabağ – harada özünüz istəsəniz, siz yalnız onda bir hissəsi xəzinənin xeyrinə becərilən qismən əkilmiş daha məhsuldar torpaqlar alacaqsınız... Orada siz xristianlarla məskunlaşmış yeni vətən tapacaqsınız və daha müqəddəs inancınıza qarşı zülm görməyəcəksiniz...

[1] Azərbaycan tarixi üzrə qaynaqlar, s. 41
[2] Глинка С. Описание армян азербайджанских в пределы России. Баку: Элм, 1990, с. 70

Tələsin! Vaxt qiymətlidir. Tezliklə rus ordusu İran sərhədlərini tərk edəcək, onda sizin köçməyiniz çətinləşəcək və biz sizin təhlükəsizliyiniz üçün cavab vermək imkanında olmayacağıq. Az şeyi və az vaxtı qurban verməklə hər şeyi və həmişəlik alacaqsınız”.[1]

Bu çağırış-müraciət deməyə əsas verir ki, Türkiyədə olduğu kimi, Qacarlar İranında da ermənilərin bir qismi rus məmurları tərəfindən şirnikləndirici vədlərlə aldadılaraq köçürülmüşlər. Lazarev qeyd edirdi ki, o, ermənilərin köçməyə məcbur edilmədiyini göstərmək üçün Qacarlar İranının yüksək rütbəli dövlət məmuru Əsgər xanın oğlu ilə Xoy qalasının 1 ağaclığında (7 verstliyində) Urmiyadan köçən 400 ailəlik qafiləyə yaxınlaşaraq könüllü köçüb-köçmədiklərini soruşduqda ermənilər belə cavab vermişdilər: “Biz Rusiyada ot yeməyi İranın çörəyindən üstün tuturuq”. Lakin burada belə bir sual qarşıya çıxır: ermənilərin hamısı əgər könüllü olaraq köçürülürdülərsə, onda Lazarevin yuxarıdakı şirnikləndirici müraciətinə nə ehtiyac var idi?

Hər halda Lazarevin istər təhrikedici çağırışları, istərsə də əməli fəaliyyəti öz nəticəsini verməkdə idi. Cəmi üç ay yarım ərzində 8 mindən çox erməni ailəsi Araz çayını keçərək torpaqlarımızda məskunlaşdırılmışdı. Köçürülən kasıb erməni ailələrinə kömək etmək üçün rus dövlətinin xəzinəsindən 25 min rubl gümüş pul ayrılmışdı. Lazarev 1828-ci il martın 9-da Paskeviçə yazdığı raportunda qeyd edirdi ki, artıq 4500 erməni ailəsi köçürülərək Araz çayının İran tərəfindəki sahilinə gətirilmişdir.1828-ci il dekabrın 24-də Lazarevin Paskeviçə yazdığı yekun hesabatında göstərilirdi ki, köçürmə işi 1828-ci il fevralın 26-da başlamış və iyunun 11-də başa çatmışdı. Nəticədə, əzəli Azərbaycan torpaqları hesabına yaradılan qondarma erməni vilayətinə 35560 nəfərdən ibarət erməni ailəsi köçürüldü. Lazarevin hesabatından məlum olur ki, üç ay yarım ərzində Qacarlar İranından 8249 xristian-erməni ailəsi İrəvan, Naxçıvan və Qarabağ əyalətinə köçürülmüşdür ki, bu da ən azı 40 min nəfər demək idi. Həmin illərdə Rusiya dövlətinin xəzinəsindən 14 min manat qızıl və 400 min manat gümüş

[1] Глинка С. Описание армян азербайджанских в пределы России, с. 107-111

pul xərclənmişdi. Bununla yanaşı, rus tədqiqatçısı N.Smirnov Türkiyədən 90 min erməninin köçürülərək Azərbaycan ərazilərində məskunlaşdırıldığını yazır.[1]

S.Qlinka yeni yaradılmış İrəvan vilayətində yerləşdirilənlərin sayının 10 min nəfər olduğunu göstərir. 1828-ci ilin aprel ayında Araz çayı sahilində toplaşan 5 min erməni ailəsinin də Qarabağda məskunlaşdırılması nəzərdə tutulmuşdu. Bütövlükdə qısa müddət ərzində, 1828-ci il fevralın 26-dan iyunun 11-nədək Qacarlar İranından köçürülən erməni ailələrinin sayı 8249 idi.[2] Bunlardan 6949 ailə İrəvan və Naxçıvanda, 1300 ailə isə Qarabağ və Zəngəzurda yerləşdirilmişdi.

Hələ Qacarlar İranı ilə müharibənin gedişində Azərbaycan torpaqlarına 18 min erməni ailəsi köçürülmüşdü.[3] Köçürülənlər daha çox xəzinə torpaqlarında yerləşdirilirdi ki, sonradan yerli əhali tərəfindən ciddi təzyiqlərə məruz qalmasınlar. Lazarev məhz "Naxçıvan xanlığında xəzinə torpaqlarının azlığı ucbatından erməni köçkünlərini yol xərcləri üçün pulla təmin edərək onları İrəvan və Qarabağ xanlıqlarına köçməyə razı salmışdı".

Köçürülmənin demoqrafik vəziyyətə təsiri məsələsi və onun siyasi cəhətləri haqqında N.N.Şavrovun fikirləri maraq doğurur: "Biz müstəmləkəçilik fəaliyyətinə Cənubi Qafqazda rus əhalisinin deyil, bizə yad olan xalqların yerləşdirilməsindən başladıq. 1828-ci ildən 1830-cu ilədək biz Cənubi Qafqaza İrandan 40 mindən çox, Türkiyədən 84 mindən çox erməni köçürmüş və onları erməni əhalisinin azlıq təşkil etdiyi Yelizavetpol və İrəvan quberniyalarının ən yaxşı xəzinə torpaqlarında yerləşdirmişik. Yerləşmək üçün onlara 200 min desyatindən çox xəzinə torpağı ayrılmış və onlar üçün müsəlmanlardan 2 milyon manatlıqdan çox xüsusi sahibkar torpağı satın alınmışdı. Yelizavetpol quberniyasının dağlıq hissəsi (yəni Qarabağın dağlıq ərа-

[1] Cümşüdlü F. Ermənilərin əzəli Azərbaycan torpaqlarında yerləşdirilməsi çarizmin mənfur siyasətinin nəticəsi idi, 4 noyabr
[2] Глинка С. Описание армянь азербайджанских в пределы России, с.131
[3] Həsənoğlu H. Dünyanın mənfur milləti: erməni. Bakı: Əbilov, Zeynalov və oğulları, 2003, s. 57

zilləri) və Göyçə gölünün sahili həmin ermənilər tərəfindən məskunlaşdırıldı... Qeyri-rəsmi köçənlərlə birlikdə köçüb gələnlərin ümumi sayı 200 mini ötüb keçdi”.[1]

Ermənilərin əvvəllər İrəvan, xüsusən Qarabağ xanlığına məxsus olmuş ərazilərdə yerləşdirilməsinin əsas səbəblərindən biri də, görünür, xalqımızın etnogenezində iştirak etmiş və hələ də xristian dininə ibadət edən qədim alban nəsillərinin yüz illərdən bəri bu ərazilərdə yaşaması idi. Xristianların daha çox olduğu ərazilər hesabına Rusiya Cənubi Qafqazda Qacarlar İranı və Türkiyə ərazilərinədək bufer zona yaratmaq planını reallaşdırmaq istəyirdi.

1828-1829-cu illər Rusiya-Türkiyə müharibəsindən sonra Qacarlar İranından 23098 nəfər, Türkiyədən 20324 nəfər, cəmi 43422 erməni köçürülərək[2] keçmiş İrəvan və Naxçıvan xanlıqlarının torpaqlarında yerləşdirilmişdi. Sonradan Qacarlar İranından və Türkiyədən daha 130 min nəfərdən çox erməni həmin ərazilərə köçürülmüşdü. Beləliklə, İrəvan xanlığının ərazisində yaşayan azərbaycanlıların əhalinin ümumi sayında xüsusi çəkisi 77,9 faizdən 46,7 faizə endirilmişdi. S.Qlinkanın məlumatına görə, zəbt edilmiş ərazilərə əhalinin gözlənilməyən axını burada buğda qıtlığının yaranmasına səbəb olduğundan Lazarev köçürülənlərin Naxçıvan və İrəvan xanlıqları əvəzinə zəngin taxıl sahələrinə görə daha əlverişli yer olan Qarabağda yerləşdirilməsi üçün əmr almışdı. Buna görə də 1829-cu il Ədirnə müqaviləsindən sonra Rusiyanın təşəbbüsü, polkovnik Q.Lazarevin, general V.Madatovun və digər erməni əsilli rus hərbiçi və məmurlarının aktiv fəaliyyətləri nəticəsində ermənilərin Qacarlar İranından və Türkiyədən Qarabağ ərazisinə kütləvi şəkildə köçürülməsi həyata keçirilmişdi.

Rusların erməniləri Türkiyə və Qacarlar İranı ərazilərindən köçürməsi, onları bu dövlətlərin hökumətlərinə qarşı “müdafiə etməsi”, Osmanlı türklərinə qarşı təhrik etməsi heç də yalnız xristian təəssübkeşliyindən qaynaqlanmırdı. Belə ki, Qafqaza köçürülən ermənilərlə

---

[1] Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье, с. 82-83

[2] Rəhimoğlu (Həsənov) H. Silinməz izlər, sağalmaz yaralar... Bakı: Azərnəşr, 1997, s. 22

bağlı hər hansı problem meydana çıxanda Türkiyədə qalan ermənilərə təzyiq göstərməyi Osmanlılara təbliğ və tövsiyə edən ilk ölkə də elə Rusiyanın özü olurdu. Yalnız 1828-ci ilin iyulunda Qarsın ruslar tərəfindən işğalına yaxından kömək edən ermənilər bu hadisədən sonra çarizmin rəğbətini qazanaraq öz iddialarını ruslara mənimsədə bilmişdilər.[1] Bununla belə, rusların tam şəkildə ermənilərin mənafeyini güddüklərini söyləmək doğru olmazdı. Bunun ən böyük sübutu çarizmin xüsusən XIX əsrin ikinci yarısında yürütdüyü, Rusiya xarici işlər naziri A.Lobanov-Rostovskinin də ifadə etdiyi kimi, “”Rusiya sərhədləri daxilində ermənilərsiz Ermənistan” qurmaq siyasəti idi.

Köçürmələr zamanı çarizm öz iqtisadi maraqlarını da önə çəkməyi unutmurdu. Rusiyanın Qacarlar İranındakı səfiri A.S.Qriboyedov ermənilərin köçürülməsinin iqtisadi faydasını xüsusi vurğulayır və əsas məşğuliyyəti ticarət olan Gürcüstan ermənilərinin yerinə sənətkar və təsərrüfatçı olan Qacarlar İranı ermənilərinin Cənubi Qafqaza köçürülməsinin daha əhəmiyyətli olduğunu söyləyirdi. Eyni zamanda o, general Paskeviçə göndərdiyi məktubda Lazarevin xüsusi erməni birliklərinin qurulması və Qarabağda xüsusi idarəetmə mexanizminin təsis olunması istiqamətindəki fikirlərinin sıxıntı doğura biləcəyini yazırdı.[2] Buradan belə məlum olur ki, ermənilərə özünüidarəetmə imkanı verilməsi və onların siyasi təşkilatlanması çarizmin müstəmləkəçi maraqlarına uyğun gəlmirdi. Şübhəsiz, bu, A.Qriboyedovun rus məmuru kimi düşüncə tərzinin ifadəsi olmaqla bərabər, Rusiyanın köçürmələri daha çox öz maraqlarının təmin edilməsi üçün həyata keçirdiyi fikrinin sübutu da hesab oluna bilər. İ.Paskeviç də öz növbəsində qraf İ.Dibiçə ünvanladığı 3 mart 1828-ci il tarixli raportunda məsləhət görürdü ki, “hər cür imkan yaratmaq lazımdır ki, boşaldılmış və müsəlmanlara məxsus olan torpaqlarda xristianlar, rus imperiyasına sadiq olan ermənilər məskunlaşsınlar”. İrəvan vilayətinin

---

[1] Kop Y. 1828-1829 Osmanlı-Rus Savaşında Ermeniler, s. 556.
[2] İsmayılov F. Dağlık Karabağ Probleminin Jeopolitik Kökleri // Türk Dünyasına Bakışlar. DA Yayıncılık, İstanbul: 2003, s.373

gəlirlər və xəzinə mülkiyyəti idarəsinin rəhbəri işləmiş İ.Şopen isə qeyd edirdi ki, "bizim hökumətimiz gəlmə ermənilərin yerləşdirilməsi ilə sistemli şəkildə məşğul olur". Başqa sözlə desək, çarizm ermənilərin harada və necə məskunlaşdırılması işinə diqqətlə yanaşır və bunun yalnız öz məqsədlərinə müvafiq şəkildə həyata keçirilməsinə ciddi nəzarət edirdi.

1832-ci il siyahıyaalınmasına görə, İrəvan əyalətindəki kəndlərin 463-də müsəlmanlar, 98-də ermənilər, 63-də isə azərbaycanlılar və ermənilər qarışıq yaşayırdılar. Beləliklə, erməni köçkünlər boşaldılmış 126 azərbaycanlı kəndində, azərbaycanlılar yaşadığı 70 kənddə, 22 qarışıq və 47 erməni kəndində məskunlaşmışdı. 1834-cü ilin kameral təsvirinə görə, bütövlükdə İrəvan əyalətində 22336 ailə var idi. Əyalətin əhalisinin 65300 nəfərini kişi cinsi təşkil edirdi. Bunların 29690 nəfəri tatar, yəni Azərbaycan türkləri, 10350 nəfəri əvvəllər köçürülmüş ermənilər və 24255 nəfəri Qacarlar İranı və Türkiyədən yenicə köçürülən yezidi kürdləri, az qismi isə "boşa" adlanan qaraçılar idi.[1]

1836-cı ildə Sankt-Peterburqda D.Zubarev tərəfindən hazırlanıb nəşr edilmiş "Rusiyanın Cənubi Qafqazdakı mülklərinin icmalı"nda göstərilir ki, Ordubad dairəsində kişi cinsindən 2157 nəfər azərbaycanlı, 787 nəfər yerli erməni, 216 nəfər isə İrandan köçürülmüş erməni olmuşdur. Burada verilmiş cədvəldə Ordubad şəhərində 804 ev, 1768 nəfər əhali, o cümlədən 1684 nəfər azərbaycanlı, 84 nəfər erməni olduğu qeyd edilmişdir. Azərbaycana köçürülən 45 min nəfər ermənin 1340 nəfəri (266 ailə) Ordubadda, Aşağı və Yuxarı Aza, Dər, Əlahi, Bist və başqa kəndlərdə yerləşdirilmişdir. Bunlar əsasən İranın Mücənbər, Duxarxana və Təbriz şəhərlərindən köçürülən ermənilər idi.[2]

---

[1] Cümşüdlü F. Ermənilərin əzəli Azərbaycan torpaqlarında yerləşdirilməsi çarizmin mənfur siyasətinin nəticəsi idi, 4 noyabr.

[2] Babayev S. Ermenilerin Azerbaycana Göç Ettirilmesi Siyaseti ve Demografik Değişim "Hayali Ermenistan ve Soykırım Hikayesi" Uluslararası Tarih Sempozyumu Bildirileri. Kars: 05 Haziran 2001, s.23-24

Rusiyaya birləşdirildikdən sonra Naxçıvan xanlığının ərazisində Rusiya Dövlət Senatının 21 mart 1828-ci il tarixli qərarı ilə mahal adlanan idarə sistemi tətbiq edilmişdi. İ.Şopen Naxçıvan mahalının beş əyalətdən ibarət olduğunu göstərir: Əlincəçay, Naxçıvan, Məvazixatun, Xok və Dərələyəz. Ordubad mahalı da eyni sayda əyalətdən təşkil olunmuşdu: Ordubad, Əylis, Dəstə, Biləv və Çənnəb.[1] 1828-ci ilədək əhalisinin 92 faizi azərbaycanlılar olan Naxçıvan əyalətinə təkcə həmin ildə 2551 erməni ailəsi (12755 nəfər) köçürülmüşdü. V.Qriqoryevin məlumatına görə, bunlardan 416 ailə (2080 nəfər) Naxçıvan şəhərində, 1869 ailə (9345 nəfər) Naxçıvan əyalətində, 266 ailə (1330 nəfər) Ordubad dairəsində yerləşdirilmişdi. Naxçıvan əyalətinə köçürülmüş 1869 erməni ailəsinin 1127-si bu əyalətin tabeliyində olan kəndlərdə, 362-si Əlincəçay kəndlərində, 369-u isə Dərələyəz kəndlərində məskunlaşdırılmışdı.[2] Köçürülmələrədək Dərələyəz kəndlərində yaşayan ailələrin ümumi sayı 1000-ə yaxın idi ki, bunların da hamısı azərbaycanlı ailələri idi.

Dərələyəz mahalı rus işğalından sonra iki hissəyə bölünmüşdü: qərbi və şərqi Dərələyəz. Mahalın qərb hissəsinə 9 kənd daxil idi. Bu kəndlərin 346 ailədən ibarət əhalisinin 252-si azərbaycanlı ailələri, 57-si 1828-ci ilədək buraya köçən, 37-si isə sonradan köçürülmüş erməni ailələri idi. Şərqi Dərələyəz 61 kəndi (onlardan 24-ü dağıdılmışdı) əhatə edirdi ki, burada yaşayan 907 ailənin 660-ı azərbaycanlı ailələri, 247-si isə Qacarlar İranından köçürülmüş erməni ailələri idi.[3] Məlumatlardan belə aydın olur ki, 1826-1828-ci illərin Rusiya ilə Qacarlar İranı arasındakı müharibəyədək Dərələyəz mahalında 1283 azərbaycanlı, əvvəlcədən köçürülmüş cəmi 58 erməni ailəsi olmuşdur. 1827-1828-ci illərdə Dərələyəzə Qacarlar İranından və Türkiyədən 731 erməni ailəsi köçürülmüş, bununla da mahalda etnodemoqrafik

---

[1] Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, с.599-634

[2] Статическое описание Нахичеванской провинции, с. 83-84

[3] Naxçıvan tarixinin səhifələri ("Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumunun materialları). Bakı: 1996, s.112

vəziyyət ciddi şəkildə dəyişdirilmişdi. Dərələyəz mahalının qərb hissəsinə 1828-ci ildən sonra Qacarlar İranından 284 erməni ailəsi köçürülmüşdü. Əgər köçürülmələrədək buradakı ailələrin 94,2 faizi azərbaycanlılardan, 5,8 faizi yalnız müharibədən əvvəlki dövrdə köçürülmüş ermənilərdən ibarət idisə, kütləvi köçürülmədən sonra erməni ailələri əhalinin 34 və ya 25,8 faizini təşkil edirdi.[1] Sonuncu rəqəmlərdəki fərqlilik müxtəlif mənbələrdə olan statistik rəqəmlərin uyğun gəlməməsindən qaynaqlanır.

1812-1826-cı illərdə Şimali Azərbaycanda 51530 nəfər, yəni bütün əhalinin cəmi 9,37 faizi qədər erməni yaşayırdı. Bu ermənilərin bir çoxu Rusiya ilə Qacarlar İranı arasındakı müharibələrin gedişində Qacarlar İranından köçənlər idi. Əsrin sonunda, 1897-ci ildə onların sayı xeyli artmışdı. Ərazisinin o qədər də geniş olmamasına baxmayaraq, İrəvan quberniyasına daha çox erməni köçürülmüşdü. Şübhə yoxdur ki, çarizm bununla köçürülən ermənilərin daha çox Azərbaycanın Türkiyə ilə sərhəd bölgələrində yerləşdirilməsində xüsusi məqsəd güdürdü. XX əsrin əvvəllərində Azərbaycanda və Türkiyədə baş verən qanlı hadisələr bu məqsədin nədən ibarət olduğunu əyani şəkildə göstərdi. Digər tərəfdən çarizmin köçürmələrdə Azərbaycana, onun türk-müsəlman xalqına qarşı müstəmləkəçi planları da ermənilərin daha çox bu ərazilərdə məskunlaşdırılması zərurətini diktə edirdi.

İ.Şopen məlumat verir ki, 1832-ci il siyahıya almasının nəticələrinə görə İrəvan vilayətində olan 1111 yaşayış məskənindən cəmi 62 kənddə kütləvi köçürmələrdən əvvəlki dövrdə ermənilər yaşayırdı. Bu kəndlərdən yalnız 14-ünün adı erməni mənşəli olmuşdur. Naxçıvan və Ordubad mahallarında 231 kəndin yalnız 12-sində köçürmələrdən əvvəl ermənilər yaşamışlar. Müharibədən sonra qondarma “erməni vilayəti”ndə mövcud olmuş 752 kənddən 521-i İrəvan əyalətinə, 179-u Naxçıvan əyalətinə, 52-si isə Ordubad dairəsinə aid idi. Ermənilərin müharibə və ondan sonrakı dövrdə kütləvi şəkildə köçürül-

---

[1] Deportasiya və Naxçıvan // NDU-nun “Elmi əsərləri” (xüsusi buraxılış), № 8, 2001, s. 26-27

mədiyi vilayətlərdə 81749 nəfər müsəlman, 25151 nəfər erməni qeydə alınmışdı.[1] Nəzərə alsaq ki, İ.Şopen çar məmuru idi və erməniləri bizim bölgəmizə onun sədaqətlə xidmət etdiyi çar hökuməti köçürmüşdü, bu baxımdan da o, azərbaycanlıların mənafeyinə yox, məhz öz hökumətinin maraqlarına xidmət edirdi, onda onun verdiyi məlumatların obyektivliyinə şübhə ilə yanaşmağa ciddi əsas qalmır.

Digər çar məmurlarının verdiyi məlumatlar da ermənilərin kütləvi köçürülmələrədək Cənubi Qafqazda, o cümlədən Azərbaycan ərazisində nəinki üstünlük təşkil etmədiyini, onların hətta və ümumiyyətlə, regionda ciddi etnodemoqrafik amil kimi mövcudluğunu inkar edir. Yəni tarixi həqiqət elə erməniləri himayə etmiş imperiya məmurlarının özlərinin təqdim etdikləri faktlarla bir daha öz təsdiqini tapır.

Bu baxımdan V.Qriqoryevin ermənilərin bilavasitə Naxçıvana köçürülmələri barədəki məlumatları maraq doğurur. İlk kütləvi köçürmələr dövründə (1804-1813-cü illər Rusiya ilə Qacarlar İranı arasındakı müharibədən dərhal sonra) Naxçıvana 13 min nəfərədək erməni köçürülməsi də nəzərə alınmaqla, 1832-ci ildə əyalətdə əhalinin ümumi sayı 45086 nəfərə çatmışdı ki, bundan da 28791 nəfəri və ya 64 faizi azərbaycanlı, 16295 nəfəri və ya 36 faizi erməni idi.[2] V.Qriqoryev Naxçıvan mahalına köçürülən 10 mindən artıq (2551 ailə) ermənินin 4459 kişi və 6206 qadından ibarət olduğu, habelə onların yerləşdirildikləri yaşayış məntəqələri barədə məlumat verir[3]:

Ermənilərin Cənubi Qafqaza, o cümlədən Azərbaycana Qacarlar İranından köçürülməsinə rəhbərlik edən Lazarev və Türkiyədən köçürülməni təşkil edən general Pankratev prosesin kütləviliyini bütün vasitələrlə təmin etməyə çalışırdılar. Rusların öz qəsbkar planlarını səylə həyata keçirmələrinə baxmayaraq, xüsusən Türkiyə ərazisindən könüllü köçürülən erməni ailələrinin bəziləri elə yolun yarısında ikən

[1] Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, с.599-631
[2] Deportasiya və Naxçıvan, s.27
[3] Статическое описание Нахичеванской провинции, с.164,177

geri dönürdü. Belə olduqda çar məmurları öz daimi yaşayış yerlərini tərk etmək istəməyən erməni ailələrini müxtəlif təxribatlara çəkərək yerli hakim dairələrlə üz-üzə qoyur, ermənilərin osmanlılar və iranlılar tərəfindən zülmə məruz qaldıqları görüntüsünü yaratmağa çalışırdılar.

*Cədvəl 1*

*V.Qriqoryevə görə köçürülən ermənilərin məskunlaşdırıldıqları yaşayış məntəqələri*

| Yaşayış məntəqəsi | Köçürülən ailələrin sayı | Köçürülənlərin sayı (nəfərlə) | Kişilər | Qadınlar |
|---|---|---|---|---|
| Naxçıvan mahalına, cəmi | 2285 | 9449 | 3970 | 5479 |
| Naxçıvan şəhərinə | 416 | - | - | - |
| Əbrəqunus kəndinə | 36 | 86 | 60 | 26 |
| Bənəniyar kəndinə | 43 | 260 | 103 | 157 |
| Qazançı kəndinə | 22 | 101 | 44 | 57 |
| Xəlilli kəndinə | 24 | 98 | 31 | 67 |
| Kültəpə kəndinə | 70 | 262 | 86 | 176 |
| Nehrəm kəndinə | 208 | 943 | 398 | 545 |
| Ayrınc kəndinə | 31 | 121 | 51 | 70 |
| Qarababa kəndinə | 24 | 93 | 34 | 59 |
| Külüs kəndinə | 13 | 50 | 20 | 30 |
| Nursu kəndinə | 30 | 124 | 50 | 74 |
| Şahbuz kəndinə | 20 | 75 | 31 | 44 |
| Məzrə kəndinə | 22 | 74 | 32 | 42 |
| Ordubad mahalına, cəmi | 266 | 1216 | 489 | 727 |
| Əylis kəndinə | 37 | 139 | 53 | 86 |
| Aza, Dər, Dizə və Dırnıs kəndlərinə | 182 | 554 | 354 | 200 |

Nəticədə 1828-ci il Türkmənçay müqaviləsindən sonrakı ilk üç ay yarım ərzində Qacarlar İranından 8249 ailə, yəni 41245 nəfər Şimali Azərbaycan torpaqlarına köçürülmüşdüsə, Şərqi Anadoludan kö-

çürülənlərin sayı 100 mini ötmüşdü. Xüsusən Ərzurumdan ermənilərin hamısı köçürülmüşdü. Ərzurumdakı 42320 evdən (şəhərdə yaşayan müsəlmanların cəmi sayı 130 min nəfər idi) 21150 nəfər erməni köçmüşdü. Ərzuruma aid bu rəqəmə Qarsdan köçənləri də əlavə etsək, təkcə bu iki şəhərdən köçürülən ermənilərin sayı 70 minə yaxın idi.[1] Ermənilər üçün ruslar Naxçıvan, İrəvan və Qarabağda yer ayırmışdılar. 1828-1829-cu illər Rusiya-Türkiyə müharibəsində ruslara böyük kömək göstərdikləri üçün osmanlı türklərinin intiqam alacağından çəkinən Ərzurum yepiskopu Karapet Ərzurum, Qars və Bəyazitdən 90 min ermənini də öz arxasınca Rusiyaya aparmışdı. Bunlar Gümrü (Aleksandropol) və Gürcüstanda məskunlaşdılar.[2]

"Şərq məsələsi"nin tərkib hissəsi kimi, Osmanlı və Qacarlar İranı dövlətlərinin ərazilərindəki xristianların (baxmayaraq ki, köçürülmə əsasən erməniləri əhatə etmişdi) vəziyyətinin guya ağır olduğunu bəhanə edən Rusiya öz planlarını dini təəssübkeşlik pərdəsi altında reallaşdırmağa çalışırdı. Həmin dövrdə "Avropa jandarmı" rolunu oynayan çar Rusiyası bu missiyanı əslində Cənubi Qafqazda, xüsusən Azərbaycanda da həyata keçirməkdə idi. Bölgənin həm xammalla zəngin olduğunu, həm də strateji əhəmiyyətini nəzərə alan çarizm cənub sərhədlərində müsəlman türklərin yaşamasını özünün təhlükəsizliyi və gələcək imperialist mənafeləri baxımından real təhlükə hesab edirdi. Təsadüfi deyildir ki, sonrakı uzun illər ərzində Azərbaycanın Rusiyanın tərkibində olmasına baxmayaraq çarizm dövründə məhz türk və müsəlman olduqlarına görə azərbaycanlılar etibarsız, güvənilə bilməyəcək xalq kimi hərbi xidmətə, ordu sıralarına çağırılmırdılar.

Digər tərəfdən erməniləri Azərbaycana köçürməklə çar Rusiyası uzun illər müharibə apardığı iki müsəlman dövləti – Türkiyə və Qacarlar İranı ilə öz sərhədləri arasında müsəlman azərbaycanlılara nisbətən onlara görə daha etibarlı xalq olan ermənilərin yaşadığı bufer

---

[1] Kop Y. 1828-1829 Osmanlı-Rus Savaşında Ermeniler, s. 562

[2] Uras E. Tarihte Ermeniler ve Ermeni Meselesi. İstanbul: Belge Yayınları, 1987, CCXLVI, s. 623-624

zona yaratmış olurdu. Bunu A.Qriboyedovun Türkmənçay müqaviləsinə Rusiya tərəfindən imza atmış Qafqaz canişini qraf İ.Paskeviçə göndərdiyi "Ermənilərin vilayətlərimizə köç etmələrinə dair məlumat"ı da sübut edir. Köçürülmə şərtlərinin tam yerinə yetirilməməsindən narahatlıq keçirən Rusiya səfiri ermənilərin geri qayıdacağından ehtiyatlanırdı. O, köçürülmələr üçün çar hökumətinin ayırdığı maddi vəsaitin çox dağınıq və az paylandığını, ermənilərin ehtiyacını ödəyəcək qədər buğda tədarük edilmədiyini, növbəti ildə əkiləcək toxumluq buğdanın alınmamasını çatışmazlıq hesab edir və ümid etdiyini bildirirdi ki, əgər verilən 30 min gümüş rubl və 2 min qızıl pul, daha diqqətli şəkildə xərclənərsə və dövlət qısa bir zamanda iki dəfə eyni miqdarda vəsait ayırarsa, onda köçürülənlərin rifahı təmin ediləcəkdir.[1] Bununla da köçürülən ermənilərin arzuolunmaz geri dönüşlərinin qarşısı alınmış olacaqdı.

Lazarevin Paskeviçə göndərdiyi 24 dekabr 1829-cu il tarixli "Hesabat"ı da bu baxımdan diqqəti cəlb edir. Hesabatın müəllifi qeyd edir ki, yerli hakim dairələrin Rusiyaya köçməməsi üçün ermənilərə təzyiq etdiyini görəndə "mənim tərəfimdən köçürülmə prosesi sürətləndirildi: köç dəstələri fasiləsiz olaraq biri-digərini əvəz etdi və Azərbaycan vilayətinin (*Cənubi Azərbaycanın – Red.*) əhalisi nəzərəçarpacaq dərəcədə azaldı. 5000 ailə Araza yaxınlaşanda – digərlərinə pul yardımı verilmişdi və onlar bunu artıq xərcləmişdilər – mən erməni vilayəti hakimindən ilkin bildiriş aldım, o, məni xəbərdar edirdi ki, çörək çatışmadığı üçün köçürülənlərə lazımi köməyi edə bilmir və xahiş edirdi ki, onları taxıl biçininədək burada saxlayım". Lazarev daha sonra bildirir ki, ərzaq sarıdan korluq çəkdikləri üçün köçmək istəməyənlərə könüllü köçənlərə ayrılan pul vəsaiti hesabına yardım etmişdir ki, onlar da köçsünlər.[2] Bu məlumatlar köçürülmə prosesinin

---

[1] Hüseyin Ş. Ermeniler ve Karabağ // Ermeni Araştırmaları. 1. Türkiye Kongresi Bildirileri. II cilt. Avrasya Stratejik Araştırmalar Merkezi, Ermeni Araştırmaları Enstitüsü Yayınları, Ankara: 2003, s.313-314

[2] Глинка С. Описание армянь азербайджанских в пределы России, с. 127-128

əvvəlcədən planlı şəkildə Rusiyanın imperialist maraqlarına uyğun təşkil olunduğu və heç də həmişə köçənlərin könüllülüyü prinsipinə əsaslanmadığı fikirlərinin doğru olduğunu sübut edir. Belə ki, Lazarevin Təbrizə komendant təyin edilməsinədək köçürülmələr pərakəndə xarakter daşımışdı.

Köçürülən ermənilər yerlərdə razılıqla qarşılanmırdı. Doğrudur, onların yerləşdirildikləri ərazilərdə ilk dövrlərdə "torpaq sahibi olan müsəlmanların çoxu yaylaqlarda olduğundan, başqa dindən olan bu yadelli köçkünlərlə qarşılaşmamış"[1] olsalar da, başqa sözlə, həm də bu səbəbdən ilk vaxtlarda yerli əhali ilə köçürülən ermənilər arasında ciddi münaqişələr olmasa da, ümumilikdə köçürülmə prosesi azərbaycanlı əhalinin kəskin müqaviməti ilə qarşılanırdı. Çarizmin bu zorakı və mənfur müstəmləkəçilik siyasəti Naxçıvanda da narahatlıqla qarşılanmış, əhalinin böyük narazılığına səbəb olmuşdu. Nehrəm kəndinin camaatı buna qəti etirazını bildirmiş və öz kəndlərinə aid torpaqlarda ermənilərə yer verməmişdilər. Nəticədə onların Araz çayı sahilindəki bağ massivləri (kövşənləri) zorla alınaraq ermənilərə verilmiş, sonuncular isə orada Təzəkənd adlı yeni yaşayış məskəni (kənd) salıb məskunlaşmışdı. Nehrəmin yuxarı hissəsindən təqribən 5 km aralı olan Güznüt kəndi də belə salınmışdı. Yerli azərbaycanlı əhalinin ermənilərin zorla məskunlaşdırılmasına qarşı narazılığı halları Kültəpə və Bənəniyar kəndlərində, Naxçıvan şəhərində də olmuşdu.[2]

1836-cı ildə çar hökumətinin erməni qriqorian kilsəsi haqqında qərarına görə alban patriarxlığı-katalikosluğu ləğv olundu, onun bütün əmlakı və arxivi qriqorian kilsəsinə verildi. 1909-1910-cu illərdə rus sinodu Üçmüəzzin erməni qriqorian sinoduna və İrəvan erməni qriqorian konsistoriyasına, yəni dini inzibati idarəsinə ucazə verdi ki, tabeliyində olan yeparxiyaların köhnə arxiv sənədlərini məhv etsinlər. Köhnəlmiş erməni arxivləri ilə birlikdə alban kilsəsinin arxivləri də

---

[1] Hüseyin Ş. Ermeniler ve Karabağ, s.313
[2] Azərbaycan tarixində Naxçıvan (tarixi oçerklər). Bakı: 1996, s. 61-62

məhv edildi.[1] Nəzərə alsaq ki, orta əsrlər tariximizin erkən dövrünə aid bir çox yazılı tarixi sənədlər məhz alban kilsəsində qorunub saxlanılırdı, onda bu vandalizm aksiyasının da xüsusi məqsədlə həyata keçirildiyi şübhə doğurmur. Azərbaycan tarixinin böyük bir mərhələsinə dair qiymətli mənbə olan sənədlərin məhvi ermənilərin sonrakı və hazırkı saxtakarlıqlarının geniş vüsət alması üçün bir vəsilə olmuşdur.

XIX əsrin 40-cı illərində çar Rusiyası Cənubi Qafqaza dair bir sıra sahələri əhatə edən islahatlar keçirdi. Müstəmləkəçi rejimin "parçala və hökm sür" prinsipinə əsaslanan bu islahatlar nəticəsində Gəncə, Balakən, İrəvan və Naxçıvan qəzaları digər Azərbaycan torpaqlarından (bu torğaqlar Xəzər vilayətinin tərkibinə daxil edildi) ayrılaraq Gürcüstan-İmeretiya quberniyasının tərkibinə daxil edildi. Lakin bu inzibati idarə sistemi özünü doğrultmadığından 1844-cü ildə Qafqaz canuişinliyi təsis edildi. 1849-cu ildə İrəvan quberniyasının yaradılması ilə, 1813-cü və 1828-ci illərdən sonra, bu dəfə də Şimali Azərbaycan torpaqları Rusiyanın tərkibində növbəti parçalanmaya məruz qaldı. İrəvan, Naxçıvan və Ordubad qəzaları İrəvan quberniyasının tərkibinə daxil edildi. Bununla çarizm özünün Türkiyə ilə sərhədləri boyu xristian ermənilərdən təşkil edilməsi nəzərdə tutulan bölgə yaradılması planının həyata keçirilməsi istiqamətində mühüm bir addım atdı. Lakin bu dövrdə də, ümumiyyətlə, bütün XIX əsr boyu İrəvan quberniyasının əhalisinin tərkibindəki mütləq etnik çoxluq azərbaycanlılara məxsus olmuşdur.

1877-1878-ci illər rus-türk müharibəsində qələbə qazanan və Türkiyənin şərq torpaqlarını ələ keçirən ruslar Qars vilayətinə təqribən 50 min, Sürməli qəzasına isə 35 min erməni köçürdülər. 1890-cı ildə Ərzurumda, 1892-1893-cü illərdə İstanbul, Kayseri, Yozqat və Çorumda, 1894-cü ildə Sasunda, 1895-ci ildə Zeytunda, 1896-cı ildə

[1] Məmmədova F. Azərbaycanın siyasi tarixi və tarixi coğrafiyası. Bakı: Azərnəşr, 1993, s. 227-228

Vanda[1] və digər yerlərdə ermənilərin törətdikləri qanlı cinayətlərin qarşısının Osmanlı dövləti tərəfindən alınmasından sonra Azərbaycana ermənilərin kütləvi köçürülməsinin yeni mərhələsi başladı.

Rus ordusunun general-adyutantı, 1884-1896-cı illərdə Qafqaz hərbi dairəsi qoşunlarının komandanı olmuş S.A.Şeremetyevin 1896-cı ilə aid olan məlumatına görə Cənubi Qafqazdakı ermənilərin sayı 900 min nəfərdir. M.Neyman "Ermənilər, onların tarixi və müasir vəziyyəti" (Sankt-Peterburq, 1899) kitabında yazır ki, Rusiyada 1 milyon 200 min erməni məskən salmışdır ki, onlardan da 985460 nəfəri Cənubi Qafqazda yaşayır. Lakin bütün XIX əsr boyu davam etmiş kütləvi köçürmələrdən sonra belə ermənilər Qafqazda yaşayan millətlər arasında sayca yalnız dördüncü yeri tuturdu. Belə ki, Qafqazda ruslar 2286738, gürcülər 1201256, azərbaycanlılar 1139659 nəfər idi.[2] N.N.Şavrov 1908-ci ildə Cənubi Qafqazdakı demoqrafik vəziyyət barədə yazırdı ki, "indi Cənubi Qafqazda yaşayan 1 milyon 300 min erməninin 1 milyondan çoxu məmləkətin yerli əhalisinə mənsub olmayıb, bizim tərəfimizdən yerləşdirilən İran və Türkiyə erməniləridir. Qalmış 200-250 min erməni isə xristianlaşmış albanlardır".[3]

S.Şeremetyev və M.Neymanla N.Şavrovun verdiyi məlumatları müqayisə etdikdə belə aydın olur ki, təkcə 1896-1908-ci illər ərzində Cənubi Qafqaza 300-350 min erməni köçürülmüşdür. 1895-1896-cı illərdə təxminən 60 min erməni Qafqaza köçürülərək burada məskunlaşdırılmışdı. Birinci Dünya müharibəsi zamanı Şərqi Anadoludan köçürülən 400 min erməninin əvəzinə eyni sayda müsəlman (azərbaycanlı) Cənubi Qafqazdan Türkiyəyə köçürülmüşdü. 1820-ci ildən 1920-ci ilədək Türkiyədən Rusiyaya 600 minə qədər erməni, Rusiyadan Türkiyəyə isə 2 milyon müsəlman əhali köçürülmüşdü.[4]

---

[1] Allegations Armeniennes et Faits Historiques. Centre de Recherches Strategiques, Ankara: 1998, pp. 22-23

[2] Didərginlər. Bakı: Gənclik, 1990, s.58

[3] Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье, с.63

[4] Deportasiya. Toplu. Bakı: Azərbaycan Ensiklopediyası Nəşriyyat-Poliqrafiya Birliyi, 1998, s.163

Bu dövrdə Naxçıvan əyalətində də əhalinin milli-demoqrafik tərkibində dəyişkənliklər olmuşdu. XIX əsr boyu davam etmiş köçürmələr nəticəsində 1897-ci ildə əyalətdə yaşayan 136536 nəfərdən 90397-si (66,3 faiz) azərbaycanlı, 44604-ü (32,7 faiz) erməni olmuşdur.[1] Bu isə o deməkdir ki, Naxçıvanda əhalinin təbii artımına görə azərbaycanlıların sayı 1828-ci ildəkinə nisbətən 3 dəfə artsa da, köçürülmələr hesabına ermənilərin 17 dəfədən çox artırılması yerli azərbaycanlıların əhalinin ümumi sayındakı çəki payının xeyli azalmasına səbəb olmuşdu. Bununla belə, azərbaycanlıların sayı yenə də ermənilərdən 2 dəfədən də çox idi. 1905-1907-ci illərdə ermənilər tərəfindən törədilən azərbaycanlıların soyqırımı, eyni zamanda Türkiyədən erməni köçünün davam etməsi əhalinin ümumi sayında azərbaycanlıların azalması, ermənilərin isə artması ilə nəticələnmişdi. Həmin dövrə dair Naxçıvanda əhalinin say tərkibinə dair ayrı-ayrı mənbələrin verdiyi statistik rəqəmlər bir-birindən müəyyən dərəcədə fərqlənsə də, bu fərqlər prinsipial xarakter daşımır. Bu fərqlərdən danışarkən nəzərə almaq lazımdır ki, XIX yüzillik ərzində ermənilərin bölgəmizə köçürülməsi fasiləsiz xarakter daşımışdır. Bundan başqa, bir çox Türkiyə tədqiqatçıları qeyd edir ki, köçürülən erməni ailələrinin bəziləri müxtəlif bəhanələrlə və ya gizli şəkildə öz yerlərinə qayıdırdı. Bu da demoqrafik statistikadakı mütəmadi dəyişkənliyə səbəb olurdu. Cənubi Qafqazda məskunlaşdırılan ermənilərin bir qisminin dərhal, bir qisminin isə bir qədər gec çar təbəəliyini qəbul etməsi, digər bir qrupun isə geri qayıtmaq ümidi ilə təbəəlikdən imtina etməsi də əhali statistikasındakı müxtəlif rəqəmlərin ortaya çıxmasına təsir göstərən səbəblərdən idi.

Aşağıdakı cədvəldə XIX əsrin I rübünün sonlarından XX əsrin əvvəllərinədək olan dövrə aid müxtəlif mənbələrdəki əhali statistikasına dair ümumiləşmiş rəqəmlər ifadə olunmuşdur:

[1] NMRDA (Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi), f. 314, siy. 1, iş 23, v.22

*Cədvəl 2*

*1828-1909-cu illərdə Naxçıvanda əhalinin etnik tərkibinin dəyişilməsi*

| Naxçıvan əhalisi / illər üzrə | azərbaycanlılar | ermənilər |
|---|---|---|
| 1828 | 29440 (92%) | 2240 (7%) |
| 1832 | 28791 (63,6%) | 16295 (36,2%) |
| 1897 | 90397 (66,3%) | 44604 (32,7%) |
| 1909 | 59060 (56,7%) | 44438 (42,6%) |

XX yüzilliyin əvvəllərinə dair arxiv sənədlərinə görə, Naxçıvan və Şərur-Dərələyəz qəzalarının birlikdə əhalisi 182669 nəfərdir ki, bundan da 115258 nəfəri (63,1 faiz) Azərbaycan türkləri, 67121 nəfəri (36,7 faiz) ermənilərdir. Bu dövrdə Naxçıvan qəzasında yaşayan 104398 nəfərin 59060-ı (56,6 faiz) azərbaycanlı, 44438-i (42,6 faiz) erməni, Şərur-Dərələyəz qəzasında yaşayan 78271 nəfərin 54242-si (69,3 faizi) azərbaycanlı, 22693-ü (29 faiz) erməni olmuşdur.[1]

Dövrə dair etnodemoqrafik statistikanın təhlili Naxçıvanda 1897-ci ilə nisbətən 1909-cu ildə azərbaycanlıların sayının 31279 nəfər (34,6 faiz) azaldığını göstərir. Həmin illər üzrə əhalinin təbii artımı da nəzərə alınarsa, 1905-1907-ci illər soyqırımı nəticəsində təkcə Naxçıvanda azərbaycanlı əhalinin sayının təxminən iki dəfə azaldığını söyləmək mümkündür. Həmin illərdə ermənilərin qanlı cinayətləri qırğınlarla yanaşı, yerli əhalinin bir qisminin öz yurdlarını tərk etməsinə də səbəb olmuşdu.

XX əsrin əvvəlində Naxçıvan qəzasında mövcud olan 170 kənddən 130-da azərbaycanlılar, 40-da isə tarixən bu ərazilərə yerləşdirilmiş ermənilər yaşayırdılar. Şərur-Dərələyəz qəzasına gəldikdə isə həmin vaxt qəzada 163 kənd mövcud olmuşdur ki, onlardan 109-u Dərə-

[1] NMRDA, f. 314, siy. 5, iş 9, v. 20,22

ləyəz nahiyəsində, 54-ü isə Şərur nahiyəsində olmuşdur. Şərur nahiyəsində yalnız 6 kənddə, Dərələyəz nahiyəsində isə 23 kənddə ermənilər yaşayırdı.[1]

1914-1918-ci illərdə Birinci Dünya müharibəsi zamanı Rusiyanın Şərq cəbhəsində uğur qazanmaq cəhdi Türkiyədə erməni fitnəkarlığının kütləviləşməsi ilə müşayiət olunurdu. Lakin Şərqi Anadoluda ermənilərin növbəti qanlı planlarının qarşısı alındıqdan sonra onların Qafqaza kütləvi köçürülməsinin növbəti mərhələsi başlandı. Mənbələr bu zaman köçənlərin sayını 300-350 min nəfər arasında müxtəlif rəqəmlərlə ifadə edir (həmin qaçqınların bir hissəsi 1921-ci ildə Naxçıvana köçürülmüşdü).[2] Bundan sonra daşnak liderləri Şərqi Anadoludan ordularını çıxararaq Azərbaycan torpaqlarının qəsbinə yönəltdilər. O dövrdə erməni nəşri olan "Nezavisimaya Armeniya" qəzeti yazırdı: "Erməni daşnaklarının ərazi əldə etmək istəyi çox böyük idi. Ona görə də onlar öz nizami ordularını Zəngəzura göndərərək könüllüləri inandırmağa çalışır, əhalini qırır və beləcə öz sıralarını genişləndirməyə can atırdılar".[3]

1918-1920-ci illərdə ermənilərin Naxçıvanda törətdiyi soyqırımdan əvvəl də burada etnik üstünlük yerli azərbaycanlı əhaliyə məxsus olmuşdur. 1916-cı il yanvarın 1-nə olan məlumatlara görə, Naxçıvan qəzasında 81708 nəfər (59 faiz) azərbaycanlı, 54209 nəfər (40 faiz) erməni yaşayırdı. Bu rəqəmlər Şərur-Dərələyəz qəzası üzrə müvafiq olaraq 60183 (66,7 faiz) və 29165 (32,3 faiz) idi. 1917-ci ildə həmin rəqəmlər azərbaycanlı əhalinin təbii artımı, ermənilərin isə yerdəyişməsi və azalması hesabına bir qədər dəyişmişdi. Bu zaman Naxçıvan qəzasında əhalinin 83276 nəfəri (59,4 faiz) Azərbaycan türkləri, 50193 nəfəri (39,6 faiz) erməni idisə, Şərur-Dərələyəz qəzasında bu

[1]Mustafa N. Naxçıvan və Şərur-Dərələyəzdə erməni qırğınları. 4 sentyabr 2016-cı il / www.yknews.az
[2] NMRDA, f. 314, siy. 5, iş 17, v.34
[3] İsmayılov F. Dağlık Karabağ Probleminin Jeopolitik Kökleri, s. 374

say müvafiq olaraq 82607 (68 faiz) və 31999 (31 faiz), Zəngəzur qəzasında isə 123085 nəfər (55 faiz) və 99257 (44,3 faiz) idi.[1]

Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyinin əməkdaşı A.Şepotyev "Öz müqəddəratını təyin edən azərbaycanlıların hüquqları olan mübahisəli Qafqaz əraziləri haqqında məruzə"sində Naxçıvan və Şərur-Dərələyəz qəzalarında, eləcə də İrəvan qəzasının həmin qəzalarla qonşu olan cənub torpaqlarında yaşayan əhalinin 61 faizinin azərbaycanlılar, 38 faizinin isə ermənilərdən ibarət olduğunu yazırdı. Məruzədən belə aydın olur ki, ermənilər həm şəhərlərdə cəmləşmişlər, həm də kəndlərdə azərbaycanlı əhali ilə qarışıq halda yaşayırlar. Bu sənəddə də ermənilərin Naxçıvan qəzasında əhalinin 39,6 faizini, Şərur-Dərələyəz qəzasında 31 faizini təşkil etdiyi göstərilir.[2]

Statistik məlumatların müqayisəli təhlili 1915-1917-ci illərdə bəzi qəzalarda ermənilərin sayının artdığını, digərlərində isə azaldığını göstərir. Əldə edilən məlumatlardan bu nəticəyə gəlmək mümkündür ki, ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımın 1918-1920-ci illəri əhatə edən ikinci mərhələsinin başlanması ərəfəsində bütün qəzalarda əhalinin böyük çoxluğunun Azərbaycan türklərinə mənsub olduğu şübhəsizdir. Belə ki, Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin sədri Ə.Topçubaşovun Paris sülh konfransının sədrinə və Antanta bloku nümayəndələrinə təqdim etdiyi 16-19 avqust 1919-cu il tarixli etiraz notasında da Naxçıvan qəzasında əhalinin 62,5 faizinin azərbaycanlılardan, 36,7 faizinin ermənilərdən ibarət olduğu bildirilirdi. Şərur-Dərələyəz qəzası üzrə notada əksini tapmış həmin rəqəmlər müvafiq olaraq 72,3 faiz və 27,1 faiz idi.[3]

Beləliklə, bəhs edilən dövrə dair rəsmi statistik məlumatların və habelə müxtəlif mənbələrdə ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi, onların bölgədəki qanlı əməlləri, Azərbaycan türklərinə

---

[1] Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı: BDU nəşriyyatı, 1998, s.48-49
[2] Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f.. 970, siy. 1, 227, v.12
[3] ARDA, f. 970, siy. 1, iş 142, v. 61

qarşı etnik təmizləmə, deportasiya və soyqırımı siyasətinin nəticələrinin təhlili aydın şəkildə göstərir ki, ermənilərin Cənubi Qafqazda məskunlaşdırılması prosesi uzaq hədəflərə və uzunmüddətli planlara hesablanmış siyasətin tərkib hissəsi olmuşdur. Məhz bu səbəbdən XIX əsrin ikinci rübündən vüsət alan erməni köçürülmələri Azərbaycan əhalisinin etmik tərkibində ciddi dəyişikliyə səbəb olmuşdu. Eyni zamanda, bu köçürülmələr onun əsas məqsədini də təmin etdi – XX yüzilliyin əvvəllərində Azərbaycanda və onun Naxçıvan bölgəsində çarizmin mənafeyinə uyğun ziddiyyətli milli münasibətlərin formalaşmasına zəmin hazırladı. Köçürülmələr nəticəsində tarixi Azərbaycan torpaqlarının bir hissəsinə yiyələnmək fürsəti əldə edən ermənilər azərbaycanlılara qarşı soyqırım siyasəti yürüdərək bütün milli-mənəvi sərvətlərimizi də, hətta tarixi keçmişimizi belə saxtalaşdırma yolu ilə ələ keçirmək iddiasına da düşdülər.

## 1.2. Ermənilərin Naxçıvan əhalisinə qarşı soyqırımlarının başlanması (1905-1907-ci illər)

XVIII-XIX əsrlərdə çar Rusiyası Türkiyə və eləcə də İranla apardığı müharibələrin nəticəsi olaraq öz məqsədinə nail oldu: həm Qara dənizdə çarizmin nüfuzu bərqərar edildi, həm də Qafqaz rusların hakimiyyəti altına düşdü. Rusiya işğal etdiyi bölgələrdə hər hansı dövlətin, o cümlədən erməni dövlətinin yaranmasında maraqlı olmasa da, İrandan və Türkiyədən Qafqaza köçürdüyü ermənilərdən öz imperialist məqsədləri naminə yararlanmağa çalışırdı. Elə XX əsrin əvvələrindən başlayaraq Cənubi Qafqazda çarizmin təhriki ilə milli ədavət mütəmadi qızışdırılmağa, bölgədə uzunmüddətli etnik qarşıdurma yaradılmağa başlandı ki, bu da ötən əsr boyu vaxtaşırı olaraq özünün faciəvi nəticələrini göstərdi.

XIX əsrin ikinci yarısında ermənilərin Şərqi Anadoluda və Cənubi Azərbaycanda törətdikləri qanlı cinayətlərdə Cənubi Qafqaza, o

cümlədən Naxçıvana köçürülmüş ermənilər fəal iştirak etməkdə idilər. M.M.Nəvvab hələ XIX əsrin ortalarından ermənilərin müsəlmanlara qarşı həqarətlə davrandıqlarını, XX əsrin ilk illərindən azərbaycanlılara qarşı qanlı cinayətlər törətməyə başladıqlarını yazırdı.[1] Ermənilər kilsələrin əmlakının müsadirə edilməsi haqqında 12 iyun 1903-cü il tarixli çar fərmanından sonra Cənubi Qafqazda daha da fəallaşmışdı. Çünki erməni kilsəsi dini-ruhani idarədən çox millətçi təsisat kimi çıxış edir və yarımleqal erməni hərbi-siyasi təşkilatı kimi fəaliyyət göstərirdi. Kilsənin təhriki ilə ermənilərin ilk silahlı çıxışları 1903-cü il avqustun 29-da Qarsda və Gəncədə, avqustun 31-də Eçmiədzində, oktyabrın 14-də Tiflisdə,[2] sentyabr ayında isə Bakıda baş vermişdi.

XX əsrin əvvəlləri üçün çarizm Cənubi Qafqazda milli-etnik münaqişəni alovlandırmaq və azərbaycanlıları ermənilərə qırdırmaqla bölgəni müsəlman əhalidən təmizləmək üçün lazımi etnososial vəziyyəti, ermənilər isə XIX əsrdə Türkiyədə reallaşdıra bilmədikləri öz dövlətlərini yaratmaq cəhdi üçün çar Rusiyasının simasında zəruri dəstəyi təmin etmişdilər. Buna görə də 1904-cü ildə erməni terrorçu Daşnaksütyun partiyasının III qurultayında tarixən heç vaxt mövcud olmamış xəyali "Böyük Ermənistan" planına daxil edilmiş İrəvan, Naxçıvan, Zəngəzur və Şuşa qəzalarının, eləcə də İrəvan və Gəncə quberniyalarının digər ərazilərinin azərbaycanlılardan etnik təmizlənməsi erməni hərəkatının başlıca vəzifəsi elan edilmişdi.

Bu dövrdə erməni terrorçu Daşnaksütyun partiyası bölgədə fəaliyyətini genişləndirməkdə idi. XX əsrin əvvəllərində bu partiyanın Rusiyada 2311, Türkiyədə 692, İranda 90 yerli təşkilatı fəaliyyət göstərirdi. Daşnakların Cənubi Qafqaz şəhərlərindəki komitələri xüsusi adlar altında təşkil olunmuşdu. Sonuncu komitə Naxçıvanda yaradılmışdı. Qars, İrəvan, Naxçıvan və Şuşada yaradılan mərkəzi komitələr

---

[1] Nəvvab M.M. 1905-1906-cı illərdə erməni-müsəlman davası. Bakı: Azərbaycan, 1993, s. 10-15

[2] Величко В.Л. Кавказ. Русское дело и междуплеменные вопросы. Баку: Элм, 1990, с. 139-142

Qarsda və ya İrəvanda yerləşən ümumi orqana tabe idilər.[1] Daşnaksütyun bölgədə silahlı dəstələrinin sıralarını genişləndirmiş, Rusiyada inqilabi çıxışlar başlayan zaman öz ordusunu səfərbər edərək onun sayını 100 min nəfərə çatdırmışdı.[2]

Ermənilər azərbaycanlılara qarşı milli qırğına 1905-ci il fevral ayının ilk ongünlüyündə Bakıdan başladılar. Bakıdakı iğtişaşlar tezliklə Naxçıvan, İrəvan və Zəngəzur qəzalarına yayıldı və getdikcə genişləndi. Azərbaycanın mərkəzi şəhərində ermənilərin törətdiyi qanlı cinayətlər Naxçıvanda böyük əks-səda doğurmuş və əhalinin böyük narahatlığına səbəb olmuşdu. XIX əsrdə Naxçıvanda məskunlaşdırılmış ermənilərin həmin dövrdə yerli əhaliyə qarşı soyuq münasibəti, təxribatçı və təhrikedici hərəkətləri narahatlığı daha da gücləndirirdi. Naxçıvanlılar arasında ermənilərin sürətlə silahlanması barədə məlumatlar yayılırdı. Çarizm tərəfindən bölgəyə köçürülmüş ermənilər özlərini Naxçıvanın əsl sahibi kimi aparır, hər fürsətdə azərbaycanlıları ələ salaraq törədiləcək faciələrə zəmin yaradırdılar.

M.S.Ordubadi yazır ki, "o zamana qədər əsla qara-qorxu görməmiş Naxçıvan müsəlmanları gecələr ermənilərin qorxusundan eşiyə, gündüzlər isə uzaqda olan əmlaka da gedə bilməzdilər. Naxçıvanın ətrafı hər tərəfdən erməni kəndləri (*bu kəndlərin hamısı XIX əsrdə köçürülmələr zamanı ermənilərlə məskunlaşdırılmışdı – Red.*) ilə əhatə olunduğundan, 6 saat ərzində İrəvandan istədikləri qədər erməni əsgəri gətirməyə gücləri çatdıqlarından daha müsəlmanları şirin dillə dindirmək belə istəmirdilər".[3]

Ermənilərin silahlanmasından çarizmin yerli hakimiyyət orqanları da məlumatlı idi. Lakin yerlərdəki çar məmurlarının erməni özbaşınalıqlarına loyal münasibət bəsləməsi mərkəzi hakimiyyətin etnik münaqişələrin törədilməsində maraqlı olduğunu göstərirdi. Erməniləri qanunçuluğa dəvət etməyə cəhd edən bəzi məmurlar isə, hətta milliyyətcə erməni olduqda belə, şantaj olunur, hədələnir və qətlə yetirilir-

[1] Гурко-Кряжин В. Армянский вопрос. Баку: Коммунист, 1990, с.13-14
[2] Дашнаки. Составитель Б.Гаибов. Баку: Коммунист, 1990, с. 19
[3] Ordubadi M.S. Qanlı illər. Bakı: 1991, s.18

dilər. Azərbaycanlı qırğınlarını daha kütləvi şəkildə həyata keçirmək üçün Daşnaksütyunun Qafqazdakı məsul komitəsi rusca bildiriş də yaymışdı: "Erməni İnqilabi Cəmiyyətlər Birliyi (*Daşnaksütyun – E.C.*) bütün polislərə, strajniklərə, bələdiyyə rəislərinə, jandarmlara əgər ermənilərin əllərindən silahlarını almağa, onlara zərər verməyə cəsarət edərlərsə, hər birinin tək-tək və mərhəmətsizcəsinə məhv ediləcəkləri barədə xəbərdarlıq edir. Belələri Daşnaksütyun komitəsinin qərarı ilə öldürülmüş olan Bakı qubernatoru Nakaşidze, Gəncə vitse-qubernatoru Andreyev, mütəsərrif Slavski, Şmerlinq, Bıkov, polis rəisi Saxarov, pristav Naşanski, Cavaxov, Şumakeviç, Ter-Saakovu xatırlasınlar".[1]

Qırğınların törədilməsi ərəfəsində Naxçıvanda silahlı daşnak əsgərlərinin toplanması açıq-aşkar müşahidə edilirdi. Naxçıvanda qanlı cinayətlər İrəvandan gəlmiş daşnak təxribatçılarının təhriki ilə törədilmişdi. Onların gəlişi ilə Naxçıvan erməniləri neçə illərdən bəri tədarük etdikləri döyüş sursatlarını – topları, bombaları, beşaçılan tüfəngləri və başqa silahları qanlı qırğınlar üçün hazırlıq vəziyyətinə gətirdilər [98, s. 21]. Naxçıvan kəndlərində yaşayan ermənilərin heç də hamısı daşnakların təhrikinə və təxribatlarına uymurdular. Belə ki, Badamlı kəndində yaşayan ermənilər dinc yaşamaq istəklərini ifadə edərək hətta müsəlmanlığı da qəbul etmişdilər.[2]

1905-ci il may ayının 5-də gündüz saat 3 radələrində üç nəfər Cəhri kəndinin sakini olan azərbaycanlının ermənilərin sıx yaşadığı Şıxmahmud kəndi yaxınlığından keçərkən hücuma məruz qalaraq ağır yaralanmaları[3] Naxçıvanda erməni cinayətlərinin başlanması üçün qığılcım rolunu oynadı. Bu hadisənin yerli əhalidə çaşqınlıq yaratdığı və narahatlığı artırdığı bir vaxtda azərbaycanlılarla ermənilərin qarışıq yaşadıqları Naxçıvan şəhəri yaxınlığındakı Tumbul kəndində mayın 7-də bir azərbaycanlı qətlə yetirildi. Kənddə azərbaycanlı əhalinin sayı ermənilərdən iki dəfə çox olsa da, daşnakların belə cürətkar cinayət-

[1] Uras E. Tarihte Ermeniler ve Ermeni Meselesi, s. 535
[2] Ordubadi M.S. Qanlı illər, s.22-23
[3] Yenə orada, s.18

lərinə onların yaxşı silahlanmaları səbəb olurdu. İlk dövrlərdə ermənilərin tək-tük cinayətlərlə gərginliyi artırmalarında başlıca məqsəd azərbaycanlıları təxribata çəkmək, məsuliyyəti yerli əhalinin üzərinə qoyub qanlı cinayətləri genişləndirməkdən ibarət idi.

Lakin Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvanda da əhali fitnəkar təhriklərə uymadı. 1905-ci il mayın 8-də İrəvanın vitse-qubernatoru Baranovskinin, İrəvan şəhər rəisi Ağamolovun və Peterburqdan qayıdan Naxçıvan şəhərinin hakimi Cəfərqulu xan Naxçıvanskinin şəhərə gəldiyini eşidən naxçıvanlılar xoşniyyətli davrandılar. Əhali həmin rəsmi şəxslərə "ermənilər bizə nə etdilərsə, keçdi, fəqət yenə yığışıb bazara gəlsinlər" deyə öz sülhpərvər mövqelərini bildirdilər. Ermənilərin şəhər bazarındakı dükanlarını bağlayıb öz evlərinə çəkilmələrinin və ya kilsəyə toplaşmalarının xüsusi və məkrli bir planla bağlı olduğunu anlayan naxçıvanlılar qanlı qırğınlar genişləndirilməmiş ermənilərə bu yolla barışıq təklif etdilər. Cəhrililər isə şəhərdən kəndə gedən yolun erməni silahlılarının nəzarətinə keçməsindən narahat olub vitse-qubernatordan yola hökumət qüvvələrinin nəzarətinin təmin edilməsini xahiş etdilər. Lakin əhalinin bu təklif və tələbləri yerinə yetirilmədi.

Azərbaycanlı əhalinin barışıq təklifinə və tələblərinin təmin edilməsinə göstərilən məmur etinasızlığı, dinc azərbaycanlı əhalinin taleyin hökmünə buraxılması ermənilərin sonrakı cinayətləri üçün stimul oldu. Erməni cinayətlərinin növbəti qurbanı azərbaycanlılarla ermənilərin qarışıq yaşadığı Əliabad kəndində qətlə yetirilən Əli Hacı Bayramzadə oldu. Lakin naxçıvanlılar yenə də hadisələrə soyuqqanlı yanaşaraq təxribata getmədilər.

Belə olduqda daşnaklar daha da azğınlaşaraq növbəti hiyləyə əl atdılar. 1905-ci il mayın 11-də əhalinin qarışıq yaşadığı Kültəpə kəndində Xaçatur adlı varlı bir ermənini ailəsinin bütün üzvləri ilə birlikdə qətlə yetirərək bunun məsuliyyətini kəndin azərbaycanlı əhalisinin üzərinə atdılar. Lakin hadisə ilə bağlı başlanan təhqiqat dərhal əsl həqiqətin üzə çıxmasına şərait yaratdı. Belə ki, Xaçatur və ailəsi

Daşnaksütyunun yerli komitəsinin qərarı ilə öldürülmüşdü.[1] Bu, erməni terrorçularının XIX əsrin sonlarında Türkiyədəki fitnəkar fəaliyyətləri zamanı dəfələrlə sınaqdan keçirdikləri bir üsul idi. Daşnaklar varlı ermənilərə müraciət edərək "ümummilli amallar" naminə onlardan pul tələb edir, tələbləri yerinə yetirilmədikdə həmin varlı erməni dərhal terror nəticəsində məhv edilirdi.[2] Bundan sonra daşnak üçün öldürülmüş erməni qiymətli olurdu. Bu cür hadisəni lazımi şəkildə istifadə etdikdə, təbliğat işinə çoxlu səmərə verə bilirdi.[3]

Naxçıvanda olan vitse-qubernator Baranovski Kültəpədə qətlin baş verdiyi gün gecə İrəvana geri qayıdarkən yolda qarşılaşdığı bir ermənidən özü şəxsən çoxlu silah-sursat və bomba müsadirə etmişdi.[4] Lakin bundan sonra da silahlı ermənilərə qarşı hər hansı tədbir görülmədi. Əvəzində Kültəpə qətlindən bəhanə kimi istifadə edən daşnaklar mayın 11-də Naxçıvan şəhərini iki saatdan artıq müddətdə odlu silahlardan aramsız atəşə tutdular. Növbəti gün naxçıvanlılar yenidən Baranovskiyə erməni özbaşınalıqlarından şikayət etdikdə, o, "əgər onlar sizə atəş açır, siz də tutub onların tapançalarını alınız... Mən bilmərəm", – deyə cavab vermişdi. Həmin gün şəhər bazarında baş verən qarşıdurma zamanı isə Naxçıvanın qəza polis rəisi kapitan Aksel Enkel (*mənbədə Angil – Red.*) əhalini qarşılıqlı qarət və talanlara təhrik edirdi. Bu, çarizmin bölgədə etnik münaqişələri qızışdırmaq siyasətinin ifadəsi idi. Nəticədə mayın 12-də Naxçıvan bazarında baş vermiş silahlı toqquşmada beş nəfər azərbaycanlı və Adamov, Xalatov soyadlı erməni tacirləri və onların şagirdləri qətlə yetirilmişdi. Ermənilər Baranovskini, Ağamolovu, Cəfərqulu xanı və pristav Mehdi xan Ordubadskiyə də atəş açmışdılar.

"Kaspi" qəzeti Naxçıvanda ermənilərin törətdiyi qırğınların başlanması barədə yazırdı: "…son günlər Naxçıvan şəhərində və onun

---

[1] Ordubadi M.S. Qanlı illər, s.19

[2] Aykun İ. Tokat'taki Ermeni Hınçak Cemiyeti ve Faaliyetleri (1893-1894) // Ermeni Araştırmaları. 1. Türkiye Kongresi Bildirileri. I silt. Ankara: Avrasya Stratejik Araştırmalar Merkezi, Ermeni Araştırmaları Enstitüsü Yayınları, 2003, s.507-508

[3] ARDA, f. 894, siy. 10, iş 81, v.9-10

[4] Ordubadi M.S. Qanlı illər, s.19

yaxınlığındakı kəndlərdə nə isə qeyri-adi hadisələr baş verir. Əvvəlcə ermənilərlə tatarlar arasında hiss olunan gərginlik sonradan düşmənçiliyə çevrildi və tək-tək ölümlə nəticələndi. Nəhayət, mayın 10-da və sonra 11-də gündüz və gecələr bu münasibətlər daha kəskin forma aldı. Ayın 12-də gündüz şəhərdə, onun bütün küçələrində tüfəng və tapançalardan atəş yayılmağa başladı. Axşama yaxın ölən və yaralananların sayı onlarla idi. Ayın 13-nə keçən gecə çox ağır oldu. Şəhərin küçələrində və ayrı-ayrı hissələrində şiddətli mübarizə ilə yanaşı, yanğınlar başlandı. Evlər və köşklər yandı…" "Kavkaz" qəzeti isə mayın 12-də Naxçıvandan vurulan teleqram əsasında yazmışdı ki, öldürülən, yandırılan və yaralananların sayı 100-ü ötmüşdür. Qəzetdə qarışıqlığın ətraf kəndlərə də yayıldığı xəbər verilirdi.[1]

Çar məmurları daşnak cinayətlərinə son qoymaq əvəzinə bölgənin bir sıra kəndlərində, xüsusən Cəhridə mayın 13-də baş vermiş talanları və qətlləri bəhanə edərək azərbaycanlılara qarşı açıq təhqirlə müşayiət olunan yerli-yersiz yoxlamalara başladılar. Çarizmin fəal dəstəyinə baxmayaraq 1905-ci ilin may-noyabr aylarında baş verən toqquşmalar azərbaycanlıların ümumi üstünlüyü ilə nəticələndi.

Naxçıvanda qırğınların başlanması haqqında xəbər alan Qafqaz canişini İ.Vorontsov-Daşkovun köməkçisi Sultan Krım-Girey (Gəray) Cəfərqulu xan Naxçıvanskiyə teleqram göndərmişdi ki, zorakılıqların və qan tökülməsinin qarşısını alsın. Cəfərqulu xan Naxçıvanski isə cavab teleqramında bildirmişdi ki, İrəvandan əlavə batalyon gələnədək barışığa nail olunması mümkün deyildir. "Kaspi" qəzeti xəbər verirdi ki, mayın 14-dən 15-nə keçən gecə qoşunların Naxçıvana gəlməsindən sonra şəhərdə sakitlik bərqərar olsa da, vəziyyət ciddidir. Qəzet Tumbul kəndinin yandırıldığını, 40 nəfərin həlak olduğunu yazırdı.[2]

Xüsusən may ayında baş verən qarşıdurmada ermənilərin məğlub vəziyyətə düşməsi onların əsas havadarı olan İ.Vorontsov-Daşkovu narahat etmişdi. O, azərbaycanlı əhalinin artan qəzəbinin qarşısını almaq üçün Tiflisdən general Maqsud Əlixanov-Avarskini və Cə-

---

[1]Mustafa N. Naxçıvan və Şərur-Dərələyəzdə erməni qırğınları, www.yknews.az
[2]Yenə orada

nubi Qafqaz Şeyxülislamı Əbdüssalam Axundzadəni Naxçıvana göndərmişdi. Şeyxülislamla İrəvan qazısının bölgəyə gəlişi naxçıvanlıların ermənilərə qarşı çıxışlarının qarşısının alınmasında böyük rol oynadı. 1905-ci il noyabrın 26-dək qanlı hadisələr nisbətən səngisə də, ermənilərlə azərbaycanlılar arasında tez-tez qarşıdurma baş verirdi. Daşnakların təhrikedici hərəkətləri Naxçıvan bölgəsini daim təzyiq və gərginlik altında saxlayırdı. Nisbi sabitlikdən istifadə edən ermənilər öz mal-mülklərini kilsələrə daşıyır, hər fürsətdə asayişi pozur, azərbaycanlı əhalini təhqirə və zülmə məruz qoyur,[1] bölgənin bir çox kəndlərində pərakəndə şəkildə müxtəlif cinayətlərini və azərbaycanlılara qarşı qətlləri davam etdirirdilər.

1905-ci ilin may-noyabr aylarındakı hadisələrin Naxçıvan əhalisinin üstünlüyü ilə başa çatması ermənilərin milli qırğın siyasətini İrəvan qəzası ərazisində davam etdirməyə sövq etdi. Mayın 25-də İrəvanda 4-ü qadın, 2-i uşaq olmaqla on bir nəfər azərbaycanlı ermənilər tərəfindən qətlə yetirildi. Bundan sonra əllərində cəmi 20 ədəd köhnə tüfəng olan azərbaycanlı əhali o dövrün ən müasir silahlarına malik daşnak əsgərlərinə qarşı uğurla müdafiə olundular, hətta erməni əsgərləri daha çox tələfata məruz qaldı. Bunun əsas səbəbi isə daşnaklar silahlılarının bir çoxunun Bakı və Naxçıvanda baş verən hadisələr zamanı canını qaçmaqla qurtaran erməni əsgərlərinin təşkil etməsi və onların adətən sərxoş halda döyüşə atılmaları idi.[2]

Ermənilər Naxçıvan qəzasında məqsədlərinə nail ola bilmədiklərindən qırğınları Şərur-Dərələyəz və İrəvan qəzasında davam etdirməyə başlamışdılar. Naxçıvan qəzasına ezam edilən general M.Əlixanov-Avarski Naxçıvandan Sultan Krım-Gireyə göndərdiyi teleqramda bildirirdi ki, yolüstü müsəlman və erməni kəndlərini sakitləşdirirdim. Şərur-Dərələyəzin dağlıq hissəsində və Ordubad məntəqəsində isə vəziyyət gərgindir. Ermənilər növbəti qırğınları Dərələyəz mahalında törətmişdilər. İlk qırğınlar azərbaycanlıların ermənilərlə qarışıq yaşadıqları kəndlərdə – Qndevaz və Herher kəndlərində törədil-

[1] Ordubadi M.S. Qanlı illər, s.20
[2] Ordubadi M.S. Qanlı illər, s. 24-27

mişdi. Mayın 12-dən iyulun 10-dək Dərələyəzdə milli zəmində toqquşmalar qısa fasilələrlə davam etmişdir. 1905-ci il oktyabrın 27-də Şərur-Dərələyəz qəzasının 6 erməni kəndində cəmləşən 700 nəfərlik silahlı dəstələr azərbaycanlılar yaşayan Hors kəndinə hücum etmişlər. Türklər müqavimət göstərərək 40 nəfər itki vermişlər. Başqa bir arxiv sənədində 53 azərbaycanlının öldürüldüyü və 255 evin yandırıldığı, mal-qaranın oğurlanıb aparıldığı qeyd olunur. Ermənilər əvvəlcə kəndi talan etmiş, sonra isə bütün evlərə od vuraraq yandırmışdılar. Ümumiyyətlə, oktyabr ayının sonlarında ermənilər Dərələyəzdəki Azərbaycan kəndlərini yandırıb talan etmiş, dinc əhalini kütləvi şəkildə qətlə yetirmişdilər. Bundan sonra İrəvan və Yeni-Bəyazid qəzasının müsəlmanlarını həyəcan dalğası bürümüşdü.[1]

Daşnaklar İrəvan qəzasının mahal və kəndlərində də qanlı cinayətlər törətmişdilər. 1905-ci il mayın 31-də Qırxbulaq mahalının Tirjabat kəndinin erməniləri azərbaycanlıların yaşadığı 20 evdən ibarət Gözəçik kəndinə hücum etdilər. Gözəçiklilər qonşuluqdakı Mənqus kəndinə sığınmağa məcbur oldular. Qaçmaqdan imtina edərək təkbaşına ermənilərə xeyli tələfat verən kənd ağsaqqalı Novruz Kazım oğlu isə ermənilərə əsir düşdü və Tirjabat kəndinin keşişi Ayrapet onun "min beş yüz müsəlman sərkərdəsinin başına bərabər" qiymətləndirdiyi başını kəsərək əvvəlcə Aleksandropola (*Gümrüyə – Red.*), sonra isə azərbaycanlılarda vahimə yaratmaq üçün Bakıya göndərdi.[2]

Bu hadisədən sonra azərbaycanlıların yaşadığı 12 kənd ermənilər tərəfindən boşaldıldı. Həmin kəndlərin əhalisi isə hamılıqla cəmi 20 evdən ibarət olan Təzəkəndə sığındılar. İyunun 3-də 10 min nəfərlik silahlı erməni dəstələrinin hücumuna məruz qalan Güllücə, Tutya, Kamal və Damagirməz kəndlərinin də əhalisi Təzəkəndə pənah apardılar. Yalnız 1905-ci il iyunun 4-də hadisələrin artıq tam nəzarətdən çıxdığını görən çar qoşunlarının müdaxiləsindən sonra azərbaycanlılar öz kəndlərinə geri dönsələr də, ermənilər qırğınları davam etdirdilər.

---

[1]Mustafa N. Naxçıvan və Şərur-Dərələyəzdə erməni qırğınları, www.yknews.az
[2] Ordubadi M.S. Qanlı illər, s.29-31

1905-ci il iyunun 3-də Abaran mahalının Şuragəl, Pənbək, Gümrü yaşayış məntəqələrindən Eçmiədzin qəzasının İlançalan kəndində toplaşan daşnak hərbi qüvvələri azərbaycanlılarla məskun Uşu kəndinə hücum etdilər. 8 saatlıq gərgin döyüşdə uşulular ermənilər üzərində parlaq qələbə çaldılar. İki gün sonra təkrarlanan döyüşdə yenə də azərbaycanlılar daşnaklarla mübarizədə qalib gəldilər. Lakin iyunun 8-də erməni silahlılarının üçüncü hücumu ermənilərin üstünlüyü, kəndin işğalı və yandırılması ilə nəticələndi. Bununla belə, döyüşdə ermənilər 180 silahlı əsgərini itirdi, azərbaycanlılardan isə cəmi 4 nəfər həlak oldu. Uşu sakinləri isə Sürməli kəndində məskunlaşdılar. İyun ayının 9-da daha 8 kənd – Təkyə, Pərsi, Nazrəvan, Kiçikkənd, Kötüklü, Qoşabulaq, İrgu və Əngirsək yaşayış məntəqələri ermənilər tərfindən işğal olundu, bir gün sonra isə bu kəndlərin sırasına 9 azərbaycanlı kəndi də əlavə edildi.

Ermənilər bu işğallar nəticəsində bölgədə özlərinin nəzarəti altında geniş bir coğrafiya yaratmaq, sonra isə siyasi hakimiyyət qurmaq istəyirdilər. Birinci Dünya müharibəsində Rusiyanın Şərqi Anadoluya nəzarəti ələ keçirməsi erməniləri daha da həvəsləndirmişdi. Daşnakların "İrəvandan Naxçıvana qədər yol üstə yerləşən Naxçıvan kəndlərini dağıtmaqla İrəvan ermənilərini Naxçıvanda hazır olan əsgəri qüvvələrlə birləşdirmək, Naxçıvandan Zəngəzura kimi yol boyunca olan köyləri dağıdıb Zəngəzur könüllüləri ilə Naxçıvandakı əsgəri qüvvəni birləşdirmək kimi alçaq xəyallar"ı vardı.[1] Bu planın reallaşması daşnakları himayə edən çar Rusiyası üçün müsəlman azərbaycanlılarsız regionun yaranması, ermənilər üçün isə dövlət yaratma təşəbbüslərinin uğur qazanması demək olacaqdı. XIX əsrin sonlarında Türkiyədə müvəffəqiyyət qazana bilməyən ermənilər torpaq iddiaları ilə bağlı bütün fəaliyyətlərini Azərbaycan ərazilərinə keçirmişdilər.

Ermənilər öz silahlı dəstələrinin pərakəndə fəaliyyət göstərməsini 1905-ci ildəki ilk hücumlarında uğursuzluğun əsas səbəbi kimi gördüklərindən Azərbaycanın qərb bölgəsindəki daşnak qüvvələrinə

---

[1] Ordubadi M.S. Qanlı illər, s.119

komandanlığı Bakıdakı fevral cinayətlərində daşnaklara rəhbərlik edən Nikol-Tumana həvalə etdilər. Onun qərargahı İəravanda yerləşirdi. 1905-ci ilin payız aylarında yenidən genişlənən və bu dəfə daha mütəşəkkil şəkildə həyata keçirilən qırğınlara Naxçıvanda Arslan, Qarabağda Vardan, Zəngəzurda Sivaslı Murad, Əsgəranda Hamazasp (Hamvo), Sisyanda Keri, Gəncədə Sako və Abraham Gülxandanyan, Tiflisdə Durbah, Armen Qaro, kapitan Baqdasaryan və Tiqran Stepanyan adlı erməni komandirləri rəhbərlik edirdilər.[1]

Birinci Rus inqilabının milli ərazilərə, xüsusən Qafqaza yayılmasının qarşısını almaq istəyən çarizm yenidən etnik münaqişələrin alovlanmasına rəvac verdi. Naxçıvanda 1905-ci ilin noyabr ayında başlayan qırğınların növbəti mərhələsinin bilavasitə səbəbkarları çar məmurları və rus kazakları oldular. Noyabrın 26-da kazaklar guya sülh və asayişi təmin etmək məqsədi ilə Çeşməbasar kəndində Hacı Nəsir Hacı Nağı oğlunun evində axtarış apararaq qarətlə məşğul oldular. Kazakların qanunsuz əməllərinə etirazını bildirən ev sahibinin oğlu kazaklar tərəfindən öldürüldükdə müqavimət göstərməyə cəhd edən Hacı Nəsir və onun ailə üzvlərinin hamısı qətlə yetirildilər.

Çeşməbasar cinayəti Naxçıvan şəhərində dərhal yayıldı və yenidən qanlı qırğınların başlaması üçün işarə oldu. Həmin gün əhali şəhər bazarındakı dükanlarını tez bağladığından rus-erməni qruplaşması axşamüstü bazarı yandırdı. Yanğın xəbərinə toplaşan şəhərin azərbaycanlı əhalisi polis rəisi Angilin və polkovnik Krılovun əmri ilə atəşə tutuldu və Məşədi Həsən Məhəmmədqulubəy oğlu adlı bir nəfər öldürüldü. Bazardakı 85 dükanın, 75 ambar və boş dükanın yanıb kül olması nəticəsində noyabrın 27-30-da şəhərdə aclıq baş verdi. Əhali arasında yaranmış çaşqınlıqdan istifadə edən rus kazakları heç bir səbəb göstərmədən evlərə soxularaq talançılıqla məşğul olur, şəhərin küçələrində yerli-yersiz yoxlamalar aparır, tabe olmaq istəməyənləri dərhal güllələyirdilər.

[1] Uras E. Tarihte Ermeniler ve Ermeni Meselesi, s.534-535

1905-ci il noyabrın 30-da kazak-erməni silahlı dəstələri Cəhri kəndini yandırdılar. Kənd əhalisinin bir qismi ermənilər tərəfindən qırıldı və yanğın zamanı həlak oldu. Həmin gün Naxçıvanda olan İrəvan general-qubernatoru Paskeviç əhalinin şikayətlərinə baxılacağını vəd etsə də, elə o şəhərdə ola-ola rus-erməni silahlıları Naxçıvan şəhərinin də bir hissəsinə od vuraraq yandırdılar. Dekabrın 2-də Cəhri kəndində olan Paskeviç bir daha azərbaycanlı əhalinin şikayətləri ilə üzləşməmək üçün buradan gecəyarısı birbaşa İrəvana qayıtdı.[1]

1905-ci il hadisələri naxçıvanlılar üçün özünü bir sıra kəndlərin dağıdılmasında, minlərlə dinc azərbaycanlı əhalinin öldürülməsində göstərən faciəli sonluqla nəticələndi. Cəhri kəndinin yandırılmasından bir qədər əvvəl Naxçıvan və Zəngəzur qəzalarının sərhədində yerləşən Xanlıqlar və İtqıran kəndləri ermənilər tərəfindən dağıdılaraq yandırılmışdı. Qırğınlar XIX əsrdə və XX əsrin əvvəllərində Türkiyə və İrandan köçürülən ermənilərin daha çox məskunlaşdırıldıqları ərazilərdə törədilmişdi. Bu bölgələr azərbaycanlı qırğınlarının eyni vaxtda törədildiyi Naxçıvan, İrəvan, Qarabağ və Zəngəzur idi. Çünki 1904-cü ildə Daşnaksütyunun III qurultayında qondarma "böyük Ermənistan" ərazisi yaradılması planına Naxçıvan, İrəvan, Zəngəzur və Şuşa qəzalarının, eləcə də İrəvan və Gəncə quberniyalarının bir çox digər ərazilərinin azərbaycanlı əhalidən təmizlənməsi başlıca vəzifə kimi daxil edilmişdi.

Buna görə də ermənilərin azərbaycanlılara qarşı soyqırımı 1905-ci illə məhdudlaşmadı. Naxçıvan qəzasının Ordubad, Cəhri, Şıxmahmud, Kültəpə, Əliabad, Tivi, Tumbul və başqa kəndlərində ermənilərin qanlı cinayətləri 1906-cı ildə də davam etdi. Naxçıvan kəndlərinin bir çoxunun əhalisi qırıldı, sağ qalanlar isə digər kəndlərə və Cənubi Azərbaycan ərazisinə qaçaraq canlarını qurtarmağa çalışdılar.

Qafqaz canişini İ.Vorontsov-Daşkovun təşəbbüsü ilə 1906-cı il fevralın 20-də Tiflisdə "Yaşıl zal" sarayında daşnak liderləri ilə Azərbaycan ictimai fikrinin tanınmış nümayəndələri arasında keçirilmiş

---

[1] Ordubadi M.S. Qanlı illər, s.21-22

yığıncaqda[1] guya məqsəd iki xalq arasında milli qırğına son qoymaq idi. Görüşdə Azərbaycan tərəfini Əhməd bəy Ağayev, İsrafil Hacıyev, Əlimərdan bəy Topçubaşov, Məhəmməd ağa Vəkilov, Qarabəy Qarabəyov, Ələkbər bəy Xasməmmədov, Ədil xan Ziyadxanov və dövrün digər tanınmış ziyalıları və ictimai xadimləri təmsil edirdilər. Erməniləri isə Aleksandr Xatisov (*Xatisyan; sonralar 1918-ci ildə Qərbi Azərbaycandakı işğalçı daşnak rejiminin baş naziri olmuşdur – Red.*), "Mşak" qəzetinin müdiri Kalantar, Muşeqsyan, Stepanov, Arakelyan, Taqianosov, Ter-Avanesov, arximandrit Muradyan və başqa daşnak rəhbərləri təmsil edirdilər. Azərbaycan nümayəndələri tərəfindən rus-erməni işbirliyinin və daşnakların işğal planlarının ifşa edildiyi bu yığıncaqda hökumət tərəfindən terrorun aradan qaldırılması və silahlı dəstələr saxlayan siyasi partiyaların ləğvi haqqında qətnamə qəbul edildi. Lakin hadisələrin sonrakı axarı bu yığıncağın Qafqaz canişini tərəfindən gözdən pərdə asmaq, Azərbaycan ictimai rəyini öyrənmək üçün təşkil edildiyini göstərdi. Belə ki, bundan sonra ermənilərin törətdiyi milli qırğın nəinki səngidi, əksinə, daha da genişləndi və artıq çar məmurları da hadisələrdə ermənilərin tərəfində açıq-aşkar iştirak etməyə başladılar.[2]

Daşnaklar çarizmin fəal dəstəyini görüb daha da azğınlaşdılar. 1906-cı ilin yay aylarında Gümrü, İrəvan, Abaran, Şuragil və digər ərazilərdən səfərbər edilmiş könüllü erməni silahlıları nizami alaylar şəklində təşkilatlanaraq Zəngəzurun və Ordubad mahalının ermənilər yaşayan kəndlərinə göndərildilər. Ordubadın yolboyu erməni hərbi təcavüzünə məruz qalan Dırnıs, Unus və Pəzməri kəndlərinin əhalisi müdafiə oluna bildilər. Daşnak hərbi dəstələri XIX əsrdə erməni köçürülmələrindən sonra salınmış Kələki, Danagirt (*mənbədə Kəlağı, Dəmqurt – Red.*) və Aşağı Əylis[3] kəndlərində cəmləşdilər. Şuşa və ətraf ərazilərdən yığılmış erməni birləşmələri isə iyulun 20-də Zəngə-

---

[1] Ordubadi M.S. Qanlı illər, s. 105-118
[2] Cəfərli E.Y. Naxçıvanda erməni-Azərbaycan münaqişəsi, s. 179
[3] Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, с.623

zurdakı mis mədəninin yanında düşərgə saldı. Şuşa dəstəsinə Aram Nehrəmov, Əylisdəki daşnak dəstələrinə isə Aşot adlı erməni komandirləri başçılıq edirdilər.[1] İyulun 29-da Aramın dəstələri Zəngəzurun Qapan dərəsindəki Karxana kəndinin bütün əhalisini son nəfərinədək qətlə yetirdi. Təcavüzə məruz qalan Lov, Xələc, Saldaşlı, İncəvar və Daşnov kəndlərinin sağ qalan əhalisi isə kiçik Qatar kəndinə sığındılar. Avqustun 1-dən 9-dək ermənilərə müqavimət göstərən Qatar kəndinin müdafiəçilərinin mövqelərini rus kazakları daşnaklara xəbər verdilər. Kazakların təxribat əməlləri nəticəsində, eləcə də erməni sahibkarı Məlik Azaryansın mis mədənində işləyən iranlı fəhlələrin köməyi ilə avqustun 8-9-da Qatar kəndi də erməni hərbi birləşmələri tərəfindən ələ keçirildi.[2] Kəndin sağ qalan əhalisi və digər kəndlərdən qaçıb gələnlər bu dəfə də Kəllədağ kəndinə pənah apardılar.

Avqustun 7-də ermənilərin Əylis dəstələri, ayın 8-də isə mis mədəni ətrafındakı qüvvələri Zəngəzurun Panuslu kəndinə gələrək burada birləşdilər. Ermənilərin Oxçu-Şəbadək dağlarının ətəyində yerləşən azərbaycanlı kəndlərinə avqustun 9-da başlayan və dörd gün davam edən hücumları Oxçu kəndinin müdafiəçilərinin qeyri-bərabər döyüşdə qələbəsi ilə nəticələndi. Oxçulular hətta düşməni təqib edərək onun sığındığı Gicəlan kəndini də azad etdi. Lakin Ləyc, Təşqin, Karlur, Vənd, Mehri, Əsədazur, Qırçıvan, Əkərək, Bəhrvar, Ucanabus, Qurasən, Çəmən, Bux, Oxadüz, Raxdaxana, Noraşen, Xotanan, Üsərəng, Sahadhur, Çin, Mələk Çit və digər kəndlərdən öz sıralarına əlavə silahlı qüvvələr cəlb edən ermənilər əks-hücuma keçərək Oxçu-Şəbadək kəndlərini işğal etdilər. Bölgənin imamı Molla Həsən Əfəndinin məsləhəti ilə əhalinin bir qismi Saqqarsu adlanan əraziyə sığındı. Kəndlərdə qalan dinc əhalinin hamısı ermənilər tərəfindən qətlə yetirildi. Ardınca düşmən Saqqarsuya hücum edib qaçqınların hamısını qırdı və elə həmin gün daha dörd azərbaycanlı kəndi daşnak qüvvələri tərəfindən dağıdıldı. Qapan dərəsindəki Pürdavud kəndi də dağıdılmış, kəndin əhalisi son nəfərindək məhv edilmişdi. Kənddəki

---

[1] Ordubadi M.S. Qanlı illər, s.127
[2] Yenə orada, s. 121-123

şiə imamı Rzanın qardaşı Sultan Davuda məxsus hücrə, onun daxilindəki müqəddəs əşyalar, onlarla Quran kitabı yandırılaraq məhv edilmişdi.

Ermənilərin soyqırımından canını qurtarıb Ordubada gələn qaçqınların verdikləri məlumata əsasən ordubadlılar Qapan dərəsində, Saqqarsuda və digər ərazilərdə ermənilərin qətlə yetirdikləri insanların meyitlərini gətirmək üçün dəstələr təşkil etdilər. Ordubad könüllüləri avqustun 16-da Saqqarsuda Molla Həsən Əfəndinin özü ilə bərabər kənddən çıxardığı 62 qadın və uşağın meyitlərini tapdılar. İki gün sonra isə yenicə ailə qurmuş iki gəncin, Molla Həsən Əfəndinin yandırılmış cəsədlərinə, 15 körpə uşağın palaza bükülmüş və bir-birinə qarışmış kəsilmiş başlarını və digər bədən üzvlərinə rast gəlindi.

Ermənilərin həyata keçirdikləri kütləvi qırğınlar nəticəsində bölgədə son dərəcə acınacaqlı vəziyyət yaranmış, Zəngəzurun Naxçıvanla qonşu kəndlərinin hamısı dağıdılmış, əhalisi əsasən qırılmış, tək-tük sağ qalanlar isə Naxçıvana, Ordubada və ətraf kəndlərə sığınmışdılar.

Ordubadlıların İrəvan və Gəncə general-qubernatorlarına göndərdikləri yüzlərlə şikayət teleqramından sonra göndərilən çar draqun rotası guya azərbaycanlı qaçqınları öz doğma kəndlərinə qaytarmaq istiqamətində fəaliyyətə başladı. Lakin elə onların gözü qarşısında heç bir səbəb olmadan iki azərbaycanlı qaçqının ermənilər tərəfindən qətlə yetirilməsi ilə bu "fəaliyyət" başa çatdı. 1906-cı ilin yalnız yay aylarında Zəngəzur qəzasının Xələc, Karxana, Qatar, İncəvar, Çöllü, Yeməzli, Saldaşlı, Mollalar, Batuman, Oxçu, Şəbadək, Atqız, Pürdavud, Zurul, Cuman, İyilli, Sənalı, Minənəvur, Tərcan, Qalaboynu, Əcəbli, Buğacıq,[1] Panuslu, Girdəkan, Kəllədağ, Lov, Daşnov və başqa kəndləri dağıdılmış, əhalinin böyük hissəsi qətlə yetirilmişdi.

Ordubad əhalisi çarizmin erməniləri müdafiə və himayə etdiyini başa düşərək Zəngəzur kəndlərini azad etmək üçün könüllülərdən ibarət silahlı dəstələrin təşkilinə başladılar. 1000 nəfəri qaçqınlardan,

[1] Nəvvab M.M. 1905-1906-cı illərdə erməni-müsəlman davası, s.136

800 nəfəri isə yerli əhalidən olmaqla 1800 nəfərlik hərbi dəstələr Saqqarsuya doğru hərəkət etdilər. 1906-cı il sentyabrın 16-da erməni silahlı qüvvələri ilə həlledici döyüşdə qalib gələn könüllülər Zəngəzurun bütün işğal olunmuş kəndlərindən erməniləri qovub çıxardılar. Lakin ermənilər işğal etdikləri bütün Zəngəzur kəndlərini yandırıb viran qoymuşdular. Vəziyyətin azərbaycanlıların xeyrinə dəyişdiyini görən rus hakimiyyət dairələrinin göndərdiyi 500 nəfərlik kazak ordusu bölgəyə gələrək qaçqınların guya onlar tərəfindən öz kəndlərində qaytarıldığı görüntüsünü yaratmağa başladılar. Bu zaman fürsətdən istifadə edən ermənilər yenidən hücuma keçdilər. Lakin Girdəkan-Panuslu döyüşü də Ordubad könüllülərinin qələbəsi ilə başa çatdı.

Naxçıvan qəza rəisi kapitan Aksel Enkel 1905-ci ildə ermənilərin törətdiyi qırğınlarda təhrikçi və təxribatçı mövqeyinə, erməniləri müdafiə etməsinə və gecə-gündüz demədən öz gözətçi dəstəsinin köməyi ilə müsəlman kəndlərini qarət etdiyinə görə 1906-cı ilin dekabrında "Difai" partiyasının yerli üzvləri tərəfindən qətlə yetirilmişdi.

Ermənilərin 1905-1907-ci illərdə törətdikləri qanlı qırğınların miqyası, Naxçıvan, İrəvan, Şərur-Dərələyəz və Zəngəzur qəzalarına eyni zamanda təşkil edilən mütəşəkkil hücumlar azərbaycanlıların soyqırımının və torpaqlarımızın işğalının əvvəlcədən planlaşdırılmış olduğunu göstərirdi. Zəngəzurun işğalı Naxçıvanın da mühasirəyə alınaraq zəbt edilməsi və bununla da hər iki bölgənin ermənilərin nəzarəti altına alınması cəhdləri ilə bağlı idi. Bu zaman Gəncə quberniyasının ərazilərində - Gəncə şəhərində, Şuşa və Cəbrayıl qəzalarında ermənilərin azərbaycanlılara qarşı qırğınlar törətməsi zəngəzurluların Azərbaycanın şərq ərazilərinə yolunu bağladığından onlar daha çox Naxçıvana sığınırdılar.

1905-1907-ci illər qırğınları XX əsrdə ermənilərin azərbaycanlılara qarşı yürütdüyü soyqırım və deportasiya siyasətinin ilk mərhələsi oldu. Həmin illərdə Şuşa qəzasında 12, Cavanşir qəzasında 15, Cəbrayıl qəzasında 5, Zəngəzur qəzasında 43 müsəlman kəndi dağı-

dılmış,[1] ümumilikdə 158 azərbaycanlı kəndi dağıdılaraq talan edilmişdi. Tələfat 3 mindən 10 min nəfərədək idi.[2] Naxçıvan, Şərur-Dərələyəz, Qazax qəzalarında, Gəncə və Bakı quberniyalarında dağıdılmış kəndlərin və öldürülmüş insanların sayı isə bundan xeyli çox idi. Ümumiyyətlə isə, 1905-1906-cı illərdə ermənilər İrəvan və Yelizavetpol (Gəncə) quberniyalarının ərazisində yerləşən, azərbaycanlıların yaşadığı 300-dən çox yaşayış məntəqəsini viran qoymuş, dinc əhalini soyqırıma və deportasiyaya məruz qoyulmuşdular.

1897-ci ildə Naxçıvan, Şərur-Dərələyəz və Zəngəzur qəzalarının da daxil olduğu İrəvan quberniyasında 313176 nəfər azərbaycanlı yaşadığı halda, 1907-ci ildə 302965 nəfər azərbaycanlı əhali qalmışdı. 1905-1907-ci illərdə təkcə İrəvan quberniyasında əhalinin 10 illik təbii artımından da 10 min nəfər artıq azərbaycanlı qətlə yetirilmişdi.[3] İrəvan quberniyasının 242 kəndində 65149 nəfəri Azərbaycan türkü, 5579 nəfəri kürd olmaqla cəmi 70728 nəfər müsəlman əhali öldürülmüşdü.[4]

1897-ci ilə nisbətən 1907-ci ildə Naxçıvanda azərbaycanlı əhalinin sayı 31279 (34,6 faiz), əhalinin təbii artımı da nəzərə alınmaqla Naxçıvan qəzasında ermənilərin milli qırğın cinayətlərinin nəticəsi olaraq azərbaycanlı əhalinin sayı iki dəfədən çox azalmışdı. 1910-cu ildə isə Naxçıvan qəzasında əhalinin ümumi sayı 14159 nəfər artmışdı və bunun 11455 nəfərini azərbaycanlılar təşkil edirdi. Bu artım təbii amillərlə bağlı olmaqdan daha çox, bir tərəfdən 1905-1907-ci il hadisələrində öz planlarını tam reallaşdıra bilməyən ermənilərin vahid mərkəzdə birləşmək və güclü dövlət yaratmaq üçün Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisində toplaşmaq təşəbbüsləri ilə bağlı

---

[1] Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq, s.51

[2] Svyatoçovski T. Rusiya və Azərbaycan: sərhədyanı bölgə keçid dövründə. Bakı: 2000, s.55-56

[3] Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq, s. 50

[4] Sevinç N. Arşiv Belgeleriyle Tehcir. Ermeni İddiaları ve Gerçekler. Avrasya-Bir Vakfı Yayınları, Ankara: 2003, s.202

idisə, digər tərəfdən Naxçıvana Zəngəzurdan azərbaycanlı qaçqınların gəlməsi hesabına baş vermişdi. Çünki Zəngəzur qəzasında 1905-1907-ci illərdə ermənilərin azərbaycanlılara qarşı soyqırımından sonra Azərbaycan kəndlərinin yalnız dağıntıları qalmışdı.[1]

Lakin bütün səylərinə baxmayaraq 1905-1907-ci illərdə çarizm və ermənilər birgə həyata keçirdikləri soyqırım nəticəsində azərbaycanlıları tamamilə məhv etməyə nail olmadılar.

[1] Cəfərli E.Y. Naxçıvanda erməni-Azərbaycan münaqişəsi, s. 181

# II fəsil

# SOVET RUSİYASININ CƏNUBİ QAFQAZ SİYASƏTİNDƏ NAXÇIVAN

## 2.1. Sovet Rusiyasının Cənubi Qafqazda milli siyasəti və Naxçıvan məsələsi

Birinci Dünya müharibəsi ermənilərin tarixən heç zaman mövcud olmamış “Böyük Ermənistan” xəyali dövlətlərini qurmaq haqqındakı ümidlərini və planlarını doğrultmadı. Onların gözlədiklərinin əksinə olaraq XIX əsr boyu erməniləri Türkiyəyə qarşı mübarizədə daim müdafiə etmiş imperialist dövlətlər bu dəfə də “erməni məsələsi”ndə öz maraqlarından çıxış edərək ermənilərdən alət kimi istifadə etdilər. Birinci Dünya müharibəsinin gedişatında çarizm tərəfindən Türkiyənin şərq vilayətlərində “ermənilərsiz Ermənistan” planının irəli sürülməsi ilə ağır zərbə almış ermənilərin müharibənin sonlarına doğru Cənubi Qafqaza kütləvi köçünün yeni mərhələsi başlanmış, onlar bu bölgədə siyasi və hərbi fəallıqlarını artırmışdılar. Ermənilərin Cənubi Qafqazın azərbaycanlı əhalisinə qarşı törətdiyi 1905-1907-ci illərin qırğınları və XX əsrin əvvəllərində, eləcə də sonrakı illərdə Türkiyə ərazisindən Cənubi Qafqaza köçən ermənilərin hesabına, habelə Qarsda və İrəvan quberniyasının xüsusən şimal ərazilərində bölgənin türk əhalisinə qarşı yürüdülən etnik təmizləmələrdən sonra erməni terrorçu təşkilatlarının istinad edə biləcəyi əhali toplumunun yaşadığı bölgə, siyasi baxımdan olmasa da, coğrafi baxımdan artıq yaradılmışdı.

Rusiyada çarizmin süqutundan sonra, sovet hakimiyyətinin ilk dövrlərində daha tez-tez səsləndirilməyə başlanmış xalqların öz müqəddəratını müəyyən etmək hüququ kimi beynəlxalq prinsip ermə-

nilərin yenidən əsasən Türkiyənin şərq vilayətlərini və tarixi Azərbaycan torpaqlarını əhatə edən bədnam "böyük Ermənistan" yaradılması planının icrasını davam etdirməyə həvəsləndirdi. Özünü daha çox Azərbaycanın Naxçıvan, Zəngəzur və Qarabağ bölgələrinə qarşı ərazi iddialarında qabarıq büruzə verən erməni təbliğatının arqumenləri onların tamamilə əsassız, hansısa "tarixi hüquqları"na və ya "etnoqrafik hüquqları"na söykənməyə cəhd edirdi.[1] Ermənilərin hər iki iddia istinadgahları saxta idi və çar Rusiyasının Cənubi Qafqazda imperialist milli siyasətinin nəticəsi kimi süni şəkildə meydana çıxmışdı.

Çar Rusiyasının Cənubi Qafqazdakı canişini İ.İ.Vorontsov-Daşkov müharibədən iki il əvvəl, 1912-ci il oktyabrın 10-da çar Nikolay Romanova yazdığı məktubda I Pyotr zamanında əsası qoyulmuş siyasətə qayıdılmasının vacibliyini xatırladaraq, "əzəli rus siyasətinə geri qayıdaraq ermənilərə hamilik etməyin zamanı gəlmişdir" deyə yazırdı.[2] 1914-1918-ci illərdə Birinci Dünya müharibəsi zamanı Rusiyanın Şərq cəbhəsində uğur qazanmaq cəhdi Türkiyədə erməni fitnəkarlığının kütləviləşməsi ilə müşayiət olunurdu. Lakin Şərqi Anadoluda ermənilərin növbəti qanlı planlarının qarşısı alındıqdan sonra onların Qafqaza kütləvi köçürülməsinin növbəti mərhələsi başlandı. Mənbələr bu zaman köçənlərin sayını 300-350 min nəfər arasında müxtəlif rəqəmlərlə ifadə edir (həmin qaçqınların bir hissəsi 1921-ci ildə Naxçıvana köçürülmüşdü).[3] Bundan sonra daşnak liderləri Şərqi Anadoludan ordularını çıxararaq Azərbaycan torpaqlarının qəsbinə yönəltdilər. O dövrdə erməni nəşri olan "Nezavisimaya Armeniya" qəzeti yazırdı: "Erməni daşnaklarının ərazi əldə etmək istəyi çox böyük idi. Ona görə də onlar öz nizami ordularını Zəngəzura göndərərək

[1] Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər), s.45
[2] Perinçek M. Sovyet Arşivleri Türkiye'nin Tezlerini Doğruluyor // Ermeni Araştırmaları. 1. Türkiye Kongresi Bildirileri. 3 ciltte. I cilt. Avrasya Stratejik Araşdırmalar Merkezi, Ermeni Araşdırmaları Enstitüsü Yayınları. Ankara: 2003, s.155
[3] NMRDA, f. 314, siy. 5, iş 17,v.34

könüllüləri inandırmağa çalışır, əhalini qırır və beləcə öz sıralarını genişləndirməyə can atırdılar”.[1]

Beləliklə, Birinci Dünya müharibəsi Türkiyədə antitürk erməni hərəkatının məhvi dövrü oldu. Bunu şərtləndirən mühüm amillər bir tərəfdən Osmanlı hökumətinin erməni separatizminin qarşısını almaq üçün atdığı addımlar olmuşdusa, digər tərəfdən çar Rusiyasının ermənilərdən növbəti dəfə yalnız öz müstəmləkəçi maraqları naminə istifadə etməsinin üzə çıxması idi. Belə ki, 1916-cı ilin əvvəllərində rus qoşunlarının Ərzurumu işğal etməsi ilə bağlı çar ordusu Baş komandanının verdiyi əmrdə deyilirdi ki, “ermənilərə Ərzurumda məskunlaşmaq ixtiyarı verilmir”.[2] Elə həmin 1916-cı ildə Rusiyanın xarici işlər naziri S.Sazonov Qafqaz canişini Nikolay Nikolayeviçə məktubunda yazırdı: “Məlum olduğu kimi, bizdə erməni məsələsini həll etmək üçün iki yol düşünülmüşdür: biri – 1913-cü ildə bizə tövsiyə edildiyi kimi, ermənilərə tam muxtariyyət vermək, digəri isə - buna qarşı ermənilərin siyasi əhəmiyyətini sıfıra endirmək və onların yerinə müsəlmanları gətirib yerləşdirmək. Mənə belə gəlir ki, erməni məsələsinin istər o, istərsə də bu şəkildə həlli həm daxili, həm də xarici siyasət baxımından Rusiyanın mənafeyinə uyğun deyildir”.[3] Göründüyü kimi, çarizm Türkiyənin Şərqi Anadolu vilayətlərində erməni dövləti yaradılmasını öz imperialist mənafeləri baxımından məqbul hesab etmirdi.

Lakin 1917-ci il fevralında çarizm devrildikdən sonra vəziyyət bir qədər dəyişdi. Rusiyada 1917-ci il fevral burjua inqilabından sonra Rusiyada hakimiyyəti ələ alan, G.Y.Lvovun rəhbərliyi altında imperiyanı idarə edən Müvəqqəti hökumət martın 9-da Cənubi Qafqazda idarəçilik orqanı kimi Rusiyanın IV Dövlət Dumasının beş nəfər (1 rus (sədr), 2 gürcü, 1 azərbaycanlı, 1 erməni) yerli üzvündən ibarət tərkibdə Xüsusi Cənubi Qafqaz Komitəsini (XCQK) yaratmışdı. Kadet

---

[1] İsmayılov F. Dağlık Karabağ Probleminin Jeopolitik Kökleri, s.374
[2] Uras E. Tarihte Ermeniler ve Ermeni Meselesi, s.600
[3] Kocabaş S. Ermeni Meselesi Nedir, Ne Değildir? Ankara: 1989, s.102

V.Xarlamovun rəhbərlik etdiyi komitənin tərkibinə gürcü menşeviki A.Çxenkeli, sosial-federalist K.Abaşidze, azərbaycanlı bitərəf M.Y.Cəfərov və erməni kadeti M.Papacanov daxil idilər. 1917-ci il martın 17-də Müvəqqəti hökumətin Bakıda yerli hakimiyyət orqanı kimi yaratdığı İctimai Təşkilatların İcraiyyə Komitəsinə əvvəlcə L.N.Bıç, daha sonra Y.Frolov sədr seçilmişdi.

Ermənilər XCQK-dakı vəzifə bölgüsündən narazı qalmışdı. Müvəqqəti hökumət onları razı salmaq üçün azərbaycanlıların hərbi təşkilat qurmaq istəyinə icazə verməsə də, ermənilərin eyni tələblərini qəbul etmiş, hətta onlara yardım edəcəyi vədini də vermişdi. Bu istiqamətdə ən əhəmiyyətli addım Müvəqqəti hökumətin 1917-ci il mayın 9-da qəbul etdiyi "Müvəqqəti hökumətin "Türkiyə Ermənistanı" haqqında Nizamnamə"si oldu ki, bu qanuna görə müharibə dövründə rus işğalına məruz qalan şərqdəki türk torpaqları XCQK-nın nəzarətindən çıxarılaraq birbaşa Müvəqqəti hökumətə tabe edilir və "Türkiyə Ermənistanı" adı verilən bu bölgənin idarəsi üçün bir baş komissar təyin olunurdu. Beləliklə, XCQK-dakı vəzifə bölgüsündən məmnun qalmayan ermənilər razı salınmış olurdu. Beləliklə, Qafqazdakı qazanclarını itirmək təhlükəsi qarşısında qoymaq istəməyən Müvəqqəti hökumət belə bir qanun qəbul etməklə öz sələfi çar Rusiyasının birinci Dünya Müharibəsi dövründəki qənimətlərini qorumağı ermənilərə tapşırırdı.[1]

Baş komissar vəzifəsinə rus generalı Aleksandr Averyanov, baş komissarın mülki işlər üzrə müavini vəzifəsinə isə erməni daşnakı Akop Zavriyev təyin edilmişdi. Bu həmin A.Zavriyev idi ki, bir rus hərbçi zadəganı olan polkovnik Xristofor Zavriyevin ailəsində doğulmuş (1864-cü və ya 1866-cı ildə) və Peterburqadakı hərbi tibb akademiyasını bitirərək tibb doktoru dərəcəsini almış, saray müşaviri vəzifəsinədək yüksəlmişdi. 1891-ci ildən Daşnaksütyunun sıralarına qoşulan Zavriyev 1902-ci ildə Bakıda Balaxanı xəstəxanasının baş həkimi təyin olunmuşdu. 1912-1913-cü illərdə mühacirətdə olan bu

---

[1] Şahin E. Cihan Harbi'nin Son Yılında Türkiye Maverâ-yı Kafkasya'da, s.354

qatı daşnak terrorçusu Birinci Dünya müharibəsində, 1914-1915-ci illərdə erməni silahlı dəstələrinin tərkibində türklərə qarşı döyüşmüşdü. O, Daşnaksütyun partiyasının xarici işlər müdiri təyin olunan Zavriyev həmin 1917-ci ildə həmçinin "Türkiyə Ermənistanı" baş komissarının müavini kimi ermənilərin özünümüdafiəsinin təşkilinə cavabdehlik daşıyırdı. S.Şaumyanla gizli görüşən bu daşnak lideri sonradan "Türkiyə Ermənistanı"nın gələcəyi ilə bağlı danışıqlar aparmaq üçün Moskvaya da səfər etmişdi. Lakin 1918-ci ildə həbs olunmuş və iki il sonra yatalaq xəstəliyindən ölmüşdü. Daşnak lideri Zavriyevin qondarma "Türkiyə Ermənistanı" rəhbərinin müavini vəzifəsinə təyin olunması Müvəqqəti hökumətin milli siyasətinin əsl üzünü faş edirdi.

A.Averyanov və A.Zavriyev öz vəzifələrinin icrasına başlayan kimi "Türkiyə Ermənistanı" adı ilə onların idarəçiliyi altına verilən Şərqi Anadolu torpaqlarını Van, Ərzurum, Bitlis və Trabzon olmaqla dörd əsas bölgəyə bölmüş və bu vilayətlərin rəhbərliyinə Rusiyadan gətirilən erməniləri mülki rəislər kimi təyin etmişdilər. Bununla kifayətlənməyən baş komissar mülki məmurların hamısını ermənilərdən təyin etmiş, 150 min ermənininin Van, Ərzurum və Bitlis vilayətlərində məsklunlaşdırılması üçün hökumətdən icazə də almışdı. A.Averyanov və A.Zavriyev bu məsələdə elə sürətlə hərəkət etmişdilər ki, "Türkiyə Ermənistanı" haqında qərarın mayın 9-da qəbul olunmasına baxmayaraq, may ayı başa çatmamış haqqında bəhs edilən ermənilər bu bölgədə tam məskunlaşdırılmışdı. Belə ki, təkcə Van vilayətində 25 erməni ibtidai məktəbi fəaliyyətə başlamışdı. Beləliklə, ruslar işğal etdikləri türk torpaqlarını nə zamansa, qısa müddət ərzində boşaltmayacaq, ermənilər isə "rus süngüsünə arxalanaraq, Türkiyə və Cənubi Qafqazda öz milli problemlərini həll edəcəkdilər".[1]

Müvəqqəti hökumətin "Türkiyə Ermənistanı"nı ermənilərin idarəçiliyinə verilməsi istiqamətindəki fəaliyyətindən ruhlanan ermənilər Cənubi Qafqazda da XCQK tərəfindən qəzalara müvəkkillərin

[1] Şahin E. Cihan Harbi'nin Son Yılında Türkiye Maverâ-yı Kafkasya'da, s.354

göndərilməsi zamanı bu vəzifəyə öz nümayəndələrinin təyin olunmasına çalışırdılar.

Yerlərdə, o cümlədən Naxçıvanda da XCQK-ya tabe olmayan müsəlmanlardan (azərbaycanlılardan) və ermənilərdən ibarət milli komitələrinin formalaşması ikihakimiyyətliliyə səbəb olmuşdu. Fevral inqilabından sonra Naxçıvan, Culfa və Ordubad şəhərlərində əhalinin milli tərkibinə müvafiq olaraq təmsil edildiyi "qarışıq milli komitələr" yaradılmışdı. Milli komitələr milli hərəkatın qarşısında duran vəzifələri müəyyən edən tələblər hazırlamaqla yanaşı, şəhər dumaları və digər təşkilatlarla birgə Naxçıvan diyarında yerli hakimiyyət orqanlarının möhkəmlənməsinə də kömək edirdilər. Eyni zamanda, milli komitələrin silahlı qüvvələrinin yaradılmasına başlanırdı. Milli komitələrdə təmsil olunan əsas partiyalar – müsavatçılar və daşnaklar öz qüvvələrinin sayını artırmaq məqsədilə yerlərə öz təşkilatçılarını göndərirdilər. Əlbəttə, ilk vaxtlar, belə tədbirlər daha çox demokratik vasitələrə riayət etməklə həyata keçirilmişdi. Naxçıvan diyarında azərbaycanlıların əhalinin böyük əksəriyyətini təşkil etməsi (61 faizdən çox) onların qarışıq milli komitələrdə təmsil olunmasında da özünü göstərirdi. Belə vəziyyət daşnakların xeyrinə olmadığından, onlar müxtəlif fitnəkarlıqlara əl atır, milli nifaqı qızışdırırdılar. Bu isə, öz növbəsində, müsavatçıların və daşnakların qarışıq milli komitələrdə birgə fəaliyyət göstərməsini getdikcə çətinləşdirirdi. Milli Komitələrin "milli hissələr" bayrağı altında özlərinin silahlı qüvvələrini yaratması ermənilərin mövqeyini, xüsusilə təhlükəli edirdi. Naxçıvan milli komitələrində müsavatçıların mövqeyinin güclənməsi, onların başçılığı ilə silahlı qüvvələrin yaradılması, hadisələrin sonrakı gedişatının göstərdiyi kimi, dinc əhalinin daşnak fitnələrindən qorunmasında çox böyük əhəmiyyəti olmuşdu.[1]

XCQK-nın 26 aprel 1917-ci il tarixli qərarı ilə Bürhan bəy Maqsudov Naxçıvan qəzası üzrə müvəkkil təyin edilmişdi.[2] Naxçıvanlılar

---

[1] Sadıqov S.H. Naxçıvan Muxtar Respublikası tarixindən. Bakı: 1995, s.14

[2] NMRDA, f. 314, siy. 5, iş 63, v.15

qəzaya ikinci müvəkkilin ruslardan təyin olunmasını məqbul hesab edirdilər. 1917-ci ilin may ayında qəzanın Dizə kəndində keçirilmiş yığıncaqda qəbul edilmiş qərara əsasən XCQK-dan xahiş olunurdu ki, "Naxçıvan qəzasının yenidən təşkili üzrə müvəkkil vəzifəsinə əhalinin hədsiz dərəcədə inam və etibarını qazanmış, özünün iki aylıq işi ilə əsl qabiliyyətini və yerli hakimiyyəti demokratikləşdirmə əsaslarına uyğun olaraq təşkil etmə işi aparılmasının səmimi arzusunda olduğunu göstərmiş Aleksandr Aleksandroviç Kalyujnı" təsdiq edilsin.[1] Lakin bununla razılaşmayan ermənilər müvəkkilliyə öz nümayəndələrini təyin etdirməyə çalışırdılar. Naxçıvandakı erməni milli komitəsinin sədri və erməni kilsəsinin baş rahibi arximandrit Sion 1917-ci ilin iyununda növbəti dəfə XCQK-nın erməni üzvü Papacanova müraciət edərək "təkidlə xahiş edirdi ki, yerli orqanları yenidən qurmaq üçün qəzaya erməni müvəkkil ezam edilsin".[2] Papacanovun səyi ilə XCQK ermənilərin bu arzusunu yerinə yetirərək 1917-ci il iyulun 18-də Mxitaryansı Naxçıvan qəzası üzrə müvəkkil, S.Abqaryan və K.Mtenanyanı onun köməkçiləri təyin etmişdi.[3] İyunun 1-də isə Hüseynqulu Şəfiyev və Qeğam Ter-Arutyunyans Şərur-Dərələyəz qəzasına müvəkkil təyin olunaraq bölgəyə göndərilmişdilər. İyul ayında Q.Ter-Arutyunyansı vəzifəsində L.Əmirxanov əvəz etmişdi.[4] Çarizmin süqutundan sonra Müvəqqəti hökumətin Naxçıvan və Şərur-Dərələyəz qəzalarının hər birinə biri azərbaycanlı, digəri erməni olmaqla iki komissar təyin etməsi qəzalarda ikihakimiyyətliliyin yaranmasına səbəb oldu.

1917-ci ilin avqust ayında XCQK B.Maqsudovun yerinə Naxçıvan qəzasına, eləcə də Yeni Bəyazit qəzasına müsəlman müvəkkilin təyin edilməsi üçün namizədlər verilməsini qurumun azərbaycanlı üzvü M.Y.Cəfərovdan xahiş etmişdi. Elə həmin vaxt Naxçıvan qəzasının

---

[1] Yenə orada, v. 9
[2] Yenə orada, v.21
[3] Yenə orada, v.69, 86
[4] Yenə orada, v. 143, 146-147

erməni müvəkkili Mxitaryans teleqramında müsəlman müvəkkil olmadığından vəzifəsini icra edə bilmədiyini yazırdı. 1917-ci il avqustun 30-da M.Y.Cəfərovun təqdimatı ilə Baxşəli ağa Şahtaxtinski Naxçıvana qəza müvəkkili təyin edildi.[1] B.Şahtaxtinskinin 21 oktyabr 1917-ci il tarixli 115 №-li məktubuna əsaslanan XCQK noyabrın 4-də İrəvan quberniyasının komissarına yazırdı ki, Yamxana, Qaraxanbəyli və Tumbul kəndlərində yaşayan ermənilər bu yaşayış məntəqələrinin xüsusi kənd cəmiyyətləri kimi ayrılmaları barədə icma qərarları çıxarmışlar.[2] Halbuki həmin kəndlərin heç birində ermənilər çoxluq təşkil etmirdi.

Şərur-Dərələyəz qəzasının müvəkkili L.Əmirxanov 1917-ci il iyulun 27-də XCQK-ya göndərdiyi məktubunda İran kürdlərinin onun rəhbərlik etdiyi qəza ilə Yeni Bəyazit qəzasının həmsərhəd kəndlərinə talançı hücumlarından və əhalinin hücuma məruz qalmasından şikayətlənir, guya yerli müsəlmanların da kürdlərə kömək etdiyini yazırdı.[3] Naxçıvanın qəza müvəkkili Mxitaryans da 2 sentyabr 1917-ci il tarixli teleqramında yazırdı ki, "Bizdə də quldur dəstələri peyda olub, hər yerdə tez-tez qətllər olur, oğurlayırlar, əhali, xüsusilə erməni əhali əziyyət çəkir".[4] Teleqram yeni təyin olunmuş azərbaycanlı müvəkkil Baxşəli ağa Şahtaxtinskinin Naxçıvana gəlişindən bir neçə gün əvvəl (o, sentyabrın 8-də Naxçıvana gəlmişdi) göndərilmişdi. 1917-ci ilin sonu-1918-ci ilin əvvəllərində Naxçıvan qəzasında müxtəlif vəzifələrə təyin edilmiş ermənilər də Cənubi Qafqaz Komissarlığına göndərdikləri məlumatlarda "kürd-tatar" silahlı dəstələrinin ermənilər yaşayan ərazilərə qanlı və talançı yürüşləri barədə yazırdılar.[5] Belə məlumatların göndərilməsi ermənilərin öz qanlı cinayətlərinin pərdələnməsi amalına xidmət edirdi.

[1] NMRDA, f. 314, siy.5, iş 63, v.41, 44, 46
[2] Yenə orada, v. 84
[3] Yenə orada, v. 146-147
[4] Yenə orada, v. 107
[5] Yenə orada, iş 57, v.1-7

Cənubi Qafqaz xalqlarının siyasi dairələri Rusiyada baş vermiş oktyabr çevrilişindən sonra hakimiyyətə gələn Leninin liderliyindəki bolşevik hökumətini tanımayaraq, Müvəqqəti hökuməti Rusiyanın legitim iqtidarı kimi qəbul etməkdə davam edirdilər. Cənubi Qafqaz liderləri belə düşünürdülər ki, keçirilməsi nəzərdə tutulan Ümumrusiya Müəssislər Məclisinin öz işinə başlaması ilə Rusiyada siyasi rejim və hakimiyyət məsələsi öz həllini tapacaq və bolşevik hökuməti qeyri-konstitusion elan ediləcəkdir. Bu baxımdan bolşevik hökuməti ilə hər hansı münasibət qurmaq haqqında düşünməyən Cənubi Qafqazın milli siyasi partiyaları 1917-ci il noyabrın 24-də Tiflisdəki Xalqlar evində geniş bir yığıncaq təşkil etdilər. Beş gün davam edən yığıncağın sonunda, noyabrın 28-də XCQK-nın yerində Cənubi Qafqaz Komissarlığı yaradıldı. Cənubi Qafqaz hökuməti funksiyaları daşıyacaq olan Cənubi Qafqaz Komissarlığının (CQK) səlahiyyətinin Ümumrusiya Müəssislər Məclisinin açılmasınadək davam etməsi nəzərdə tutulmuşdu. Komissarlığın tərkibindəki 11 komissarın üçü gürcülərdən, üçü azərbaycanlılardan, üçü ermənilərdən, ikisi isə ruslardan seçilmişdi. Əsas komissarlıqların gürcülərə aid olduğu CQK-da rəhbərliyi də gürcü menşeviki E.P.Gegeçkori həyata keçirirdi.[1] Bu dövrdə azərbaycanlılar və gürcülərlə bərabər, çarizmin köçürmə siyasətinin nəticəsi olaraq Cənubi Qafqazda ermənilərin də etnik-siyasi amilə çevrilməsi nəticəsində üç əsas xalqın nümayəndələrinin CQK-da təmsil olunması ilə yanaşı, ruslara da yer verilməsi həmin dövrdə Cənubi Qafqazın milli siyasi partiyalarının öz ölkələrinin müstəqilliyinə dair hər hansı platformaya malik olmadığını göstərirdi. Başqa sözlə, 1917-ci ilin sonlarında həmin partiyalar Cənubi Qafqazı hələ də Rusiya imperiyasının (sovet Rusiyasının yox) tərkibində görürdülər.

Belə bir dövrdə yaranmış mürəkkəb vəziyyətdən istifadə edən ermənilər 1918-ci il yanvarın 14-də Saak Torosyanın İrəvan quberniya komissarı təyin edilməsinə nail oldular. S.Torosyan Cənubi Qafqaz Komissarlığının daxili işlər komissarı A.Çxenkeliyə, maliyyə naziri

---

[1] Şahin E. Cihan Harbi'nin Son Yılında Türkiye Maverâ-yı Kafkasya'da , s. 354

X.Karçikyana vurduğu teleqramlarda quberniyadakı ağır vəziyyətdən, milli qarşıdurmanın güclənməsindən şikayətlənir, təcili kömək istəyirdi. O, baş verən silahlı toqquşmaların məsuliyyətini azərbaycanlıların üzərinə qoyur, ermənilərdən ibarət hərbi hissələrin köməyə göndərilməsini xahiş edirdi.

Oktyabr çevrilişinə bir az qalmış, 1917-ci il sentyabrın əvvəllərində Lenin hökumətinin Osmanlı torpaqlarının ilhaqı üçün davam etdirdiyi müharibəyə qarşı "Ermənistandan (*Şərqi Anadolu nəzərdə tutulur – Red.*), istərsə də türk torpaqlarından geri çəkilmək" fikrini müdafiə edirdi. Həmin təbliğatın davamı kimi, oktyabrın 26-da (noyabrın 8-də) Rusiya Xalq Komissarları Sovetinin sədri Leninin imzası ilə fəhlə, əsgər və kəndli deputatlarının birinci Ümumrusiya qurultayında qəbul edilən "Sülh haqqında dekret"lə müharibədə iştirak edən bütün xalqlara və onların hökumətlərinə müraciət edilərək dərhal başqalarının torpaqlarını işğal etmədən, başqa millətləri zorla özünə tabe etmədən və təzminatsız ədalətli demokratik sülh haqqında danışıqlara başlamaq təklif olunurdu. Bir qədər sonra, 1917-ci il noyabrın 20-də Leninin imzası ilə yayılan "Rusiyanın və Şərqin bütün müsəlman zəhmətkeşlərinə" müraciətində "Türkiyənin parçalanmasına və Ermənistanın (*Şərqi Anadolunun – Red.*) onun əlindən alınmasına dair anlaşmanın ləğv edildiyi bildirilirdi. Bolşevik hökumətinin milli məsələlər üzrə xalq komissarı İ.Stalinin 1917-ci il dekabrın 31-də yaydığı "Türkiyə Ermənistanı" haqqında məlumatda Qərb dövlətlərinin Şərqi Anadoluda həyata keçirdikləri siyasi oyunları və bu oyunlarda ermənilərdən necə istifadə edildiyi və onların qırğına məruz qoyulduğu barədə danışılırdı.[1] Hətta çarizmin 1877-1878-ci illər müharibəsi zamanı işğal etdiyi bütün Osmanlı torpaqları 3 mart 1918-ci il tarixli Brest-Litovsk müqaviləsinə əsasən Türkiyəyə qaytarılırdı. Lakin bu, Leninin tarixi ədaləti bərpa etmək cəhdi ilə bağlı deyildi. Sadəcə tarixdə ilk sovet dövlətinin banisi olmuş Lenin yaxşı anlayırdı ki, yeni siyasi-iqtisadi sistemə yenicə keçmiş Rusiya müharibəni davam etdirmək

[1] Perinçek M. Sovyet Arşivleri Türkiye'nin Tezlerini Doğruluyor, s.131

iqtidarında deyildi, müharibə davam etdirilərdisə, sovet Rusiyası dağılmağa məhkum idi. Bu baxımdan bolşevik çevrilişi daşnaklar tərəfindən yaxşı qarşılanmamışdı. Halbuki elə "Türkiyə Ermənistanı" haqqında məlumatın yayılması, ümumiyyətlə, bu ifadənin işlədilməsi belə sovet Rusiyasının ermənilərin mənafeyinə uyğun siyasət yürütməyi planlaşdırdığının göstəricisi idi.

Lakin çarizmin ermənipərəst siyasəti sovet Rusiyası tərəfindən də davam etdirildi. Leninin milli məsələdə, xüsusən Cənubi Qafqazda yürütdüyü siyasət sovet Rusiyası üçün də "erməni məsələsi"nin aktual siyasət predmeti olduğunu göstərirdi. 1917-ci il dekabrın 16-da qatı millətçi və terrorçu S.Şaumyanın RSFSR Xalq Komissarları Soveti tərəfindən Qafqaz işləri üzrə müvəqqəti fövqəladə komissar təyin edilməsi bolşeviklərin milli məsələdə yürütdüyü siyasətin mahiyyətini üzə çıxardı. O, hələ 1911-ci ildə Həştərxanda sürgündə olarkən "...Leninlə, xüsusən milli məsələ barədə yazışırdı".[1] Şaumyan 1917-ci il fevral burjua inqilabından sonra qiyabi olaraq Bakı Sovetinin sədri seçilmiş, həmin ilin noyabrından isə bilavasitə rəhbərlik etmişdi. O, əsas təşkilatçısı və baş icraçısı olduğu 1918-ci ilin mart qırğınları ərəfəsində cəmi 16 yaşı olan oğlu Suren Şaumyanı RK(b)P Bakı Komitəsi yanında döyüş drujinası pulemyot komandasının rəisi təyin olunmasına nail olmuş, oğlunu da qanlı cinayətlərin fəal icraçısına çevirmişdi. Yeniyetmə oğlunun qanlı cinayətlərə alət edilməsində Şaumyanın məqsədi azərbaycanlılara qarşı soyqırımın xüsusi qəddarlıq və mütəşəkkilliklə törədilməsinə nəzarəti öz əlində saxlamaq idi.

1917-ci ilin dekabr ayında bolşeviklər ermənilərlə bağlı siyasətləri açıq xarakter aldı. Rusiya Xalq Komissarları Soveti 1917-ci il dekabrın 29-da Bakı Sovetinin sədri S.Şaumyanı Qafqazda sovet hakimiyyətinin qurulmasınadək Qafqaza fövqəladə komissar təyin etdi. Bundan cəmi iki gün sonra bolşevik hökumətinin rəsmi mətbu orqanı olan "Pravda" qəzetində İ.Stalinin imzası ilə məlum "Türkiyə Ermənistanı" haqqında məlumatda "Türkiyə Ermənistanı" Rusiya

[1] Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə, X cild. Bakı: 1987, s.470

tərəfindən "müharibə qaydalarına uyğun olaraq" tutulan "cənnət guşəsi" adlandırılır və bildirilirdi ki, "Öz vətənlərinin qəhrəman müdafiəçisi, lakin uzaqgörən siyasətçilər olmayan, imperialist diplomatiya yırtıcıları tərəfindən dəfələrlə aldadılan Ermənistanın oğulları indi görməyə bilməzlər ki, köhnə diplomatik kombinasiyalar yolu Ermənistanın azad edilməsi yolu deyildir. Aydındır ki, əsarət altına alınmış xalqların azad edilməsi Rusiyada oktyabr ayında başlayan fəhlə inqilabından keçir. İndi hamı üçün aydındır ki, Rusiya xalqlarının, xüsusilə erməni xalqının taleyi oktyabr inqilabının taleyi ilə sıx bağlıdır. Oktyabr inqilabı xalqların əl-ayaqlarına vurulmuş milli əsarət zəncirini dağıtmışdır. Yalnız o, Rusiya xalqlarının azad edilməsi işini sona çatdıra bilər". Bolşeviklərin antitürk siyasətinin mahiyyəti müraciətin sonunda daha açıq şəkildə ifadə edilirdi: "Bu mülahizələrdən çıxış edərək, Xalq Komissarları Soveti "Türkiyə Ermənistanı"nın sərbəst şəkildə öz müqəddəratını təyin etməsi haqqında xüsusi dekret vermək qərarına gəlmişdir. Bu xüsusilə indi, öz imperialist təbiətlərinə sadiq qalan alman-türk hökumətlərinin işğal olunmuş vilayətləri zor gücünə öz hakimiyyətləri altında saxlamaq arzusunu gizlətmədiyi bir vaxtda xüsusilə zəruridir. Qoy Rusiya xalqları bilsinlər ki, rus inqilabına və onun hökumətinə işğallara cəhd göstərmək xisləti yaddır".[1] Müraciətdəki "Rusiya xaqlarının" ifadəsi əslində elə sovet Rusiyasının tam olaraq çarizmin milli siyasətinin, müraciətin bilavasitə ermənilərə ünvanlanması, ermənilərin milli qırğına məruz qoyulduğunun bildirilməsi isə onun ermənipərəst siyasətinin varisi kimi çıxış etdiyinə işarə idi. Halbuki sovet-rus hakim dairələri "Türkiyə Ermənistanı" ifadəsinin özünün belə yanlış ifadə olduğunu və bu ad altında nəzərdə tutulan ərazinin ermənilərə aid olmadığını, həmin dövrdə də bu ərazidə müsəlman əhalinin çoxluq təşkil etdiyini yaxşı bilirdilər. Çünki yuxarıdakı dekretin verilməsindən cəmi bir neçə ay sonra, 1921-ci il iyulun 16-da RSFSR Xalq Xarici İşlər Komissarlığından RK(b)P MK Siyasi Bürosuna "Erməni məsələsi" adı ilə təqdim edilən məlumatda

---

[1] О «Турецкой Армении» / www.hrono.ru/libris/stalin/4-36.html

"Türkiyə Ermənistanı" adlandırılan ərazidə müsəlmanlar çoxluq təşkil edir" yazılmışdı.[1]

Sovet Rusiyasının ermənilərlə bağlı atdığı ikinci ən mühüm addım Xalq Komissarları Sovetinin sədri V.Ulyanovun (Leninin), millətlər işi üzrə xalq komissarı İ.Cuqaşvilinin (Stalinin), hökumətin işlər müdiri Bonç-Bruyeviçin və katib N.Qorbunovun imzası ilə 1917-ci il dekabrın 29-da (1918-ci il yanvarın 11-də) dərc edilən "Türkiyə Ermənistanı" haqqında Dekret" oldu. Dekretin elə ilk cümləsi sovet Rusiyasının milli siyasətinin əsl mahiyyətini ortaya qoyurdu: "Xalq Komissarları Soveti erməni xalqına elan edir ki, Rusiyanın Fəhlə və Kəndli hökuməti Rusiya tərəfindən işğal edilmiş "Türkiyə Ermənistanı" ermənilərinin tam müstəqilliyədək gedib çıxan öz müqəddəratını sərbəst şəkildə təyin etmə hüququnu tanıyır". Bu, heç vaxt həmin bölgədə əhali çoxluğuna malik olmayan ermənilərə faktiki olaraq müstəqil dövlət qurmaq imkanının tanınması idi. Dekretdə daha sonra bu hüququn gerçəkləşdirilməsi naminə erməni xalqının azad referendumunun keçirilməsi üçün bir sıra ilkin təminatların mövcud olmasının zəruriliyi qeyd edilir və həmin təminatlar aşağıdakı kimi sıralanır:

"1. "Türkiyə Ermənistanı"ndan orduların çıxarılması və "Türkiyə Ermənistanı" əhalisinin şəxsi və mülki təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə təxirə salınmadan erməni xalq milisinin təşkili.

2. Erməni qaçqınlarının, həmçinin müxtəlif ölkələrdə məskunlaşmış erməni köçkünlərinin "Türkiyə Ermənistanı" ərazisinə maneəsiz qayıtması.

3. Müharibə vaxtı türk hökuməti tərəfindən zorla Türkiyənin başqa ərazilərinə sürgün edilmiş ermənilərin "Türkiyə Ermənistanı" ərazisinə maneəsiz qayıtması. Xalq Komissarları Soveti türk hökuməti ilə sülh danışıqlarında bu məsələ üzərində təkidlə dayanacaqdır.

---

[1] Perinçek M. Sovyet Arşivleri Türkiye'nin Tezlerini Doğruluyor, s.136

4. Demokratik əsaslarla seçilmiş erməni xalqının Deputatlar sovetinin simasında “Türkiyə Ermənistanı”nın Müvəqqəti xalq hökumətinin təşkili”.

Dekretin sonunda Qafqaz işləri üzrə fövqəladə müvəqqəti komissar S.Şaumyana “Türkiyə Ermənistanı” əhalisinə 2-ci və 4-cü bəndlərin həyata keçirilməsində istənilən köməyi göstərmək, eləcə də “Türkiyə Ermənistanı” ərazisindən qoşunların çıxarılmasının müddəti və üsullarını müəyyən etmək üçün qarışıq komissiyanın yaradılması işinə başlamaq tapşırılırdı. Sənədin qeyd hissəsində bildirlirdi ki, “Türkiyə Ermənistanı”nın coğrafi sərhədləri erməni xalqının demokratik şəkildə seçilmiş nümayəndələrinin qonşu mübahisəli (müsəlmanlar və başqaları) vilayətlərin demokratik seçilmiş nümayəndələri ilə razılaşdırılmaqla Qafqaz işləri üzrə fövqəladə müvəqqəti komissarla birlikdə müəyyənləşdirilir.[1]

Əslində bu sənəd mahiyyət və məzmunca Rusiyadakı Müvəqqəti hökumətin 1917-ci il mayın 9-da qəbul etdiyi “Müvəqqəti hökumətin “Türkiyə Ermənistanı” haqqında Nizamnamə”si ilə eyniyyət təşkil edirdi. Hətta S.Şaumyan, bir çox müəlliflərin öz əsərlərində qeyd etdiyi kimi, yalnız Cənubi Qafqaz və Qafqazın Rusiya tərkibindəki əraziləri üzrə deyil, həm də Şərqi Anadolunun rus işğalı altındakı əraziləri üzrə də (eyni ilə A.Avriyanov kimi) idarəçilik səlahiyyətləri alırdı. Dekretdə ermənilərə “Türkiyə Ermənistanı” ərazisində tam müstəqilliyin vəd edilməsi isə sovet Rusiyasının “erməni məsələsi”nə dair siyasətində öz sələflərindən də xeyli irəli getdiyini sübut edirdi. Heç şübhəsiz ki, bu yaranmış şəraitdə Cənubi Qafqazda özünün xilası üçün yeganə yolu Türkiyənin hərbi-siyasi yardımında görən Azərbaycan türkləri üçün yalnız faciəvi sonluq vəd edirdi.

Bu zaman onsuz da Rusiya ilə Türkiyə arasında 1917-ci il dekabrın 5-də (18-də) bağlanmış 14 maddəlik Ərzincan sazişinə əsasən Birinci Dünya müharibəsini tərk etmiş rus ordusunun silahlarının

---

[1] Декрет о «Турецкой Армении» 29 декабря 1917 г. (11 января 1918 г.) / www.hist.msu.ru/ER/Etext/DEKRET/17-12-29.htm

ermənilərə verilməsi azərbaycanlı əhalinin vəziyyətini xeyli ağırlaşdırmışdı. Bu, ermənilərin bölgədə hərbi üstünlüyünü təmin edən erməni hərbi birləşmələrinin Azərbaycanın bütün bölgələrinə, o cümlədən Naxçıvana irimiqyaslı hücumlarına rəvac verən həlledici amil oldu. Cənubi Qafqaz Komissarlığının silahlanma məsələsində ayrı-seçkilik siyasəti azərbaycanlı əhalinin komissarlıqdan narazılığına səbəb oldu. A.Səfikürdski azərbaycanlıların bölgədə çoxluq təşkil etdiyini nəzərdə tutaraq qeyd edirdi ki, "Transqafqazda kiçik qardaşlar olan ermənilər və gürcülər silahlandırıldıqları halda, böyük qardaş olan müsəlmanlara silah verilmədi".[1] Nəticədə 1918-ci ilin ilk aylarından baş verən qanlı hadisələrin iştirakçıları "bir tərəfdə qeyri-mütəşəkkil müsəlman kütləsi, digər tərəfdə mütəşəkkil erməni nizami hərbi hissələri"[2] idi. Yaranmış vəziyyətdən istifadə edən bolşeviklərin nəzarətində olan Bakı Soveti 1918-ci il yanvarın 15-də verdiyi dekretə əsasən özünün silahlı qüvvələrini yaratdı. Təşkil edilən qvardiya dəstələri əsasən Birinci Dünya müharibəsi cəbhələrindən qayıdan erməni əsgərlərinin hesabına komplektləşdirilir və genişləndirilirdi. Qızıl qvardiya dəstələrinə rəhbərlik etmək üçün yaradılan Mərkəzi ştabın tərkibinə Baqdasarov, Martikyan, Mikoyan, Vatsek, Qabışev, Pleşakov, Solntsev və başqaları daxil idi.[3] Beləliklə, ermənilər 1918-ci ilin əvvəllərindən azərbaycanlılara qarşı soyqırımının yeni mərhələsinə başlamaq üçün lazımi hərbi resursu əldə etdilər.

1918-ci ilin may ayında Cənubi Qafqazda yeni tarixi-siyasi şərait yarandı. Mayın 28-də Azərbaycan öz dövlət müstəqilliyini elan etdi. Xalq Cümhuriyyətinin yaradılması Azərbaycan tarixində çox mühüm hadisə olub, torpaqlarımızın erməni təcavüzündən qorunacağına böyük ümidlər yaratmışdı.

---

[1] Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920). Bakı: Azərnəşr, 1993, s. 39

[2] NMRDA, f. 314, siy. 5, iş 68, v.44

[3] İbrahimova A.Z. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində / kayzen.az/blog/Azərbaycan-tarixi/5539/azərbaycan-xalq-cümhuriyyətinin-yaranması-ərəfəsində.html

Azərbaycan Xalq Cümhuriyyəti ilə eyni vaxtda Qərbi Azərbaycan torpaqlarında – keçmiş İrəvan quberniyasının ərazisində işğalçı daşnak rejimi quruldu. Bu rejimi daşnaklar digər erməni siyasi təşkilatlarından ayrı, təkbaşına qurmuşdu. Belə ki, 1919-cu il avqustun 1-də açılan işğalçı rejimin parlamentinin 80 üzvündən 72-si (90 faizi) daşnak idi, yalnız eserlər partiyasına 4 yer verilmişdi. Bu, əslində parlament deyil, Daşnaksütyunun məclisi idi.[1] Daşnakların təkbaşına iqtidar qurmağı sübut edir ki, digər erməni siyasi partiyalarına nisbətən daha mütəşəkkil qüvvə kimi məhz daşnaklar Cənubi Qafqazda qondarma erməni dövlətinin qurulmasında maraqlı olan xarici dövlətlərdə, xüsusən İngiltərə və Rusiyanın hakim dairələrində özlərinə lazımi dayaq tapa bilmişdi. Qərbi Azərbaycanın bir hissəsində qurulmuş 30 aylıq (may 1918-noyabr 1920) işğalçı daşnak rejimi zamanı burada yaşayan azərbaycanlıların 60 faizi öldürüldü. Daşnaklar Gürcüstandan Borçalı və Axalkələki, Azərbaycandan isə Qarabağ, Naxçıvan və Gəncə əyalətinin bir qismini (*Zəngəzuru – Red.*) tələb edirdi.[2] Lakin bu azğınlıqlara baxmayaraq müttəfiq dövlətlər – İngiltərə və Fransa daşnakların hərbi əməliyyatlarına yardım göstərməkdə davam edirdi.[3]

1920-ci il aprelin 27-28-də rus-sovet ordusunun hərbi müdaxiləsi nəticəsində Azərbaycan Xalq Cümhuriyyətinin süqutu Naxçıvanda onsuz da gərgin olan hərbi-siyasi vəziyyəti daha da mürəkkəbləşdirdi. Aprelin 28-də 11-ci Qızıl ordunun hərbi şurası və Azərbaycan İnqilab Komitəsi Naxçıvana göndərdikləri teleqramda hakimiyyətin sovetlərə verilməsini tələb etdi. Naxçıvan İnqilab Komitəsinin sədri, sonra isə sədr müavini işləmiş İ.Ponomaryov bu barədə Azərbaycan İnqilab Komitəsinə göndərdiyi məlumatda yazırdı: “1920-ci il aprelin

---

[1] Uras E. Tarihte Ermeniler ve Ermeni Meselesi, s.674

[2] Cabbarlı H. Geçmişten Günümüze Ermenistanda Azerbaycan Türkleri // “Ermeni Araştırmaları” Üç Aylık Tarih, Politika ve Uluslararası İlişkiler Degisi, Ankara: Aralık 2001-Ocak-Şubat 2002, Sayı 4, s.135

[3] Mədətov Q. Naxçıvanda sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-nin təşkili. Bakı: 1958, s.39

28-də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Naxçıvanı təmsil edən nümayəndəsi məni yanına çağırtdıraraq bildirdi ki, Bakıdan telefonoqramma ilə aldığımız sərəncama əsasən hakimiyyət sovetlərə keçir. Siz yeni hökumət təşkil edin. Biz kommunistləri, sol cinahdan olan nüfuzlu şəxsləri təcili surətdə çağırıb, tərkibi yeddi nəfərdən ibarət İnqilab Komitəsi yaratdıq. Lakin Bakıdan verilən sərəncamlara əsasən bir həftə ərzində İnqilab Komitəsinin sədri uç dəfə dəyişdirildi".[1]

Lakin Naxçıvan İnqilab Komitəsinin arxasında real siyasi və hərbi qüvvə durmadığı, daşnak fitnəkarlıqlarının və basqınlarının isə davam etdiyi bir şəraitdə Naxçıvan Müsəlman milli komitəsinin rəhbərliyi hakimiyyəti təhvil verməyə tələsmədi. Çünki yeni hakimiyyət Azərbaycanla Ermənistan arasında münasibətlərin əsl mahiyyətinə bələd olsa da, Naxçıvan məsələsinə öz münasibətini hələ qəti olaraq bildirməmişdi.[2] Bunu 1920-ci il aprelin 30-da Azərbaycan SSR Xarici İşlər komissarının müavini M.D.Hüseynovun daşnak rejiminin xarici işlər nazirliyinə göndərdiyi notadan da aydın görmək olur. Notada deyilirdi: "Azərbaycan Sovet Sosialist Respublikasının fəhlə-kəndli hökuməti İnqilab Komitəsinin simasında sizdən tələb edir: 1) Qarabağ və Zəngəzuru öz qoşunlarınızdan dərhal təmizləyin; 2) Qoşunlarınızı öz sərhədlərinizə çəkin; 3) Milli qırğınlara son qoyun. Əks təqdirdə Azərbaycan Sovet Sosialist Respublikasının İnqilab Komitəsi özünü sizinlə müharibə vəziyyətində hesab etmiş olacaqdır. Notaya cavab vermək üçün üç gün vaxt verilir".[3] Göründüyü kimi, notada Naxçıvanla bağlı heç nə deyilmirdi.

Sovet Rusiyasının Azərbaycan torpaqları ilə bağlı məsələdə tutduğu mövqe bir çox hallarda ABŞ və İngiltərənin, habelə daşnak hökumətinin mövqeyi ilə üst-üstə düşürdü. Elə bunun ifadəsi idi ki, sovet Rusiyasının xarici işlər komissarı G.V.Çiçerin 1920-ci il iyunun

---

[1] AMEA Tarix İnstitutunun Elmi Arxivi, iş 1027, v.105
[2] Sadıqov S.H. Naxçıvan Muxtar Respublikası tarixindən, s.29
[3] NMRDA, f. 314, siy. 5, iş 11, v.27

2-də rusların Qafqazdakı emissarı Q.Orconikidzeyə yazırdı: "Daşnak hökuməti ilə kompromisə nail olmaq bizim üçün vacibdir. Bu arada Azərbaycan hökuməti nəinki Qarabağ və Zəngəzuru, həm də Şərur-Dərələyəz qəzasını mübahisəli ərazi elan edir. Sonuncu heç vaxt, heç kim tərəfindən mübahisəli elan edilməmişdir, buranı hətta Müsavat hökuməti həmişə Ermənistanınkı kimi qəbul etmişdir. Onsuz Ermənistandan, demək olar ki, heç nə qalmır. Bakıda özünüzün böyük nüfuzunuzdan istifadə edərək Azərbaycan hökumətinin Şərur-Dərələyəz qəzasının deyil, Qarabağ və Zəngəzurun mübahisəli hesab edilməyinə nail olmağınızı xahiş edirik".[1] Belə aydın olur ki, sovet hökumətinin bütün cidd-cəhdi Qarabağ və Zəngəzurun mübahisəli ərazilər, Şərur-Dərələyəz qəzasının erməni ərazisi olduğunu Azərbaycan hökumətinə qəbul etdirməkdən ibarət idi. Başqa sözlə, qondarma erməni dövlətinin ərazisinin Azərbaycan torpaqları, o cümlədən onun Naxçıvan bölgəsinin ərazisi hesabına genişləndirilməsi sovet Rusiyası üçün prioritet məsələyə çevrilmişdi.

1920-ci il iyunun 19-da N.Nərimanovun, P.Mdivaninin və b. imzaları ilə RSFSR Xarici işlər komissarı G.Çiçerinə və surəti Vladiqafqazda olan XI Qızıl ordu hərbi şurasının üzvü Q.Orconikidzeyə göndərilən teleqramda ermənilərin Azərbaycanın bütün ərazisi boyu törətdikləri qanlı qırğınlar və onun səbəb olduğu vəziyyət təhlil edilirdi: "Daşnak hökuməti Azərbaycanda öz qanunsuz işlərini davam etdirir… Daşnaklar tərəfindən onlarca kənd dağıdılmışdır. Müsəlman kəndliləri kütləvi surətdə daşnaklar tərəfindən doğranmışlar… Culfa və Naxçıvan rayonlarında müsəlmanların yurdları daşnaklar tərəfindən tutulmuş, bir ildən çoxdur ki, əlaqələr kəsilmişdir. Yerli əhali öz qüvvələri ilə daşnak hökumətinin əleyhinə çıxıb müdafiə mövqeyi tutmuşdur. Onlar bu mübarizədə öz qüvvələrinə və Türkiyə qoşunlarının

[1] Azərbaycan Respublikası Prezidentinin İşlər İsarəsinin Siyasi Sənədlər Arxivi (ARPİİSSA). Surət fondu, inv. №594

gücünə arxalanırlar. Bizim qoşunlar bu yerləri azad etdikdən sonra həmin yerlər ancaq Azərbaycana birləşdirilməlidir".[1]

Q.Orconikidze teleqramı elə həmin gün V.Lenin və G.Çiçerinə göndərmiş, Naxçıvandakı vəziyyəti tamamilə təhrif edən öz fikirlərini də əlavə etmişdi: "Qarabağda və Zəngəzurda sovet hakimiyyəti elan edilmişdir. Göstərilən ərazilər Azərbaycan Sovet Sosialist Respublikasının ayrılmaz hissəsidir. Naxçıvan bir neçə aydır üsyançı müsəlmanların əlindədir. Ümumiyyətlə, mənim fikrimcə, Azərbaycanın nümayəndəsini Moskvaya çağırıb onunla birlikdə Azərbaycana və Ermənistana aid mübahisəli məsələləri həll etmək lazımdır".[2] Bu məlumatdan belə anlaşılır ki, sanki Naxçıvan Azərbaycan ərazisi deyildir və teleqramdakı məlumatın əksinə olaraq, Naxçıvanı daşnaklar deyil, hansısa "üsyançı müsəlmanlar" ələ keçirmişlər. Bu, G.Çiçerinin təlimatı ilə hərəkət edən Q.Orconikidzenin elə ilk gündən antiazərbaycan mövqe tutduğunun və sovet Rusiyası hökumətinin Azərbaycanın "mübahisəli əraziləri" məsələsində, o cümlədən Naxçıvan məsələsində ermənipərəst siyasətinin bariz göstəricisi idi.

Lakin ABŞ prezidenti V.Vilsonun "Qara dənizdən Aralıq dənizinədək Ermənistan" layihəsinin fikir ayrılığına səbəb olduğu sovet Rusiyasının hakim dairələrində həmin layihəni dəstəkləyənlər bilavasitə Lenin və Stalin tərəfindən sərt tənqid edilmişdi. Stalin 1920-ci il iyulun 8-də Orconikidzeyə "gecə yarısınadək çatdırılsın" dərkənarı ilə göndərdiyi təcili teleqramda yazırdı: "Məncə əbədi ziqzaqla hərəkət edərək iki tərəf arasında oynamaqla bir nəticə əldə etmək olmaz, tərəflərdən birini, hazırkı vəziyyətdə, əlbəttə ki, Azərbaycanla Türkiyəni qəti olaraq müdafiə etmək lazımdır. Mən Leninlə də söhbət etdim, o da etiraz etmədi. Stalin".[3]

---

[1] ARDA, f. 10, siy. 3, iş 69, v.181-187

[2] Гулиев Дж.Б. Борьба Коммунистической партии за осуществление Ленинской национальной политики в Азербайджане. Баку: Азернешр, 1970, 705 с. 556-557

[3] Perinçek M. Sovyet Arşivleri Türkiye'nin Tezlerini Doğruluyor, s.134-135

Ümumiyyətlə, sovet Rusiyasının bu dövrdə Cənubi Qafqazda milli məsələdə tutduğu riyakar mövqeyə təsir göstərən amillər sovet rəhbərliyində ermənipərəst və antitürk (həm də antiazərbaycanlı) şəxslərin olması, Azərbaycanın Ermənistana nisbətən daha tez sovetləşdirilməsi, Qərb dövlətlərinin (ABŞ, İngiltərə, Fransa) Türkiyəyə qarşı münasibətlərində erməniləri dəstəkləməsi, rus hakim dairələrinin Türkiyə ilə münasibətlərdə səmimi olmaması (*sovet xadimləri Türkiyə ilə münasibətlərdən istifadə edərək bolşevizmi bu ölkəyə də ixrac etmək arzusunda idilər – Red.*) və s. kimi təzadlı faktorlar idi.

Halbuki həmin dövrdə sovet Rusiyası Türkiyədə Mustafa Kamal paşanın başçılığı ilə qurulan milli hökumətlə münasibətlərini inkişaf etdirmək istəyində olduğunu göstərən siyasət yürütməyə cəhd edirdi. Hətta Kommunist İnternasionalının İdarə heyəti 1920-ci il iyunun 29-da qəbul etdiyi "İran, Ermənistan və Türkiyənin əzilən xalq kütlələrinə" adlı müraciətində "erməni məsələsi"nə imperialist müdaxiləsini ittiham edir, "Ermənistanın kəndli və fəhləlri"nə xitabən deyirdi: "İllər boyu kürdlərin erməniləri öldürdüyündən dəm vurub sizi Sultana (*Osmanlı sultanı – Red.*) qarşı mübarizəyə təhrik edən və bu mübarizədən hər gün mənfəət əldə edən xarici sərmayənin oynadığı oyunların qurbanı oldunuz. Müharibə dövründə onlar sizə müstəqillik vəd etməklə qalmadılar, tacirlərinizi, müəllimlərinizi, keşişlərinizi türk kəndlisinin torpaqlarını istəmək üçün qızışdırdı. Beləcə erməni və türk xalqı arasında bu mübarizə davam edəcək, onlar isə bu mübarizədən daim mənfəət əldə edəcəklər; çünki sizlərlə türklər arasında gərginlik hökm sürdükcə, ingilis, fransız və amerikan kapitalistləri türkləri ermənilərin qiyamı ilə hədələyərək cilovlaya bilər, erməniləri isə kürd qırğınları təhlükəsi ilə qorxuda bilərlər".[1]

1920-ci ilin iyulunda Naxçıvan, Culfa və Ordubad əhalisinin Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanova və Q.Orconikidzeyə göndərdiyi məktubda bildirilirdi ki, bu rayonlar (Naxçıvan, Culfa və Ordubad) bir-birindən aralı düşüb, ancaq yerli əhalinin gücü ilə

[1] Perinçek M. Sovyet Arşivleri Türkiye'nin Tezlerini Doğruluyor, s.132

daşnaklardan müdafiə olunurlar. Buna görə də həmin rayonlar Qızıl ordu tərəfindən azad olunmalı və bilavasitə Azərbaycana birləşdirilməlidir: "Yerli əhali öz qüvvəsi ilə daşnaklardan müdafiə olunur, Qızıl ordunun köməyi ilə bizim diyarı azad etməyi və Azərbaycanla birləşdirməyi təmin etməyi təvəqqe edirik".[1]

1920-ci il iyulun 28-də AK(b)P MK Siyasi Bürosu Naxçıvandakı vəziyyəti müzakirə edərək, Azərbaycan İnqilab Komitəsinə tapşırdı ki, Naxçıvan məsələsini prinsipial şəkildə aydınlaşdırsın, Ermənistan ilə Azərbaycan arasında sərhədləri müəyyənləşdirsin və Naxçıvan diyarında sovet hakimiyyətinin qurulmasına kömək göstərilməsi haqqında XI Qızıl ordunun hərbi-inqilab şurası ilə danışıqlar aparsın. Beləliklə, Qızıl ordu hissələrinə Naxçıvan ərazisini daşnak işğalçılarından təmizləmək əmri verildi. XI Qızıl ordunun 1-ci Qafqaz alayından olan 30 nəfərdən ibarət süvari dəstəsi 1920-ci il iyulun 27-də gecə, həmin ordunun "Yoldaş Trotski" adına 106-cı alayının süvari dəstələri isə iyulun 28-də Naxçıvan şəhərinə daxil oldu. Onların ümumi sayı 300 nəfərdən artıq deyildi.[2] Sovet ordu hissələri Naxçıvana Zəngəzurdan keçərək Gorus, Şahbuz və Cəhri istiqamətindən keçib gəlmişdi.

Həmin gün M.Bəktaşov, H.Səlimov, A.Qədimov, Q.Məmmədov, H.Əliyev, Ə.Əzimov, N.Nəcəfov, A.Kazımov, F.Mahmudbəyov və Y.Babayevdən ibarət tərkibdə bölgənin ali hakimiyyət orqanı kimi təsis edilən Naxçıvan İnqilab Komitəsi Azərbaycanın sovetləşdirilməsinin tərkib hissəsi kimi, Naxçıvan Sovet Respublikasının yaradıldığını elan etdi. Hərbi İnqilab Komitəsi ilə yanaşı, Naxçıvanda Hərbi Əmək Müdafiə Şurası yaradıldı. 1920-ci il oktyabrın 19-da Ordubadda, dekabrın 2-də isə Şərurda inqilab komitələri və yerli hakimiyyət orqanları təşkil edildi.[3]

---

[1] Hacıyev İ. Naxçıvan Muxtar Respublikasının təşkili və əhəmiyyəti // "Qobustan" jurnalı, Bakı: 1999, № 2, s.10

[2] Sadıqov S.H. Naxçıvan Muxtar Respublikası tarixindən, s.32

[3] Naxçıvan Ensiklopediyası. 2 cilddə. Cild 2, s. 175

Beləliklə, Naxçıvanda sovet hakimiyyətinin qurulduğu elan edildikdən sonra da bölgədə vəziyyət gərgin olaraq qalırdı. Naxçıvan İnqilab Komitəsi yarandıqdan bir gün sonra, iyulun 29-da daşnak hökumətinə müraciət edərək sülh danışıqlarına başlamaq təklifini verdi və bu məqsədlə İrəvana üç nəfərdən – bir nəfər Qızıl ordudan, bir nəfər türk ordusundan və naxçıvanlı Əli Babayevdən ibarət nümayəndə heyəti göndərdi. Lakin daşnaklar nümayəndə heyətinin qarşısında Naxçıvanın qeyd-şərtsiz erməni hakimiyyətinə tabe olması tələbini qoydular. Bu azmış kimi, onların tələbinə görə, naxçıvanlılar daşnaklara 7 min ədəd tüfəng, hər bir tüfəng üçün 80 ədəd güllə, Naxçıvanda olan bütün top və pulemyotları, habelə 300 min pud buğda, 300 yəhərli at, 200 baş qoşqu heyvanı verməli idi.[1] Daşnaklar nümayəndə heyətinin sülhsevər çağırışlarına, ciddi xəbərdarlıqlarına əhəmiyyət verməyərək onları həbs edib İrəvana göndərdilər. Yalnız Naxçıvan İnqilab Komitəsinin nümayəndə heyətinin həbsinə qarşı kəskin etirazından sonra nümayəndələr azad edilərək Şahtaxtıya qaytarıldı.

Türk generalı V.Ünüvarın ermənilərin iyulun 19-da Naxçıvan Milli şurasına göndərdiyi tələbləri barədə verdiyi məlumat və yuxarıdakı məlumatın müqayisəsi belə qənaətə gəlməyə əsas verir ki, daşnak hökuməti həm Naxçıvanın yerli hakim dairələri, həm də da sovet hakimiyyəti qurulduqdan sonra Naxçıvan İnqilab Komitəsi qarşısında mahiyyətcə eyni tələblər (*Naxçıvanın qeyd-şərtsiz və ağır təzminat ödəməsi ilə daşnaklara könüllü tabe olması – Red.*) qoymuşdu. Lakin hər iki halda belə, daşnak hökuməti hətta ingilislərin və amerikalıların köməyi ilə Naxçıvanı müvəqqəti işğal etdikləri vaxtda belə bu qədər sərt tələblərlə çıxış etməmişdilər.

Naxçıvan İnqilab Komitəsi daşnakların tələbinə qəti etiraz etmiş və o zaman Şahtaxtı kəndində yerləşən erməni qoşunlarının rəisinə avqustun 1-də aşağıdakı məzmunda məktub təqdim etmişdi: "Naxçıvan rayonunun əhalisi monarxist üsul-idarəsinin zəncirini birdəfəlik

[1] ARPİİSA. Surət fondu, inv. № 397

öz boynundan atmışdır və daşnakların bizi əsarət altına alıb qul etmək üçün hər hansı cəhdinə cavab verməyə hazırdır. Naxçıvan rayonunun əməkçi xalqı özünü RSFSR-lə ittifaqa girmiş Azərbaycan Sovet Respublikasının ayrılmaz tərkib hissəsi elan etmişdir. Xalq heç vaxt erməni zəhmətkeşləri ilə düşmənçilik etməmiş və etməyəcəkdir. Ancaq qəddar, zülmkar daşnaklara qarşı mübarizəni davam etdirəcəkdir”.[1]

Şübhəsiz ki, ermənilərin belə azğınlaşmasına səbəb Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Naxçıvanın müvəqqəti himayəsiz qalması və ərazi məsələsində sovet Rusiyasının da daşnakların mənafeyinə cavab verən siyasət yürütməsi olmuşdu. 1920-ci il avqustun 10-da RSFSR-lə daşnak rejimi arasında imzalanan müvəqqəti sülh sazişinə görə Şahtaxtı və Culfa, habelə Şahtaxtı-Culfa dəmir yolu hərbi məqsədlər üçün istifadə edilməmək şərti ilə ermənilərin nəzarətində qalırdı. Müqavilə 6 bənddən ibarət idi və bunlardan dördü süni şəkildə mübahisəli elan edilmiş Azərbaycan torpaqlarına aid idi. Müqavilənin 2-ci bəndi aşağıdakı məzmunda idi: “Ermənistan Respublikası qoşunlarının yerləşdirilməsi üçün bu sazişlə müəyyən edilmiş zolaqlar istisna olmaqla, mübahisəli vilayətlər olan Qarabağ, Zəngəzur qəzası və Naxçıvan diyarı RSFSR qoşunları tərəfindən tutulur”. Müqavilənin 3-cü bəndinə əsasən isə Naxçıvan və Zəngəzur daşnaklara verilirdi.[2] Bu, Lenin hökumətinin, öz sələfi kimi, Naxçıvanla bağlı iddialarında erməniləri müdafiə etdiyinin, hətta ona düşmən münasibət bəsləyən daşnakların Azərbaycan torpaqlarını işğal etməsinə loyal yanaşdığının sübutu idi. Halbuki elə həmin gün Naxçıvan İnqilab Komitəsinin Azərbaycan SSR XKS-nin sədri N.Nərimanova göndərdiyi məktubda deyilirdi: “Naxçıvan camaatının çox böyük əksəriyyətinin qərarı ilə Naxçıvan diyarı özünü Azərbaycan Sovet Sosialist

[1] Sadıqov S.H. Naxçıvan Muxtar Respublikası tarixindən, s. 33

[2] ARPİİSSA, f. 158, siy. 6, iş 7, v.33; Hacıyev İ. Behbud ağa Şahtaxtinski: həyatı və fəaliyyətinin mühüm mərhələləri. Naxçıvan: “Əcəmi” NPB, 2016, s. 34, 41-42

Respublikasının ayrılmaz tərkib hissəsi elan etmişdir”.[1] Lenin daşnaklarla bağladıqları 10 avqust müqaviləsini nəzərdə tutaraq Moskvada danışıqlar aparan Türkiyə nümayəndələri Bəkir Sami bəy və Yusuf Kamal bəyə “Biz müqavilə bağlamaqla səhv etdiyimizi başa düşdük və səhvimizi düzəldəcəyik. Biz düzəldə bilməsək də, siz düzəldərsiniz”, – desə də, sonrakı sovet Rusiyası rəhbərliyinin addımları onun bu sözlərində səmimi olmadığını göstərdi.[2]

1920-ci ilin avqustunda Naxçıvan bölgəsinin əsas hissəsi məhz sovet Rusiyasının ermənipərəst siyasətinin və bölgədəki Qızıl ordu hissələrinin fəaliyyəti və ya fəaliyyətsizliyi nəticəsində daşnakların nəzarəti altına keçmişdi. Sovet hakimiyyətinin elan edildiyi ərazi yalnız Naxçıvan şəhərini və şəhərin ətrafındakı kəndləri əhatə edirdi. Əvəzində Qızıl ordu rəhbərliyi Naxçıvanda siyasi repressiyalara başlamışdı. Avqustun 22-də Naxçıvan İnqilab Komitəsinin iclasına sədrlik edən zabit N.Fyodorov komitəni xanların, bəylərin, varlıların mənafeyini müdafiə etməkdə ittiham edərək onun fəaliyyətini kəskin tənqid etmişdi. Onun bu sərt çıxışı İnqilab Komitəsinin sədr müavini Həbib bəy Səlimovun XI Qızıl ordunun hərbi qərargahı tərəfindən həbs edilərək, Azərbaycan Milli Ordusunun yaradılmasında və keçirdiyi əməliyyatlarda xüsusi xidmətləri olduğuna görə “sosializm cəmiyyətinin düşməni kimi” güllələnməsi ilə nəticələndi. Qeyd edək ki, 1920-ci ilin iyununda Qarabağda XI Qızıl ordunun üstün qüvvələri qarşısında geri çəkilməyə məcbur olmuş 2 min nəfərə yaxın Azərbaycan Milli Ordusunun əsgər və zabitlərinin bir hissəsi Naxçıvan və Ordubad şəhərlərində qalmışdı. Milli Ordunun tanınmış generallarından olan Həbib bəy Səlimov sovet hakimiyyəti tərəfinə keçib, hətta İnqilab Komitəsinin tərkibinə də daxil olaraq bu qurumun sədr müavini seçilmişdi.[3]

---

[1] Naxçıvan Ensiklopediyası. 2 cilddə. Cild 2, s. 175

[2] Cebesoy A.F. Moskova Hatıraları. Kültür ve Turizm Bakanlığı, Ankara: 1982, s. 89; Tengirşenk Y.K. Vatan Hizmetinde. Kültür ve Turizm Bakanlığı Yayınları, Ankara: 1981, s. 158

[3] NMRDA, f. 63, siy. 1, iş 4, v.1-2

1920-ci il avqustun 29-da XI Qızıl ordunun Qafqaz alayının komandiri Starovun və Fyodorovun iştirakı və sədrliyi ilə keçirilən İnqilab Komitəsinin növbəti iclasında Müsəlman milli komitəsinin rəhbərləri Cəfərqulu xanın, Rəhim xanın və onun oğlu İsgəndər xanla bağlı məsələ müzakirə edilmişdi. Qeyd edək ki, Cəfərqulu xan Milli komitənin yaradılmasında, Naxçıvan bölgəsinin erməni təcavüzündən qorunmasında müstəsna xidmətlər göstərmişdi və Naxçıvanda böyük nüfuza sahib idi. Lakin İnqilab Komitəsi əmlakları müsadirə olunmaqla Cəfərqulu xanı və Rəhim xanı həbs edərək XI Qızıl ordunun hərbi tribunalına vermək barədə qərar qəbul etmiş, İsgəndər xanın Təbriz şəhərində yaşadığı nəzərə alınaraq, onun öz əmlakını götürüb Naxçıvan şəhərini tərk etməsinə icazə verilmişdi.[1]

1920-ci ilin avqustunda Azərbaycan İnqilab Komitəsinin və XI Qızıl ordu Hərbi İnqilab Şurasının qərarı ilə Bahadur Vəlibəyov Naxçıvana fövqəladə komissar təyin olundu.[2] Rusiyada təhsil almış, orada inzibati orqanlarda fəaliyyət göstərmiş və XI Qızıl ordu üçün etibarlı şəxs sayılan B.Vəlibəyovun fövqəladə komissar kimi göstərdiyi antimilli fəaliyyət, S.Sadıqovun "Əslində heç bir ehtiyac olmadan bütün səlahiyyətlərə malik fövqəladə komissarlığın fəaliyyətinin gücləndirilməsində başlıca məqsəd Naxçıvanı siyasi fırıldaqlar və kələk yolu ilə "öz əlimizlə" Ermənistana "peşkəş" etməkdən ibarət olmuşdu", – fikrinin həqiqət olduğunu sübut edir. 1920-ci ilin dekabrın 23-də B.Vəlibəyovun İrəvana gedərək Naxçıvandakı vəziyyət barədə məhz Ermənistan İnqilab Komitəsinə məruzə etməsi və bu komitə tərəfindən onun Naxçıvana fövqəladə komissar təyin olunması həmin həqiqəti təsdiqləyən daha bir faktdır.[3]

Rusiyanın daşnakları həvəsləndirən siyasət yürütməsinin nəticəsi idi ki, ermənilər 1920-ci il sentyabrın əvvəllərində Ordubad üzərinə qəfil hücuma keçdi. Yüzlərlə azərbaycanlı qətlə yetirildi, Or-

[1] Yenə orada, v.1-2,34
[2] ARDA, f. 379, siy. 25, iş 2, v.8
[3] Sadıqov S.H. Naxçıvan Muxtar Respublikası tarixindən, s. 42, 45-46

dubad ermənilər tərəfindən qarət olundu. Yalnız sentyabrın 18-də Naxçıvandakı türk əsgərlərinin və yerli könüllü hərbi dəstələrin birgə fəaliyyəti nəticəsində erməni ordusu Ordubaddan qovulub çıxarıldı. 1920-ci ilin avqust-noyabr aylarında ermənilərə qarşı hərbi əməliyyatların uğurla nəticələnməsində A.Şadlinskinin "Qırmızı Tabor" dəstələrinin böyük xidmətləri olmuşdu. 1920-ci il noyabrın 7-də daşnakların hücumuna cavab olaraq XI Qızıl ordunun Qafqaz alayının hissələri, türk qoşun dəstələri, yerli əhalidən təşkil olunmuş 1500 nəfərlik könüllü əsgərlər ilə birlikdə "Qırmızı Tabor" dəstələri, həmçinin İrandan Naxçıvana qayıtmış üsyançı Şərur qaçqınlarının düşmənə qarşı əks-hücum əməliyyatı Şərurun azad edilməsi, daşnak generalı Şelkovnikovun 2500 nəfərlik diviziyasının əsir alınması ilə nəticələnmişdi.[1]

Bu dövrdə Naxçıvanın tarixən həmişə tərkibində olduğu Azərbaycanın ərazisi kimi qorunub saxlanılmasında, Naxçıvan məsələsinin xalqımızın mənafeyinə uyğun həll edilməsində dövrün tanınmış ictimai-siyasi və dövlət xadimi Behbud ağa Şahtaxtinskinin müstəsna xidmətləri olmuşdur. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra, 1920-ci il mayın 19-da Azərbaycan İnqilab Komitəsinin qərarı ilə Ermənistanla danışıq aparmaq üçün N.Nərimanovun rəhbərliyi ilə yaradılan 5 nəfərlik nümayəndə heyətinə B.Şahtaxtinski də daxil idi. O, 1920-ci ilin iyununda Azərbaycan SSR-in Xalq Ədliyyə komissarı, iyulun 15-də isə RSFSR-lə danışıqlarda Azərbaycan SSR-in fövqəladə səlahiyyətli nümayəndəsi təyin olunmuşdu. Bu dövrdə Azərbaycan SSR-in Xalq Ədliyyə komissarı B.Şahtaxtinski N.Nərimanovun tapşırığı ilə ermənilərin Naxçıvana dair əsassız ərazi iddialarının qarşısının alınması üçün ciddi iş aparmışdır.[2]

RSFSR-lə daşnak rejimi arasındakı 1920-ci il 10 avqust müqaviləsindən xəbər tutan B.Şahtaxtinski üç gün sonra, avqustun 13-də RSFSR XKS-nin sədri V.Leninə və Xalq xarici işlər komissarı G.Çi-

---

[1] Yenə orada, s.36-38

[2] Hacıyev İ. Behbud ağa Şahtaxtinski: həyatı və fəaliyyətinin mühüm mərhələləri, s.27-32

çerinə göndərdiyi teleqramda birmənalı şəkildə göstərirdi ki, "bu müqavilə ilə Ermənistanın daşnak hökuməti erməni xalqı arasında nüfuzunu daha da artırdı". O, Naxçıvanın daşnaklara verilməsini qətiyyətlə pisləyərək, bu siyasətin Naxçıvana ağır zərbə olacağını və bunun heç bir vəchlə baş tutmayacağını qəti şəkildə bildirdi. G.Çiçerinə göndərilən teleqramda deyilirdi: "Sovet Rusiyası xalqın tələbinin əksinə olaraq Naxçıvanı daşnaklara verir, halbuki bu yerli müsəlmanların fiziki məhvi təhlükəsini yaradır, çünki daşnak Ermənistanında yüzlərlə müsəlman kəndi dağıdılmışdır".[1]

Behbud ağa habelə Leninə məktubunda Naxçıvanın ermənilərə verilməsinin yolverilməzliyini də 7 maddədən ibarət əsaslandırılmış müddəalarla diqqətə çatdırmışdı. O, Naxçıvan ərazisinin daşnak Ermənistanına verilməsinin Şahtaxtı-Maku, Şahtaxtı-İrəvan və Culfa-Təbriz dəmir yollarının sovet dövlətinin nəzarətindən çıxmasına, Qərb dövlətlərinin regionda nüfuzunun artmasına şərait yaradacağına, bölgədə sovet hökumətinə münasibətin pisləşməsinə səbəb olacağını siyasi cəhətdən əsaslandırmışdı. Məktubda deyilirdi: "Naxçıvan diyarının əhalisi bir neçə il ərzində daşnaklardan özünün müstəqilliyini qoruyub saxlamışdır. Bütün cidd-cəhdlərə baxmayaraq, onlar bu diyarı ələ keçirə bilməmişlər. İngiltərənin işə qarışmasına ehtiyac yaranmışdır ki, o da öz qoşunları ilə diyarı tutmuş və əhalinin açıq etirazlarına baxmayaraq, onu zorla daşnaklara vermişdir. Lakin ingilis qoşunları buradan getməli olduqda dərhal üsyan baş verdi. Çoxsaylı topları, pulemyotları və zirehli texnikası olan nizami daşnak qoşunları darmadağın edildi... Əməkçi xalq əldə silah üç il ərzində qanlı mübarizə apararaq daşnaklardan azad olmuş və Azərbaycanla birləşməyə nail olmuşdur. Nəhayət, hazırda heç bir erməninin olmadığı bu diyarın daşnaklara verilməsi ümumilikdə qəbul edilmiş xalqların müqəd-

---

[1] ARPİİSSA, f. 609, siy.1, iş 71, v.14; Hacıyev İ. Behbud ağa Şahtaxtinski: həyatı və fəaliyyətinin mühüm mərhələləri, s.35-41

dəratını özlərinin həll etməsi prinsipinin və sovet Azərbaycanının hüquqlarının açıq-aşkar pozulmasıdır”.[1]

B.Şahtaxtinskinin Naxçıvan məsələsindəki mübariz və prinsipial mövqeyi N.Nərimanovun ona göndərdiyi 1920-ci il 8 sentyabr tarixli teleqramında yüksək qiymətləndirilmişdi. Məhz bu dəstəyin ifadəsi idi ki, Behbud ağa sonrakı mərhələdə də Naxçıvanın Azərbaycanın tərkib hissəsi kimi qorunub saxlanılması uğrunda mübarizəsini inadla davam etdirdi. O, V.Leninə göndərdiyi, Naxçıvan məsələsi və ümumiyyətlə, sovet Rusiyasının bölgədəki ikiüzlü siyasəti ilə bağlı öz fikirlərini 1920-ci il 8 sentyabr tarixli ikinci məktubunda daha açıq və qətiyyətlə ifadə etmişdi: “Ermənistan Rusiya ilə ittifaqdan imtina edir... və nəinki öz müstəqilliyini qoruyur, hətta Rusiyadan yeni ərazilər alır. Rusiya Ermənistanla bilavasitə Azərbaycanla bağlı məsələlər müzakirə edir, lakin Azərbaycanın bundan xəbəri yoxdur”. O, hətta Naxçıvanda sovet hakimiyyətinin qurulduğu, Qərbi Azərbaycanda isə antisovet mövqe nümayiş etdirən daşnak rejiminin mövcudluğunu davam etdirməsi şəraitində belə, Rusiyanın bölgədəki siyasətinə uyğun olaraq Qızıl ordunun da ermənipərəst mövqe tutduğuna işarə edərək bildirirdi ki, “Qızıl ordu bütün qüvvəsi ilə hətta Ermənistanla sərhəd vilayətlərdə belə müsəlman əhalisini tərk edir. Halbuki daşnakların daimi hücumlarının müsəlman əhalisinin fikri mövcudluğunun qəti təhlükə qarşısında qoyduğunu görmək çətin deyil”. Sovet Rusiyasının yalnız Naxçıvan məsələsində deyil, bütövlükdə Azərbaycanda yürütdüyü müstəmləkəçi siyasətinin ifşası baxımından çox mühüm sənəd olan bu məruzədə B.Şahtaxtinski bu siyasəti açıqdan-açığa ittiham edir: “Təəssüf ki sovet hakimiyyətinin işi formaca inqilabi, nəticə etibarilə mürtəce olmuşdur... Azərbaycan əhalisi əvvəlcə belə fikirləşirdi ki, Bakıdakı sovet siyasəti yerli hakimiyyətdə olanların işidir. Əhali Moskvaya inanırdı... Lakin burada da

[1] ARPİİSSA, f. 609, siy.1, iş 71, v.14-15; Hacıyev İ. Behbud ağa Şahtaxtinski: həyatı və fəaliyyətinin mühüm mərhələləri, s.35-37

tezliklə ümidsizliyə düçar oldu”. [1]Məktubun B.Şahtaxtinskinin məhz onun özünün iştirakı ilə RSFSR-lə Azərbaycan SSR arasında danışıqların aparılması və müqavilənin imzalanması (1920-ci il, 29-30 sentyabr) ərəfəsində göndərilməsi Behbud ağanın milli məsələdə barışmaz mövqeyə, geniş dünyagörüşə, siyasi uzaqgörənliyə malik, savadlı, qorxmaz bir siyasətçi və diplomat olduğunu sübut edirdi.

Azərbaycan hökumətinin israrlı tələblərindən sonra, 1920-ci il oktyabrın əvvəllərində Ordubad qəzasının ərazisi, dekabrın əvvəllərində isə Şərur qəzası Qızıl ordu hissələri tərəfindən daşnaklardan təmizləndi. Lakin sovet Rusiyası erməniləri razı salmaq naminə bölgədə riyakar siyasət yürüdürdü. Belə ki, 1920-ci il sentyabrın 29-da özünün fəal hərbi-siyasi dəstəyi ilə yaradılan Azərbaycan SSR-lə xarici ticarətin, poçt, teleqraf və radioteleqram idarələrinin, ərzaq, iqtisadi və maliyyə siyasətinin birləşməsinə dair, sentyabrın 30-da isə hərbi-iqtisadi ittifaq haqqında və hərbi dəniz məsələlərinə dair müqavilələr (müqavilələri RSFSR Xalq Xarici İşlər komissarı G.Çiçerin və Azərbaycan SSR-in Xalq Ədliyyə komissarı, Azərbaycan SSR-in RSFSR-dəki fövqəladə nümayəndəsi B.Şahtaxtinski imzalamışdı) bağlasa da,[2] oktyabrın 28-də RSFSR-lə daşnak rejimi arasında yeni müqavilə imzalandı. Bu müqavilədə də Azərbaycanın rəyi nəzərə alınmadan Zəngəzur və Naxçıvan Ermənistana güzəşt edilirdi. Sovet Rusiyası bu yolla Ermənistanda sovet hakimiyyəti qurmaq üçün zəmin hazırlamaq, ermənilərin rəğbətini qazanmaq istəyirdi. O, öz maraqlarına uyğun antiantanta mövqeyi tutan Türkiyə ilə açıq münaqişəyə girməkdən çəkinsə də, gələcəkdə Azərbaycanla eyni milli-etnik, tarixi-mədəni bağlılığa malik olan Türkiyə arasında bilavasitə sərhədlərin olmasına imkan verməmək üçün işğalçı daşnak rejiminin yerində formal olaraq ermənilərə məxsus sovet hakimiyyəti qurmaqla Qərbi Azərbaycanı sovetləşdirmək siyasətini sürətləndirdi. Heç şübhəsiz ki, daşnaklarla

---

[1] ARPİİSSA, f. 1, siy. 1, iş 2a, v.1-8; Hacıyev İ. Behbud ağa Şahtaxtinski: həyatı və fəaliyyətinin mühüm mərhələləri, s.37-38,41

[2] Naxçıvan Ensiklopediyası. 2 cilddə. Cild 2, s. 294

imzalanan 10 avqust və 28 oktyabr müqavilələrində sovet Rusiyasının xarici işlər komissarı G.Çiçerinin və onun milliyyətcə erməni olan müavini L.Qaraxanın "mühüm" rolu olmuşdu. Hətta G.Çiçerinin türklərin guya ermənilərə qarşı qanlı qırğınlar törətdiyi barədəki yalançı hay-küyünə İ.Stalin 1920-ci il noyabrın 3-də göndərdiyi teleqramda belə cavab vermişdi: "Türklərin ermənilərə hücumlarının miqyası ilə bağlı şayiələr Antanta casusları tərəfindən məqsədli şəkildə şişirdilməkdədir. Niyə şayiələrə qulaq asırsınız? Sakit davranın...".[1]

Sovet qoşunları Azərbaycanı işğal etdikdən sonra süni olaraq "mübahisəli" elan edilmiş ərazilərin ermənilərin xeyrinə həlli istiqamətində fəal iş aparılırdı. Bu işdə İ.Stalinlə Q.Orconikidzenin mövqeləri həlledici rol oynamaqda idi. Qərbi Azərbaycanda (*indiki Ermənistan adlanan ərazidə – Red.*) sovet hakimiyyətinin elan edilməsindən bir gün sonra, 1920-ci il noyabrın 30-da AK(b)P MK Siyasi və Təşkilat bürolarının Q.Orconikidze, S.Ter-Danielyan, Y.Stasova, A.Serebrovski, V.Yeqorov, Q.Kaminski, N.Nərimanov, Ə.Qarayev, M.Hüseynov, M.Qasımov və başqalarının iştirakı ilə keçirilən birgə iclasının ərazi məsələlərinə dair qərarında deyilirdi: "Sovet Azərbaycanı ilə sovet Ermənistanı arasında heç bir sərhəd mövcud deyildir. Zəngəzur və Naxçıvan qəzalarının ərazisi sovet Ermənistanının ayrılmaz ərazisidir. Dağlıq Qarabağın əməkçi kəndlilərinə öz müqəddəratını təyin etmək üçün tam hüquq verilir...".[2] Həmin qərara uyğun olaraq Azərbaycan Hərbi İnqilab Komitəsinin 1 dekabr 1920-ci il tarixli bəyanatında Zəngəzur və Naxçıvanın Ermənistana verildiyinin elan edilməsi erməniləri daha da fəallaşdırdı. Bunun ardınca, RSFSR-lə Ermənistan SSR arasında imzalanan 2 dekabr 1920-ci il tarixli müqavilənin 3-cü maddəsində İrəvan quberniyasının bütün əraziləri, o cümlədən Zəngəzur qəzası Ermənistan ərazisi kimi tanınırdı. Müqavilədə Naxçıvan Ermənistan ərazisi kimi göstərilməsə də, Azərbaycan Hərbi İnqilab Komitəsinin 1 dekabr bəyanatı və müqavilədəki keçmiş

[1] Perinçek M. Sovyet Arşivleri Türkiye'nin Tezlerini Doğruluyor, s.140
[2] NMRDA, f. 314, siy. 5, iş 15, v.6-7

İrəvan quberniyasının bütün ərazilərinin Ermənistana verildiyi ifadəsi Naxçıvan məsələsində qeyri-müəyyənlik və əhalidə haqlı narahatlıq yaratmışdı. Tarixi Azərbaycan torpaqlarının ədalətsizcəsinə sovet rejimi tərəfindən ermənilərə hədiyyə edilməsinin ifadəsi olan bu qərarın icrası ermənilərin illərdən bəri uğrunda silahlı mübarizə apardığı amalın – Qərbi Azərbaycan torpaqlarının tam işğalının asanlıqla gerçəkləşməsi demək olacaqdı. Naxçıvanın erməni işğalına verilməsi ilə bağlı iş Ermənistanda sovet hakimiyyətinin qurulmasından əvvəl aparılmışdı. Hətta Naxçıvanın fövqəladə komissarı B.Vəlibəyov Azərbaycan Hərbi İnqilab Komitəsinin 1 dekabr bəyanatının Ermənistanda sovet hakimiyyətinin qurulmasından əvvəl hazırlandığını da etiraf etmişdi.[1]

Azərbaycan Hərbi İnqilab Komitəsinin 1 dekabr bəyanatı və RSFSR-lə Ermənistan SSR arasındakı 2 dekabr 1920-ci il müqaviləsinin 3-cü maddəsi Naxçıvanda həyəcanla və xalq kütlələrinin böyük etirazı ilə qarşılandı. Məhz buna görə dekabrın 15-də Naxçıvana göndərilən Azərbaycan SSR-in Xalq Ədliyyə komissarı B.Şahtaxtinski burada əhalinin Azərbaycan İnqilab Komitəsinin bəyanatı haqqında narahatlığını bölüşdü və Naxçıvan əhalisinin bölgəni erməni təcavüzündən qorumaq istiqamətində səfərbər olunması istiqamətində zəruri addımlar atdı. Bu addımlar özünü daha çox, sovet Rusiyası rəhbərliyinin ermənilərin mənafeyinə cavab verən siyasətinin ifşasında və əhalinin öz könüllü müdafiə dəstələri ilə Türkiyənin fəal hərbi dəstəyinin birləşdirilərək Naxçıvanın müdafiəsinə yönəldilməsinin erməni idarəçiliyinə verilməsinin qarşısının alınmasında yeganə yol olduğu barədə səmərəli təbliğatda ifadə olunurdu.[2] Behbud ağa həmçinin, Naxçıvan şəhərində Şərur-Dərələyəz və Ordubad əhalisinin mitinqlərini də keçirmiş, bu mitinqlərdə əhali Naxçıvanın Azərbaycan SSR qəyyumluğunda müstəqil sovet respublikası kimi təşkil edilməsi

---

[1] NMRDA, f. 314, siy. 1, iş 14, v.21; Sadıqov S.H. Naxçıvan Muxtar Respublikası tarixindən, s.43-44

[2] NMRDA, f. 314 siy. 1, iş 14, v.21

arzusunda olduğunu bildirmişdi. Mitinqlərin nəticələri barədə Azərbaycan və Ermənistan İnqilab Komitələrinə müvafiq məlumatlar verilmişdi.[1]

Naxçıvanın Ermənistana verilməsi barədə sovet Rusiyasının və onun təzyiqi ilə Azərbaycan İnqilab Komitəsinin tutduğu yanlış mövqeni əlində əsas tutan Ermənistan İnqilab Komitəsi 1920-ci il dekabrın 26-da Naxçıvan haqqında geniş bəyanat verərək Naxçıvanın "könüllü" surətdə Ermənistana birləşdiyini bildirmişdi. Əslində bu bəyanatda Naxçıvan Respublikasının müstəqilliyi ideyasının özü rədd olunmuşdu.[2] Lakin Naxçıvan əhalisinin bu dinc erməni işğalına qarşı mütəşəkkil şəkildə kəskin və qəti etirazlarını bildirməsi, təsirsiz qalmadı Naxçıvana öz müqəddəratını müstəqil təyin etmək hüququ verən yeni sənədin elan edilməsi ilə nəticələndi. Cəmi 2 gün sonra, dekabrın 28-də Ermənistan İnqilab Komitəsi verdiyi bəyanatla Naxçıvanı müstəqil sovet respublikası kimi tanıdığını və ona qarşı ərazi iddialarından imtina etdiyini bildirdi.[3]

Qeyd edək ki, 28 dekabr bəyanatı ilə Naxçıvan Azərbaycanın tərkib hissəsi kimi yox, "müstəqil sovet respublikası" kimi tanınırdı. Bu isə, ermənilərin Naxçıvanla bağlı işğal planlarından birdəfəlik əl çəkmədiyini göstərirdi. Çünki RSFSR-in Ermənistandakı nümayəndəsi Boris Leqranın başçılığı ilə ermənilər 1921-ci il yanvar ayının ilk günlərində Şərur bölgəsinin bir sıra kəndlərində mitinqlər keçirmişdilər. Bu mitinqlərin təşkilində məqsəd guya yerli əhalinin Naxçıvanın Ermənistana birləşməyinin tərəfdarı kimi göstərilməsi idi. Lakin bölgədəki türk hərbi komandanlığının sərt mövqeyi bu təxribatın iflasa uğraması ilə nəticələndi.[4] Bu həmin B.Leqran idi ki, 1920-ci il oktyabrın 7-də G.Çiçerinə və S.Orconikidzeyə göndərdiyi teleqramda erməni hökumətinin Sevr müqaviləsinə istinad edərək Türkiyə torpaq-

[1] Sadıqov S.H. Naxçıvan Muxtar Respublikası tarixindən. Bakı: 1995, s.45
[2] Yenə orada
[3] Cəfərli E.Y. Naxçıvanda erməni-Azərbaycan münaqişəsi, s. 233
[4] Sadıqov S.H. Naxçıvan Muxtar Respublikası tarixindən, s.47-49

larını silah gücünə işğal etmək istəklərinin bütünlüklə rədd edilməli olduğunu bildirmişdi.[1]

1921-ci ilin yanvar ayında Azərbaycan SSR, Ermənistan SSR və RSFSR nümayəndələrinin Azərbaycan və Ermənistan inqilab komitələrinin bəyanatlarına münasibətlə bağlı keçirdiyi rəy sorğusunda Naxçıvan əhalisinin 90 faizi diyarın muxtar respublika hüququnda Azərbaycanın tərkibində qalmasına səs verdi.[2] Bu, Zəngəzurun işğalından sonra Naxçıvanın qəsb olunması ilə bağlı planlarını bir qədər təxirə salmaq məcburiyyətində olan ermənilərin arzusuna ciddi zərbə idi. Türkiyənin diplomatik yardımı, Azərbaycan rəhbərliyinin ciddi səyləri ilə yanaşı, məhz bu rəy sorğusunun nəticələri sonradan Naxçıvanın muxtariyyət statusunda Azərbaycanın tərkib hissəsi kimi qorunub-saxlanılması uğrunda aparılan mübarizədə, Naxçıvana Azərbaycanın himayəsində muxtariyyət statusunun verilməsini təmin edən müqavilələrin imzalanmasında və statusun tam şəkildə rəsmiləşdirilməsində son dərəcə mühüm hüquqi və sosial-siyasi amil oldu.

Azərbaycan SSR-in Xalq Ədliyyə komissarı B.Şahtaxtinski ermənilərin Naxçıvana dair əsassız ərazi iddialarının qarşısının alınması sahəsindəki əsas fəaliyyəti bir tərəfdən 1920-ci ilin avqust-dekabr aylarında Naxçıvanın erməni ərazisi kimi tanınmasına və bölgənin yenidən erməni işğalına verilməsinə qarşı naxçıvanlıların mübarizəsinə əslində başçılıq etməsi, digər tərəfdən Naxçıvan məsələsində sovet Rusiyasının mövqeyinin tarixi ədalətə doğru dəyişməsi uğrunda diplomatik mübarizə aparması və buna nail olmasında özünü göstərirdi. Belə ki, o, Moskva müqaviləsi imzalanmamışdan əvvəl, 1921-ci ilin fevral-mart aylarında RSFSR-lə Türkiyə arasında Moskvada aparılan danışıqlarda Azərbaycan SSR-in səlahiyyətli nümayəndəsi kimi iştirak etmiş, Naxçıvan məsələsinin Azərbaycanın mənafeyinə uyğun həllini tapması və müqaviləyə daxil edilməsində mühüm rol oyna-

[1] Perinçek M. Sovyet Arşivleri Türkiye'nin Tezlerini Doğruluyor, s.133
[2] Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı: BDU nəşriyyatı, 1998, s.341-342

mışdı. B.Şahtaxtinski martın 1-də V.Leninə ünvanladığı məktubda Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağ mahallarının gələcəyi ilə bağlı narahatlığını diqqətə çatdırmış, Naxçıvan bölgəsi ilə əlaqədar konkret təkliflər irəli sürmüşdü. Məktubda, həmçinin Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ, Zaqatala, Borçalı, Qarayazı düzü, Dağıstan və Şimali Qafqaz müsəlman xalqlarının gələcək taleyindən söhbət açılırdı. Məktuba adları çəkilən ərazilərin coğrafiyası, əhalisinin milli tərkibi, sayı haqqında arayışlar əlavə edilmiş, Cənubi Qafqazda ərazi sərhədləri ilə, xüsusən Naxçıvanla bağlı mühüm təkliflər irəli sürülmüşdü. Həmin təkliflər Leninin diqqətini cəlb etmiş və martın 7-də onun dərkənarı ilə müzakirə üçün RK(b)P MK Siyasi Bürosuna göndərilmişdi.[1] Siyasi Büro 1921-ci il martın 16-da Behbud ağanın təkliflərini nəzərə almaqla müzakirələr apardıqdan sonra Azərbaycanın himayəsində Naxçıvan Sovet Respublikasının təşkili barədə qərar qəbul etmişdi. 1921-ci ilin sentyabr-oktyabr aylarında Qars konfransında eyni adlı müqavilənin imzalanmasına dair aparılan danışıqlarda B.Şahtaxtinski Azərbaycan SSR-in nümayəndəsi olmuş, Naxçıvanla bağlı məsələnin uğurlu diplomatik həllində mühüm xidmətlər göstərmişdi.[2]

Beləliklə, son dərəcə gərgin bir tarixi mərhələ olan 1918-1920-ci illərdə ermənilərin Azərbaycanda törətdikləri soyqırım və deportasiya siyasətindən sonra Naxçıvanın tarixi taleyini – yəni onun Azərbaycanın tərkibində muxtar ərazi kimi qalma imkanlarını 1921-ci ildə imzalanmış Moskva və Qars müqavilələri həll etdi.

Türkiyə ilə RSFSR arasında Moskvada aparılan danışıqlar nəticəsində 1921-ci il martın 16-da bağlanmış dostluq və qardaşlıq haqqında müqavilə 16 maddədən ibarət idi. Müqavilə Birinci Dünya müharibəsindən sonra qalib dövlətlərin dünyanın yenidən bölüşdürülməsi uğrunda apardıqları siyasətin fonunda Rusiya və Türkiyənin öz varlıqlarını və suverenliklərini möhkəmləndirmək istiqamətində qarşılıqlı razılaşma ruhunda idi. Eyni zamanda müqavilə Rusiyanın

---

[1] Sadıqov S.H. Naxçıvan Muxtar Respublikası tarixindən, s. 52

[2] Naxçıvan Ensiklopediyası. 2 cilddə. Cild 2, s.28

Türkiyənin müqavilənin 1-ci maddəsində göstərilmiş coğrafi koordinatlar daxilində ərazi bütövlüyünü və Türkiyədə yeganə qanuni hökumət kimi Böyük Millət Məclisi Hökumətini tanımaqla, bunun qarşılığında Türkiyənin Cənubi Qafqazdan mümkün olduğu qədər sıxışdırılması siyasətini aydın şəkildə özündə ehtiva edirdi. Təsadüfi deyildi ki, ilk maddədə həmçinin, Türkiyəyə müharibədə qalib gəlmiş dövlətlərin zorla qəbul etdirməyə cəhd edəcəkləri hər hansı müqavilәni, hətta beynəlxalq aktları belə iki tərəfin də tanımaması razılaşdırılırdı. Bu müddəa, faktiki müttəfiq dövlətlərə qarşı Rusiya-Türkiyə siyasi mövqe birliyini rəsmiləşdirirdi. Bundan başqa, 4-cü maddədə göstərilirdi ki, "Razılığa gələn tərəflər Şərq xalqlarının milli-azadlıq hərəkatı ilə Rusiya zəhmətkeşlərinin yeni sosial quruluş uğrunda mübarizəsi arasında yaxınlıq olduğunu təsdiq edərək bu xalqların azadlıq və istiqlaliyyət hüququnu, həmçinin onların öz arzularına uyğun idarə forması seçmək hüququnu rəsmən təsdiq və etiraf edirlər". Artıq Cənubi Qafqazı öz işğalı altına almış sovet Rusiyası bu maddə ilə Türkiyəni bu bölgədən faktiki olaraq sıxışdırıb çıxarır və Böyük Millət Məclisi Hökumətinə Cənubi Qafqaz respublikalarının sovet siyasi idarəçilik rejiminə keçirilməsini qəbul etdirirdi. Belə ki, 8-ci maddədə tərəflərin bir-birinin ərazisində mövcud dövlətə qarşı mübarizə aparacaq qüvvənin yerləşdirilməməsi öhdəliyi müəyyənləşdirilir, Cənubi Qafqazla bağlı ayrıca xüsusi olaraq qeyd edilirdi ki, "Rusiya və Türkiyə qarşılıqlı şərtlərlə Qafqazın sovet respublikalarına münasibətdə də üzərilərinə belə öhdəlik götürürlər". Bu, faktiki olaraq Türkiyənin Cənubi Qafqazdan əlini üzməsi anlamına gəlirdi. Əvəzində 7-ci maddə ilə Rusiya Türkiyə ərazisində hər hansı kapitulyasiya rejimini tanımamaq öhdəliyi götürürdü.[1]

Moskva müqaviləsinin 2-ci maddəsi Batum və ətrafının Gürcüstan, 3-cü maddəsi isə Naxçıvanın Azərbaycanın tərkibində muxtar ərazi təşkil etməsi məsələsini həll edirdi. Qarşılığında Türkiyə Batum

---

[1] Gümrü, Moskva və Qars müqavilələri (Azərbaycan, türk, rus və fransız dillərində). Naxçıvan: 2004, s. 25-28

limanından heç bir vergi ödəmədən istifadə etmək hüququnu saxlayırdı. Əvəzində 5-ci maddədə Qara dənizin və boğazların beynəlxalq statusunun sahil dövlətlərin gələcəkdə keçiriləcək konfransında müəyyən edilməsinədək (konfransın çıxaracağı qərarın Türkiyənin suverenliyinə, bu dövlətin və İstanbulun təhlükəsizliyinə zərər vurmayacağı şərti ilə) Türkiyə boğazların bütün xalqların ticarət gəmiləri üçün açılması öhdəliyini götürürdü.

Maraqlıdır ki, müqavilənin 6-cı maddəsində tərəflərin təmsil etdikləri ölkələr arasında bunadək imzalanmış bütün müqavilələrin, "qarşılıqlı mənafelərinə uyğun gəlmədiyini təsdiq" etməklə, qüvvədən düşdüyü elan edilirdi. Əlbəttə, Rusiyada çarizmin süqutundan sonra yaradılmış yeni siyasi rejimin öz mahiyyətinə zidd olan çar Rusiyasının öhdəliklərindən xilas olmasını (baxmayaraq ki, çarizmin Osmanlı Türkiyəsi ilə imzaladığı bütün müqavilələr əsasən və daha çox Rusiyanın xeyrinə idi) başa düşmək olardı. Lakin bütün müqavilələrin qüvvədən düşməsinin elan edilməsi 1918-ci il martın 3-də sovet Rusiyası ilə Türkiyə arasında imzalanan və daha çox Türkiyənin mənafeyinə uyğun olan Brest-Litovsk müqaviləsinin də artıq etibarsız olduğu anlamına gəlirdi.

Müqavilənin sonrakı maddələri (9-14-cü və 16-cı) tərəflər arasında dəmir yolu, teleqraf, ticarət, konsulluq münasibətlərinin, hər iki ölkə vətəndaşlarının qarşılıqlı hərəkətinin və bunun üçün güzəştli şərtlərin müəyyənləşdirilməsini, hərbi və mülki əsirlərin qaytarılmasını, müqavilənin ratifikasiyasını, qüvvəyə minməsini və s.-ni nəzərdə tuturdu. 11-ci maddəyə görə, tərəflər bu iki dövlətdən "hər birinin digər tərəfin ərazisində olan vətəndaşlarına daha əlverişli şərait prinsipini tətbiq etməyə" razılaşsalar da, bu prinsip "Türkiyə ilə müttəfiq olan müsəlman ölkələrinin və eləcə də Rusiya ilə müttəfiq olan sovet respublikalarının vətəndaşlarının hüquqlarına" tətbiq edilmirdi.

Müqavilənin 15-ci maddəsində Türkiyənin Cənubi Qafqaz respublikaları ilə gələcəkdə müqavilə bağlayacağı razılaşdırılır və Rusiya həmin müqavilədə Moskva müqaviləsində həmin respublikalara

aid olan müddəaların onlara qəbul etdirilməsi üçün zəruri addımlar atmaq öhdəliyini götürürdü.[1] Bu, müqavilənin əvvəlki maddələrindəki guya müstəqil şəkildə sovet sosialist dövlətçiliyi yolunu seçmiş (maddə 4) Cənubi Qafqaz respublikalarının sovet Rusiyasının bilavasitə təsiri altında olduğunun təsdiqi idi.

Qeyd edək ki, Türkiyə mənbələri Moskva müqaviləsinin imzalanmasında V.Leninin və İ.Stalinin həmin ərəfədə "erməni məsələsi"ndə Türkiyəni müdafiə etməsinin nəticəsində vaxtında imzalandığını bildirirlər. Hətta 1920-ci ilin noyabrından Ankara hökumətinin Moskvadakı fövqəladə və səlahiyyətli səfiri olan Ali Fuat paşa Cəbəsoy da öz xatirələrində yazır ki, "Əgər Stalinin xarici işlər komissarlığına müdaxiləsi olmasaydı, Moskva konfransı daha uzun sürər və yaxud o günlərdə əldə etdiyimiz nəticəyə nail ola bilməzdik".[2] İ.Stalin sovet hökumətin daxili yazışmalarına aid 9 fevral 1921-ci il tarixli bir mətndə G.Çiçerinin Van, Muş və Bitlis vilayətlərinin ermənilərə verilməsi ilə bağlı mövqeyini "axmaqlıq və provakatorluq" adlandıraraq V.Lenindən G.Çiçerinə qadağa tətbiq edilməsini istəmişdi: "Yoldaş Lenin, mən yalnız dünən öyrəndim ki, Çiçerin nə məna varsa, türklərə axmaq və povokativ bir tələb irəli sürərək, türk əhalisinin çoxluqda olduğu Van, Muş və Bitlisi tərk etmələrini istəmişdir. Bu imperialist erməni tələbi bizim tələbimiz ola bilməz. Çiçerinin millətçi ruhlu erməni təlqinlərinin təsiri ilə türklərə nota göndərməsinə qadağan qoymaq lazımdır". RSFSR-in xarici işlər komissarı G.Çiçerin qatı antitürk və antiazərbaycanlı idi. Onun bu mövqeyinin formalaşmasında, şübhəsiz ki, erməni müavini L.Qaraxan da əhəmiyyətli rol oynamışdı. Hətta Türkiyə ilə danışıqlarda, hətta Moskva müqaviləsini imzalayan heyətdə belə uzun müddət əsas aparıcı fiqurlardan biri

---

[1] Gümrü, Moskva və Qars müqavilələri (Azərbaycan, türk, rus və fransız dillərində), s.29-31

[2] Cebesoy A.F. Moskova Hatıraları, s.184

L.Qaraxan olmuşdu. Lakin türklərin etibarını qazanmaq üçün o, bir qədər sonra heyətin tərkibindən çıxarılmışdı.[1]

RSFSR Xalq Komissarları Sovetinin sədri V.Lenin 1921-ci il aprelin 9-da sovet Rusiyası ilə Türkiyə arasında imzalanmış dostluq və qardaşlıq haqqında 16 mart müqaviləsinə münasibətini bildirərkən demişdi ki, bu, "bizi Qafqazdakı daimi müharibələrdən xilas edir".[2] 1921-ci il iyulun 16-da RSFSR Xalq Xarici İşlər Komissarlığının RK(b)P MK Siyasi Bürosuna təqdim etdiyi "Erməni məsələsi" adlı məlumatda bildirilirdi ki, "Bizim bütün siyasətimiz Türkiyəni inandırmalıdır ki, Moskva müqaviləsi bizim dövrümüzdə bir kağız parçası olmayıb, bizimlə Türkiyə arasındakı məsələlərin qəti həllidir. "Türkiyə Ermənistanı"nın Türkiyədən qoparılması mövzusunu dilə gətirdiyimiz halda belə, Moskva müqaviləsinin böyük əhəmiyyəti alt-üst olacaqdır". Ukraynadakı Qızıl ordu birliklərinin komandanı M.Frunze 1921-ci il noyabrın 23-də Batumdan V.Leninə göndərdiyi şifrəli teleqramda Azərbaycan türklərindən bəhs edərək "biz onların tatar *("tatar" ifadəsi həm çarizm, həm də sovet hakimiyyəti dövründə xalqımıza qarşı həqarət kimi işlədilmişdir – Red.)* olduğunu düşünürdük, ancaq onlar yaxşı xalqdır", "ermənilər isə, bir sözlə, provokatordurlar", – yazmışdı.[3] Lakin Leninin və xələflərinin sonrakı dövrdə, bütün sovet hakimiyyəti illərində yürütdükləri milli siyasət milli-etnik münaqişə ocaqlarının (heç bir tarixi əsası olmadan Azərbaycanda Dağlıq Qarabağa, Gürcüstanda Abxaziya və Cənubi Osetiyaya muxtariyyət hüququnun verilməsi) yaradılmasına istinad edirdi ki, bu da həmin sözlərin ya səmimi deyilmədiyini, ya da artıq rus şovinist-imperialist siyasəti baxımından əhəmiyyətini itirdiyini sübut etdi.

Bütün Naxçıvan ərazisində sovet hakimiyyətinin qələbəsi ilə əlaqədar olaraq 1921-ci il yanvarın 21-də ali dövlət hakimiyyəti or-

---

[1] Perinçek M. Sovyet Arşivleri Türkiye'nin Tezlerini Doğruluyor, s.135-137
[2] Naxçıvan Ensiklopediyası. 2 cilddə. Cild 2, s.175
[3] Perinçek M. Sovyet Arşivleri Türkiye'nin Tezlerini Doğruluyor, s. 136-137

qanı – Naxçıvan Ölkə İnqilab Komitəsi yaradılmışdı.[1] Moskva müqaviləsi imzalandıqdan sonra, 1921-ci il aprelin 4-də Naxçıvan SSR-in yeni hökuməti – Naxçıvan SSR XKS təşkil edildi. Həmin hökumətin tərkibi belə idi:

1. XKS-nin sədri A. Qədimov (o, həm də İnqilab Komitəsinin sədri vəzifəsində saxlanılırdı);
2. Fövqəladə daxili işlər, poçt, teleqraf komissarı Ş.Əliyev;
3. Naxçıvan qarnizonunun rəisi A.Şadlinski;
4. Xalq Təsərrüfatı Şurasının sədri Mehdiyev;
5. Səhiyyə komissarı Ə.Abbasov;
6. Maliyyə komissarı Bənəniyarski;
7. Maarif və ədliyyə komissarı Ə.Rüstəmov;
8. Torpaq komissarı Hacılarov;
9. Ərzaq komissarı Məmmədov;
10. Fəhlə-kəndli müfəttişliyinin rəisi Musayev.[2]

1921-ci ilin sentyabrında yenidən təşkil olunan Naxçıvan SSR XKS-nin tərkibinə ərzaq, torpaq, maliyyə, səhiyyə, maarif, daxili işlər xalq komissarlıqları, xalq hərbi komissarlığı və fəhlə-kəndli müfəttişliyi daxil idi. Oktyabr ayında isə daha on qurum – xarici işlər, rabitə, əmək, daxili ticarət, xarici ticarət, ictimai təlimat, ədliyyə xalq komissarlıqları, fövqəladə komissiya, xalq təsərrüfatı şurası, hərbi tribunal yaradılaraq XKS-nin tərkibinə daxil edildi.[3]

1921-ci ilin mayında birinci Ümumazərbaycan Sovetlər qurultayında Azərbaycan İnqilab Komitəsi sədrinin müavini M.D.Hüseynov nümayəndələrin verdiyi suallara cavabında demişdi ki, Cənubi Qafqaz respublikalarının razılığı və iştirakı ilə RSFSR-lə Türkiyə arasında martın 16-da imzalanmış müqaviləyə əsasən Azərbaycanın tərkibində Naxçıvan əlahiddə müstəqil sovet sosialist respublikası kimi təşkil olunmuşdur. Naxçıvanda Azərbaycanın, Bakıda isə Naxçı-

[1] Quliyev C.B., Mədətov Q.Ə., Nadirov A.A. Sovet Naxçıvanı, s.46
[2] Sadıqov S.H. Naxçıvan Muxtar Respublikası tarixindən, s.53-54
[3] Quliyev C.B., Mədətov Q.Ə., Nadirov A.A. Sovet Naxçıvanı, s.47-48

vanın nümayəndəliyi yaradılmışdır. Azərbaycan hökumətinin Naxçıvana geniş miqyaslı və hərtərəfli yardım göstərməsi nəzərdə tutulur.[1]

Naxçıvanın sonrakı tarixi taleyinin müəyyənləşdirilməsi üçün ən mühüm sənəd – 1921-ci il oktyabrın 13-də Türkiyə ilə üç Cənubi Qafqaz respublikası arasında RSFSR nümayəndəsinin iştirakı ilə Moskva müqaviləsinin 15-ci maddəsinə uyğun olaraq imzalanan Qars müqaviləsi oldu.[2] Müqavilənin ilk maddəsi ilə həm tərəf dövlətlərin sələflərinin arasında, həm də onlarla Cənubi Qafqaza da aidiyyatı olan üçüncü tərəf arasında bağlanmış müqavilələr qüvvədən düşmüş hesab edilirdi. Bu, eyni zamanda bölgənin taleyi üçün mühüm əhəmiyyəti olan 4 iyun 1918-ci il tarixli Batum və 2 dekabr 1920-ci il tarixli Gümrü müqaviləsinin öz qüvvəsini itirməsi demək idi. Müqavilə Rusiyanın diktəsi altında Cənubi Qafqazda yeni hərbi-siyasi vəziyyəti müəyyənləşdirirdi. Müqavilənin 5-ci maddəsi Naxçıvanın Azərbaycanın himayəsində muxtar ərazi təşkil etməsi barədə razılığa gəlindiyini bəyan edir, 6-cı maddədə isə Türkiyə Batum dairəsinə daxil olan torpaqlar, o cümlədən Batum limanı və şəhəri üzərində suverenlik hüququnu, geniş yerli muxtariyyətdən istifadə etməsi şərti ilə, Gürcüstana güzəştə gedirdi. Ümumiyyətlə, 6-9-cu maddələr bilavasitə Türkiyə-Gürcüstan münasibətlərinin tənzimlənməsinə həsr olunmuşdu.

Müqavilənin 12-ci maddəsi tərəflərin "hər birinin digər ölkənin ərazisində olan vətəndaşlarına daha əlverişli şərait prinsipi tətbiq edəcəy"ini təsbit edirdi. Lakin, Moskva müqaviləsində (maddə 11) olduğu kimi, bu prinsip "müttəfiq rus sovet respublikalarının vətəndaşlarının hüquqlarına, eləcə də Türkiyənin müttəfiqi olan müsəlman dövlətlərin vətəndaşlarının hüquqlarına tətbiq olunmur"du. 14-cü maddədə tərəflərin "müqavilənin imzalanmasından sonra 6 ay ərzində 1918-1920-ci illər müharibələri qaçqınları barədə xüsusi saziş bağlamağı" öhdəliyini müəyyənləşdirirdi. Bu, təbii ki, ilk növbədə Ermə-

---

[1] ARDA, f. 379, siy. 16, iş 13, v.6-7

[2] Gümrü, Moskva və Qars müqavilələri (Azərbaycan, türk, rus və fransız dillərində), s.67-80

nistanın Azərbaycana, o cümlədən Naxçıvana qarşı hərbi təcavüzü və cinayətləri, deportasiya siyasəti nəticəsində bölgədə meydana gəlmiş qaçqınlarla bağlı ciddi problemin həllini nəzərdə tutan müddəa idi. Lakin sonrakı tarix 1920-ci illərin sonunadək qaçqınlar probleminin Naxçıvan bölgəsi üçün ən ağrılı problemlərdən biri olaraq qaldığını sübut etdi.

Sovet Rusiyasının bölgədəki ikiüzlü və ermənipərəst siyasətinin mahiyyəti Qars müqaviləsinin 15-ci maddəsində özünü bariz şəkildə göstərirdi. Orada deyilirdi: "Razılığa gələn tərəflərdən hər biri bu Müqavilə imzalanandan dərhal sonra digər tərəfin vətəndaşlarına Qafqaz cəbhəsindəki hərbi əməliyyatlardan irəli gələn cinayətlərə və günahlara görə tam amnistiya elan etməyi öhdəsinə götürür". Doğrudur, RSFSR müqavilədə guya sadəcə iştirak edirdi, lakin hələ Moskva müqaviləsi ilə (maddə 15) Rusiya Cənubi Qafqaz respublikalarına əslində öz mövqeyini qəbul etdirməyi öhdəsinə götürmüşdü. Nəzərə alsaq ki, 1918-1920-ci illərdə Qafqaz cəbhəsindəki, demək olar ki, bütün hərbi cinayətlər daşnaklar və ümumiyyətlə, ermənilərə aid idi, o zaman müqavilənin bu maddəsinin bilavasitə erməni cinayətkarlarının məsuliyyətdən azad edilməsinə yönəlmiş addım olduğuna şübhə yeri qalmır.

Qars müqaviləsinin sonrakı maddələri (16-20-ci) hərbi və mülki əsirlərin geri qaytarılması, iqtisadi-ticari və maliyyə, dəmiryol, teleqraf və digər əlaqələrin qurulması, adamların və malların sərbəst hərəkəti və daşınması, konsulluq konvensiyasının bağlanması və müqavilənin ratifikasiya olunaraq qüvvəyə minməsi məsələlərini əhatə edirdi.[1]

Beləliklə, həm Moskva, həm də Qars müqaviləsi Cənubi Qafqazda sovet Rusiyasının maraqlarına uyğun yeni coğrafi-siyasi və hərbi şəraitin yaranmasını təmin edirdi. Bununla belə, hər iki müqavilənin Azərbaycan üçün ən mühüm nəticəsi Naxçıvanın muxtar res-

[1] Gümrü, Moskva və Qars müqavilələri (Azərbaycan, türk, rus və fransız dillərində), s.74-75

publika statusunda Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi qalması məsələsinin beynəlxalq müqavilədə təsbit olunmasında öz əksini tapdı.

Qars müqaviləsinin imzalanmasından sonra Naxçıvanın Azərbaycanın tərkibində bəhs edilən müqavilələrdə göstərilən muxtar ərazi (respublika) statusunun dərhal hüquqi baxımdan rəsmiləşdirilməsinə və onun konstitusion səviyyədə əsaslarının yaradılmasına və bu əsasda muxtariyyətin hakimiyyət orqanlarının təşkilinə ciddi zərurət yaranmışdı. Əks təqdirdə, həmin beynəlxalq müqavilələrə rəğmən, Naxçıvan məsələsi uzun müddət tam həll olunmamış problem kimi qala bilərdi. Buna görə də Azərbaycanın tərkibində Naxçıvanın muxtariyyət statusunun siyasi-hüquqi cəhətdən həlli istiqamətində işlər başlandı. Lakin Naxçıvana Azərbaycanın tərkibində muxtar respublika statusunun verilməsində yekun nəticənin əldə edilməsinə daha üç il lazım oldu. Belə ki, yalnız 1921-1924-cü illərdə əslində Naxçıvanın hüquqi statusu ətrafında aparılan müxtəlif siyasi manipulyasiyalardan sonra Naxçıvana Azərbaycanın tərkibində muxtar respublika statusunun verilməsi reallaşdı. Bu, Naxçıvan ətrafında müxtəlif planların hələ də gündəlikdə olmasının sübutu idi.

Naxçıvan Moskva müqaviləsinin imzalandığı gündən – 1921-ci il martın 16-dan Naxçıvan Sosialist Sovet Respublikası adlandırılırdı. Buna görə də sonrakı proseslər Naxçıvanın muxtariyyət hüquqlu ərazi kimi təsbit olunması istiqamətində cərəyan etdi. 1921-ci il dekabrında AK(b)P Siyasi Bürosu və Təşkilat Bürosu 11 nəfərdən ibarət tərkibdə Naxçıvan Diyar Partiya Komitəsinin yaradılması haqqında qərar qəbul etdi. Bundan sonra Naxçıvanda ilk dəfə sovetlərə seçkilər keçirildi və bununla əlaqədar olaraq inqilab komitələri və yoxsul komitələri (*yoxsul komitələri Azərbaycan Hərbi İnqilab Komitəsinin 23 sentyabr 1920-ci il dekreti ilə yerli inqilab komitələrinin əvəzinə yaradılmışdı – Red.*) ləğv edildi.

1922-ci il yanvarın 25-də açılan Naxçıvan SSR birinci Sovetlər qurultayı (*ali dövlət hakimiyyəti orqanı – Red.*) Naxçıvan Diyar İn-

qilab Komitəsini ləğv edərək qurultaylararası dövrdə dövlət hakimiyyətinin ali orqanı səlahiyyətində olan Naxçıvan SSR MİK-ni, sonuncu isə mərkəzi (ali) icra hakimiyyəti orqanı olan Naxçıvan SSR XKS-ni təşkil etdi.[1]

1922-ci il mayın 22-də AK(b)P MK Rəyasət Heyəti Naxçıvan Diyarı haqqında Əsasnaməni və Naxçıvan SSR Konstitusiyasının Azərbaycan MİK tərəfindən təqdim olunmuş layihələrini müzakirə etdi. SSRİ-nin hələ rəsmən yaradılmasa və Azərbaycan SSR, formal da olsa, hələ müstəqil sovet respublikası kimi fəaliyyət göstərsə də, AK(b)P MK Naxçıvan Diyarının muxtariyyəti məsələsini RK(b)P MK-nın müzakirəsinə verdi. 1922-ci ilin noyabrında RK(b)P MK Siyasi bürosu Naxçıvan Muxtar Respublikasının yaradılması haqqında qərar qəbul etdi. Bu, bütün məsələlərin birbaşa Moskvada həll olunduğuna dəlalət edirdi. Məhz bundan sonra 1922-ci il dekabrın 12-də keçirilən Cənubi Qafqaz birinci Sovetlər qurultayı müvafuq qərar qəbul etdi: "Naxçıvan Respublikası muxtariyyət hüququ ilə Azərbaycanın ayrılmaz tərkib hissəsi hesab olunsun".[2] Bu qərardan sonra Azərbaycan SSR tərkibində Naxçıvanın muxtariyyəti məsələsi Cənubi Qafqaz və Azərbaycan KP rəhbərliyində müzakirə olunmuş məsələni qəti həll etmək və müvafiq bəyannamə işləyib hazırlamaq Naxçıvan Diyar Sovetlər qurultayına həvalə olunmuşdu.[3] Naxçıvan məsələsinin Cənubi Qafqaz Sovetlər qurultayında müzakirə olunması Azərbaycanın 1922-ci il martın 12-də konfederasiya kimi yaradılaraq həmin ilin dekabrında federasiyaya çevrilən Cənubi Qafqaz Sosialist Federativ Sovet Respublikasına daxil olması ilə bağlı idi.

1922-ci ilin dekabrın 13-də birinci Cənubi Qafqaz Sovetlər qurultayı Naxçıvan məsələsi üzrə qəbul etdiyi xüsusi qərarında Naxçıvanın muxtariyyət statusunda Azərbaycan SSR-in ayrılmaz tərkib his-

---

[1] Quliyev C.B., Mədətov Q.Ə., Nadirov A.A. Sovet Naxçıvanı, s.48-49
[2] Quliyev C.B., Mədətov Q.Ə., Nadirov A.A. Sovet Naxçıvanı, s.49-50
[3] Sadıqov S.H. Naxçıvan Muxtar Respublikası tarixindən, s.57

səsi olduğunu təsdiq etdi.[1] Maraqlıdır ki, məsələnin bu cür müzakirə olunub qərarlar qəbul edildiyi bir zamanda, 1923-cü ilin yanvarında RK(b)P Cənubi Qafqaz Ölkə Komitəsinin Rəyasət Heyəti AK(b)P MK-ya təklif etdi ki, "Naxçıvan Muxtar Vilayətə, Naxçıvan İcraiyyə Komitəsi isə Naxçıvan Diyarının İcraiyyə Komitəsinə çevrilsin". AK(b)P MK katibliyi 1923-cü il yanvarın 21-də həmin qərarı müzakirə edərək Naxçıvan MİK-ni və XKS-ni ləğv etdi və Naxçıvan Diyarının İcraiyyə Komitəsini yaratdı. Növbəti gün AK(b)P MK Rəyasət Heyəti qərara aldı ki, bu məsələ Naxçıvan Diyar Partiya Komitəsinin konfransında və Naxçıvan Diyarının Sovetlər qurultayında müzakirə edilsin. Artıq sovet totalitar rejiminin işə saldığı təbliğat maşını göstərməyə çalışırdı ki, guya bütün Naxçıvan ölkəsinin zəhmətkeşləri Naxçıvanda muxtar respublika əvəzinə muxtar ölkənin yaradılmasını ürəkdən bəyənir, bunun üçün hətta partiya rəhbərliyinə və sovet hökumətinə dərin minnətdarlıqlarını da bildirirlər.[2]

1923-cü il fevralın 23-də keçirilən Naxçıvan vilayət partiya təşkilatının üçüncü qurultayı qeyd etdi ki, Naxçıvanın Azərbaycanın tərkibinə daxil olması vilayətin siyasi, iqtisadi və mədəni inkişafı üçün bir zərurətdir. Qərarda deyilirdi: "Azərbaycan SSR-in ayrılmaz hissəsi olan Naxçıvan Sovet Sosialist Respublikasını tanımalı və onun Azərbaycan SSR tərkibinə daxil olmasını Naxçıvan vilayətinin həyati zərurəti hesab etməli". Fevralın 24-də keçirilən Naxçıvan zəhmətkeşlərinin yığıncağında qəbul edilmiş qətnamədə deyilirdi: "Biz Naxçıvan SSR-in Naxçıvan Diyarına çevrilməsi və muxtariyyət əsasında Azərbaycan SSR-lə birləşməsi haqqında məruzəni və çıxışları dinləyərək, qardaş sovet Azərbaycanı ilə birləşmək ideyasını tamamilə bəyənir, muxtar dövlətimizi yaratmaq üçün təşəbbüs göstərdiklərinə görə

[1] Naxçıvan Ensiklopediyası. 2 cilddə. Cild 2, s.120
[2] Hacıyev İ. Naxçıvanın muxtariyyət statusu və müasir dövr // AMEA Naxçıvan Bölməsinin "Xəbərlər"i (İctimai və humanitar elmlər seriyası). Cild 10, № 1. Naxçıvan: Tusi, 2011, s.16

Kommunist partiyasına və sovet hökumətinə dərin minnətdarlığımızı bildiririk".[1]

Naxçıvan məsələsinin yenidən bütün dövlət və rəhbər partiya orqanlarında belə geniş müzakirəsinin başlanması onun Moskva və Qars müqavilələri ilə təsbit olunmuş muxtariyyət statusunun mümkün olduğu qədər azaldılması ilə bağlı idi. Hadisələrin sonrakı gedişatı da bunu göstərdi. Belə ki, hər yerdə yuxarıdan verilən göstərişə uyğun olaraq əvvəlcədən təşkil olunmuş şəkildə nahiyə Sovetlər qurultayı, partiya yığıncaqları və konfransları qətnamələr qəbul edərək Azərbaycan SSR-in tərkibində yaradılmış Naxçıvan Muxtar Respublikasının yaradılmasını bəyəndiklərini bildirirdilər. O dövrdə Azərbaycan SSR rəhbərliyinə göndərilən bu məzmunda qərar və məktubların sayı yüzlərlə idi. Lakin guya aşağılardan gələn arzu, təklif və təşəbbüs əsasında Naxçıvanın muxtariyyət statusu ətrafında aparılan kampaniyanın əsl məqsədi başqa idi.

1923-cü il fevralın 27-də üçüncü Ümumnaxçıvan Sovetlər qurultayının Bəyannaməsində Azərbaycanın tərkibinə daxil olmaq haqqında danışılırdı: "Son illərin mübarizəsinin təcrübəsini, iqtisadi və etnoqrafik meylləri nəzərə alaraq biz vahid rəyə gəlirik ki, zəhmətkeşlərin mənafeyinin tam müdafiəçisi sovet Azərbaycanıdır ki, onunla birlikdə biz fəhlə-kəndli maraqlarımızın tam müdafiəsini və bizim mədəni-iqtisadi dirçəlişimizi düşünürük. Biz bütöv dövlət mexanizmimizdə bölünməz olmağımızı istəyirik". Qurultayın qərarı ilə Naxçıvan Azərbaycanın tərkibinə diyar kimi daxil olmalı idi. Qurultayın bu barədəki qərarında deyilirdi: "1. Naxçıvan SSR Azərbaycan SSR-in ayrılmaz tərkib hissəsi kimi tanınsın; 2. Naxçıvan MİK, XKS və bütün xalq komissarlıqları buraxılsın; 3. İdarəetmə üçün gələcəkdə 17 üzvdən, 7 namizəddən ibarət Naxçıvan Diyar İcraiyyə Komitəsi seçilsin;

[1] Quliyev C.B., Mədətov Q.Ə., Nadirov A.A. Sovet Naxçıvanı, s.51-52

4. Bütün Naxçıvan Diyarı öz aparatı və muxtar diyar hüquqları ilə Azərbaycan SSR-in tərkibinə daxil olsun”.[1]

Əslində bütün bu prosesdə başlıca məqsəd Naxçıvanın statusunun siyasi muxtariyyətdən daha az səlahiyyət və hüquqlara malik inzibati-ərazi muxtariyyətinə transformasiyası idi. Görünür, Naxçıvanı Azərbaycanın tərkibində inzibati muxtariyyətə, hətta federativ dövlətlərdə olduğu kimi, federasiya subyektinə çevirməklə mərkəzi hakimiyyət, özünün müstəmləkəçi siyasətinə uyğun olaraq, Azərbaycanın parçalanması planını reallaşdırmaq, gələcəkdə hissələrə bölünmüş ərazilərimizi daha asanlıqla qoparmaq niyyətində idi. Əslində Moskvanın Azərbaycandakı emissarları bunu üstüörtülü şəkildə ifadə etməkdən belə çəkinmirdilər. Belə ki, AK(b)P MK-nın birinci katibi S.M.Kirov AK(b)P-nin 1923-cü il martın 12-də keçirilən V qurultayında Naxçıvan məsələsinə münasibət bildirərkən demişdi: “Azərbaycanın ümumsiyasi və təsərrüfat quruculuğunda ən böyük iş Azərbaycanın bütün əyalətlərinin bir yerə yığışması üçün apardığımız geniş islahat işləridir... Bizim federativləşdirilmiş respublikalarımızın ümumi işi ilə əlaqədar olaraq Azərbaycanla Naxçıvan arasında belə münasibətlərin yaranması məsələsi təbii şəkil alır, çünki ancaq bu sür münasibət Naxçıvanın sovet və xalq təsərrüfatlarının inkişafına möhkəm zəmanət verə bilərdi. Yəqin ki, oxumuş olarsınız, orada keçirilən Sovetlər qurultayı (*1923-cü il fevralın 27-də keçirilən üçüncü Ümumnaxçıvan Sovetlər qurultayı nəzərdə tutulur – Red.*) böyük səmimiyyətlə və bir səslə qərara aldı ki, özlərini Azərbaycanın hər hansı bir protektoratı kimi yox, sovet quruculuğu dövründə bizim yaratdığımız muxtariyyət vahidi olmaqla, Azərbaycan SSR-in ayrılmaz hissəsi hesab etsinlər”.[2]

Əslində guya Azərbaycanın Naxçıvan üzərində Moskva və Qars müqaviləsində əks olunduğu kimi, protektorat statusunu ləğv edib, Naxçıvanı Azərbaycanın muxtariyyət statuslu ayrılmaz tərkib hissə-

[1] Əsgərov Z. Naxçıvan Muxtar Respublikasının Konstitusiya statusu. Bakı: Bakı Universiteti nəşriyyatı, 1999, s.15
[2] Quliyev C.B., Mədətov Q.Ə., Nadirov A.A. Sovet Naxçıvanı, s.53-54

sinə çevirirdilər. Lakin S.Kirovun məruzəsindəki "federativləşdirilmiş respublikalarımızın ümumi işi" (*təbii ki, bu ifadə altında RSFSR-in federasiya təcrübəsinin nəzərdə tutulduğu şübhə doğurmurdu – Red.*) ifadəsi tamamilə başqa mətləblərdən xəbər verirdi. Çünki Naxçıvan ətrafında aparılan bu oyunlar Azərbaycanın tarixi Dağlıq Qarabağ torpaqları hesabına onun ərazisində ikinci bir federasiya subyektinin – Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması (1923, 7 iyul) ilə bağlı gedən proseslərlə eyni dövrə təsadüf edirdi. Qeyd edək ki, bu dövrdə Naxçıvanın adının ayrı-ayrı mənbələrdə "Naxçıvan Ölkəsi", "Naxçıvan Diyarı", "Naxçıvan muxtar ölkəsi" kimi adlandırılması da Rusiyada federasiya subyektlərinin bir qisminin "край" (ruscadan tərcümədə bu söz həm "ölkə", həm də "diyar" kimi işlədilir) adlandırılması ilə əlaqədar idi. Çünki mövzuya aid o dövrün rəsmi sənədlərinin rusca mətnlərdə "Нахчыванский край" ifadəsi işlədilmişdir. Zənnimizcə, həmin dövrdə Naxçıvanın statusunun azaldılması cəhdlərinə, bölgənin coğrafi ərazisinin kiçik olduğuna, həmçinin "ölkə" ifadəsinin Naxçıvana münasibətdə özünün tam mənasını ifadə etmədiyinə görə, 1923-cü ilə dair göstərilən məqamlarda "diyar" ifadəsinin işlədilməsi daha doğrudur.

Məhz buna görə Azərbaycan SSR MİK-nin II çağırış 1923-cü il iyunun 16-da keçirilən III sessiyasında qəbul edilmiş qərarla Naxçıvan Sovetlər qurultayının "xahişi yerinə yetirilərək" Naxçıvan SSR Azərbaycan SSR-in tərkibinə daxil edilir və Naxçıvan Diyarı kimi yenidən təşkil olunurdu.

Naxçıvanın muxtariyyət tarixinin ən yaxşı tədqiqatçılarından olan S.Sadıqov Azərbaycanın tərkibində Naxçıvanın muxtariyyət statusu ətrafında aparılan oyunlara öz münasibətini belə bildirir: "Naxçıvan diyarına muxtariyyət hüququ verilməsi və onun Azərbaycana birləşməsi özlüyündə çox böyük müvəffəqiyyət sayıla bilərdi. Bununla belə, həmin muxtariyyət inzibati vilayət muxtariyyəti hüquqları çərçivəsindən kənara çıxmırdı və siyasi hüquqlarına görə muxtar respublikadan xeyli geriyə qalırdı. Odur ki, hələ 1923-cü ilin sonuna

doğru bu sahədə çatışmazlıqlar özünü göstərdi".[1] Onun bu fikirləri ilə bütünlüklə razılaşsaq da, 1923-cü ilin sonlarında Naxçıvana muxtar respublika statusunun verilməsindəki əsas səbəb göstərilən kimi, bu sahədəki çatışmazlıqlar deyil, fikrimizcə, Türkiyə hökumətinin 25 iyun 1923-cü il tarixli etiraz notası olmuşdur.

1923-cü il dekabrın 11-də S.Kirovun sədrliyi ilə AK(b)P MK Rəyasət Heyəti Naxçıvan ölkəsinin Naxçıvan Muxtar Respublikasına çevrilməsi məsələsini müzakirə etdi və Azərbaycan MİK-nə təklif etdi ki, Naxçıvan Muxtar Respublikasının yaradılması məsələsini hazırlayıb Cənubi Qafqaz MİK-nin qarşısında qoysun.[2] Azərbaycan SSR MİK 1923-cü il dekabrın 31-də "Naxçıvan Diyarının Azərbaycan SSR-in tərkibində Naxçıvan Muxtar Respublikasına çevrilməsi"ni qərara aldı və qərarın sanksiyalaşdırılmasını Cənubi Qafqaz MİK-dən xahiş etdi.[3] 1924-cü il yanvarın 8-də Cənubi Qafqaz MİK-in plenumu Azərbaycan SSR XKS sədri Q.Musabəyovun məruzəsini və Azərbaycan MİK-in qərarını müzakirə edərək, Azərbaycan SSR-in tərkibində Naxçıvan MSSR elan olunmasını təsdiq etdi: Naxçıvan vilayəti "Azərbaycan SSR-in tərkibində Naxçıvan Muxtar Sovet Sosialist Respublikası elan edilsin".[4]

1924-cü il yanvarın 18-də Naxçıvan MİK-nin birinci plenumu çağırıldı. Plenumda Cənubi Qafqaz və Azərbaycan MİK-lərinin qərarları əsasında Naxçıvan Muxtar Diyarının Naxçıvan MSSR-ə çevrilməsi haqqında məsələ müzakirə və təsdiq edildi. Plenumun qərarı ilə Naxçıvan MSSR MİK, XKS və komissarlıqların (torpaq, daxili işlər, maarif, səhiyyə), habelə Azərbaycan SSR xalq komissarlıqlarının (maliyyə, əmək, hərbi komissarlıq) müvəkkillikləri yaradıldı. Plenumda MİK-in 7 nəfərdən ibarət Rəyasət Heyəti seçildi, Naxçıvan MSSR MİK nəzdində elektrikləşdirmə, telefonlaşdırma və mənzil tikintisi

---

[1] Sadıqov S.H. Naxçıvan Muxtar Respublikası tarixindən, s.58
[2] Quliyev C.B., Mədətov Q.Ə., Nadirov A.A. Sovet Naxçıvanı, s.54
[3] NMRDA, f. 314, siy. 5a, iş 66, v.1
[4] Quliyev C.B., Mədətov Q.Ə., Nadirov A.A. Sovet Naxçıvanı, s.54-55

üzrə komissiyalar təşkil edildi. Naxçıvan MSSR inzibati cəhətdən üç qəzaya: Şərur, Ordubad və Naxçıvan qəzalarına bölündü.[1]

Naxçıvanın Azərbaycanın tərkibində muxtar respublika statusunun təmin edilməsi yuxarıdakı müvafiq bürokratik müzakirələrdən sonra yalnız 1924-cü ilin fevral ayında baş tutdu. Azərbaycan SSR MİK-in 1924-cü il 9 fevral tarixli dekreti ilə Naxçıvan muxtar ölkəsi Azərbaycan SSR-in tərkibində Naxçıvan SSR-ə çevrilməsi rəsmiləşdirildi və Naxçıvan SSR haqqında Əsasnamənin layihəsinin hazırlanması üçün komissiya yaradılması qərara alındı. Dekretdə deyilirdi: "Naxçıvan Diyarı Azərbaycanın SSR-in protektoratlığında Naxçıvan Sosialist Sovet Respublikasına çevrilsin".[2] Beləliklə, son nəticədə Naxçıvanın muxtar respublika statusunda Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi qalması məsələsi qəti şəkildə həll olundu.

1924-cü ilin aprelində Azərbaycan SSR MİK muxtariyyətin ilk konstitusiya əhəmiyyətli sənədi olan "Naxçıvan Sosialist Sovet Respublikası haqqında Əsasnamə"ni[3] təsdiq etdi. Naxçıvan SSR-in birinci Konstitusiyası həmin Əsasnaməyə uyğun olaraq işlənib hazırlandı və 1926-cı il aprelin 18-də V Ümumnaxçıvan Sovetlər qurultayında təsdiq edildi. Sonralar, 1937-ci və 1978-ci illərdə Naxçıvanın sovet hakimiyyəti illərində daha iki Konstitusiyası qəbul edildi. Maraqlıdır ki, Azərbaycan SSR MİK-in 23 dekabr 1923-cü il tarixli, Zaqafqaziya MİK-in 8 yanvar 1924-cü il tarixli qərarlarına, habelə birincinin 9 fevral 1924-cü il tarixli dekretinə baxmayaraq, həm "Naxçıvan SSR haqqında Əsasnamə"də (1924-cü il), həm də Naxçıvanın ilk Konstitusiyasında (1926-cı il) "Naxçıvan Sosialist Sovet Respublikası" adına "Muxtar" sözü əlavə edilməmişdi. Bu məsələ konstitusion səviyyədə Naxçıvanın ikinci Konstitusiyasında (1937-ci il) öz həllini tapdı və Naxçıvan muxtariyyəti məhz həmin ildən "Naxçıvan Muxtar Sovet Sosialist Respublikası" adlandırıldı.

---

[1] Sadıqov S.H. Naxçıvan Muxtar Respublikası tarixindən, s.59
[2] http://www.heraldicum.ru/azerbaij/nahicevan.htm
[3] NMRDA, f. 314, siy. 5a, iş 66, v.2-13

Sovet hakimiyyəti illərində Moskva və Qars müqavilələri birbaşa keçmiş sovetlər birliyinin rəhbərliyinin dəstəyi ilə pozularaq, Naxçıvan ərazisi qəsb olundu və ermənilərə verildi. Belə ki, 1929-cu il fevralın 28-də Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Moskva və Qars müqavilələrinin şərtlərinə məhəl qoyulmadan və müqaviləni imzalayan dövlətlərlə razılaşdırılmadan ümumi sahəsi 657 km$^2$ təşkil edən Naxçıvan ərazisi – Şərur rayonunun Xaçık, Horadiz, Ordubad rayonunun Qarçevan, Şahbuz rayonunun Oqbin, Sultanbəy, Ağxəç, Səs, Almalı və İtqıran kəndləri Ermənistana verildi.[1] Bu kəndlərin ümumi ərazisi 625 km$^2$ idi ki, bu da 62 min ha kənd təsərrüfatına yararlı torpaq sahəsindən ibarət ərazi demək idi. 1988-ci ildə başlayan Azərbaycan torpaqlarına qarşı erməni təcavüzünün növbəti mərhələsində, 1990-cı il yanvarında Kərki kəndi SSRİ Müdafiə Nazirliyinin 7-ci Ordusunun köməyi ilə işğal edildi.

## 2.2. Ermənilərin Naxçıvanda törətdiyi soyqırım (1918-1920-ci illər)

Rusiyada 1917-ci ildə müxtəlif siyasi rejimlərin bir-birini əvəz etməsinə baxmayaraq həm çarizm, həm Müvəqqəti hökumət, həm də bolşeviklər "erməni məsələsi"nə münasibətdə eyni mövqedən çıxış edirdilər. Buna görə də rus hakimiyyət dairələrinin antiazərbaycan siyasəti Naxçıvan bölgəsində 1917-ci ildən öz nəticəsini göstərməyə başladı. Azərbaycanlılara qarşı təqib və təzyiq siyasəti yürüdüldü, hətta 1905-1907-ci illərdə azərbaycanlılara qarşı kütləvi qırğın törədən ermənilərə müqavimət göstərənləri incitməyə, azərbaycanlı əhalini siyasi cəhətdən hüquqsuz vəziyyətə salmağa başladılar.

[1] Talıbov V. Deportasiya tarixi və Naxçıvan // Naxçıvan Dövlət Universitetinin "Elmi əsərlər"i (xüsusi buraxılış). Naxçıvan: Qeyrət, 2001, № 8, s.13

1917-ci il dekabrın 17-də Naxçıvan şəhər dəmir yolunda xidmət edən bir rus kazakının silahının azərbaycanlılar kimi geyinmiş Qaraxanbəyli kəndinin erməni sakini tərəfindən oğurlanmasından istifadə edən ermənilər rus əsgərləri ilə azərbaycanlı əhali arasında düşmənçiliyin yaradılmasına nail oldular. Nəticədə rus-erməni silahlı dəstələri dekabrın 22-23-də Naxçıvan şəhərinin azərbaycanlılar yaşayan məhəllələrini atəşə tutdular. Bu hadisə dərhal kütləvi qırğınların başlanmasına səbəb olmasa da, bunun üçün artıq zəmin hazırlanırdı.

Artıq bölgədə etnik əsaslarla yerli idarəçilik orqanları kimi yaradılan müsəlman və erməni milli komitələri Naxçıvan şəhərində və ətraf kəndlərdə idarəçilik səlahiyyətlərini öz əllərinə almışdılar. Hər iki milli komitə özünün hərbi qüvvələrini də yaratmışdı. Milli məsələnin getdikcə kəskinləşdiyi mərhələdə türk-müsəlman əsgərlərinin komandiri və onun müavini "bəzi mühüm məsələləri həll etmək üçün" Tiflisə getdi, lakin bir daha geri qayıtmadılar. Bu hadisə müsəlman hərbi təşkilatının dağılmasına, onun hərbi sursatının isə ermənilərin əlinə keçməsinə səbəb oldu. 1918-ci ilin yanvar ayının 17-də (*yeni tarixlə yanvarın 30-da – Red.*) ermənilər Əznəbürd kəndinə hücum edərək 22 nəfər azərbaycanlı qadını və uşağı qətlə yetirdilər.[1]

Bu zamanadək Cənubi Azərbaycanın Urmiya, Səlmas və Xoy şəhərlərində qanlı cinayətlər törədən ermənilər Naxçıvanda da fəallaşdılar. İlk silahlı münaqişələrdə azərbaycanlı əhalinin ciddi müqaviməti ilə üzləşən ermənilər vaxt qazanmaq üçün sülh təklifi ilə çıxış etdilər. Lakin cəmi bir neçə gün sonra mövqelər dəyişildi: bu dəfə müsəlman milli komitəsinin sülh təklifinə qarşılıq olaraq 1918-ci il martın 23-də[2] xaricdən xeyli silah-sursat almış ermənilər azərbaycanlılardakı topların, silahların onlara təhvil verilməsi şərtini irəli sürdülər. Azərbaycanlı əhali Naxçıvanın asanlıqla işğalına səbəb olacaq bu təxribata getmədi.

---

[1] Əliyev M.B. Qanlı günlərimiz. Bakı: Azərnəşr, 1993, s.10
[2] Əliyev M.B. Qanlı günlərimiz, s.13-14

1918-ci il aprelin 13-də ermənilər Əlincəçay vadisində yerləşən Bənəniyar, Qızılca, Saltaq, Noraşen, Xoşkeşin və digər kəndlərə hücum edərək bu yaşayış məntəqələrini dağıdıb əhalisini qırdılar. Sağ qalanlar digər kəndlərə sığındılar. Bunun ardınca Qaraxanbəyli kəndinin silahlı erməni dəstələri Nehrəmə basqın etdi.[1] Aprelin 16-da ermənilərin öldürdüyü 6 nəfər nehrəmlinin meyiti Müsəlman milli komitəsinin sədri Mirzə Nəsrullah Əmirova təhvil verilmişdi. Onlardan birinin başı kəsilmiş, digərlərinin isə meyitləri yandırılaraq tanınmaz hala salınmışdı. Hər gün İrəvan qəzasının erməni kəndlərindən gələn kömək hesabına güclənən ermənilər Naxçıvan şəhərinin müxtəlif məhəllələrini ələ keçirdilər. Həmin məhəllələrin Araz çayı sahilindəki Qaraçuq kəndinə sığınan sakinləri burada da Qaraxanbəyli kəndindəki erməni dəstələrinin silahlı hücumlarına məruz qaldılar.

1918-ci il aprelin 21-də sülh təklifinə qarşı ermənilərin irəli sürdükləri 7 maddədən ibarət şərtlərdə əsas tələb azərbaycanlı əhalidə olan 12 topun ermənilərə təhvil verilməsi idi. Bu tələb yerinə yetirilmədi. Həmin günlərdə türk osmanlı ordularının Maku və İqdır istiqamətində rus-erməni qüvvələrinə qarşı müzəffər yürüşləri barədə xəbərlər Naxçıvanda sürətlə yayıldı. Hətta Türkiyənin I Qafqaz kolordusu komandanı Kazım Qarabəkir paşanın imzası ilə Naxçıvan Müsəlman milli komitəsinə daxil olan məktubunda türk ordusunun tezliklə Naxçıvana köməyə gələcəyi bildirilirdi.[2] Bu xəbər aprelin 25-26-da Naxçıvandakı erməni qarnizonunun rəisi Yero Xarazyanın Rəhim xan, M.N.Əmirov və Abbasqulu Tahirovdan ibarət nümayəndə heyəti ilə danışıqlarda sülh təşəbbüsü ilə çıxış etməsində böyük rol oynadı. M.N.Əmirovun ermənilərin törətdikləri qətl cinayətlərinin qarşısının alınması barədəki tələbinə Y.Xarazyanın cavabı belə olmuşdu: “Sizin bu haqlı tələbiniz qarşısında mən söz deməyə xəcalət çəkirəm. Bilmirəm nə edim. Hərgah biləm ki, mənim qanımı tökməklə ermənilər

---

[1] Yenə orada, s.21-22

[2] Hüseynzadə L. Araz şahiddir ki. Türk ordu generalı Kazım Qarabəkir paşa Naxçıvanda (1918-1920-ci illər). Bakı: Nurlan, 2001, s.25-26

sakit olacaqsa, mən bu saat özümü öldürərəm. Ancaq yəqin bilirəm ki, iş bununla bitməyəcək. Erməni millətini mən sakit edə bilməyəcəyəm. Buna mənim qüvvəm, gücüm çatmayacaq”.[1] Onun cavabından aydın olurdu ki, qanlı hadisələr mütəşəkkil şəkildə kənar-dan idarə olunur.

Mayın 3-də ermənilərlə keçirilən növbəti görüşdə qərara alındı ki, hər bir şəhərə və rayona biri azərbaycanlı, digəri erməni olmaqla iki komissar təyin edilsin. Bu prinsip ictimai asayişi qoruyacaq polis qüvvələrinin rəhbərliyinə də şamil edildi. Azərbaycanlılardan Abbasqulu Tahirov, ermənilərdən isə Ruben Babaxanov Naxçıvan şəhərinin rəisliyinə təyin olundular. Lakin bu da vəziyyəti dəyişmədi.

Mayın 10-da osmanlı əsgərlərinin Şahtaxtı kəndinə daxil olması xəbərini eşidən ermənilər İrəvandan 6 top, 2 mindən artıq güllə və başqa sursatlar gətirərək 1800 nəfərlik silahlı dəstələrlə Naxçıvanda hərbi nümayiş keçirdilər. Ardınca bölgənin kəndlərində ermənilər tərəfində qətl və talanlar başlandı. Ordubadın Vənənd və onunla qonşu olan bir neçə kəndi erməni birləşmələrinin hücumuna məruz qaldı. Mayın 16-da Y.Xarazyan Qaraxanbəyli kəndinə, oradan isə Culfaya gedərək öz dəstəsinin sıralarını genişləndirməyə başladı.[2] O guya erməni əhalini intizama dəvət etmək adı altında Güznüt və Əbrəqunus kəndlərində də öz dəstəsinə əlavə qüvvələr cəlb etdi.

1918-ci il may ayının sonlarında Cənubi Qafqazda yeni tarixi şərait yarandı. Mayın 28-də Azərbaycan öz dövlət müstəqilliyini elan etdi. Azərbaycan Xalq Cümhuriyyəti ilə eyni vaxtda Qərbi Azərbaycan torpaqlarında işğalçı daşnak rejimi quruldu. Cümhuriyyətin yaradılması dövlətçilik tariximizdə çox mühüm hadisə idi. Bu, torpaqlarımızın erməni təcavüzündən daha uğurla qorunacağına, ərazi bütövlüyümüzün təmin ediləcəyinə böyük ümidlər yaratmışdı. Öz 23 aylıq mövcudluğu dövründə cümhuriyyət hökuməti süni şəkildə mübahisə obyektinə çevrilən ərazilər uğrunda gərgin diplomatik və silahlı mübarizə apardı.

---

[1] Yenə orada, s.19
[2] Əliyev M.B. Qanlı günlərimiz, s.34-35

1918-ci il iyunun 4-də Batumda Türkiyə ilə Azərbaycan arasında dostluq müqaviləsi imzalandı. Müqavilənin 4-cü maddəsi Türkiyənin Azərbaycana siyasi-hərbi yardım göstərməsini nəzərdə tuturdu. Türkiyə nümayəndə heyətinin başçısı, bu ölkənin ədliyyə naziri Xəlil bəy Məntəşə bolşevizmlə mübarizə zərurətini əsas gətirərək Batum-Bakı və Gümrü-Culfa dəmiryolunun Türkiyənin nəzarətinə verilməsini tələb edirdi. Eyni zamanda, Türkiyənin təklif etdiyi "Osmanlı imperiyası ilə Cənubi Qafqaz konfederativ respublikası arasında sülh və dostluq haqqında müqavilə"nin şərtlərinə görə 1829-cu ildə Rusiya ilə bağlanmış Ədirnə sülhündən əvvəlki sərhədlər bərpa edilməli və Cənubi Qafqazdan Türkiyəyə 1 milyon 250 min əhalisi olan 38 min $km^2$ ərazi verilməli idi.[1] Türkiyə Batumda Qərbi Azərbaycandakı işğalçı daşnak hökuməti ilə bağladığı müqavilə ilə Göyçə gölü ətrafı 9 min $km^2$-lik ərazidə qondarma erməni dövlətinin yaradılmasına loyal yanaşdığını göstərdi və daşnak dövlətini de-yure tanıdı. Bölgədəki vəziyyətlə bağlı təşkil edilmiş erməni komissiyasının üzvləri Levisyans, Tomaşev, Vəkilov, Keşişev və Jakoyevin imzası ilə Türkiyə hərbi komandanlığına göndərilən məlumatda deyilirdi: "Erməni komissiyası Osmanlı hökumətinin dostluğuna inanaraq və Osmanlı ordusu baş komandanlığının "Erməni hökumətini Türkiyə təşkil etdi və təbii ki, mühafizə də edəcəkdir" kimi böyük vədini xatırlayaraq təsəvvür etmir ki, Türkiyə erməni millətinin ölümünü istəsin".[2]

Lakin 1918-ci ildə Birinci Dünya müharibəsi cəbhələrində Türkiyənin vəziyyəti çətinləşdikcə o, Naxçıvanda daha güclü və sabit yerli hakimiyyətin qurulmasına maraq göstərirdi. Bu məqsədlə mayın 17-də Naxçıvana göndərilən Xəlil bəyin başçılığı ilə bir qrup osmanlı hərbiçisi Şahtaxtı kəndində iqamətgah yaratmışdılar. Topçu Hüsnü Əfəndi Naxçıvanda azərbaycanlılardan ibarət hərbi dəstələr təşkil edilməsi, topçuların hazırlanması ilə məşğul olmağa başladı. Osmanlı əs-

---

[1] Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə, II cild. Bakı: 1978, s.42

[2] Karabekir K. 1917-20 Arasında Erzincandan Erivana Ermeni Mezalimi. İstanbul: Emre Yayınları, 2000, s.97

gərlərinin gəlişindən sonra bir tərəfdən Şahtaxtı ətrafındakı kəndlərdən ermənilərin köçü müşahidə olunurdusa, digər tərəfdən Əlincəçay vadisi kəndlərində, xüsusən Əbrəqunusda yaşayan ermənilər Qazançı kəndinə toplaşırdılar. Bu zaman Naxçıvanda olan 8 ədəd rus dağ topundan dördü 34 mərmi ilə birlikdə Şahtaxtıya aparılmışdı. Bundan xəbər tutan ermənilər daha 50 mərmini Şahtaxtıya aparan azərbaycanlını əsir götürmüş, Y.Xarazyan Müsəlman milli komitəsinə sursat daşınması ilə bağlı öz etirazını bildirmişdi. M.N.Əmirov topçu Hüsnü Əfəndinin Naxçıvandan geri çağırılmasını təklif etdiyindən Xəlil bəy mayın 29-da hər iki tərəfdən könüllü tərksilah olunmalarını tələb etmişdi.

Bu tələbə məhəl qoymayan Y.Xarazyanın silahlı dəstələri mayın 31-də Culfadan çıxaraq yolboyu kəndlərə basqın edə-edə Naxçıvana doğru irəliləməyə başladı. İyunun 2-də isə Aza kəndinin erməni silahlıları ilə Yaycı kəndinin müdafiəçiləri arasında qanlı döyüşlər getdi. İyunun 3-də Əbrəqunus və Qazançı kəndindən olan silahlı erməni dəstələri Bənəniyar, Ərəzin, Noraşen və Xanağa kəndlərinə hücum edərək biri qadın olmaqla 7 nəfəri əsir götürdülər. Əznəbürt erməniləri isə Lizburt kəndini talan edərək iki nəfəri öldürüb bir neçəsini də yaraladılar. Lakin Xanlıqlar kəndində yaşayan ermənilər iyunun 8-də Xəlil bəyə təslim olduqlarını bildirdilər.

Xəlil bəyin bölgədə sülh yaratmaq təşəbbüsləri Andronik Ozanyanın Naxçıvana hücumu ərəfəsinə təsadüf etdiyindən uğur qazanmırdı. Andronikin yürüşü barədə xəbərlər erməniləri daha da azğınlaşdırmışdı. Çünki onun hərbi qüvvəsi Naxçıvandakı Osmanlı qüvvəsindən dəfələrlə artıq idi. Andronikin 1918-ci ilin iyun-iyul aylarında Naxçıvana hərbi yürüşü[1] zamanı təkcə Gilançay və Əlincəçay hövzələrində 80-dən çox kənd dağıdıldı, əhalinin böyük bir hissəsi məhv edildi. Təkcə Yaycı kəndinə Andronikin hücumu 2 mindən artıq azərbaycanlının qətli ilə nəticələnmişdi. Ümumiyyətlə, Naxçıvan da daxil olmaqla, İrəvan quberniyasında 1918-ci ilin mart ayınadək 199 kənd

---

[1] Cəfərli E.Y. Naxçıvanda erməni-Azərbaycan münaqişəsi. Bakı: Nurlan, 2008, s.237-261

yandırılaraq dağıdılmış, 135 min azərbaycanlı öldürülmüş və ya qaçqına çevrilmişdi.[1]

30 oktyabr 1918-ci ildə bağlanmış Mudros müqaviləsinə əsasən oktyabrın 31-də Kazım Qarabəkir paşanın başçılıq etdiyi I Qafqaz ordusu ləğv edildi və noyabr-dekabr aylarında Osmanlı ordusu bütün Azərbaycan ərazisini tərk etdi. Bundan istifadə edən daşnaklar 1918-ci il oktyabrın 27-də səfərbərlik elan edərək Göyçə, Yeni Bəyazit, Ağbulaq və İrəvanda 18-35 yaşlı kişiləri hərbi qüvvələrə cəlb etdilər. Oktyabrın 30-da Arpa kəndi işğal edildi.

Naxçıvanı tərk etdikdən sonra erməni işğalı təhlükəsini nəzərə alan Osmanlı hərbi rəhbərliyi bir tərəfdən tərxis olunan əsgərlərdən qalan silahların bölgə əhalisinə paylanmasını təmin etmiş, digər tərəfdən bölgənin etibarlı müdafiəsinin təşkili məqsədi ilə yerli hökumət təşkilatları qurmağa başlamışdı. 1918-ci il noyabr ayının əvvəllərində Naxçıvan şəhərində yaradılan Araz Türk Cümhuriyyətinin başlıca məqsədi Naxçıvanın erməni işğalından etibarlı müdafiəsini təmin etmək istiqamətində fəaliyyəti səfərbər etməkdən ibarət idi.

Türk orduları tərk etdikdən sonra bölgəni öz nüfuzu altına alan ingilislərə özlərinin əsas himayəçisi kimi baxan ermənilər yenidən fəal hərbi əməliyyatlara başladılar. Daşnak komandiri Yaponun (Hovannes Paronyan) 1200 nəfərlik dəstəsi 1918-ci il dekabrın 5-dən başlayaraq Naxçıvan bölgəsinin kəndlərinə dağıdıcı yürüşlər edirdi. Naxçıvandan 40 km şimalda yerləşən Almalı mahalında 2516 nəfər kişini qətlə yetirən ermənilər 40 uşağı və qadını da əsir götürmüşdülər.[2]

Dəhnə istiqamətində döyüşən azərbaycanlıların 4 min nəfərlik müdafiə dəstəsindən əlavə Naxçıvandan Arslan Həsən bəyin başçılığı ilə 500 nəfərlik hərbi qüvvə Şərurda qətl və qarət törədən ermənilərə qarşı göndərilmişdi.[3] Bir sıra kəndlərin erməni işğalı altına düşməsi

[1] Məmmədov İ. Tariximiz, torpağımız, taleyimiz. Bakı: Adiloğlu, 2003, s.398
[2] Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər), s.61
[3] Əliyev M.B. Qanlı günlərimiz, s.90-91

əhali arasında təlaşa səbəb olmuş, Naxçıvan şəhərinin boşalmasının qarşısını almaq üçün noyabrın 25-də şəhərdə hərbi vəziyyət elan olunmuşdu. Naxçıvan və Ordubad sakinləri adından Azərbaycan Xalq Cümhuriyyətinin Daxili İşlər Nazirliyinə göndərilən 28 dekabr 1918-ci il tarixli teleqramda bildirilirdi ki, İrəvandan hərəkət edən 25 min nəfərlik erməni dəstələri Sədərəyi keçərək 8 kəndi mühasirəyə almış, əhalisini tərksilah etmişdir. Naxçıvan və Şərur əhalisi İrana qaçmağa hazırlaşır, 200 nəfərdən artıq adam Araz çayını keçərkən tələf olmuşdur. Zəngəzur erməniləri bizə hücum etmişlər; əgər İrəvan quberniyasına kömək göndərməsəniz, o, ermənilərin hücumundan məhv olacaqdır.[1]

Ermənilərin Naxçıvan bölgəsinə 1918-ci il dekabrın 14-də başlayan yürüşü də ağır nəticələrə səbəb oldu. Yürüş nəticəsində İqdır, Qəmərli, Dərələyəz və Uluxanlı bölgəsinin türk-azərbaycanlı əhalisi qaçqına çevrilmiş, Qəmərlidə 48, Vedibasarda 18, Dərələyəzdə 74, Şərurda 7 kənd yandırılaraq dağıdılmışdı. Dekabrın 24-də Araz-Türk Respublikası hökumətinin müraciəti ilə sülhə nail olmaq üçün vasitəçilik etmək məqsədi ilə bölgəyə gələn İran nümayəndə heyəti Naxçıvan təmsilçiləri Hacı Mirbağır ağa, Heydərqulu bəy və Cəfərqulu xanla birlikdə İrəvana yola düşdü. Lakin Dəmirçi və Quşçu kəndlərini işğal edərək qüvvələrini bu kəndlərdə cəmləşdirən daşnak komandiri Doluxanov naxçıvanlı nümayəndələri həbs edərək Noraşen və Yengicə kəndlərinə hücum əmri verdi. Həmin gün Kalbalı xan və Məşədi Ələsgər ağanın başçılıq etdikləri könüllü müdafiə dəstələri Maxta və Dəmirçi kəndlərini ermənilərdən azad etdilər, bir gün sonra isə Qurd qapısında (Dəhnə boğazında) düşmənə ağır zərbə vurdular. Doluxanov hücumun istiqamətini Vedinin Qaralar, Qabqıran, Şirazlı, Reyhanlı, Əfşar kəndlərinə yönəltsə də, məğlub olub Dəvəlidəki mövqeyinə geri çəkildi.

1919-cu ilin yanvar ayınadək Dro, Selikov, Aram paşa, Dəli Qazar, general Araşev və digər daşnak komandirlərinin başçılıq etdiyi

---

[1] ARDA, f. 894, siy. 4, iş 65, v.127

hərbi qüvvələr İrəvan, Naxçıvan, Sürməli və Qazax qəzalarında 350-dən çox kəndi yandırmış, əhalinin çoxunu qətlə yetirmişdilər.

1919-cu il yanvarın 14-də Zəngəzur ermənilərinə maddi yardım edən İngiltərə nümayəndəsi V.Hibbonun, dörd gün sonra isə kapitan F.Lautonun Naxçıvana gəlişindən sonra bölgə ingilislərin nəzarətinə keçdi. Lauton Naxçıvan hökumətinin başçısı Cəfərqulu xana ermənilərin öz yaşayış yerlərinə qaytarılmasını və onlar üçün Şərurdan min pud taxıl buraxılmasının təmin olunmasını təklif etdi. Cəfərqulu xan Azərbaycan hökumətinin nümayəndələri ilə müzakirədən sonra birinci təklif barədə demişdi ki, bu məsələ Paris sülh konfransında müzakirə olunanadək təxirə salınmalıdır. Taxıl isə yerli əhalinin ehtiyacı olan neft və şəkərlə mübadilə edilə bilər. Lautonun ingilis hərbi qüvvələrinin Dəvəli, Naxçıvan, Culfa və Şahtaxtıda yerləşdirilməsi, bu bölgələrdə bütün məsələlərin ingilis hərbi rəhbərliyi tərəfindən həll edilməsi barədə şərtlərini Naxçıvan rəhbərləri, yerli muxtariyyəti saxlamaq şərti ilə, qəbul etmişdilər. Hətta ingilislərin mövqeyini dəstəkləyən bir neçə yerli xadim Naxçıvan hökumətinin tərkibinə daxil edilmişdi.[1] Əlbəttə, Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq mövqelərinin kifayət qədər aydınlaşmadığı bir şəraitdə bütün bunlar ingilislərə münasibətdə yol verilən zəruri güzəştlər idi. Daha doğrusu, digər çıxış yolu olmaması, daşnak təhlükəsinin isə daim yaxında olması ilə izah edilən güzəştlər idi.[2]

Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti İrəvan quberniyası müsəlmanlarının həmyerlilər cəmiyyətinin nümayəndəsi Mirabbas Mirbağırovu əhalinin vəziyyətini öyrənmək üçün Araz Türk Cümhuriyyətinə göndərmişdi. Kömək üçün Gəncədə M.Mirbağırova qoşulan 12 zabit 1919-cu ilin fevral ayında Naxçıvana gələ bilsə də, Paşa Bayramov və Yusif bəy Qazıyev vasitəsilə göndərilən 1 milyon manat pul Naxçıvana gəlib çıxmadı və Tiflisdən yenidən Bakıya qaytarıldı. Fevralın 23-də M.Mirbağırovun başçılıq etdiyi Azərbaycan Cümhu-

---

[1] NMRDA, f. 314, siy. 5, iş 67, v.24-26
[2] Sadıqov S.H. Naxçıvan Muxtar Respublikası tarixindən, s.18-19

riyyətinin nümayəndələri Naxçıvanda Araz Türk Cümhuriyyətinin hökumət üzvləri ilə birgə iclas keçirdilər. Cəfərqulu xanla hökumət arasında olan soyuq münasibətlər aradan qaldırıldı. M.Mirbağırov bölgədəki vəziyyətlə tanış olduqdan sonra Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasına aşağıdakılardan ibarət öz təkliflərini təqdim etmişdi:

1. Bu diyarı idarə etmək üçün müttəfiqlərin, İranın, Ermənistanın təsiri ilə mübarizə aparmaq qabiliyyətinə malik və xanlara, sahibkarlara rəğbəti olmayan, başqalarının təsiri altına düşməyən, müəyyən edilmiş siyasəti inadla yerinə yetirə bilən, mərd, qətiyyətli adam olan və rüşvətə meyl etməyən azərbaycanlı general-qubernatorun təyin olunması zəruridir.

2. Yuxarıda göstərilən keyfiyyətlərə malik bir adamı hərbi nazirin nümayəndəsi təyin etmək vacibdir.

3. Mülki və məhkəmə idarələrini idarə etmək üçün baş məmurlar mütləq azərbaycanlılardan təyin edilməlidir.

4. Yerli hərbi işin təşkili üçün əvvəl göndərilənlərin az olduğunu nəzərə alaraq başçıları istedadlı polkovnik olmaqla daha bir dəstə zabit göndərmək lazımdır.[1]

Bundan başqa, ingilis idarəçiliyinin Naxçıvanın erməni idarəçiliyinə verilməsinə gətirib çıxaracağı əhalidə ciddi narahatlıq doğurduğundan Naxçıvan Müsəlman Milli Şurasının Cəfərqulu xanın və b. imzası ilə Naxçıvan-Şərur diyarının ingilis general-qubernatoruna göndərilən 26 fevral 1919-cu il tarixli notada Naxçıvan, Sürməli, İrəvan və Üçmüəzzin müsəlmanlarının bir gün əvvəlki yığıncağında “özlərinin və gələcək nəsillərin mənafeyi naminə Azərbaycan Respublikası ilə birləşmək qərarına” gəldikləri bildirilirdi.[2]

---

[1] Hacıyev A. Qars və Araz Türk-Respublikalarının tarixindən. Bakı: Azərnəşr, 1994, s.54-56; Naxçıvan tarixi. Üç cilddə. II cild. Naxçıvan: “Əcəmi” NPB, 2014, s.241-242

[2] Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər), s.358-359

Azərbaycan hökuməti təklifləri qəbul edərək Naxçıvanı özünün nəzarəti altına qaytarmaq və bölgənin müdafiəsinin səmərəli şəkildə təşkili üçün 1919-cu il fevralın 28-də burada general-qubernatorluq yaradılması barədə qərar qəbul etmiş, Bəhram xan Naxçıvanski Naxçıvan general-qubernatoru təyin edilmişdi. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti özünün 1919-cu ilə aid büdcəsində Bakı-Culfa dəmiryolunun tikintisinə vəsait ayırmışdı.[1] Mart ayında B.Naxçıvanskinin Bakıya səfərindən sonra Bakıdan göndərilən daha 10 zabit Naxçıvandakı hərbi hissələrdə təlim keçmiş, kəşfiyyat işlərinin təşkilində və sərhəd xətlərinin möhkəmləndirilməsində iştirak etdi. Bundan başqa, F.Xoyski hökuməti Naxçıvanla əlaqələri yaxşılaşdırmaq üçün Ağdam-Qaryagin-Naxçıvan poçt-teleqraf xəttinin mühafizəsi üçün həmin xətt üzrə poçt-teleqraf idarələrinə silahlı mühafizə dəstələri ayırdı.[2] Ermənilərin törətdiyi soyqırımdan ziyan çəkmiş əhalinin ehtiyacını, qaçqınların vəziyyətini öyrənmək və onlara yardım göstərmək üçün Naxçıvan, Şərur, Sürməli, Vedibasar və Millistan bölgələrinə T.Makinski, R.İsmayılov və Qənizadədən ibarət nümayəndə heyətinin göndərilməsi qərara alındı.[3] Bu dövrdə Naxçıvana real şəkildə hərbi qüvvə göndərmək imkanları olmayan Azərbaycan hökuməti bölgənin müdafiəsi istiqamətində diplomatik səylərini də artırmışdı. Cümhuriyyət hökumətinin Paris sülh konfransındakı Azərbaycan nümayəndə heyətinə 1919-cu il martın 14-də göndərdiyi məktubda deyilirdi: "Batum və Qars vilayətlərindən yaranan Cənub-Qərbi Qafqazın müstəqilliyinin müdafiəsinə nail olun. Qarabağı, Naxçıvanı, Sürməlini ermənilərin iddialarından müdafiə edin".[4]

Lakin nə Naxçıvan əhalisinin qətiyyətli və ədalətli mövqeyi, nə də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Naxçıvan üzərində nəzarəti təmin etmək məqsədi ilə həyata keçirdiyi tədbirlər bölgənin

[1] ARDA, f. 894, siy. 10, iş 58, v.3
[2] Hacıyev A. Qars və Araz Türk-Respublikalarının tarixindən, s.61
[3] Naxçıvan tarixi. Üç clddə. II cild, s.243
[4] Musayev İ.M. Azerbaycan-Türkiye İlişkileri (1917-1922 yılları). Bakü: Bakü Üniversitesi Yayınevi, 1998, s.71

işğalına yönəlmiş ingilis-erməni planlarının qarşısını ala bilmədi. Lauton yerli hökumətə Naxçıvanın erməni işğalına verilməyəcəyini vəd etsə də, hadisələr bu istiqamətdə cərəyan edirdi. 1919-cu il martın 10-da Ermənistanla Naxçıvan sərhədində duran daşnak hərbi hissəsindən daşnak rejiminin daxili işlər nazirinə göndərilən məlumatda deyilirdi ki, ingilis komandanlığı daşnakların Şərur qəzasının bir sıra kəndlərini tutmasına etiraz etmir.[1] Şərurdakı müdafiə qüvvələrinin komandiri Məşədi Ələsgər Həmzəzadə Kalbalı xana göndərdiyi məlumatda Xanlıqlar kəndində baş verən cinayətlərin və Baş Noraşendə yanğının ingilislər tərəfindən törədildiyini bildirirdi. Digər tərəfdən Bakıdakı ingilis qoşunlarının komandanı Tomson martın 28-də İrəvanda apardığı danışıqlarda bildirmişdi ki, ermənilər Qarabağ və Zəngəzurun Azərbaycana verilməsini qəbul edərlərsə, o, Qars və Naxçıvanın ermənilərin nəzarətinə verilməsinə kömək edəcək. Azərbaycan Cümhuriyyətinin İrəvandakı diplomatik nümayəndəsi M.Təkinski 1919-cu il aprelin 20-də Bakıya göndərdiyi teleqramda ingilislərin Qars, Şərur və Naxçıvanı ermənilərə verdiyi barədə yayılan xəbərləri çatdırır, bunun doğru olacağı təqdirdə bütün islam aləmi, eləcə də Paris sülh konfransı qarşısında etiraz olunmasını zəruri hesab edirdi.[2]

Ermənilər ingilislərin himayəsi ilə Naxçıvan əhalisinə qarşı yenidən soyqırıma başladılar. Daşnak hərbi dəstələri Naxçıvana doğru hücuma başlayaraq yolları üzərindəki bir neçə azərbaycanlı kəndini viran qoydular. Ordubad ətrafında özünü "qəza rəisi" elan etmiş Aşot Movsesyansın dəstəsi qanlı qırğınlar törədirdi. Hər gün ən azı 5-10 azərbaycanlı soyqırım qurbanı olurdu. Belə bir vəziyyətdə Naxçıvanda Lautonu əvəz edən ingilis zabiti Simpson dərhal bölgənin erməni idarəçiliyinə verilməsi üçün hazırlıq işlərinə başladı. İngiltərə və Antanta əleyhinə danışanların cəzalandırılacağı elan olundu. Vedi və ətraf ərazilərdə azərbaycanlıların tərksilah olunmasına başlanıldı. H.Quşovun rəhbərlik etdiyi Azərbaycan zabitləri Naxçıvandan çıxarıldı.

---

[1] Sadıqov S.H. Naxçıvan Muxtar Respublikası tarixindən, s.19

[2] ARDA, f. 970, siy. 1, iş 57, s.27

Vedinin ermənilərdən müdafiəsində böyük xidmətləri olan A.Şadlinski aldadılaraq İrəvana aparıldı və ermənilərə təslim edildi (*lakin o, sonradan Vediyə qayıda bilmişdi – Red.).*

İngilis generalı Tomsonun işğalçı daşnak rejiminin rəhbəri A.Xatisyanla aprelin 30-da baş tutmuş görüşündə razılaşdırılmışdı ki, ingilis-erməni qoşunlarının Naxçıvana yürüşünə general Devi nəzarət etsin. Mayın 3-də Naxçıvanın erməni idarəçiliyinə verilməsi haqqında bəyanatı da erməni generalı Dro (Dramat Kananyan) və general Devi imzalamışdılar. Beləliklə, əhalinin ciddi müqavimətinə və etirazlarına baxmayaraq bölgə erməni işğalı altına düşdü. Naxçıvanda yeni təşkil edilmiş general-qubernatorluğa əvvəlcə general Şelkovnikov, sonra isə Bakıda yaşayan erməni daşnakı Gevorq Varşamyan Naxçıvanın hərbi valisi təyin edildi.[1] Azərbaycanın Ermənistandakı diplomatik nümayəndəsi M.X.Təkinskinin Azərbaycan Xalq Cümhuriyyətinin Xarici işlər naziri M.Y.Cəfərova göndərdiyi teleqramdan aydın olur ki, Naxçıvanın yerli hakimiyyət rəhbərlərindən Kəlbalı xan Naxçıvanski Ermənistanın Naxçıvan üzərindəki hakimiyyətini tanımaq istəməmiş, lakin ingilislərin təzyiqi ilə Naxçıvanın Ermənistana birləşdirilməsini qəbul etmək məcburiyyətində qalmışdı. Lakin əhali ermənilərin hakimiyyətini boykot etmişdi. Hətta Kəlbalı xan başda olmaqla, özünümüdafiə təşkilatı bir gecədə daşnak qubernatorluğunun yerləşdiyi binanı dağıtmışdı. Məlumata görə şəhərdə daşnak qarnizonunun iqamətgahının yerləşdiyi yer indiki Naxçıvan Texniki Kollecinin yerindəki üçmərtəbəli bina idi. Şəhər sakini Hacı Cabbarın təklifi ilə hazırda Təbriz mehmanxanası olan yerdə yerləşən Bəhram xanın evinin altından oraya tunel açılmış, binanın altına barıt çəlləyi qoyularaq partladılmışdı.[2]

Daşnak generalı Şelkovnikov və Devinin imzaladıqları bəyannamədə Naxçıvanda milli sülh, kəndlilərə dinc həyat və torpaq vəd

[1] Atnur İ.E. Muxtariyyət ərəfəsində Naxçıvan. Naxçıvan: Qeyrət, 1999, s.158-175
[2] Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan. Tərtib edəni və ön sözün müəllifi İsmayıl Hacıyev, s.29,95

edilsə də, əslində yerlərdə azərbaycanlıların təqib edilməsi, öldürülməsi daşnaklar üçün həyat normasına çevrildi. 1919-cu ilin iyununda Naxçıvan, Şərur və Ordubaddan gələn məlumatlara görə, Ermənistan hökuməti müsəlman xadimləri həbs edir, hər addımda axtarışlar aparır, müsəlmanların əmlakını müsadirə edirdi. Ermənistan hökumətinin nizami hissələri Naxçıvan yaxınlığındakı müsəlmanların yaşadıqları Bulqan kəndini atəşə tutmuşdu, əhali vahimə içərisində evlərini tərk etməkdə idi.[1]

1919-cu il iyunun 11-də ingilislər İrəvanı tərk etdilər. Onların fəaliyyəti nəticəsində daşnaklar Qars vilayətini, İrəvan quberniyasının bir hissəsini müttəfiqlərdən alaraq qondarma Ermənistan dövlətinin ərazisini 17500 ingilis kv.milinə, əhalisini 1 milyon 510 min nəfərə (795 min ermənilər, 575 min müsəlmanlar, 140 min başqa millətlər) çatdırdılar. Bu dövrdə Azərbaycanda ermənilər tərəfindən törədilən soyqırım nəticəsində mübahisəli adlandırılan rayonların əhalisi 10-30 faiz azalmış, bir çox kəndlər dağıdılmışdı.[2]

Bütün səylərinə baxmayaraq ermənilər Naxçıvanı tam nəzarətləri altına ala bilmədilər. Belə ki, Şərurda Məşədi Ələsgər ağa, Naxçıvanın şimalında Bəhram xan Naxçıvanski, Ordubadda isə Səmədbəyov yerli idarəçiliyi öz əllərinə almışdılar. Şərur-Naxçıvan bölgəsində erməni təcavüzünə qarşı 6 min nəfərlik müdafiə dəstələri yaradılmışdı. Azərbaycan hökuməti 200 min hərbi sursatı, 300 min rus rublunu Cənubi Azərbaycan vasitəsi ilə Naxçıvana göndərmişdi.[3]

Lakin ermənilərin Naxçıvanı müvəqqəti və qismən də olsa, işğal etmələrinin qarşısını almaq mümkün olmadı. Nəticədə Naxçıvan və Şərur ətrafında daha 45 kənd ermənilərin təcavüzünə məruz qaldı, dəmiryoluna yaxın kəndlər zirehli vaqonlardan atəşə tutuldu, əhalinin böyük bir qismi məhv edildi. Daşnaklar bölgədə sonuncu müsəlmanadək əhalini qıracaqları və ya Araz çayına tökəcəkləri barədə qərar qə-

[1] ARDA, f. 970, siy. 1, iş 142, v.56-63
[2] Deportasiya. Toplu, s.132
[3] NMRDA, f. 314, siy. 5, iş 74, v.167-171

bul etmişdilər.[1] Erməni idarəçiliyi zamanı yalnız Naxçıvan şəhərində hər gün 10-15 axtarış və həbs hadisəsi baş verirdi. Bu dövrdə ümumilikdə şəhərdə 330 axtarış aparılmış, 500-dən artıq adam həbs olunmuş, 150 nəfərədək şəxsə işgəncə verilmişdi. Gümrü və Naxçıvan ətrafında bir sıra müsəlman kəndlərini işğal edən daşnaklar 4 min nəfərədək dinc əhalini qətlə yetirmişdilər.[2]

Naxçıvan torpağında özlərini əsl qəsbkar kimi aparan ingilislər və daşnaklar Azərbaycan xalqının intiqamından qorxduqları üçün ingilis nümayəndəsi və daşnak general-qubernatoru şəhərdə deyil, Naxçıvandan üç kilometrlik məsafədə yerləşən hərbi düşərgədə lövbər salmağı daha məqsədəuyğun saymışdılar. Xalq düşmən işğalı altında yaşamağı özünə təhqir bilir və fəal çıxışlara başlayırdı. 1919-cu ilin yazında Ordubadda, Zeynəddin, Bulqan, Şahbuz, Qıvraq və sair kəndlərdə ingilislər və daşnaklar əleyhinə çıxışlar baş vermiş, işğalçıların Naxçıvan torpaqlarını tərk etməsi tələb olunmuşdu.[3] İngilis-erməni müttəfiqliyinə baxmayaraq Naxçıvan təslim olmadı. Şərurda Məşədi Ələsgər ağa, Naxçıvanın şimalında Bəhram xan Naxçıvanski, Ordubadda isə Səmədbəyov yerli idarəçiliyi öz əlinə aldı. İyun ayında ingilislər bölgəni tərk etdikdən sonra yerli müdafiə dəstələri tərəfindən 1919-cu il iyulun 18-25-də bir həftəlik qızğın döyüşlər nəticəsində ermənilər Naxçıvandan qovulub çıxarıldı. İrəvan-Culfa dəmiryolu boyu gərgin döyüşlər getdi. Şahtaxtı stansiyasındakı erməni qarnizonu və daşnak komandiri Yaponun dəstələri ciddi məğlubiyyətə uğradılar. Naxçıvanın müdafiə qüvvələri 42 pulemyot, 4 top, zirehli qatar və xeyli silah-sursat ələ keçirdilər. 8 daşnak zabiti və 800 erməni əsgəri əsir alındı.[4] Yalnız qərargah rəisi Qarakeşişov öz qarnizonu ilə qaça

---

[1] Karacakaya R. Kaynakçalı Ermeni Meselesi Kronolojisi (1878-1923). Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşiv Daire Başkanlığı. Yayın No 52. İstanbul: 2001, s.166

[2] Ermeniler Tarafından Yapılan Katliam Belgeleri (1914-1919). I cilt. T.C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşiv Dairesi Başkanlığı. Ankara: 2001, Yayın No 49, XXII, s.348

[3] Sadıqov S.H. Naxçıvan Muxtar Respublikası tarixindən, s.19

[4] Əliyev Ə. Əlincə yaddaşı. Bakı: Gənclik, 1997, s.67

bildi. Xanlıqlar kəndindəki erməni qüvvələri döyüşsüz təslim oldu. 400 nəfər itki verən ermənilərin daha 5 zabiti, 213 əsgəri əsir düşdü, 600 tüfəng qənimət kimi ələ keçirildi. Vedi uğrunda qanlı döyüşlər ermənilərin 4 min nəfər itki verməsi ilə başa çatmışdı.[1] Beləliklə, Naxçıvan əhalisinin 1919-cu il iyulun 18-25-də ermənilərə qarşı apardığı inadlı silahlı mübarizə işğalçıların qəti məğlubiyyəti və bölgədən qovulması ilə nəticələndi.

1919-cu ilin avqustunda Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası Səməd bəy Cəmillinskini Cənub-Qərbi Azərbaycan (Naxçıvan) general-qubernatoru təyin etdi. Lakin bu dövrdə ingilislərdən sonra ABŞ-ın bölgə üzərində Millətlər Cəmiyyətinin mandatını alması Qərbi Azərbaycanda yeni şəraitin yaranmasına səbəb oldu. İyul ayında Antantanın Ermənistanda ali komissarı təyin edilən ABŞ Ordusu Baş qərargahının polkovniki V.Haskel avqustun 28-də Azərbaycan hökumətinin sədri N.Yusifbəyli ilə söhbətində Qarabağın və Zəngəzurun qəti olaraq Azərbaycana keçməsini zəruri saydığını bildirmişdi. Lakin eyni zamanda Şərur və Naxçıvanla bağlı üç tələb irəli sürmüşdü: 1. Naxçıvan və Şərur bölgələri bitərəf elan ediləcək. Bu bölgə amerikalı general-qubernator tərəfindən idarə olunacaq və o, yerli vəzifə sahiblərini təyin edəcək; 2. Azərbaycan və Ermənistan bu bölgədəki məmurlarını, əsgərlərini və araqızışdıranlarını geri çəkəcək; 3. Böyük Vedi müsəlman kəndinin əhalisi bitərəf bölgədə general-qubernatorun münasib bildiyi bir yerə köçürüləcək.[2]

Avqustun 21-də İrəvanda Haskellə görüşə bilməyən Naxçıvan, Ordubad, Sürməli, Millistan və Vedibasar nümayəndələri 10 bənddən (Naxçıvanın Azərbaycanın tərkibində qalması, Zəngəzurdan keçən yolun açılması, İrəvandan geri çağırılmış M.Təkinskinin yerinə yeni səfirin təyin edilməsi, Qərbi Azərbaycandan qovulan azərbaycanlıların

---

[1] ARDA, f. 894, siy. 10, iş 80, v.42-43

[2] General Veysəl Ünüvar. Naxçıvan: təlatüm və burulğanlar (1920-1921). Naxçıvan "Əcəmi" NPB, 2006, s.23

digər Azərbaycan torpaqlarında, ilk növbədə Naxçıvanda yerləşdirilməsi və s.) ibarət sənədi Bakıya Azərbaycan hökumətinə göndərdilər.[1]

Haskel Parisə qayıtdığı üçün Azərbaycan hökuməti ilə danışıqları 1919-cu il oktyabrın 18-də Bakıya daxil olan müttəfiq qoşunlarının Ali Komissarlığının qərargah rəisi C.Rey davam etdirdi. Onun həm də Naxçıvana səfəri zamanı yerli hakimiyyət nümayəndələri ilə apardığı danışıqlardan sonra oktyabrın 24-də bölgədə Amerika general-qubernatoru kimi işə başlamalı olan polkovnik E.Delli Naxçıvanda Paris sülh konfransının nümayəndəsi kimi fəaliyyətə başladı. C.Reyə açıq şəkildə bildirildi ki, istənilən işğal faktına və ya bölgənin erməni idarəçiliyinə verilmə cəhdlərinə silahla cavab veriləcəkdir.[2] Nəticədə azərbaycanlı əhalinin tələbi ilə Delli bölgəyə gəlmiş amerikalı zabitləri İrəvana göndərdi və ermənilərin təkliflərinə məhəl qoymadı. Bir müddət sonra o, 1920-ci ilin yanvarında isə bütün Amerika zabitləri Naxçıvanı birdəfəlik tərk etdilər.[3] Beləliklə, Naxçıvanda ABŞ general-qubernatorluğu yaradılmasının qarşısı alındı.

1919-cu il oktyabrın 1-ə olan məlumata görə, təkcə İrəvan quberniyasından qaçqın düşən azərbaycanlıların sayı 39741 nəfər (5848 ailə) idi.[4] Sayı 150 min nəfəri ötən azərbaycanlı qaçqınların 30-70 mini Böyük Vedi, Naxçıvan və s. ərazilərdə cəmləşmişdi.[5] C.Rey özü oktyabrın 24-də Naxçıvana gələrkən 50 minədək qaçqının yollardakı çadırlarda ağır şəraitdə qaldığının şahidi olmuşdu.[6]

Hələ noyabrın 23-də Tiflisdə C.Reyin vasitəçiliyi ilə Azərbaycan hökuməti ilə işğalçı daşnak rejimi arasında imzalanan 5 maddədən ibarət saziş tərəflər üçün heç bir hüquqi öhdəlik yaratmayaraq yalnız

---

[1] ARPİİSSA, f. 277, siy. 2, iş 58, v.40-43
[2] Səmyuel A. Uimz. Ermənistan – terrorçu "xristian" ölkənin gizlinləri (Ermənilərin böyük fırıldaq seriyaları). Bakı: 2004, s.210
[3] ARDA, f. 970, siy. 1, iş 65, v.121
[4] ARDA, f. 896, siy. 2, iş 3, v.6
[5] Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər), s.215
[6] Atnur İ.E. Muxtariyyət ərəfəsində Naxçıvan, s.225

status-kvonu rəsmiləşdirdi.[1] Azərbaycan hökuməti heç bir məsuliyyət mexanizmi olmayan bu müvəqqəti sazişə sadiqliyini nümayiş etdirərək Zəngəzurdan öz hərbi qüvvələrini çıxardı. Bundan istifadə edən ermənilər Zəngəzurdan Naxçıvan istiqamətində hücum üçün bölgəyə xeyli hərbi qüvvə və silah-sursat topladılar. Hamazaspın Zəngəzurun Oxçu və Gığıdərəsi kəndlərinə hücumu 1400 azərbaycanlının qətli ilə nəticələndi. Dağıdılan dörd kəndin Oxçu, Pirdavdan, Şabadın və Atqızın 4 min nəfərlik əhalisindən cəmi 261 nəfəri qaçmaqla canlarını qurtararaq Ordubadın kəndlərinə sığınmışdılar. Zəngəzurda və Qars vilayətində 88 müsəlman kəndi ermənilər tərəfindən dağıdılmış, 1820 ev yandırılmış və 131 min 930 nəfər soyqırımın qurbanı olmuşdu.[2]

1920-ci il martın 8-də ermənilərin 2 min nəfərlik hərbi qüvvəsinin Ağanohur və Nüsnüs dağları istiqamətindən Ordubada hücumunun qarşısı Kalbalı xanın Naxçıvandan göndərdiyi müdafiə qüvvələrinin müqaviməti ilə alındı. Düşmən 300 əsgər, 12 qatır və 7 pulemyot itirərək geri çəkildi. Martın 21-də daşnakların 10 min nəfərlik hərbi qüvvə ilə hücumu Ordubadın Düylün, Vənənd, Vələver, Xanağa, Disər, Ağrı, Dizə və b. kəndlərinin qətl və qarətə məruz qalması ilə nəticələndi. Lakin Əylisdəki türk zabiti Ədib bəylə Kalbalı xanın birləşmiş qüvvələri erməniləri geri oturda bildilər.[3]

1920-ci ilin aprelində Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ərəfəsində baş verən proseslərdən və cümhuriyyətin süqutundan istifadə edən ermənilər bölgədə fəallaşaraq Şərur qəzasını və Şahtaxtı stansiyasını işğal etdilər. Qaçqına çevrilən bütün qəza əhalisi Naxçıvanın digər ərazilərinə və Cənubi Azərbaycana sığındılar.

Daşnakların 1920-ci ilin aprel-iyun aylarını əhatə edən sonuncu hücumları zamanı Zəngibasarda 48 kənd tamamilə yandırılmış, 400-dən çox uşaq, 150 qadın və qoca öldürülmüş, 100 nəfər xəstə odda

[1] Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı: BDU nəşriyyatı, 1998, s.237-238
[2] Yenə orada, s.230, 241-242
[3] Yenə orada, s.186

yanaraq məhv olmuş, 816 qaçqın Araz çayında boğulmuş, 160 min nəfər isə qaçqına çevrilərək Cənubi Azərbaycanın çöllərində açıq havada qalmışdı. Vedibasarda 118 kənd yandırılmış, 900 nəfər artilleriya atəşi nəticəsində həlak olmuş, 300-dən çox uşaq və qoca qətlə yetirilmiş, 6 qadın əsir aparılmışdı. Dərələyəzdə 74, Şərurda və Şahtaxtı ətrafında 76 kənd yandırılmışdı. Şərurda 810 xəstə yatağında qətlə yetirilmiş, 72 nəfər artilleriya atəşindən tələf olmuşdu. 150 qadın və qoca öldürülmüş, 144 qadın əsir götürülmüşdü. Şahtaxtıda isə 35 uşaq, 8-i qadın olmaqla 22 qoca, 9 xəstə qətl edilmiş, 3 qadın daşnaklar tərəfindən əsir aparılmışdı. Cənubi Azərbaycana pənah aparan 45 mindən çox qaçqın aclıqdan və xəstəlikdən dünyasını dəyişmişdi.[1] Zəngibasarda təkcə iyulun 2-də 1500 nəfər suda boğularaq öldürülmüşdü. İxtilafların sonunda 180 min müsəlman, yaxud İrəvan quberniyasının müsəlman əhalisinin 2/3 hissəsindən çoxu qətlə yetirilmiş və didərgin düşmüşdü.[2]

Daşnakların Naxçıvan kəndlərinə 1919-1920-ci illərdəki hücumları zamanı törədilən soyqırımlarda 73727 nəfər azərbaycanlı öldürülmüşdü. Bundan 64408 nəfər 1920-ci ildə öldürülmüşdü. 1920-ci il dekabrın 27-ə aid bir arxiv sənədində göstərilir ki, Naxçıvanın Şərur və Sədərək ətrafı 56 kəndində ermənilər soyqırım və talanlarda 428 nəfəri qətlə yetirib, 2286 ev yandırılıb, 7178 nəfər qaçqına çevrilib, 6740 nəfər aclıq soyuq və xəstəlikdən ölüb. Dərələyəzin isə 54 kəndində 57240 azərbaycanlı öldürülüb, 9735 ev yandırılıb.[3]

Naxçıvanın Qəmərli istiqamətindəki 3 kəndin bütün əhalisi qətlə yetirilərək meyitləri Araz çayına tökülmüşdü. Ermənilər "İran sizi öz himayəsinə götürür" adı altında aldadaraq köçürdükləri 45 min nəfər azərbaycanlı qaçqının 35 min nəfəri yollarda ermənilər tərəfindən kütləvi şəkildə qətlə yetirilmiş, bu soyqırımdan yalnız 10 min nəfər qaçıb

---

[1] Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər), s.281
[2] Məmmədov İ. Tariximiz, torpağımız, taleyimiz. Bakı: Adiloğlu, 2003, s.415
[3] Karacakaya R. Kaynakçalı Ermeni Meselesi Kronolojisi (1878-1923), s.212

canını qurtara bilmişdi.[1] 1920-ci il iyulun 25-də Naxçıvan kəndlərindən Cənubi Azərbaycana keçmək üçün Şahtaxtıya gələn 500 nəfərlik azərbaycanlı qaçqın dəstəsi daşnaklar tərəfindən son nəfərinədək qətlə yetirilmişdi.[2] 1918-1920-ci illərdə Naxçıvan, Ordubad və Şərur-Dərləyəz qəzalarında təkcə kənd əhalisinin sayı 52 min nəfər azalmış, 287 kənd tamamilə və ya qismən dağıdılmışdı.[3]

Hələ 1914-1916-cı illərdə Azərbaycanın cənubunda 150 min, Şərqi Anadoluda, tarixən azərbaycanlıların yaşadıqları ərazilərdə 200 min, 1918-1920-ci illərdə Azərbaycanda 250 min, Qərbi Azərbaycanda 132 min azərbaycanlı ermənilər tərəfindən törədilən soyqırımın qurbanı olmuşdu. 1918-ci ilədək Qərbi Azərbaycanda yaşayan 575 min nəfərlik müsəlman əhalidən Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ərəfəsində cəmi 10 min nəfərdən bir qədər artıq azərbaycanlı sağ qalmışdı.[4] Nəticədə 1918-1920-ci illərdə Naxçıvan bölgəsinin əhalisi 38 faiz azalaraq 1921-ci ildə 72182 nəfərə enmişdi.

Rus ordusunun yüksək rütbəli erməni zabiti Ohannes Apresyan azərbaycanlılara qarşı törətdikləri soyqırım barədə yazırdı: "...Tatarların (türklərin) qaça biləcəkləri yolları və dağ keçidlərini tutaraq bağladıq. Dərhal məhvetmə işinə başladıq. Birliklərimiz bir-birinin ardınca kəndləri dağıdırdı. Top atəşləri ilə kənd evləri daş və torpaq yığınlarına çevrilir, insanlar kənddə dayana bilməyib çölə qaçmağa başlayanda tüfəng mərmiləri və süngülərlə işlərini bitirirdik. Heç şübhəsiz ki, tatarların bəziləri qaça bildilər. Bunlar ya dağlarda özlərinə sığınacaq tapdılar, yaxud da sərhədi keçərək Türkiyəyə qaçdılar, geri qalanlar isə tamamən öldürüldü. Beləcə rus Ermənistanının Naxçıvandan Axalkələkə qədər olan sərhəd bölgəsi Ağrı dağının ətəyindəki isti

---

[1] Sevinç N. Arşiv Belgeleriyle Tehcir. Ermeni İddiaları ve Gerçekler, s.194-195

[2] General Veysəl Ünüvar. Naxçıvan: təlatüm və burulğanlar (1920-1921), s.45

[3] Hacıyev İ. Naxçıvan Muxtar Respublikası Azərbaycanın dövlətçilik tarixində. Tarix elmləri doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya. Naxçıvan Dövlət Universitetinin Elmi kitabxanası. Bakı: 1999, s.103

[4] Məmmədov İ., Əsədov S. Ermənistan azərbaycanlıları və onların acı taleyi. Bakı: Azərbaycan, 1992, s.33

ovalıqlardan şimaldakı soyuq dağ yaylalarınadək hər yer viran edilmiş tatar kəndlərinin səssiz xarabalıqları ilə doldu. İndi həmin kəndlərdə buralarda qalmış ölü insan sümüklərini tapmaq üçün gedən qurd və çaqqalların ulamalarından başqa bir səs eşidilmir".[1] O.Kaçaznuni lideri olduğu Daşnaksütyun partiyasının xarici ölkələrdəki orqanlarının 1923-cü ilin aprelində keçirilən konfransında deyirdi: "Bizim dövrümüzdə xalq müharibədə məhv olur, ya da acından ölürdü. Biz Şərur və Vedi kimi taxılla zəngin olan məntəqələri, Ağbaba kimi mal-qarası çox olan məntəqəni viran etdik".[2]

Erməni hərbi təcavüzü aradan qaldırıldıqdan sonra Naxçıvanda dağıdılmış kəndlər, viran qoyulmuş evlər və yüz minlərlə qaçqın ordusunun mövcudluğu soyqırımın ağrılı nəticələri kimi qalmaqda idi. 1920-ci ilin yay-payız aylarında Naxçıvan ərazisində 400 min, Cənubi Azərbaycanda isə 70 min qaçqın açıq havada yaşamağa məcbur olmuşdu.[3] Qaçqınlar məsələsi ətrafında uzun müddət Naxçıvan SSR ilə Ermənistan SSR, RSFSR və bu sovet respublikaları ilə Təbrizin bələdiyyə rəisi, Maku sərdarı, Culfa gömrüyünün rəisi arasında uzun-uzadı yazışmalar getmişdi. Nəticədə İttifaq Soveti Qərbi Azərbaycandan olan 28 min qaçqının Naxçıvanda saxlanması barədə qərar qəbul etmişdi.[4] Zəngəzurdan qaçqınların gəlməsi prosesi hələ 1923-cü ildə də davam etmişdi. Həmin qaçqınlar geri qayıda bilmir, Culfa ətrafında, Arınc, Əbrəqunus, Qazançı və b. kəndlərdə yerləşdirilirdi.[5] Qaçqınlar problemi 1920-ci illərin sonunadək Naxçıvan bölgəsi üçün ən ciddi problemlərdən biri oldu.

---

[1] Sevinç N. Arşiv Belgeleriyle Tehcir. Ermeni İddiaları ve Gerçekler, s.196
[2] Məhərrəmov N. Daşnaksütyun və Azərbaycanın taleyi. Bakı: Azərbaycan, 1995, s.68
[3] İbrahimzadə F. Behbud Şahtaxtinskinin siyasi və diplomatik fəaliyyəti. Bakı: 2007, s.149
[4] Gürcüstan Respublikası Dövlət Arxivi, f. 63, siy. 1, iş 58, v.5
[5] NMRDA, f. 314, siy. 5, iş 57, v.11

# III fəsil
# TÜRKİYƏNİN CƏNUBİ QAFQAZ SİYASƏTİNDƏ "ERMƏNİ MƏSƏLƏSİ" VƏ NAXÇIVAN

## 3.1. Türkiyənin Cənubi Qafqaz siyasəti və "erməni məsələsi".

XIX yüzillik ərzində ermənilərin çar Rusiyası tərəfindən məqsədli şəkildə Cənubi Qafqaza kütləvi köçürülməsi burada yalnız demoqrafik vəziyyətin xeyli dərəcədə ermənilərin xeyrinə dəyişdirilməsi ilə qalmadı. Eyni zamanda, "erməni məsələsi" getdikcə aktuallaşaraq hələ XVIII əsrdən bəri Avropa imperialistlərinin siyasətinin, o cümlədən Rusiyanın Osmanlı dövlətinə qarşı yürütdüyü siyasətin əsasını təşkil edən "Şərq məsələsi"nin mühüm tərkib hissəsinə çevrildi. Belə ki, Napoleon imperiyasını süquta uğradan "Müqəddəs ittifaq" üzvləri 1815-ci il Vyana konqresində həmin dövrdə Avropa qitəsində jandarm rolunu oynayan Rusiyanın təklifi ilə Osmanlı dövlətinin ərazisində yaşayan xristianların vəziyyətini də müzakirə etmişdilər. Əslində bu dövlətin ərazisindəki xristianlar üçün elə bir ciddi təhlükə və problem olmadığından bu müzakirənin sonunda hər hansı bir qərar qəbul olunmasa da, həmin məsələ sonrakı dövrdə Rusiya ilə digər Avropa dövlətləri, xüsusilə İngiltərə və Fransa arasında Osmanlı dövlətinin torpaqlarını ələ keçirmək uğrunda mübarizədə əsas faktorlardan birinə çevrilmişdi. Çar Rusiyasının və Avropa imperialistlərinin müstəmləkəçilik siyasətinin Şərqlə bağlı konsepsiyası olan "Şərq məsələsi" də əslində elə Vyana konqresindən sonra aktuallıq qazanmış və getdikcə kəskinləşmişdi.

Vyana konqresindən sonra XIX yüzillik ərzində Rusiyanın apardığı işğalcı xarici siyasətin əsasını da məhz bu məsələ təşkil etmişdir. XIX əsrdə Rusiyanın İran və Türkiyə ilə apardığı bütün müharibələrdə

"erməni məsələsi" bir qayda olaraq müzakirə müstəvisində olmuşdur. 1828-ci ildə Qacarlar İran ilə bağlanan Türkmənçay müqaviləsinin 15-ci və 1829-cu ildə Osmanlı dövləti ilə imzalanan Ədirnə müqaviləsinin 13-cü maddəsi də çarizmin bu istiqamətdəki siyasətinin təzahürləri idi. 1877-ci il martın 31-də Avropa dövlətlərinin Londonda imzaladıqları protokolun Osmanlı dövləti tərəfindən özünün daxili işlərinə müdaxilə kimi qiymətləndirilərək rədd etməsi 1877-1878-ci illərdə Rusiya ilə Türkiyə arasında növbəti müharibəyə əsas olmuşdu. London protokolunda onu imzalayan dövlətlər guya "Avropada sülhün qorunması baxımından Osmanlı dövlətindəki xristianların vəziyyəti ilə məşğul olmaqda davam edəcəklər"ini bəyan etmişdilər. Lakin türk dövlətinin protokolu rədd etməsindən sonra 1877-ci il aprelin 12-də (24-də) Osmanlılara müharibə elan edən yeganə dövlət məhz çar Rusiyası olmuşdu.[1]

1877-1878-ci illər Rusiya-Türkiyə müharibəsinin qalibi kimi Rusiyanın Türkiyə ilə 1878-ci il fevralın 19-da (martın 3-də) bağladığı San-Stefano (Yeşilköy) preliminar müqaviləsinin 16-cı maddəsində, Türkmənçay və Ədirnə müqavilələrindən fərqli olaraq, bu dəfə xristian əhali haqqında deyil, birbaşa ermənilər haqqında məsələ qoyulmuşdu.[2] Həmin maddədə deyilirdi ki, "Türkiyə ermənilər yaşayan vilayətlərdə tezliklə həyat şəraitini yaxşılaşdırmaq və yerli əhəmiyyətə malik islahatları həyata keçirmək öhdəliyini götürür və ermənilərin təhlükəsizliyini kürd və çərkəzlərdən qoruyacağına zəmanət verir". Müqaviləyə dair danışıqların getdiyi bir vaxtda San-Stefanoya gedən İstanbul erməni kilsəsinin patriarxı Nerses Varjapetyan rus hərbi komandanlığından Rusiya himayəsində erməni dövlətinin qurulmasına kömək göstərməyi xahiş etmişdi.[3] Lakin Rusiya "erməni məsələsi"ni müqaviləyə öz mənafeyinə uyğun şəkildə daxil etdi.

---

[1] Aşgın S. Sözde Ermeni Soykırımı İddiaları ve Taruhsel Gerçekler // Ermeni Araştırmaları. 1. Türkiye Konqresi Bildirileri. 3 ciltte. III cilt. Avrasya Stratejik Araştırmalar Merkezi, Ermeni Araştırmaları Enstitüsü Yayınları, Ankara: 2003, s. 336.
[2] Гурко-Кряжин В. Армянский вопрос. Баку: Коммунист, 1990, с.7.
[3] Osmanlı'dan Günümüze Ermeni Sorunu. Ankara: Yeni Türkiye Yayınları, 2000, s.41.

Rusiyanın XIX əsrin birinci rübündən sonra genişlənən erməniləri Qafqaza köçürmə siyasətindən sonra artıq "erməni məsələsi"ni Osmanlı dövləti ilə birbaşa müzakirə və müqavilə müstəvisinə çıxarması çarizmin öz maraqları naminə konkret mübarizəyə keçməsinin təzahürü idi. San-Stefano danışıqlarında iştirak edən çar hökumətinin nümayəndə heyətinin üzvü İqnatyev yazırdı ki, "...müqavilənin 16-cı maddəsi ermənilər tərəfindən böyük sevinclə qarşılandı. Erməni kəlməsi ilk dəfə olaraq beynəlxalq müqavilədə tələffüz edildi...".[1]

Böyük Britaniya və Avstriya-Macarıstanın təşəbbüsü ilə 1878-ci ildə çağırılan və iyunun 1-dən (13-dən) iyulun 1-dək (13-dək) Berlində Almaniya imperiyasının kansleri Otto fon Bismarkın sədrliyi ilə keçirilən konqresdə imzalanmış traktatın 61-ci maddəsinin məzmunu San-Stefano müqaviləsinin 16-cı maddəsinə uyğun idi: "Sultan hökuməti ermənilərin yaşadıqları vilayətlərdə yerli ehtiyacların zəruri etdiyi islahatları gecikdirmədən həyata keçirməyi və onların asayişini, təhlükəsizliyini kürdlərlə çərkəzlərdən qorumağı öhdəsinə götürür. Bu sahədə görüləcək tədbirlər böyük dövlətlərə bildiriləcəkdir. Və onlar da bu tədbirlərin həyata keçirilməsinə nəzarət edəcəklər".[2] Beləliklə, Berlin traktatında da ermənilərlə bağlı islahatlar keçirmək Osmanlı hökumətinin üzərinə öhdəlik kimi qoyulur, lakin öhdəliyin icrasına nəzarət yalnız Rusiyaya deyil, Berlin konqresinin iştirakçısı olan altı dövlətin (Böyük Britaniya, Avstriya-Macarıstan, Almaniya, Fransa, İtaliya və Rusiya) hamısına həvalə edilirdi. Bununla da, Berlin konqresi San-Stefano müqaviləsinin 16-cı maddəsini ləğv etmiş oldu. Çünki "erməni məsələsi"ni Rusiyanın monopoliyasından çıxarmaq istəyən böyük dövlətlər (*xüsusilə İngiltərə – Red.*) belə hesab edirdilər ki, Osmanlı dövlətinin heç bir vilayətində ermənilər çoxluq təşkil

---

[1]Cabbarlı H. Eduard Oganisyan'ın "Yüzyıllık Mücadele" Adlı Kitabında Ermeni Meselesi ve "Soykırım" Propagandası // Ermeni Araştırmaları. 1. Türkiye Kongresi Bildirileri. 3 ciltte. I cilt. Avrasya Stratejik Araşdırmalar Merkezi, Ermeni Araşdırmaları Enstitüsü Yayınları. Ankara: 2003, s. 147.

[2] Musayev İ. Böyük dövlətlər və "erməni məsələsi". XIX əsr, birinci hissə. Bakı: İqtisad Universiteti nəşriyyatı, 2003, s.111.

etmir və buna görə də ermənilərə muxtariyyət verilməsindən söhbət gedə bilməz.

Beləliklə, San-Stefano müqaviləsi və Berlin traktatı Türkiyə üçün ağır şərtlər müəyyənləşdirirdi. 1877-1878-ci illər rus-türk müharibəsində məğlub olan Osmanlı dövləti Rusiyaya 1 milyard 410 milyon rubl təzminat ödəməli idi. Lakin həmin dövrdə Osmanlı dövləti bu təzminatı ödəmək iqtidarında deyildi. Buna görə də Türkiyə Qars, Ərdahan və Batum vilayətlərini, habelə Dobrucanı Rusiyaya vermək məcburiyyətində qalmış, əvəzində ödəniləcək təzminat 400 milyon rubla endirilmişdi.[1] Berlin konqresində qəbul edilən qərarlarla Bəyazit şəhəri və Alaşkert düzü Türkiyəyə qaytarılsa da, yuxarıda qeyd edilən vilayətlər Rusiyada qalmışdı.[2]

Beləliklə, artıq erməni iddialarının beynəlxalq müqavilələrdə (1877-ci il London protokolu, 1878-ci il San-Stefano müqaviləsi və Berlin traktatı) əks olunan saxta hüquqi istinadgahı da yaradılmışdı. Hətta Hnçaq (1887-ci il) və Daşnaksütyun (1890-cı il) kimi erməni terrorçu siyasi təşkilatları öz qanlı əıməllərinə haqq qazandırmaq üçün hüquqi cəhətdən guya Şərqi Anadoluda müstəqil erməni dövlətinin yaradılmasını nəzərdə tutan Berlin traktatının 61-ci maddəsinə daim istinad etmişlər. Ermənilər Türkiyəyə qarşı fitnəkar əməlləri ilə, törətdikləri iğtişaşlarla daim gündəlikdə qalmağa çalışır, Avropa dövlətlərinin "erməni məsələsi"nə daim müdaxilə etməsinə nail olmaq istəyirdilər. 1876-cı ildə erməni patriarxı N.Varjapetyan İngiltərə səfiri Elliotla görüşündə ermənilərin öz arzularına "Avropa dövlətlərinin diqqətini cəlb etmək üçün qiyam, üsyan belə qaldırmağın çətin olmadığını bildirmişdi.[3]

XIX yüzilliyin sonlarındakı beynəlxalq şərait iri dövlətlər arasında müstəmləkələr və yeni ərazilər ələ keçirmək uğrunda açıq və ya gizli şəkildə aparılan mübarizənin kəskinləşməsi baxımından mü-

[1] Karal E.Z. Osmanlı Tarihi. C. VIII. Ankara: Türk Tarih Kurumu Yayınları, 1988, s.66.
[2] Kurat A.N. Türkiye ve Rusya. Ankara: Kültür Bakanlığı Yayınları, 1990, XVI+ s.90.
[3] Uras E. Tarihte Ermeniler ve Ermeni Meselesi, s.186-187.

rəkkəb tarixi mərhələ idi. İngiltərə və Fransa ilə Rusiya arasında Osmanlı dövlətini parçalamaq, Yaxın Şərqdə hegemonluq uğrunda gərgin mübarizə gedirdi. Tarixi mənbələr bu dövrdə ermənilərin Türkiyədə bilavasitə Rusiyanın təhriki və təşviqi ilə yerli dinc müsəlman əhalini qırğınlara məruz qoyduqları barədə məlumatlarla zəngindir. Türkiyədəki ingilis diplomatik nümayəndələrinin XIX əsrin 80-ci illərinə aid yazışmalarında ermənilərin çar Rusiyasının yaxından köməyi ilə üsyana hazırlaşdıqları, onların komitələr halında birləşərək fəaliyyət göstərdikləri, silahlandırıldıqları, hər bir ermənininin öz evində silah saxladığı bildirilir.[1]

Hələ IV əsrdə xristianlığın qəbul edilməsindən sonra ermənilər üzərində qriqorian kilsəsinin böyük təsiri olmuş, erməni kilsəsi ötən əsrlərdə əslində yalnız dini-ideoloji deyil, həm də ermənilərin siyasi və hərbi təsisatı, silah cəbbəxanası kimi fəaliyyət göstərmişdir. Erməni terrorçu siyasi təşkilatlarının qurulmasınadək "erməni məsələsi"ni beynəlxalq müstəvidə problemə çevirən və onun aktuallaşmasına nail olanlar da bir çox hallarda məhz kilsə xadimləri olmuşlar. San-Stefano müqaviləsinin imzalanması zamanı erməni yepiskopluğu haqqında məsələnin müzakirə edilməsi də təsadüfi olmayıb, siyasi məzmun kəsb edirdi. XIX əsrin sonu-XX əsrin əvvəllərində Türkiyə və Azərbaycanda ermənilərin törətdikləri qırğınlar zamanı bölgələrdəki erməni kilsələri, sözün əsl mənasında, silah anbarı rolunu oynamışdı. Avropa dövlətlərinin "erməni məsələsi"nə marağının səngidiyi hiss olunan kimi qriqorian kilsəsi xristianların müsəlmanlar tərəfindən soyqırıma məruz qaldığı barədə özünəməxsus şəkildə yalançı fəryad qoparıb, avropalıların dini heysiyyatına toxunmağa çalışırdı. Bunun nəticəsi idi ki, Almaniya "erməni məsələsi"nə maraq göstərməyib, bu məsələdə türklərin haqlı olduğuna inansa da, 1895-ci ildə alman imperatoru II Vilhelmə guya ermənilərə qarşı soyqırım törədildiyi barədə

[1] Demirel M. İngiliz Belgelerinde Türkler ve Ermenilerle İlgili Terminoloji // Ermeni Araştırmaları. 1. Türkiye Kongresi Bildirileri. 3 ciltte. I cilt. Avrasya Stratejik Araşdırmalar Merkezi, Ermeni Araşdırmaları Enstitüsü Yayınları. Ankara: 2003, s. 99

saxta məlumatı bildirəndə, o qəzəblənərək: "Bu, artıq həddi aşmaqdır. Axı onlar da xristiandır!", – demişdi.[1]

Yeri gəlmişkən, Almaniya ilə Osmanlı dövlətinin Birinci Dünya müharibəsində müttəfiq olmalarına baxmayaraq, müharibə dövründə almanlar da "erməni kartı"ndan Azərbaycan torpaqlarının işğalını nəzərdə tutan siyasi məqsədləri üçün istifadə etmişdilər. 1918-ci il iyunun 28-də "Pravda" qəzeti yazırdı ki, Almaniya imperatoru II Vilhelmin diplomatları erməni burjuaziyasının liderlərini zorla "Erməni Respublikasına" təhrik etdilər və əvəzində erməni silahlı hissələrinin Bakıdan çıxarılmasını, onlarla əlbir fəaliyyət göstərib Bakını bolşeviklərdən təmizləməyi tələb etdilər. Qəzetin məlumatına görə, ermənilər bu təkliflə razılaşmışdılar. Lakin qısa müddət sonra, 1918-ci ilin avqustunda almanların sovet Rusiyası ilə Bakının tutulması və Azərbaycan neftinin ələ keçirilməsi ilə bağlı ayrı bir razılaşması olmuşdu.[2]

Birinci Dünya müharibəsi ərəfəsində Osmanlı Türkiyəsində daxili ictimai-siyasi vəziyyət, həmçinin onun beynəlxalq münasibətləri və yerləşdiyi coğrafi ərazinin böyük dövlətlərin dünyanın bölüşdürülməsi uğrunda apardıqları barışmaz mübarizənin maraqları daxilində olması Türkiyənin müharibəyə qoşulmasında, habelə onun müharibəyə məhz Almaniyanın müttəfiqi kimi qatılmasında ciddi təsiredici amillər kimi mühüm rol oynadı. Osmanlı dövlətinin parçalanması istiqamətindəki aktiv fəaliyyətləri, XIX əsrin ikinci yarısında ermənilərin Şərqi Anadolu əhalisinə qarşı törətdiyi soyqırım və digər cinayətkar hərəkətlərində onların İngiltərə, Fransa, çar Rusiyası tərəfindən hərbi-siyasi müstəvidə fəal dəstəklənməsi Osmanlı Türkiyəsini Almaniya ilə müttəfiqliyə vadar edən əsas səbəblərdən idi. Bu dövrdə xüsusən Rusiyanın Osmanlı dövlətinə qarşı istilaçı planları aktual idi. Ümumiyyətlə isə, düşdüyü mürəkkəb vəziyyətdə Osmanlı dövləti hər hansı bir

[1] Çalık R. Almanların Ermeni Olaylarına Bakışı // Ermeni Araştırmaları. 1. Türkiye Kongresi Bildirileri. 3 ciltte. I cilt. Avrasya Stratejik Araşdırmalar Merkezi, Ermeni Araşdırmaları Enstitüsü Yayınları. Ankara: 2003, s. 106.
[2] Cəfərli E.Y. Naxçıvanda erməni-Azərbaycan münaqişəsi, s.90-91.

böyük dövlət tərəfindən özünün ərazi bütövlüyünə təminat yaradacaq bir ittifaqa girmək üçün lazım olan və gözlədiyi maraq və dəstəyi görmürdü. Elə buna görə də Birinci Dünya müharibəsinin başlanması üçün bəhanə olan 28 iyun 1914-cü il tarixli Sarayevo sui-qəsdindən (*Avstriya-Macarıstan taxtının vəliəhdi hersoq Frans Ferdinandın serb terrorçusu Qavrilo Prinsip tərəfindən qətlə yetirilməsi – Red.*) sonra dəyişən beynəlxalq konyuktura 1914-cü il avqustun 2-də türk-alman gizli ittifaq anlaşmasının imzalanması üçün zəmin oldu.[1]

Müharibə ərəfəsində və onun ilk günlərində ruslar öz ordu korpuslarından birini Qafqaz cəbhəsindən çıxarıb Avropa cəbhəsinə göndərdiyindən almanlar "türklər üçün gələcək Qafqazdadır" bəhanəsi ilə onları öz orduları ilə Qafqaza doğru irəliləməyə təhrik edirdi. Təbii ki, bu almanların Qafqazda türkləri ruslarla qarşı-qarşıya qoyub, çar ordusunun Avropa cəbhəsindən diqqətini Qafqaz bölgəsinə yönəltmək və beləliklə də, daha az düşmən ordusu ilə üz-üzə gəlmək niyyəti ilə bağlı idi. Lakin Osmanlı dövlətinin rəhbərləri almanların əsl niyyətini başa düşmüşdü. Buna görə də Türkiyə daha çox Qafqaz xalqlarını çar Rusiyasına qarşı qiyama qaldırmağın yollarını axtarır və bununla da, rusların arxa cəbhəsində Qafqaz xalqlarının müstəqillik hərəkatına başlatmaqla, həm rusları zəiflətmək, həm də Qafqazın Rusiyadan ayrılaraq müstəqilləşməsinə nail olmaq istəyirdi.[2]

1917-ci ildə Rusiyada çarizmin devrilməsindən sonra hakimiyyətə gələn Müvəqqəti hökumət Birinci Dünya müharibəsində iştirakı davam etdirmək əzmində olsa da, bir tərəfdən siyasi çevrilişin hərbi dairələrdə doğurduğu həvəssizlik, digər tərəfdən isə müharibə əleyhinə bolşeviklərin apardığı təbliğat rus ordusunun döyüş ruhuna ciddi təsir göstərmişdi. Belə bir vəziyyətdə rus əsgərləri artıq döyüşmək istəmirdilər, müharibə cəbhələrində ordu sıralarında fərarilik

---

[1] Keleşyılmaz V. I. Dünya Savaşı Başlarında Kafkasya ve Çevresine İlişkin Stratejik Yaklaşım ve Faaliyetler // Yeni Türkiye Dergisi. Sayı 73. Temmuz-Aralık 2015. Kafkaslar Özel Sayısı-III. s. 203-204.

[2] Keleşyılmaz V. I. Dünya Savaşı Başlarında Kafkasya ve Çevresine İlişkin Stratejik Yaklaşım ve Faaliyetler, s. 206-208.

halları xeyli artmışdı. Bundan istifadə edən ABŞ, İngiltərə və Fransa türk ordusunun Qafqaza doğru irəliləməsinin qarşısını almaq üçün müharibə başlayandan bəri rusların əlində Osmanlı dövlətinə qarşı on minlərlə erməni könüllülərindən ibarət təşkil edilmiş silahlı dəstələrdən istifadə etməyə qərar verdilər.[1]

Müharibənin son ilində bölgədə yeni ictimai-siyasi və hərbi vəziyyət yarandı. Müharibədə çarizmə Türkiyəyə qarşı hərbi əməliyyatlarda öz çoxsaylı silahlı dəstələri və provokativ əməlləri ilə mümkün olan bütün köməyi edən ermənilər Şərqi Anadoluda türk əhalinin soyqırımını həyata keçirdilər. 1917-ci ildə Rusiyada əvvəlcə çarizmin devrilməsi, sonra isə sosialist inqilabının baş verməsi və 1918-ci ilin martında sovet Rusiyasının Birinci Dünya müharibəsini tərk etməsindən sonra bölgədəki vəziyyət bir qədər də mürəkkəbləşdi.

Belə ki, 1917-ci ilin fevralında Rusiyada Xüsusi Cənubi Qafqaz Komitəsi yaradılmış və müharibələr nəticəsində Rusiya işğalı altına düşmüş Şərqi Anadolu torpaqları ilə Cənubi Qafqazın mülki idarəçiliyi bu komitəyə tapşırılmışdı. Bu səbəbdən Müvəqqəti hökumətin XCQK-nın bölgədə yürütdüyü siyasət Türkiyənin də maraqlarına toxunacaqdı. Lakin bölgədə baş verən sürətli yeniliklərə və dəyişikliklərə rəğmən Türkiyəni Cənubi Qafqazla daha yaxından maraqlanmağa vadar edən vəziyyət Rusiyadakı Müvəqqəti hökumətin ermənilərin lehinə yürütdüyü siyasət və qəbul etdiyi qərarlardan sonra meydana gəldi. Öz fəaliyyətini bütünlüklə Osmanlı dövlətinin dağılmasına həsr edən Daşnaksütyun Rusiyada 1917-ci ilin fevral inqilabından sonra öz antitürk səylərinin iflasa uğrayacağından çəkinərək Birinci Dünya Müharibəsi çərçivəsində Rusiya ilə Türkiyə arasında fəal hərbi əməliyyatların aparıldığı Qafqaz cəbhəsinin çökməməsi üçün cidd-cəhdlə çalışırdı. Çünki müharibənin gedişində Rusiya Osmanlı dövlətinin şərq vilayətlərinin əhəmiyyətli hissəsini zəbt etmişdi və ermənilər də

---

[1] Sonyel S.R. The Great War and the Tragedy of Anatolia (Turks and Armenians in the Maelstrom of Major Powers). Ankara: Turkish Historical Society Printing House, 2001 (2. Edition), X+ s.157.

bu torpaqlarda əhali çoxluğunu təşkil etdiklərini iddia edərək, bu ərazilərin ruslar tərəfindən onlara veriləcəyini düşünürdülər. Ermənilərə görə Qafqaz cəbhəsinin dağılması onların bu ümidlərinin boşa çıxması demək olacaqdı.[1]

Lakin qeyd etdiyimiz kimi, ermənilərin Şərqi Anadoludakı varlığı çarizmin mənafeyinə uyğun gəlməsə də, Rusiyada hakimiyyəti ələ alan Müvəqqəti hökumət onların mənafeyini böyük həvəslə nəzərə aldı. Halbuki Osmanlı dövlətinin rəsmi statistikasına görə 1914-cü ildə Osmanlı Türkiyəsinin əhalisinin ümumi sayı 18 milyon 520 min 016 nəfər idi ki, bunun da cəmi 1 milyon 294 min 851-i (6,9 faizi) erməni idi. Bu faiz göstəricisi ermənilərin iddia etdiyi şərq vilayətlərində (Sivas, Ərzurum, Elazığ, Bitlis, Diyarbəkir və Van) bir qədər yüksək olub 20,1 faizə bərabərdi. Lakin göründüyü kimi, erməni iddialarının əksinə olaraq, ermənilər Osmanlı dövlətinin heç bir bölgəsində əhali çoxluğuna malik deyildi.[2]

1917-ci il oktyabrın 25-də (noyabrın 7-də) Rusiyada sosialist çevrilişinin baş verməsindən sonra bölgədə yeni hərbi-siyasi vəziyyət yarandı. Bir gün sonra fəhlə, əsgər və kəndli deputatlarının birinci Ümumrusiya qurultayında qəbul edilən "Sülh haqqında dekret"də müharibədə iştirak edən dövlətlərə müraciət edətək işğalsız və təzminatsız, demokratik ədalətli sülh bağlamağı təklif edən Leninin bu təşəbbüsü siyasi təbliğat məqsədi güddüyündən, həmçinin Rusiyadakı sosialist çevrilişi iri dövlətlər tərəfindən rəğbətlə qarşılanmadığından beynəlxalq müstəvidə ciddi qəbul edilmədi. Lakin sovet Rusiyasının "işğalsız-təzminatsız sülh" təşəbbüsü 1917-ci ildəki rus siyasi çevrilişlərindən sonra türk-rus və Türkiyə-Qafqaz münasibətləri baxımından əhəmiyyətli bir yenilik oldu. Bu səbəbdən Osmanlı dövlətinin Birinci Dünya Müharibəsinin son mərhələsində, demək olar ki, bütün diqqəti Qafqaz (*burada Qafqaz dedikdə həm Türkiyənin Şərqi Anadoludakı yuxarıda adları qeyd edilən altı vilayətini əhatə edən hissəsi, həm də*

[1] Şahin E. Cihan Harbi'nin Son Yılında Türkiye Maverâ-yı Kafkasya'da, s. 353.
[2] Yenə orada. s. 354.

*Cənubi Qafqaz nəzərdə tutulur – Red.*) məsələsi üzərində cəmləşdi. Belə bir sülh təklifi Türkiyə üçün olduqca cazibədar idi. Müharibədə bir çox fəal hərbi əməliyyatlar cəbhəsində məğlub olaraq böyük itkilərlə üzləşən, daxili və beynəlxalq vəziyyəti son dərəcə pisləşən, ən mühümü isə ərazisinin böyük bir hissəsi Rusiya işğalı altına düşən Türkiyə üçün "işğalsız-təzminatsız" sülh bağlanması sözün əsl mənasında göydəndüşmə bir fürsət idi.[1]

Lakin qısa müddət sonra tamamilə aydın oldu ki, beynəlxalq aləmdə, xüsusən müharibədə iştirak edən böyük dövlətlər tərəfindən düşməncəsinə qarşılanan sosialist inqilabının lideri Lenin bu və öz hakimiyyətinin ilk günlərində qəbul etdiyi digər bu tipli sənədlərlə özünə qarşı olan xoşagəlməz münasibəti yumşaltmaq niyyəti güdürdü. Əslində isə Rusiyanın istər daxili, istərsə də xarici siyasətində güddüyü imperialist mənafe, yürütdüyü antitürk və ermənipərəst siyasət heç də öz sələfləri olan çarizmin və Müvəqqəti hökumətin siyasətindən fərqlənmirdi.

Rusiyada 1917-ci ilin oktyabr çevrilişindən sonra türk hərbi rəhbərliyi Qafqaz cəbhəsində bir qədər çaşqınlıq içində olan rus əsgərlərinə (*rus Qafqaz ordusu da Rusiyadakı bolşevik çevrilişini qəbul etmirdi – Red.*) sülhə nail olmağı təlqin edirdi. Hətta Ənvər paşa noyabrın 20-dən sonra 3-cü Ordu komandanı Ferik Mehmet Vehib paşaya Qafqaz cəbhəsindəki rus orduları baş komandanlığı ilə əlaqə yaradıb, saziş imzalamaq təklifini çatdırmasını tapşırmışdı. Vehib paşa noyabrın 24-də rus komandanlığına göndərdiyi məktubda türk tərəfinin "hər iki tərəfin xeyir və mənfəətinə uyğun olacaq bir sazişin imzalanmasına hazır" olduğu ifadə edilirdi. Məktub noyabrın 30-da rus Qafqaz Ordusu Komandanı general Odişelidze və bu ordunun baş qərargah rəisi general Lebedinski vasitəsi ilə Rusiya Qafqaz Orduları Komandanı general Prjevalskiyə çatdırılmışdı. Sonuncu məktuba dərhal cavab verməyərək onu özünün tabe olduğu Cənubi Qafqaz Komissarlığına göndərmişdi. Komissarlığın dekabrın 4-də keçirilən iclasında

[1] Şahin E. Cihan Harbi'nin Son Yılında Türkiye Maverâ-yı Kafkasya'da, s. 355.

məktub müsbət qarşılandıqdan sonra Cənubi Qafqaz Komissarlığının qərarı general Prjevalski tərəfindən dekabrın 5-də Vehib paşaya çatdırılmışdı. Sülh sazişi təklifinin qəbul edildiyi, münasib bilinərsə, hər iki tərəfin təmsilçilərindən ibarət komissiyanın yaradılması, hərbi əməliyyatların dərhal dayandırılması və heç bir hərbi birləşmənin başqa yerə göndərilmədən hazırda olduqları mövqedə qalmaları təklif edilirdi. Beləliklə, razılaşma əldə olunmuş, 3-cü Ordunun qərargah rəisi Ömər Lütfi bəyin başçılığı ilə türk nümayəndə heyəti, general Vişinskinin rəhbərliyi ilə Cənubi Qafqaz Komissarlığının nümayəndə heyəti təşkil edilmişdi.[1]

Rusiyadakı vəziyyətin mürəkkəbliyindən istifadə etmək niyyətində olan türklərin Qafqazla bağlı xüsusi planları vardı. Belə ki, Osmanlı dövləti sovet Rusiyasının elan etdiyi xalqların öz müqəddəratını təyin etməsi hüququndan istifadə edərək Qafqaz müsəlmanlarının müstəqilliyinə nail olmağa və Qafqazda Türkiyənin himayəsi altında bir müsəlman dövləti yaratmağa çalışırdı. Hətta Ənvər paşa 3-cü Ordu komandanı Ferik Mehmet Vehib paşaya rus ordusunun Qafqaz cəbhəsi komandanı olan general Odişelidzeyə Qafqazda ya müstəqil gürcü dövlətinin, ya da azərbaycanlılarla birlikdə ittifaq dövlətinin yaradılması təkliflərini çatdırmağı tapşırmışdı. Təklifə görə Osmanlı torpaqlarına iddialarından əl çəkəcəkləri təqdirdə ermənilər də bu ittifaqa daxil ola bilərdi. Belə bir dövlət yaranarsa, ona rəsmən tanımağa, maliyyə və hərbi sursatla dəstək verməyə də söz verilirdi. Ənvər paşanın Qafqazda Rusiyanın təsiri altında olmayan müstəqil bir dövlətin yaranmasına çalışmaqda əsas məqsədi Türkiyəyə qarşı maraqlı dövlətlər tərəfindən Qafqazda təşkil olunmasına çalışılan gürcü-erməni ittifaqının yaradılmasına mane olmaq idi. 1918-ci il yanvarın 18-də Ənvər paşa Brest-Litovskdakı türk nümayəndə heyətinin üzvü, Osmanlı dövlətinin xarici işlər naziri Əhməd Nəsimi bəyə göndərdiyi teleqramda rus işğalı altındakı ərazilərdə ermənilərin müsəlmanlara qarşı törətdiyi vəhşiliklərdən danışaraq: "Əgər ruslar bu vəhşiliyin qarşı-

---

[1] Şahin E. Cihan Harbi'nin Son Yılında Türkiye Maverâ-yı Kafkasya'da, s. 357-358.

sını almasalar, Osmanlı dövləti iri miqyaslı hərbi əməliyyata başlamaq məcburiyyətində qalacaqdır", – deyə qeyd edir və bunun rus nümayəndə heyətinin də diqqətinə çatdırılmasını tapşırırdı.[1]

Həmin ilin sonlarında Rusiya ilə Türkiyə və müttəfiqləri (Almaniya, İtaliya, Bolqarıstan) arasında imzalanmış Brest-Litovsk (dekabrın 2(15)-də) və Ərzincan (dekabrın 5(18)-də) müqavilələrinə əsasən Birinci Dünya müharibəsindəki rus-türk müharibəsi başa çatsa da, sovet Rusiyasının danışıqlarda tutduğu mövqe onun antitürk və ermənipərəst siyasəti haqqında yuxarıda deyilən fikirlərin təsdiqi oldu. 1917-ci il dekabrın 9-da (22-də) sovet Rusiyası ilə Almaniya və müttəfiqləri arasında Brest-Litovsk sülh konfransı öz işinə başladı və fasilələrlə 1918-ci il martın 3-nə (18-nə) qədər davam etdi. Konfrans zamanı Osmanlı dövlətinin müdafiə naziri Ənvər paşa əldə ediləcək razılaşmada 1877-1878-ci illər rus-türk müharibəsində itirdiyi türk torpaqlarını (Qars, Ərdahan və Batum vilayətlərinin) geri qaytarılmasına, rus ordusunun işğalı altındakı Şərqi Andolu vilayətlərinin azad edilməsinə çalışırdı.

1918-ci il fevralın 10-da Brest-Litovsk konfransında tərəflərin razılığa gələ bilməməsi səbəbindən fasilə yarandı. Fevralın 12-də türklər, 18-də isə almanlar hərbi əməliyyatları bərpa etdilər. Fevralın 21-də Almaniya sovet Rusiyasına ultimatum verdikdən sonra danışıqlar bərpa olundu. Əslində yaranmış vəziyyət Osmanlı dövlətinin danışıqlardakı mövqeyinin möhkəmlənməsinə səbəb olmuşdu. Bundan istifadə edən Ənvər paşa fevralın 27-də türk nümayəndə heyətinin üzvü, Osmanlı dövlətinin Berlindəki səfiri İbrahim Hakkı paşaya 1877-1878-ci il müharibəsinin nəticələrinin ləğv olunmasını, Qafqaz xalqlarının və bütün Rusiyadakı müsəlman xalqlarının öz müqəddəratını təyin etməsi hüququndan istifadə edilməsi ilə razılaşmağı rus-sovet nümayəndə heyətinə qəbul etdirilməsini tapşırdı. Lakin nə Rusiya, nə

[1] Gafarov V. Brest-Litovsk Barış Konferansı'nda Osmanlı Devleti'nin Kafkasya Politikası // Yeni Türkiye Dergisi. Sayı 73. Temmuz-Aralık 2015. Kafkaslar Özel Sayısı-III. s. 218-222.

də türklərin müttəfiqi olan Almaniya və Avstriya-Macarıstan Rusiyada yaşayan bütün türk-müsəlman xalqlarının Osmanlı dövlətinin himayəsinə verilməsi, Qafqazda Azərbaycanın və Dağıstanın daxil edilməsi planlaşdırılan müsəlman dövlətinin yaradılması ilə bağlı təklifləri qəbul etmədilər. Nəticədə Qars, Ərdəhan və Batum vilayətlərini ruslardan geri alan türklər Qafqaz müsəlmanlarının müstəqilliyi ideyasından əl çəkməli oldular. 1918-ci il martın 3-də Brest-Litovskda bir tərəfdən sovet Rusiyası ilə digər tərəfdən Almaniya, Avstriya-Macarıstan, Osmanlı dövləti və Bolqarıstan arasında 14 maddədən ibarət Brest-Litovsk sülh müqaviləsi imzalandı.[1]

Brest-Litovsk konfransında Türkiyə Qafqazla bağlı mövqeyini tam şəkildə ortaya qoyduğundan ruslar türklərin Cənubi Qafqazda ciddi siyasi maraqlarının olduğunu anladılar. Şərqi Anadoludan rus ordularının çıxarılmasını və haqqında danışılan üç vilayətin Türkiyəyə geri qaytarılmasını nəzərdə tutan müqavilənin imzalanmasından sonra Osmanlı dövləti Cənubi Qafqazda öz mövqeyini daha qətiyyətli şəkildə ortaya qoymağa və burada cərəyan edən hadisələrə daha fəal şəkildə müdaxilə etməyə başladı. Lenin hökumətinin ermənilərlə bağlı açıq-aşkar tərəfkeşlik siyasəti (Stalinin 1917-ci ilin dekabrında "Türkiyə Ermənistanı" haqqında məlumatı, S.Şaumyanın Qafqaz işləri üzrə fövqəladə müvəqqəti komissar təyin edilməsi, 1918-ci ilin yanvarında qəbul edilmiş "Türkiyə Ermənistanı" haqqında dekret və s.) yürütməsi Türkiyənin Qafqaza hərbi müdaxiləsini bir qədər də sürətləndirdi. 1918-ci il fevralın 12-də Türkiyə Qafqaz cəbhəsində hərəkətə keçməklə bir tərəfdən bu zaman ermənilər tərəfindən müsəlmanların soyqırıma məruz qoyulmasının qarşısını alacaq, digər tərəfdən Brest-Litovsk danışıqlarında sovet Rusiyası qarşısında hərbi üstünlük əldə edəcəkdi. Artıq 1918-ci il fevralın 24-də Trabzon rus işğalından azad edildi.[2] Türk ordusunun bu müzəffər yürüşü Brest-Litovsk müqavi-

---

[1] Gafarov V. Brest-Litovsk Barış Konferansı'nda Osmanlı Devleti'nin Kafkasya Politikası, s. 224-226.
[2] Şahin E. Cihan Harbi'nin Son Yılında Türkiye Maverâ-yı Kafkasya'da, s. 359, 361-363.

ləsinin Türkiyə üçün əlverişli şərtlərlə imzalanmasında mühüm amil oldu. Müqaviləyə görə, Osmanlı dövləti Axalkələkdən Naxçıvana qədər 12421 $km^2$ sahəsi və 655 min əhalisi olan geniş ərazini əldə etdi. Naxçıvanın Ordubad mahalı isə bu ərazilərdən kənarda qalaraq Türkiyəyə verilmədi.[1]

Osmanlı hərbi qüvvələrinin Qafqaza müdaxiləsində Cənubi Qafqaz Komissarlığının Türkiyə ilə danışıqlarda gözləmə mövqeyi tutmasının da, az rolu olmadı. 1917-ci ilin noyabrında Ümumrusiya Müəssislər Məclisinə keçirilən seçkilərdə bolşeviklər məğlub olduqlarından Müəssislər Məclisinin öz işinə başlamasına imkan vermədilər. Bundan sonra həmin məclisə Cənubi Qafqazdan seçilən nümayəndələr 1918-ci il fevralın 14-də regional parlament – Cənubi Qafqaz Seymini təsis etdilər. Seymdə çoxluq gürcü sosial-demokratlarına (menşeviklərə; 32 nəfər), "Müsavat" partiyasına (30 nəfər) və erməni "Daşnaksütyun" partiyasına (27 nəfər) məxsus idi (*ümumiyyətlə isə, Seymdə çoxluq Azərbaycan partiyalarına məxsus idi: müsavatçılar – 30, sosialist bloku – 7, hümmətçilər – 4, ittihadçılar – 3 yer olmaqla müsəlmanlar 44 deputat mandatı qazanmışdılar – Red.*). Gürcülərlə ermənilərin Türkiyəyə münasibətdə mövqeləri üst-üstə düşdüyündən Cənubi Qafqaz Seymi 1914-cü ildə müharibədən əvvəlki Türkiyə-Rusiya sərhədlərinin imzalanacaq sülh müqaviləsinin əsasını təşkil etməli olduğunu və məqsədinin Osmanlı dövlətinin tərkibində olmaq şərti ilə, "Türkiyə Ermənistanı"na muxtariyyət verilməli olduğunu bildirdi.[2] Seym Petroqrada, Rusiya Xalq Komissarları Sovetinin adına göndərdiyi teleqramda Brest-Litovsk sülhünü tanımadığını bildirdi. Ümumiyyətlə, Cənubi Qafqaz Seymi bolşevik hakimiyyətini tanımırdı.

1918-ci ilin ortalarında öz müttəfiqləri ilə birlikdə Birinci Dünya müharibəsində vəziyyəti pisləşən Türkiyə Cənubi Qafqazda

---

[1] Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan. Tərtib edəni və ön sözün müəllifi Əməkdar elm xadimi, AMEA-nın həqiqi üzvü İsmayıl Hacıyev, s.278.
[2] Şahin E. Cihan Harbi'nin Son Yılında Türkiye Maverâ-yı Kafkasya'da, s. 363.

mövqeyini və nüfuzunu gücləndirməyə çalışırdı. 1918-cil martın 14-də Trabzonda Osmanlı dövləti ilə Cənubi Qafqaz Seyminin nümayəndələri arasında danışıqlar başladı. Osmanlı nümayəndə heyətinə Dəniz Qoşunları komandanı polkovnik Rauf Orbay, Seymin nümayəndə heyətinə isə Akaki Çxenkeli (*sonradan aprelin 22-də yaradılan Cənubi Qafqaz Demokratik Federativ Respublikasının fəaliyyəti dövründə onun yeganə Baş naziri, dah sonra isə Gürcüstan Demokratik Respublikasının daxili işlər naziri olmuşdu – Red.*) rəhbərlik edirdi. Lakin danışıqlar çox mübahisəli şəraitdə keçdiyindən və razılaşmanın əldə edilməsi real görünmədiyindən (gürcülərlə ermənilər Türkiyə ilə müharibənin, azərbaycanlılar isə qarşılıqlı razılaşma əsasında sülh bağlamağın tərəfdarı idilər) türk ordusu Cənubi Qafqaza yürüşə başladı. Osmanlı ordusu aprelin 5-də Sarıqamışı, 14-də Batumu, 25-də isə Qarsı azad etdi.[1] Aprelin 13-də Seymin iclasında Osmanlı dövlətinə müharibə elan edilməsi qərara alındı, Ali Müdafiə Şurası (*azərbaycanlı deputatlar etiraz etsələr də, bu Şurada təmsil olunmurdular – Red.*) yaradıldı. 1918-ci il aprelin 22-də Cənubi Qafqaz Seyminin Cənubi Qafqazı müstəqil demokratik, federativ dövlət elan etməsi ilə Cənubi Qafqazın Rusiyadan ayrılması rəsmi qaydada təsbit edildi. A.Çxenkeli Trabzondan geri çağırıldı və beləliklə, danışıqlar prosesi sona çatdı. Bundan sonra əslində Seymin işi iflic vəziyyətinə düşdüyündən may ayının sonlarında bir-birinin ardınca Gürcüstan (26 may), Azərbaycan (28 may) və Ermənistan (30 may) müstəqil dövlət yaratdıqlarını elan etdilər.

Türk ordusunun Cənubi Qafqaza müzəffər yürüşü gürcüləri sülh bağlamağa məcbur etdi. 1918-ci il mayın 11-də Batumda Osmanlı dövləti ilə Cənubi Qafqaz Demokratik Federativ Respublikası arasında danışıqlar prosesi başlandı və fasilələrlə iyunun 8-dək davam etdi. Osmanlı dövlətinin nümayəndə heyətinə Xəlil bəy Mentəşə, Cənubi Qafqaz nümayəndə heyətinə isə yenə də A.Çxenkeli rəhbərlik edirdi. Nümayəndə heyətinə azərbaycanlılardan M.Hacınski, M.Ə.Rəsulzadə,

---

[1] Kurat A.N. Türkiye ve Rusya, s.488-494.

F.Xoyski, A.Səfikürdski və Ə.Pepinov daxil idi. Əslində nümayəndə heyətləri arasında yeganə geniş müzakirə elə mayın 11-də baş tutdu. Sonrakı müzakirələr isə qarşılıqlı notalar və ikili görüşmələr şəklində davam etdi.[1] Mayın 26-da Cənubi Qafqaz Seymi və Cənubi Qafqaz Demokratik Federativ Respublikası buraxıldığından və bunun ardınca Cənubi Qafqaz respublikaları öz müstəqilliklərini elan etdiyindən danışıqlar iyunun əvvəllərindən hər bir respublika ilə ayrılıqda aparıldı. 1918-ci il iyunun 4-də Türkiyənin Batumda Azərbaycan Cümhuriyyəti ilə bağladığı dostluq müqaviləsinin 4-cü maddəsi Azərbaycana ölkə daxilində təhlükəsizliyi təmin etmək məqsədi ilə Osmanlı dövlətindən hərbi yardım istəmək hüququ alırdı. Azərbaycanla ümumilikdə dörd müqavilə imzalanmışdı. Müqavilələrdən biri də Bakıdan Batuma borularla neftin nəql edilməsini nəzərdə tuturdu.[2]

Batum konfransında Türkiyənin təklif etdiyi "Osmanlı imperiyası ilə Transqafqaz konfederasion respublikası arasında sülh və dostluq haqqında" müqavilənin şərtlərinə görə, Rusiya ilə 1829-cu il Ədirnə sülhündən əvvəlki sərhədlər bərpa edilməli, Cənubi Qafqazdan Türkiyəyə 1 milyon 250 min nəfər əhalinin yaşadığı 38 min km$^2$ ərazi verilməli idi.[3] Hələ mayın 11-də və 26-da Xəlil bəyin Cənubi Qafqaz nümayəndə heyətinə təqdim etdiyi tələblər sırasında Naxçıvan, Şərur, Gümrü, Sürməli, Axıska və Axalkələkin Türkiyəyə verilməsi, Cənubi Qafqazın dəmir yollarından türk ordusunun heç bir şərt qoyulmadan istifadə etməsi məsələsi də qoyulmuşdu. Nəticədə Azərbaycanla imzalanan müqavilənin 2-ci maddəsində Şərur-Dərələyəz qəzasının Şərur hissəsi və Ordubad istisna olmaqla, Naxçıvan qəzasının da Türkiyəyə keçdiyi göstərilirdi. Həmçinin Gümrü-Culfa dəmiryolu da bütünlüklə türk hökumətinin nəzarətinə keçirdi.[4] Ümumiyyətlə, Batum

---

[1] Şahin E. Cihan Harbi'nin Son Yılında Türkiye Maverâ-yı Kafkasya'da, s. 368.
[2] Keykurun N. Azerbaycan İstiklal Mücadelesinden Hatıralar (1905-1920). İlke Kitap Yayınevi, İstanbul: 1998, s.214
[3] Azərbaycan Sovet Ensiklopediyası. 10 clddə, II cild, s.42.
[4] Qafarov V. Batum konfransı və Azərbaycan // "Tarix və onun problemləri" jurnalı. № 1-2. Bakı: 2009, s. 85.

müqaviləsi ilə Türkiyə Naxçıvan, Şərur, Qəmərli, Uluxanlı, Sərdarabad və Vedi üzərində nəzarət hüququ qazanmışdı.[1]

Osmanlı Türkiyəsi həmin gün Qərbi Azərbaycanda qurulmuş işğalçı daşnak rejimi ilə bağladığı müqavilələrlə (ermənilərlə altı saziş imzalanmışdı) Göyçə gölü ətrafında 10 min $km^2$-lik ərazidə qondarma erməni dövlətinin yaradılmasına loyal yanaşdığını və onu de-yure tanıdığını göstərdi. Belə bir vəziyyətdə Ermənistanın ərazisi 400 min nəfərin yaşadığı iki qəzadan – İrəvan və Üçmüəzzindən ibarət oldu.[2] Ermənilərin Türkiyənin nöqteyi-nəzərindən kiçik bir ərazidə dövlət qurmaları Osmanlı dövlətinin maraqlarına cavab verirdi. Bununla türklər ermənilərin iki türk dövləti – Osmanlı dövləti ilə Azərbaycan arasında qaldığından daha Ərzincan sazişindən sonra Azərbaycanı və Şərqi Anadolunu əhatə edən geniş coğrafi ərazidə daha türk əhalisinə qarşı soyqırım törədə bilməyəcəyini düşünürdülər. Çünki razılaşmalara görə Ermənistan silahlı qüvvələrini buraxacaq və Türkiyə lazım olduğu zaman ermənilərə öz silahlı qüvvələri ilə yardım edəcəkdi.[3] Müqaviləyə görə, Eçmiədzin və Gümrü Türkiyənin ərazilərinə qatılır, Osmanlı hökuməti Qars-Gümrü-Culfa dəmiryoluna nəzarət hüququ alırdı. Ermənilərlə imzaladığı müqavilələrlə Türkiyə "erməni məsələsi" ilə bağlı həmin dövrdə qarşısına qoyduğu istəklərinin hamısına nail olmuşdu. Məsələyə sırf öz dövlət maraqları prizmasından yanaşan Osmanlı dövləti ermənilərin bununla Türkiyəyə qarşı irəli sürdüyü ərazi iddialarından əl çəkəcəklərini düşünürdülər. Lakin tarix bunun yanlış olduğunu göstərdi. Çünki iki il sonra, 1920-ci il avqustun 10-da müttəfiq dövlətlərlə Türkiyə arasında imzalanan və Osmanlı dövlətinin parçalanmasını rəsmiləşdirən Sevr müqaviləsində də Antanta ölkələrinin yaradılmasını türklərdən tələb etdiyi erməni dövlətinin ərazisi Cənubi Qafqazdan kənarda, bu bölgədən qərbdə – Şərqi Ana-

---

[1] Atnur İ.E. Osmanlı Birliklerinin Aras Vadisi'nden Çekilmesi ve Aras-Türk Hükümetinin Oluşumu (Ekim-Aralık 1918) // Yeni Türkiye Dergisi. Sayı 73. Temmuz-Aralık 2015. Kafkaslar Özel Sayısı-III. s. 427.
[2] Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan, s. 278.
[3] Şahin E. Cihan Harbi'nin Son Yılında Türkiye Maverâ-yı Kafkasya'da,. s. 368.

doluda yerləşən Osmanlı vilayətlərini əhatə edirdi (Ərzurum, Trabzon, Van və Bitlis).[1] Yeri gəlmişkən, qeyd edək ki, müqavilənin "Ermənistan" adlanan 6-cı hissəsinin (88-93-cü maddələr) ilk maddəsində "Türkiyənin, digər müttəfiq dövlətlər kimi, Ermənistanı azad və müstəqil dövlət kimi tanıdığı bildirilir"di.

## 3.2. Türkiyənin Cənubi Qafqaz siyasətində Naxçıvan

İstənilən halda bu dövrdə Rusiya, ABŞ və İngiltərədən fərqli olaraq, məhz Türkiyənin bu dövrdə Cənubi Qafqazda yürütdüyü siyasət Azərbaycanın da mənafeyinə uyğun idi və məhz bu siyasət Naxçıvanın tarixən olduğu kimi – Azərbaycana məxsusluğunun qorunub-saxlanılmasında mühüm rol oynadı. Bu baxımdan Türkiyənin Naxçıvan torpaqlarının qorunub saxlanılmasındakı fəaliyyətini hərbi, siyasi və diplomatik olmaqla üç istiqamətə ayırmaq olar. Bəri başdan deyək ki, hərbi istiqamət Naxçıvana türk ordu birləşmələrinin göndərilməsi, öz hərbiçiləri və onların vasitəsilə gücləndirilməsinə və silahlandırılmasına dəstək göstərdikləri yerli könüllü özünümüdafiə dəstələrinin Naxçıvanın erməni işğalından müdafiəsində özünü göstərirdi. Siyasi istiqamət Naxçıvanda güclü yerli siyasi idarəçiliyin yaradılması, xüsusən Araz Türk Cümhuriyyətinin təşkilində özünü göstərirdisə, Türkiyənin fəal diplomatik yardım siyasəti 1921-ci ildə imzalanmış Moskva və Qars müqavilələri ilə Naxçıvana Azərbaycanın tərkibində muxtar respublika statusunun verilməsində öz əksini tapdı.

1918-ci ilin ilk aylarında Bakının bolşevik-daşnak ittifaqının və eserlərin əlində olduğu bir şəraitdə Naxçıvan Müsəlman Milli Komitəsi real köməyi yalnız Osmanlı dövlətindən ala bilərdi. Odur ki, 1918-ci ilin yazında Naxçıvan Milli Komitəsinin başçısı Cəfərqulu xan Naxçıvanski o zaman türklərin tabeliyində olan Maku xanlığına

[1] http://www.omurokur.com/

gedərək xanın vasitəsilə türk komandanlığı ilə əlaqə yaratmış və Naxçıvana türk hərbi dəstələri yeridilməsi barədə danışıqlar apardı. Naxçıvan əhalisinin təhlükəsizliyinə heç bir təminat vermək iqtidarında olmayan Cənubi Qafqaz Seyminin Naxçıvan qəzasındakı nümayəndəsi Cəfərqulu xanın bu hərəkətindən narazı qalaraq bunu Naxçıvan xanlarının Cənubi Qafqaz Seymini və Rusiyanı tanımaq istəməməsi kimi qiymətləndirmişdi. Hər halda daşnakların niyyətlərinə yaxşı bələd olan türk komandanlığı hələ 1918-ci ilin fevralında təhlükəsizlik tədbirləri görərək, öz qoşunlarını şərq istiqamətində xeyli irəli çəkmişdi. Belə ki, şimali İrandakı ingilis ordusu Türkiyə sərhədlərinə xeyli yaxınlaşmaqla Osmanlı dövlətinə real təhlükə yaratmışdı. Türk komandanlığı Cənubi Qafqaz Komissarlığı nümayəndələri ilə danışıqlarda ingilislərə qarşı fəal döyüş əməliyyatları keçirmək məqsədilə, həmçinin, Naxçıvan və Şərur-Dərələyəz qəzalarının və Culfa-Aleksandropol dəmir yolu xəttinin onların nəzarəti altına keçməsi zəruriliyini göstərirdi. Əgər bu belə olardısa, o zaman Naxçıvanın daşnak basqınlarından qorunması üçün real təminat artardı. Cənubi Qafqaz Komissarlığı hələ 1917-ci il dekabrın 18-də 3-cü türk ordusunun komandiri Vahid paşa ilə barışıq bağlasa da, türklərin bu tələblərini qəbul etməmişdi.

Türk əsgərləri Naxçıvana ilk dəfə 1918-ci ilin aprel-may aylarında Kazım Qarabəkir paşanın göstərişi ilə gəldilər. Daşnaklarla döyüşdə qətiyyət göstərməməsi, ilk vaxtlar, türklərlə Naxçıvan Müsəlman Milli Komitəsi arasında münasibətlərin soyumasına səbəb olmuşdu. Çünki Naxçıvana daxil olam kimi türklər ilk siyasi tədbir kimi Müsəlman Milli Komitəsini və könüllü hissələri buraxmışdılar. Xəlil bəy Naxçıvanın general-qubernatoru təyin olunmuşdu. Lakin bu vəziyyət çox da uzun sürməmişdi. Tezliklə Naxçıvan Müsəlman Milli Komitəsinin və onun silahlı dəstələrinin fəaliyyəti bərpa edilmişdi.[1]

1918-ci ilin may-iyul aylarında ermənilərin Naxçıvan əhalisinə qarşı törətdiyi soyqırımın miqyası Andronikin bölgəyə gəlişi ilə xeyli

---

[1] Sadıqov S.H. Naxçıvan Muxtar Respublikası tarixindən, s.17.

genişləndi. Lakin 1918-ci il avqustun 5-də Türkiyənin I Qafqaz ordusunun gəlişi ilə vəziyyət nisbətən sabitləşdi. İki gün sonra ordu komandanı Kazım Qarabəkir paşanın gəlişi ermənilərin Naxçıvana hücumlarının qarşısının alınması istiqamətində ciddi tədbirlərin görülməsi ilə nəticələndi. Brest-Litovsk müqaviləsində Qars, Ərdahan və Batum vilayətlərinin öz müqəddəratını bu üç vilayətdə keçiriləcək xalq səsverməsi (plebissit) ilə müəyyənləşdirməsi nəzərdə tutulduğundan iyun-iyul aylarında həmin plebissit keçirildi. Avqustun 15-də verilən xətti-humayunla Türkiyəyə birləşdirilən həmin üç vilayətdəki plebissitin nəticələri belə idi: səsvermədə iştirak edən 87 min 048 nəfərdən 85 min 129-u Osmanlı dövlətinə birləşməyin lehinə səs vermiş, 441 nəfər bunun əleyhinə çıxmış, 1693 nəfər isə bitərəf qalmışdı.[1] Plebissit nəticəsində Naxçıvan qəzasının Qars qəsəbəsinin tərkibində Batum vilayətinin bir hissəsi kimi Türkiyəyə birləşdirildiyi elan edildi. Beləliklə, 23 qəzada birləşən 100 nahiyə Batum vilayəti adı altında Osmanlı dövlətinin tərkibinə daxil edildi.

1918-ci ilin iyulunda türk ordularının bölgəyə geniş miqyaslı müdaxiləsindən sonra Osmanlı üsuli-idarəsinə keçən Naxçıvana 11-ci Qafqaz diviziyasının komandiri Sürəyya bəy qəza rəisi təyin edildi. Naxçıvanda yerli əhalinin nümayəndələri yığıncaq keçirən Sürəyya bəy milli komitənin ləğv edildiyini və əvəzində jandarma, ədliyyə və bələdiyyə idarələrinin yaradıldığını bildirdi. Jandarma rəisliyinə Məmmədəli xan, onun müavinliyinə Canı bəy Vəzirov, bələdiyyə rəisliyinə Cəfərqulu xan, bələdiyyə üzvlüyünə isə Hacı Abdulla Şeyxov, Tağı Nağdəliyev, mülki məhkəməyə Şeyx Kərim Axundzadə, Cabbar Kələntərov və Vəli ağa Kəndlinski təyin edildilər. 11-ci Qafqaz diviziyasının Təbrizə doğru hərəkətə başlamasından sonra Naxçıvanda yerli hökumətə mayor Əli Şəfiq bəy təyin edildi. Avqustda keçirilən plebissit nəticəsində türkiyənin tərkibinə daxil edilən Naxçıvana oktyabr ayında qəza rəisi təyin edilən Xalis Turqut bəy burada cəmi bir ay – Osmanlı ordusu Mudros müqaviləsinə əsasən Cənubi Qafqazı tərk

[1] Şahin E. Cihan Harbi'nin Son Yılında Türkiye Maverâ-yı Kafkasya'da, s.372.

edənədək qala bildi. Türk ordusunun bölgəni tərk etdiyi ana qədər burada qalan Əli Şəfiq bəy yerli əhalinin öz idarəetmə və hərbi təşkilatlarını yaratmasında mühüm rol oynadı.[1]

Bu dövrdə Osmanlı ordularının Cənubi Qafqazda olması bölgənin türk-müsəlman əhalisinin təhlükəsizliyinin təmin edilməsi üçün həyati əhəmiyyət kəsb edirdi. Belə ki, 1918-ci il noyabrın 20-dək türk hərbiçilərindən ibarət 9-cu Qafqaz diviziyası Culfanın şimalındakı Sərdarabada qədər olan Araz vadisində ermənilərin nəzarətində olan ərazinin sərhədində idi. Həmin diviziyanın 28-ci Qafqaz alayı və bir rus dağ batareyası Naxçıvanda, 17-ci Qafqaz alayı isə İrəvandan 40 km cənub-qərbdə olan Böyük Vedidə, 29-cu Qafqaz alayı isə İrəvandan 20 km cənubdakı Ağbağ, Avluxanlı və Üçmüəzzin stansiyası civarında mövqe tutmuşdu. 9-cu Qafqaz diviziyasının qərargahı, iki güclü və bir rus dağ batareyası ilə süvari bölüyü və diviziyanın tabeliyindəki digər bilriklər Qəmərlidə yerləşmişdi. Qərargahı Xoyda yerləşən 11-ci Qafqaz diviziyasının böyük bir qismi Dilman-Xoy-Culfa xəttində, onun bir hissəsi isə Təbrizdə idi. Urmiyadan Gümrüyə doğru yürüş edən 12-ci Piyada diviziyası, 35-ci Piyada alayı və diviziyanın süvari bölüyü Sərdarabad və onun şərqində, 34-cü və 36-cı Piyada alayları ilə 12-ci diviziyanın qərargahı, tabeliyindəki digər birliklər və diviziya topçusu Gümrüdə cəmləşmişdi. Tərkibindəki 106-cı və 107-ci alaylar istisna olmaqla (onlar İstanbula qayıtmaq əmri almışdı) 36-cı Qafqaz diviziyası 108-ci Qafqaz alayı və diviziyanın tabeliyindəki iki topçu taboru Gümrünün 40 km cənub-şərqindəki Alagöz dağının şimalında Axalkələyə doğru Böyük Qaparaq-Cacorus-Başkənd-Düzxaraba-Madana xəttinə nəzarə etməkdə idi. Diviziyanın qərargahı və tabeliyindəki qalan bütün birliklər Gümrüdə yerləşmişdi. Həmin diviziyanın 100-cü və 107-ci Qafqaz alayları ilə bir dağ taboru hələlik Azərbaycanın digər ərazilərində idi. 3-cü Qafqaz diviziyasının 8-ci Qafqaz alayı və bir dağ taboru Axalkələyin şimalında, 7-ci Qafqaz alayı və bir

[1] Atnur İ.E. Osmanlı idarəçiliyindən sovet idarəçiliyinə qədər Naxçıvan (1918-1921), s.295

dağ taboru Axıskanın 28 km şimal-şərqindəki Ağara və Zikyalya məntəqəsində, 11-ci Qafqaz alayı Axıskanın 18 km şimal-qərbindəki Hevaşin məntəqəsində, diviziyanın qərargahı, bir topçu taboru və digər birlikləri Axıskada idi. Batum İstehkam Mövqe Komandanlığına tabe olan 177-ci Piyada alayı isə Çürüksuda mövqe tutmuşdu.[1] Göründüyü kimi, bölgənin təhlükəsizliyi xeyli dərəcədə türk ordularının burada mövcudluğundan asılı idi.

Lakin oktyabr ayında türk ordusu Birinci Dünya müharibəsi cəbhələrindəki qarşılaşdığı ağır məğlubiyyətdən sonra Cənubi Qafqazı tərk etmək məcburiyyətində qalmışdı. Bolqarıstan cəbhəsindəki məğlubiyyətdən sonra Osmanlı dövlətinin hərbi naziri Ənvər paşa bu məcburiyyəti hiss edərək 1918-ci il oktyabrın 5-də Şərq Orduları Qrupu Komandanlığına göndərdiyi əmrdə Qafqazdan çəkilmək məcburiyyətində qalına biləcəyi, bu halda Azərbaycanda və Şimali Qafqazda qalacaq türk birliklərinin hesabına bir hərbi hissə qurulmasının lazım olduğunu bildirmişdi.O, başqa bir əmrdə Nuru paşaya Azərbaycanda özü ilə işləmək şərti ilə qalacaq zabit və əsgərləri müəyyənləşdirib, bu plana görə hərəkət etməsini bildirdi. Oktyabrın 14-də Osmanlı dövlətində Əhməd İzzət paşanın başçılığı ilə qurulan yeni hökumət Brest-Litovsk müqaviləsi ilə Türkiyəyə geri qaytarılan üç vilayəti – Qars, Ərdahan və Batumu əlində saxlamaq üçün Batum müqaviləsi ilə alınan yerləri – Naxçıvan, Sürməli, Gümrü və Axalkələki boşaltmağa məcbur idi.[2]

Ənvər paşa Qafqazın tam itirilməməsi naminə Azərbaycanın və Cənubi Qafqaz hökumətlərinin dəstəklənməsi üçün 5-ci diviziyanın bölgədə qalmasını, digər birliklərin isə buraxılmasına hazırlıq görülməsini istəyirdi. 5-ci diviziyanın əsas vəzifəsi Azərbaycan ordusunun nüvəsini təşkil etmək idi. Ənvər paşa bildirirdi ki, "başlanacaq sülh danışıqlarında milli əsaslara nəzərən iddia qaldıraraq bizim Qafqaz-

---

[1] Ural S. Kafkas Cephesinde Mondros Mütarekesi'nin Tatbikatı, s. 245-247

[2] Atnur İ.E. Osmanlı Birliklerinin Aras Vadisi'nden Çekilmesi ve Aras-Türk Hükümetinin Oluşumu (Ekim-Aralık 1918), s. 425

dakı vəziyyətimiz möhkəmlənməli və xüsusilə Azərbaycan və Şimali Qafqaz hökumətləri möhkəmləndirilməlidir. ...Azərbaycan məhəlli hərbi qüvvələrinin nizamlaşdırılmasına çalışmaqla bərabər, istər hələ Azərbaycanda olan qüvvələrimizi, istərsə də 5-ci diviziyanı bilavasitə Azərbaycan qüvvələri olaraq orada saxlamaqla Azərbaycan hərbi təşkilatı mükəmməl olar. Azərbaycana çoxlu silah və cəbbəxana göndərin”. Lakin ingilislər buna qarşı çıxdığından 5-ci Qafqaz diviziyası ilə 2-ci Azərbaycan diviziyası noyabrın 16-17-də Bakıdan çıxarıldı. Bundan sonra ingilis generalı Tomsonun başçılıq etdiyi 1200 nəfərlik İngiltərə diviziyası Bakını işğal etdi.[1]

Ümumiyyətlə, Birinci Dünya müharibəsində məğlubiyyətə uğrayan Osmanlı ordusu 1918-ci il oktyabrın 30-da imzalanan Mudros müqaviləsinin 11 və 15-ci maddələrinə görə Azərbaycanı və bütün Qafqazı tərk edərək müharibədən əvvəlki sərhədlərə qayıtmalı, Türkiyə Bakının müttəfiqlər tərəfindən işğalına qarşı çıxmamalı idi (*nə qədər qəribə olsa da, bu sonuncu müddəa Osmanlı nümayəndə heyətinin təklifi ilə müqavilənin 15-ci maddəsinin mətninə daxil edilmişdi – Red.*). Osmanlı Sultanı VI Vəhdəddin, şərtlər nə qədər ağır olursa-olsun, müqavilənin imzalanmasını istəyirdi. Sultana görə mühüm olan ingilislərlə dostluğa nail olunması idi. Müqavilənin imzalanması ingilislər türklərin müqavilə layihəsindəki ilk dörd maddəsini (*bu maddələrdə Çanaqqala və İstanbul boğazlarının açılması, müttəfiqlərin həmin boğazlardakı istehkamları işğal etməsi, Osmanlı sularında və Qara dənizdəki torpedo və minaların yerinin açıqlanması, müttəfiq dövlətlərə aid müharibə əsirləri ilə birlikdə həbs edilən və əsir götürülən ermənilərin də müttəfiqlərə təslim edilməsi nəzərdə tutulurdu – Red.*) və qəbul edəcəyi təqdirdə razı qalacaqdılar. Lakin türk nümayəndə heyətinin müqavilənin bütün 25 maddəsini, demək olar ki, kiçik redaktələrlə, olduğu kimi qəbul etməsi ingilislər tərəfindən məmnunluq qarışıq təəccüblə qarşılanmışdı. Bu, əslində müttəfiqlərin bütün ölkə üzərində işğal planları qurmasına zəmin yaradırdı. Belə ki, məsə-

[1] Ural S. Kafkas Cephesinde Mondros Mütarekesi'nin Tatbikatı, s. 245-246

lən, müqavilənin 24-cü maddəsində göstərilirdi ki: “Altı vilayətdə (müqavilənin ingiliscə mətnində “erməni vilayətlərində”) qarmaqarışıqlıq olacağı halda, Müttəfiqlər bu vilayətlərin hər hansı bir hissəsinin işğal edilməsi hüququnu özlərində saxlayır”dılar.[1] Osmanlı nümayəndə heyətinin (əslində dövlət rəhbərliyinin) məhz bu qorxaqlığı 1920-ci il avqustun 10-da Türkiyə üçün son dərəcə ağır olan Sevr müqaviləsinin Osmanlı dövlətinə qəbul etdirilməsi ilə nəticələnmişdi.

Beləliklə, Mudros müqaviləsinin şərtlərinə uyğun olaraq, 1918-ci ilin noyabr-dekabr aylarında Osmanlı ordusu bütün Azərbaycan ərazisini tərk etdi. Osmanlı əsgərlərinin Naxçıvanı tərk etməsi bölgə üçün yeni fəlakətlərin başlanması demək idi. Çünki bölgədəki ingilis hərbi komandanlığı türk ordularının çıxarılmasını tələb edərkən həm Osmanlı ordusundan qalan ərzağın, həm də Qarsın, bölgədəki poçt və teleqraf stansiyalarının, dəmiryollarının 1919-cu il yanvarın 15-də Qarsa gələcək erməni heyətinə təhvil verilməsini tələb edirdi.[2] Bu isə sonrakı aylarda bir tərəfdən Zəngəzurda yerləşdirilmiş daşnak hərbi qüvvələrinin, digər tərəfdən isə Qarsı ələ keçirmiş ermənilərin mühasirəsində qalacaq Naxçıvanın işğalı üçün əlverişli şərait yaradırdı. Ordubad Milli komitəsinin sədri Mir Hidayət Seyidzadə İrəvan quberniyası müsəlmanları adından Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədri F.Xoyskiyə 22 dekabr 1918-ci il tarixli məlumatında yazırdı: “Andronikdən sonra bizə türklər gəldilər və üç aya yaxın qəzada hamı sakit yaşadı. Türklər Qafqazdan getdikdən sonra bizim vəziyyətimiz əvvəlkindən daha da pis oldu...” Naxçıvan Milli komitəsinin sədri Cəfərqulu xan da Osmanlı ordusunun bölgəni tərk etməsinin qanlı səhifələrin təkrarlanması ilə nəticələndiyini bildirmişdi.[3] Osmanlı dövləti Hərbi nazirinin türk ordularının ümumi tərxis olunması haqqındakı əmrini noyabrın 5-də alan Qafqaz İslam Ordusu

---

[1] Kaymaz İ.Ş. Mondros: Bir Ateşkesin Tahlili. 21. Yüzyıl Dergisi, Ekim/Kasım/Aralık 2008, s.268
[2] Ural S. Kafkas Cephesinde Mondros Mütarekesi'nin Tatbikatı, s. 253-254
[3] ARPİİSSA, f. 277, siy. 2, iş 57

komandanı Nuru paşanın göstərişi ilə dekabrın 20-də mayor Xəlil bəy kiçik leytenant Xəlil İbrahim əfəndini öz yerinə təyin edərək 1919-cu il yanvarın 5-də tabeliyində olanlarla birlikdə Naxçıvanı tərk etdi.

1918-ci il oktyabrın 22-də Kazım Qarabəkir paşa başçılıq etdiyi I Qafqaz Korpusunun qərargahını Naxçıvana köçürmək məqsədi ilə Təbrizdən buraya gəldi. Lakin Naxçıvanda Kazım Qarabəkir paşa Şərq Orduları Qrupunun Baş Məsafə Müfəttişliyi ilə birlikdə ləğv edildiyini və qərargah üzvlərinin İstanbula sərəncama çağırıldığı xəbərini aldı. Naxçıvanı tərk edərək İstanbula gedən paşa noyabrın 30-da Osmanlı dövlətinin Hərbi naziri Abdullah paşa ilə görüşərək türk ordularının tərk etdiyi torpaqlarda Antanta hərbi qüvvələrinin nəzarət etməyəcəyi təqdirdə erməni və gürcü silahlılarının türkləri soyqırıma məruz qoyacağını bildirmişdi. Ardınca o, Baş Qərargah rəisi Cavad paşa və keçmiş Sədr-əzəm İzzət paşa ilə görüşərək yenidən şərqə, müharibə bölgəsinə göndərilməsini tələb etmişdi.[1] Qısa müddət sonra Kazım Qarabəkir paşa istəyinə nail ola bildi.

Noyabrın 1-də öz qərargahı ilə Naxçıvandan Qarsa yola düşən Kazım Qarabəkir paşa müqavilənin bölgəyə dair şərtlərinin yaradacağı vəziyyət haqqında təəssüflənərək demişdi: "Qırx illik əsarətdən altı ay öncə qurtulan və erməni məzalimindən ağır yaralar alan… türk-müsəlman əhalisinin yaşadığı bu bölgələrdən biz 1914-cü ilin hüdudlarına çəkilincə yenidən erməni zülmünə məruz qalacaqdır. Buna çarələr düşünüb, tədbirlər görməliyik…".[2] Osmanlı ordusu Naxçıvan əhalisinin xahişlərini, eləcə də Batum müqaviləsinin 4-cü maddəsini əsas tutaraq Naxçıvanın və digər Azərbaycan torpaqlarının qorunmasında mühüm rol oynadı.

21 oktyabr 1918-ci il tarixli ümumi tərxis qərarından sonra bu istiqamətdə ilk addım oktyabrın 27-də atıldı. Hərbi nazir Əhməd İzzət

---

[1] Atnur İ.E. Osmanlı Birliklerinin Aras Vadisi'nden Çekilmesi ve Aras-Türk Hükümetinin Oluşumu (Ekim-Aralık 1918), s. 426; Ural S. Kafkas Cephesinde Mondros Mütarekesi'nin Tatbikatı, s. 256

[2] Naxçıvan tarixi. Üç cilddə. II cild, s. 76

paşa Şərq Orduları Qrupu Komandanlığına Qafqaz İslam Ordusu ilə Şimali Qafqaz Komandanlığının ləğv edildiyini, özü istəyən zabit və əsgərlərin Azərbaycan Hökumətinin əmrində qala biləcəklərini bildirdi. Kazım Qarabəkir paşanın komandanlığındakı iki diviziya general-mayor Yaqub Şövqi paşanın komandanlığındakı 9-cu Ordunun tərkibinə verildi, bununla da həmin ordunun tərkibindəki diviziyaların sayı səkkizə qalxdı. Daha sonra 1919-cu il yanvarın 6-da Osmanlı ordularının korpus sistemi ilə təşkilini nəzərdə tutan bir layihə hazırlandı. Layihəyə əsasən aprelin 2-də 9-cu Ordunun qərargahı ləğv edilərək onun tabeliyindəki 3-cü, 9-cü və 11-ci Qafqaz diviziyaları və 12-ci diviziya Kazım Qarabəkir paşanın komandanlığında 1919-cu il martın 13-də yaradılan 15-ci Korpusa verildi. Həmin korpus Van, Ərzurum və Trabzon vilayətlərinə nəzarət edəcəkdi.[1]

1918-ci ilin noyabr-dekabr ayları ərzində Osmanlı qoşunları bölgəni əsasən tərk etdilər. Noyabrın 17-də Bakı, bir gün sonra isə Təbriz boşaldıldı. Dekabrın 4-də isə türklər Cənubi Azərbaycanı tərk etdilər. Dekabrın 1-dən etibarən isə Naxçıvan və ətrafındakı ərazilərdən geri çəkilən 9-cü Qafqaz diviziyası dekabrın 11-də Kağızmandan keçərək Sarıqamışa getdi. Bununla da, Osmanlı ordusu həm də Brest-Litovsk müqaviləsində nəzərdə tutulan sərhədlərə çəkilmiş oldu.[2] Bundan istifadə edən ermənilər bölgədə müsəlman əhaliyə qarşı soyqırımına başladılar. Osmanlı dövlətinin IX Ordu komandanı Yaqub Şövqi paşa da öz ölkəsinin Baş komandanlığına göndərdiyi 27 dekabr 1918-ci il tarixli teleqramda daşnak dəstə başçısı Hovannes Paronyanın (Yaponun) dinc müsəlman əhali üzərinə özünün 1200 nəfərlik dəstəsi ilə qanlı hücumunun nəticələri haqqında məlumat verərək bildirirdi ki, daşnaklar Almalıda 688 nəfəri, bu kəndin şimal-şərqindəki Ağuş adlı yerdə 516 nəfəri və gənc qadınları ayırdıqdan sonra 200 nəfəri bir yerə yığıb öldürdüklərini bildirmiş, ermənilərin törətdiyi digər vəhşi-

[1] Ural S. Kafkas Cephesinde Mondros Mütarekesi'nin Tatbikatı , s. 245, 255-256
[2] Atnur İ.E. Osmanlı Birliklerinin Aras Vadisi'nden Çekilmesi ve Aras-Türk Hükümetinin Oluşumu (Ekim-Aralık 1918), s. 427

liklər haqqında məlumat vermiş və Osmanlı hökumətindən tədbir görülməsini xahiş etmişdi.[1]

Bir məsələni qeyd etmək lazımdır ki, həmin dövrdə Kazım Qarabəkir paşanın bölgənin erməni zülmündən xilas edilməsi ilə yanaşı, Türkiyədə milli-azadlıq mübarizəsinin başlanmasındakı xidmətləri son dərəcə böyük olmuşdur. Kazım Qarabəkir paşa Osmanlı dövlətinin şərq vilayətində olan ordu hissələrində xidmətə göndərilməsi üçün ciddi təkid etmiş, bu istəyinə nail olduqdan sonra isə 1919-cu il aprelin 11-də İstanbulda vida görüşləri keçirərək Mustafa Kamal paşa ilə görüşərkən onunla milli hərəkat haqqındakı düşüncələrini bölüşmüşdü. O, Mustafa Kamal paşaya şərqdəki milli təşkilatları Ərzurumda birləşdirərək bir ümummilli təşkilat halına gətirmək istədiyini, rəhbərlik etdiyi korpusu milli orduya çevirərək ilk öncə şərqdəki təhlükəni aradan qaldıracağını və sonra bütün qüvvəsini qərbə yönəldəcəyini bildirmiş, bu planlarını həyata keçirmək üçün Mustafa Kamal paşaya ehtiyacı olduğunu bildirərək, ona tezliklə Anadoluya doğru hərəkət etməsini istəmişdi.[2] Kazım Qarabəkir paşanın özü üçün müəyyənləşdirdiyi fəaliyyət proqramı milli müstəqillik hərəkatının əsas qayəsini özündə ehtiva edir, Türkiyənin işğalı cəhdlərinə qarşı xalqla ordunun birgə fəaliyyətini nəzərdə tuturdu.[3]

Burada Mudros müqaviləsi imzalandıqdan, ingilislərin Bakıya gəlişindən sonra Azərbaycan Xalq Cümhuriyyəti ilə Osmanlı dövləti arasında münasibətlərin xarakterinə nəzər salınmasına ehtiyac vardır. Çünki faktlar göstərir ki, ingilislərin ciddi təzyiqi altında olan Azərbaycan hökuməti o dövrdə xarici siyasət sahəsində Osmanlı-türk amilini bir qədər arxa plana keçirmiş kimi görünürdü. Halbuki Azər-

---

[1]Bal H. Ermenistan Hükümetinin Güney Kafkasya'daki Türklere Karşı Saldırgan Politikası ve Mezalimi (1918-1920) // Ermeni Araştırmaları. 1. Türkiye Kongresi Bildirileri. 3 ciltte. I cilt. Avrasya Stratejik Araşdırmalar Merkezi, Ermeni Araşdırmaları Enstitüsü Yayınları. Ankara: 2003, s. 404

[2] Taşkıran C. Milli Mücadelede Kazım Karabekir Paşa. Atatürk Araştırma Merkezi, Ankara: 1999, s.51-53

[3] Kârabekir K. İstiklâl Harbinin Esasları, Kazım Karabekir Paşanın Hatıratı. Basın Kitabevi, İstanbul: 1981, s.44

baycan Xalq Cümhuriyyətinin yarandığı ilk dövrlərdə Azərbaycan liderləri Osmanlı dövləti ilə qarşılıqlı etimada və qardaşlıq münasibətlərinə əsaslanan çox səmimi münasibət qura bilmişdilər. 1918-ci il iyunun 4-də Azərbaycanla Osmanlı dövləti arasında Batumda imzalanan dostluq haqqında müqavilə bu münasibətlərin ilk carçısı idi. Hətta Azərbaycanın müstəqilliyə qovuşması Türkiyədə o qədər böyük məmnuniyyətlə qarşılanmışdı ki, Osmanlı dövləti qardaş dövlətin müstəqilliyini həm dərhal tanımış, həm də türk mətbuatı tərəfindən Azərbaycan Cümhuriyyəti "kiçik Türkiyə" adlandırılaraq alqışlanmışdı.[1]

Azərbaycan-Türkiyə münasibətlərinin inkişaf etdirilməsi üçün 1918-ci ilin iyununda başlayan İstanbul konfransına (*bu konfransın keçirilməsi hələ Batumda Osmanlı dövləti ilə Cənubi Qafqazın üç respublikası arasında münasibətlərin detallarının müzakirə edilməsi üçün razılaşdırılmışdı, lakin noyabr ayının əvvəllərində heç bir nəticə əldə edilmədən başa çatmışdı – Red.*) M.Ə.Rəsulzadə, X.Xasməmmədov və A.Səfikürdskidən ibarət nümayəndə heyəti göndərilmişdi. Həmin il sentyabrın 6-da VI Mehmet Vəhdəddinin taxta çıxması münasibəti ilə Sultan sarayına gedən Azərbaycan nümayəndələri, sarayda çoxsaylı xarici nümayəndələrin olmasına rəğmən, Sultan tərəfindən onun şəxsi təşəbbüsü ilə birinci qəbul edilmiş, nümayəndə heyətini Ənvər paşa qarşılayıb sultana təqdim etmişdi. Azərbaycan Cümhuriyyəti adından sultanı təbrik edən M.Ə.Rəsulzadə yüz illik əsarətdən xilas olmuş Azərbaycan xalqının öz istiqlaliyyətini və hürriyyətini qoruyub saxlaması yolunda qardaş Türkiyəyə arxalandığını bildirmişdi. Sultan isə buna cavab olaraq bildirmişdi ki: "Sevimli Azərbaycanımızın nümayəndələri tərəfindən təbrik edilməyimi həyatımda xoşbəxt bir hadisə kimi qəbul edirəm. Əsarətdən xilas olmuş türk və müsəlman hökumətinin istiqlaliyyət və hürriyyətini təmin etmək mənim hökumətimin ən müqəddəs vəzifəsini təşkil edir. Azərbaycanın həyat və qüvvət kəsb edərək bizimlə birlikdə ümumi düşmənlərimizə qalib

[1] Şahin E. Cihan Harbi'nin Son Yılında Türkiye Maverâ-yı Kafkasya'da , s. 370

gələcəyinə ümid edirəm. Salamımın bütün azərbaycanlı qardaşlara çatmasını arzu edirəm". Bu qəbul barədə Azərbaycan hökumətinə məlumat verən M.Ə.Rəsulzadə yazırdı: "Biz çıxanda Sultanın Ənvər paşa həzrətlərinə yaxınlaşaraq "bu dəqiqələr ömrümün ən xoşbəxt dəqiqələridir", – dediyini eşitdik bə bundan köksümüz iftixarla doldu".[1]

Daha sonra Türkiyə iki həyati əhəmiyyət kəsb edən məsələdə Azərbaycan Xalq

Cümhuriyyətinə həlledici yardım göstərmişdi. Belə ki, 1918-ci il sentyabr ayının əvvəllərində Osmanlı dövlətinin sədrəzəmi (*hökumət başçısı – Red.*) Tələt paşa ilə görüşən Azərbaycan nümayəndə heyəti paşanın Berlinə səfəri ərəfəsində Bakı məsələsində Almaniyanın tutduğu mövqeni və Bakının tezliklə azad edilməsinin zəruriliyini müzakirə etmişdi. Bunlardan birincisinin (1918-ci ilin avqustun 27-də almanlarla sovet Rusiyası arasında Bakının tutulması ilə bağlı gizli saziş) həlli istiqamətində Osmanlı dövlətinin fəal diplomatik yardımı az sonra Berlinə səfər edən Tələt paşanın 27 avqust sazişinin təcili ləğvini Almaniyadan tələb etməsində göstərdi. Sentyabrın 15-də isə Nuru paşanın komandanlığı altında Qafqaz İslam Ordusu Bakını ingilis-daşnak əsarətindən xilas etdi. Berlin danışıqlarından sonra Tələt paşa oktyabrın 2-də Ə.Topçubaşovu (o, sentyabrın 28-də İstanbula gələrək Azərbaycan hökumətinin fövqəladə səlahiyyətli səfiri kimi işə başlamışdı) qəbul edərkən bildirmişdi ki, o, Azərbaycanın mənafeyi naminə, nə mümkündürsə, hamısını etmişdir.[2]

Mudros müqaviləsinin 11-ci maddəsinə əsasən türk ordularının Azərbaycanı tərk etməsi bölgənin taleyi baxımından son dərəc taleyüklü məsələ idi. 1918-ci il noyabrın 3-də Ə.Topçubaşovun Azərbaycan hökuməti adından müqavilənin Azərbaycana aid maddələrinə etiraz bildirilsə də, bunun elə bir əhəmiyyəti olmamışdı. Türk qoşunlarının Azərbaycanı tərk etməsi bir tərəfdən Bakının və digər torpaqlarımızın yenidən ingilis işğalı altına düşməsi demək idisə, digər tərəfdən

---

[1] XX əsr Azərbaycan tarixi. II cild. Ali məktəblər üçün dərslik. Bakı: Təhsil, 2009, s.199

[2] XX əsr Azərbaycan tarixi. II cild. Ali məktəblər üçün dərslik, s.199

ingilislərin təzyiqi altında Azərbaycan Cümhuriyyətinin xarici siyasətinin türk oriyentasiyasının Qərblə əvəz edilməsinə səbəb olması demək idi. Bu mənada Azərbaycan tarixşünaslığında böyük dünya siyasəti baxımından şərti olaraq aşağıdakı üç dövrə bölünməsi məqbul hesab edilməlidir: Türkiyə oriyentasiyası dövrü (may-oktyabr 1918), Qərb oriyentasiyası dövrü (noyabr 1918-ci il-yanvar 1920-ci il), geniş və hərtərəfli dünya əməkdaşlığına daxil olmaq uğrunda mübarizə dövrü (yanvar-aprel 1920).[1] Sonuncu dövr bilavasitə sovet işğalı təhlükəsi ilə bağlı idi.

Lakin 1919-cu ildə artıq Osmanlı dövlətinin süquta doğru getdiyi və həmin ilin may ayından Mustafa Kamal paşanın rəhbərliyi altında İstiqlal mübarizəsi başladıqdan sonra türklər bölgədə Qərb dövlətlərinin işğalçı planlarına qarşı müqavimət göstərmək üçün sovet Rusiyası ilə əlaqə yaratmağa can atırdılar. Sovet Rusiyası ilə əlaqələrin qurulması üçün bu zaman Türkiyədə iki qrup formalaşmışdı. Bu qruplardan biri Ənvər paşanın başçılığı altında Osmanlı dövlətinin çoxu ingilislər tərəfindən həbs edilmiş dövlət və hərbi-siyasi xadimlərinin daxil olduğu qrup idi (bəzi məlumatlara görə qrup İttihad və Tərəqqi partiyasının üzvlərinin 1918-ci ildə Osmanlı dövlətinin parçalanmasına qarşı mübarizə aparmaq üçün yaratdığı Karakol Cəmiyyətinin və ya elə ingilislərin nəzarəti altında idi, çünki qrupu həbsdən təxminən eyni zamanda qaçan xadimlər təşkil etmişdilər).[2]

Digər bir qrupa isə Mustafa Kamal və Kazım Qarabəkir paşaların başçılığı altında Türkiyənin İstiqlal mübarizəsinə başlamış şəxslər daxil idi. Qərb dövlətlərinin bu zaman Rusiyaya qarşı münasibəti də məhz Mustafa Kamal paşanın başçılıq etdiyi qüvvələrlə əməkdaşlıq etməyə ruslarda maraq oyatmışdı. Bolşevikliyin Türkiyə üçün yaradacağı təhlükə üzündən sovet Rusiyası ilə birbaşa rəsmi deyil, Kazım

---

[1] Yenə orada, s.197.

[2] Erdem U. Dr. Fuat Sabit Bey'in Bolşeviklerle İlişki Kurmak İçin Görevlendirilmesi ve Kafkasya Raporu // Yeni Türkiye Dergisi. Sayı 73. Temmuz-Aralık 2015. Kafkaslar Özel Sayısı-III. s. 230, 233.

Qarabəkir paşanın vasitəsi ilə qeyri-rəsmi əlaqələrin yaradılması qərarlaşdırılmışdı. Bundan sonra Kazım Qarabəkir paşa Doktor Fuat Sabit bəyi və Doktor Ömər Lütfi bəyi Bakıya göndərmiş, ruslarla əlaqə yaratmaq üçün göndərilən Fuat Sabit bəy Bakıdan Moskvaya getmişdi. 1919-cu il sentyabrın 2-də Ərzuruma qayıdan Ömər Lütfi bəy Kazım Qarabəkir paşaya Azərbaycandakı vəziyyət barədə məlumat verərək bildirmişdi: "Qafqaza hələlik bolşevik hərbi qüvvələri girməmişdir, lakin burada gizli bolşevik cərəyanları və təşkilatı vardır. Bakıdakı Azərbaycan Müsavat hökuməti ingilislərin əlindədir. Bizə qarşı laqeyddirlər. Bizim məhv olduğumuzu düşünürlər və maddi yardım etmək istəmirlər. Bolşevikliyin yaxın zamanlarda məhv olacağı qənaətindədirlər. Gürcü menşevik hökuməti də ingilislərin əlindədir. Bakıda və Tiflisdə böyük ingilis qüvvələri yoxdur. İngilislərin bütün Qafqazı azad edəcəyi barədə şayiələr də var".[1]

Bu baxımdan Kazım Qarabəkir paşa ilə Doktor Fuat Sabit bəyin də yazışmalarından Azərbaycan Cümhuriyyəti hökumətinin türklərdən çox, bölgəni öz təsiri altına almış ingilislərin yardımına bel bağladığı aydın olur. Bu yazışmalarda paşa ingilislərin Paris sülh konfransında Cənubi Qafqaz Konfederasiyası qurulmasına çalışdığını, Azərbaycan Hökumətinin də buna tərəftar olub, türklərə yardım etmək fikrində olmadığından şikayətlənir. Hətta yazışmalarda azərbaycanlıların ingilislərin köməyi ilə türk ordusundakı zabitlərə çoxlu miqdarda pul verərək türk ordusunda fərariliyə səbəb olduqları bildirilir. Yazışmalarda qeyd edilir ki, bu dövrdə Azərbaycan ordusu 15-20 min nəfərlik qüvvədən ibarətdir və türk böyük və kiçik zabit heyətləri nizama salınmayınca, hərbi qabiliyyəti zəif olur. Cənubi Qafqazdakı, ələlxüsus Azərbaycandakı siyasi səhnəni dərindən təhlil edən Doktor Fuat Sabit bəy Müsavat hökumətinin şüarının nəzəri baxımdan türkçülük olduğunu qeyd edir, lakin real idarəçilik və siyasətdə "dar bir Azərbaycançılıqdan irəlini görmək istəmədi"yini bildirir. Digər müxalif qüvvələrin (Əhrar partiyası, İttihad partiyası, menşeviklər və bolşeviklərin)

---

[1] Kârabekir K. İstiklâl Harbimiz, s.80, 183

isə Azərbaycanda sosial bazasının o qədər güclü olmadığı qənaətinə gələn Fuat Sabit bəy bölgədə Türkiyə ilə ittifaqa girməyə meyl edən və bunun üçün Azərbaycan hökumətinin siyasətinə təsir göstərə bilən qüvvənin olmadığını dolayısı ilə qeyd edir.[1] Ümumiyyətlə, Kazım Qarabəkir paşa ilə yazışmalarından Doktor Fuat Sabit bəyin həm Azərbaycandakı siyasi vəziyyətə yaxından bələd olduğu, İngiltərə və ABŞ-ın Azərbaycanla, o cümlədən Qafqazla bağlı planlarının incəliklərini bildiyi və bütün bu məlumatları detallarına qədər Türkiyəyə çatdırdığı aydın olur.

Buradan belə görünür ki, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Osmanlı dövlətinin düşdüyü ağır vəziyyətdən sonra Türkiyəni xilas etməyə çalışan Mustafa Kamal paşanın başçılıq etdiyi qüvvələrin Qafqazdakı proseslərdə hər hansı bir rol oynayacağına inanmayaraq, bütün ümidlərini ingilislərə, daha sonra isə amerikalılara bağlamışdı və tezliklə məhz onların vasitəsi ilə Azərbaycanın istiqlalının tanınacağına və bolşevizmə son qoyulacağına inanırmış. Azərbaycan hökumətinin bu inamına həmin dövrdə İngiltərə və Fransanın Osmanlı dövlətinə qarşı, daha sonra isə Mustafa Kamal paşanın başçılığı ilə yaradılan milli hökumətə qarşı yunan ordusunu və yunanların Türkiyə ərazilərini işğal etməsi planlarını dəstəkləməsi də təsirsiz ötüşməmişdi. Şübhəsiz ki, Azərbaycan Cümhuriyyətinin məhz bu mövqeyi Türkiyənin Cənubi Qafqazda Azərbaycanla bağlı yürütdüyü siyasətin formalaşmasına təsirsiz ötüşməmiş, xüsusən Naxçıvanla bağlı məsələlərdə Türkiyənin daha çox öz mənafeyindən çıxış edərək siyasət yürütməsinə səbəb olmuşdur. Bu siyasətə təsir edən digər mühüm amil isə, fikrimizcə, sovet Rusiyasının məhz Mustafa Kamal paşanın başçılıq etdiyi qüvvələri, yəni Türkiyə Böyük Millət Məclisi Hökumətini Türkiyənin legitim hakimiyyəti kimi tanıması olmuşdur.

Naxçıvanı tərk etmə ərəfəsində ingilislərin təzyiqi ilə bölgədəki Osmanlı hərbi rəhbərliyinin ermənilərə münasibətində bir yumşalma

---

[1] Erdem U. Dr. Fuat Sabit Bey'in Bolşeviklerle İlişki Kurmak İçin Görevlendirilmesi ve Kafkasya Raporu, s. 233-237; Kârabekir K. İstiklâl Harbimiz, s.542-546

müşahidə olunurdu. Təbrizə gedərkən yolüstü İrəvanda olmuş Qafqazdakı Osmanlı ordularının komandanı Xəlil bəy işğalçı daşnak rejimini Naxçıvana, Zəngəzura və başqa Azərbaycan ərazilərinə olan iddialarından əl çəkməyə çağırmış, Osmanlı ordusunun Qəmərlidəki ərzaq ambarından ermənilərə 12 min pud buğda buraxılmasına icazə vermişdi.[1] 1918-ci ilin noyabrında isə 9-cu Diviziya komandanı Rüşdü bəy yerli hökumətə ermənilərin Naxçıvana və ətraf ərazilərə qayıtması və müsəlman əhalinin onlarla xoş davranması barədə teleqram göndərmişdi. Osmanlı ordusunun Naxçıvanı tərk etməsindən məmnun olan ermənilər Naxçıvana öz torpaqları kimi baxmağa başlamışdılar. Hətta daşnak hökumətinin daxili işlər naziri Njde 27 noyabr 1918-ci ildə Q.Ter-Arutyunyans adlı bir poruçiki Naxçıvana qəza komissarı təyin etmişdi.[2]

9-cu Ordunun tərxis olunma əmri isə 1918-ci il oktyabrın 29-da Osmanlı dövlətinin Hərbi naziri Əhməd İzzət paşa tərəfindən verilmiş, noyabrın 3-də isə əmr Yaqub Şövqi paşaya çatmışdı. Əmrdə "İran və Qafqazda Brest-Litovsk müqaviləsində nəzərdə tutulanlardan başqa işğal olunan digər ərazilərin 24 oktyabr 1918-ci il tarixindən etibarən altı həftə ərzində boşaldılmış olmasının məcburi olduğu, buna görə də boşaltma məsələlərinin və ərzağın geriyə göndərilməsinin tezləşdirilməsi" istənilirdi. Türk ordusunun buraxılması qərara alındığı vaxt Qafqaz cəbhəsində türk birlikləri iki ayrı istiqamət üzrə təşkil edilmişdi. Bunlardan biri Qafqaz İslam Ordusu, digəri isə IX Ordu idi. General-mayor Nuru paşanın komandanlığındakı Qafqaz İslam Ordusunun tərkibinə 5-ci Qafqaz diviziyası və 15-ci Qafqaz diviziyası olmaqla iki hərbi birlik daxil idi. Bundan başqa azərbaycanlılardan təşkil olunmuş iki diviziya (1-ci və 2-ci Azərbaycan diviziyaları) 1-ci Azərbaycan Korpusu da bu orduya daxil idi. Yeri gəlmişkən, ingilislərin bölgədə ermənipərəst fəaliyyətlərini təsdiqləyən belə bir fakt da diqqətəlayiq-

---

[1] Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər), s. 88
[2] NMRDA, f. 314, siy. 5, iş 11

dir ki, Tiflisdəki ingilis ordusunun qərargahının Yaqub Şövqi paşanın 9-cu Ordunu həqiqətən tərxis edib-etmədiyini yoxlamaq üçün göndərdiyi heyətə ingilis hərbiçiləri ilə yanaşı, 8 erməni zabiti və 20 erməni məmuru da daxil edilmişdi.[1]

Lakin Osmanlı hərbi rəhbərliyi bölgəni rəsmi olaraq tərk etmək məcburiyyətində qalsa da, erməni işğalı təhlükəsinə qarşı mühüm tədbirlər görmüşdü. Mudros müqaviləsi imzalananda Osmanlı orduları içərisində ən güclü birlik qərargahı Qarsda yerləşən, Qafqaz hərəkatına görə ayrı-ayrı hissələri Azərbaycan, Dağıstan və şimal-qərbi İran ərazisinə göndərilmiş 9-cu Ordu idi. Bu zaman bölgədə yerli hökumətlərin təşkili işi həyata keçirilmiş, 1918-ci il oktyabrın 29-da Axıska hökuməti (*hökumətin başçısı Ömər Faiq Nemanzadə seçilmişdi – Red.*), noyabr ayında isə Araz Türk Cümhuriyyəti və Qars İslam Şurası qurulmuşdu. 9-cu Ordu komandanı Yaqub Şövqi paşa isə komandanlıq etdiyi hərbi birləşmənin ləğvindən sonra tərxis olunan əsgərlərdən qalan silahların bir qismini yerli əhaliyə paylamışdı. Sonradan, 1919-cu il yanvarın 17-18-də Qars Milli Şurası Cənub-Qərbi Qafqaz Cümhuriyyətinə çevrildi, onun fəaliyyətinə isə 1919-cu il aprelin 30-da ingilislər son qoydu.[2] Yaqub Şövqi paşa isə ingilislərin ciddi təzyiqləri nəticəsində Osmanlı hökuməti tərəfindən 1919-cu il aprelin 2-də İstanbula sərəncama çağırıldı.[3]

Bu dövrdə Osmanlı dövlətinin Cənubi Qafqazla bağlı siyasətində, hərbi-siyasi planlarında Naxçıvan mühüm yer tuturdu. Türkiyə Naxçıvanda daşnakların hücumuna davam gətirərək diyarın heç vaxt onların tapdağına çevrilməsinə imkan verməyəcək daha güclü və sabit yerli hakimiyyətin yaradılmasına meyil göstərirdi. Türkiyə hərbi rəhbərliyinin fəal dəstəyi ilə Naxçıvanda yaradılan Araz Türk Cümhuriyyəti Eçmiədzin mahalının bir hissəsini, Sərdarabad, Uluxanlı, Qəmər-

---

[1] Ural S. Kafkas Cephesinde Mondros Mütarekesi'nin Tatbikatı, s. 240, 244-245

[2] Bal H. Ermenistan Hükümetinin Güney Kafkasya'daki Türklere Karşı Saldırgan Politikası ve Mezalimi (1918-1920), s. 404-405

[3] Ural S. Kafkas Cephesinde Mondros Mütarekesi'nin Tatbikatı, s. 263.

li, Vedi, Şərur, Naxçıvan, Ordubad, Mehri və Sürməli bölgələrini əhatə edirdi. Türkiyəli tədqiqatçı İ.Atnur öz dövlətinin arxiv məlumatlarına əsaslanaraq, 9-cu Ordu komandanı Yaqub Şövqi paşanın noyabrın 3-də verdiyi əmr əsasında Araz Türk Cümhuriyyətinin 1918-ci il noyabrın 18-də yaradıldığını yazır. Bir sıra türk və azərbaycanlı tədqiqatçılar isə Araz Cümhuriyyətinin noyabrın 3-də qurulduğunu yazırlar. Biz də, əmrin verildiyi gün dərhal hökumətin yaradılmasının mümkün olmadığını düşünərək İ.Atnurun göstərdiyi tarixi daha dəqiq tarix kimi qəbul etməyin düzgün olduğu fikrindəyik. O dövrdə yaşamış və bölgədə gedən hərbi-siyasi proseslərin iştirakçısı və ya şahidi olmuş bir sıra müəlliflər Araz Türk Cümhuriyyətinin yaranması tarixi ilə bağlı ziddiyyətli məlumat versələr də, İ.Atnurun arqumentləri daha inandırıcı səslənir. Bundan başqa, Naxçıvanda yerli hökumətin rəisi olan Əli Şəfiq bəy 1918-ci il noyabrın 13-14-də 9-cu Qafqaz diviziyasından aldığı şifrəli teleqramın üzünü Yaqub Şövqi paşaya göndərərkən teleqrama Naxçıvanda görülən işləri və öz təkliflərini də əlavə etmiş və lazımi göstərişlərin verilməsni xahiş etmişdi. Həm bu dövrdə Əli Şəfiq bəyin Naxçıvanda hələ də yerli hökumət rəisi olaraq qalması, həm də onun Naxçıvan qəzasının idarəetmə təşkilatının yerli əhalidən təşkil olunmalı, işlərin onların vasitəsi ilə həyata keçirilməli olduğu təklifinin verdiyi təkliflər sırasında olması bu tarixədək Araz Türk Cümhuriyyətinin hələ yaradılmadığını sübut edir.

Ərazisi 8696 min $km^2$, əhalisi isə bir milyon nəfərə yaxın olan bu dövlətin paytaxtı Naxçıvan şəhəri idi. Araz Türk Cümhuriyyəti 1919-cu il yanvarın 4-də ilk hökumət bəyannaməsində elan etmişdi ki, Naxçıvan həmişə özünü Azərbaycanın tərkib hissəsi hesab etmişdir və Ermənistanın hərbi təcavüzünə qarşı Azərbaycandan kömək gözləyir. Bu məqsədlə Bakıya göndərilən respublikanın hərbi hissə rəisi Bəhram xan Naxçıvanski Naxçıvanı Cənub-Qərbi Azərbaycan adı ilə

Azərbaycan Cümhuriyyətinə birləşdirmək təklifini irəli sürmüş, maliyyə yardımı, zabitlərin göndərilməsini və s. yardım xahiş etmişdi.[1]

Araz Türk Cümhuriyyəti özünün hakimiyyət strukturlarını təşkil etmişdi. Onun parlamenti bölgədəki müsəlman milli şuralarının üzvlərindən ibarət idi. Lakin yaranmış mürəkkəb ictimai-siyasi və hərbi vəziyyətdə parlament öz fəaliyyətini genişləndirə bilməsə də, Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti ilə müyyən əlaqələr qura bilmiş, Azərbaycan Parlamentinin 1918-ci il dekabrın 7-də baş tutmuş açılış mərasimində Araz Türk Cümhuriyyətinin rəsmi nümayəndəsi Paşa Əliyev iştirak etmişdi.[2] "Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin təsisi haqqında qanun"la Azərbaycan Parlamentinə Naxçıvan, Şərur və Ordubadın hər birindən bir nəfər olmaqla üç nəfər üzvün seçilməsi nəzərdə tutulmuşdu.[3]

Araz Türk Cümhuriyyətinin hökuməti sədrdən və 6 üzvdən ibarət tərkibdə təşkil edilmişdi. Nazirlər Şurasına Əmir bəy Nərimanbəyov başçılıq edirdi. Hökumətin tərkibinə isə İbrahim bəy Cahangirzadə (Cahangiroğlu) – hərbi nazir; Qənbər Əli (Qənbəralı) bəy Bənəniyarlı – maliyyə naziri; Bağır bəy Rzazadə – mülki ərazi işləri üzrə nazir; Həsən ağa Şəfizadə – xarici işlər naziri; Məhəmməd Bəyzadə – ədliyyə naziri; şeyxülislam Mirzəhüseyn Mirzə Həsənzadə və müfti Xoca Ekid Əfəndi daxil idi. General Əli Əşrəf bəy hökumətə fəxri üzv və aşirət rəisi olaraq daxil edilmişdi. Osmanlı dövlətinin Araz Türk Cümhuriyyəti hökuməti yanındakı daimi hərbi müşaviri Xəlil bəy, Kalbalı xan, Cəfərqulu xan, Abbasqulu xan və başqaları da hökumətin fəaliyyətinə yaxından kömək edirdilər.[4]

---

[1] Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan, s. 300-301; Hacıyev İ. Naxçıvan Muxtar Respublikası Azərbaycanın dövlətçilik tarixində, s.29, 111; Hüseynzadə L. Araz şahiddir ki. Türk ordu generalı Kazım Qarabəkir paşa Naxçıvanda (1918-1920-ci illər). Bakı: Nurlan, 2001, s.46-47; Atnur İ.E. Osmanlı Birliklerinin Aras Vadisi'nden Çekilmesi ve Aras-Türk Hükümetinin Oluşumu (Ekim-Aralık 1918), s. 430-431

[2] Hacıyev A. Qars və Araz Türk-Respublikalarının tarixindən, s.50; Naxçıvan tarixi. Üç cilddə. II cild., s.241

[3] Naxçıvan Ensiklopediyası. 2 cilddə. Cild 1, s.32

[4] Yenə orada, s.31; Naxçıvan tarixi. Üç cilddə. II cild, s.238

Araz Türk Cümhuriyyəti erməni təcavüzünün genişləndiyi, bunun müqabilində Osmanlı ordu hissələrinin Naxçıvandan çıxarıldığı bir vaxtda təsis olunub fəaliyyət göstərdiyindən onun hökumətinin qarşısında duran başlıca vəzifə bölgənin təhlükəsizliyini və ərazi bütövlüyünü qorumaqdan ibarət idi. Təsadüfi deyildi ki, hökumət ilk iclarlarından birində ordu hissələrinin təşkili, məcburi səfərbərlik, 20-35 yaşlı kişilərin hərbi xidmətə cəlb olunması, hərbiçilərin qida ehtiyatının təmin edilməsi və bu kimi məsələlərin həlli ilə bağlı mühüm qərarlar qəbul etmişdi.[1]

Araz Türk Cümhuriyyətinin hərbi naziri İ.Cahangiroğlunun ciddi səyləri ilə silahlı qüvvələr təşkil olundu. Bu hərbi hissələr könüllü xalq dəstələri olub 20 tabordan ibarət idi. Onlardan 4-ü Naxçıvanda, 3-ü Şərur-Dərələyəzdə, digərləri isə Vedibasar, Qəmərli və Zəngibasar ərazilərində yerləşdirilmişdi. Nehrəmdəki tabora Kəblə Muxtar, Cəhri taboruna Kəblə Kərim, Dizə taboruna Qulubəy, Məhəmməd Rza bəy, Şərur hərbi hissəsinə Hüseyn Əliyev, Şərur-Sədərək kəndlərindəki birliklərə Həsən Şahverdioğlu, Yengicə qüvvələrinə Məşədi Ələsgərağa, Kərkər hərbi dəstəsinə Möhsün Camalov, Baş Noraşen-Zeyvə-Düdəngə qüvvələrinə Fətulla Hüseynov və Kərbəlayi Həbib bəy, Ordubad taboruna müəllim İbrahimxəlil Axundov rəhbərlik edirdilər. Tabor başçılarının heç biri peşəkar hərbiçi deyildi. Buna görə də Osmanlı hərbi rəhbərliyi Naxçıvanı tərk edərkən silahları yerli hökumətə verərək, Xəlil bəyin rəhbərliyi ilə 5 zabit və 300 əsgərini burada saxladı. Türk ordusu Azərbaycan torpaqlarının erməni təcavüzündən qorunması uğrunda döyüşlərdə 30 zabitini və 1100 əsgərini qurban vermişdi.

Yaranmış vəziyyətdə İ.Cahangiroğlu Qızılcaq-Gümrü-Qəmərli-Naxçıvan-Uluxanlı-Dəvəli-Sədərək-Yengicə-Şərur-Dərələyəz-Dəhnə-Şahtaxtı arasında davamlı hərəkətdə olub, Araz Türk Cümhuriyyətinin hərbi naziri kimi, hər cür əlverişsiz şərtlərə rəğmən bölgənin müsəlman xalqının ermənilərə qarşı mübarizəsini səfərbər edərək, təşkilat-

---

[1] Naxçıvan tarixi. Üç cilddə. II cild, s. 239

landırır və hətta özü də bilavasitə daşnak ordularına qarşı döyüşlərdə iştirak edirdi. Lakin Qars Milli İslam Şurası hökumətində hərbi nazir olan qardaşı Həsən bəy Cahangiroğlunun və digər hökumət üzvlərinin imzası ilə Qarsa qayıtması və Posof sərhədləri yaxınlığında cəmləşən gürcülərə qarşı hərbi qüvvə göndərməsi istənilən məktub alınca, İ.Cahangiroğlu Qarsa qayıtmağa qərar verdi və bunu Araz Türk Cümhuriyyəti rəhbərlərinə də bildirdi. Beləliklə, Naxçıvandakı təxminən 18 günlük fəaliyyətindən sonra o, Şahtaxtı-Maku-Doğubəyazid-Qarakilsə-Kağızman yolu ilə Qarsa getdi. İ.Cahangiroğlu bölgədəki fəaliyyəti və hadisələrin inkişafı haqqında Yaqub Şövqi paşaya məlumat vermiş, bölgə əhalisinin vəziyyəti və ermənilərin törətdiyi cinayətlər haqqında Avropa ölkələrinə teleqram da vurmuşdu.[1]

Araz Türk Cümhuriyyətinin süqutu tarixi haqqında da o dövrün mənbələrində və tədqiqatçıların əsərlərində ziddiyyətli məlumatlar vardır. Bəzi müəlliflərə görə, bu cümhuriyyət 1919-cu ilin mart və ya aprel aylarında dağılmışdır. İ.Atnur isə bu məhəlli dövlət qurumunun 1918-ci il dekabrın 10-da daşnak polkovniki Doluyxanovun Naxçıvana hücum edərək Uluxanlı, Qəmərli, Dəvəli və Sədərəyi işğal etməsindən, onun ardınca isə Şərur qəzasının Maxta, Dəmirçi və Quşçu kəndlərinin ermənilər tərəfindən tutulmasından sonra, yəni təqribən dekabrın ortalarında dağıldığını yazır.[2]

Bizim həmin dövrün siyasi-hərbi proseslərini və tarixi faktları ətraflı təhlil etdikdən sonra gəldiyimiz qənaət bundan ibarətdir ki, 1918-ci ilin dekabrında Cənub-Qərbi Qafqaz Cümhuriyyətinin tərkibinə daxil olduqdan sonra Araz Türk Cümhuriyyəti hökumətinin fəaliyyəti zəiflədi. Cümhuriyyətin hərbi naziri İ.Cahangiroğlunun öz fəaliyyətini daha çox rəhbəri seçildiyi mərkəzi Qarsda olan Cənub-Qərbi Qafqaz Cümhuriyyəti hökumətinin fəaliyyəti üçün səfərbər etməsi,

---

[1]Esin Derinsu Dayı. Milli Mücadele Döneminde Elviye-i Selase ve Nahçıvan / http://www.atam.gov.tr/dergi/sayi-64-65-66/milli-mucadele-doneminde-elviye-i-selase-ve-nahcivan

[2] Atnur İ.E. Osmanlı Birliklerinin Aras Vadisi'nden Çekilmesi ve Aras-Türk Hükümetinin Oluşumu (Ekim-Aralık 1918), s. 425-434

1918-ci ilin dekabr ayının əvvəllərindən getdikcə artan erməni təcavüzü, eləcə də Naxçıvanda hakimiyyət uğrunda daxili çəkişmələr (həm Naxçıvan xanları, həm də mayor Xəlil bəyin Araz hökuməti ilə münasibətləri arzuolunan səviyyədə deyildi) nəticəsində Araz-türk Cümhuriyyətinin fəaliyyəti əslində elə dekabr ayından iflic vəziyyətinə düşdü. 1919-cu ilin yanvarından ingilislərin bölgədəki antitürk hərbi-siyasi fəaliyyəti Araz Türk Cümhuriyyətinin fəaliyyətinin daha da məhdudlaşdırılması ilə nəticələndi. Mənbələrdə Araz Türk Cümhuriyyətinin dəqiq süqutu tarixi ilə bağlı rəqəmə rast gəlmək olmur. Lakin fikrimizcə, 1919-cu ilin yanvar ayında Naxçıvanda keçirilən seçkilər nəticəsində formalaşan Milli Şura hökumətinin yanvarın 17-də fəaliyyətə başlamasını və Araz Türk Cümhuriyyətinin hökumət başçısı Əmir bəyin yeni hökumətə rəhbərlik etməyə başladığını əsas götürərək, həmin tarixi cümhuriyyətin fəaliyyətinin tam dayandırıldığı gün kimi qəbul etmək olar. Seçkilər nəticəsində formalaşan Milli Şuranın sədri Əmir bəy, üzvləri isə Nehrəmdən Kərbəlayi Muxtar Hacı, Cəhridən Məşədi Sadıq və Əbdül Əzim Rüstəmov, Naxçıvandan Hacı Mehdi Bağırov, Axund Əli Həsənzadə, Xəlil ağa Ağalarov, Mirzə Abbas Qədimov və Cəfərqulu xan Naxçıvanski, Əlincəçay nahiyəsindən Məsuməli bəy Bənəniyarlı və Qənbərəli bəy Bənəniyarlı idi.[1] Hər halda, son dərəcə gərgin hərbi-siyasi və beynəlxalq şəraitdə yaradılan Araz-Türk Cümhuriyyəti qısa müddət ərzində mövcud olsa da, Naxçıvanın erməni təcavüzündən müdafiəsində, Azərbaycanın ərazi bütövlüyünün qorunmasında mühüm rol oyanaya bildi və tariximizin şərəfli səhifəsinə çevrildi.

1918-ci il noyabrın 5-də Ənvər paşa və İttihad və Tərəqqi partiyasının məsul katiblərindən olan Doktor Bahaəddin Şakir bəyin imzası ilə göndərilən məktubda verilən tapşırıq (*ittihadçıların Qarsa toplanaraq hökumət qurması tapşırılırdı – Red.*) bilavasitə Yaqub Şövqi paşa tərəfindən təşkil edilən Qars Milli İslam Şurası Qarsı, Ərdahanı, Batumu, Axıskanı, Axalkələkin qərb hissəsini, Üçmüəzzini və cənub-

[1] Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan, s. 347.

qərbini, İrəvanın cənubunu, Naxçıvanı, Kağızman və Oltunu əhatə edirdi.[1] Qars Milli İslam Şurası I Qars konqresinə Batumdan Ordubada qədər olan əsas ərazi vahidlərindən nümayəndələr dəvət etmişdi. Şuranın 1918-ci il noyabrın 7-də göndərdiyi dəvətnamə üzrə dəvət edilən nümayəndələr Ordubad bələdiyə rəisi Rza bəy və Məşədi Abbas Ramazanov, Naxçıvandan Hacı Abdulla Şeyxzadə və Məşədi Abbas Bayramzadə, Şərurdan (Yengicə kəndindən) Əliəsgər ağa Həmzəzadə və Tağı bəy Səfizadə, İqdırdan Rəşid bəy Şəmsəddinov və Şamil bəy Pərnəvüdlü, Qəmərlidən Kərbəlayi Xudayar, Uluxanlıdan Mirzə Cabbar Hacı Məhəmməd oğlu Məhəmmədzadə və Hacı Rəcəb, Çobankərədən Məhəmməd Hacı Cəfərzadə idi.[2] Noyabrın 14-də (bəzi məlumatlara görə 15-də) keçirilən I Qars konqresində Qars Milli Şurasının ilk rəisi Emin ağa Kəpənəkçi, Fəxrəddin bəy Piroğlu isə onun müavini və 8 nəfərdən ibarət tərkibdə yaradılan Müvəqqəti heyətin rəhbəri seçildi.[3] Qeyd edək ki, Araz Türk Cümhuriyyətinin əhatə etdiyi ərazilərdən dəvət edilən nümayəndələr arasında Araz Türk Cümhuriyyətinin hökumətinə daxil olan şəxslərin olmaması da, bu Cümhuriyyətin noyabrın 3-də deyil, məhz 18-də qurulduğu qənaətini möhkəmləndirir. Bundan başqa, I Qars konqresində Qars Milli İslam Şurasının dəvətnamə göndərdiyi ərazilərdə, o cümlədən, Naxçıvan da daxil olmaqla, Batumdan Ordubada qədərki ərazilərdə Qars Milli İslam Şurasının şöbələrinin açılması haqqında qərarın qəbul olunması da Araz Türk Cümhuriyyətinin I Qars konqresindən sonra yaradıldığı fikrini təsdiqləyir. Çünki Araz Türk Cümhuriyyəti konqresədək yaradılsaydı, həmin qərarın Naxçıvan və ətraf ərazilərə də şamil olunmasına ehtiyac qalmazdı.

Noyabrın 30-da keçirilməsi nəzərdə tutulan II Qars Konqresinə də Batumdan Ordubada qədər olan bütün türk bölgələrindən nümayən-

---

[1] Gökdemir A.E. Cenûbî-Qarbi Kafkas Hükûmeti. Atatürk Araştırma Merkezi, Ankara: 1998, s.1.
[2] Esin Derinsu Dayı. Milli Mücadele Döneminde Elviye-i Selase ve Nahçıvan.
[3] Demirci H. Cenûb-i Garbî Kafkas Hükümeti // Yeni Türkiye Dergisi. Sayı 73. Temmuz-Aralık 2015. Kafkaslar Özel Sayısı-III. s. 389

dələr dəvət edilmişdi.[1] Həmin tarixdə Qarsda toplanan kongresdə Ordubad, Naxçıvan, Qəmərli, Sürməli, Sərdarabad, Şərqi Şuragəl, Axalkələk, Axıska, Qars və Batumdan 60 nümayəndə (üç gün sürən konqresin sonunda nümayəndələrin sayı 70-ə çatmışdı) iştirak edirdi.[2] Üç gün sürən konqresdə Qars şəhəri mərkəz olmaqla, Qars Milli İslam Şurası Hökuməti qurulmuş, həmin dövrdə Şuragəl qəza rəisi (kaymakan) və Fəxri alay komandanı olan İbrahim (Aydın) bəy Cahangiroğlu (Cahangiroğlu İttihad və Tərəqqi Cəmiyyətinin Qarsdakı liderlərindən idi) hökumətin sədri, Emin Ağa Kəpənəkçi isə onun müavini seçilmişdi. Konqresdə Axıska Müvəqqəti Hökuməti, Araz Türk Cümhuriyyəti və Batum Milli Şurası da Qars mərkəz olmaqla Milli İslam Şurasında birləşmişdilər. Beləliklə, Batumdan Ordubada qədər və Ağrı dağından Azquradək olan bölgənin və onun xalqının birliyi təmin edilmiş olurdu. Qəbul edilən qərarlara əsasən İslam Şurası hökumətinin Osmanlı dövlətinə tabe olması və türk bayrağından istifadə etməsi, bölgədən çıxarılan türk ordusunun yerində 8000 nəfərlik bir hərbi qüvvənin təşkil olunması, "Müvəqqəti heyət"in "Mərkəzi təmsilçilər heyəti" adlandırılması və üzvlərinin sayının 8-dən 12-yə artırılması nəzərdə tutulurdu.[3] Bundan başqa, məhkəmə və siyasi idarəçiliklə bağlı işlərin Osmanlı dövlətinin qanunları əsasında həyata keçirilməsi, geri çəkilən türk ordusundan qalan silah və cəbbəxananın xalqa

---

[1] Arslanoğlu C.E. Kars Millî İslam Şûrası (5.11.1918-17.1.1919) ve Cenub-i Garbi Kafkas Hükümeti Muvakkata-i Milliyesi (18 Ocak-13 Nisan 1919). Belgeler, fotoğraflar. Azerbaycan Kültür Derneği Yayını, Ankara: 1986, s.143; Kırzıoğlu F. Milli Mücadelede Kars. I. Kitap-Belgeler. Kars'ı Tanıtma Derneği Yayınları. İstanbul: 1960, s.8

[2] Çaylak A., Çiçek A.C. Anadolu'da "Demokratik" Cumhuriyet Fikrinin Oluşumu: Cenub-i Garbi Kafkas Cumhuriyeti // Yeni Türkiye Dergisi. Sayı 73. Temmuz-Aralık 2015. Kafkaslar Özel Sayısı-III. s. 378; Demirci H. Cenûb-i Garbî Kafkas Hükümeti, s. 389

[3] Avrasya Stratejik Araşdırmalar Merkezi, Ermeni Araşdırmaları Enstitüsü Yayınları. Ankara: 2003, s. 105-124

123. Çaylak A., Çiçek A.C. Anadolu'da "Demokratik" Cumhuriyet Fikrinin Oluşumu: Cenub-i Garbi Kafkas Cumhuriyeti, s. 378; Esin Derinsu Dayı. Milli Mücadele Döneminde Elviye-i Selase ve Nahçıvan / http://www.atam.gov.tr/dergi/sayi-64-65-66/milli-mucadele-doneminde-elviye-i-selase-ve-nahcivan

paylanması, Oltu, Ərdahan, Kağızman və Naxçıvanda 5 nəfərlik üzvlərdən ibarət Milli Şuraların yaradılması qərara alınmışdı.[1]

Bəzi mənbələrdə adları qeyd edilən yerli dövlət qurumlarının Qars Milli İslam Şurasında birləşməsi onların vahid hökumət (dövlət) şəklində birləşməsi kimi xarakterizə edilir. Lakin, bizim fikrimizcə, Ənvər paşanın verdiyi əmrdə qurulması planlaşdırılan hökumətin "Qars Şuralar Hökuməti"[2] adlandırılması və konqresdə iştirak edən hökumətlərin fəaliyyətinə dair faktlar həmin hökumətlərin Qars İslam Milli Şurasında ittifaq şəklində birləşdiyini sübut edir. Bu, heç şübhəsiz ki, Osmanlı ordularının bölgədən çıxmaq məcburiyyətində qaldığı bir vaxtda bu ərazilərin müdafiəsi üçün təşkil edilmiş həmin yerli hökumətlərin erməni-gürcü və ingilis işğalına qarşı daha mütəşəkkil və effektiv şəkildə müdafiə olunmasının təşkili ilə bağlı idi. İ.Cahangiroğlunun Qars İslam Şurası hökumətinin başçısı olduğu halda, Araz Türk Cümhuriyyətində hərbi nazir vəzifəsi daşıması da onun peşəkar hərbçi kimi Araz Cümhuriyyətinin hərbi müdafiə işinin təşkilinə kömək etməsi ilə bağlı olub, tərəfimizdən deyilən fikri də təsdiqləyir. Bundan başqa, Kağızman sancağının rəisi Asəf Tələt bəyin "hökumət içində hökumət istəmədiyindən" II Qars konqresinə ilk başqa nümayəndə göndərmək niyyətində olmaması[3] da Qarsda qurulan hökumətin əslində federativ əsaslarla təşkil olunduğunu sübut edir.

1919-cu il yanvarın 17-18-də 131 nümayəndənin iştirakı ilə keçirilən III Qars konqresində Qars Milli İslam Şurası Hökuməti Cənub-Qərbi Qafqaz Cümhuriyyəti (*mənbələrdə Cənub-Qərbi Qafqaz Hökuməti – Red.*) adlandırıldı. Yeni hökumətin də sədri İ.Cahangiroğlu, onun parlamentinin sədri isə doktor Əsəd bəy Çıldırlı oldu. Hökumətin tərkibinə kağızmanlı Əli Rza bəy Ataman (daxili işlər naziri), irəvanlı Abbas Əli bəy Hakim Ağabababəyoğlu (ədliyyə naziri), div-

---

[1] Demirci H. Cenûb-i Garbî Kafkas Hükümeti, s. 389

[2] Akbulut D.A. Albayrak Olayı. Osmanlıca Belgeler. Özel Baskı. Erzurum: 1991, s. 2; İki Devrin Perde Arkası. Teşkilat-ı Mahsusa Başkanı Hüsamettin Ertürk, (Hazırlayan Samih Nafiz Tansu), Sebil Yayınları, 2011, s.197

[3] Demirci H. Cenûb-i Garbî Kafkas Hükümeti, s. 389

rikli Fəxrəddin bəy Piroğlu (xarici işlər naziri), Həsənxan bəy Cahangiroğlu (hərbi nazir), gümrülü Məhəmməd bəy Xudatbəyoğlu (maliyyə naziri), əvvəlcə Mixail Andriyanov, sonra isə Mehmet bəy Kocaoğlu (maarif naziri), Mehmet bəy Həsənbəyoğlu (iaşə naziri), irəvanlı mühəndis Mahmud bəy (tərəqqi naziri), naxçıvanlı Əliəkbər Kazım bəy (kənd təsərrüfatı, meşə və ticarət naziri) daxil idi. Hökumətdə ümumi poçt və teleqraf müdirliyini əvvəlcə rum Arlof, sonra qarslı Mühlis bəy Mehmet bəy oğlu (Ataman), ümumi dəmir yolları müdirliyini qaraçantalı Əhməd bəy Hacıoğlu, ümumi polis müdirliyini Tevhüdiddin bəy Tamiloğlu, daxili qoşunların komandanlığını qarıqamışlı Mehmet (Sunqur) bəy Şərifoğlu həyata keçirirdi. Cümhuriyyətin ərazisi Batumdan Ordubada qədər təxminən 40 min $km^2$-lik coğrafi ərazini əhatə edirdi. Hökumətin rəsmi mətbu orqanı Batumda işıq üzü görən "Səday-i Millət" ("Millətin səsi") qəzeti idi.[1]

Cənub-Qərbi Qafqaz Hökumətinin 1 fevral 1919-cu il tarixli "Hüdudnaməsi"nə görə Cümhuriyyətin ərazisi aşağıdakı kimi idi: Qars, Ərdahan, Batum, Kağızman; Oltu (Şənqaya rayonu ilə birlikdə), Naxçıvan; Artvin, Borçka, Murqul, Çürüksu, Yuxarı Acarıstan, Aşağı Acarıstan, Ardanuç, Şavşat, Posof, Axıska (Azqur, Kobliyan və Hırtışla birlikdə), Axalkələk, Çıldır, Akbaba, Şuragəl, Zarşad, Pənək, Sarıqamış, Xorasan, Diqor, Sürməli, İqdır, Şərur, Şahtaxtı, Yengicə, Culfa, Ordubad vilayət, sancaq və qəzaları.[2]

III Qars konqresində Cənub-Qərbi Qafqaz Cümhuriyyətinin 18 maddədən ibarət konstitusiyası da qəbul edildi. Konstitusiyanın 2-ci maddəsinə görə Cümhuriyyət hökuməti Batumdan Naxçıvanadək olan ərazini əhatə etməklə, bu ərazinin sərhədləri daxilində sülhün

---

[1] Çaylak A., Çiçek A.C. Anadolu'da "Demokratik" Cumhuriyet Fikrinin Oluşumu: Cenub-i Garbi Kafkas Cumhuriyeti, s. 379; Demirci H. Cenûb-i Garbî Kafkas Hükümeti, s. 392-395.

[2] Erdoğan F. Türk Ellerinde Hatıralarım. Mevsimsiz Yayınları, Ankara: 2007, s.201-203; Kâzım Kârabekir'in Kaleminden Doğunun Kurtuluşu. Erzincan ve Erzurum'un Kurtuluşu – Sarıkamış, Kars ve Ötesi. Erzurum Ticaret ve Sanayi Odası, Erzurum: 1990, IX+ s.55-56; Esin Derinsu Dayı. Milli Mücadele Döneminde Elviye-i Selase ve Nahçıvan.

sonadək qorunmasında cavabdeh idi. Cümhuriyyətin dövlət bayrağı ay-ulduzlu türk bayrağı, rəsmi dili türkcə idi. Türk millətini və hökumətini narazı salacaq hər hansı bir hərəkətə qəti yol verilməyəcəkdi. Konstitusiya 18 yaşından yuxarı bütün qadınlara və kişilərə seçki hüququnu tanıyır, millət vəkili seçilmək üçün (passiv seçki hüququ) yaş həddini 25 yaş müəyyən edirdi. Əhalinin hər on min nəfəri parlamentə bir deputat seçirdi. Qonşu hökumətlərlə dostluq münasibətlərində olmağı qərara alan Cümhuriyyət hökuməti parlament formalaşdıqdan (millət vəkilləri seçildikdən) sonra bu barədə ayrıca bir qanun qəbul edilməsini planlaşdırırdı. Mülki və hərbi məsələlərdə Cümhuriyyət tərəfindən müəyyən edilən şəkildə Osmanlı dövləti ilə əlaqələri təmin etmək üçün iki (hərbi və mülki) ayrı daimi heyətin Türkiyədə olması təsbit edilirdi. Antanta ölkələrinin Türkiyənin şərq vilayətlərini başqa bir millətə vermək istəyəcəyi halda Cümhuriyyət Türkiyədən ayrılmayacağını qəti şəkildə bəyan edirdi. Azlıqların azadlıqlarının və hüquqlarının qorunacağına təminat verilirdi. Müsəlmanlar arasındakı məzhəb ayrılıqlarına hörmətlə yanaşılmasının, dini ayinlərin birlikdə həyata keçirilməsinin təmin edilməsi qərarlaşdırılırdı. Demokratiyanın əsaslarına riayət edilməsi, seçkilərin tərəfsiz və təsirsiz olması, türk şan və şərəfinə yaraşacaq şəkildə keçirilməsi qəti surətdə diqqətdə saxlanacaqdı. Valilərin və hərbi komandanların təyinatı və vəzifədən azad edilməsi parlamentin (*konstitusiyanın mətnində "Kamutay" – Red.*) qərarı ilə olacaqdı. Hökumət parlamentin seçilməsindən sonra qanunun bəzi maddələrinin dəyişdirilməsini təklif etmək səlahiyyətində idi. Qanunun icrasına nəzarət Nazirlər Kabinetinə və hökumətin başçısına (*mətndə "Cümhurrəisi" – Red.*) həvalə edilirdi.[1] Bu sənəd tam etibarilə bir klassik konstitusiya şəklində olmasa da, burada bir sıra məsələlərin qoyuluşu (ərazi, bayraq, dil, seçkilər, azlıqların hüquqlarının qorunması, parlament idarəçiliyinin təsbiti və s.) konstitusion prinsiplər şəklində lakonik və qəti surətdə əks olunmuşdu.

---

[1] Çaylak A., Çiçek A.C. Anadolu'da "Demokratik" Cumhuriyet Fikrinin Oluşumu: Cenub-i Garbi Kafkas Cumhuriyeti, s.379-380.

Cənub-Qərbi Qafqaz Cümhuriyyətinin xarici işlər naziri Fəxrəddin Ərdoğan (Piroğlu) özünün hazırladığı və xatirələrində verdiyi məlumata görə,[1] Cümhuriyyətin əhalisinin ümumi sayı 805224 nəfər idi. Bundan 577150-sini müsəlmanlar, 149233-ünü ermənilər, 36172-sini rumlar (*Anadolunun pravoslavlığa sitayiş edən aborigen əhalisi – Red.*), 27706-sını ruslar (və malakanlar – Red.), 14963-ünü isə gürcülər təşkil edirdi. Başqa bir mənbəyə[2] görə, bölgənin ümumi sayı 985000 min olan əhalisinin 700000-i (72 faizi) müsəlmanlar, 200000-i (20 faizi) ermənilər, 40000-i (4 faizi) rumlar, 30000-i (3 faizi) ruslar və 15000-i (1,5 faizi) gürcülər idi. Lakin Osmanlı dövlətinin Əhali sayının Ümumi Cədvəlinə (Nüfusi Umumiye Cetveli) görə, Cənub-Qərbi-Qafqaz Cümhuriyyətinin sərhədləri daxilində olan əhalinin ümumi sayı 1738478 nəfər idi ki, bunun da 1511154 (İrəvan və Pəmbəkdən olan 23670 nəfər qaçqın da nəzərə alındıqda 1534824) nəfərini müsəlmanlar, 227324 nəfərini isə ruslar, rumlar, malakanlar və ermənilər təşkil edirdi.[3] Bizim fikrimizcə də, sonuncu məlumat həqiqəti daha çox əks etdirir.

Cənub-Qərbi-Qafqaz Cümhuriyyətinin hökuməti tərəfindən təşkil edilən Məclisi (parlamenti) 1919-cu il martın 1-dən öz fəaliyyətinə başlamış, elə həmin gün Psris sülh konfransına Cümhuriyyətin müstəqilliyinin tanınması üçün müraciət etmişdi. Lakin Cümhuriyyətin Paris sülh konfransına göndərmək üçün müəyyənləşdirdiyi nümayəndələr vəkil Əli bəy Xəlilbəyoğlu və Asəf bəy Abbasoğlu ABŞ, İtaliya və İngiltərə nümayəndələri ilə görüşlərdə sülh konfransına qatılmaq üçün lazımi dəstəyi ala bilmədilər. Martın 25-də parlament cümhuriyyətin adının Cənub-Qərbi Qafqaz Hökuməti Cümhuriyyəti şəklində işlədilməsini qərara aldı.[4] Qeyd edək ki, hələ cümhuriyyətin qurul-

---

[1] Erdoğan F. Türk Ellerinde Hatıralarım, s.234-235.
[2] Dayı S. Esin. Evliye-i Selâse'de (Kars, Ardahan ve Batum) Milli Teşkilatlanma, s.112.
[3] Demirci H. Cenûb-i Garbî Kafkas Hükümeti, s.394
[4] Çaylak A., Çiçek A.C. Anadolu'da "Demokratik" Cumhuriyet Fikrinin Oluşumu: Cenub-i Garbi Kafkas Cumhuriyeti, s.381; Demirci H. Cenûb-i Garbî Kafkas Hükümeti, s.396

duğu 1919-cu ilin yanvar ayında Batumdakı ingilis generalı Forestyer-Uolker və ingilis hərbi valisi Temperley də Cənub-Qərbi-Qafqaz Cümhuriyyətini tanıdıqlarını bildirmişdilər.[1] Ermənilərlə gürcülər ərazi iddialarında olduqları torpaqlarda belə bir dövlətin yaradılmasını etirazla qarşılayaraq bundan Avropa dövlətlərinə şikayət etsələr də, Azərbaycan Xalq Cümhuriyyəti Cənub-Qərbi Qafqaz Cümhuriyyətinin yaranmasını alqışlamışdı. Hətta Nazirlər Şurasının sədri F.Xoyski Cənub-Qərbi Qafqaz Cümhuriyyətinə qarşı ediləcək düşmənçiliyin Azərbaycan Cümhuriyyətinə qarşı edilmiş düşmənçilik kimi qəbul ediləcəyini bildirmişdi. Bununla birlikdə, Azərbaycan hökuməti bu cümhuriyyətin mövcudluğunu qorumaq üçün ən düzgün addımın Batumdan Qarsa, Axıskadan Ordubadadək olan ərazilərin Azərbaycanın tərkibində olması olduğunu irəli sürərək, Paris sülh konfransında Qars, Ərdahan və Batum vilayətlərinin özünün tabeliyində olmasını istəmişdi.[2] Lakin bu tələb nə sülh konfransında, nə də Cənub-Qərbi Qafqaz Cümhuriyyətinin hökumətində dəstək qazanmadı.

Cənub-Qərbi Qafqaz Cümhuriyyəti hökumətinin fəaliyyəti ingilislər tərəfindən ilk günlərdə tanınsa da, ermənilərin cümhuriyyətin əleyhinə apardıqları mübarizə ingilislər tərəfində müdafiə edildi. 1919-cu il fevralın sonlarında ingilis hərbi valisi Temperleyin yerinə təyin edilən general V.Asser İ.Cahangiroğlunun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə cümhuriyyətin Qars ərazisindən kənara çıxmamasını, Qarsdan qaçan ermənilərin geriyə qayıtmasına imkan yaradılmasını və bu mümkün olmadıqda, Qars yaxınlığında ermənilərə məskunlaşmaq üçün ərazi ayrılmasını tələb etdi. Cümhuriyyətin nümayəndə heyəti isə dövlətin adının xalq tərəfindən qoyulduğunu, Naxçıvanla Batumun könüllü olaraq bu hökumətin tərkibinə daxil olduğunu qeyd edərək, ermənilərlə bağlı hər iki tələbi qətiyyətlə rədd etdi. Əsas kimi isə ermənilərin boşaltdıqları kəndlərə İrəvan quberniyasının

---

[1] Dayı S. Esin. Evliye-i Selâse'de (Kars, Ardahan ve Batum) Milli Teşkilatlanma, s.112; Gökdemir A.E. Cenûbî-Qarbi Kafkas Hükûmeti, s.93

[2] Dayı S. Esin. Evliye-i Selâse'de (Kars, Ardahan ve Batum) Milli Teşkilatlanma, s.114

444 kəndindən qovulan türklərin yerləşdirildiyi irəli sürüldü və ermənilərin həmin kəndlərdə yaşaya biləcəkləri bildirildi. V.Asserin ardınca Bakıdakı ingilis generalı Tomson da ermənilərə ərazi verilməsini Qars hökumətindən tələb etmişdi. Rədd cavabı aldıqdan və cümhuriyyətin Türkiyə hökuməti ilə sıx əlaqədə olduğunu bildikdən sonra Tomson 1919-cu il aprelin 4-də general Devini İrəvana göndərmiş və İrəvan, Qars, Naxçıvan bölgələri üzərində nəzarəti ona həvalə etmişdi. Deviyə verilən təlimatlarda Qars və Naxçıvanın Paris sülh konfransınadək erməni hökumətinin nəzarətinə verilməsi, Borçalının gürcülərlə ermənilər arasında bölüşdürülməsi, Cənub-Qərbi-Qafqaz Cümhuriyyətinin dağıdılaraq, onun siyasi liderlərinin bölgədən qovulması, kiçicik şübhə belə yaratdığı halda türklərin həbs olunaraq Tiflisə göndərilməsi kimi məsələlər vardı. Bu məsələlər 1919-cu il iyunun 30-dək başa çatdırılmalı və bundan sonra ingilis əsgərləri geri çəkilərək bölgə tam erməni hökumətinin səlahiyyətinə verilməli idi. Nəticədə aprelin əvvəllərində böyük bir hərbi kontingentlə Qarsa daxil olan podpolkovnik Prestonun başçılığı ilə ingilislər aprelin 12-də Qarsda cümhuriyyətin məclis və hökumət üzvlərini hiylə ilə bir binaya toplayaraq onların fəaliyyətinə son verdi, İ.Cahangiroğlu başda olmaqla Cənub-Qərbi-Qafqaz Cümhuriyyətinin bir sıra liderləri həbs olunaraq Tiflisə, oradan İstanbula göndərildi və oradan da Malta adasına sürgün edildi. Ermənilər sürətlə kütləvi şəkildə Qarsa köçürüldü və aprelin 30-da bölgənin idarəçiliyi erməni generalları Hovsepyans və Korqanovun başçılığı ilə daşnakların nəzarətinə verildi.[1]

Türk əsgərlərinin bölgəni tərk etməsindən sonra, 1919-cu ilin yanvarında Naxçıvan ingilislərin nəzarəti altına keçdi. Yanvarın 14-də Zəngəzur ermənilərinə maddi yardım edən Böyük Britaniya ordusunun mayoru V.Hibbonun, dörd gün sonra isə kapitan F.Lautonun Naxçıvana gəlişində məqsəd guya həm qaçqınlar məsələsini həll etmək,

---

[1] Çaylak A., Çiçek A.C. Anadolu'da "Demokratik" Cumhuriyet Fikrinin Oluşumu: Cenub-i Garbi Kafkas Cumhuriyeti, s. 382-384

həm də asayişi bərpa etmək idi.[1] Lakin ingilislərin gəlişindən sonra onların əsl məqsədinin bölgənin iqtisadi-siyasi vəziyyəti ilə, Araz-Türk Cümhuriyyətinin hərbi qüvvəsini və bu qurumun siyasətinə Osmanlı dövlətinin təsir dərəcəsini öyrənmək olduğu aşkara çıxdı. İngilislər Naxçıvanı işğal etdikdə Araz-Türk Cümhuriyyətinə Türkiyə tərəfindən yaradılmış qurum kimi baxaraq, onu tanımaq istəmədilər. 1919-cu ilin may ayında ingilislərin hərbi yardımı ilə erməni işğalı altına düşən Naxçıvan bölgəsinin həmin ilin iyul ayında ermənilərdən təmizlənməsində yenidən Naxçıvana qayıdaraq diyarın müdafiəsinin təşkilində böyük rol oynayan Xəlil bəyin başçılığı ilə türk hərbiçilərinin mühüm xidmətləri oldu.

Ümumiyyətlə, Şərqi Anadolu və Qərbi Azərbaycan torpaqlarının erməni işğalından qorunması istiqamətində çoxşaxəli tədbirlər həyata keçirmişdi. Belə tədbirlərdən biri də Mudros müqaviləsindən sonra Şərqi Anadolu vilayətləri üzərindəki hüquqları qorumaq, erməni işğalına verilməsi istənilən bu torpaqların elmi, siyasi və lazım olduğu halda silahlı mübarizə aparmaq üçün 1918-ci il dekabrın 2-də İstanbulda yaradılan Şərq Vilayətlərini Hüquqi Müdafiə Milli Cəmiyyəti (türkcə – Vilâyât-ı Şarkîyye Müdâfâa-i Hukûk Millîye Cemiyeti) idi. Cəmiyyət 1919-cu il martın 10-da Ərzurumda öz şöbəsini açmışdı. Bu şöbə Ərzurum vilayətinə daxil olan sancaq və qəzalara vilayət üzrə konqres təşkil ediləcəyi barədə məlumat verdi. Ərzurum vilayətinin tərkibindəki Bəyazit sancağından konqresə nümayəndə dəvət edildiyini öyrənən naxçıvanlılar da Ərzurum konqresində təmsil olunmaq istədilər. Hacı Cabbar bəy Naxçıvandan nümayəndə seçilərək Bəyazitə göndərildi. Lakin Hacı Cabbar bəy Ərzuruma gedə bilmədiyindən 1919-cu il iyulun 23-də keçirilən konqresdə iştirak edə bilməmişdi. Lakin Hacı Cabbar bəy konqresin təşkilat komitəsinə vurduğu teleqramlarda ingilislərin Naxçıvanı tərk etməsindən sonra bəlgənin daşnak idarəçiliyinə verildiyi, ermənilərin naxçıvanlılara qarşı törətdiyi dəhşətli qırğınlar haqqında məlumat vermişdi. Məhz bunun nəticəsi idi ki,

---

[1] Atnur İ.E. Muxtariyyət ərəfəsində Naxçıvan, s.134, 148-152

konqresə Ərzurumdan seçilən Mehmet Raif Hoca (Dinç) və Trabzon nümayəndəsi İzzət bəy Eyyubzadənin birlikdə hazırladıqları 7 maddəlik Ərzurum konqresinin Nizamnamə layihəsinin 6-cı maddəsinin "e" bəndində "Elviye-i Selase" (*bu ifadə altında Şərqi Anadolunun üç vilayəti – Qars, Ərdahan və Batum nəzərdə tutulur – Red.*) və Naxçıvanda həyata keçirilən qırğınlara qarşı tədbirlərin görülməsi" qərara alınmışdı. Konqresin sədri seçilən Mustafa Kamal paşa da öz çıxışında Naxçıvandan Oltuya qədər olan bütün bölgələrdə ermənilərin müsəlman əhaliyə təzyiq göstərdiyi, bəzi bölgələrdə qırğın və talanlar törətdiyi, Ərzurumadək olan ərazidə müsəlmanları məhvə məhkum və qaçmağa məcbur edərək Anadolunun şərq vilayətlərinə dair planlarını həyata keçirmək istədiyini bildirmişdi. Mudros müqaviləsinin şərtlərinin geniş təhlil edildiyi Ərzurum konqresinin avqustun 7-də qəbul etdiyi Bəyannamənin giriş hissəsində ermənilərin Türkiyənin sərhədlərinədək bütün Qafqaz boyu qırğınlar və müsəlmanları məhv etmə siyasəti yürütdüyü bildirilirdi.

Mustafa Kamal paşa Sivasda keçiriləcək böyük konqres üçün Ərzurumu tərk etməmişdən əvvəl XV Korpus komandanı Kazım Qarabəkir paşa 10 maddəlik "Yaddaş" hazırlamışdı. Bu sənədin 4-cü maddəsində: "Qafqazdakı müsəlman əhali ilə əl-ələ vermək lazımdır. Bu birliyə bizim kimi, Azərbaycanın və Şimali Qafqazın da ciddi ehtiyacı vardır: Rusiya daxilindəki Ermənistanı böyütməmək və üç tərəfdən təzyiq göstərməklə olduğu sərhədlər daxilində daim zəif, məhdud və gücdən məhrum etmək türkün və müsəlmanın mövcudluq siyasətidir", – deyilirdi.[1]

İngilislərdən sonra Cənubi Qafqaz üzərində Millətlər Cəmiyyətinin mandatı ABŞ-a keçdi. 1919-cu ilin iyul ayında Antantanın Ermənistanda ali komissarı təyin olunan ABŞ ordusu Baş qərargahının polkovniki V.Haskelin nümayəndəsi polkovnik C.Rey 1919-cu ilin yayında Naxçıvana gəlmiş ABŞ ordusunun polkovniki eyni vaxtda həm yerli hökumətlə, həm daşnaklarla, həm də türk zabiti Xəlil bəylə

---

[1] Esin Derinsu Dayı. Milli Mücadele Döneminde Elviye-i Selase ve Nahçıvan.

danışıqlar aparmış, Müsəlman Milli Komitəsinin başçısı Cəfərqulu xanla apardığı danışıqlarda Naxçıvanda ABŞ-ın general-qubernatorluğunu yaratmaq ideyasını irəli sürmüşdü.[1]

1919-cu il sentyabrın 1-də Haskelin Paris sülh konfransı adından Azərbaycan və Ermənistan hökumətlərinə göndərdiyi "Naxçıvan və Şərur-Dərələyəz qəzaları haqqında əsasnamə"yə görə, Naxçıvan və Şərur-Dərələyəz qəzalarını əhatə edən rayonlar bitərəf zona elan edilir və burada bütün idarəçilik işləri Amerika general-qubernatoruna tapşırılırdı: bütün hərbi qüvvələr, poçt, teleqraf onun tabeliyinə verilir, yerli vəzifəli şəxsləri general-qubernator təyin edirdi. Lakin ABŞ-ın həmin mövqeyi Azərbaycan Xalq Cümhuriyyəti hökuməti və Naxçıvan Müsəlman milli komitəsi tərəfindən qəbul edilmədi. Müsəlman Milli Komitəsinin liderləri Cəfərqulu xan və Kalbalı xan Haskeli inandırmaq istəyirdilər ki, ABŞ-ın Cənibi Qafqaz işləri üzrə ali komissarına tabe olmaq şərti ilə Naxçıvanda general-qubernatorluğunun yaradılması daha çox məqsədəuyğundur. Azərbaycan hökuməti də Naxçıvanda Azərbaycanın general-qubernatorluğunun yaradılmasında israr edirdi. Bu zaman Türkiyənin Naxçıvandakı nümayəndəsi Xəlil bəy də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin mövqeyini müdafiə edirdi.[2] Xəlil bəy Ordubadda olan Azərbaycanın siyasi nümayəndəsi Səməd bəyi (*Cənub-Qərbi Azərbaycan general-qubernatoru Səməd bəy Cəmillinski – Red.*) Naxçıvana gətirərək onu vali təyin etdi və Naxçıvanın Azərbaycana birləşdirildiyini bildirdi. Özü isə Azərbaycanın Naxçıvan regionunun ümumi komandiri oldu. Lakin bir müddət sonra Xəlil bəyin S.Cəmillinski ilə münasibətlərində ixtilaf yarandığından 1920-ci il mart ayının ortalarında Türkiyənin mövqeyini (*Brest-Litovsk və Batum müqavilələrinə istinadən Türkiyə Naxçıvanı öz bölgəsi hesab edirdi – Red.*) nəzərə alan Xəlil bəy Səməd bəyi Naxçıvandan çıxardı və onun yerinə azərbaycanlı Qara bəy adlı birini vali

---

[1] Гулиев Дж.Б., Мадатов Г.А., Надиров А.А. Советская Нахичевань. Баку: Азернешр, 1984, с.33-34.
[2] Sadıqov S.H. Naxçıvan Muxtar Respublikası tarixindən, s.20-21.

təyin etdi. Azərbaycan hökuməti Xəlil bəyin bu hərəkətindən narazı qaldı.[1] Lakin cəmi bir ay sonra Azərbaycanda sovet hakimiyyətinin qurulması bölgədə tamamilə yeni hərbi-siyasi vəziyyətin yaranması ilə nəticələndi.

1919-cu il noyabrın axırlarında polkovnik C.Rey Deli ilə Müsəlman Milli Komitəsi arasındakı ixtilafları nizamlamaq üçün Naxçıvana gəldi. Danışıqlar zamanı Kalbalı xan və türk zabiti Xəlil bəy Reyi razı saldılar ki, Deli Naxçıvanda Azərbaycan hökuməti yanında ABŞ-ın müşaviri kimi vəzifəsini icra etsin. Vəziyyətin belə hal alması bölgədə ABŞ-ın mövqeyinin xeyli zəifləməsi demək idi. Buna yol verməmək üçün Rey və Deli Azərbaycanla Ermənistan arasında müharibəni qızışdırmağı çıxış yolu hesab etdilər. Bununla onlar düşünürdülər ki, müharibə baş verəcəyi təqdirdə, Naxçıvanda Azərbaycan silahlı qüvvələri olmadığı üçün Ermənistan ordusu qısa müddətdə Müsəlman milli komitəsinin zəif qüvvələrini məğlub edəcək və beləliklə, Naxçıvanda əsl mənada ABŞ general-qubernatorluğu yaratmaq mümkün olacaqdır. Amerikalıların bu mövqeyi, Naxçıvanı işğal etməyə daim fürsət axtaran daşnakların Naxçıvana yeni hərbi təcavüzü üçün əsas oldu. Lakin 1919-cu ilin sonlarında Naxçıvana hücum edən erməni nizami qoşun hissələri məğlub oldu. Xəzinəyə, dəmir yoluna, poçt-teleqrafa və vergilərin qoyulmasına nəzarəti ələ keçirən Müsəlman Milli Komitəsinin başçısı Kalbalı xanın bölgədə hərbi, inzibati və siyasi hakimiyyəti daha da möhkəmləndi.[2]

Naxçıvanda ABŞ general-qubernatorluğu yaradılması cəhdlərinin iflasa uğramasında və bölgənin yenidən erməni işğalına verilməsi planlarının boşa çıxmasında Xəlil bəyin başçılığı altında Naxçıvandakı türk hərbiçilərinin mühüm rolu oldu. Nəticədə 1920-ci ilin yanvarında isə bütün Amerika zabitləri Naxçıvanı birdəfəlik tərk etdi.[3]

---

[1] Atnur İ.E. Muxtariyyət ərəfəsində Naxçıvan, s.246, 248
[2] Sadıqov S.H. Naxçıvan Muxtar Respublikası tarixindən, s.22
[3] ARDA, f. 970, siy. 1, iş 65

Beləliklə, Naxçıvanda ABŞ general-qubernatorluğu yaradılması planının qarşısı alındı.

Lakin amerikalılardan yardım alan daşnaklar 1920-ci ilin yanvarında Naxçıvanı işğal etmək üçün yeni cəhd göstərdi. Bu zaman Azərbaycan Xalq Cümhuriyyətində siyasi böhranın dərinləşməsi Naxçıvana hərbi yardım göstərilməsini qeyri-mümkün etdi. Naxçıvan rəhbərliyi kömək üçün türklərə müraciət etməli oldu ki, bu da öz növbəsində bölgədə Azərbaycanın hökumətinin mövqeyini xeyli zəiflətdi. Hətta 1920-ci ilin fevralında Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin nümayəndələri Naxçıvanı tərk etməyə məcbur oldular. Yaranmış şəraitdə Türkiyə Naxçıvanı müdafiə etməyin yolunu bölgəni Azərbaycandan "asılı olmayan ölkə" elan etməkdə görürdü.[1] Bu, sovet Rusiyasının Azərbaycanın müstəqilliyini artıq real şəkildə təhdid etməsi ilə bağlı idi.

Hər halda, nə ad altında həyata keçirilməsindən asılı olmayaraq Naxçıvan əhalisinin qırğından xilas edilməsi üçün belə köməyə həqiqətən ehtiyacı var idi. Yerli əhali nümayəndələrinin türk qoşunlarını Naxçıvana dəvət etmək barədə mətbuatda dərc olunmuş müraciətində də həmin məsələnin ölüm-dirim məsələsi olduğu qeyd edilmişdi.[2] Türkiyə Azərbaycanın sovet işğalına məruz qalacağı təqdirdə Naxçıvanın da Azərbaycanın tərkibində sovet işğalına düşməməsinə çalışırdı. Türk zabiti Xəlil bəyin 11-ci türk diviziyasının komandiri Cavid bəyin adına göndərdiyi şəxsi məktubda da Naxçıvanı erməni təcavüzündən qorumaq üçün türklərin himayəsi altına almağın zəruriliyi göstərilmişdi. Kazım Qarabəkir paşanın tapşırığı ilə Cavid bəy fevralın 14-də kapitan Mühiddin bəyin və ehtiyatda olan zabit İhsan bəyin başçılığı ilə Zəngibasara hərbi qüvvə və silah-sursat da göndərmişdi. Martın 21-də 10 min nəfərlik daşnak ordusunun dağıdıcı Ordubad yürüşünün qarşısının alınmasında Kalbalı xanın özünümüdafiə qüvvələri birləşən

[1] Sadıqov S.H. Naxçıvan Muxtar Respublikası tarixindən, s.23
[2] Sadıqov S.H. Naxçıvan Muxtar Respublikası tarixindən, s.23

Əylisdəki türk zabiti Ədib bəyin başçılığı altındakı hərbi qüvvələr mühüm rol oynadı.

1920-ci ilin martında Əli Teymur bəy başda olmaqla yeni türk qoşun hissəsinin Naxçıvana gəlməsi əhali tərəfindən böyük şadlıqla qarşılandı.[1] Məhz türk ordusunun gəlişi Naxçıvan əhalisinin yeni qırğınının qarşısını aldı, bölgənin siyasi taleyinin Azərbaycanın mənafeyinə uyğun şəkildə həllində əhəmiyyətli, bəlkə də müəyyənedici rol oynadı.[2]

1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra sovet Rusiyasının ermənilərin mənafeyinə uyğun siyasətindən ruhlanan daşnaklar Naxçıvanla bağlı işğal planından bir addım belə geri çəkilmək barədə düşünmürdülər. Hətta Naxçıvanda sovet hakimiyyətinin elan edilməsinə bir neçə gün qalmış daşnak rejimi Naxçıvanın erməni idarəçiliyinə könüllü keçməsi haqqında ağır şərtlərlə 7 bənddən ibarət ultimatum da göndərmişdilər. Həmin vaxt Naxçıvanda olan türk zabiti Veysəl Ünüvar 1920-ci il iyulun 19-da daşnak hökumətinin Naxçıvan Milli şurasına daxil olan tələblərinin Azərbaycan hərbi dəstələrinin komandiri Həbib bəy Səlimovun və onun özünün iştirakı ilə Naxçıvan Milli şurasında müzakirə edildiyini bildirir. V.Ünüvara görə tələblər aşağıdakı kimi idi:

1. Bütün Naxçıvan Araz hökumətinin ərazisi (*əvvəllər mövcud olmuş Araz Türk Cümhuriyyətinin əhatə etdiyi ərazi – Red.*) erməni hökumətinə birləşdiriləcək. Əhali erməni hökumətinin rəiyyəti, təbəəsi (spartalıları hilotları kimi) olaraq qalacaq, bunu qəbul etməyənlər istədiyi yerə gedə biləcək;

2. İki həftə içində müsəlmanlar erməni hökumətinə hər biri əlli manat qiymətində 300 at, hər biri otuz manat qiymətində 200 inək, bu ayın sonunadək (*iyul 1920-ci il – Red.*) 300 min pud buğda pulsuz, bundan əlavə, hər pudu iki min manat hesabı ilə və ya pul ilə 300 min

---

[1] Гулиев Дж.Б., Мадатов Г.А., Надиров А.А. Советская Нахичевань, с.62

[2] Sadıqov S.H. Naxçıvan Muxtar Respublikası tarixindən, s.23

pud buğda, hər pudu üç min manat hesabı ilə iki ay ərzində 100 min pud düyü verəcək;

3. Dəmir yollarının təmiri üçün işçi qüvvəsi veriləcək;

4. 1919-cu ildə erməni hökumətindən zəbt edilən silahlardan başqa hər iki evdən bir silah hesabı ilə 1500-dən aşağı olmamaq şərti ilə tüfənglərini təslim edəcəklər;

5. 24 saat ərzində əsgərlərin silah-sursatı təslim ediləcək;

6. Yuxarıdakı təkliflərə əməl edilincəyə qədər hər şəhərdən beş, hər kənddən üç nəfər girov olaraq verilməlidir;

7. Cavab üçün 60 saatlıq möhlət verilmişdir.

Bir gün sonra Milli şuranın sədri Cəfərqulu xanın imzası ilə qəbul edilərək ermənilərə göndərilən cavabda bildirilirdi ki, "müsəlman əhali bu ərazinin Ermənistanın bir parçası olduğunu o zaman qəbul edər ki, Dəhnə boğazından Ordubada qədər olan ərazinin müsəlmanlarına istiqlal verilsin". Təklif edilirdi ki, digər məsələlərin həlli İrəvanda tərəflərin "bəlli bir gündə" müəyyənləşdiriləcək görüşündə müzakirə olunsun. Lakin daşnaklar iyulun 25-dək Şahtaxtıya qədərki əraziləri işğal etdi.[1]

1920-ci ilin avqustunda Azərbaycan İnqilab Komitəsinin və 11-ci Qızıl ordu Hərbi İnqilab Şurasının qərarı ilə Naxçıvana fövqəladə komissar təyin olunan Bahadır Vəlibəyovun antimilli və ermənipərəst fəaliyyəti bölgədəki türk hərbi komandanlığının diqqətini cəlb etmişdi. Buna görə də 1920-ci ilin dekabrında B.Vəlibəyovun İrəvana gedərək Naxçıvandakı vəziyyət barədə Ermənistan İnqilab Komitəsinə məruzə etməsi türk hərbiçilərini onunla bağlı tədbirlər görməyə məcbur etmişdi. Kazım Qarabəkir paşanın Şərq cəbhəsi qoşunlarının siyasi işlərinə baxan, həmçinin Türkiyənin Naxçıvanda yerləşən qoşunlarının (qərargah Şahtaxtı kəndində idi) komandanı Veysəl bəy İrəvandan qayıdan B.Vəlibəyovu Naxçıvanı Ermənistana satmaqda ittiham edərək iki gün Şahtaxtında saxlamışdı.[2]

---

[1] General Veysəl Ünüvar. Naxçıvan: təlatüm və burulğanlar (1920-1921), s.40-41, 45

[2] Sadıqov S.H. Naxçıvan Muxtar Respublikası tarixindən, s.42, 45-46

1920-ci il sentyabrın əvvəllərində Naxçıvanda fövqəladə istintaq komissiyası yaradılmış, oktyabrda isə İnqilab Komitəsinin qərarı ilə köhnə məhkəmə sistemi ləğv edilərək yeni, xalq məhkəmələrinin yaradılmasına başlanmışdı. Həmin ərəfədə Naxçıvan diyarında həyatın normal məcraya yönəldilməsində, daşnak təcavüzünün qarşısının alınmasında türk ordu hissələri mühüm rol oynayırdı və Qızıl ordunun bütün tədbirləri, əsas nöqtələrdəki fəaliyyəti türk ordusunun nümayəndəsi ilə danışıqlar aparıldıqdan və razılıq əldə edildikdən sonra həyata keçirilirdi. Arazdöyən stansiyasından başlamış Culfa stansiyasına qədər dəmir yolu vağzallarında, dayanacaqlarda silahlı türk əsgərləri dayanır, qatarların hərəkətinə nəzarət edirdilər. Poçt-teleqraf, rabitə işlərinə türk zabiti Hikmət Əfəndi başçılıq edirdi. Sonralar Ordubad, Culfa, Naxçıvan, Baş Noraşen, həmçinin bir çox iri kəndlər türk əsgərlərinin nəzarəti altına alınmışdı. Türklərin icazəsi olmadan heç kəs Ermənistandan Naxçıvan ərazisinə daxil ola bilməzdi. Oğurluğa, quldurluğa, xəyanətə və digər cinayətlərə qarşı sərt qanunlar qoyulmuşdu.[1]

1920-ci il avqustunda Qızıl ordunun Naxçıvandakı 28-ci diviziyası daşnakların işğalında olan ərazilərlə sərhədləri bağlasa da, türk hərbi komandanlığı 8 min nəfərlik türk ordusunu Naxçıvanda saxlamışdı. Kazım Qarabəkir paşa 1920-ci il avqustun 31-də Xəlil paşaya göndərdiyi, "yoldaş" deyərək xitab etdiyi məlumatdan türk ordu hissələri ilə Qızıl ordu arasında həmin dövrdə bölgədə müttəfiqliyin olduğu aydın olur: "Məncə daşnaklar, şübhəsiz, əsasən Antantanın tərəfindədirlər ki, fasiləsiz və fəal şəkildə bizə hücum etmələri də bunu təsdiqləyir. Buna görə də rus və Azərbaycan Qızıl ordu hissələri ilə bərabər daşnak maneəsinin ortadan qaldırılmasını xahiş edirəm; çünki bu ortaq məqsədlərimizə çatmağı sürətləndirmək və şərq məsələsini həll etmək üçün gərəkdir. Təkidlə XI Ordunu (*Xəlil bəyin komandanlığındakı ordu – Red.*) bu məsələdə istifadə etmək üçün icazə verməyinizi istəyirəm". Mustafa Kamal paşa da 1920-ci il avqustun 1-də

[1] Sadıqov S.H. Naxçıvan Muxtar Respublikası tarixindən, s. 36

Böyük Millət Məclisində etdiyi nitqdə "Rus bolşevik hökumətinin Qızıl ordusu ilə Böyük Millət Məclisinin Ordusu Naxçıvanda bir-biri ilə iç-içə birləşmiş oldu".[1] Həmin il sentyabrın 18-də erməni ordusunun Ordubaddan qovulub çıxarılmasında, ümumiyyətlə, həmin ilin avqust-noyabr aylarında ermənilərə qarşı hərbi əməliyyatların uğurla nəticələnməsində, Şərurun azad edilməsi, daşnak generalı Şelkovnikovun 2500 nəfərlik diviziyasının əsir alınmasında yerli könüllü özünümüdafiə dəstələri, A.Şadlinskinin "Qırmızı Tabor" dəstəsi və 11-ci Qızıl ordu hissələri ilə yanaşı, Naxçıvandakı türk qoşun dəstələri də fəal iştirak etdilər.[2]

Bu dövrdə sovet Rusiyasının da, öz sələfi kimi, ermənipərəst siyasət yürütməsini qətiyyətlə ifşa edən Azərbaycan SSR-in Ədliyyə komissarı, görkəmli diplomat B.Şahtaxtinski sovet Rusiyasının rəhbəri V.Leninə yazdığı 8 sentyabr 1920-ci il tarixli ikinci məktubunda Türkiyənin bölgədəki mühüm rolunu böyük uzaqgörənliklə və qorxmadan vurğulayır, Türkiyə ilə RSFSR arasında birbaşa dostluq münasibətlərinin qurulmasının vacibliyini və Naxçıvan bölgəsinin bu münasibətlərdəki əhəmiyyətini vurğulayaraq yazırdı: "Türkiyə bizə Şərqin azad edilməsində yardım edə bilər. Lakin Naxçıvanın Ermənistana güzəşt edilməsi, türklərin daşnaklar üzərinə hücumlarına olan maneələr və nəhayət, Ermənistana gələcəkdə bir sıra Anadolu ərazilərinin vəd olunması türklərin bizim siyasətimizə olan inamını itirir".[3]

Türkiyə Böyük Millət Məclisinin əmri və qərarı ilə Şərq Cəbhəsi Komandanı Kazım Qarabəkir paşa "Elviye-i Selase" və Qafqazdakı türklərə qarşı ermənilərin törətdiyi zülmə və soyqırıma son qoymaq üçün 1920-ci il sentyabrın 28-də Şərq hərəkatına başlamışdı. Uğurla həyata keçirilən bu hərbi hərəkat nəticəsində türk ordusu 27-də Sarıqamışı, 30-da Merdenik və Kağızmanı düşməndən azad etdi, ok-

---

[1] Perinçek M. Sovyet Arşivleri Türkiye'nin Tezlerini Doğruluyor, s. 140-141
[2] Sadıqov S.H. Naxçıvan Muxtar Respublikası tarixindən, s.36-38
[3] ARDA, f. 970, siy. 1, iş 65; Hacıyev İ. Behbud ağa Şahtaxtinski: həyatı və fəaliyyətinin mühüm mərhələləri, s. 37-38, 41

tyabrın 30-da Qars və ətrafı ermənilərdən təmizləndi, ardınca Gümrü türk ordusunun nəzarətinə keçdi. Kazım Qarabəkir paşanın bu qələbələri bölgənin müsəlman əhalisində də böyük ruh yüksəkliyi yaratmışdı. Qarsın işğaldan azad olunması cəmi 3 saat sürmüş, ermənilərdən 3 general, 12 qəza rəisi, 16 kapitan, 59 leytenant, 16 mülki məmur, 12 zabitliyə namizəd, 1150 əsgər əsir götürülmüş, 1100 erməni döyüşdə öldürülmüşdü. Eyni zamanda, 337 istifadəyə yararlı top, 339 təmirə ehtiyacı olan top, xeyli miqdarda tüfəng, müxtəlif çeşidli mərmi və digər sursat və s. qənimət olaraq götürül-müşdü. Bundan başqa erməni ordusunun baş komandanı və hərbi naziri türklərin diqtə etdiyi müqavilə şərtlərini qəbul etməyə məcbur olmuş, hər birinin üzərində min mərmi verməklə 2000 tüfəng, 3 batareya seriya atəşli dağ topu, 40 makinalı tüfəng təhvil vermişdilər.[1] Türk ordusunun Şərq cəbhəsində böyük uğur qazanması ermənilərə hər cür dəstək verməkdə davam edən sovet Rusiyasının Cənubi Qafqaz siyasətində Türkiyə faktorunu nəzərə almağa vadar edirdi.

Rusiyanın məhz imperialist və ikiüzlü mövqeyinə görə Türkiyə 1918-ci il iyunun 4-də Cənubi Qafqaz respublikaları ilə bağladığı Batum müqaviləsinin 2-ci maddəsini əsas götürərək öz ərazisi hesab etdiyi Naxçıvanı hər vəchlə himayə etməyi qarşısına məqsəd qoymuşdu. 1920-ci il dekabrın 2-dən 3-ə keçən gecə Türkiyə ilə çökməkdə olan Qərbi Azərbaycandakı daşnak rejimi arasında imzalanan 18 maddədən ibarət Gümrü müqaviləsinin[2] 2-ci maddəsinə görə isə, erməni hökuməti Naxçıvan, Şahtaxtı və Şərur ərazisinə müdaxilə etməmək və referendumla (plebissitlə) müəyyən ediləcək idarə formasının yaradılmasınadək burada Türkiyənin nəzarətində olacaq idarəçiliyin təşkili ilə razılaşırdı: "Kükü dağı – 10282-8022, Həməsür dağı – 8160, Qurdqulaq kəndi, Sayat dağı – 7868, Arpaçay evləri – 3080, Gömürlü dağı – 6930, Saraybulaq – 8071, Ararat stansiyası, Araz çayı yaxınlığındakı Aşağı Qarasuyun mənsəbindən keçən zolağın cənubundakı (Naxçıvan,

[1] Kârabekir K. İstiklâl Harbimiz, s.897-898+44 s. Belge, Fotoğraf.
[2] NMRDA, f. 314, siy. 5, iş 18

Şahtaxtı, Şərur) məntəqəyə, daha sonra referendumla təyin olunacaq idarə formasına və bu idarənin əhatə edəcəyi əraziyə Ermənistan müdaxilə etməyəcək və bu ərazidə hələlik Türkiyənin himayəsində yerli idarəçilik yaradılacaqdır".

Rusiya hökuməti dərhal bu müqaviləni tanımadığını bildirmiş və Azərbaycan hökumətindən də belə mövqe bildirməyi tələb etmişdi. Ermənistanda qurulan sovet hökuməti də 1920-ci il dekabrın 5-də müqaviləni tanımadığını bəyan etmişdi. B.Şahtaxtinski isə Azərbaycanın bolşevik rəhbərlərinə təlqin etməyə çalışırdı ki, Gümrü müqaviləsi tanınmalıdır. O bildirirdi ki, Türkiyənin mövqeyini müdafiə etməklə torpaqlarımızı xilas etmək mümkündür. Təsadüfi deyildi ki, B.Şahtaxtinskinin bu mövqeyi bir sıra türk diplomatları tərəfindən yüksək qiymətləndirilmiş və onu "Azərbaycan xarici siyasətinin rəhbəri" adlandırmışdılar.[1] Lakin son nəticədə Azərbaycan hökuməti də Gümrü müqaviləsini tanımadı. Gümrü müqaviləsi özünün sonuncu gününü yaşayan daşnak rejimi ilə imzalandığı və Qərbi Azərbaycanda (*indiki Ermənistanda – Red.*) qurulan erməni sovet hökuməti də öz sələfinin bağladığı bu müqaviləni tanımadığını elan etdiyi üçün heç bir hüquqi əhəmiyyət daşımasa da, bu müqavilənin, onda əks olunan ərazi məsələsinin qoyuluşunun tarixi-siyasi əhəmiyyəti sovet Rusiyasının Cənubi Qafqazda milli məsələdə yürütdüyü ermənipərəst siyasətin və Azərbaycan torpaqlarının erməni işğalına verilməsinin ifşası baxımından özünü bu gün də göstərməkdədir.

1918-1920-ci illərdə ermənilərin törətdiyi soyqırım siyasəti nəticəsində əhalisinin xeyli hissəsi məhv edildiyindən Zəngəzurun erməni işğalına verilməsinə qarşı ciddi müqavimət təşkil etmək mümkün olmadı. Lakin Naxçıvan əhalisinin 1920-ci il dekabrın 5-dən başlayaraq öz qətiyyətli iradəsini növbəti dəfə ortaya qoyması bölgənin sonrakı taleyini tarixi ədalətə uyğun şəkildə – Azərbaycanın xeyrinə həll etdi. Dekabrın 15-də Naxçıvana gələn Azərbaycan SSR-in Xalq Ədliyyə komissarı B.Şahtaxtinski əhalinin Azərbaycan İnqilab Komi-

---

[1] Hacıyev İ. Behbud ağa Şahtaxtinski: həyatı və fəaliyyətinin mühüm mərhələləri, s.43.

təsinin 1 dekabr bəyanatından və 2 dekabr RSFSR-Ermənistan müqaviləsindən doğan narahatlığını bölüşdü və bölgədəki real vəziyyət barədə əsl həqiqəti xalq kütlələrinə çatdırdı. O, naxçıvanlılara öz diyarlarını müdafiə etməyin yolunu göstərərək bildirdi ki: "Siz torpağınızla birlikdə öz müstəqilliyinizi saxlamaq istəyirsinizsə, burada istinad edə biləcəyiniz yeganə qüvvə Türkiyə qoşunlarıdır. Xalq bu qoşunların ətrafında sıx birləşməlidir. Sizin müstəqilliyinizi və torpağınızı yalnız onlar qoruyacaqlar və sizi ağır fəlakətdən xilas edəcəklər". B.Şahtaxtinski həmçinin Azərbaycan İnqilab Komitəsinin üzvü kimi B.Vəlibəyovu vəzifəsindən azad edib özü ilə Bakıya aparacağını söylədi.[1]

Naxçıvan əhalisinin erməni işğalına qarşı kəskin müqaviməti öz bəhrəsini verdi. 1920-ci il dekabrın 28-də Ermənistan İnqilab Komitəsi verdiyi bəyanatla Naxçıvanı müstəqil sovet respublikası kimi tanıdığını və ona qarşı ərazi iddialarından imtina etdiyini bildirdi.[2] Maraqlıdır ki, Ermənistan İnqilab Komitəsinin həm 26 dekabr (*Naxçıvanın guya "könüllü" olaraq Ermənistana birləşdiyinin elan edildiyi – Red.*), həm də 28 dekabr bəyanatlarını eyni şəxslər – Ermənistan İnqilab Komitəsinin sədri S.Kasyan, onun üzvləri A.Nuricanyan və T.Bekzadyan imzalamışdı. Bu bəyanatdan sonra, 1921-ci ilin yanvarında Ermənistandakı rus diplomatı Leqranın rəhbərliyi ilə ermənilərin Naxçıvanın müxtəlif yaşayış məntəqələrində guya naxçıvanlıların Ermənistana birləşməsi tərəfdarı olduğu görüntüsünü yaratmaq məqsədi ilə keçirdikləri təxribatçı mitinqlərin qarşısı məhz Şahtaxtıdakı türk ordusu hərbi qərargahının başçısı Veysəl bəyin qəti mövqeyi ilə alındı.[3]

İngiltərə və Fransa 1920-ci ilin sonlarında Rusiya tərəfindən Qafqazın bütünlüklə sovetləşdirilməsinin qarşısını almaq üçün "Qafqaz xətti" layihəsini ortaya atdılar. Layihəyə görə Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında qurulacaq bir siyasi-iqtisadi ittifaq

---

[1] NMRDA, f. 314 siy. 1, iş 14
[2] Cəfərli E.Y. Naxçıvanda erməni-Azərbaycan münaqişəsi, s.233
[3] Sadıqov S.H. Naxçıvan Muxtar Respublikası tarixindən, s.47-49

nəticəsində bölgədə sovetləşmənin qarşısı alınmalı, bolşevizm təhlükəsinə qarşı sədd yaradılmalı idi. Lakin bu zaman artıq Cənubi Qafqazın ən böyük və Rusiya üçün ən əhəmiyyətli ölkəsi olan Azərbaycanda sovet hakimiyyəti qurulmuşdu. Bundan başqa hər iki Avropa dövləti riyakar siyasət yürüdərək Türkiyəyə düşmən münasibətdə olan və İzmiri işğal etmiş yunan ordularını müdafiə edirdi. Bu baxımdan Mustafa Kamal paşanın başçılığı ilə Ankarada qurulmuş milli hökumət 1920-ci ilin sonu, 1921-ci ilin əvvəllərində bir tərəfdən İngiltərə və Fransadan dəstək almaq üçün danışıqlar aparırdısa, digər tərəfdən də sovet Rusiyasından öz ölkəsinin bütövlüyünü qorumaq üçün hərbi yardım almaq üçün səy göstərirdi. Hətta milli hökumətin Moskvadakı səfiri Ali Fuat Cebesoy Rusiya xarici işlər komissarı G.Çiçerinlə görüşündə sovet Rusiyasından 31 milyon qızıl rubl və silah-sursat yardımı da istəmiş, ruslar isə 10 milyon qızıl rubl və əsasən piyada qoşunları üçün silah-sursat verə biləcəklərini bildirmişdilər. Beləliklə, yaranmış şəraitdə, ikinci məsələ daha aktual idi. Bu vəziyyət Ankara hökumətində də ikitirəliyə səbəb olmuşdu. Son nəticədə sovet Rusiyası ilə sazişə girmək tərəfdarlarının mövqeyi üstün və haqlı olduğundan Moskvada Rusiya ilə Türkiyə arasında sülh müqaviləsinin bağlanması üçün konfrans öz işinə başladı. Rusiya konfransın işində Cənubi Qafqaz respublikalarının üçünün də iştirakını türk nümayəndə heyətinə təklif etsə də, türklər öz dövlətlərinin taleyi üçün son dərəcə vacib bir şəraitdə danışıqların uzanacağından ehtiyat edərək bu təklifə qarşı çıxmışdı, bu səbəbdən Azərbaycan, Gürcüstan və Ermənistanla bağlı məsələlərin ayrıca keçiriləcək bir konfransda müzakirə edilməsi qərara alınmışdı.[1]

Beləliklə, 1921-ci il martın 16-da Türkiyə ilə RSFSR arasında dostluq və qardaşlıq haqqında Moskva müqaviləsi imzalandı. 16 maddədən ibarət müqavilənin 3-cü maddəsində deyilirdi: “Razılığa gələn hər iki tərəf bu müqavilənin I (C) əlavəsində göstərilən sərhədlərin

---

[1] Erden Ö. Kars Konferansı Sürecinde Türkiye ve Sovyet Rusya'nın Karşılıklı Endişeleri, s. 443-447

içərisində Naxçıvan vilayətinin Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsinə razıdırlar, o şərtlə ki, Azərbaycan bu protektoratlığı heç bir zaman üçüncü bir dövlətə güzəştə getməyəcəkdir. Naxçıvan ərazisinin Araz talveqinin şərqi ilə Dəhnə dağı (3829) – Vəli dağ (4121) – Bağırsaq (6587) Gömürlü dağ (6930) xətti arasında yaranmış üçbucaq kəsimi, bu torpaqların Gömürlü dağdan (6930) başlayıb, Saray bulaq dağından (8071) və Ararat stansiyasından keçərək Qara Suyun Arazla birləşdiyi yerdə başa çatan sərhəd xətti, Türkiyə, Azərbaycan və Ermənistanın səlahiyyətli nümayəndələrindən ibarət komissiya tərəfindən təshih olunacaqdır".[1] Müqavilənin I (C) əlavəsinin məzmunu isə aşağıdakı kimidir: "Naxçıvan ərazisi: Ararat stansiyası – Saraybulaq dağı (8071) – Gömürlü dağ (8839) – (8930) – (3080) – Sayat dağ (7868) – Qurdqulaq (Kurt Kulak) kəndi – Həməsür dağı (8160) – 8022 yüksəkliyi – Kükü dağı (10282) və keçmiş Naxçıvan qəzasının inzibati sərhədlərinin şərqi".

Müqaviləni RSFSR tərəfdən xarici işlər naziri G.Çiçerin, Dağıstan İnqilab Komitəsinin sədri, RSFSR MİK-in üzvü Cəlal Korkmasov, Türkiyə tərəfdən isə Yusif Kamal, Riza Nuri, Əli Fuad imzalamışdı. Müqavilə 1921-ci ilin martın 20-də RSFSR hökuməti, iyulun 21-də isə Türkiyə Böyük Millət Məclisi tərəfindən ratifikasiya edilmişdi. 1921-ci il sentyabrın 22-də Türkiyənin Qars şəhərində ratifikasiya fərmanlarının mübadiləsi həyata keçirilmiş və hər iki dövlət müqaviləni nəşr və elan etmişdi.[2]

Antanta dövlətləri tərəfindən ciddi təzyiqlərə məruz qalan Türkiyə üçün həmin dövrdə sovet Rusiyası ilə münasibətlərin qurulması həyati əhəmiyyət kəsb edirdi. Lakin müqavilənin şərtlərindən də göründüyü kimi, Cənubi Qafqazda öz maraqlarını mümkün olan maksimum səviyyədə qorumaq üçün Naxçıvanla bağlı məsələdə Türkiyə tərəfi bölgəyə muxtariyyət statusunun verilməsini əsas tələb kimi qoy-

[1] Gümrü, Moskva və Qars müqavilələri (Azərbaycan, türk, rus və fransız dillərində), s.26-27
[2] Yenə orada s.128

muşdu. Azərbaycan türklərinin yaşadığı torpaq olmasından əlavə, Naxçıvan həm də çox mühüm geostrateji əhəmiyyətə malik ərazi idi. Belə ki, 1920-1921-ci illərdə RSFSR-lə Türkiyə arasında diplomatik əlaqələrin yaradılması və saxlanılmasında Naxçıvan bir ərazi olaraq əsas vasitəçi rolunu oynamışdı. Çünki 1920-ci ildə Qara dənizdə Antantanın hərbi gəmiləri dayanmışdı, Gürcüstanın menşevik, Ermənistanın daşnak hökumətlərinin Türkiyə ilə diplomatik əlaqələri yox dərəcəsində idi.[1]

Moskva müqaviləsi imzalandıqdan sonra Türkiyə Naxçıvandan öz hərbi qüvvəsini çıxarmağa başladı. 1921-ci il aprelin 15-də Türkiyə Xarici İşlər Nazirliyinin və Baş Qərargahının Kazım Qarabəkir paşadan bölgəni boşaltmaq tapşırığı verilən kimi, Naxçıvanı ermənilərdən qorumaq vəzifəsi tapşırılmış Naxçıvan Türk Birliyinə geri qayıtmaq əmri verildi. Əmri yerinə yetirən türk əsgərləri Naxçıvanı tərk edərək aprelin 16-da Doğu Bəyazidə geri çəkildi.

Moskva müqaviləsinin imzalanmasından əvvəl müqavilə tərəflərinin razılaşdırdığı kimi Türkiyə ilə Cənubi Qafqazın üç respublikası arasında münasibətləri tənzimləmək üçün təşkil edilən Qars konfransı 1921-ci il sentyabrın 26-da öz işinə başladı. Konfransdan əvvəl türk nümayəndə heyəti ermənilərin Qars, İqdır və Sürməli bölgəsinə ərazi iddiaları ilə çıxış edəcəyini, Naxçıvanın isə Moskva müqaviləsində verilməsi nəzərdə tutulan statusunu dəyişdirməyə çalışacaqlarını gözləyirdilər. Bu şübhələr üçün onların kifayət qədər əsasları da vardı. Lakin Qars danışıqlarında sovet Rusiyasını təmsil edən, RSFSR-in Latviyadakı səlahiyyətli səfiri Yakov Qanetski Kazım Qarabəkir paşa ilə görüşündə danışıqların əsasını Moskva müqaviləsinin təşkil etməsinin onlar üçün prinsipial məsələ olduğunu bildirdi. Səfir, eyni zamanda, ermənilərin iki xahişlərinin olduğunu da paşanın diqqətinə çatdırmış, bu xahişlər yerinə yetirilməyəcəyi təqdirdə belə, Moskva müqaviləsinin prinsiplərindən imtina edilməyəcəyini söylədi. Ermənilərin xahişlərindən biri duza çox ehtiyacları olduğu üçün Türkiyənin Kulb

[1] Sadıqov S.H. Naxçıvan Muxtar Respublikası tarixindən, s.26

məntəqəsinin onlara verilməsi, digəri isə Ani şəhərinin xarabalıqlarının özləri üçün böyük tarixi əhəmiyyəti olduğunu bildirərək, şəhərin xarabalıqlarının Ermənistan sərhədləri daxilində olması idi.[1]

Kazım Qarabəkir paşa Y.Qanetskiyə xəritəni göstərərək Kulb bölgəsinin Bəyazidi və İqdır ətrafı əraziləri Qarsa birləşdirən yeganə şose yolu üzrəində olduğunu bildirmiş, Rusiya səfiri isə xəritə ilə tanışlıqdan sonra təklifini geri götürərək həmin bölgədə ermənilərə ehtiyacları olduğu qədər duz çıxarılması üçün imkan verilməsini xahiş etdi. İkinci məsələyə gəldikdə isə, Kazım Qarabəkir paşa ermənilərin hərbi qüvvə yerləşdirməməsi, xarabalıqların bərpasından başqa yeni tikinti işləri aparmaması və Türkiyədən gələcək ziyarətçilərə Ani şəhərinin qalıqlarını sərbəst ziyarət etmələri üçün şərait yaradılması şərti ilə şəhərin qala divarlarının Ermənistanla sərhəd sayıla biləcəyini bildirmişdi. Lakin Şərq Cəbhəsi Komandanlığına Ankaradan göndərilən teleqramda Moskva müqaviləsi ilə Türkiyəyə verilən Kulb bölgəsi və Ani xarabalıqlarından hər hansı birinin yalnız Böyük Millət Məclisinin razılığı ilə ermənilərə verilməsinin mümkün ola biləcəyi bildirilmişdi. Beləliklə, Qars konfransında ermənilərin heç bir tələbi qəbul edilmədi.[2]

Beləliklə, mahiyyətcə Moskva müqaviləsinin şərtlərinin Cənubi qafqazın üç respublikasına qəbul etdirilməsindən ibarət olan yeni müqavilə Qars konfransının sonunda imzalandı. Bu baxımdan Naxçıvanın da statusu ilə bağlı yekun və həlledici sənəd 1921-ci il oktyabrın 13-də bir tərəfdən Türkiyə Böyük Millət Məclisi Hökuməti ilə digər tərəfdən Ermənistan SSR, Azərbaycan SSR və Gürcüstan SSR hökumətləri arasında RSFSR-in iştirakı ilə Qars şəhərində imzalanan 20 maddədən ibarət müqavilə[3] oldu. Müqavilənin 5-ci maddəsində Naxçıvanın statusu ilə bağlı müddəa konkret və aydın şəkildə qoyul-

---

[1] Erden Ö. Kars Konferansı Sürecinde Türkiye ve Sovyet Rusya'nın Karşılıklı Endişeleri, s. 448

[2] Erden Ö. Kars Konferansı Sürecinde Türkiye ve Sovyet Rusya'nın Karşılıklı, s.449

[3] NMRDA, f. 314, siy. 5, iş 18

muşdu: "Türkiyə Hökümləti ilə Ermənistan və Azərbaycan sovet hökumətləri bu müqavilənin 3 saylı Əlavəsində göstərilən sərhədlər daxilində Naxçıvan bölgəsinin Azərbaycanın himayəsində muxtar ərazi təşkil etməsinə razıdırlar". Həmin Əlavədə isə Naxçıvan ərazisinin sərhədləri Moskva müqaviləsinin 3-cü maddəsindən daha dəqiq göstərilirdi. Əlavəyə görə, Arazdəyən stansiyası Ermənistanın tərkibində qalırdı. Əlavənin tam məzmunu aşağıdakı kimi idi: "Naxçıvan ərazisi: Urmiya kəndi, oradan düz xətlə Arazdəyən stansiyası (o, Ermənistan Sosisalist Sovet Respublikasına qalır), sonra düz xətlə qərbi Daşburun dağını (3142) – oradan şərqi Daşburun dağını (4108) – Cəhənnəm dərəsi çayını keçərək Bulağın ("Rövnə") cənubuna çatır, Bağırsaq (Yağarsık) dağının (6607), yaxud 6587-ci yüksəkliyin suayrıcı xətti ilə davam edərək keçmiş İrəvan qəzasının inzibati sərhədini, oradan Şərur-Dərələyəz sərhəd xəttini izləyir, 6629-cu yüksəklikdən Kömürlüdağa (6839, yaxud 6930) və oradan 3080-ci yüksəkliyə gəlir. Sayatdağ (7868) – Qurdqulaq (Kurt Kulaq) kəndi – Həməsür dağı (8160) – 8022-ci yüksəklik – Kükü dağı (10282) və keçmiş Naxçıvan qəzasının inzibati sərhədlərinin şərqi".[1]

Qars müqaviləsini Türkiyə tərəfdən Kazım Qarabəkir paşa, Vəli bəy, Muxtar bəy, Məmduh Şövkət bəy, Azərbaycan SSR-dən xalq dövlət nəzarət komissarı Behbud ağa Şahtaxtinski, Ermənistan SSR-dən xarici işlər komissarı Aşkenaz Mravyan, xalq daxili işlər komissarı Poqos Makinzyan, Gürcüstan SSR-dən xalq hərbi və dəniz işləri komissarı Şalva Eliava, xalq xarici işlər və maliyyə komissarı Aleksandr Svanidze və RSFSR-in Latviyadakı səlahiyyətli səfiri Yakov Qanetski imzalamışdı. Müqaviləyə edilən əlavədə Ermənistan SSR-in Türkiyə və İran dövlətləri ilə sərhədləri göstərilmiş, Naxçıvan SSR-in Türkiyə ilə sərhədi Arazdöyən stansiyasına qədər 11 km uzunluğunda

---

[1] Naxçıvan Muxtar Respublikası konstitusiyalarda. Kitabın tərtibçisi, oçerk və mətnlərin müəllifi tarix üzrə fəlsəfə doktoru, dosent E.Y.Cəfərli. Bakı: Elm və təhsil, 2014, s.29

müəyyən edilmiş, İranla sərhədi isə 176 km uzunluğunda, yəni 1828-ci il Türkmənçay müqaviləsində olduğu kimi saxlanılmışdı.[1]

Qars müqaviləsi 1922-ci il martın 3-də Azərbaycan MİK, martın 17-də Türkiyə Böyük Millət Məclisi tərəfindən, martın 20-də Ermənistan, iyunun 14-də isə Gürcüstan MİK-ləri tərəfindən təsdiq olunmuşdu. 1922-ci il sentyabrın 11-də İrəvanda müqavilənin təsdiqnamə fərmanlarının mübadiləsi aparılmış və elə həmin gündən də Qars müqaviləsi qüvvəyə minmişdir. Azərbaycan SSR XKS H.Sultanovu İrəvanda Qars müqaviləsinin təsdiqnamələrinin mübadiləsi üçün səlahiyyətli nümayəndə təyin etmişdi.[2]

Qars müqaviləsinin bir neçə dövlət – Türkiyə, Rusiya, Azərbaycan, Ermənistan və Gürcüstan tərəfindən imzalanması və qüvvədə olması üçün məhdud müddətin müəyyənləşdirilməməsi onun beynəlxalq müqavilə kimi Naxçıvanın taleyi və müqavilədə əksini tapmış digər məsələlərin həlli baxımından əbədi aktuallığını təmin etdi. Başqa sözlə, Qars müqaviləsinin imzalanması Naxçıvanın Azərbaycanın tərkib hissəsi olduğunun ona imza atan dövlətlər tərəfindən tanınması və onun Azərbaycanın tərkibində muxtariyyət statusunun beynəlxalq hüquqi təminatının yaradılması demək idi. Müqavilə iştirakçısı olan dövlətlərdən üçü, Cənubi Qafqaz respublikaları (Azərbaycan, Ermənistan, Gürcüstan) həmin dövrdə sovet Rusiyasının təsiri altında olsalar da, hər halda müqavilənin bağlanmasında formal olaraq müstəqil dövlətlər kimi iştirak etmişdilər. Belə ki, hər üç respublika SSRİ-nin tərkibində sonuncu rəsmi şəkildə yaradıldıqda – 1922-ci il dekabrın 30-da daxil olmuşdu.

Moskva və Qars müqavilələrinin imzalanmasından sonra belə, Naxçıvanın təhlükəsizliyi erməni işğalı təhdidi altında idi. Bu dövrdə Naxçıvan uğrunda mübarizənin davam etdiyi şübhəsiz idi. Görünür, məhz bu səbəbdən türklər müqavilələrin imzalanmasından sonra da öz

---

[1] Sadıqov S.H. Naxçıvan Muxtar Respublikası tarixindən, s.53

[2] Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər), s.355-356

ordu hissələrini bölgədən çıxarmağa tələsmirdilər. Naxçıvanda sovet hakimiyyətinin qurulmasını müdafiə edən və 1921-ci il antisovet üsyanları zamanı onun qorunub saxlanılmasına kömək edən türklər, hətta antisovet qiyamlarının bölgədə xaosa səbəb olacağı və bundan istifadə edən ermənilərin Naxçıvanı yenidən işğal etməyə cəhd göstərəcəkləri əndişəsi ilə, öz ordu hissələrini Şahtaxtıdan Naxçıvana yeritmişdilər.[1] Bundan başqa, Qars müqaviləsi imzalandıqdan bir neçə gün sonra – 1921-ci il oktyabrın 20-də Türkiyə ilə Fransa arasında Ankara müqaviləsinin imzalanması sovet Rusiyasının hakim dairələrində heç də xoş qarşılanmadı və bu, iki (Moskva və Qars) müqavilənin imzalanmasına baxmayaraq, onsuz da aralarında tam etimad olmayan sovet-türk münasibətlərinin daha da soyumasında mühüm rol oynadı. Belə ki, fransızlar həmin ərəfədə Rusiyada bolşeviklərin hakimiyyətinə qarşı hər vəchlə mübarizə aparırdılar. Türkiyənin Fransa ilə müqavilə bağlaması sovet Rusiyasının siyasi dairələrində fransızların antibolşevik fəaliyyətinə türklərin də qoşulacağı şübhəsini xeyli artırmışdı. Rusiya hətta Türkiyəyə etdiyi yardımları müxtəlif bəhanələrlə dayandırmağa başlamışdı.[2] Bu baxımdan Rusiyanın Türkiyə ilə imzaladığı müqavilələrin sovet hakimiyyət orqanları tərəfindən etinasızcasına pozulması cəhdlərinə yuxarıda bəhs edilən məsələlərin də təsirsiz ötüşmədiyi şübhəsizdir.

Lakin bu dövrdə Naxçıvanın statusu ətrafında gedən oyunları diqqətlə izləyən Türkiyə sovet hakimiyyət orqanları tərəfindən Naxçıvanın Moskva və Qars müqavilələrindən irəli gələn hüquqi statusunun "muxtar respublika"dan "muxtar diyar"a transformasiya cəhdlərindən sonra bu məsələyə dərhal ciddi reaksiya verdi. Türkiyə hökuməti sovet hökumətinə göndərdiyi 25 iyun 1923-cü il tarixli notasında Naxçıvan SSR-in Azərbaycanın tərkibinə diyar statusunda daxil edilməsini Moskva və Qars müqavilələrinin Naxçıvanla bağlı maddələrinin bir-

[1] Sadıqov S.H. Naxçıvan Muxtar Respublikası tarixindən, s.55-56
[2] Erden Ö. Kars Konferansı Sürecinde Türkiye ve Sovyet Rusya'nın Karşılıklı Endişeleri, s. 449

tərəfli pozulması kimi dəyərləndirdi və etirazını bildirdi.[1] Nəticədə Azərbaycan SSR MİK-in Rəyasət Heyəti öz qərarına yenidən baxmağa məcbur oldu. Lakin bu, guya onsuz da geniş ictimaiyyətə haqqında məlumat verilməyən Türkiyənin etiraz notası ilə əlaqədar olsa da, dərhal baş vermədi. 1923-cü ilin sonuna doğru elə Naxçıvanın muxtariyyət statusunun azaldılmasına cəhd edən sovet və partiya orqanları, həmçinin eyni rəhbər vəzifəli şəxslər bu dəfə muxtar respublika yaradılması "təşəbbüsü" ilə çıxış etdilər. 1924-cü il fevralın 9-da Azərbaycan SSR-in tərkibində Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının yaradılması haqqında yekun qərar qəbul olundu.

Beləliklə, məhz Türkiyənin Naxçıvan məsələsində tutduğu prinsipial mövqe bu qədim Azərbaycan ərazisinin türk torpağı kimi qorunub saxlanılmasında həlledici rol oynadı. 1918-ci il Brest-Litovsk və Batum müqavilələri ilə Naxçıvanı öz ərazisinə qatmış Türkiyə Moskva müqaviləsinin imzalanmasından sonra həmin müqavilələrin qüvvədən düşdüyünü, mürəkkəb beynəlxalq şəraiti və bölgədə yaranmış yeni siyasi-hərbi vəziyyəti nəzərə alaraq Naxçıvan məsələsinin həllində ən optimal yolu tutdu və onun Azərbaycanın tərkibində qalması üçün əlindən gələni etdi.

---

[1] http://www.heraldicum.ru/azerbaij/nahicevan.htm

# IV fəsil
# İNGİLTƏRƏNİN AZƏRBAYCANLA BAĞLI GEOSİYASİ MARAQLARINDA "ERMƏNİ AMİLİ" VƏ ONUN NAXÇIVANA TƏSİRİ

## 4.1. İngiltərənin Azərbaycanla bağlı geosiyasi maraqlarında "erməni amili"

İngiltərənin Azərbaycanla bağlı geosiyasi maraqları, ümumilikdə Qafqaz siyasəti "tarixi Şərq məsələsi"nin ayrılmaz tərkib hissəsi kimi dəyərləndirilməlidir. İnkaredilməz həqiqətdir ki, tarixən hər bir böyük güc öz imperialist siyasətini həyata keçirərkən müxtəlif bəhanələrdən və amillərdən istifadə etmişdir. Hal-hazırda dünyada baş verən hadisələrdə, böyük güclərin geosiyasi maraqlarında da bu amilləri müşahidə etmək mümkündür. XX əsrin əvvəllərində İngiltərənin istər Osmanlı coğrafiyasında, istərsə də Cənubi Qafqazda öz geosiyasi maraqlarını həyata keçirməsində başlıca rol oynayan amillərdən biri də məhz ermənilər idi. Qeyd etmək lazımdır ki, ermənilər XIX əsrin sonları və XX əsrin əvvəllərində İngiltərənin geosiyasi maraqlarının icraçısına çevrilsələr də, öz növbəsində dünyanın bu böyük gücündən gələcəkdə qurulması planlaşdırılan "Ermənistan dövləti" üçün öhdəliklər də tələb etmişdilər. Yəni ingilis-erməni əlaqələrini bir növ "qarşılıqlı istifadə və faydalanma" münasibətləri çərçivəsində xarakterizə etmək olar.[1] Qeyd olunduğu kimi, İngiltərə "erməni məsələsi"nin ortaya çıxmasında və millətlərarası problemə çevrilməsində başlıca rol oynamış, özünün Osmanlı torpaqları ilə bağlı ekspansionist siyasətində, o cümlədən Cənubi Qafqazla bağlı geosiyasi maraqlarında

---

[1] Bu barədə geniş məlumat üçün bax: Şıxəliyev Emin. İngiltərənin geosiyasi maraqlarında "erməni məsələsi"nin yeri və Azərbaycana təsiri (1917-1920). Naxçıvan: Əcəmi, 144 s.

ermənilərdən əsas vasitə kimi istifadə etmişdir. Bu məsələyə keçməzdən əvvəl ingilislərlə ermənilər arasındakı münasibətlərin tarixinə nəzər salmağı vacib hesab edirik.

Hər iki millət arasındakı münasibətlərin kökü orta əsrlərə qədər gedib çıxır. Bəzi mənbələrdə ermənilərin VII əsrdə İngiltərədə mövcud olduqları göstərilir.[1] Bu dövrdə ermənilər Ərəb-İslam dövlətinin genişlənməsi nəticəsində Avropaya gəlmiş, az bir hissəsi də İngiltərədə məskunlaşmışdır. Orta əsrlərdə başlayan əlaqələr daha çox dini və ticarət səviyyəsində inkişaf etmişdir. Xüsusilə xaçlı səfərləri əsnasında Kilikiya ətrafındakı ermənilər ilə İngiltərədən bu səfərə qatılanlar arasında ən üst səviyyədə əlaqələr qurulmuş və türklərə qarşı xaçlılar ilə ittifaq quran ermənilərin bu münasibəti digər xaçlılar kimi ingilislərdə də böyük rəğbət yaratmışdır. Türk tədqiqatçıları Sədat Laçınər və Ehsan Bal bəzi erməni mənbələrinin *"ermənilərin türk işğalından qaçaraq İngiltərəyə sığınmış olduqları, hətta türklər əleyhinə Avropada təbliğatlar apardıqları, hər iki xalq arasındakı münasibətlərin isbatı olaraq ingilis kralı III Henri ilə Hetum arasındakı məktublaşmalar"* barədə verdikləri məlumatları müqayisəli şəkildə təhlil edərək göstərirlər ki, istər xaçlı səfərləri əsnasında, istərsə də sonrakı dövrlərdə ermənilərin İngiltərə və Avropanın digər xristian ölkələrində dəstək axtarışları ermənilərin yaşadıqları ərazilərdəki xalqlara qarşı kənar güclərdən yardım umduğunu ortaya qoyur.[2]

Daha sonrakı dövrlərdə ermənilər İngiltərənin xarici siyasətinin önəmli bir parçasına çevrildilər. Bu, hər şeydən əvvəl ingilislərlə təmas vəziyyətində olan bəzi erməni tacirlərinin Şərq dillərini (os-manlıca, farsca, hindcə və s.) bilmələrindən irəli gəlirdi. Bununla birlikdə onların xristian olmaları da ermənilərə böyük üstünlük qazandırmışdır. Bu dövrdə Hindistanı və ümumiyyətlə, Asiyanı müstəmləkələşdirmə

---

[1] Karacakaya R. İngiltere'de ermeni propagandası ve Osmanlı devletinin buna karşı aldığı önlemler (1878-1900) // Ermeni Araştırmaları Dergisi, 2003, sayı: 11, s. 48; Laçıner S., Bal İ. İngiltere ermenileri, lobicilik ve ermeni sorunu // Ermeni Araştırmaları Dergisi, 2002, sayı: 7, s. 73.

[2] Laçıner S., Bal İ. İngiltere ermenileri, lobicilik ve ermeni sorunu, s.74

siyasəti yeridən İngiltərə üçün ermənilər çox əlverişli bir vasitə ola bilərdi ki, bu da öz bəhrəsini verdi. İngiltərənin Hindistana girişində ermənilər böyük rol oynadılar. Bölgəni çox yaxşı tanıyan və dil problemi olmayan ermənilər başlanğıcda İngiltərəyə könüllü olaraq yardım etdilər. Hətta İngiltərənin Şərq ticarətində önəmli paya da sahib oldular. Ermənilər sadəcə Hindistan deyil, İngiltərə-İran xəttində də önəmli paya sahib idilər. Onlar əsas olaraq ipək, qumaş və ədviyyat ticarəti ilə məşğul idilər. [1]

XVII əsrdə erməni tacirlərinin xidmətləri nəzərə alınaraq onlar Kraliyyət Fərmanı (Royal Charter) ilə mükafatlandırılmış və İngiltərənin azad vətəndaşları statusuna layiq görülmüşlər. Ticarətdəki bu uğurlar ingilislərin ermənilərə olan rəğbətini daha da artırmış və sonrakı dövrlərdə bu rəğbət özünü siyasətdə də göstərmişdir.[2] Bu rəğbətin arxasında ingilis milli maraqlarının dayandığını xüsusilə qeyd etmək lazımdır. Yeddiillik müharibələrdən Birinci Dünya müharibəsinə qədər olan dövrdə getdikcə güc itirən və "xəstə adam" deyə adlandırılan Osmanlı imperiyasının zəngin və strateji əraziləri bir çox müstəmləkəçi dövlət kimi İngiltərənin də diqqətini çəkmişdi. Bu müstəmləkəçi dövlətlər Osmanlı imperiyasının əraziləri uğrunda öz aralarında qızğın rəqabət aparırdılar. Başlıca imperialist dövlətlər olan İngiltərə, Rusiya, Fransa, sonradan Almaniya və İtaliya üçün ən önəmli məsələ Osmanlı torpaqlarının necə bölüşüləcəyi, bu imperiyanın qeyri-müsəlman etnik ünsürlərindən hansı şəkildə öz mənafeləri üçün yararlanılması idi.

XVIII əsrin sonlarndan etibarən Osmanlı dövlətinin ərazi bütövlüyünü müdafiə etmək siyasətini yeridən İngiltərə 1877-1878-ci illər Osmanlı-Rusiya müharibəsindən sonra Osmanlı imperiyasının ərazi bütövlüyünə əsaslanan ənənəvi siyasət prinsiplərindən zahirən ayrılmasa da, bu dövlətin özü üçün strateji əhəmiyyət daşıyan ərazilərinə sahib olmaq və ya ən azından bu ərazilər üzərində nəzarət və təsirini gücləndirmək siyasətinə yönəldi. Digər bir ifadə ilə, əvvəllər Osmanlı

[1] Armenians in Madras. www.chennaionline.com.
[2] Laçıner S., Bal İ. İngiltere ermenileri, lobicilik ve ermeni sorunu, s. 75

dövlətinin ərazi bütövlüyünü müdafiə edən İngiltərə XIX əsrin ikinci yarısından etibarən Osmanlı dövlətini yıxmaq məqsədini daşıyan bir siyasəti mənimsəməyə başladı. Bunun əsas səbəbi də ondan ibarət idi ki, İngiltərənin siyasi xadimləri əvvəllər Hindistan yolunun Osmanlı dövlətinin ərazi bütövlüyü ilə təminat altına alınacağı fikrini mənimsəmişdilər. Lakin XIX əsrdən etibarən bu dövlətin çox qısa bir müddətdə dağılacağını dərk edən İngiltərə Osmanlı dövlətinin torpaqları üzərində yeni dövlətlər yaratmağı və bu sayədə Hindistanı və Hindistan yolunu təminat altına almağı qarşısına məqsəd qoydu. İngiltərənin əsas məqsədi bunlar idi:

a) Öz ərazi bütövlüyünü qoruya bilməyən və itirən Osmanlı dövlətinin torpaqlarının İngiltərənin maraqlarına zərər verə biləcək və müstəmləkələrini təhdid edə biləcək bir ölkənin əlinə keçməsinə mane olmaq;

b) Rusiyanın isti dənizlərə enməsinin qarşısını almaq üçün əvvəllər Osmanlı dövlətinin ərazi bütövlüyünü qorumaq istəyən İngiltərənin artıq bu dövlətin sonunun yaxınlaşdığını gördüyü üçün Osmanlı imperiyasının torpaqları üzərində özündən asılı dövlətlər yaratmaqla müstəmləkələrinin təhlükəsizliyini təminat altına almaq.[1]

Erməni məsələsi də İngiltərənin bu siyasətinin bir parçası idi və qlobal xarakterli həmin məsələnin ortaya çıxmasında İngiltərə-Rusiya rəqabətləri böyük rol oynamışdır. Erməni məsələsini ortaya atmaqla İngiltərə sadəcə Osmanlı torpaqlarını parçalamağı və parçalanmış ərazilər üzərində hegemonluq qurmağı hədəfləməmiş, eyni zamanda Rusiyanın Aralıq dənizinə enməsinin qarşısını almaq istəmişdir. Məlum olduğu kimi, İngiltərə dünyanın ən böyük dəniz gücünə sahib idi və dünya ticarətini əlində saxlayırdı. Qazandığı zəfərləri ilə rəqibsiz bir gücə çevrilmişdi. İngiltərənin ali strategiyası güclü diplomatik və strateji balans əsası üzərində qurulmuşdu. 1890-cı illərdə İngiltərə Fransa ilə açıq dənizlərdə, Afrikada, Yaxın və Uzaq Şərqdə, Almaniya ilə

[1] Armaoğlu F. 19. yüzyıl siyasi tarihi (1789-1914). Ankara: Türk Tarih Kurumu, 1997, s.564-567; Avcı H. İngiliz-ermeni ittifakı. İstanbul: Paraf yayınları, 2010, s.201.

Avropa rəqabətində və Osmanlı imperiyasının torpaqları üzərində, Rusiya ilə də Yaxın Şərqdə, Balkanlarda, Anadoluda və Asiyada, xüsusilə Əfqanıstan və Çində rəqib idi. Eyni zamanda Osmanlı imperiyasının torpaqları İngiltərəni çox maraqlandırırdı. Buna görə də Balkanlarda Bolqarıstanı, Anadoluda Ermənistanı, Yaxın Şərq torpaq-larında da özündən asılı ərəb dövlətləri yaratmaqla Rusiya, Fransa və Almaniyaya qarşı rəqabət və güc mübarizəsində ingilis maraqlarına uyğun olaraq üstünlük əldə etmək istəyirdi. İngiltərə baxımından "erməni məsələsi"nin mənası da bu üstünlüyə nail olmaq üçün ondan vasitə kimi istifadə etməkdən irəli gəlirdi.[1]

Qeyd etmək lazımdır ki, 1878-ci il tarixli San-Stefano anlaşmasının 16-cı maddəsi İngiltərəni Rusiyanın Osmanlı torpaqlarını işğal edəcəyi düşüncəsi ilə qorxutmuşdu. Əgər Rusiya Şərqi Anadolu yolu ilə bir tərəfdən İsgəndərun, digər tərəfdən də Mesopotamiya yolu ilə Bəsrə Körfəzinə ensəydi, İngiltərə üçün ciddi və ağır nəticələr yarana bilərdi. İngiltərəyə görə, bu təhlükəni aradan qaldırmağın yeganə yolu yuxarıda da qeyd edildiyi kimi, Osmanlı dövlətinin ərazi bütövlüyünü müvəqqəti olsa da, qorumaq və onun torpaqları üzərində nəzarət qurmaq olmuşdur. İngiltərə bu planı reallaşdırmaq üçün Berlin anlaşmasından öncə Rusiyanın təhdidinə qarşı osmanlılarla müdafiə anlaşması imzalamaq istədi.[2] İngiltərənin Xarici İşlər naziri Robert Solsberinin Rusiyanın təzyiqi qarşısında İngiltərənin türklər üçün deyil, Osmanlı imperiyası üçün mübarizə aparacağını dilə gətirməsi çox düşündürücüdür.[3] Bu söz əslində çox şeyi açıqlayır. Buradan aydın olur ki, İngiltərəni qətiyyən türklər maraqlandırmamışdır. Solsberiyə görə, ruslar Qarsı almaqla kifayətlənməyəcək, Anadolunu da eyni Balkanlar kimi

---

[1] Şıxəliyev E. Ermənistan-Azərbaycan münaqişəsi sivilizasiyalararası münasibətlər kontekstində. Bakı: Elm və Təhsil, 2011, s.223; Avcı Halil Ersin. İngiliz-ermeni ittifakı, s.129-131s

[2] Mazıcı N. Belgelerle uluslararası rekabette ermeni sorunu'nun kökeni (1878-1918). İstanbul: Gümüş basımevi, 1987, s.22

[3] Küçük C. Osmanlı diplomasisinde ermeni meselesi'nin ortaya çıkışı (1878-1897). İstanbul: Türk Dünyası Araştırma Vakfı yayınları, 1986, s.5

parçalayacaqdı. Bu vəziyyətə mane olmaq üçün İngiltərə ilə Osmanlı dövləti arasında Asiya torpaqlarının müdafiəsini nəzərdə tutan bir ittifaq anlaşmasının imzalanması vacib idi.[1] Yeni anlaşmanın Berlində imzalanması qərarlaşdırıldı. Osmanlı döv-ləti İngiltərənin Berlində onu dəstəkləyəcəyini ümid edirdi. Lakin İngiltərə Osmanlı dövlətinin vəziyyətinin gərgin olduğunu bildiyindən Berlin Konqresində təhdid yoluna baş vuraraq Osmanlıdan Kipr adasını müvəqqəti də olsa aldı. 4 iyun 1878-ci ildə imzalanan və 15 iyul 1878-ci ildə II Əbdülhəmid tərəfindən təsdiq edilən anlaşmaya görə, Osmanlı dövləti Şərqi Anadoluda yaşayan ermənilər üçün İngiltərə ilə birlikdə qərarlaşdıracağı islahatlar aparacaqdı. İngiltərə də Şərqi Anadoludakı rus təhdidini aradan qaldırmaq üçün bu təhlükə sovuşuncaya qədər Kipri əlində saxlayacaqdı. Beləliklə, İngiltərə Hindistana gedən ən qısa yolun təhlükəsizliyini təmin etmiş oldu.[2] Göründüyü kimi, islahatlar barəsində İngiltərə erməniləri deyil, öz maraqlarını qorumaq üçün siyasət yeritmiş və Rusiyaya qarşı baza olaraq Kipr adasını ələ keçirmişdir.

1880-ci ildə antitürk düşüncələri ilə məşhur olan V.Qladstonun seçkilərdə qalib gələrək Baş nazir seçilməsi ilə İngiltərə sanki ermənilərin vəkilinə çevrilmiş oldu.[3] Qladston ilk iş olaraq "erməni məsələsi"nə yenidən nəzər yetirmiş, Bab-ı Aliyə *(Osmanlıya- Red)* nota göndərərək ermənilərin məskunlaşdığı yerlərdə islahatların aparılmasını tələb etmiş, Osmanlı dövləti isə öz cavabında islahatların onsuz da aparıldığını bildirmişdir.[4] Qladstonun bu təşəbbüsü ermənilərdə böyük ümidlər doğurmuşdur. 1880-ci illərdən başlayaraq İngiltərənin dəstəyini arxasında hiss edən ermənilər öz fəaliyyətlərini daha da artıraraq müstəqil Ermənistan dövlətini yaratmaq üçün müxtəlif cəmiyyətlər qurmağa başladılar və yerlərdə dövlət əleyhinə üsyanlar çıxardılar.

[1] Mazıcı N. Belgelerle uluslararası rekabette ermeni sorunu'nun kökeni (1878-1918), s.5
[2] Halaçoğlu Y. Ermeni tehciri ve gerçekler. Ankara: Türk Tarih Kurumu yayınları, 2001, s.15
[3] Halaçoğlu Y. Ermeni tehciri ve gerçekler. Ankara: Türk Tarih Kurumu yayınları, 2001, s.168
[4] Armaoğlu F. 19. yüzyıl siyasi tarihi (1789-1914), s.571

Ermənilərlə müsəlmanlar arasında baş verən münaqişələr Avropada ermənilərin türklər tərəfindən qətl edildikləri şəklində təbliğ olundu. İngiltərə Rusiya və Fransa ilə birlikdə islahat məsələsini yenidən gündəmə gətirdi. Bu üç dövlətin İstanbuldakı səfirləri Erməni Patrik-liyinin də əsas götürdüyü prinsiplər çərçivəsində 11 may 1895-ci ildə Bab-ı Aliyə bir memorandum verərək 6 vilayət – Ərzurum, Bitlis, Van, Sivas, Diyarbəkir və Harput – üçün islahat layihəsini təqdim etdilər. İngiltərə bu layihəyə adı keçən vilayətlərə təyin ediləcək valilərin dövlətlər tərəfindən təyin və ya azad edilməsi haqqında bir maddə əlavə etmək istəsə də, Rusiya ilə Fransa bu təklifi rədd etdilər. Çünki İngiltərənin bu təklifinin qəbul edilməsi ona "erməni məsələsi"nə istədiyi kimi müdaxilə etmək hüququnun verilməsi mənasına gəlirdi. İngiltərə Osmanlıya bu layihəyə ən qısa müddətdə müsbət cavab verməzsə, hərbi gücdən istifadə edəcəyini bildirdi. Bu təhdid öz növbəsində Rusiyanı narahat etməyə bilməzdi. İngilislərin "erməni siyasəti"nin əsl niyyətinin Osmanlı imperiyasının Şərqi və Cənub-Şərqi Anadolu bölgələrini öz nəzarəti altına almaq istədiyini və əgər İngiltərə burada yaşayan ermənilər üzərində hegemonluq qurarsa, bunun öz sərhədləri daxilindəki ermənilərə də təsir edəcəyini anlayan Rusiya hərbi gücə baş vurmağın əleyhinə olduğunu açıqlayınca, Osmanlı dövləti cəsarətlənərək İngiltərə tərəfindən təqdim olunan islahat layihəsini rədd etdi. İngiltərə onun niyyətlərini başa düşən Rusiya və Fransa qarşısında islahatlar barəsində Osmanlı dövlətinin üstünə çox getməsə də, yeni problemlər yaratmağa davam etdi.[1] Bu problemlər İngiltərənin Osmanlı torpaqlarında protestant missionerlərin fəaliyyətlərini daha da yönləndirməsi, geosiyasi məqsədli psixoloji hərəkatlara dəstək verməsi, türk düşmənçiliyi üzərinə qurulu olan ideoloji fikirləri silahlanma sayəsində düşüncədən praktikaya keçirməsi və s. ilə xarakterizə oluna bilər. Radikal erməni millətçiliyinin oyanmasında bu fəaliyyətlərin böyük rolu olmuşdur. Qeyd etmək lazımdır ki, erməni milli şüuru böyük güclərin geosiyasi gözləntilərinin fərqli, hətta bir-

[1] Yenə orada, s.571

biriylə toqquşan maraqları nəticəsində ortaya çıxmışdır. Erməni terror təşkilatlarından da əsas silah olaraq geosiyasi məqsədlərə xidmət edəcək tərzdə istifadə olunmşdu. Böyük Güclərin ayrı-ayrılıqda geosiyasi planlarının erməni terror təşkilatları üzərində böyük təsiri var idi.[1] Məhz həmin təsirlərin nəticəsi idi ki, çox sayda türk-müsəlman əhali XIX əsrin sonlarından etibarən qurulmağa başlayan erməni terror təşkilatlarının qurbanına çevrildi. Bu terror təşkilatlarının silahlandırılması ilə Anadoluda və Qafqazda qanlı cinayətlərə imza atıldı.

Bir məsələni də xüsusilə qeyd etmək lazımdır ki, bu terror təşkilatlarından öz mənafeləri üçün yararlanmaq istəyən dövlətlər, xüsusilə Rusiya ilə İngiltərə aralarındakı geosiyasi rəqabətə baxmayaraq, 1895-ci ildən sonra getdikcə güclənən Almaniya qarşısında bir-birilərinə yaxınlaşmağa başladılar. Daha doğrusu, Almaniya qorxusu hər iki dövləti bir-birinə yaxınlaşdıran ən önəmli faktor oldu. Aralarındakı ixtilaflı məsələləri uzlaşma yolu həll etməyi qarşılarına qoyan Rusiya və İngiltərə münasibətlərini 1907-ci ildə imzaladıqları bir müqavilə ilə yenidən qurdular və Antanta çərçivəsində birlikdə hərəkət etməyə başladılar. Hər iki dövləti maraqlandıran məsələ Almaniyanı "Şərq" məsələsindən uzaqlaşdıraraq, Osmanlı dövlətinin zəngin strateji torpaqlarına sahib olmaq idi[2]. Lakin Birinci Dünya müharibəsinin sonlarına doğru dünyanın siyasi mənzərəsində önəmli dəyişikliklər baş verdi. 1917-ci ildə oktyabr çevrilişinin baş verməsi ilə Antantanın əsas üzvlərindən biri olan Rusiya müharibədən çəkilmək məcburiyyətində qaldı. Antanta ittifaqında Rusiya ilə boşalan yeri ABŞ əvəz etdi. Beləliklə, erməni təşkilatları üzərində tam nəzarət belə demək mümkündürsə, İngiltərəyə keçdi.

İngilislər Birinci Dünya müharibəsi illərində də erməni təşkilatlarına dəstək verərək, onları etnik-milli münaqişələrə və qırğınlara təş-

---

[1] Armaoğlu F. 19. yüzyıl siyasi tarihi (1789-1914), s.571; Avcı Halil Ersin. İngiliz-ermeni ittifakı, s.188; Uras Esat. Tarihte ermeniler ve ermeni meselesi. İstanbul: Belge yayınları, 1987, 798 s.

[2] Armaoğlu F. 19. yüzyıl siyasi tarihi (1789-1914), s.450; Avcı Halil Ersin. İngiliz-ermeni ittifakı, s.128-136

viq etmiş, öz siyasətinə uyğun olaraq ermənilərin siyasi gələcəyinə dair öhdəliklər götürmüş, "Müstəqil Ermənistan" üçün ciddi vədlər vermiş, sadəcə Şərqi Anadoluda deyil, Cənubi Qafqazda da onlardan yararlanmış, "erməni məsələsi"ni Azərbaycanda və onun ayrılmaz parçası olan Naxçıvanda gündəmdə tutmuşdur. Bu təşviq hərəkətlərinin pərdə arxası nə idi? Ermənilərin vəziyyəti ingilisləri bu qədər yaxından maraqlandırırdısa, nəyə görə Osmanlı torpaqları üzərində özündən asılı milli dövlətlər yaratma siyasətinə uyğun olaraq Şərqi Anadoluda bir erməni dövlətini qurmadı? Nəhəng Osmanlı İmperiyasını parçalayaraq onun torpaqları üzərində mandatlıq rejimi ilə özündən asılı çox sayda dövlətlər *(ərəb dövlətləri – Red.)* yaradan İngiltərə baxımından bu ərazidə "erməni dövləti"nin yaradılması çətin idimi? "Erməni dövləti"nin yaradılması planının Cənubi Qafqaza ixrac edilməsinin əsas səbəbləri nə idi? Bu suallara cavab verə bilmək üçün o dövrün siyasi proseslərini diqqətlə təhlil etmək lazım gəlir.

Geostrateji baxımdan Cənubi Qafqaz İngiltərə üçün böyük əhəmiyyətə malik idi. Xüsusilə Azərbaycan, onun iri sənaye-maliyyə mərkəzi olan Bakı üzərində nəzarətin ələ keçirilməsi və Xəzər limanının zəbt olunması cəhdləri ingilis siyasətinin ənənəvi və prioritet istiqamətlərindən idi, eyni zamanda onun ümumilikdə Avrasiya ilə bağlı əsas geosiyasi konsepsiyasına uyğun gəlirdi. Xəzər dənizinə sahib olmaq təkcə Qafqaza deyil, eyni zamanda Mərkəzi Asiyada nəzarət qazanmaq, Hindistana gedən yolu qorumaq demək idi.[1] Lakin 1917-ci ildə Rusiyada baş verən hadisələr nəticəsində Qafqaz Osmanlı dövləti üçün açıq dəhlizə çevrildi. Meydana gələn proseslər türklərə Qafqaz vasitəsilə İrana və Orta Asiyaya girmək üçün əlverişli imkan yaratmış, Hindistan təhlükə altına düşmüşdü. Çar Rusiyasında ortaya çıxan qarışıqlıqlar türklərə öz planlarını tətbiq etmək üçün bir fürsət yaratmışdı.

[1] Qasımlı M. Antanta ölkələrinin Güney Qafqaz siyasəti (1917-ci il noyabr – 1918-ci il noyabr) / Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam ordusu. Bakı: Qafqaz Universiteti Qafqaz Araşdırmaları İnstitutu nəşriyyatı, 2008, s. 208

Bununla yanaşı, Pantürkist (və ya Turançılıq) arzuların reallaşması üçün də bir yol açılmışdı.

Məlum olduğu kimi, "Turançılıq" ideologiyası Birinci Dünya müharibəsi dövründə iqtidarda olan "İttihad və Tərəqqi" Partiyasının xarici siyasətində önəmli bir rol oynayırdı. "Turan" sözü fars mənşəli olub, iranlıların İranın şimal-şərqindəki ölkələrə verdikləri addır. "Turançılıq" məfhumu ilk dəfə Macarıstanda 1839-cu illərdən etibarən istifadə olumağa başlanmış və "uzaq anavətən düşüncəsi" mənasını özündə ehtiva etmişdir.[1] Qeyd etmək lazımdır ki, Macarıstan sadəcə "Turançılıq" məfhumunun ilk istifadə olunduğu yer olmamış, eyni zamanda XIX əsrin sonlarına doğru Pantürkizm cərəyanının da ortaya çıxdığı ilk məkan olmuşdur. Heç təsadüfi deyildir ki, macar şərqşünası Arminius Vamberi türkçülüyün qurucusu hesab olunur. *"Orta Asiyaya səyahət"* adlı kitabında Vamberi *"Bir türk xanədanı olaraq Osmanlı dövləti dinləri, dilləri və tarixləriylə bir-birilərinə bağlı olan türk xalqlarını bir araya gətirərək Adriatik sahillərindən Çinin içərilərinə qədər güclü bir imperiya qura bilərdi. Anadolululardan, azərbaycanlılardan, türkmənlərdən, özbəklərdən, qırğızlardan və tatarlardan mütəşəkkil olan bir türk bloku şimal qonşusuna (Rusiya) qarşı bugünki Türkiyədən (Osmanlı dövləti) daha balanslı vəziyyətdə olardı"* – deyə yazaraq, həm siyasi türkçülüyün proqramını ilk dəfə ortaya qoymuş, həm də "Adriatik sahillərindən Çinin içərilərinə qədər" məfhumunu ilk dəfə işlətmişdir.[2] Göründüyü kimi, burada "Turançılıq" ideyasının siyasi məna etibarilə türk mənşəli bütün xalqların Osmanlı dövlətinin hakimiyyəti altında birləşmələri və siyasi birlik qurmaları nəzərdə tuturdu.

Qeyd etmək lazımdır ki, Avropada meydana gələn milliyyətçi cərəyanları güc qazandıqca, Osmanlı ziyalıları da istər-istəməz bunun

[1] Çolak M. Alman imparatorluğu'nun Doğu siyaseti çerçevesinde Kafkasya politikası (1914-1918). Ankara: Türk Tarih Kurumu yayınları, 2006, s.126

[2] Vambery Arminius. Travels in Central Asia. London: John Murray, Albemarie Street, 1864, s.378.

təsiri altında qalmışlar. Lakin Osmanlı dövlətindəki türkçülüklə bağlı proseslər sırf bu dövlətin sərhədləri içərisində yaşayan türklər düşünülərək uzun müddət ədəbiyyat, teatr və digər sənət sahələri ilə məhdud qalmışdır. Bütün türk dünyasını əhatə edəcək şəkildə yayılan fikir tendensiyaları ümumiyyətlə, Rusiyadakı türklərdən gəlmişdir. İsmayıl bəy Qaspıralı türkçülüyün bəzi əsaslarını işləyib hazırlamışdı. Onun 1883-cü ildən etibarən rus və türk dillərində nəşr etdirdiyi "Tərcüman" qəzetinin türkçülük şüarı "dildə, fikirdə, işdə birlik" idi.[1]

Türkçülük mövzusunda türk irqinə söykənən ilk əsaslı və sistemli siyasi şüarı İsmayıl bəy Qaspıralının kürəkəni Yusif Akçura tərəfindən ortaya atılmışdır. O, *"Üç tarz-ı siyasət"* adlı kitabında 3 əsas mövzu – əvvəlcə "Osmançılıq", sonra "İslamçılıq", nəhayət, "Türkçülük" üzərində dayanırdı[2].

XX əsrin əvvəllərində Türkiyənin siyasi və ictimai xadimləri arasında Osmanlı dövlətinin tənəzzülünün qarşısını almaq məqsədilə həyata keçirilməli olan siyasi tədbirlərlə bağlı gərgin müzakirələr gedirdi. Yusif Akçuranın qeyd olunan üç prinsipi həmin müzakirələrin əsas mövzusu idi. Gizli şəkildə Tibbiyə məktəbində yaranan "İttihad və Tərəqqi" Cəmiyyəti də bu üç yoldan hansının tənəzzülün qarşısını alacağı, qurtuluşu təmin edəcəyi və reallığa uyğun olacağı üzərində baş sındırırdılar. İttihadçılar iqtidarı ələ keçirdikdən sonra "Osmançılıq, İslamçılıq və Türkçülük" cərəyanlarının hər üçünə əsaslanan bir siyasət yeritməyə başladılar. Lakin Birinci Dünya müharibəsi başladıqdan sonra inkişaf edən proseslər nə Osmançılığın, nə də İslamçılığın reallaşmasının mümkün ola bilməyəcəyini ortaya qoydu. Müharibə irəlilədikcə, ərəblərin ingilislərə, ermənilərin də Antanta dövlətlərinə yaxınlaşmalarını görən rəhbərlik bütün diqqətini Qafqaz və Orta Asiyaya yönəldərək, dövlətin rəsmi ideologiyası olaraq Türkü-

---

[1] Çolak Mustafa. Alman imparatorluğu'nun Doğu siyaseti çerçevesinde Kafkasya politikası (1914-1918),s.128; Qafarov Vasif. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922). Bakı: Azərnəşr, 2011, s.32

[2] Akçura Y. Üç tarz-ı siyaset. Ankara: Türk Tarih Kurumu yayınları, 1998, s.27

çülük, daha doğrusu Turançılıq xəttini qəbul etdi.[1] Digər tərəf-dən, o dövrün məşhur türkçülərindən Yusif Akçura, Məmməd Emin Əfəndi, Halidə Edip, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Ziya Göyalp və başqalarının "İttihad və Tərəqqi" Partiyasına daxil olmaları, türkçülük ideologiyasının partiya tərəfindən mənimsənilməsi Osmanlı dövlətinin xarici siyasətinə əsaslı təsir göstərmiş və xarici siyasətin "Turançılıq" üzərində qurulub möhkəmlənməsinə gətirib çıxarmışdı.[2]

Qeyd olunduğu kimi, 1917-ci ildə Rusiyada meydana gələn qarışıqlıqlar türklərə öz planlarını və Pantürkist ideyalarını tətbiq etmək üçün bir fürsət yaratmış, beləliklə, Qafqaza və Xəzər ətrafına, oradan da Orta Asiyaya doğru irəliləmə ehtimalı daha da güclənmişdi. Şərqdəki ingilis maraqları baxımından ciddi təhlükə kəsb edən bu proseslər, Türkiyə, Azərbaycan, İran, Əfqanıstan və Orta Asiya türklərinin birliyi əsasında dünyanın siyasi sistemində çox güclü bir Türk-İslam ittifaqının meydana gəlməsi ehtimalı İngiltərəni müəyyən tədbirlər görmək məcburiyyəti qarşısında qoydu. Çünki belə bir ehtimalın reallaşması İngiltərənin maraqlarına həm Orta Asiyada, daha sonra isə Cənubi Asiyada zərbə vura bilərdi.[3] Panturanizm təhlükəsi ilə qarşılaşan İngiltərə Qafqazı strateji baxımdan İran, Əfqanıstan və daha da önəmlisi Hindistandakı iqtidarı üçün həyati dərəcədə əhəmiyyətli hesab edirdi. Yaxın gələcəkdə türk hegemonluğunun qurulması ehtimalı nəzərə alınaraq, İngiltərənin Asiyadakı mövqeyi baxımından real təhlükə mənbəyinin aradan qaldırılması üçün mütləq şəkildə Türkiyə ilə Türk Dünyası arasında bir sədd yaradılmalıydı. Digər tərəfdən, Qafqazın türklər tərəfindən ələ keçirilməsi İngiltərənin yalnız regional deyil, ümumi maraqları baxımından da mənfi nəticələr doğura bilərdi. Azər-

---

[1] Qafarov V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922), s.35; Yılmaz R. Birinci Dünya müharibəsinin başlanğıcında Osmanlı dövlətinin Qafqaz siyasəti / Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı: Qafqaz Universiteti Qafqaz Araşdırmaları İnstitutu nəşriyyatı, 2008, s. 58; Çolak Mustafa. Alman imparatorluğu'nun Doğu siyaseti çerçevesinde Kafkasya politikası (1914-1918), s.130

[2] Qafarov V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922), s.35

[3] Öke Mim Kemal. Siyonizm'den uygarlıklar çatışmasına Filistin sorunu. İzmir: Ufuk kitapları, 2002, s.320

baycandakı neft rezervləri ilə Gürcüstandakı mədən və kömür yataqlarının da türk və alman güclərinin əlinə keçməsi İngiltərənin bütün planlarını alt-üst edə bilərdi.[1] Məhz bu baxımdan baş verən proseslər qarşısında lazımi tədbirlər görülməliydi.

İngiltərənin prioritet məqsədi Qafqazdakı müxtəlif etnik və dini qruplar içərisində hansı millətin türklərə qarşı ciddi müqavimət göstərə biləcəyini müəyyənləşdirmək idi. Türksoylu olması baxımından Osmanlıya rəğbət göstərən Azərbaycan türklərinə etimad göstərilməyəcəyi bəlli idi. Öz növbəsində Azərbaycan türkləri də İngiltərənin ermənilərə göstərdiyi yardımlardan dolayı olduqca narahat idilər. Hətta bu yardım ermənilər tərəfindən azərbaycanlılara qarşı qıcıqlandırma metodu kimi də istifadə olunurdu. Ermənilərin bu davranışları xalqda ingilis hökumətinin açıq şəkildə antiislam siyasət yeritməsi yönündə fikirlər formalaşdırırdı.[2] İngiltərənin Tehrandakı səfiri cənab Marlin (C.Marling) Xarici İşlər Nazirliyinə göndərdiyi məlumatda Azərbaycanda yaşayan tatarların *(türklərin – Red.)* getdikcə Türkiyə türklərinə daha çox meyil etdiklərini bildirirdi.[3] Xristian gürcülərin isə almanlarla XIX əsrdən bəri müəyyən əlaqələri vardı.[4] Vəziyyəti nəzərə alaraq İngiltərənin Ali Baş Qərargah rəhbərliyi tərəfindən verilən memorandumda sadəcə ermənilərə etimad göstərilə biləcəyi bildirilirdi.[5] Nəticə etibarilə ingilis dəstəyinin ən etibarlı namizədi xristian ermənilər idi. Ermənilərin əksəriyyətinin çar ordusunda vuruşmuş olduqları və əgər müharibə Antanta dövlətlərinin xeyrinə bitərsə, onlara müstəqillik vəd edildiyindən əzmli şəkildə mübarizə aparacaqlarını da isbat etmələri də erməniləri layiqli namizədə çevirən amillərin başında gə-

---

[1] Başak Tolga. İngiltere'nin ermeni politikası (1830-1923). İstanbul: IQ Kültür Sanat yayıncılık, 2008, s.246

[2] PRO. FO. 371/3301/131359, C-in-C. India to War Office, no: 56896, July 20th, 1918

[3] PRO. FO. 371/3300/19679, Sir C.Marling (Tehran) to Foreign Office, no: 76, January 30th, 1918.

[4] Çolak M. Alman imparatorluğu'nun Doğu siyaseti çerçevesinde Kafkasya politikası (1914-1918), s.184, 195, 283

[5] PRO. FO. 371/3284/75611, "Memorandum Regarding the Support Afforded to the Armenians", Department of Military Intelligence to Foreign Office, April 29th, 1918

lirdi. Əslində ermənilərin başqa yolu da yox idi, çünki onlar Antanta dövlətlərinə öz sadiqliyini nümayiş etdirərək türklərə qarşı xəyanətkarlığın sıxıntısı içərisində idilər. Rus ordusu Ərzurum cəbhəsindən çəkilərkən ermənilər onların boşaltdıqları mövqelərə yerləşmişdilər. Bununla yanaşı, erməni hərbi dəstələrinin Qafqaza gətirilməsi üçün də bəzi fəaliyyətlər aparılırdı. Türklər qələbə qazandığı təqdirdə ermənilər çox şey itirəcəkdilər, lakin müttəfiqlərin zəfəri onlara çox şey qazandıra bilərdi. İngilislərin planları tamamilə fərqli idi. Onların əsas narahatlığı bölgəni türk və almanlara qarşı müdafiə tədbirləri ilə bağlı idi və bu tədbirlər içərisində ermənilərə xüsusi olaraq böyük ehtiyac hiss olunurdu. Bu baxımdan onlar maddi və mənəvi baxımdan dəstəklənirdilər.[1]

Digər tərəfdən, ermənilərin ingilis dəstəyinin ən layiqli və etibarlı namizədinə çevrilməsinin əsas səbəblərini onların "Böyük Ermənistan" ideologiyası ilə yaşamalarında və mifoloji düşüncələrə olan inamlarında da axtarmaq lazımdır.[2] Xüsusilə "vəd olunmuş torpaqlar" məsələsi erməni iddialarının başında gəlir. Məlum olduğu kimi, ermənilər dünya ictimaiyyətinə ən qədim xalq olduqlarını, Şərqi Anadolu və Qafqazın Hz. Nuh tərəfindən onlara vəd edildiyini isbat etməyə çalışırlar. Həmin vədlər çərçivəsində "Böyük Ermənistan" olaraq xarakterizə olunan bu torpaqlar dünyanın ilk qədim dövlətlərindən biri kimi Aralıq dənizi də daxil, Qaradənizdən Xəzər dənizinə qədər böyük bir ərazini əhatə edir. Erməni iddialarına görə, Türkiyənin şərq bölgələri, yəni Şərqi Anadolu "Böyük Ermənistan"ın ayrılmaz hissəsidir,

---

[1] Hopkirk P. İstanbul'un doğusunda bitmeyen oyun. İstanbul: Yeni Yüzyıl – Sabah yayınları, 1995, s.323-324

[2] Şıxəliyev E. "Böyük Ermənistan" ideologiyasının mifoloji əsasları // Journal of Qafqaz University. History, Law and Political Sciences, 2013, volume 1, number 1, s. 38-45; Şıxəliyev E. Ermənilərin "din" strategiyasının əsas istiqamətləri // Strateji təhlil. Strateji Araşdırmalar Mərkəzi, Azərbaycan Respublikasının daxili və xarici siyasəti, beynəlxalq münasibətlərə dair analitik jurnal, 2014, say: 7-8, s. 65-81; Şıxəliyev E. Erməni iddialarının siyasi və mifoloji mahiyyəti // Strateji təhlil. Strateji Araşdırmalar Mərkəzi, Azərbaycan Respublikasının daxili və xarici siyasəti, beynəlxalq münasibətlərə dair analitik jurnal, 2016, say: 1-2 (15-16), s. 47-62

Qərbi Ermənistan olaraq tanınır, Azərbaycan isə Şərqi Ermənistan olaraq bilinir.[1]

Ermənilər arasında dərin kök salan digər mifoloji xarakterli iddia isə onların "dünyanın ilk xristian xalqı" olmaları ilə bağlıdır. Bu iddiaya görə, Hz. İsa Eçmiədzinə *(ermənilər Eçmiədzinin mənasını Tanrının yeganə oğlunun yer üzünə endiyi məkan olaraq izah edirlər – Red.)* enərək, ilk kilsəni məhz burada inşa etmiş, onu digər kilsələrdən fərqli olaraq daha ehtişamlı bir mövqeyə gətirmişdir.[2] Bunun da səbəbi ermənilərin Tanrı tərəfindən "seçilmiş bəndə" olması ilə əlaqələndirilir.

Göründüyü kimi, önə sürülən bu iddialar "Böyük Ermənistan" ideologiyasının gerçəkləşməsi üçün qonşu ölkələrin torpaqları üzərində yoxdan var edilən uydurma ərazi iddialarıdır və tamamilə mifoloji düşüncələrə əsaslanır. Qeyd etmək lazımdır ki, bu iddialar yeni deyil, uzun illərin, hətta əsrlərin məhsuludur.

Ermənilərin o dövrdə də belə iddialara aludə olduqlarını nəzərə alan İngiltərə üçün daha gözəl fürsət və bəhanə ola bilməzdi. Beləliklə, Şərqi Anadolu və Qafqazı türk və alman ordularına qarşı müdafiədə İngiltərə üçün başlıca tərcihə çevrilən, eyni zamanda türklərə qarşı vuruşmaq istəyən ermənilərlə ingilislər arasında əməkdaşlıq prosesi başladı. İngiltərə hökuməti tərəfindən strateji baxımdan son dərəcə əhəmiyyətli bir yer olan Qafqazın və bölgənin zəngin təbii qaynaqlarının türk və alman güclərinin əlinə keçməməsi üçün ermənilərin təşviqinə start verildi. Bu şəkildə ingilis imperiyası üçün kabusa çevrilən Panturanizmə qarşı sədd çəkiləcəkdi. Qafqazda ingilislərin hərbi məqsədləri çərçivəsində ermənilərdən istifadə olunması məsələsi Ru-

---

[1] Мнацаканян А.Ш. О литературе Кавказской Албании. Ереван: издательство "Академия Наук Армянской ССР", 1969, 220 с; Улубабян Б.А. Очерки историй Восточного края Армении (V—VII вв.). Ереван: изд-во "Академия Наук Армянской ССР", 1982, с44-48,67; Улубабаян Б.А. Очерки историй Восточного края Армении (V-VII вв). Ереван:изд-во «Академия Наук Армянской ССР», 1982, с.40.

[2] İlter Erdal. Ermeni kilisesi ve terör. Ankara: Ankara Üniversitesi Osmanlı Tarihi Araştırma və Uygulama Merkezi yayınları, 1996, s.19

siyanın Ali Baş Qərargahındakı ingilis generalı Barterin İngiltərənin Hərbi Kabinetinə göndərdiyi 15 oktyabr 1917-ci il tarixli teleqarfla gündəmə gəldi. General Barterə görə, Qafqaz birlikləri içərisində etimad ediləcək yeganə ünsür ermənilər idi. Bölgədə yeni erməni hərbi dəstələri yaradılmalıydı. General Barter bu barədə İngiltərənin Hərbi Kabinetinin razılığını istədi.[1] Batumdakı ingilis konsulu Stevensdən də oxşar məlumatlar gəlirdi. Stevens Qafqazdakı hərbi vəziyyət haqqında İngiltərənin Xarici İşlər Nazirliyinə göndərdiyi bir raportda Qafqaz cəbhəsində meydana gələn boşluğun xüsusilə ermənilərdən və gürcülərdən yararlanaraq doldurula biləcəyini göstərirdi. Bölgədəki ən sadiq və etibarlı namizəd ermənilər idi və onların müqavimət göstərəcək, hətta lazım gəldiyi təqdirdə türklərə qarşı hücuma keçəcək şəkildə saylarının artırıla biləcəyi də həmin raportda iddia edilirdi.[2] Türklərin Qafqazda geniş şəkildə Pantürkist təbliğat fəaliyyətlərinə başlaması ingilis hərbi dairələrini olduqca narahat edirdi. Bu baxımdan Qafqaz ordusunun mümkün olduğu qədər çox sayda ermənilərdən təşkil olunması fikri İngiltərənin Ali Baş Qərargah rəhbərliyi tərəfindən də dəstəkləndi.[3] Hərbi Kabinet də öz növbəsində 23 oktyabr 1917-ci ildə bu barədə bir qərar qəbul etdi.[4]

İngiltərə hökuməti Türkiyə ilə Türk Dünyası arasındakı yeganə baryerin ermənilər olduğunu anlamışdı. Bu səbəbdən Qafqazı türk ordularına qarşı müdafiə etmək üçün tərcih edilən millət ermənilər oldu. Məşhur ingilis tarixçisi, Birinci Dünya müharibəsi dövründə Hərbi Nazirliyin nəzdində fəaliyyət göstərən Təbliğat Bürosunun tanınmış nümayəndələrindən olan Arnold Tonbi (Arnold Toynbee) İngiltərənin

---

[1] PRO. CAB. 24/29, G.T.2347, General Barter, Russia to C.I.G.S. War Office, no: 1310, October 15th, 1917

[2] The National Archives of United Kingdom: Public Record Office Foreign Office Documents (PRO. FO): 371/3012/225901, "Military Situation in the Caucasus by Consul Stevens", Sir G.Buchanan (Petrograd) to Mr. Balfour, No: 247, November 17, 1917

[3] PRO. CAB. 24/29, G.T.2347, C.I.G.S., W.R.Robertson, C.I.G.S. to Secretary of War Cabinet, October 20th, 1917

[4] PRO CAB (Cabinet Papers). 23/4, War Cabinet, 255, Minutes of a Meeting of the War Cabinet held at 10, Downing Street on Tuesday, October 23th, 1917

Xarici İşlər Nazirliyinin nüfuzlu əməkdaşlarından cənab Kidstona yazırdı ki, *"bizim siyasətimiz erməniləri türk boyunduruğundan xilas etməkdir. Bu baxımdan mənafelərimizdən biri fəal şəkildə Turan hərəkatına mane olmaqdır".*[1]

Erməni ordusunun İngiltərə tərəfindən hərbi və maliyyə dəstəyi ilə təmin olunduğu bu dövrdə "erməni məsələsi"nə yönəlik siyasi açılımlar da özünü göstərdi. Ermənilər türklərə qarşı müharibə qarşılığında Ermənistanın gələcəyi ilə bağlı öhdəliklər tələb etdilər. Bu tələblər qarşısında London İngilis-Erməni Komitəsinin sədri və İngiltərə Parlamentinin üzvü Anerin Uilyams (Aneurin Williams) 4 dekabr 1917-ci ildə İngiltərənin məşhur diplomatlarından olan Xarici İşlər nazirinin müavini, eyni zamanda Millətlər Cəmiyyətinin qurucusu Lord Robert Sesilə (Robert Cecil) göndərdiyi məktubda ermənilərə yardım göstərilməsinin zəruri olduğunu bildirirdi. Anerin Uilyams hətta ermənilərin silahlandırılmasını və Andranik kimi silahlı dəstə liderlərindən istifadə edilməsini də son dərəcə gərəkli hesab edirdi.[2] Məktubda ingilis, fransız və amerikan hökumətlərinin də erməni ordusuna maddi dəstək vermələrinin vacib olduğu bildirilmiş, sərhədlərdən kənarda yaşayan ermənilərin pul yardımı ilə Şərqi Anadoluya və Qafqaza gətirilmələrinin qaçılmaz olduğu yazılmışdı.[3]

Parisdəki Erməni Nümayəndə Heyətinin rəhbəri Poqos Nubar paşa da öz növbəsində Avropanın nüfuzlu şəxsləri ilə keçirdiyi görüşlərdə bütün diqqətlərin Qafqaz cəbhəsinə verilməsini arzulayırdı. Onun düşüncəsinə görə, "məşhur erməni komandanı Andranik"ə silah, sursat və pul tədarük edilməsi durumunda 50-60 min nəfərlik bir ordu

---

[1] PRO. FO. 371/3448/178219, A.J.Toynbee to Mr. Kidston, October 26th, 1918

[2] PRO. FO. 371/3062/231202, Aneurin Williams to Lord Robert Cecil (Foreign Office), December 4th, 1917

[3] PRO. FO. 371/3062/231202, Aneurin Williams to Lord Robert Cecil (Foreign Office), December 4th, 1917

yaradıla bilərdi.[1] Əslində İngiltərə erməni birliklərindən sadəcə Qafqazda deyil, Mesopotamiya və İranda da yararlanmaq istəyirdi. Lakin 1917-ci ilin sonlarında İngiltərənin Xarici İşlər naziri Lord Artur Balfurla (Arthur James Balfour) görüşündə, Poqos Nubar paşa Andranik və erməni könüllü dəstələrinin İran və Mesopotamiya cəbhəsində vuruşmalarının mümkün olmayacağını, Qafqaz cəbhəsindəki hadisələrin daha ciddi xarakter alması səbəbiylə bu bölgədə mübarizə aparacaqlarını vurğuladı və bu iş üçün pul və silah dəstəyinə ehtiyac olduğunu da bildirdi.[2] A.Balfura görə, ermənilər üçün lazım olan pullar İrandakı mis mədənlərindən təmin edilə bilərdi.[3] Nəticədə İngiltərənin Hərbi Kabineti özünün 7 dekabr 1917-ci il tarixli iclasında ermənilərə maliyyə dəstəyi verilməsi haqda qərar qəbul etdi.[4] Hərbi Kəşfiyyat Xidməti erməni güclərinin təşkil olunması üçün lazım olan pulların miqdarına dair Tiflisdə olan general Şordan (Shore) yardım istədi. Andranik ilə görüşən general Şor müəyyən məlumatlar əldə edərək, onun bir ay içərisində Türkiyə ermənilərindən mütəşəkkil olan 10 min nəfərlik bir ordu qura biləcəyini və bunun üçün hələlik 5-10 milyon rubla ehtiyac olduğunu bildirdi.[5] Qeyd edək ki, Andranik general Şorla görüşündə, əgər silah və sursat İngiltərə və Rusiya tərəfindən təmin olunarsa, ordunun sayını 20 minə çıxara biləcəyini də bildirmişdi.[6]

İngiltərənin Ali Baş Qərargah rəhbərliyi tərəfindən 16 dekabr 1917-ci ildə Tiflisə göndərilən bir yazı ilə silah və sursatın təmin olun-

---

[1] PRO. FO. 371/3062/240614, "Letter from Boghos Nubar Pasha to Mr. Albert Thomas", Information from French sources, Department of Military Intelligence to Foreign Office, no: E.L.S, 1292, Paris, 16th December, 1917

[2] PRO. FO. 371/3016/230983, Mr. Balfour to Lord Robert Cecil, no: 1265, December 5th, 1917.

[3] PRO. FO. 371/3016/230983, Mr. Balfour to Lord Robert Cecil, no: 1265, December 5th, 1917.

[4] PRO CAB. 23/4, War Cabinet, 294, Minutes of a Meeting of the War Cabinet held at 10, Downing Street on Friday, December 7th, 1917, at 5:30 PM

[5] PRO. FO. 371/3016/235937, General Shore (Tiflis) to D.M.I. (London), no: 133, December 10th, 1917

[6] PRO. FO. 371/3016/235937, General Shore (Tiflis) to D.M.I. (London), no: 133, December 10th, 1917

ması barəsində Qafqazdakı erməni birliklərinin liderlərinə də maddi dəstək sözü verməsi üçün general Şor səlahiyyətli şəxs hesab olundu.[1]

İngiltərənin Xarici İşlər Nazirliyi erməni könüllü dəstələrinin Qafqaza fərqli yollardan gəlməsinə də köməklik göstərəcəkdi.[2] Bununla yanaşı, İngiltərənin Hərbi Kəşfiyyat fondlarından da ermənilərə pay ayrılmışdı.[3] İngiltərə tərəfindən ermənilərin dəstəklənməsi üçün ayrılan yardım təxminən 20 milyon sterlinq idi.[4] Bununla yanaşı, 1917-ci ilin sonları və 1918-ci ilin əvvəllərində ingilislər tərəfindən Tehrandan Bakıya, oradan da ermənilərə verilməsi üçün Tiflisə külli miqdarda qızıl və pul göndərildi.[5] Bu işlərlə birbaşa İngiltərənin Xarici İşlər Nazirliyinin qərarına əsasən xüsusi missiya ilə vəzifələndirilən mayor Mak Donel (MacDonell) məşğul olurdu. Qatarların içərisində aparılan bu qızıllar və pullar aynaların arxasında, ventilyatorların içərisində və digər yerlərdə gizlədilirdi. Mac Donel bunların Azərbaycan türkləri tərəfindən bilinməsini istəmirdi. Çünki bu qızılların və pulların ermənilərə göndərildiyi ortaya çıxsaydı, Azərbaycan türkləri tərəfindən tələyə düşürülərək ələ keçirilə bilərdi.[6] Göründüyü kimi, işlər son dərəcə gizli şəkildə aparılırdı.

Qeyd etmək lazımdır ki, pul, qızıl, müxtəlif silah və sursatlar ermənilərə Panturanizm təhlükəsinə qarşı baryer təşkil etmək üçün verilirdi.[7] Panturanizm təhdidinə qarşı ermənilərdən istifadə siyasəti

---

[1] PRO. FO. 371/3018/236815, Foreign Office to Sir C.Marling (Tehran), no: 441, December 14th, 1917;
PRO. FO. 371/3018/237859 Foreign Office to Sir C.Marling (Tehran), no: 353, December 16th, 1917;
PRO. FO. 371/3062/240614, Foreign Office to Sir G.Barclay (Jassy), December 20th, 1917

[2] PRO. FO. 371/3016/237541, J.A.Malcolm to Ronald Graham (Foreign Office), December 14th, 1917

[3] PRO CAB. 23/4, War Cabinet, 294, Minutes of a Meeting of the War Cabinet held at 10, Downing Street on Friday, December 7th, 1917, at 5:30 PM

[4] Yerasimos Stefanos. Milliyetler ve sınırlar. Balkanlar, Kafkasya ve Orta Doğu. İstanbul: İletişim yayıncılık, 2000, s.293

[5] Hopkirk P. İstanbul'un doğusunda bitmeyen oyun, s.329

[6] Yenə orada, s.330-331

[7] PRO. FO. 371/3018/245628, Foreign Office to Sir G.Buchanan, December 30th, 1917

Versaldakı Antanta Ali Hərbi Şurası ingilis hərbi mütəxəssislərinin 1917-ci ilin dekabr ayındakı memorandumunda açıq şəkildə göstərilməkdədir: *"Ermənilərə hər vəziyyətdə işğal etdikləri bölgələrdə pul, silah və sursat tədarükü ingilis siyasətinin maraqları daxilindədir. Bu təcrübənin uğurlu olması nəticəsində erməni qüvvələrindən gələcəkdə türklərin diz çökdürülməsi üçün faydalanmaq olar".*[1]

İngilislərin bu dəstəyi sayəsində hərəkət qabiliyyətlərini artıran, külli miqdarda silah və sursat təmin edən ermənilər Azərbaycanın bir çox bölgələrində ciddi etnik təmizlik siyasəti gerçəkləşdirdilər. Xüsusilə Naxçıvanda, Zəngəzurda, Qarabağda və s. bölgələrdə törədilən qırğınlar erməni silahlı dəstələrinin rəhbəri kimi, adı sonraları erməni milli qəhrəmanı kimi özdəşləşən Andranik Ozanyan və onun kimi radikal türk düşmənçiliyi ilə tanınan Nijde, Dro, Doluxanyan və s. rəhbərliyi altındakı erməni gücləri tərəfindən həyata keçirilmişdi. Bu komitəcilər Anadolu və Qafqazdakı qanlı hadisələrin əsas cavabdehləri kimi ilk sırada dayanırdılar. İngiltərənin arxiv materialları törədilən cinayətlərlə bağlı Andranikin silahların və hərbi sursatların ingilislərdən aldığını təsdiq edir. İngiltərənin Qafqazdakı Ali komissarı Oliver Uordrop (Oliver Wardrop) İngiltərənin Xarici İşlər Nazirliyinə göndərdiyi bir raportda Andranikin Böyük Britaniya ordusunun mayoru Qibbondan aldığı bütün silahları erməni dəstələ-rinə payladığını bildirirdi.[2]

Arxiv materiallarında yuxarıda adları çəkilən erməni komitəçilərinin, xüsusilə də Andranik Ozanyanın silahlı dəstələrinin İrəvan əyalətində 200-dən çox, Naxçıvan, Şərur-Dərələyəz və Ordubad nahiyələrində də 50-dən çox müsəlman kəndlərinə silahlı hücumlar təşkil etdiklərinə, kənd əhalisinin böyük əksəriyyətinin də qətlə yetirildiyinə dair önəmli məlumatlar yer almaqdadır.[3] Türkiyənin arxiv materialla-

---

[1] PRO. CAB. 25/120, S.W.C. 1, Secret, "Note on the Military Situation in Armenia" by Supreme War Council, British Section, Versailles, December 3$^{th}$, 1917

[2] Oriental and India Office Collections (British Library): India Office Records IOR/L/P&S/11/166, Decypher. Mr. Wardrop (Tiflis), No: 209, 17$^{th}$ December 1919

[3] Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (NMRDA): f. 314, siy. 5, iş 71

rında ingilislərin bölgədə ermənilərin törətdikləri qətliamlara məhəl qoymadığı, hətta bu cinayətləri görməzdən gəldiklərinə dair çox sayda sənədlər mövcuddur.[1]

Naxçıvan, Qarabağ və Zəngəzurun Ermənistana birləşdirilməsi vəzifəsini öhdəsinə götürərək qanlı fəaliyyətlərə başlayan Andranik Ozanyan 1918-ci ilin iyun-iyul aylarında Naxçıvanda çox sayda kənd və qəsəbələri talan etmiş, dəhşətli cinayətlər törətmişdir. 1918-ci ilin iyun ayının əvvəllərində Araz çayının sol sahilindəki Yaycı kəndinə hücum edən A.Ozanyan silahsız dinc əhaliyə amansız divan tutmuşdur. 4 min nəfərə yaxın əhalisi olan Yaycı kəndi yerlə yeksan edilmiş, kənd əhalisinin yarıdan çoxu öldürülmüşdür. Ermənilərin süngüsündən sağ qurtulan əhalinin əksəriyyəti – qadınlar, uşaqlar, qocalar Araz çayını keçərkən boğulmuşdular. Ölənlərin sayı o qədər çox, sağ qalanların sayı o qədər az idi ki, cəsədləri dəfn etməyə insan tapılmırdı. Andranikin quldur dəstəsinin qıraraq Araz çayına tökdüyü yaycılıların cəsədlərini nüvədililər çayın kəndlərinin yaxınlığından keçən hissəsində sahilə çıxararaq dəfn etmişdilər. Meyitlərin sayının çoxluğundan böyük bir qəbiristanlıq yaranmışdı. Hal-hazırda erməni işğalı altında qalan həmin məzarlar o dövrdən Nüvədi kəndində Yaycı qəbiristanlığı adı ilə tanınmışdır.[2]

Yaycıdan Ordubada doğru irəliləyən Andranik yol boyu bütün Türk kəndlərini talan edərək 2 min insanı qətlə yetirmişdir. Andranikin dəhşətli cinayətləri Şahbuz, Gecəzur, Hənzər, Daylaqlı, Nursu, Kolanı, Mahmudoba, Əbrəqunus, Qazançı, Paradaş, Baş Anzır, Ayaq

---

[1] Osmanlı belgelerinde ermeni-ingiliz ilişkileri (1896-1922). T.C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü. Osmanlı Arşivi Daire Başkanlığı, yayın nu: 76, Ankara, 2006, 4 ciltte, cilt:4, belge №76, s. 150-154

[2] Cəfərli E. Naxçıvanda erməni-Azərbaycan münaqişəsi. Bakı: Nurlan, 2009, s,249; Kazımov İ. Naxçıvan: əhalisi, sosial-iqtisadi və siyasi tarixinə dair (1828-1920-ci illər). Bakı: Elm, 2007, s.139; Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı: Bakı Universiteti nəşriyyatı, 1998, s.58

Anzır, Xanağa, Bənəniyar, Camaldin, Ərəzin, Kırna və digər kəndlərdə də davam etmişdir.[1]

Bir çox tarixi sənədlərdə Şərur bölgəsinə bağlı 45 kəndin erməni komitəcilərinin hücumuna məruz qaldığı, əhalisinin qətlə yetirildiyi və Araz çayına atıldığına dair önəmli məlumatlar qeyd olunur. Müsəlmanlar tərəfindən ələ keçirilən ermənilər Naxçıvanda və ona aid olan bölgələrdə bütün türkləri qətlə yetirmələri və Araz çayına atmaları barədə öz amirlərindən əmr aldıqlarını etiraf etmişdilər. Erməni birliklərinə yazılı olaraq göndərilən əmrdə aşağıdakı ifadələr yer alırdı: *"Şərur əhalisini Araz çayına atmaq üçüncü alay komandanlığnın əsas vəzifəsidir"*.[2]

Andranikin silahlı dəstələri Naxçıvan və ətraf bölgələrdə törətdikləri cinayətlərdən sonra 1918-ci ilin sentyabr ayında Sisyana, noyabr ayında isə Gorusa keçdilər. Bu tarixdən etibarən Zəngəzur və Qarabağın ağır günləri başlandı. Törətdiyi cinayətlərin miqyası o qədər böyük idi ki, Andranik bu hərəkətləri ilə Naxçıvanı öz idarəsinə tabe etdiyini düşünürdü. Onun məqsədi ələ keçirdiyi hər bir türk bölgəsində etnik, milli təmizlik siyasəti yeritmək, Qarabağ, Zəngəzur və Naxçıvanı Ermənistana birləşdirmək idi. Mənbələrdən əldə edilən məlumatlara görə, 1918-1921-ci illər arasında Naxçıvanda 73.727 nəfər azərbaycanlı ermənilər tərəfindən qətlə yetirilmişdir.[3] 1915-1921-ci illər arasında Cənubi Azərbaycanda isə ingilislərin və rusların təşviqi ilə təşkilatlanan və silahlanan erməni ordusunun qətlə yetirdiyi insanların sayı 90.000 nəfərin üzərində idi.[4]

---

[1] Cəfərli E. Naxçıvanda erməni-Azərbaycan münaqişəsi, s.250

[2] Arşiv belgelerine göre Kafkaslarda ve Anadolu'da ermeni mezalimi, Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü, Osmanlı Arşivi Daire Başkanlığı, yayın №24, 4 ciltte, cilt:2, Ankara, 1995, s.45-46.

[3] Cəfərov F. Naxçıvan polisi: fəaliyyətinin əsas istiqamətləri və mərhələləri. Bakı: Nurlan, 2011, s.29; Hacıyev İ. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri. Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2012, s.147

[4] Attar Aygün. Ermeni ulusalcılığının siyasal oluşumu / Ermeni Araştırmaları 2. Türkiye Kongresi Bildirileri. Ankara: Avrasya Stratejik Araştırmalar Merkezi, Ermeni Araştırmaları Enstitüsü yayınları, 2007, I cilt, s. 248

Bu acı gerçəklər ermənilərdə türklərə qarşı nifrət psixologiyasının, türkü öldürməkdən mənəvi zövq alma düşüncəsinin bariz nümunəsi və əlaməti olmaqla yanaşı, törədilən bu cinayətlərin arxasında böyük dövlətlərin dəstəyi olduğu, eləcə də İngiltərə tərəfindən verilən qızıl və sterlinqlərin, eyni zamanda silah və sursatların təsiri də xüsusilə qeyd edilməlidir. Düzdür, dinc əhaliyə qarşı törədilən bu cinayətlər ingilislərin planları daxilində yer almasa da, sırf Panturanizm təhlükəsinə qarşı silahlandırılan ermənilər həmin yardımdan faydalanaraq kütləvi qırğınlara baş vurmaqdan çəkinməmişdlər. Lakin ortada bir dəyişməyən həqiqət vardı ki, bu da ingilislərin məqsədlərindən asılı olmayaraq erməniləri maddi, hərbi baxımdan dəstəkləməsi və silahlandırması idi. Məhz bunun nəticəsidir ki, müsəlman türk əhalisinin çəkdiyi əziyyətlər və törədilən soyqırımı cinayətləri İngiltərənin siyasi dairələrində heç bir səs gətirməmiş, əksinə bu cinayətlərin üstü xüsusi etina ilə örtülməyə çalışılmşdır.

Yuxarıda da qeyd edildiyi kimi, türklərin Panturanizm ideologiyası və Türkiyə, Azərbaycan, İran, Əfqanıstan, Orta Asiya türklərinin birliyi əsasında dünyanın siyasi sistemində çox güclü bir Türk-İslam ittifaqının meydana gəlməsi ehtimalı İngiltərə üçün başlıca təhdid və əsl təhlükə mənbəyi idi. Panturanizm təhdidini ortadan qaldırmaq üçün İngiltərə tərəfindən "Dunsterforce" və "Malleson missiyası" şimal-qərbi İrana yerləşdirildi. Bakısız Xəzər dənizinin nəzarətini qoruya bilməyəcəyini anlayan ingilislər şəhəri qorumaq üçün bütün riskləri nəzərə almaq məcburiyyətində idilər.[1] Əks təqdirdə geniş neft yataqlarını ələ keçirəcək olan düşmənin *(türklərin – Red.)* Qafqaz dəmir yollarından istifadə etməsi vəziyyəti Asiya ilə Əfqanıstana yönəlik müharibə qabiliyyətini artıra bilərdi.[2] Türk hərəkatı qarşısında əksəriyyəti ermənilərdən mütəşəkkil olan Bakı Sovetinin hərbi birliyi geri çəkilirdi. Əslən azərbaycanlı olan məşhur

---

[1] Dunsterville Major-General L.C.. The adventures of Dunsterforce. London: Edward Arnold, 1920, p.141

[2] Yenə orada, s 277

amerikalı tarixçi Firuz Kazımzadə tərəfindən *"antibolşevik dənizində bolşevik adası"* olaraq təsvir edilən Bakıda vəziyyət çox qarışıq idi və şəhər erməni-bolşevik koalisiyası tərəfindən idarə olunurdu.[1] Stepan Şaumyan və onun bolşevik silahdaşlarını açıqca dəstəkləyən ermənilər özlərini "İslam ordusu"ndan qorumaq üçün lazımi güclərin Rusiyadakı bolşeviklər tərəfindən göndəriləcəyini ümid edirdilər. Lakin Moskvadakı bolşevik rejimin Bakının müdafiəsi ilə bağlı lazımi dəstəyi verməməsi ilə ermənilər üzlərini 1918-ci ilin iyununda Ənzə-liyə gələn general Lionel Çarlz Denstervile (Lionel Charles Dunsterville) çevirdilər. Ermənilər yığıncaq təşkil edərək, başda Ənzəlidəki Denstervil və Bakıdakı ingilis konsulu mayor Mak Donel (McDonell) olmaqla şəhərin müdafiəsi üçün ingilis yardımı ilə bağlı təklif ortaya atdılar. İyul ayının 25-də keçirilən yığıncaqda ingilislərin çağırılmasıyla bağlı təkliflər əksəriyyəti ermənilər və sosialist inqilabçılardan ibarət olan qrup tərəfindən qəbul edildi. Avqustun 1-də Bakıda eser, menşevik və daşnaklardan ibarət "Sentrokaspi diktaturası" adı altında yeni bir mürtəce hökumət quruldu.[2] Yeni hökumətin ilk işi Denstervil ilə əlaqə yaradıb ingilislərin yardımını istəmək oldu. Denstervil tərəfindən bu istəyin qəbul edilməsi üzərinə polkovnik Stoksun (Stokes) komandanlığı altında ilk ingilis hərbi birliyi avqustun 4-də Bakıya gəldi.[3] "Dunterforce" adlanan kiçik müttəfiqlər ordusunun Bakını müdafiə etməsinin əsas səbəbi türklərin Orta Asiyaya irəliləməsində önəmli dəhliz olan Xəzərin nəzarətini ələ keçirmək idi.

---

[1] Kazemzadeh Firuz. The struggle for Transcaucasia. Oxford: Philosophical Library, 1951, p.128

[2] Həsənli C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər). Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1993, s.112; Həsənli C. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920). Bakı: "GARISMA" MMC, 2009, s.136; Qafarov V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922). Bakı: Azərnəşr, 2011, s.242; Qasımlı M. Antanta ölkələrinin Güney Qafqaz siyasəti (1917-ci il noyabr – 1918-ci il noyabr) / Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam ordusu. Bakı: Qafqaz Universiteti Qafqaz Araşdırmaları İnstitutu nəşriyyatı, 2008, s.206

[3] PRO. FO. 371/7729/E8378/581 "Outline of events in Transcaucasia from the beginning of the Russian Revolution in the summer of 1917 to April 1921", Foreign Office Memorandum by Mr. Childs and Mr. McDonell, May 31$^{th}$, 1922, p.9

Lakin İngiltərənin Bakıya yerləşdirəcəyi ordu olduqca az idi. Bu qədər ordunun "şəhərin müdafiəsi"nə qalxacağı mümkün deyildi. Ən real variant Bakıdakı erməni güclərini təşkilatlandırmaq və gücləndirməkdi. Heç təsadüfi deyildir ki, İngiltərənin Ali Baş Qərargahının təlimatlarına görə, Denstervil missiyasının bölgəyə göndərilməsinin əsas məqsədi həm Panturanist meyillərin qarşısını almaq, həm də dolaylı olaraq Mesopotamiyadakı ingilis ordusuna dəstək olmaq üçün Qafqaz xalqlarının *(gürcülər daha çox almanlara meyil etdiyindən, burada əsas olaraq ermənilər nəzərdə tutulur – Red.)* hərbi gücünü təchiz edib, onlara təlim keçmək və təşkilat-landırmaqdı.[1]

Avqustun 16-da Ənzəlidən yola çıxan Denstervil avqustun 17-də Bakıya gəlib çatdı. Denstervilə məxsus hərbi birlik bəzi mənbələrə görə 900, digər mənbələrə görə isə 1400 nəfərdən ibarət idi.[2] Denstervil heç bir mübahisəyə yer verməyərək, öz xatirələrində 800-900 əsgərin olduğunu qeyd edirdi.[3] Denstervilin Bakıya gəlməsindən təxminən 10 gün sonra Cənubi Qafqazda meydana gələn hadisələrdən faydalanaraq həm Bakı neftini ələ keçirmək, həm də Panturanizm ideyalarını reallaşdırmaq istəyən Osmanlı dövləti öz ordusunu Bakıya göndərdi. Türk hərəkatı uğurla nəticələndi və 1918-ci ilin sentyabr ayında Qafqaz İslam Ordusu Bakıya daxil oldu.[4] Əmrlərə itaət etməyən ermənilər atəş altındakı cəbhəni tərk edirdilər. Sayları təxminən 9 min olmasına baxmayaraq, türklərə qarşı real müqavimət göstərən ermənilərin sayı 3 mini keçmirdi. Halbuki Denstervil erməni güclərinə arxalanırdı. Lakin müharibə əsnasında bəzi ermənilər qaçıb

---

[1] Nassibian A. Britain and the Armenian Question. New York: St. Martin's Press, 1986, p.102-103.

[2] Ellis C.H. The Transcaspian episode (1918-1919). London: Hutchinson, 1963, p.39; Kazemzadeh Firuz. The struggle for Transcaucasia. Oxford: Philosophical Library, 1951, p.139

[3] Денстервиль Л. Британский империализм в Баку и Персии (1917-1918). Воспоминания, пер. С Англ. Б.Руденко. Тифлис: Советский Кавказ, 1925, с.276

[4] Armaoğlu F. 20. yüzyıl siyasi tarihi 1980-1990: 2 ciltte, II c., Ankara: Türkiye İş Bankası Kültür yayınları, 1991, s.141

evlərinə sığınmışdılar.[1] Denstervilin edə biləcəyi heç bir şey yox idi. Heç təsadüfi deyildir ki, bu hadisədən sonra ermənilər *"heç bir dəyəri olmayan qorxaqlar"* adlandırıldı.[2] İngiltərənin Hərbi Nazirliyinin ingilis ordusunun Bakıdan çıxması ilə bağlı əmrinə əsasən Denstervil 15 sentyabrda şəhəri tərk edərək Ənzəliyə qayıtdı. 16 sentyabrda isə türklər Bakını ələ keçirdilər.[3] İngilis ordusunun Bakını türklərdən müdafiə cəhdləri uğursuzluqla nəticələnmiş, şəhər və neft ehtiyatları türklərin əlinə keçmişdi.[4] Denstervil bu uğursuzluğun əsas səbəbkarı kimi bilavasitə erməni güclərini günahlandırırdı. İngiltərənin Hərbi Nazirliyi də bu vəziyyətin bütün məsuliyyətini ermənilərə yüklədi və bu ittihamlar ingilis mətbuatında da sıx-sıx yayınlandı. "The Times" qəzetinin 20 sentyabr 1918-ci il tarixli nömrəsində *"İngilislər Bakını tərk edirlər: ermənilərin qəbahəti"* başlıqlı yayınlanan xəbərdə ermənilərin istəyi və dəvəti üzərinə İrandan Bakıya göndərilən ingilis güclərinin ermənilərin qəbahətləri ucbatından müvəffəqiyyət qazana bilmədiyi qeyd olunurdu.[5]

Digər ingilis qəzetlərindən olan "Daily Mail"də *"Bakı evakuasiya olundu: ingilislərə erməni xəyanəti"* başlığı altında yayınlanan yazıda da ermənilərin neqativ hərəkətləri və müharibədən qaçaraq ingilislərə xəyanət etmələrindən bəhs olunurdu[6]

Bakının evakuasiya olunması nəticəsində ingilis mətbuatında erməniləri alçaldacaq bu cür yazıların yayınlanmasından narahat olan Londondakı erməni nümayəndəliyi İngiltərənin Xarici İşlər Nazirliyinə bir məktub göndərdi. Təəssüf hissiylə yazılmış bu məktubda

---

[1] PRO. FO. 371/3411/158228, "Memorandum on the military position in Armenia and the Caucasus". D.M.I to Foreign Office, September 16th, 1918

[2] Başak T. İngiltere'nin ermeni politikası (1830-1923). İstanbul: IQ Kültür Sanat yayıncılık, 2008, s.301

[3] "Baku: Turkish version". "The Times", September 21, 1918, p.7

[4] Başak Tolga. İngiltere'nin ermeni politikası (1830-1923), s.302; Arslanian Artin H. Densterville's adventures: a reappraisal // International Journal of Middle East Studies, 1980, vol.: 12, no: 2, p. 208

[5] "British leave Baku: Detection of the Armenians". "The Times", September 20, 1918

[6] "Baku evacuated: Armenian treachery to British". "Daily Mail", September 20, 1918

Bakıda baş verənlərin bütün ermənilərə şamil olunmasının yanlış olduğu ifadə edilirdi. Erməni nümayəndəliyinin istəklərini Hərbi Kəşfiyyat Xidmətinə çatdıran Xarici İşlər Nazirliyi də öz növbəsində evakuasiya ilə bağlı xəbərlərin ingilis xalqında ermənilərə qarşı mənfi rəy formalaşdıracağı və bunun ingilis siyasətinə zərər vura biləcəyi səbəbiylə bu cür xəbərlərin yayınlanmasını məqsədəuyğun hesab etmirdi.[1] Qeyd etmək lazımdır ki, mətbuatda yayınlanan bu xəbərlərin əsas qaynağı məhz Hərbi Nazirlik idi.[2]

Hərbi Nazirliyin nəzdində fəaliyyət göstərən Təbliğat Bürosunun görkəmli simalarından Arnold Tonbi bu cür xəbərlərin İngiltərənin maraqlarına çox böyük zərərlər vurduğunu bildirərək, hazırlamış olduğu raportda ermənilərin ingilislər baxımından xüsusi əhəmiyyət kəsb etdiyini, Bakı hadisələrindən ermənilərin məsul tutulması və onların satqınlığı barədə yayınlanan yazıların düşmənin *(türklərin – Red.)* təbliğatlarına dəstək verə biləcəyini, ermənilərə olan etimadın azalmasının pantürkizm məsələsində əl-qollarının zəifləyəcəyinə səbəb olacağını, əgər erməni iddiaları zəifləyərsə, bunun ingilis siyasətinə zərbə vuracağını qeyd edirdi.[3]

Həm İngiltərənin Xarici İşlər Nazirliyinin, həm də Arnold Tonbinin dəyərləndirmələrindən aydın olur ki, ermənilər ingilislər üçün qiymətli təbliğat vasitəsi kimi əsas potensial idi və bu baxımdan xalqda ermənilərə qarşı formalaşan mənfi rəy unutdurulmalı, ermənilərin müharibə əsnasında müttəfiqlərin yanında qəhrəmancasına vuruşduqları şəklində mətbuatda onların lehinə bəzi xəbərlər yayınlanmalı və yazılar verilməliydi. İngiltərənin xarici siyasət üzrə mütəxəssisləri və Xarici İşlər Nazirliyi hadisələrə daha geniş bir çərçivədən yana-

---

[1] PRO. FO. 371/3404/160092, Foreign Office to Department of Military Intelligence, Draft, September 20/21, 1918

[2] PRO. FO. 371/3404/162647, Foreign Office Minute by A.J.Toynbee, September 24th, 1918

[3] PRO. FO. 371/3404/162647, Foreign Office Minute by A.J.Toynbee, September 24th, 1918

şaraq, ingilis-erməni münasibətlərini yumşaltamağa və ermənilərin könüllərini qazanmaq üçün fəaliyyətə başladılar.

Qeyd olunduğu kimi, ingilis ordusunun Bakını türklərdən müdafiə cəhdləri uğursuzluqla nəticələnmiş, L.Denstervil şəhərin müdafiəsinin faydasız olduğunu başa düşərək ordunu şəhərdən çıxarmış, nəticədə Qafqaz İslam ordusu Bakıya daxil olmuşdu. Qafqaz İslam ordusu komandanlığı Bakı şəhərində qayda-qanun yaratdı, bütün millətlərin nümayəndələrinə bərabər münasibət bəsləndi. Sentyabrın 17-də milli hökumət Gəncədən Bakıya köçdü və Azərbaycan öz təbii, tarixi, siyasi, mədəni, milli-mənəvi paytaxtına sahib oldu. Lakin Osmanlı dövləti Birinci Dünya müharibəsində məğlub olaraq, 1918-ci il oktyabrın 30-da ingilis "Aqamemnon" kreyserində imzalanmış Mudros (Mondros) müqaviləsinin şərtlərinə əsasən tezliklə öz qoşunlarını bütün Qafqazdan, o cümlədən Bakıdan çıxarmaq məcburiyyətində qaldı.[1] Barışıq sazişi İngiltərənin Cənubi Qafqazda mövqeyinin güclənməsinə səbəb oldu. Müqavilənin şərtlərinə görə, İngiltərə Cənubi Qafqazda möhkəmlənərək İranın şimalına, yəni Cənubi Azərbaycana gedən ən əlverişli məntəqəyə də sahib olurdu. Avropa ilə Asiyanı birləşdirən bu strateji məntəqəyə yiyələn-mək dünya siyasətində İngiltərənin rolunu və imkanlarını artırır, Hindistanla əlaqələrin qorunmasını etibarlı edirdi.[2] Qeyd etmək lazımdır ki, sentyabrın 15-də Bakını tərk edən Denstervilin ordusu, yəni "Dunsterforce" 3 gün sonra, ayın 19-da Ənzəlidə rəsmi şəkildə buraxılmış, yeni yaradılan Şimali İran ordusuna general Uilyam M.Tomson (William M.Thom-

---

[1] Darabadi P. XX əsrin əvvəllərində Güney Qafqaz beynəlxalq geosiyasi münasibətlər sistemində / Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam ordusu. Bakı: Qafqaz Universiteti Qafqaz Araşdırmaları İnstitutu nəşriyyatı, 2008, s.31; Həsənli C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər). Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1993, s.141; Qasımlı M. Antanta ölkələrinin Güney Qafqaz siyasəti (1917-ci il noyabr – 1918-ci il noyabr) / Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam ordusu. Bakı: Qafqaz Universiteti Qafqaz Araşdırmaları İnstitutu nəşriyyatı, 2008, s. 215; Armaoğlu Fahir. 20. yüzyıl siyasi tarihi 1980-1990: 2 ciltte, II c., Ankara: Türkiye İş Bankası Kültür yayınları, 1991, s.142

[2] Qasımlı M. Antanta ölkələrinin Güney Qafqaz siyasəti (1917-ci il noyabr – 1918-ci il noyabr), s. 215

son) komandan təyin edilmişdi.[1] Noyabrın 17-də U.Tomson başda olmaqla 10 minlik müttəfiq orduları Bakıya gəldi. O, başlanğıcda Azərbaycan adlı dövlətin mövcudluğunu inkar edirdi. İngilis generalı bildirirdi ki, *"bizim bildiyimizə görə, Azərbaycan xalqının ümumi fikrindən meydana gəlmiş bir respublika mövcud deyil, yalnız türk komandanlığının intriqası ilə təşəkkül tapmış bir hökumət vardır. Madam ki, siz bunun əksini iddia edirsiniz, o halda hər şeyi yerində yoxlayıb buna münasib olaraq qərar verərik".*[2]

Tomson eyni zamanda bildirdi ki, müttəfiqlər dağıtmaq üçün deyil, qurmaq üçün gəlirlər. Danışıqların sonunda U.Tomson bəyanat verərək elan etdi ki, Bakı istər Azərbaycan, istərsə də türk ordusundan təmizlənməlidir. Bakı və onun neft mədənləri ingilislərin nəzarəti altına keçəcək, özü isə şəhərin general-qubernatoru olacaqdır.[3]

Bakının işğalı ilə bağlı vaxtilə Baş nazir olmuş İngiltərənin məşhur siyasi xadimlərindən Uinston Çörçil (Winston Chuchill) Hərbi nazir vəzifəsində işlədiyi dövrdə yazırdı ki, britaniyalılar qısa müddətdə Xəzər dənizində onlara üstünlük təmin edən donanma yaratdılar. İngilis ordusu dünyanın ən böyük strateji xətlərindən birinə sahib oldu.[4] Lakin ingilis ordusunun Cənubi Qafqazda mövcudluğu uzun çəkmədi. Bakıya daxil olduqdan üç ay sonra, 1919-cu ilin fevralında Lloyd Corc (Lloyd George) hökuməti ordunu Cənubi Qafqazdan mümkün qədər tez çıxarmağı qərara aldı.[5] İngilislərin Qafqazdan çıxmaq qərarı bu günə qədər tam dəqiqləşdirilməmiş ciddi problemlərdən biri olaraq qalır.

Mənbələrdə Birinci Dünya müharibəsinin sonunda İngiltərənin Qafqazı, xüsusilə neft bölgəsi olan Azərbaycanı öz müstəmləkə imperiyasına qatmaq, Xəzər dənizinə sahib olmaq niyyətində olduğuna

---

[1] Həsənli C. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti(1918-1920), s.191
[2] Mehmetzade M. Milli Azerbaycan hareketi. Ankara: Azerbaycan Kültür Derneği yayınları, 1991, s.99
[3]Həsənli Cəmil. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti(1918-1920), s.192
[4] Черчилль У. Мировой кризис. Москва: Госполитиздат, 1932, с.105
[5] Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), 362 s.

dair məlumatlar keçir. Tarix üzrə elmlər doktoru, professor Pərvin Darabadi qeyd edir ki, ingilislərin Qahirədən Kəlküttəyə qədər Böyük Britaniyanın nəzarəti altında birləşməsi yolu ilə bütöv ərazinin yaradılması ideyası mövcud idi. Bu ideya İngiltərənin Orta Şərqdəki siyasətinin yeni məzmununu – Xəzər və Qafqazətrafı ərazilər, xüsusilə neft Bakısı üzərində nəzarətin yaradılmasını stimullaşdırırdı.[1] Bu geosiyasi plan eyni zamanda Hindistanın şimal sərhədlərindən Aralıq dənizinə doğru uzanmış bir neçə bufer dövlətdən ibarət zəncirin yaradılmasını da nəzərdə tuturdu. Bu zəncir Hindistana hücumlar zamanı bir qalxan, Böyük Britaniya, Avstraliya və Yeni Zelandiya arasında əsas əlaqələndirici vasitə rolunu oynamalı idi. Qafqaz-Xəzər regionu əsas əlaqələndirici həlqəyə çevrilirdi ki, bu həlqə İngiltərənin hərbi-siyasi planlarında həmin dövr üçün xüsusi yer tuturdu.[2]

İngiltərənin məşhur dövlət xadimlərindən Lord Kerzon qeyd edirdi ki, Böyük Britaniyanın gələcəyi Avropada deyil, bizim immiqrantlarımızın gəldiyi, sonralar isə gələcək nəsillərin artıq istilaçı kimi geri qayıtdığı qitədə həll olunacaqdır. Türkistan, Əfqanıstan, Xəzər, Persiya dünya hökmranlığı uğrunda oyun gedən şahmat lövhəsinin bir hissəsidir.[3]

İngiltərənin Azərbaycanı öz müstəmləkə imperiyasına qatmaq, Xəzər Dənizinə sahib olmaq niyyətində olduğuna dair məlumatlar Cəmil Həsənlinin,[4] N.K.Buzınina və K.V.Vinoqradovun,[5] F.Volkovun[6] və s. tanınmış tədqiqatçıların əsərlərində də mövcuddur, eyni zamanda bu tədqiqatların hər birində ingilis planlarına dair məsələlərdə haqlılıq payı da olduqca yüksəkdir. Lakin ingilislərin qısa bir

---

[1] Darabadi P. XX əsrin əvvəllərində Güney Qafqaz beynəlxalq geosiyasi münasibətlər sistemində, s. 26

[2] Yenə orada

[3] Darabadi P. XX əsrin əvvəllərində Güney Qafqaz beynəlxalq geosiyasi münasibətlər sistemində, s.25

[4] Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), 362 s.

[5] Бузынина Н.К., Виноградов К.В., Лорд Керзон (1859-1925. Докум. очерк) // Новая и Новейшая История, 1973, №6, с. 119

[6] Волков Ф.Д. Тайны Уайтхолла и Даунинг-стрит. Москва: Мысль, 1980, с.50

müddət içərisində Qafqazı tərk etmələrinin səbəbi qaranlıq olaraq qalır. Əvvəla, ingilislər niyə gəlmişdilər və heç bir kənar müdaxilə olmadan bölgəni hansı səbəbdən tərk etdilər?

1918-1919-cu illər ərzində ingilis hökumət dairələrində Qafqazla bağlı yekdil fikir birliyi mövcud deyildi. İngiltərənin Hindistan məsələləri üzrə naziri A.Monteqyu Qafqaza münasibətdə öz düşüncələrini bu cür açıqlayırdı: *"Hindistanın müdafiəsi məsələləri ilə bağlı mən fikirləşirəm ki, Qafqaz haqqında düşünmək bizim üçün mühüm deyildir. Mən hesab edirəm ki, bu bölgə tamamilə bizim maraqlarımızdan kənardadır".*[1]

Bu ifadələr olduqca müəmmalı və çox qarışıqdır. Əgər Qafqaz İngiltərənin maraqları xaricində idisə, bölgəyə niyə gəlmişdilər? Qənaətimizcə, İngiltərə öz müstəmləkələrinin ərazilərini genişləndirməkdən daha çox, müharibə dövründə ələ keçirdiyi müstəmləkələri qoruyub saxlamaq üzərində düşünürdü. Xüsusilə İngiltərə baxımından daha çox əhəmiyyət kəsb edən bölgə Yaxın Şərq idi. Enerji resurslarının əsas hissəsinin Osmanlı sərhədləri içərisində yer alması Yaxın Şərqi İngiltərə üçün tam mənası ilə vaz keçilməz bir bölgəyə çevirmişdi. Sənaye inqilabını tamamlamış olan İngiltərə üçün Yaxın Şərq neftinə sahib olmaq ölkənin rifah və zənginliyi baxımından olduqca zəruri idi.

Digər bir tərəfdən, Mondros müqaviləsindən sonra başlayan işğallar nəticəsində Türkiyədə ortaya çıxan Milli Mübarizə Hərəkatı yeni türk dövlətinin sərhədlərini Brest Litovsk və 30 oktyabr 1918-ci il tarixli müqavilə ilə müəyyənəşdirilən hüdudlar olaraq elan etmişdi. Belə bir vəziyyətdə İngiltərənin bir tərəfdən Ermənistana verilən torpaqları qoruması, digər tərəfdən də Suriyanın şimalını və Mosulu müdafiə etməsi olduqca çətin olacaqdı. İngilis güclərinin işğalı altında olan bütün bu torpaqlar arasında edilən tərcih İngiltərənin Mosulu qorumağa çalışması oldu.[2]

---

[1] Лавров С.В. Борьба в политических кругах Великобритании вокруг англо-советских переговоров 1920-1921 годов // Вопросы Истории, 1977, №6, с. 74.
[2] Yerasimos Stefanos. Milliyetler ve sınırlar. Balkanlar, Kafkasya ve Orta Doğu, s. 164

Ancaq bütün bunlar o demək deyildi ki, zəngin təbii sərvətlərə malik olan Bakı neftinin İngiltərənin iqtisadi maraqlarında yeri yox idi. İngiltərə qədər neftin əhəmiyyətini dərindən idrak edən ikinci bir dövlət göstərmək mümkün deyil. Bunun üçün ingilislər hər şeylərini ortaya qoyaraq bu yağlı maddənin mütləq hakimi olmaq istəyirdilər.[1] Məlum olduğu kimi, XX əsrin ən güclü təbii qaynağı və dünyanı idarə edən əsas qüdrəti neft idi. Neft neçə-neçə dövlətləri oyuncağa və alətə çevirmiş, böyük, kiçik bir çox yeni yaranan dövlətlərə azadlıq verdiyi kimi, qocaman imperiyaları da tarix səhnəsindən silmişdir. Bu maye üçün insan deyilən varlığın zərrə qədər də olsun dəyəri yoxdur. Məşhur siyasətçi Uinston Çörçilin 1936-cı ildə İcmalar Palatasında neftin əhəmiyyəti barədə dediyi sözlər olduqca düşündürücüdür: *"Bir damla neft bir damla qandan daha qiymətlidir".*[2] Bu baxımdan ingilislərin Azərbaycana gəlişinin, daha doğrusu bölgədə işğal siyasəti yeritməsinin səbəbi bilavasitə iqtisadi maraqlarla – neftlə xarakterizə oluna bilər. Məşhur türk tədqiqatçısı Raif Karadağ *"Petrol fırtınası"* adlı əsərində "Times" qəzetinin tanınmış əməkdaşlarından Artur Murun 1 iyul 1922-ci il tarixli məqaləsinə istinadən, ingilislərin Bakı neftinə sahib olmaq üçün Qafqaza gəldiklərini, lakin bolşevik rus hökuməti ilə müharibəyə başlamağa hazır olmadıqlarından bölgəni tərk etmək məcburiyyətində qaldıqlarını qeyd edir.[3] Bu fikirlər doğru olsa da, ortada yenə bəzi müəyyən qaranlıq məqamlar mövcuddur. Hər şeydən əvvəl ona görə ki, dünyanın ən güclü ordusuna sahib olan İngiltərə üçün Rusiyada hakimiyyəti ələ keçirən və daxili çəkişmələrlə məşğul olan yeni rejimin rəqib olması imkansız idi. İngilislər gələcəkdə rus təhlükəsi ilə qarşılaşmaq istəməyə bilərdi. Təbii ki, bu da mövcud ehtimallar içərisində sayılmalıdır. Lakin qənaətimizcə, İngiltərənin bəhs olunan dövrdə zəngin təbii sərvətlərə sahib olan Yaxın Şərqə, xüsusilə Mosul neftinə daha çox fikir verməsi ehtimalı burada daha

---

[1] Karadağ R. Petrol fırtınası. İstanbul: Truva yayınları, 2014, s.160.
[2] Yenə orada, s.13-14
[3] Karadağ R. Petrol fırtınası. İstanbul: Truva yayınları, 2014, s.162

çox üstünlük təşkil edir. Bu ehtimalları sadalamaqla birlikdə, bu real faktı da gözdən qaçırmamaq lazımdır ki, İngiltərə Panturanizm amilini mütləq şəkildə nəzərə almaq məcburiyyətindəydi. Çünki Türkiyənin tamamilə yalnızlığa məhkum edilməsi hesaba qatılaraq, bu dövlət ilə Türk Dünyası arasındakı əlaqələrin qoparılması və Turançı ideyaların önünün kəsilməsi İngiltərə baxımından mühüm əhəmiyyət kəsb edirdi. Bu planın gerçəkləşməsi üçün ən uyğun vasitə isə ermənilər idi. Tanınmış siyasi xadim Lord Kerzonun ifadələri olduqca düşündürücüdür: *"Türkiyə ilə Türk xalqları arasında tampon bir dövlətin yaradılması qaçılmazdır. Problemin ortadan qalxması üçün yeni "Erməni Dövləti" təzahüründə xristian bir topluluğun meydana gətirilməsi vacibdir".*[1]

Məhz burada Naxçıvan amili vacib bir məqam kimi ortaya çıxır.

## 4.2. İngiltərənin Azərbaycanla bağlı geosiyasi maraqları və Naxçıvan

İngiltərənin ermənilərlə bağlı planlarını araşdırıb təhlil etdikcə, istər-istəməz belə bir sualla qarşılaşmalı oluruq: "Erməni dövləti" təzahüründə bu qurum hansı bölgələrdə yaradılacaqdı? Bu dövlətin Şərqi Anadoluda qurulması mümkün deyildi, İngiltərə özü də buna qətiyyən imkan verməzdi. Halbuki İngiltərə Şərqi Anadolu və Qafqazda türk təhdidinə qarşı baryer olaraq yararlanması müqabilində ermənilərə təminat vermiş, "Müstəqil Ermənistan"ın qurulması yönündə ciddi öhdəliklər götürmüş və vədlər vermişdi. Erməni dövlətinin Türkiyə ilə Azərbaycan arasında, Naxçıvanı da əhatə edən bir bölgədə qurulması və sərhədlərinin müəyyənləşdirilməsi məsələsi İngiltərənin planları çərçivəsində idi. İngilislər Türkiyəyə meylli olan Azərbaycana inanmadıqlarından məhz Ermə-

---

[1] Ллойд Дж. Правда о мирных договорах. В 2-х томах: Перевод с английского. Т. 2 / Д.; Под ред.: Волков Ф.Д., Никонов А.Д., Москва: Иностр. Литературы, 1957, с. 427

nistana etimad edir və Türkiyənin Transqafqaza olan qapısını əbədilik bağlamaq üçün Naxçıvanı ermənilərə verməyə çalışırdılar.[1]

1919-cu ildə ingilis ordusu Naxçıvana daxil oldu. Bunun əsas səbəbi ermənilərdən baryer kimi istifadə edilməsiylə Panturanizmə qarşı sədd çəkmək və Naxçıvanı ermənilərə vermək olsa da, ingilislər başlanğıcda öz gəlişlərinin səbəbini *"Qərbin məzlum övladı"* deyə adlandırılan erməni qaçqınlarına köməklik göstərmələri ilə izah edirdilər.[2] Yoxsa ki, *"biz buraya Pantürkizmin qarşısını almaq, Naxçıvana ermənilərə verməklə Türk Dünyasının bağrına sancılan xəncər kimi tampon bir dövlət olaraq yeni "Erməni Dövləti" təzahüründə xristian bir topluluğun meydana gətirilməsi üçün gəldik"* şəklində belə bir açıqlamanın verilməsi heç bir məntiqə sığmazdı.

Həqiqətən də əsas bəhanə erməni qaçqınlarının Naxçıvana yerləşdirilməsi oldu. Bakıdan Zəngəzurdakı erməni qaçqınlarına bir milyon rubl dəyərində yardım gətirən Böyük Britaniya ordusunun mayoru Uilyam D.Qibbon qaçqınlar məsələsini həll etmək üçün Naxçıvana göndərildi.[3] 1919-cu ilin yanvar ayının əvvəllərində Naxçıvanda hökumətin səlahiyyətli şəxsləri ilə görüşən U.Qibbon əvvəl çox ümidli idi. Naxçıvanın nüfuzlu şəxsləri ona hörmət göstərir və dərdlərini izah edirdilər.[4] Lakin Qibbon Naxçıvanda erməni qaçqınlarının məsələsini həll etmək üçün gəldiyini açıqlayınca vəziyyət gərginləşdi. Keçmişdə baş vermiş hadisələr, Ermənistandakı türklərin qarşılaşdıqları sərt müamilələr, erməni hücumları nəticəsində Naxçıvan və İrana sığınan on minlərlə müsəlman qaçqınlarının vəziyyəti acınacaqlı olduğu halda

---

[1] Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan. (Tərtib edəni və ön sözün müəllifi İsmayıl Hacıyev). Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2010, s.13-14; Zamanov Elçin. Cənubi Qafqazda ictimai-siyasi vəziyyət və Azərbaycanın xarici siyasəti (1918-1920-ci illər). Bakı: Elm və təhsil, 2011, s.74

[2] Atnur İbrahim Ethem. Osmanlı yönetiminden Sovyet yönetimine kadar Nahçıvan (1918-1921). Ankara: Türk Tarih Kurumu, 2001, s.152

[3] Hovannisian Richard G. The Republic of Armenia, the first year, 1918-1919. Los Angeles: University of California Press, Volume I: Berkeley, 1971, p.190

[4] Əliyev Mirzə Bağır. Qanlı günlərimiz (1918-1920, Naxçıvan). Bakı: Azərbaycan Dövlət nəşriyyatı, 1993, s.106

belə bir təklifin qəbulu gözlənilməzdi. Belə bir vəziyyətdə Qibbon Naxçıvandan getmək məcburiyyətində qaldı.[1] Çox keçmədən digər bir ingilis komissarı, kapitan Fridrix İstfild Lautonun rəhbərlik etdiyi heyət Naxçıvana gəldi. Yanvarın 8-də Milli Şura üzvləri ilə ingilis heyəti arasında müştərək yığıncaq keçirildi və bəzi qərarlar qəbul edildi. Həmin qərarlara görə:

Dəmiryolu ingilislər tərəfindən təmir ediləcək və istifadəyə veriləcək;

Teleqraf xətləri açılacaq, Culfadan Sədərəyə qədər Naxçıvan və Şərur müsəlmanların ixtiyarında, Sədərəkdən İrəvana qədər isə ermənilərin ixtiyarında olmalı;

Müsəlmanların hüdudu Arazdəyən, ermənilərin hüdudu İrəvan Yengicəsi olmalı;

Dəhəkənd nahiyəsində Danzik müsəlmanların ixtiyarında, Ərəbə isə ermənilərin ixtiyarında hüdud olmalı;

Naxçıvan müsəlmanları Amerika missiyasına erməni mühacirlərinə paylanması üçün 10.000 pud buğda və pudu 50 manatdan verməlidir.[2]

Naxçıvanda Milli Şura hökuməti ilə görüşüb razılaşan kapitan F.Lauton təcili şəkildə 27-ci Diviziya Qərargahına Naxçıvanda hərbi qubernatorluğun yaradılması və cənubdakı silahlı qüvvələrin İrəvana aparılması üçün Ermənistana əmr verilməsini təklif edən bir raport göndərdi. Yanvarın 26-da general Corc T.Forestir Uolker, Hərbi Kəşfiyyat şefi Uilyam Henri Biç, Qərargah rəisi Çarlz Qraten Belev, 8-ci Briqada komandiri Robert N.Stüart və müavinləri bir yerə yığışdılar. Aparılan müzakirələr nəticəsində Lauton podpolkovnik rütbəsiylə Naxçıvana hərbi qubernator təyin edildi və ona 8-ci Briqadadan bir rota göndəriləcəyi bildirildi.[3]

---

[1] Atnur İbrahim Ethem. Osmanlı yönetiminden Sovyet yönetimine kadar Nahçıvan (1918-1921), s.153
[2] Əliyev M. Qanlı günlərimiz (1918-1920, Naxçıvan), s.107
[3] Atnur İbrahim Ethem. Osmanlı yönetiminden Sovyet yönetimine kadar Nahçıvan (1918-1921), s.154

Naxçıvanda ingilis hakimiyyəti öz fəaliyyətinə başlayanda, bölgədə öncəliklə nüfuz qazanmağı düşünürdülər. Belə ki, ingilislər müsəlmanların əksəriyyət təşkil etdikləri bölgələri erməni iddialarından və hücumlarından qoruyur, yerli əhaliyə müəyyən vəzifələr verməklə türk əhalisini məmnun etməyə çalışırdılar. Hətta ermənilərlə azərbaycanlılar arasında heç bir fərq qoyulmadan onlarla bərabər səviyyədə davranaraq obyektiv bir görüntü yaratmağa çalışır, ermənilərin bəzi təkliflərinə qarşı çıxaraq əhalinin xoşuna gəlməyə can atırdılar. Bu da müəyyən mənada özünü doğruldurdu. Şübhəsiz ki, başlanğıcda ermənilərlə bağlı gerçək planlarını və əsl niyyətlərini bəlli etməyən ingilislərin belə bir addım atmaları heç də səbəbsiz deyildi. Hər şeydən əvvəl ona görə ki, ingilislər başlanğıcda bölgədə kifayət qədər gücə sahib deyildilər. Bu səbəbdən qubernator Lauton bütün səlahiyyətlərə tam olaraq malik deyildi. O, bəzi məsələlərdə Naxçıvan hökumətindən icazə istəyir və yalnız təkliflər irəli sürə bilirdi.[1] Lakin mart ayından başlayaraq ingilislərin gerçək niyyəti üzə çıxdı və bölgə əhalisiylə münasibətləri pozulmağa başladı. Naxçıvana gəldiklərindən etibarən başlanğıcda zora baş vurmasalar da, erməni qaçqınlarına buğda göndərmək üçün canfəşanlıq edən ingilislər sonradan satın aldıqları buğdanı Ermənistana göndərərək qaçqınlara paylayırdılar. İngilislərin ermənilərin lehinə apardığı siyasət getdikcə daha açıq formada özünü büruzə verirdi. General Uilyam M.Tomsonun 10 martda Bakıdan Tiflisə gəlməsi ingilis siyasətindəki dəyişikliyin başlanğıcı oldu. Erməni mənşəli amerikalı tarixçi Riçard Hovanissiyan yazır ki, Qarsdan Naxçıvana qədər türklər təşkilatlı olaraq hərəkət edirdilər. İngilislər müsəlmanların ekspansionist siyasətinin fərqinə varmış və bu işdə türklərin barmağı olduğunu anlamışdılar.[2] Dərhal hərəkətə keçən general Tomson 16 martda 2-ci Rajput Yüngül Piyada Alayının

---

[1] Atnur İbrahim Ethem. Osmanlı yönetiminden Sovyet yönetimine kadar Nahçıvan (1918-1921), s.156-157

[2] Hovannisian Richard G. The Republic of Armenia, the first year, 1918-1919. Los Angeles: University of California Press, Volume I: Berkeley, 1971, p.236

1-ci batalyonundan iki tam nizamlı rotanı Naxçıvana göndərdi. Bir həftə sonra isə Rajputların komandiri podpolkovnik Con Simpson (John Chalmers Simpson) F.Lautondan hərbi qubernatorluq səlahiyyətlərini almaq üçün yola çıxdı.[1] Podpolkovnik Simpsonu Naxçıvana göndərərək, 28 martda özü Tiflisdən İrəvana gələn general Tomson erməni hökuməti ilə görüşdü. Erməni hökuməti qaçqınların Naxçıvan və Şərura yerləşdirilməsi üçün bölgənin türk əhalisinə qarşı sərt tədbirlərin alınmasını istəyirdi. Tomson ermənilərin tələblərini qəbul etdi və müəyyən qərarlar aldı. Tomsona görə, köçürüləcək insanların maddi zərərlərinin ödənilməsi, qaçqınların Naxçıvan və Şərura yerləşmələri üçün onlara lazımi yardımın göstərilməsi məcburi idi. Hətta bu qərarlar general Uilyam Biçin sülh konfransındakı ingilis nümayəndələrinə təqdim etmək üçün hazırladığı raporta da əlavə olundu.[2] Əsas məqsəd ermənilərin tarixi türk torpaqları olan Naxçıvan və Şərura yerləşdirilməsini təmin etmək, bu minvalla adı keçən bölgələri Ermənistanın nəzarətinə vermək idi. İngilis hərbi dairələri tərəfindən İrəvan, Qars və Naxçıvan bölgələri üçün məsul olan general Deviyə (Keith Maitland Davie) bəzi təlimatlar verildi. Buna görə Qars və Naxçıvan bölgələri Paris Sülh Konfransının qərarına qədər Ermənistanın ixtiyarına veriləcək, Naxçıvandakı hərbi qubernatorluq ləğv olunacaqdı. Bütün işlər 30 aprelə qədər bitəcək və ingilis əsgərləri bu tarixdən etibarən bölgəni tərk etməyə başlayacaqdı.[3] Buradan anlaşıldığı kimi, Naxçıvanda ermənilərin nəzarəti təmin olunduqdan sonra ingilislərin vəzifəsi bitmiş sayılacaqdı.

Beləliklə, Naxçıvanın müvəqqəti olaraq Ermənistanın nəzarəti altına keçməsi qərarlaşdırıldı. Başlanğıcda naxçıvanlıların belə bir plandan xəbərləri yox idi. İngilislər zorla bu ilhaqın hansı formada gerçəkləşəcəyinə dair lazımi plan hazırladıqdan sonra vəziyyəti Naxçıvan hökumətinə və əhalisinə bildirdilər. Mirzə Bağır Əliyev

---

[1] Yenə orada
[2] Hovannisian Richard G. The Republic of Armenia, the first year, 1918-1919, p.236
[3] Yenə orada

*"Qanlı günlərimiz"* adlı əsərində bu barədə yazır: *"...Bu gün Naxçıvanda böylə şayiə dövran etdi ki, guya Naxçıvan qəzası və həvalisi əraminə tayfasının* (ermənilərin – Red.) *ixtiyarında qoyulubdur. Naxçıvan şəhəri ermənizəmin adlanır. Bu fəcih xəbər əhalini böyük bir həyəcana gətirdi. Binaənəley Naxçıvan Milli Şurası tərəfindən müsəlman əhalisi məscidi-camiyyə ehzar edilib orada məzbur şayiə və siyasətimizə dair alınan rəsmi kağızlar sədri-şura əvəzi olan İrəvan əhli Əmiş tərəfindən oxundu. Əhali tərəfindən bəzi izahatlar verildi... Məsələ müzakirə olunduqda, haziruni-məscid ittifaqi-ara ilə Azərbaycan hökumətinə mülhəq olmalarını uca səslər ilə yetirdilər".*[1]

Göründüyü kimi, ingilislərin planının əksinə olaraq Naxçıvan əhalisinin əsas istəyi Azərbaycan Cümhuriyyətinə birləşmək olmuşdur. Lakin aradan 5 gün keçdikdən sonra, yəni 3 may 1919-cu ildə erməni komandanı Dro (Drastamat Kanayan) və general Devinin imzalarıyla bir bəyannamə yayınlandı. Həmin bəyannamədə deyilirdi:

*Naxçıvan bölgəsi üçün əmrlər*
*3 may 1919, İrəvan*

*Müharibə qurtardı. Xalqın çəkdiyi əzab və işgəncələr sona çatmalıdır. Hər kəs öz ocağına qayıtmalı və sülh içində işinə yenidən başlamalıdır. Din və millət fərqi qoyulmadan hər kəs üçün sülh dövrü başlayır. Naxçıvana müttəfiqlərin və hökumətin əmri ilə gəldim. Əmrim altındakı birliklərə müraciət edirəm: Siz hökumətin nümayəndələrisiniz. Heç bir milli fərq qoymadan cümhuriyyətin bütün vətəndaşlarının can və mallarını qorumalısınız. Bu, sizin vəzifənizdir. Hansı zabit, əsgər və ya milis əmri pozaraq şəxsi səbəblərlə silahdan istifadə etsə və ya xalqın bir hissəsini o birinə qarşı qızışdırsa, vurulacaqdır. Günahkara ən ağır cəza verə bilməyim üçün birliklərin bütün qanunsuz hərəkətləri xalq tərəfindən yerli komandirlərə bildirilməlidir. Hər bir hissədə sakit həyatın qurulmasına mane olan*

---

[1] Əliyev M. Qanlı günlərimiz (1918-1920, Naxçıvan), 142 s.

*quldurlara qarşı hərbi məhkəmələr qurulmalıdır. Hər bir hissə komandirinə xəbərdarlıq edirəm: Meydana çıxan hər hansı qeyri-qanuni hərəkətə görə onları məsul tutaram. Yaddan çıxarmayın ki, dövlətimiz Ermənistan Cümhuriyyətidir. Ermənistanda yaşayan bütün xalqların cümhuriyyəti. Hökumətin əsas hədəfi cümhuriyyətin bütün millətləri üçün sərbəst bir həyat ərsəyə gətirməkdir. Xristian və müsəlmanlar üçün qanunlarımız eynidir. Hər kim qanunu pozarsa, eyni şəkildə cəzalandırılacaq.*

*Naxçıvan xalqı! Sizə də səslənirəm. Mən müttəfiqlərin və öz hökumətimin əmri ilə, erməni və müsəlman qaçqınlarını evlərinə gətirmək üçün Naxçıvana gəldim. Hökumətimiz regionda qanunsuz müsadirə edilən bütün torpaqları öz əsl sahiblərinə qaytaracaqdır. İstər erməni olsun, istərsə də türk, əməkçi xalqın bu qanuni arzusuna qarşı çıxan bütün vətəndaşlar cəzalandırılacaqdır. Qarşı çıxan kəndlər qanundan kənar elan ediləcək və cəzalandırılacaqdır. Evini-eşiyini qoruyan hər kəs sülhsevər xalqın malından faydalanaraq varlanmaq istəyən pis niyyətli kəslərin işinə mane olmalıdır. Bütün xalqa bildirirəm ki, Cənubi Qafqaz münasibətləri üçün bu, məcburidir.*

*Hissə komandirləri bu əmrləri dərk etməli və hər yerdə qayda-qanunu, sabit həyatı qorumalıdırlar. Pis niyyətli şəxslər cəzalandırılmalı, milli ayrı-seçkilik qoyulmadan hər xalqdan yardım görməlidirlər. Birliklər üçün lazım olan hər şey pulla alınacaqdır.*

*İngilis generalı Devi*
*İrəvan hərbi hissə komandiri Dro,*
*İrəvan Dəstə Qərargah rəhbəri Muradyan.*[1]

General Tomsonun göstərişi ilə yayınlanan bu bəyannamə Naxçıvanda böyük narazılığa səbəb olsa da, qərar dəyişməmişdi. Milli Şura üzvləri ilə keçirilən görüşdə general Devi qəti olaraq Naxçıvanın

[1] Atnur İbrahim Ethem. Osmanlı yönetiminden Sovyet yönetimine kadar Nahçıvan (1918-1921), s.170.

Ermənistana verildiyini və bunu xüsusilə müttəfiqlərin əmri olduğunu bildirdi.[1]

Əhalinin müəyyən hissəsi və nüfuzlu şəxslər hökumət binasına yığışaraq etiraz mətni hazırladılar. Etiraz mətnində göstərilirdi: *"Bizə qarşı anadangəlmə nifrəti və şovinizmi ucbatından son iki ildə gözlərimiz qarşısında sistematik surətdə və insafsızcasına qardaşlarımızı, qadın və uşaqlarımızı döyməklə, yüzlərlə kəndi yandırmaq və atəşə tutmaqla, əmlakını talan etməklə məşğul olan xalq bizi özünə yaxınlaşdırmağa və ədalətli hakim hüququ ilə idarə etməyə qadir deyildir.*

*Mədəni cəhətdən ermənilər Sizin hökumət səviyyəsindəki mədəniyyətədək inkişaf etməmişlər ki, ədalət, bərabərlik prinsipləri əsasında maneəsiz bizi idarə etsinlər və burada bizim mənafeyimiz təxminən onlarınkı ilə eyni olsun.*

*Öz müstəqilliklərini elan etdikləri gündən indiyədək ancaq erməni əhalisinin yaşadığı ərazilərdə möhkəm və sarsılmaz hakimiyyət qura bilməmiş, Ermənistan Respublikasını bürümüş anarxiyanı dəf etməyi bacarmamışlar. Bəs, onlar müxtəlif, amma psixoloji cəhətdən bərabər millətləri necə idarə edə bilərlər?*

*Razılaşın ki, məlum ermənilərə tabe olmaqla biz təkcə özümüzü yox, həm də ömrü boyu bizə lənətlər oxuyacaq nəslimizi alçaldılmağa və təhqirə məruz qoyuruq. Buna görə də əlahəzrət general Devinin bizim Naxçıvan, Şərur və Vedibasar rayonlarımızın müvəqqəti də olsa, erməni hökumətinin idarəsinə verməsinə biz Allah tərəfindən bütün diyarın əhalisinə bəxş edilmiş azadlıq, arzu və meyllər üzərində zorakılıq faktı kimi baxırıq. Bu barədə bəyanat verərək əlavə edirik ki, ingilis hakimiyyətinə qarşı çıxmaq fikrimiz yoxdur, çıxmayacağıq və çıxa da bilmərik, lakin bütün varlığımızla, son nəfərədək hamımız bu cür zorakılığa qarşı öz etirazımızı bildiririk".*[2]

---

[1] Yenə orada, s.173.

[2] Hacıyev A. Qars və Araz-Türk respublikalarının tarixindən. Bakı: Azərbaycan Dövlət nəşriyyatı, 1994, s.67

Etiraz mətni, general Tomsona çatdırılması üçün Naxçıvanın hərbi qubernatoru podpolkovnik Con Simpsona verildi. Ümumiyyətlə, etirazlar heç bir nəticə vermirdi. 1919-cu il mayın 14-də general Devi, Aleksandr Xatisyan, Naxçıvana qubernator olaraq yeni təyin olunan erməni Gevorq Varşamyan və onları müşayiət edənlər Naxçıvana gəldilər. Əhalinin etirazları ilə qarşılaşan general Devi təhdidkar şəkildə bildirdi ki, *“camaat, bu tarixdən etibarən ermənilər sizə hakimdir. Qubernator da gəldi. Hər kəs ona itaət etməlidir. Onu tanımayanlar və itaət etməyənlər Erməni Hökumətini tanımırlar, – deməkdir. Onların hakimiyyətinə girmək istəməyənlər bizim düşmənimiz hesab olunacaqlar”.*[1]

Ertəsi gün qubernator Varşamyanı öz fəaliyyətinə başlaması üçün Naxçıvanda qoyan general Devi Xatisyanla birlikdə bölgədən ayrıldılar. Bir neçə gündən sonra erməni qaçqınlar da Naxçıvana gətirildilər.[2]

Beləliklə, Naxçıvanda erməni idarəsinin qurulması ilə ingilis planları gerçəkləşmiş oldu. İngiltərə ermənilərlə bağlı üzərinə aldığı öhdəliyin bir hissəsini yerinə yetirmişdi. Naxçıvan ermənilərə verilmiş, beləliklə də vəzifələri tamamlanmışdı. Artıq əvvəlcədən verdikləri qərara əsasən ingilis ordusu bölgədən çıxmalı idi.[3] İyulun əvvəllərində ingilis qüvvələri Naxçıvanı tərk etdilər.[4] Qeyd etmək lazımdır ki, ingilislər Naxçıvanla yanaşı, Ermənistanın digər bölgələrini də tərk edirdilər.[5] Bu məsələ ermənilər üçün təhlükəli bir vəziyyət meydana gətirmişdi. Erməni hökumətinin zəifliyi özünü büruzə verirdi. İngilislər tərəfindən ermənilərə hədiyyə edilən bölgələrin türk əha-

---

[1] Atnur İbrahim Ethem. Osmanlı yönetiminden Sovyet yönetimine kadar Nahçıvan (1918-1921), s.179

[2] Əliyev M. Qanlı günlərimiz (1918-1920, Naxçıvan), s.123; Hovannisian Richard G. The Republic of Armenia, the first year, 1918-1919, p.246

[3] Hovannisian Richard G. The Republic of Armenia, the first year, 1918-1919, p.237

[4] Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan. (Tərtib edəni və ön sözün müəllifi İsmayıl Hacıyev), s.14

[5] Hovannisian Richard G. The Republic of Armenia (1919-1920), from Versailles to London. Los Angeles: University of California Press, Volume II: Berkeley, 1982, p.62

lisi hər an bu zəiflikdən istifadə edə bilərdilər. Heç təsadüfi deyildir ki, İngiltərənin İstanbuldakı Ali Baş Qərargahı erməni idarəsinin zəif olması ilə bağlı Hərbi İdarəyə ünvanladığı raportda regiondakı problemlərin əsl qaynağının müsəlman türklərin hədsiz dərəcədə çox olması ilə izah edirdi.[1] Məhz bunun nəticəsi idi ki, ingilis hərbi dairələrinin və ordusunun köməyi ilə 1919-cu ilin iyununda daşnaklar Naxçıvanın bir hissəsini tutsalar da, Naxçıvan Milli Komitəsinin *(may ayında Naxçıvan Milli Şurası ləğv edilmiş, onun yerinə Milli Komitə qurulmuşdu – Red.)* hərbi hissələri ermənilərin nizami qoşununu əzərək onları Naxçıvan ərazisindən kənara atdılar.[2] Bu baxımdan ingilis ordusunun bölgəni, ümumilikdə Qafqazı tərk etməsi ermənilər baxımından arzuedilən bir durum deyildi. Lakin İngiltərənin qərarı qəti idi.

İngilislərin Qafqazla bağlı planları, ermənilərin taleyi, Ermənistanın gələcəyi və mandatlıqla bağlı məsələlər hələ 1918-ci ilin sonlarında Birləşmiş Krallığın siyasi dairələrinin gündəminə gətirilmiş və müzakirəyə çıxarılmışdı. İngiltərə öz maraqlarına uyğun olaraq ermənilərdən lazımi səviyyədə yararlanmışdı, lakin sonda Ermənistanın gələcəyi ilə bağlı vaxtilə öhdəlik götürdüyü vədlərdən yavaş-yavaş uzaqlaşırdı. Lord Kerzon Hərbi Kabinetin Şərq Komitəsinin 2 dekabr 1918-ci il tarixli 40-cı iclasında ermənilərlə bağlı belə deyirdi: *"Türklərin Panturanist arzularına qarşı baryer olması üçün erməni dövlətinin qurulmasını istəyirik... Lakin məsələ ilə bağlı qarşımızda 2 problem var: Bunlardan birincisi, qurulacaq erməni dövlətinin sərhədləri ilə bağlıdır. İkinci problem isə bu dövlətin qurula bilməsi üçün vacib olan böyük bir mandat güc haqqındadır. Biz Ermənistanın*

---

[1] PRO. FO. 608/78/17107, G.H.Q., Constantinople to War Office, no: I. 6607, July 28th, 1919.
[2] Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan. (Tərtib edəni və ön sözün müəllifi İsmayıl Hacıyev), s.14

*gələcəyi ilə bağlı məsuliyyəti öz üzərimizə almaq fikrində deyilik. Onsuz da bizim görüləcək çoxlu işlərimiz var".*[1]

Göründüyü kimi, Ermənistanın bölgədə baryer olaraq qurulmasını arzu edən Lord Kerzon bu dövlətin İngiltərənin deyil, başqa bir dövlətin himayəsinə verilməsinə tərəfdar idi. Ermənistan məsələsi zənn edildiyi qədər sadə bir məsələ deyildi. İngilis xarici siyasətinin rəhbərləri ermənilərin gələcəyi ilə bağlı bölgədə Ermənistan dövlətinin qurula bilməsi üçün mütləq şəkildə xarici bir gücün maddi və mənəvi dəstəyinə ehtiyac duyulduğunu təsbit etmişdilər. Lakin İngiltərə qurulacaq Ermənistan dövləti üçün heç bir şəkildə öhdəlik götürmək istəmirdi. Əslində erməni dövlətinin zəmini hazırlanmışdı. Düzdür, İngiltərə bölgədə erməni dövlətinin qurulmasını arzulayırdı, lakin öz maraqlarına uyğun olaraq qurulacaq bu dövlətin gələcəyinə dair müharibə əsnasında üstünə aldığı öhdəlikləri başqalarına həvalə etmək istəyirdi və bu siyasətdə yönəlmiş olduğu dövlətlər Fransa, İtaliya və ABŞ idi.

İngiltərənin Hərbi Kabinetində 1918-ci ildə Xarici İşlər nazirinin müavini Eyr Krou (Eyre Crowe) tərəfindən memorandum verildi. Həmin memoranduma görə, Fransanın Sayks-Pikot (Sykes-Picot) anlaşmasından əl çəkməsi üçün ən real variant ona Ermənistan və Cənubi Qafqazın mandatlığını vermək idi. Əsas məqsəd Fransanı şimala yönləndirərək ingilislərin maraq dairəsi daxilindəki bölgələrdən uzaqlaşdırmaqdı. Memorandumda, eyni zamanda Fransanın Ermənistan üzərində, ABŞ-ın isə Gürcüstan və Azərbaycan üzərində mandatlığı məsələsi də göstərilirdi.[2] Lakin Lord Kerzon İngiltərənin Hərbi Kabinetinin Şərq Komitəsində müzakirəyə çıxarılan 2 dekabr 1918-ci il tarixli 40-cı iclasında Fransanın mandatlığı barəsində öz şübhələrini belə açıqlayırdı: *"Fransa Qafqazda belə bir məsuliyyəti öz öhdəsinə*

---

[1] PRO. CAB. 27/24, E.C. 40th Meeting, War Cabinet, Eastern Committee, Minutes of a Meeting of the Eastern Committee held in Lord Curzon's Room at the Privy Council Office, on Monday, December 2nd, 1918, at 3 P.M., Annex

[2] PRO. CAB. 25/120, S.W.C. 1, Secret, "Note on the Military Situation in Armenia" by Supreme War Council, British Section, Versailles, December 3th, 1917

*götürəcəkmi? Digər tərəfdən, bu bizim üçün düzgün tərcihdirmi? Nəhayət, güclü bir Fransanı dünyanın bu bölgəsində avtoritet gücə çevirmək maraqlarımıza uyğundurmu?".*[1]

Lord Kerzonun fransız mandatlığı barəsindəki təhlil və təkliflərinə Robert Sesil də şərik çıxdı. Bölgəni Hindistan rotasının bir hissəsi kimi dəyərləndirən R.Sesil Fransadansa ABŞ-ın bu bölgəyə yönləndirilməsini daha real hesab edirdi. O, ABŞ-ın bölgədə qalıcı olmayacağını fikirləşirdi.[2]

Beləliklə, İngiltərənin öz maraqlarını nəzərə alaraq Qafqazdan çıxması ilə bağlı qərarları ermənilərin təşvişinə səbəb oldu. İngiltərə tərəfindən tərk edildiklərini düşünən ermənilər bu duruma sərt reaksiya verdilər. İngilis hökuməti ermənilərin narahatlığını yatışdırmaq üçün yeni siyasi axtarışlara yönəldi və bölgədə İngiltərənin yerini alacaq bir güc olaraq ilk öncə İtaliyaya bel bağladı. Burada əsas məqsəd işğalın yükünü imperialist ittifaqın ən zəif halqasının üstünə yıxmaq idi. Lakin İtaliya hökuməti Britaniya qoşunlarını əvəz etmək üçün öz ordusunu Qafqaza göndərməkdən imtina etdi.[3]

İngiltərənin Xarici İşlər Nazirliyi ingilis qoşunlarının Qafqazdan çıxarılması nəticəsində bölgədə ortaya çıxacaq problemləri aradan qaldırmaq üçün müəyyən planlar hazırlayırdı. Xarici İşlər Nazirliyindən Artur Ceyms Balfur ilk olaraq ermənilərin silah-sursat sıxıntılarını nəzərə alaraq, ingilislərin bölgədən çıxarkən silah-sursatların bir hissəsinin onlara verilməsini istədi.[4] Hərbi Nazirlik isə belə bir vəziyyətdə müsəlmanlara qarşı erməni cinayətlərinin daha da artacağını hesab edirdi.[5]

---

[1] PRO. CAB. 27/24, E.C. 40th Meeting, War Cabinet, Eastern Committee, Minutes of a Meeting of the Eastern Committee held in Lord Curzon's Room at the Privy Council Office, on Monday, December 2nd, 1918, at 3 P.M., Annex
[2] Yenə orada, s.21
[3] Həsənli C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), s. 253.
[4] PRO. FO. 371/3659/114087, Balfour, British Delegation, Paris to Foreign Office, August 8th, 1919.
[5] PRO. FO. 371/3668/124570, "Memorandum on the Armenian Question", Foreign Office Minutes, September 1th, 1919

İngiltərənin Xarici İşlər Nazirliyində 1919-cu ilin avqust ayında keçirilən iclasda ordunun təxliyyəsinin təsirlərini azaltmaq və bölgə ilə əlaqəni təmin etmək üçün başda Oliver Uordrop olmaqla ingilis siyasi missiyasının Qafqaza göndərilməsi planlaşdırıldı.[1] İngilislərin getməsiylə bölgədə yalnız və himayəsiz qalan ermənilərə yönəlik ehtimali hücumların qarşısını almaq üçün müəyyən tədbirlərin alınması da O.Uordropun missiyası içərisində idi.[2]

Buradan anlaşıldığı kimi, ermənilərin türklərə qarşı törətdikləri cinayətlərin dərəcəsi o qədər dəhşətli olmuşdur ki, ingilis ordusu bölgədən getdikdən sonra törətdiklərinin müqabilində erməniləri heç də yaxşı aqibət gözləmədiyini hesab edən İngiltərə məhz belə bir addım atdı. Ancaq ingilis himayəsi müvəqqəti xarakter daşıyırdı. Ermənistanın Xarici İşlər naziri Aleksandr Xatisyan ingilislərə, müharibədə onlarla bərabər türklərə qarşı mübarizə aparan erməniləri yalnız qoymalarının təhlükəli olduğunu bildirirdi.[3]

Ermənistan Respublikası Nümayəndə Heyətinin rəhbəri M.Aharonyan da 11 avqust 1919-cu ildə Baş nazir Lloyd Corca göndərdiyi məktubda təcili şəkildə İngiltərənin yardımını istəyirdi.[4]

Bu dövrdə İngiltərədə yaşayan ermənilər də ingilislərin getməsini onların məhv olmasına səbəb olacaq və zəmin hazırlayacaq bir hərəkət kimi şərh edirdilər.[5] Ermənistanın yalnızlığa məhkum edilməsini bəşəriyyət naminə "fəlakət" olaraq xarakterizə edən ermənilər ən azından dost bir güc tərəfindən nizam-intizam qurulanadək ingilis birliklərinin Qafqazda qalmalarının vacib olduğunu düşünürdülər. Onlara

---

[1] Həsənli C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), s.258
[2] PRO. FO. 371/3668/123464, Mr. Balfour to War Office, August 31th, 1919
[3] PRO. FO. 371/3659/118402, "Telegraphic Censorship-Constantinople, Daily Report, no: 138, July 30th, 1919
[4] PRO. FO. 371/3659/115082, Aharonian, President Delegation Armenian Republic to his excellency Lloyd George, August 11th, 1919
[5] "Armenia faced with massacre". "The Times", August 16, 1919

görə ingilis hökuməti Qafqazı tərk etmək qərarını yenidən gözdən keçirməliydi.[1]

İngiltərənin Qafqazdan çıxmaq qərarının ermənilər tərəfindən "fəlakət" olaraq şərh edilməsi çox təbii idi. Çünki İngiltərənin işğalı ilə bölgədə himayə altına alınan ermənilər ingilislərin nəzarətində türk bölgələrinə gətirdilərək, buralarda türklərə qarşı misli görünməyən qətl cinayətləri törətmişdilər. Bu vəziyyət o dövrdə Qafqazda olan ingilis generalı Alfred Raulinsonun (Alfred Rawlinson) göndərdiyi raportda da qeyd olunmuşdu. Raulinson ingilislərin bölgədən çıxması ilə müsəlmanların ermənilərdən intiqam alacaqlarını fikirləşirdi. Törədilən cinayətlərin qarşılıqsız qalmayacağının fərqində olan ermənilər məhz bu səbəbdən ingilislərin çıxmasını fəlakət olaraq xarakterizə edirdilər.[2] İngiltərənin Hərbi Nazirliyi isə "bölgədəki bütün ermənilərin boğazları kəsilsə belə" Qafqazda bir batalyonun da qalmasına icazə verməyəcəyini bildirmişdi.[3]

Şübhəsiz ki, bu qərarların müəyyən səbəbləri var idi. Əvvəl də qeyd olunduğu kimi, İngiltərə öz müstəmləkələrinin ərazilərini genişləndirməkdən daha çox, müharibə dövründə ələ keçirdiyi müstəmləkələri, xüsusilə neft bölgəsi olan Yaxın Şərqi qoruyub saxlamaq üzərində düşünür, Qafqazda bolşevik rus təhlükəsi ilə qarşılaşmaq istəmirdi. İngiltərə daha çox Mosul neftinə fikir verirdi. Heç təsadüfi deyildir ki, bölgə Türkiyədən zorla qoparılmış və yeni yaradılan İraqa birləşdirilmişdi. İngiltərə isə 1920-ci il tarixli San-Remo konfransı ilə İraqı öz mandatlığına alacaq, Qafqazda itirdiyini bu yeni yaradılan ərəb ölkəsində təmin edəcəkdi.[4] İkincisi, iqtisadi maliyyə məsələləri ingilis milli maraqları çərçivəsində tutulmalıydı. Regiondakı hərbi

---

[1] PRO. FO. 371/3668/118562, The British-Armenian Chamber of Commerce to Arthur James Balfour, August 19th, 1919
[2] PRO. FO. 371/3668/122957, Foreign Office to Sir Henry Wilson, August 29th, 1919
[3] PRO. FO. 371/3668/123464, Mr. Balfour to War Office, August 31th, 1919
[4] Abdullayev M. Beynəlxalq münasibətlər tarixi (XX əsr). Bakı: ABU, 2006, s.52; Armaoğlu Fahir. 20. yüzyıl siyasi tarihi 1980-1990: 2 ciltte, II c., s.201; Karadağ Raif. Petrol fırtınası, s.194-195

əməliyyatlar ingilis iqtisadiyyatına yük ola bilərdi. Buna əlavə olaraq, ingilis əsgərləri də öz ölkələrinə qayıtmaq istəyirdilər. Belə şərtlər altında real çıxış yolu olaraq öhdəliklərin və məsrəflərin bərabər şəkildə bölüşüldüyü müştərək bir addımın atılması uyğun görüldü.[1]

Beləliklə, Oliver Uordropun rəhbərlik etdiyi ingilis missiyasından başqa, Qafqaza mayor de Nonakurun rəhbərlik etdiyi Fransa, polkovnik Uilyam Haskelin rəhbərlik etdiyi Amerika, polkovnik M.Qabbanın rəhbərlik etdiyi İtaliya missiyaları Cənubi Qafqaza gəldilər. Lakin Fransa və İtaliyanın bölgəyə olan maraqları tərəddüdlü idi. Almaniya və Osmanlı müstəmləkələrinin bir hissəsini ələ keçirən Fransa Rusiya imperiyasının müstəmləkələrinə son dərəcə ehtiyatla yanaşırdı. Bir qayda olaraq fransız siyasətçiləri "vahid və bölünməz Rusiya" ideyasının tərəfdarı idilər. İtaliya isə gələcəkdə Rusiya və Türkiyə ilə qarşılaşmaq qorxusu səbəbilə belə bir addımdan çəkinirdi.[2]

ABŞ-a gəlincə, İngiltərə Mondros müqaviləsindən sonra bu dövlətə müraciət edərək Ermənistanın amerikan ordusunun nəzarəti altına keçməsini istəsə də, ABŞ-dan müsbət cavab ala bilməmişdi.[3] Parisdəki sülh anlaşmaları prosesində də ABŞ-ın Ermənistan məsələsini həll edəcəyi düşünülürdü. Ermənistan məsələsi Parisdə Dördlər Şurasının müzakirəsinə çıxarıldıqda, prezident V.Vilsonun ABŞ Senatının da razılığı olduğu təqdirdə mandatlığı qəbul edəcəklərini bildirməsi Lloyd Corcu çox sevindirdi.[4]

Bütün bunları ümumiləşdirərək belə bir nəticəyə gəlmək mümkündür ki, İngiltərə özünün ekspansionist siyasətini həyata keçirərkən Londonda tərtib olunmuş ssenari üzrə hərəkət edən daşnaklardan

---

[1] The Parliamentary Archives, House of Lord Record Office, Lloyd George Papers/F/24/1/10, M.P.A. Hankey to Lloyd George, September 4$^{th}$, 1919
[2] Həsənli C. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920), s.356.
[3] "British troops leaving Armenia: desire for American mandate". "The Times", August 12, 1919, Tuesday
[4] Robert L.Daniel. The Armenian Question and American-Turkish Relations (1914-1927) // The Mississippi Valley Historical Review, September 1959, vol: 46, №2, p. 260

istifadə etmiş,[1] hər vəchlə Ermənistanın Antantaya öz ərazisini, habelə hərbi və iqtisadi potensialını verməyə hazır olan daşnak rəhbərlərini dəstəkləmiş,[2] faktiki olaraq Ermənistanı Naxçıvan və Zəngəzurla bağlı təcavüzkar hərəkətlərə təşviq etmişdir. Nəticədə İngiltərənin siyasi planları çərçivəsində dəstəklənən ermənilər tərəfindən Şərqi Anadoluda olduğu kimi, Azərbaycanda və onun ayrılmaz parçası olan Naxçıvanda soyqırımı siyasəti gerçəkləşdirilmişdir.

Beləliklə, İngiltərə qarşılıqlı istifadə və faydalanma münasibətləri çərçivəsində vəd etdiyi "Böyük Ermənistan" dövlətini yaratmasa da, Türkiyə ilə Türk Dünyası arasında tampon dövlət olaraq müstəqil daşnak Ermənistan dövlətinin qurulmasında bilavasitə yaxından iştirak etmiş, ümumtürk birliyi arasına baryer kimi erməniləri yerləşdirərək öz milli və geosiyasi maraqlarına uyğun olaraq Panturanizmin qarşısına sədd çəkmiş, beləliklə, öz vəzifəsini tamamlamışdır. Digər bir ifadəylə, Ermənistan dövlətinin qurulması İngiltərənin, ümumilikdə Antantanın məqsədləri içərisində olub, Panturanizm təhlükəsinə qarşı baryer kimi "əsas maneə" rolunu oynamış və bu yolda milyonlarla sterlinqlər xərclənmişdir. 1918-ci ilin oktyabr ayında İngiltərənin Xarici İşlər naziri Artur Balfur tərəfindən erməni milli nümayəndəsinin rəhbəri Poqos Nubar paşaya ünvanlanan yazıda qeyd olunurdu ki, Ermənistan dövlətinin yaradılması Antantanın, xüsusilə İngiltərənin müharibə məqsədlərindən biridir.[3] Bu yazı açıq bir etirafdır.

Məsələnin mahiyyətinə endikcə aydın olur ki, Antantanın, xüsusilə də İngiltərənin iradəsi olmasaydı, erməni dövlətinin qurulmasından və mövcudiyyətindən söhbət gedə bilməzdi. Bu barədə fransız tədqiqatçısı Jorj de Malevil də *"1915-ci il erməni tragediyası"* adlı əsərində göstərir: *"İngiltərənin iradəsi ilə çar imperiyasının xaraba-*

---

[1] Yusifzadə S. Ermənistan-Azərbaycan münaqişəsi və İngiltərənin mövqeyi (1918-1920-ci illər) // Dirçəliş – XXI əsr, 2004, №76-77, s. 256

[2] Darabadi Pərvin. XX əsrin əvvəllərində Güney Qafqaz beynəlxalq geosiyasi münasibətlər sistemində / Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam ordusu, s. 33

[3] PRO. FO. 371/3404/162745, Arthur James Balfour to Boghos Nubar Pasha, (12, Avenue du Trocadero, Paris), October 12nd, 1918

*lıqları üzərində qurulub qısa bir ömür (1918-1920) sürən erməni respublikası, bütün tarixi boyu mövcudiyyəti qeydə alınan yeganə müstəqil erməni dövləti idi".*[1]

Göründüyü kimi, müstəqil daşnak Ermənistan dövləti məhz İngiltərənin geosiyasi maraqlarına uyğun olaraq onun iradəsi ilə yaradılmışdır. Lakin bir məsələni də qeyd etmək lazımdır ki, "Böyük Ermənistan" ideyası ilə yaşayan radikal erməni millətçilərinin düşüncəsinin əksinə olaraq, müstəqil Ermənistan dövləti Osmanlı İmperiyasının ərazilərində deyil, Cənubi Qafqazda qurulmuşdur. Bunun da müəyyən səbəbləri var idi. Əgər "böyük Ermənistan" dövləti Şərqi Anadoluda yaradılsaydı, bu dövlət İngiltərənin deyil, Rusiyanın nəzarəti altına keçə bilərdi. Rusiyanın 1828-ci ildə "Erməni vilayəti"nin əsasını qoymaqla gələcəkdə ondan hücum mərkəzi olaraq düşünməsini, "erməni kartı"ndan yararlanaraq gələcəkdə Osmanlı dövlətini parçalamaq, Şərqi Anadoluda yaşayan erməniləri müstəqillik və "Böyük Ermənistan" vədləri ilə qızışdıraraq, onları öz himayəsi altında bir araya gətirərək Osmanlı ərazilərinə yiyələnmək arzusunda olması faktlarını xatırlatmaq kifayətdir. Bu ehtimalı nəzərə alan İngiltərə Osmanlı torpaqlarını öz nəzarətində saxlaya bilmək üçün Erməni dövlətinin qurulması məsələsini Cənubi Qafqaza ixrac etmişdir. Heç şübhəsiz ki, geosiyasi maraqların toqquşmasının nəticəsi olaraq Ermənistan dövlətinin yaradılması o tarixdən günümüzə qədər Azərbaycan üzərində ağır dərin izlər buraxmışdır.

[1] Малевил Жорж де. Армянская трагедия 1915 года. Баку: Элм, 1990, с. 15

# V fəsil

# ABŞ-IN CƏNUBİ QAFQAZ SİYASƏTİNDƏ "ERMƏNİ AMİLİ", MANDATLIQ MƏSƏLƏSİNƏ MÜNASİBƏTİ VƏ AZƏRBAYCANLA BAĞLI GEOSİYASİ MARAQLARINDA NAXÇIVANIN YERİ

## 5.1. ABŞ-ın Cənubi Qafqaz siyasətində "erməni amili" və mandatlıq məsələsi

Daha əvvəl də qeyd olunduğu kimi, 1918-ci ildə İngiltərənin Hərbi Kabinetində hazırlanan memorandumda Antanta dövlətlərinin Cənubi Qafqaz üzərində mandatlıq məsələsi və onların regiona yönləndirilməsi məsələsinə toxunulmuşdu. Vaxtilə ermənilərdən Panturanizm təhlükəsinə qarşı baryer kimi istifadə olunması müqabilində Ermənistanın gələcəyi üçün öhdəlik götürən İngiltərə sonradan əlavə maddi yükün altına girmək istəməmiş, bu yükü başqa dövlətlərə həvalə etmişdir. Lakin Birləşmiş Krallığın siyasi dairələrində digər dövlətlərdənsə, ABŞ-ın bölgəyə yönləndirilməsi daha məqbul hesab olundu. Əslində bölgədəki amerikan missionerləri və yardım təşkilatları da bu yöndə olduqca istəkli idilər. "American Committe for the Independence of America"nın rəhbəri cənab Gerard ABŞ-ın Xarici İşlər Nazirliyinə göndərdiyi raportda Ermənistanın dəstəklənməsini tələb etmiş, hətta bu xüsusda öhdəlik kimi Amerikanı əlaqələndirən bəzi vacib məsələləri də vurğulamışdı. Cənab Gerarda görə, yeni erməni dövlətinin sərhədləri Rusiya Ermənistanı ilə birlikdə yeddi erməni vilayəti və Kilikiyanı da içərisinə alacaq şəkildə təşkil

olunmalıydı.[1] Lakin bölgəyə əsgər və maddi yardım göndərmək ağır bir yük tələb edirdi. Yuxarıda da qeyd olunduğu kimi, ABŞ Prezidenti V.Vilson ABŞ Senatının razılığı olduğu təqdirdə mandatlığı qəbul edəcəklərini bildirdi və vəziyyəti araşdırmaq üçün Henri King (Henry C.King) və Çarlız R.Kreynə (Charles R.Crane) xüsusi təlimatlar verildi. Ağır öhdəliklərə və yüklərə səbəb ola biləcək Ermənistan mandatlığı barədə bu iki şəxsin hazırladıqları raport ABŞ-da böyük təsir yaratdı. Raportda başlıca problemlərdən biri kimi, yeni erməni dövlətinin sərhədləri içərisində yaşayan qeyri-ermənilərin *(azərbaycanlıların – Red.)* çıxarılıb, bölgəyə digər yerlərdən ermənilərin gətirilib yerləşdirilməsi qeyd olunurdu. Diqqəti çəkən əsas xüsus bundan ibarət idi ki, azərbaycanlılar yeni erməni dövlətinin sərhədləri içərisində yaşadıqlarına görə ermənilərə köməklik göstərilməsi işi çətinləşdirə bilərdi. Bu məsələ ilə bağlı raportda spesifik izahlar verilməsə də hər halda Ermənistan mandatlığını qəbul edəcək dövlətin böyük bir məsuliyyət altına girəcəyi göstərilirdi.[2] ABŞ-ın məşhur qəzetlərindən "New York Tribune"da *"Amerikan birlikləri Ermənistanda"* başlığı altında verilən xəbərdə Henri King və Çarlz Kreynin raportlarına istinad edilərək, Ermənistanın mandatlığı üçün hazırlıq mərhələsi olaraq 50 min nəfərlik hərbi birliklə yanaşı, 50 milyon dollarlıq maddi yükdən də bəhs edilirdi.[3] Bütün bunlara baxmayaraq, raport tamamlanmadan əvvəl prezident V.Vilson və administrasiyası Ermənistanın mandatlığı ilə bağlı ilk addımlarını atmağa başladı. Qeyd etmək lazımdır ki, hələ Dördlər Şurasının 28 iyun tarixli iclasında ABŞ nümayəndələri, sonralar ABŞ-ın prezidenti olmuş Herbert Huver (Herbert Hoover) və ABŞ-ın Türkiyədəki keçmiş səfiri Henri Morqentau (Henry Morgenthau) Amerikanın Ermənistanda geniş səlahiyyəti olan Ali Komissarlığına ən yaxşı namizəd kimi general Ceyms Harbordu (James G. Harbord) təklif etmişdilər. Əgər C.Harbord hər hansı səbəb-

---

[1] PRO. FO. 608/79/20779, Armenian Information Bureau to Foreign Office, No: 94, November 25th, 1919

[2] Robert L.Daniel. The Armenian Question and American-Turkish Relations (1914-1927) // The Mississippi Valley Historical Review, September 1959, vol: 46, №2, p. 261

[3] "American Troops in Armenia". New York Tribune, October 1st, 1919

dən bu vəzifəni öz üzərinə götürməsə, onda polkovnik U.Haskelin (William Haskell) üzərində dayanmaq lazımdır. İyun ayının 28-dən iyul ayının 4-nə qədər Amerika nümayəndələri prezident Vilsonla məsləhətləşmələr keçirib, dəfələrlə bu məsələni müzakirə etdilər. İyul ayının 2-də dövlət katibi R.Lansinin, Versaldakı ABŞ nümayəndə heyətinin üzvləri Uaytın, Blissin və Huverin iştirakı ilə keçirilən iclasda ABŞ nümayəndələri öz təkliflərini konkretləşdirdilər və Ermənistanda Ali Komissar kimi polkovnik U.Haskelin üzərində dayandılar. Paris Sülh konfransında Amerika nümayəndəliyinin Kiçik Asiya və Qafqaz üzrə məsləhətçisi V.Buklerə tapşırıldı ki, H.Huverin memorandumu əsasında iyul ayının 5-də Onlar Şurasının iclasına təqdimat hazırlasın. İyulun 5-də Onlar Şurasının iclası Amerikanın təqdimatı əsasında polkovnik U.Haskeli Ermənistana Ali Komissar təyin etdi. Onlar Şurasının qərarında göstərilirdi ki, polkovnik Haskel Birləşmiş Ştatlar, İngiltərə, Fransa və İtaliya hökumətləri adından Ermənistana Komissar təyin edilir, eyni zamanda o, Ermənistana yardım göstərilməsi ilə bağlı bütün tədbirlərə cavabdehdir.[1]

Əslində ABŞ Qafqaza hərbi birlik yerləşdirmək yerinə başlanğıcda yardım kampaniyaları ilə məşğul olurdu. Yardıma möhtac insanlara, xəstələrə və kimsəsiz yetim uşaqlara köməklik məqsədilə çox sayda amerikalı Cənubi Qafqazın müxtəlif yerlərində fəaliyyət göstərirdilər. Əsas hədəfləri erməni qaçqınlara yardım etmək olan amerikan heyətləri müsəlman olan möhtac və yetimləri də yaddan çıxarmırdılar. Lakin bu yardımın arxasında başqa məqamlar dayanırdı. Milli mübarizə liderlərindən Kazım Qarabəkir paşa məsələ ilə bağlı qeyd edir ki, amerikalılar Ermənistanda, Gürcüstanda uşaqlara və kimsəsizlərə yardım edir, təlim və tərbiyələri ilə maraqlanırdılar. Müsəlman uşaqlar isə onların arasında dinlərini və milliyyətlərini itirir, hətta xristian adları ilə vəftiz olunurdular.[2] Həmin məqsədə uyğun olaraq bəhs olunan dövrdə İqdır, İrəvan, Eçmiədzin, Axalkələk və Naxçıvan

[1] Robert L.Daniel. The Armenian Question and American-Turkish Relations (1914-1927), p. 261; Yerasimos Stefanos. Milliyetler ve sınırlar. Balkanlar, Kafkasya ve Orta Doğu, s.325; Həsənli C. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920), s.358.

[2] Karabekir Kazım. İstiklal harbimiz, İstanbul, 1988, s.277

kimi bölgələrdə xəstəxanalar, pulsuz yeməkxanalar və yetimxanalar açılmışdı.[1] Şübhəsiz ki, Amerikanın bəzi planları var idi. ABŞ bölgədə hərbi güc olmaq yerinə yardım fəaliyyətlərinə əsaslanan siyasi bir güc olmaq istəyirdi. Amerikalıların söz sahibi olmaları 1919-cu ilin iyul ayında Paris Sülh Konfransı tərəfindən polkovnik Uilyam Haskelin Ermənistanın Ali Komissarı təyin olunması ilə başladı.[2]

1919-cu ilin yayında U.Haskel Qafqaza gəldi. O, Ermənistanın Ali Komissarı olsa da, qərargahı Tiflisdə yerləşirdi .[3] İyul ayının axırlarında Paris Sülh konfransına göndərdiyi ilk məlumatda Haskel Ermənistanın ağır vəziyyətdə olduğunu və ətrafı düşmənlərlə əhatələnmiş ermənilərin silah və sursatla təmin olunmasının gərəkli olduğunu bildirirdi.[4] Bu fürsətdən istifadə edən ermənilər öz qonşularına qarşı ərazi iddialarını yenidən qaldırdılar və ABŞ vasitəsilə bu iddialarını həll etmək istədilər. Avqust ayının ortalarında daşnak parlamentində çıxış edən U.Haskel ermənilərin ərazi iddialarını müdafiə etdiyini bildirmişdi. Ermənilər sadəcə Qarabağ və Zəngəzur məsələlərini deyil, Naxçıvan və Şərur-Dərələyəz məsələlərini də həll etmək istəyirdilər[5].

## 5.2. ABŞ-ın Azərbaycanla bağlı geosiyasi maraqlarında Naxçıvanın yeri

Polkovnik U.Haskelin əməkdaşlarından biri kimi polkovnik Ceyms Rey Ali Komissarın Azərbaycan üzrə müvəkkili təyin edilmişdi. Eyni zamanda Tiflisdə olan Amerika konsulluğunun əməkdaşı Con Randolf da vitse-konsul kimi Bakıya göndərilmişdi.[6]

[1] Atnur İbrahim Ethem. Osmanlı yönetiminden Sovyet yönetimine kadar Nahçıvan (1918-1921), s.219
[2] Yerasimos Stefanos. Milliyetler ve sınırlar. Balkanlar, Kafkasya ve Orta Doğu, s.325
[3] Hovannisian Richard G. The Republic of Armenia (1919-1920), from Versailles to London, p.349
[4] PRO. FO. 371/36597/134122, "Assistance for Armenians", Tilley to Foreign Office, September 20th, 1919
[5] Həsənli C. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920), s. 362
[6] ARDA, f. 2905, siy. 1, iş 20

Polkovnik U.Haskel bir müddət İrəvanda qaldıqdan sonra avqust ayının 28-də Bakıya gəldi və öz planını sentyabr ayının 1-də elan etdi. Bu plana görə Amerika Ali Komissarı Qarabağı və Zəngəzuru Azərbaycanın ayrılmaz hissəsi edirdi. Bunun müqabilində U.Haskel təklif edirdi ki, İrəvan quberniyasının cənub hissəsində olan Naxçıvan və Şərur-Dərələyəz qəzalarında neytral zona yaradılmalıdır.[1] Naxçıvan və Şərur-Dərələyəz torpaqlarından ibarət olacağı nəzərdə tutulan general-qubernatorluğun Amerika nümayəndəsi tərəfindən idarə olunması planlaşdırılırdı. Polkovnik U.Haskel Sülh konfransı tərəfindən Ermənistana müvəkkil təyin edildiyindən, Ermənistan hökumətinin İrəvan quberniyasının yuxarıda adları çəkilən qəzalarını ələ keçirməsi üçün əlverişli şərait yaranmşdı. Daşnak hökuməti hələ 1918-ci ilin noyabrında türk qoşunları Azərbaycandan çıxdıqdan sonra Naxçıvan və Şərur-Dərələyəz, Eçmiədzin qəzalarını, Qars vilayətini müsəlmanlardan təmizləyib qeyd edilən ərazilərdə Ermənistan hökumətinin hakimiyyətini qurmaq istəyirdi. Lakin bu yerlərin müsəlman əhalisinin güclü müqaviməti bu planın həyata keçməsinə mane olmuşdu. Hətta ingilis komandanlığı müvəqqəti olaraq Naxçıvanın idarəçiliyini Ermənistana versə də, bölgə əhalisinin böyük əksəriyyəti Azərbaycan türkləri olduğu üçün daşnak hökuməti bu qərarı həyata keçirə bilməmişdi.[2] İngilis komandanlığının Naxçıvan və Şəruru Ermənistan hökumətinin idarəçiliyinə vermək təcrübəsi özünü doğrultmadığı üçün bu dəfə yeni bir plan – Naxçıvan və Şərur-Dərələyəzdən ibarət amerikan general-qubernatorluğu yaratmaq planı irəli sürülmüşdü.[3] Əlbəttə, bu planda ermənilərlə yanaşı amerikalıların da öz maraqları var idi. Onlar strateji baxımdan əlverişli olan Naxçıvan və Şərur-Dərələyəz general-qubernatorluğunu yaradıb, orada möhkəmlənmək niyyətində idilər. Birinci Dünya müharibəsindən sonra bölgənin strateji mövqeyi təcridçilikdən geniş beynəlxalq əlaqələrə doğru ilk addımlarını atan Amerika üçün çox cəlbedici idi. Buradan gələcəkdə nəinki Azərbay-

---

[1] ARDA, f. 2905, siy. 1, iş 20
[2] Yenə orada, iş 6
[3] Həsənli Cl. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920), s.369

cana, Ermənistana, İran və Türkiyəyə, eləcə də bütün Yaxın və Orta Şərqə çox asanlıqla nüfuz etmək olardı.[1] Digər bir tərəfdən, ABŞ "sahibsiz" görünən bu strateji bölgədə qurmaq istədiyi qubernatorluq vasitəsilə Hindistan yolu üzərində yeni nüfuz sahələri əldə etmək və Qafqazın neft qaynaqlarına da yaxın olmaq istəyirdi. Heç təsadüfi deyildir ki, Standart Oil Company uzun müddət idi ki, Qafqaz nefti ilə yaxından maraqlanırdı.[2] Bunu nəzərə alaraq qeyd etmək mümkünür ki, zahirən müttəfiqlər adından çıxış edən U.Haskelin əslində amerikan siyasəti yeritməsinin, ABŞ lehinə fəaliyyət göstərməsinin, Naxçıvan və Şərur-Dərələyəz bölgələrini neytrallaşdırmağa çalışmasının, bu idarənin başına amerikan qubernatorun təyin edilməsi istiqamətində apardığı fəaliyyətin, eyni zamanda yoxsullara və kimsəsizlərə göstərilən yardımların əsl səbəbi qənaətimizcə, Amerikanın Qafqazda hərbi baza əldə etmək istəməsi ilə əlaqələndirilə bilər. Bu baxımdan həmin dövrdə İngiltərənin Xarici İşlər naziri Lord Kerzonun Qafqaza bir ingilis komissarı təyin etmək qərarı,[3] eyni zamanda ingilis kəşfiyyatçılarının da amerikalıların Naxçıvandakı fəaliyyətləri ilə yaxından maraqlanmaları[4] olduqca düşündürücüdür.

Qeyd etmək lazımdır ki, Naxçıvan və Şərur-Dərələyəz bölgələrində Amerika general-qubernatorluğunun yaradılması layihəsi Ermənistana ABŞ mandatı layihəsi ilə eyni vaxtda irəli sürülmüşdü.[5] U.Haskelin Ermənistana Ali Komissar təyin olunması əsnasında amerikalıların Naxçıvan ziyarətləri də getdikcə artırdı. Çünki Ermənistan mandatlığı gündəmdə olan ABŞ üçün Naxçıvan çox önəmli bir yer idi. Bunu nəzərə alaraq ilk öncə C.D.User və M.Karlton Ayerin rəhbərliyi altında rəsmi heyət Naxçıvanda amerikan idarəsinin qurulması və regionda ermənilərin vəziyyəti ilə bağlı araşdırmalar apardı.[6] Həmin

[1] Yenə orada, s.363
[2] Geniş məlumat üçün bax: Karadağ Raif. Petrol fırtınası, s. 166-197
[3] Yerasimos Stefanos. Milliyetler ve sınırlar. Balkanlar, Kafkasya ve Orta Doğu, s.325
[4] Atnur İbrahim Ethem. Osmanlı yönetiminden Sovyet yönetimine kadar Nahçıvan (1918-1921), s.221
[5] Hacıyev A. Qars və Araz-Türk Respublikalarının tarixindən, s.86-87
[6] Hovannisian Richard G. The Republic of Armenia (1919-1920), from Versailles to London, p.203-204.

dövrdə general Harbord heyəti də Naxçıvanda səlahiyyətli şəxslərlə görüşüb müzakirələr aparırdılar. Həmin müzakirələrdə Naxçıvan bölgəsində əhalinin 90%-nin azərbaycanlı, 10%-nin isə erməni olduğu bildirilmiş, bu səbəbdən xalqın erməni hökumətini qəbul etmək istəmədikəri diqqətə çatdırılmışdı.[1] Qeyd etmək lazımdır ki, bəhsi keçən dövrdə AXC hökuməti öz nümayəndəsi Səməd bəy Cəmillinskini bölgənin müvəqqəti general-qubernatoru təyin etmiş, beləliklə, Naxçıvan və Şərur-Dərələyəzdə yerli özünüidarənin əsasları möhkəmlənməyə başlamışdı. O da öz növbəsində vaxtilə ermənilərə qarşı mübarizə aparmaq üçün Kazım Qarabəkir paşa tərəfindən vəzifələndirilən Xəlil bəyi diyar qoşunlarının baş komandanı, Kəlbalı xanı isə öz köməkçisi, eyni zamanda Naxçıvan qoşun dəstəsinin komandiri təyin etmişdi.[2]

Naxçıvanda belə bir yeni idarə sisteminin qurulduğu dövrdə Ermənistanın Ali Komissarlığına təyin olunan Uilyam Haskel bölgədə neytral zona yaradaraq amerikan general-qubernatorluğu təsis etmək istəyirdi. 29 avqust 1919-cu ildə Haskel ilə Azərbaycan hökumətinin səlahiyyətli şəxsləri arasında müzakirələr aparıldı və tərəflər arasında aşağıdakı xüsuslar barəsində razılığa gəlindi:

Naxçıvan və Şərur-Dərələyəz qəzalarında müvəqqəti olaraq general-qubernatorluq yaradılacaq;

Qubernator Amerika vətəndaşları içərisindən polkovnik Haskel tərəfindən təyin ediləcək;

Qəzalar bərabər və gizli səsvermə əsasına görə seçilən Milli Şuralar vasitəsilə idarə olunacaq;

Qubernatorluq ərazisində məhkəmə, dəmir və şose yolları, poçt və teleqraf, milli təhsil Şuranın səlahiyyətindədir. Lakin qubernator tərəfindən nəzarət olunacaq;

Yerli idarə qubernatorun təyin etdiyi Şura tərəfindən ərazi üzərində çoxluq təşkil edən millətin nümayəndələrindən təşkil olunur;

---

[1] Atnur İbrahim Ethem. Osmanlı yönetiminden Sovyet yönetimine kadar Nahçıvan (1918-1921), s.222

[2] Hacıyev A. Qars və Araz-Türk Respublikalarının tarixindən, s.85

Bütün qubernatorluq ərazisində mətbuat, nəşriyyat, vicdan, fikir, kommunikasiya azadlığı və şəxsiyyətin toxunulmazlığı elan olunur;

Qubernatorluğun büdcəsi Azərbaycan parlamenti tərəfindən təmin ediləcək, çatışmayan hissə Azərbaycan xəzinəsi tərəfindən ödəniləcək;

Qubernatorluq bölgəsində rəsmi pul vahidi Azərbaycan pulu olacaq;

Qubernator seçkilərə qədər hüquqi asayişin təmin olunmasına köməklik etmək məqsədilə Azərbaycandan iki məsləhətçi dəvət edəcək;

Bu bölgədə salınacaq Bakı-Culfa dəmiryolunun inşaat sahəsi Azərbaycanın nəzarəti altında olacaq;

Əhalidən silahlar yığılmayacaq;

General-qubernatorluğun ərazisində torpaq və siyasi məsələlərlə əlaqədar yaranan bütün cinayətlərə ümumi əvf elan ediləcəkdir.[1]

Bu anlaşmadan göründüyü kimi, razılıq şərtləri Azərbaycanın hüquqi olaraq Naxçıvandakı varlığını təsbit edirdi. Eyni zamanda Naxçıvan, Şərur, hətta o dövrdə böyük bir qismi ermənilərin işğalı altında olan Dərələyəz bölgəsinin hüquqi olaraq Azərbaycana aid olub, əhalisinin əksəriyyətinin türk olduğu da Haskel tərəfindən təsdiqlənmişdi. Lakin öz qərargahına qayıtdıqdan sonra Haskel əvvəlcədən təsdiqləmiş olduğu bəndlərin bir qismini ləğv etdi və 21 bənddən ibarət yeni layihəni 1 sentyabr tarixində Azərbaycan və Ermənistan hökumətlərinə göndərdi. Bu layihə də aşağıdakı yeni bəndləri özündə ehtiva edirdi:

Naxçıvan və Şərur-Dərələyəz qəzalarında neytral zona yaradılmalıdır;

Neytral zonanın idarəsi polkovnik Haskel tərəfindən təyin ediləcək olan amerikalı qubernator tərəfindən yerinə yetiriləcək;

---

[1] ARDA, f. 970, siy. 1, iş 93; Musayev İsmayıl. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı: Bakı Universiteti nəşriyyatı, 1998, s.193; Atnur İbrahim Ethem. Osmanlı yönetiminden Sovyet yönetimine kadar Nahçıvan (1918-1921), s.223-224

Yerli idarə müsəlmanların əlində olacaq, erməni əhalisinin çoxluq təşkil etdiyi yerlərin idarəsini isə amerikalı qubernator təyin edəcək;

Azərbaycan və Ermənistan hökumətləri təcili olaraq öz birliklərini neytral zonadan çıxarmalıdırlar. Bu birliklər yalnız amerikalı qubernatorun istəyi ilə qayıda bilərlər;

Azərbaycan və Ermənistan hökumətləri yerli əhali arasında olan və onları təhrik edən casus nümayəndə kimi adamlarını geri çağırmalıdırlar;

Azərbaycan və Ermənistan düşmən hökumətlərin vətəndaşları əleyhinə 1 sentyabr 1919-cu ilə qədər törədilmiş bütün cinayətlər üçün ümumi əfv elan olunacaq. Lakin bu əfv ingilis hərbi iqtidarına qarşı törədilmiş cinayətlərə aid edilməyəcək;

Neytral zonadakı yerli məmurlar amerikalı qubernator tərəfindən təyin ediləcək. Qubernator imkan tapdığı vaxtlarda yerli məmurların seçki tarixini müəyyənləşdirəcək. Qubernator bitərəf zona daxilində rüşvət və digər səbəblərə görə günahkar sayılan məmurları işdən azad etməyə səlahiyyətlidir;

Azərbaycan hökuməti neytral zonada və İrəvandakı türk əhalisini sakitləşdirmək üçün bütün nüfuzundan istifadə edəcək;

Ermənistan hökuməti neytral zonada və Zəngəzurdakı erməni əhalisinin sakitləşdirilməsi üçün bütün imkanlarından istifadə edəcək;

Ermənistan və Azərbaycan hökumətləri öz vətəndaşları olan türk və ermənilərin həyatını və malını qorumalıdırlar;

İrəvan və İran sərhədi arasında, Şərur-Dərələyəz və Naxçıvan bölgələrindən keçən dəmiryolu və teleqraf xətti təmir olunacaq və istifadəyə veriləcək. Dəmiryolu amerikalı qubernatorun nəzarəti altında olacaq və qubernatorun qərarına əsasən türk və erməni kadrların işləyəcəyi bu xətt Ermənistan dəmiryolu şəbəkəsinin bir hissəsi kimi fəaliyyət göstərəcək. Dəmiryolu millət fərqi qoymadan bütün əhaliyə xidmət edəcək;

Azərbaycan hökuməti bütün yolları yoxlayacaq, Şuşa və Gorusdakı Yaxın Şərq Yardım Komitəsinin işlərini asanlaşdıracaq;

Azərbaycan hökuməti ölkəsində olan və Müttəfiq Ali Komissarlığın qayıtmalarını zəruri olaraq qəbul etdiyi erməni qaçqınların Ermənistana göndərilməsi üçün bütün tədbirləri görəcək;

Böyük Vedinin müsəlman əhalisi amerikalı qubernatorun nəzarəti altında neytral zonada təşkil olunacaq bir yerə köçürüləcək və bu əhaliyə bütün mallarını apamağa icazə veriləcək;

İnşa edilməkdə olan Bakı-Culfa dəmiryolu Azərbaycanın nəzarəti altında olacaq və bunun üçün heç bir çətinlik yaradılmayacaq. Dəmiryolu boyu və bitərəf zona ilə Ermənistan arasındakı sərhəd Qurd Qapıları ətrafı olacaq;

Bitərəf zonanın idarə edilməsi üçün lazımi pul yerli vergilər hesabına ödəniləcək, amerikalı qubernatorun rəhbərliyi zamanı Azərbaycandan heç bir əlavə pul tələb olunmayacaq;

Neytral zonada məktəblər və məbədlər indiyə qədər necə fəaliyyət göstəribsə, eyni şəkildə mövcudiyyətlərini davam etdirəcəklər;

Neytral zonada bütün dini ayinlər sərbəst olacaq;

Neytral zonada vicdan azadlığı olacaq;

Neytral zonada amerikalı qubernatorun əmrinə əsasən fərq qoyulmadan hər kəsə köməklik ediləcək, imkan daxilində Azərbaycanın yoxsulluq içərisindəki bölgələrinə də maddi dəstək göstəriləcəkdir;

Bu şərtlərin iki surətini sizə göndərirəm. Onların birini imzalayaraq mənə göndərməyinizi xahiş edirəm. İkinci surət isə sizin istifadəniz üçündür.[1]

Haskel əvvəlki anlaşma layihəsindən fərqli olaraq yeni şərtlər daxil etmişdi və bu şərtlər Ermənistanın mənfəətini qorumaq, onları daha üstün mövqeyə gətirmək üçün qələmə alınmışdı. Qeyd etmək lazımdır ki, ermənilərin lehinə uyğun olan bu layihə Aleksandr Xatisyan və Ruben Ter-Minasyanın rəhbərliyi altındakı erməni heyətinin 6-14

---

[1] ARDA, f. 970, siy. 1, iş 93; Hacıyev Aydın. Qars və Araz-Türk respublikalarının tarixindən, s.87-88; Həsənli Cəmil. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920), s. 370; Atnur İbrahim Ethem. Osmanlı yönetiminden Sovyet yönetimine kadar Nahçıvan (1918-1921), s.226

sentyabr tarixləri arasında Haskellə görüşməsindən sonra təkrar dəyişdirildi.[1]

Erməni heyətinin istəyi bundan ibarət idi:

1918-ci ildəki türk hakimiyyəti dövründə belə Naxçıvana aid olmayan Dərələyəz bölgəsinin bitərəf zonaya daxil edilməsi uyğun deyil;

Neytral zonada Ermənistan imtiyazlı tərəf kimi tanınmalıdır. Çünki bu bölgə Ermənistan üçün çox vacibdir. Azərbaycan Paris Sülh Konfransının qərarlarına məhəl qoymayaraq bu bölgədə üsyana səbəb olmuşdur;

Azərbaycanın bu bölgəyə pul göndərməsinə icazə verilməməlidir;

Bakı-Culfa dəmiryolu xəttinin Azərbaycan tərəfindən inşasına icazə verilməməlidir;

Zəngəzur erməni ərazisidir, buraya toxunulmamalıdır.[2]

Haskelin erməni heyətinin istəklərinə əsasən hazırladığı yeni layihədə əvvəlkindən fərqli olaraq yeni xüsuslar bunlar idi: Dərələyəz neytral zona içərisində yer almayacaq, Böyük Vedi əhalisi öz yerlərində qala biləcək, lakin silahsızlandırılacaqdı. Bakı-Culfa dəmiryolunun tərəfsiz zonada olan hissəsinin inşaatı Azərbaycan və Ermənistan arasında imzalanacaq anlaşma ilə təşkil olunacaq xüsusi bir komissiyanın nəzarəti altında həyata keçiriləcəkdi.[3]

Haskel hazırladığı yeni şərtlərin qəbul edilməsi üçün sentyabrın 27-də layihəni Azərbaycan hökumətinə göndərdi. Şübhəsiz ki, Haskelin sıx-sıx layihə dəyişdirməsi Azərbaycan hökumətini narahat etməyə bilməzdi. Sentyabrın 29-da Azərbaycanın Xarici İşlər naziri M.Y.Cəfərov rəsmi cavabında hökumətin xüsusi general-qubernator-

[1] Hovannisian Richard G. The Republic of Armenia (1919-1920), from Versailles to London., p.202

[2] Hovannisian Richard G. The Republic of Armenia (1919-1920), from Versailles to London,p.202

[3] Hovannisian Richard G. The Republic of Armenia (1919-1920), from Versailles to London,p.202; ARDA, f. 970, siy.1, iş 93

luğun yaradılmasının əleyhinə olmadığını, lakin təklif edilən şərtlərin bəzi bəndlərinə etiraz etdiyini bildirdi.[1]

Azərbaycan hökumətinin dönməzliyindən qəzəblənən Haskel sentyabrın 30-da kəskin bir teleqramla bildirdi ki, *"Azərbaycanın Amerika zonasının idarə edilməsi şərtlərini müəyyənləşdirmək hüququnu tanımır və hökumətin tənqidləri onun təyin etdiyi şərtləri dəyişdirməyəcək. Bu zona yaradılacaq və Şərur, Naxçıvan dairələri buraya daxil ediləcəkdir. Şərtlər sizi ancaq siyasətdən xəbərdar etmək və sizin loyal surətdə razılaşacağınıza və Amerika qubernatoruna sülh və qayda-qanun yaradılması işlərində köməklik göstərib-göstərməyəcəyinizə, müdafiə edib-etməyəcəyinizə əmin olmaq məqsədilə göndərilmişdir. Dərhal cavab tələb olunur, çünki mən yaxın günlərdə Parisə getməyə hazırlaşıram. Burada mən mübahisəli ərazilərə sizin tam mülkiyyətli iddialarınızı təqdim etmək niyyətindəyəm. Ancaq bu şərtlə ki, sizin hökumət bu müvəqqəti razılığı müdafiə etsin. Naxçıvan və Şərur-Dərələyəzdə neytral zona yaradılmayınca, mənim tərəfimdən Denikinlə və digər məsələlərlə bağlı heç bir addım atılmayacaqdır. Bununla yanaşı, Azərbaycan Sülh Konfransı tərəfindən tanınmaq istəyirsə, bu şərtlərə riayət etmək məcburiyyətindədir".*[2]

Polkovnik Haskelin bu demarşına cavab olaraq Azərbaycan Respublikası Xarici İşlər naziri M.Y.Cəfərov 29 sentyabr və 1 oktyabr tarixində Haskelə göndərdiyi teleqramlarla neytral zona barəsindəki fikirlərini aşağıdakı kimi açıqlayırdı: *"29 avqust 1919-cu ildə siz Azərbaycan Nazirlər Kabinetinin sədri və mənimlə birlikdə böyük əksəriyyəti müsəlman olan Naxçıvan və Şərur-Dərələyəz qəzalarının müvəqqəti idarəsi üçün ümumi şərtləri hazırlamışdınız. Nəsib bəy sizdən bu şərtləri yazılı olaraq verməniz xahiş etdi. Siz də 1 sentyabrda bu şərtləri bildirdiniz. Sonra isə 27 sentyabrda yeni şərtlər göndərdiniz. Sizin 1 sentyabr və 27 sentyabr tarixli şərtlərinizin bəzi bəndləri 29 avqust tarixli əsaslara ziddir. Buna baxmayaraq, mənim hökumətim inanır ki, baş tutacaq görüşlərdə prezident Vilsonun elan*

---

[1] ARDA, f. 970, siy. 1, iş 93; ARPİİSSA, f. 277, siy: 2, iş 58
[2] ARDA, f. 970, siy. 1, iş 93; ARPİİSSA, f. 277, siy: 2, iş 57

*etdiyi hüquqlar istiqamətində məsələnin həlli tapılacaqdır. Bir də Vedibasar bölgəsindəki Azərbaycan xalqı İrəvan vilayətinin digər müsəlman qəzalarının xalqları kimi erməni dairələri tərəfindən müntəzəm və təşkilatlı bir qətliama məruz qaldığı üçün əlinə silah alaraq erməniləri məğlub etdi və artıq orada sabitlik təmin olunmuşdur. Azərbaycan hökuməti hər zaman sülhü qorumağa hazırdır. Bu məqsədlə sizin təyin edəcəyiniz qubernatoru da dəstəkləyəcəyik. Eyni zamanda sizin 30 sentyabr tarixli teleqramınızda ifadə etdiyiniz "Sülh Konfransı neytral zona ilə bağlı olaraq Azərbaycanın şərtlərini qəbul etməyəcəkdir" sözünüzə əsasən biz deyirik ki, Azərbaycanın ayrılmaz parçaları olan bu qəzaların idarə edilməsi xüsusunda əmrlərinizə mane olmayacağıq. Hökumətim yeni müzakirələr zamanı prezident Vilsonun öz adından və müttəfiq dövlətlər adından elan etdiyi xalqların öz müqəddəratını təyin etmək prinsiplərinə və adı keçən qəzalardakı türk əhalisinin iradəsinə uyğun olaraq Sülh Konfransında Azərbaycan xalqının haqlı tələblərinin dəstəklənəciyinə ümidini itirmir".*[1]

Lakin polkovnik Haskel heç bir dəyişiklik qəbul etmək istəmirdi. Neytral zonada tam səlahiyyətli bir amerikan qubernatorluğu yaradılmalıydı.[2] Haskelin hazırladığı layihə ermənilərin lehinə olduğundan Xatisyan 2 oktyabr 1919-cu ildə Haskelə göndərdiyi teleqramda guya Naxçıvan üzərindəki hüquqlarına baxmayaraq, amerikan qubernatorluğunu dəstəklədiklərini bildirdi.[3] Lakin Naxçıvan əhalisi amerikan hakimiyyətini qəbul etmək istəmirdi. Heç təsadüfi deyildir ki, Naxçıvan, Şərur və Ordubad nümayəndələri Ə.S.Qasımov və K.M.Əsgərov hələ 9 sentyabrda Uilyam Haskellə görüşdə yalnız öz idarələrinin təsdiq olunması şərtilə Paris Sülh Konfransının bölgənin Azərbaycana aid olduğunu tanıyacağı vaxta qədər amerikan quber-

---

[1] ARPİİSSA, f. 277, siy: 2, iş 18; Atnur İbrahim Ethem. Osmanlı yönetiminden Sovyet yönetimine kadar Nahçıvan (1918-1921), s.229

[2] Hovannisian Richard G. The Republic of Armenia (1919-1920), from Versailles to London, p.202

[3] Atnur İbrahim Ethem. Osmanlı yönetiminden Sovyet yönetimine kadar Nahçıvan (1918-1921), s.230

natorluğunu qəbul edəcəklərini bildirmişdilər.[1] Hətta söhbət zamanı Haskel Əli Səbri Qasımova belə bir sual vermişdi ki, Naxçıvanın və digər regionların əhalisi bu ərazilərin erməni hökumətinə verilməsinə necə baxar? Cavab olaraq Ə.S.Qasımov bildirmişdi ki, əldə silah ləyaqətli ölümü üstün tutaraq bu hökuməti bütün qüvvələri ilə rədd edərlər. Xalq öz qüvvəsilə azadlığa nail olmuş və rayonlarımıza daxil olan qəsbkarları qovmuşdur. Özünün azadlığını əldə etmiş xalq doğma Azərbaycan hökumətinə belə onun arzusunu rədd edərək, taleyini həll etməyə imkan verməz. Bu vəziyyət nəzərə alınmalıdır. Biz heç vaxt, bir dəqiqə də olsun özümüzü Ermənistan təbələri təsəvvür edə bilmərik. Biz ona görə azad olmamışıq ki, yenidən əsarət altına düşək.[2]

Bundan başqa, sentyabrın 30-da Naxçıvana gələn İrəvan Quberniyası Müsəlmanlarının Həmyerlilər Cəmiyyətinin sədri Sultanov və Naxçıvan Milli Şurasının üzvü S.Cəmillinskinin də Haskelin nümayəndəsi general Donald A.Robinsonun bölgəyə amerikalı qubernatorun təyin etməklə neytral zonanın yaradılması təklifi ilə bağlı 12 bəndlik cavabında qeyd olunurdu ki, əhalisi Azərbaycan türkləri olan Naxçıvan, Şərur, Dərələyəz bölgələri, Vedibasar və Milistan Azərbaycanın ayrılmaz hissəsidir. Bu bölgələrin azərbaycanlıları Azərbaycan Respublikasının qanunlarını rəhbər tutaraq özləri özlərini idarə edirlər. Öz azadlıqlarını qanla qazanan naxçıvanlılar ABŞ-ın nümayəndəsini burada general-qubernator kimi yox, bizim içərimizdə yaşayaraq ermənilərin bizim vəhşiliyimiz və mədəniyyətsizliyimiz, digər millətlərə qarşı dözülməzliyimiz haqqında informasiyalarının yalan olduğuna inanan bir nümayəndə kimi görməyə şad olarlar. İradəmizin əksinə olaraq bizi ermənilərin hakimiyyətinə verənləri öz düşmənimiz hesab edir və onları əldə silah qarşılayacağıq. Düşmənlərimiz bizim evlərimizə cəsədlərimizin üstündən keçib daxil olacaqlar.[3]

---

[1] Hovannisian Richard G. The Republic of Armenia (1919-1920), from Versailles to London, p.203

[2] ARPİİSSA, f. 277, siy: 2, iş 58; Hacıyev Aydın. Qars və Araz-Türk Respublikalarının tarixindən, s.89; Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər), s. 198

[3] ARPİİSSA, f. 277, siy: 2, iş 57; Hacıyev Aydın. Qars və Araz-Türk Respublikalarının tarixindən, s.92; Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi

Oktyabr ayının ortalarında U.Haskel Parisə çağırıldıqdan sonra neytral zonanın təşkil olunması və general-qubernatorluğun yaradılması məsələsi polkovnik Ceyms Reyə (James C.Rhea) həvalə olundu. Rey Azərbaycan hökuməti ilə danışıqlar zamanı təklif etdi ki, hökumət öz nümayəndəsini onunla birlikdə neytral zona məsələsini həll etmək üçün İrəvana və Naxçıvana ezam etsin. Bununla amerikanlar yerli əhaliyə göstərmək istəyirdilər ki, Azərbaycan hökuməti neytral zona yaradılmasına tərəfdardır. Lakin hökumət buna etiraz edərək bildirdi ki, o, əhalini çaşdıra bilməz və hökumət tərəfindən bəyənilməyən prinsiplərin bərqərar edilməsində iştirak edə bilməz.[1] Azərbaycan hökuməti polkovnik Haskelin neytral zona ilə bağlı şərtləri sıx-sıx dəyişdirməsindən dolayı belə bir qərar almışdı.[2]

Paris Sülh Konfransına göndərilən hökumət məlumatında qeyd edilirdi ki, bu etiraz polkovnik C.Reyi təmin etmədi və o, Naxçıvana tək qayıtmalı oldu.[3]

Oktyabrın 24-də Naxçıvana gələn Ceyms Rey Müsəlman Milli Şurası qarşısında neytral zona yaratmaq barədə Ali komissar Uilyam Haskelin bəyanatını elan etdi. Bəyanatda deyilirdi: *"Ermənilərlə azərbaycanlılar arasında silahlı toqquşmanın dincliyi pozduğunu, vətəndaşların həyatı və əmlakı üçün təhlükə yarandığını, Ermənistan və Azərbaycanın bu əraziyə iddiası olduğunu, Şərur və Naxçıvana Ermənistan və Azərbaycan hüququnun hələlik Sülh Konfransı tərəfindən həll edilmədiyini, Ermənistan və Azərbaycanın bu ərazini idarə etmək üçün qarşılıqlı razılığa gələ bilmədiyini, Ermənistan və Azərbaycanın bu ərazidə sülh yaratmaq arzularını nəzərə alaraq... mən Uilyam N.Haskel Sülh Konfransının mənim üzərimə qoyduğu vəkalətə əsaslanaraq, Amerika Birləşmiş Ştatları, Fransa, Böyük Britaniya və İtaliya Ali Komissarı kimi... Şərur və Naxçıvan dairəsində, Amerika quber-*

vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər), s.200; Atnur İbrahim Ethem. Osmanlı yönetiminden Sovyet yönetimine kadar Nahçıvan (1918-1921), s.232

[1] Həsənli C. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920), s. 374

[2] Atnur İbrahim Ethem. Osmanlı yönetiminden Sovyet yönetimine kadar Nahçıvan (1918-1921), s.233

[3] ARDA, f. 2905, siy. 1, iş 20

*natorunun rəhbərliyi altında müttəfiq idarəçilik zonasının yaradıldığını... Şimali Amerika Birləşmiş Ştatları ordusunun hərbi mühəndisi polkovnik Edmund L.Dellinin bu zonaya qubernator təyin edildiyini bildirirəm".*[1]

U.Haskeli əvəz edən Ceyms Rey bu bəyanata uyğun iki benddən ibarət Şərur və Naxçıvanda Amerika qubernatorluğu yaradılması, polkovnik Edmund L.Dellinin (Edmund L.Daley) qubernator təyin edilməsi haqqında sərəncam imzaladı. Lakin Naxçıvan Milli Şurasının və bütün Naxçıvan əhalisinin təkidi ilə C.Rey bu qərarını dəyişməli oldu. Polkovnik Delli Naxçıvanda general-qubernator kimi deyil, Amerika Ali Komissarının nümayəndəsi kimi qaldı. Ceyms Reyin Naxçıvana səfəri ilə bağlı Naxçıvan Milli Şurasının üzvü S.Cəmillinski Azərbaycan Respublikasının Ermənistandakı diplomatik nümayəndəsi M.Təkinskiyə oktyabr ayının 26-da yazırdı ki, o özü, Xəlil bəy, Kəlbalı xan, D.Məmmədov və digərləri polkovnik Reylə iki günlük danışıqlar apardılar. Ceyms Rey razılıq verdi ki, polkovnik Dellini general-qubernator kimi deyil, Sülh Konfransının, yaxud Amerikanın nümayəndəsi kmi burada saxlasın. Bu nümayəndə bizim idarəçilik işlərimizə qəti surətdə müdaxilə etməyəcək və ermənilərlə bizim aramızda sülh yaratmaq, bizim qaçqınlara kömək etmək istiqamətində fəaliyyət göstərəcəkdir.[2]

S.Cəmillinski qeyd edirdi ki, danışıqlar zamanı məlum oldu ki, artıq burada müttəfiqlərin xüsusi idarə zonasının yaradılması məsələsi təxirə salınır və bir çox cəhətlərinə görə bu diyarın Azərbaycana birləşdirilməsinə amerikalıların razılığı hiss edilir. Naxçıvanda olduğu müddətdə Ceyms Rey və digər Amerika nümayəndələri başa düşdülər ki, neytral zona üçün nəzərdə tutulan ərazini Azərbaycandan qoparmaq qeyri-mümkündür.[3]

Ceyms Reyin rəhbərliyi altındakı heyətdə plan baş tutmadığından tam səssizlik hökm sürürdü. Amerikalı səlahiyyətli şəxslərin

---

[1] Həsənli C. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920), s. 374-375
[2] ARDA, f. 897, siy. 1, iş 57; Həsənli Cəmil. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920), s. 375
[3] Həsənli C. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920), s. 375

Qafqazdakı imic və nüfuzları sarsılmışdı. Planlarının reallaşmaması və amerikan heyətinin düşdüyü vəziyyətdən dolayı onlar Azərbaycan hökumətini ittiham edirdilər. Reyin planının uğursuz olması ilə bağlı Haskelə dərhal məlumat çatdırılmışdı. Erməni tarixçisi Riçard Hovanesyan yazır ki, Naxçıvan məsələsi Haskel ilə Reyin arasını açmışdı və Haskelin Qafqaza qayıtmasından 1 həftə sonra Rey tutduğu vəzifədən istefa etdi.[1]

Qeyd etmək lazımdır ki, amekalıların Naxçıvanda uğur qazana bilməmələrinin səbəbi əhalinin onlara etimad göstərməmələri ilə bağlı idi. Türk tədqiqatçısı İbrahim Ethem Atnur amerikan raportlarına istinad edərək göstərir ki, bu etimadsızlığın səbəbi amerikan yardım heyətlərinin Ermənistana olan aşırı maraqları və dəstəyindən qaynaqlanırdı. Bu dəstək sadəcə erməni qaçqınları və yoxsullarına deyil, orduya da göstərilirdi. Amerikan yardım heyətləri tərəfindən erməni ordusuna çox miqdarda silah-sursat göndərilir, ayaqqabı və s. ləvazimatlarla təmin edilirdilər. Xüsusilə polkovnik U.Haskelin Qafqaza gəlişindən etibarən amerikalıların ermənilərə daha çox dəstək verilməsi ilə bağlı xalq arasında yayğın fikirlər formalaşmışdı.[2]

Noyabr ayında Ermənistanda olan ABŞ zabitlərinin Dellinin sərəncamına gəlməsi isə Naxçıvan və Şərur əhalisinin daha güclü əks reaksiyasına səbəb oldu. Çünki əhali Britaniya nümayəndələri kimi, onların da simasında daşnak işğalçılarının tərəfdarlarını görürdülər. Qubernatorluğun binası qarşısında toplaşan naxçıvanlılar Naxçıvana gələn zabitlərin dərhal geri qayıtmalarını tələb etdilər.[3] Yaranmış vəziyyətdən çıxış yolu kimi Delli zabitləri İrəvana qaytarmalı oldu. 1920-ci ilin yanvar ayında isə amerikanlar tamamilə Şərur və Naxçıvanın hüdudlarından çıxdılar.[4] Beləliklə, Amerikanın Naxçıvandakı varlığı sona çatdı.

[1] Hovannisian Richard G. The Republic of Armenia (1919-1920), from Versailles to London, p. 277.
[2] Atnur İbrahim Ethem. Osmanlı yönetiminden Sovyet yönetimine kadar Nahçıvan (1918-1921), s.237
[3] Hacıyev A. Qars və Araz-Türk Respublikalarının tarixindən, s.96
[4] Həsənli C. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920), s.375; Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici

Baş verən hadisələrdən olduqca narahat olan və Naxçıvan general-qubernatorluğunun yaradılmasının qeyri-mümkünlüyünü başa düşən U.Haskel Parisdə 14 noyabr 1919-cu il tarixli Ali Şuranın iclasında sadəcə Ermənistanın deyil, ümumilikdə Cənubi Qafqazın ABŞ-a verilməsini siyasi cəhətdən əsaslandıran geniş bir nitq söylədi. O, çıxış yolunu ABŞ kimi güclü bir dövlətin himayədarlığında görürdü. Haskel siyasi vəziyyətin ağırlığından danışaraq qeyd edirdi ki, Ermənistan Gürcüstan və Azərbaycan ittifaqına girmək istəmir və onlarla daimi müharibə vəziyyətindədir. Hər üç respublika arasında ərazi mübahisələri var. Nə qədər ki, Azərbaycan və Gürcüstan mənim səlahiyyətimdən kənardadır və nə qədər ki, hər üç respublika ümumi bir mandatda birləşdirilməyib, mən Ali Şuranın Ermənistanla bağlı üzərimə qoyduğu vəzifəni yerinə yetirə bilməyəcəyəm.[1]

Haskelin bu nitqi digər ABŞ nümayəndələri tərəfindən də dəstəkləndi və gündəliyə salınması təklif olundu. Şübhəsiz ki, bu təklifin arxasında Azərbaycan neftinə maraq göstərən Amerika sənayeçilərinin mənafeyi dayanırdı. İngilis tarixçisi E.Monre yazır ki, mandatlar bölüşdürülən zaman Birləşmiş Ştatlar neft psixozu dumanında idi.[2]

Bu təklif ingilisləri narahat etməyə bilməzdi. İngiltərə nümayəndəsi E.Krou açıq şəkildə bildirdi ki, Britaniya hökuməti Amerika polkovniki U.Haskeli Cənubi Qafqaza Ali Komissar kimi tanımağa hazırlaşmır. Qərara alındı ki, Haskel missiyasına daxil olan ABŞ nümayəndələri Azərbaycan və Gürcüstanda yalnız "Yaxın Şərqə Amerika Yardım Komitəsi"nin işi ilə bağlı fəaliyyət göstərə bilərlər, lakin hər iki respublikada siyasi, iqtisadi və digər məsələlərə müdaxilə edə bilməzlər. İngilislərin bu təklifi fransızlar və italyanlar tərəfindən də müdafiə edildi.[3] Beləliklə, amerikanların Haskelin vəkalətinin siyasi

dövlətlərin siyasəti (1917-1921-ci illər), s. 204; Atnur İbrahim Ethem. Osmanlı yönetiminden Sovyet yönetimine kadar Nahçıvan (1918-1921), s.238

[1] Həsənli C. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920), s.380

[2] Monroe E. Britain's moment in the Middle East (1914-1956). London: Chatto & Windus, 1963, p.102

[3] Həsənli C. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920), s. 381

cəhətdən Azərbaycana aid edilməsi barədə qaldırdıqları təşəbbüs ingilislərin müqaviməti nəticəsində baş tutmadı

Qeyd etmək lazımdır ki, ABŞ-ın ümumilikdə Cənubi Qafqazda mandatlıq istəyi reallaşmasa da, Ermənistan mandatlığında istəkli olan ABŞ Prezidenti Vudrov Vilson Ermənistan dövlətinin sərhədlərini müəyyən edən bir xəritə hazırlamış, daha sonra isə təsdiq edilməsi üçün 24 may 1920-ci ildə bu xəritə ilə birlikdə himayə qərarını Konqresə təqdim etmişdi. Himayə qərarının bir bölümündə bu yazılar yer alırdı: *"...Amerika Birləşmiş Ştatları ermənilərin qarşılaşdığı faciəli hadisələrdən, etimadsızlıqdan, aclıqdan və səfalətdən xeyli təsirlənmişdir. Ermənilərə bəslənilən bu rəğbət xalqımızın yalnız bir hissəsinin hissiyyatı deyil. Bu rəğbət ABŞ-da yaşayan bütün xalqın, xristian kütlənin olduqca mürəkkəb bir şəraitdə yaşayan ermənilərə qarşı fövqəladə, öz-özlüyündən ortaya çıxan səmimi duyğusudur. ABŞ xalqı mövcud problemlə bağlı olaraq ermənilərin dərdinə şərik olur. Konqresə çox kritik bir layihəni təqdim etdiyimin fərqindəyəm. Amma xristian xalqların ən böyüyü olaraq, qəlbdən gələn böyük istək və həvəslə bu təklifi verirəm. Xalqımızın ermənilərə olan məhəbbəti tərtəmiz hisslərdən, saf xristian inamından, səfalət içərisində qıvranan xristianları xilas etmək duyğusundan, onları səfil bir xalq olmaqdan qurtarıb, sərbəstliklərini təmin edərək dünyanın azad xalqları arasında özlərinə layiqli yer tutmalarına şərait yaratmaq istəyindən qaynaqlanır. Bizim müstəqil bir Ermənistan dövlətini tanımağımız, erməni xalqının həqiqi azadlığına və vəd edilmiş xoşbəxtliyə qovuşması mənasına gəlir..."*.[1]

"Əzilən millətlərin dostu həqiqi demokrat" olaraq məşhurlaşan prezident Vudrov Vilsonun Ermənistan dövlətinin sərhədlərini müəyyən edən bir xəritə ilə birlikdə hazırladığı himayə qərarını məhz 24 mayda Konqresə təqdim etməsi heç də təsadüfi bir tarix olaraq düşünülməməlidir. Erməni iddialarına görə, "24 aprel" dünyanın ilk xristian etnosunun türklər tərəfindən soyqırımına məruz qaldığı bir tarixdir.

---

[1] Yavi Ersal. 1856-1923 emperyalizm kıskacında türkler, ermeniler, kürtler. İzmir: Yazıcı yayınevi, 2001, s. 351

Məsələ burasındadır ki, bu iddia dünyanın bir çox dövləti tərəfindən də dəstəklənməkdədir. Halbuki 1915-ci ildə baş verən bu hadisə soyqırımı olmayıb, Osmanlı dövlətinin öz təhlükəsizliyi naminə erməni üsyanlarının və türklərə qarşı törədilən qırğınların qarşısını almaq üçün hazırlamış olduğu müdafiə tədbiri idi. Belə ki, 24 aprel 1915-ci ildə erməni komitələri və partiyalarının fəaliyyətinə son verilmiş, İstanbulda yüzlərlə erməni terroristi həbs edilmişdir. Bəzi tədqiqatçılara görə, bu rəqəm 2345,[1] digərlərinə görə isə 235-dir.[2] Yəni burada heç bir ölüm və cinayət hadisələrindən söhbət gedə bilməz. Ermənilər komitə üzvlərinin həbs edildiyi 24 aprel tarixini soyqırımı günü elan etmişlər. Əgər söhbət Osmanlılar tərəfindən ermənilərin təhcirindən gedirsə, onların yerlərinin dəyişdirilməsinə qərar verilən Təhcir (Köç) Qanunu 27 may 1915-ci ildə qəbul edilmişdir.[3] Yəni "24 aprel" ermənilərin iddia etdikləri kimi soyqırımına səbəb olan köçürülmə tarixi deyil, Daşnaksütyun, Hınçak, Ramqavar kimi komitə üzvlərinin həbs olunduğu tarixdir. Qeyd etmək lazımdır ki, təhcir məsələsini soyqırımı olaraq dünya dövlətlərinin müzakirəsinə çıxaran ermənilər köç vaxtı ölən insanların sayını da mübaliğəli olaraq artırmaqdadırlar. Onlar bu rəqəmi 1,5 milyon olaraq göstərirlər. Halbuki o tarixlərdə Osmanlı imperiyasının sərhədləri daxilində bu qədər erməni yaşamırdı. Görkəmli türk tarixçisi Kamuran Gürün qeyd edir ki, ermənilər tərəfindən göstərilən ölü sayısı 1915-ci ildə 300 mindən başlamış, 1980-ci illərdə 2 milyona çatmışdır. İllər keçdikcə bir millətin əhalisinin artması normal bir hadisədir, lakin müəyyən bir tarixdə ölmüş insanların

---

[1] Gürün Kamuran. Ermeni dosyası. Ankara: Türk Tarih Kurumu, 1985, s. 213; Özkan Zafer. Tarihsel akış içerisinde terörden poltikaya ermeni meselesi. İstanbul: Er Ofset San. ve Tic. AŞ, 2001, s.146

[2] Feigl Erich. Ermeni mitomanyası. İstanbul: 2007, s.88; Sarınay Yusuf. What happened on April 24, 1915?, a case study on the circular of 24 April 1915 and arrest of the Armenian committee members in Istanbul // International Journal of Turkish Studies, 2008, volume: 14, №1-2, p. 78

[3] İlter Erdal. Ermeni kilisesi ve terör. Ankara: Ankara Üniversitesi Osmanlı Tarihi Araştırma və Uygulama Merkezi yayınları, 1996, s.61; Özkan Zafer. Tarihsel akış içerisinde terörden poltikaya ermeni meselesi. İstanbul: Er Ofset San. ve Tic. AŞ, 2001, s.259; Süslü Azmi. Ermeniler ve 1915 tehcir olayı. Van: Yüzüncü Yıl Üniversitesi Rektörlüğü, 1990, s.131

zaman keçdikcə sayının artması çox qəribə bir icaddır.[1] Mövzu ilə bağlı aparılan təhlillərdən ortaya çıxan nəticə budur ki, 1,5 milyon erməninin soyqırımına uğradığı şəklində ortaya atılan iddialar heç bir reallığı əks etdirmir. Tərəfsiz olaraq məsələyə yanaşılarsa, ortada soyqırımı kimi bir hadisənin baş vermədiyi açıqca görülə bilər. Əgər bu qədər insan kütləvi qırğına məruz qalıbsa, o zaman Birinci Dünya müharibəsi sonunda sayları 1 milyonu keçən erməni əhalisi necə sağ qalmışdır? Eyni zamanda 1915-ci ildən sonra Fransa, ABŞ, İngiltərə, Rusiya, İran, Suriya və s. ölkələrə gedən ermənilərin saylarının o ölkələrin əhalisinin qeydiyyata alınması ilə bağlı statistik materialları əsasında öyrənilməsi və hal-hazırda bu ölkələrdə yaşayan ermənilərin sayının təsbit edilməsi iddia edilən soyqırımının törədilib-törədilmədiyi sualını ortaya qoyur. Burada diqqəti çəkən başqa bir məqam da var. Əgər iddia edildiyi kimi, 1,5 milyon erməni öldürülübsə, onlar harada dəfn olunublar? Kütləvi məzarlıq haradadır? Soyqırımı kimi ağır ittihamlarla çıxış edən ermənilər sübut üçün kütləvi məzarlığı göstərmək məcburiyyətindədirlər.

Bu məsələ olduqca geniş və fərqli bir mövzu olduğundan üzərində geniş durmaq niyyətində deyilik. Lakin onu qeyd etməyi vacib hesab edirik ki, ABŞ Prezidenti Vudrov Vilsonun məhz 24 aprel tarixində Ermənistan dövlətini himayə qərarını Konqresə təqdim etməsi onun ermənipərəst mövqe tutduğunu açıqca nümayiş etdirir. Lakin 29 may 1920-ci ildə ABŞ Konqresi müəyyən səbəblərdən Ermənistan mandatlığını qəbul etmədiyini açıqladı.[2] Beləliklə, ABŞ-ın Ermənistana mandatlıq məsələsi də süquta uğradı.

---

[1] Gürün Kamuran. Ermeni dosyası, s. 223

[2] Brown Philip Marshall. The mandate over Armenia // The American Journal of International Law, vol: 14, no:3, 1920, p. 396.

# NƏTİCƏ

Yerləşdiyi coğrafi əhəmiyyətinə və enerji mənbəyinə görə "Avrasiyanın dayaq nöqtəsi" kimi xarakterizə olunan, eyni zamanda tarixən geosiyasi maraqların toqquşduğu bölgə olan Cənubi Qafqaza əsrlər boyu imperialist güclər sahib olmağı hədəfləmiş və bu yolda təhlükəli silah kimi başlıca rol oynayan ermənilərdən istifadə etmişlər. Heç təsadüfi deyildir ki, vaxtilə lokal xarakterli "erməni məsələsi" beynəlxalq rəqabətdə maraqları toqquşan böyük dövlətlərin, xüsusilə də Rusiya ilə İngiltərənin təhrikləri nəticəsində ortaya çıxaraq qlobal bir problemə çevrilmişdir. Lakin problemin kökü Rusiya tərəfindən ermənilərin tarixi Azərbaycan torpaqlarına köçürüldüyü və nəticədə "Erməni vilayəti"nin qurulduğu tarixə, yəni XIX əsrin əvvəllərinə qədər uzanır. Ermənilərin köçürülməsi siyasəti Rusiyanın gələcəyə hesablanmış məqsədyönlü planının əsas tərkib hissəsi idi. Əvvəla, Rusiya Azərbaycan torpaqlarına erməniləri köçürərək burada uzun müddətli hakimiyyət qurmaq niyyətində idi;

İkincisi, bu siyasət nəticəsində Qacarlara və Osmanlılara qarşı güclü sədd yaradaraq iqtisadi, hərbi və siyasi imkanlar qazanmış oldu;

Üçüncüsü, Rusiya "erməni kartı"ndan yararlanaraq gələcəkdə Osmanlı Dövlətini parçalamaq, Şərqi Anadoluda yaşayan erməniləri müstəqillik və "Böyük Ermənistan" vədləri ilə qızışdırmaq, onları öz himayəsi altında birləşdirməyə sövq edərək Osmanlı ərazilərinə yiyələnmək arzusunda idi.

Rusiyanın Yaxın Şərqdə güclənmək, isti dənizlərə enmək strategiyası öz növbəsində İngiltərənin ənənəvi siyasətinə zidd idi, nəticədə "erməni məsələsi" millətlərarası bir problemə çevrildi. XIX əsrin sonlarına doğru İngiltərənin müdaxiləsi nəticəsində "erməni məsələsi" Rusiyanın müstəsna inhisarından çıxarıldı və ingilislərin planları da-

xilində aktuallaşmağa başladı. 1917-ci ildə Rusiyada baş verən çevriliş nəticəsində "erməni məsələsi" tamamilə ingilislərin inhisarına keçmiş oldu.

Birinci Dünya müharibəsi illərində ingilislər erməni təşkilatlarına dəstək verərək onları etnik-milli münaqişələrə və qırğınlara təşviq etmişdir. Ənənəvi siyasətinə uyğun olaraq İngiltərə ermənilərin siyasi gələcəyinə dair öhdəliklər götürmüş, "müstəqil Ermənistan" üçün ciddi vədlər vermiş, sadəcə Şərqi Anadoluda deyil, Cənubi Qafqazda da onlardan yararlanmış, "erməni məsələsi"ni Azərbaycanda və onun ayrılmaz parçası olan Naxçıvanda gündəmdə tutmuş, erməniləri Naxçıvana qarşı təcavüzkar hərəkətlərə təşviq etmişdir. Nəticədə ermənilər təmin etdikləri silah və sursatlarla Azərbaycanın bir çox bölgələrində ciddi etnik təmizlik siyasətini gerçəkləşdirdilər.

1917-ci ildə Rusiyada baş verən sosialist inqilabı bu ölkədə siyasi sistemin köklü şəkildə dəyişilməsinə səbəb olsa da, bu dəyişiklik sanki Cənubi Qafqaza dair müstəmləkəçi maraqları öz sələfindən miras almış sovet Rusyasının burada yürütdüyü milli siyasətə təsir etmədi. Yenidən erməniləri "məzlum", "əzilən", imperialistlərin istifadə etdiyi "yazıq millət" kimi göstərməyə çalışan sovet hakim dairələrinin Cənubi Qafqaza dair ənənəvi rus siyasətində yeganə fərqli cəhət 1918-ci ilin mayında yaradılmış daşnak rejiminin sovetləşdirilməsi idi. Bunun üçün Lenin hökuməti hətta ingilislərin təsiri altında olan daşnaklarla danışıqlara da getmiş, Azərbaycanda və Naxçıvanda sovet hakimiyyətinin daha tez qurulmasına baxmayaraq, məhz daşnak rejimi ilə onlar üçün sərfəli olan, Azərbaycan torpaqlarının (Naxçıvan və Zəngəzurun) ermənilərə güzəştə gedilməsini nəzərdə tutan müqavilələr imzalamışdı.

Böyük güclərin Cənubi Qafqazdakı geosiyasi maraqları, bu maraqların reallaşmasında erməni amilindən istifadə edilməsi məsələsi, "erməni dövləti"nin yaradılması, Naxçıvanın ermənilərə verilməsi planları, bu planların mahiyyəti və pərdə arxası aşağıdakı şəkildə xarakterizə oluna bilər:

- Hələ XVII-XVIII əsrlərdə erməni kilsəsi və tacir-ideoloqları "dənizdən-dənizə", "üç dəniz arasında", "Böyük Ermənistan" və s. bu kimi saxta iddialarla özləri üçün Şərqi Anadoluda və Cənub-Şərqi Qafqazda türk torpaqları hersabına dövlət yaratmaq məsələsini gündəmə gətirmək üçün geniş fəaliyyət göstərmiş, bunun üçün müxtəlif vasitələrə əl atmış və məqsədlərinə nail olmuşlar;
- İlk dövrlərdə İngiltərə hakim dairələrinin diqqətini cəlb etməyə nail olsalar da, XVIII əsrdən "erməni məsələsi" ilə fəal maraqlanan, onu öz xarici (müstəmləkəçi) siyasətinin mühüm istiqamətinə çevirən məhz çar Rusiyası olmuşdur. XIX əsrin əvvəllərində baş verən Rusiya-İran və Rusiya-Osmanlı müharibələrindən sonra imzalanan Türkmənçay (1828-ci il) və Ədirnə (1829-cu il) müqavilələri ilə ermənilərin həmin iki dövlətin ərazisindən kütləvi şəkildə Cənubi Qafqaza, Azərbaycan torpaqlarına köçürülməsinin, ermənilərin bölgədə süni şəkildə etnik-sosial amilə, hətta "Erməni vilayəti" yaratmaqla, həm də inzibati-siyasi amilə çevrilməsinin də əsas təşkilatçısı çarizm olmuşdur;
- XX əsrin əvvəllərində Çar Rusiyasının daxilində demokratik hərəkat gücləndikcə (Birinci Rus inqilabı və s.) çarizmin imperialist siyasəti ictimai-siyasi cəhətdən fəal milli bölgələrdə məşhur "parçala və hökm sür" prinsipi ilə etnik münaqişələrin qızışdırılmasına yönəlmişdi. 1905-1907-ci illərdə ermənilərin Azərbaycanda türk əhaliyə qarşı soyqırımının geniş miqyas almasında katalizator rolunda çıxış edən Rusiya hakim dairələri "erməni məsələsi"ndən daxili siyasət aləti kimi də istifadə etmişlər;
- Birinci Dünya müharibəsinin başa çatması ərəfəsində İngiltərənin Cənubi Qafqazda möhkəmlənmək, Azərbaycanı öz müstəmləkə imperiyasına qatmaq kimi niyyətlərinin olmasına dair məlumatlar olsa da, bu məsələnin mahiyyəti müəyyən qədər qaranlıqdır. Əslində ingilislərin Azərbaycana gəlişinin səbəbi

iqtisadi maraqları daxilində bölgəni işğal etmək deyildi. Qənaətimizcə, İngiltərə öz müstəmləkələrinin ərazilərini genişləndirməkdən daha çox, müharibə dövründə ələ keçirdiyi müstəmləkələri qoruyub saxlamaq üzərində düşünürdü. Xüsusilə İngiltərə baxımından daha çox əhəmiyyət kəsb edən bölgə Yaxın Şərq idi. Enerji resurslarının əsas hissəsinin Osmanlı sərhədləri içərisində yer alması Yaxın Şərqi İngiltərə üçün tam mənası ilə vazkeçilməz bir bölgəyə çevirmişdi. Buna əsaslanaraq qeyd etmək mümkündür ki, İngiltərənin əsas məqsədlərindən biri Türkiyənin tamamilə təkliyə məhkum edilməsini də nəzərdə tutaraq bu dövlət ilə türk dünyası arasında əlaqələri qoparmaq və Pantürkist düşüncələrin önünü kəsmək idi. Bu planın gerçəkləşməsi üçün ən uyğun vasitə və yeganə baryer məhz ermənilər idi;

– Rusiyada meydana gələn hadisələrlə əlaqədar olaraq rus dəstəyindən məhrum qalan ermənilər məhz ingilislər tərəfindən silahlandırılmış, terrorçu silahlı dəstələrin liderlərindən yararlanılmış və lazımi şəkildə təlimatlandırılmışdır. Heç də təsadüfi deyildir ki, İngiltərənin Hərbi Şurasının ermənilərə maliyyə dəstəyi verilməsi ilə bağlı qərarlarından sonra külli miqdarda maliyyə vəsaiti ayrılmış, müxtəlif silah və sursatlar ermənilər üçün tədarük edilmişdir. Məhz həmin yardımların və təlimatların nəticəsi idi ki, 1918-1920-ci illərdə Azərbaycanın bir çox bölgələrində, o cümlədən Naxçıvanda ciddi etnik təmizlik siyasəti gerçəkləşdirilmişdir. Ermənilər tərəfindən törədilən soyqırımı cinayətlərinin arxasında böyük dövlətlərin dəstəyinin olduğu, eləcə də İngiltərənin böyük maliyyə və hərbi yardımının təsiri inkaredilməz həqiqətdir. İngiltərə tərəfindən verilən maddi və hərbi-siyasi dəstək hər şeydən əvvəl bu dövlətin ermənilərin siyasi gələcəyinə dair götürdüyü öhdəliklər və "müstəqil Ermənistan" üçün verdiyi ciddi vədlərlə bilavasitə əlaqədar idi. Düzdür, dinc əhaliyə qarşı törədilən bu cinayətlər ingilislərin plan-

ları daxilində yer almasa da, sırf Panturanizm təhlükəsinə qarşı silahlandırılan ermənilər həmin yardımdan faydalanaraq kütləvi qırğınlar törətməkdən çəkinməmişdilər;

– Hadisələrin sonrakı gedişatı göstərdi ki, Osmanlı Türkiyəsinə dair imperialist planları kontekstində İngiltərə “erməni dövləti” təzahüründə xristian bir topluluğun Şərqi Anadoluda qurulmasına heç bir vəchlə razı olmamış, “müstəqil Ermənistan”ın Türkiyə ilə Azərbaycan arasında, Naxçıvanı da əhatə edən bir bölgədə qurulmasını və sərhədlərinin müəyyənləşdirilməsini planlamışdı;
– Erməni dövlətinin qurulmasının Antanta dövlətləri, xüsusilə İngiltərənin yardımı sayəsində gerçəkləşdiyini nəzərə alsaq, İngiltərə bu dövləti yaratmaqla Rusiya və Türkiyəyə xəbərdarlıq etmək istəmişdi. Bu xəbərdarlığın da mahiyyəti ondan ibarət idi ki, bir erməni dövləti qurulacaqdı, lakin Osmanlı Dövlətinin ərazilərində deyil, Cənubi Qafqazda gerçəkləşəcəkdi. Çünki “erməni dövləti” Şərqi Anadoluda yaradılsaydı, bu dövlət İngiltərənin deyil, Rusiyanın nəzarəti altına keçə bilərdi. Bu ehtimalı nəzərə alan İngiltərə Osmanlı torpaqlarını öz nəzarətində saxlaya bilmək üçün ermənilər üçün dövlət qurulması məsələsini Cənubi Qafqaza ixrac etmişdir;
– Birinci Dünya müharibəsindən sonra İngiltərənin də bölgəni tərk etməsi ilə Cənubi Qafqazın artan coğrafi-siyasi və geostrateji mövqeyi ABŞ-ın da diqqətini daha çox cəlb etməyə başlamış, amerikanlar “sahibsiz” görünən Cənubi Qafqazda mandatlıq rejimi yaratmağa çalışmış, bu vasitə ilə Hindistan yolu üzərində yeni nüfuz sahələri əldə etmək və Qafqazın neft qaynaqlarına da yaxın olmaq istəmişdir. Çünki buradan gələcəkdə nəinki Azərbaycana, Ermənistana, İran və Türkiyəyə, eləcə də bütün Yaxın və Orta Şərqə çox asanlıqla nüfuz etmək olardı. ABŞ-ın əsas məqsədlərindən biri də Naxçıvanda neytral zona yaradaraq tam səlahiyyətli bir amerikan general-quberna-

torluğunun təsis edilməsi olsa da, onların bu planı uğursuzluqla nəticələnmiş, ümumilikdə ABŞ-ın Cənubi Qafqazda mandatlıq istəyi reallaşmamışdır. Şübhəsiz ki, bunun da müəyyən səbəbəri olmuşdur. ABŞ-ın neytral zona yaratmaq cəhdinin qarşısının alınması əhalinin inadlı müqavimətindən qaynaqlansa da, bu dövlətin Azərbaycan, Gürcüstan və Ermənistanı ümumi bir mandatda birləşdirmək istəyi bilavasitə İngiltərənin etirazları nəticəsində baş tutmadı. Lakin reallıq bu idi ki, Cənubi Qafqazda böyük güclərin geosiyasi maraqları toqquşsa da, baryer kimi türk dünyasının bağrına xəncər kimi sancılan "erməni dövləti"nin qurulması ilə bağlı planlar onları ümumi mövqedə birləşdirən əsas amil idi;

– Beləliklə, qarşılıqlı istifadə və faydalanma münasibətləri çərçivəsində vəd edilən "Böyük Ermənistan" dövləti yaradılmasa da, Türkiyə ilə türk dünyası arasında tampon dövlət olaraq daşnak Ermənistan dövləti qurulmuş, ümumtürk birliyi arasına baryer kimi ermənilər yerləşdirilərək Panturanizmin qarşısına sədd çəkilmişdir. Digər bir ifadə ilə desək, Ermənistan dövlətinin qurulması Antantanın məqsədləri içərisində olub, Panturanizm təhlükəsinə qarşı baryer kimi "əsas maneə" rolunu oynamış və bu yolda milyonlarla vəsait xərclənmişdir.

1917-ci ilin oktyabrında Rusiyada inqilabi çevrilişlə baş vermiş siyasi sistem dəyişikliyindən sonra da "erməni məsələsi" rus hakim dairələrinin fəal xarici siyasət predmeti olmuş, Lenin hökuməti Cənubi Qafqazda öz imperialist maraqlarını təmin etmək üçün milli məsələdə hətta antisovet mövqeli daşnaklarla sazişə getməkdən belə çəkinməmiş, 1920-ci ildə imzalanan iki (10 avqust, 28 oktyabr) müqavilə ilə tarixi Azərbaycan torpaqlarının – Naxçıvan və Zəngəzurun ermənilərə güzəştə gedilməsinə də razılaşmışdı. Məhz bu mövqe nəticəsində Zəngəzur erməni işğalı altında qaldı;

Osmanlı Dövlətinin, daha sonra isə milli azadlıq hərəkatı nəticəsində Türkiyədə real idarəçiliyi ələ alan Türkiyə Böyük Millət

Məclisi Hökumətinin bir tərəfdən türk dövlətinin mövcudluğunun qorunub saxlanılması, digər tərəfdən isə Cənubi Qafqazda özünün varlığı üçün həyati əhəmiyyət daşıyan mövqelərinin əldən verilməməsi uğrunda apardığı mübarizə bölgədə Azərbaycanın ərazi bütövlüyünün qorunub saxlanılmasında mühüm amil olmuşdur;

1918-1920-ci illərdə türk hərbi komandanlığının Naxçıvandakı məqsədyönlü fəaliyyəti, bu qədim türk torpağının erməni işğalından qorunması uğrunda yerli əhali ilə birgə mübarizəsi, 1921-ci ildə Moskva və Qars müqavilələrinin imzalanmasına dair danışıqlarda Türkiyə tərəfinin Azərbaycana fəal diplomatik dəstəyi Naxçıvanın ərazi bütövlüyünün qorunmasında və tarixən həmişə olduğu kimi, Azərbaycanın tərkibində qalmasında həlledici amil oldu. Naxçıvanın Azərbaycanın daxilində yekun siyasi muxtariyyət statusunun təmin edilməsində də Türkiyə dövlətinin mühüm təsiri vardır;

Nəhayət, erməni dövlətinin Cənubi Qafqazda qurulması məsələsi böyük güclərin geosiyasi planlarının nəticəsi olsa da, onu türk sivilizasiyasına qarşı bir təhdid olaraq da dəyərləndirmək mümkündür. Xüsusilə türk dünyası arasındakı əlaqələri təmin edən "türk qapısı" Naxçıvanın bu dövlətlər tərəfindən ermənilərə verilməsi cəhdlərinə də məhz bu aspektdə baxılmalıdır. Türkiyənin və Azərbaycanın parçalanmasında, hər iki dövlətə məxsus ərazilərin ermənilərə verilməsində aparıcı güclərin məqsədi məhz bundan ibarət idi. Böyük dövlətləri əsl həqiqətdə heç də ermənilərin taleyi maraqlandırmamış, bu məsələdən yalnız bu bölgədə o dövrdən üzü bəri dəyişməyən geosiyasi, geoiqtisadi maraqları naminə istifadə etmişlər.

# ƏDƏBİYYAT

**Azərbaycan dilində:**

1. Abdullayev Mahir. Beynəlxalq münasibətlər tarixi (XX əsr). Bakı: ABU, 2006, 464 s.

2. Abbasbəyli A.N., Yusifzadə S.Z. Beynəlxalq münasibətlər tarixi (ən qədim dövrlərdən XIX yüzilliyin 70-ci illərinin sonuna qədər). Bakı: "Təhsil" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2009, 310 s.

3. Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı: Qartal, 1998, 280 s.

4. Atnur İ.E. Muxtariyyət ərəfəsində Naxçıvan. Naxçıvan: NDU-nun Qeyrət nəşriyyatı, 1999, 442 s.

5. Atnur İ.E. Osmanlı idarəçiliyindən sovet idarəçiliyinə qədər Naxçıvan (1918-1921). Naxçıvan: "Əcəmi" NPB, 2013, 496 s.

6. Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan. (Tərtib edəni və ön sözün müəllifi İsmayıl Hacıyev). Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2010, 384 s.

7. Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə, II cild. Bakı: 1978, 592 s.

8. Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə, X cild. Bakı: 1987, 662 s.

9. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1989, 328 s.

10. Azərbaycan tarixində Naxçıvan (tarixi oçerklər). Bakı: 1996, 142 s.

11. Babayev A. Rusiyaya qovuşmaq ərəfəsində. Bakı: Azərnəşr, 1988, 167 s.

12. Cəfərli E. Sovet Rusiyasının Cənubi Qafqazda milli siyasəti və Naxçıvan məsələsi // AMEA Naxçıvan Bölməsinin "Xəbərlər"i. İctimai və humanitar elmlər seriyası, 2016, № 3, s. 98-110.

13. Cəfərli E.Y. Naxçıvanda erməni-Azərbaycan münaqişəsi. Bakı: Nurlan, 2008, 280 s.

14. Cəfərov Fəxrəddin. Naxçıvan polisi: fəaliyyətinin əsas istiqamətləri və mərhələləri. Bakı: Nurlan, 2011, 388 s.

15. Cümşüdlü F. Ermənilərin əzəli Azərbaycan torpaqlarında yerləşdirilməsi çarizmin mənfur siyasətinin nəticəsi idi / Xalq qəzeti, 2012, 4 noyabr.

16. Darabadi Pərvin. XX əsrin əvvəllərində Güney Qafqaz beynəlxalq geosiyasi münasibətlər sistemində / Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam ordusu. Bakı: Qafqaz Universiteti Qafqaz Araşdırmaları İnstitutu nəşriyyatı, 2008, s. 23-38.

17. Deportasiya. Toplu. Bakı: Azərbaycan Ensiklopediyası Nəşriyyat-Poliqrafiya Birliyi, 1998, 440 s.

18. Deportasiya və Naxçıvan // NDU-nun "Elmi əsərləri". Xüsusi buraxılış, 2001, № 8, 82 s.

19. Didərginlər. Bakı: Gənclik, 1990, 384 s.

20. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı: Gənclik, 1995, 464 s.

21. Əliyev Mirzə Bağır. Qanlı günlərimiz (1918-1920, Naxçıvan). Bakı: Azərbaycan Dövlət nəşriyyatı, 1993, 142 s.

22. Əliyev Ə. Əlincə yaddaşı. Bakı: Gənclik, 1997, 304 s.

23. Əsgərov Z. Naxçıvan Muxtar Respublikasının Konstitusiya statusu. Bakı: Bakı Universiteti nəşriyyatı, 1999, 156 s.

24. General Veysəl Ünüvar. Naxçıvan: təlatüm və burulğanlar (1920-1921). Naxçıvan: "Əcəmi" NPB, 2006, 104 s.

25. Gümrü, Moskva və Qars müqavilələri (Azərbaycan, türk, rus və fransız dillərində). Naxçıvan: 2004, 140 s.

26. Hacıyev Aydın. Qars və Araz-Türk respublikalarının tarixindən. Bakı: Azərbaycan Dövlət nəşriyyatı, 1994, 124 s.

27. Hacıyev İsmayıl. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri. Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2012, 192 s.

28. Hacıyev İ. Behbud ağa Şahtaxtinski: həyatı və fəaliyyətinin mühüm mərhələləri. Naxçıvan: "Əcəmi" NPB, 2016, 80 s.

29. Hacıyev İ. Ermənilərin azərbaycanlılara qarşı soyqırımı siyasəti // "Naxçıvan" jurnalı, Naxçıvan 2001, № 5, s. 37-44.

30. Hacıyev İ. Ermənilərin azərbaycanlılara qarşı soyqırım siyasəti və bunun ağır nəticələri // Naxçıvan Dövlət Universitetinin "Elmi əsərlər"i. Tarix və ictimai elmlər seriyası, 2010, № 1 (29), s. 75-82.

31. Hacıyev İ. Ermənilərin Naxçıvana qarşı ərazi iddialarının əsassızlığı və tarixi həqiqətlər // Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri (9-10 iyun 2006-cı ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Bakı: Təhsil, 2006, s. 33-47.

32. Hacıyev İ. Naxçıvan Muxtar Respublikası Azərbaycanın dövlətçilik tarixində: Tarix elmləri doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya. NDU-nun Elmi kitabxanası. Bakı: 1999, 335 s.

33. Hacıyev İ. Naxçıvan Muxtar Respublikasının təşkili və əhəmiyyəti // “Qobustan” jurnalı, 1999, № 2, s. 8-12

34. Hacıyev İ. Naxçıvana ermənilərin ərazi iddiaları və tarixi həqiqətlər // Naxçıvanın tarixi, maddi və mənəvi mədəniyyətinin, təbii sərvətlərinin öyrənilməsi (21-22 may 2004-cü il tarixdə AMEA Naxçıvan Bölməsində keçirilmiş elmi konfransın materialları). Bakı: Elm, 2004, s. 28-40.

35. Hacıyev İ. Naxçıvanın muxtariyyət statusu və müasir dövr // AMEA Naxçıvan Bölməsinin “Xəbərlər”i. İctimai və humanitar elmlər seriyası, 2011, cild 10, №1, s. 9-24.

36. Həsənoğlu H. Dünyanın mənfur milləti: erməni. Bakı: Əbilov, Zeynalov və oğulları, 2003, 256 s.

37. Həsənli Cəmil. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920). Bakı: “GARISMA” MMC, 2009, 551 s.

38. Həsənov Cəmil. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər). Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1993, 362 s.

39. Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920). Bakı: Azərnəşr, 1993, 362 s.

40. Hüseynzadə L. Araz şahiddir ki. Türk ordu generalı Kazım Qarabəkir paşa Naxçıvanda (1918-1920-ci illər). Bakı: Nurlan, 2001, 80 s.

41. XX əsr Azərbaycan tarixi. II cild. Ali məktəblər üçün dərslik. Bakı: Təhsil, 2009, 560 s.

42. Qafarov Vasif. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922). Bakı: Azərnəşr, 2011, 474 s.

43. Qafarov V. Batum konfransı və Azərbaycan // “Tarix və onun problemləri” jurnalı, 2009, № 1-2, s. 81-89

44. Qasımlı Musa. Antanta ölkələrinin Güney Qafqaz siyasəti (1917-ci il noyabr – 1918-ci il noyabr) / Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam ordusu. Bakı: Qafqaz Universiteti Qafqaz Araşdırmaları İnstitutu nəşriyyatı, 2008, s. 191-224.

45. Qlinka S.N. Azərbaycan ermənilərinin Rusiya hüdudlarına köçürülməsinin təsviri. Bakı: Azərbaycan, 1995, 128 s.

46. Quliyev C.B., Mədətov Q.Ə., Nadirov A.A. Sovet Naxçıvanı. Bakı: Azərnəşr, 1984, 136 s.

47. İbrahimzadə F. Behbud Şahtaxtinskinin siyasi və diplomatik fəaliyyəti. Bakı: 2007, 219 s.

48. İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi (AMEA-nın müxbir üzvü Y.Mahmudovun elmi redaktorluğu ilə). Bakı: Çaşıoğlu, 2009, 576 s.

49. Kazımov İbrahim. Naxçıvan: əhalisi, sosial-iqtisadi və siyasi tarixinə dair (1828-1920-ci illər). Bakı: Elm, 2007, 175 s.

50. Köçərli T. Yaddan çıxmaz Qarabağ. Nəqşi-cahan Naxçıvan. Bakı: Elm, 1998, 462 s.

51. Mədətov Q. Naxçıvanda sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-nin təşkili. Bakı: 1958, 163 s.

52. Məhərrəmov N. Daşnaksütyun və Azərbaycanın taleyi. Bakı: Azərbaycan, 1995, 96 s.

53. Məmmədov İ. Tariximiz, torpağımız, taleyimiz. Bakı: Adiloğlu, 2003, 700 s.

54. Məmmədov İ., Əsədov S. Ermənistan azərbaycanlıları və onların acı taleyi. Bakı: Azərbaycan, 1992, 71 s.

55. Məmmədov N. "Erməni məsələsi" necə yarandı? / "Respublika" qəzeti, 2015-ci il, 8 mart, 11 mart.

56. Musayev İsmayıl. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı: Bakı Universiteti nəşriyyatı, 1998, 385 s.

57. Musayev İ. Böyük dövlətlər və "erməni məsələsi". XIX əsr, birinci hissə. Bakı: İqtisad Universiteti nəşriyyatı, 2003, 238 s.

58. Muradov M.A. Çar Rusiyasının Azərbaycanda işğalçılıq və köçürmə siyasəti (XIX əsrin I yarısında). Bakı: Çaşıoğlu, 1999, 138 s.

59. Naxçıvan Ensiklopediyası: 2 cilddə. Cild 1. Naxçıvan: 2005, 361 s.

60. Naxçıvan Ensiklopediyası: 2 cilddə. Cild 2. Naxçıvan: 2005, 381 s.

61. Naxçıvan Muxtar Respublikası konstitusiyalarda. Kitabın tərtibçisi, oçerk və mətnlərin müəllifi tarix üzrə fəlsəfə doktoru, dosent E.Y.Cəfərli. Bakı: Elm və təhsil, 2014, 208 s.

62. Naxçıvan tarixi: Üç cilddə. II cild. Naxçıvan: "Əcəmi" NPB, 2014, 520 s.

63. Naxçıvan tarixinin səhifələri ("Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumunun materialları). Bakı: 1996, 222 s.

64. Nəcəfli G. XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri. Bakı: Nurlan, 2007, 248 s.

65. Nəvvab M.M. 1905-1906-cı illərdə erməni-müsəlman davası. Bakı: Azərbaycan, 1993, 128 s.

66. Ordubadi M.S. Qanlı illər. Bakı: 1991, 144 s.

67. Piriyev V. Azərbaycanın tarixi-siyasi coğrafiyası. Bakı: Müəllim, 2006, 148s.

68. Rəhimoğlu (Həsənov) H. Silinməz izlər, sağalmaz yaralar... Bakı: Azərnəşr, 1997, 260 s.

69. Rəhimova A. "Erməni vilayəti"nin tarixşünaslığına dair // "Tarix və onun problemləri", 2002, № 3, s. 190-194.

70. Sadıqov S.H. Naxçıvan Muxtar Respublikası tarixindən. Bakı: 1995, 144 s

71. Səfərli F. Kazım Qarabəkir paşa və Naxçıvanın erməni təcavüzündən müdafiəsi // "Naxçıvan" jurnalı, 2001, № 5, s. 75-77.

72. Səmyuel A. Uimz. Ermənistan – terrorçu "xristian" ölkənin gizlinləri (Ermənilərin böyük fırıldaq seriyaları). Bakı: 2004, 386 s.

73. Süleymanov M. Erməni millətçiliyi və təcavüzkarlığı tarixindən. Bakı: Hərbi nəşriyyat, 2008, 398 s.

74. Svyatoçovski T. Rusiya və Azərbaycan: sərhədyanı bölgə keçid dövründə. Bakı: 2000, 373 s.

75. Şahverdiyev Z. Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində. Bakı: Elm, 2008, 264 s.

76. Şıxəliyev Emin. Ermənistan-Azərbaycan münaqişəsi sivilizasiyalararası münasibətlər kontekstində. Bakı: Elm və Təhsil, 2011, 324 s.

77. Şıxəliyev Emin. "Böyük Ermənistan" ideologiyasının mifoloji əsasları // Journal of Qafqaz University. History, Law and Political Sciences, 2013, volume 1, number 1, s. 38-45. Şıxəliyev Emin. Ermənilərin "din" strategiyasının əsas istiqamətləri // Strateji təhlil. Strateji Araşdırmalar Mərkəzi, Azərbaycan Respublikasının daxili və xarici siyasəti, beynəlxalq münasibətlərə dair analitik jurnal, 2014, say: 7-8, s. 65-81.

78. Şıxəliyev Emin. Erməni iddialarının siyasi və mifoloji mahiyyəti // Strateji təhlil. Strateji Araşdırmalar Mərkəzi, Azərbaycan Respublikasının daxili və xarici siyasəti, beynəlxalq münasibətlərə dair analitik jurnal, 2016, say: 1-2 (15-16), s.47-62.

79. Şıxəliyev Emin. İngiltərənin geosiyasi maraqlarında "erməni məsələsi"nin yeri və Azərbaycana təsiri (1917-1920). Naxçıvan: Əcəmi, 144 s.

80. Talıbov V. Deportasiya tarixi və Naxçıvan // Naxçıvan Dövlət Universitetinin "Elmi əsərlər"i. Xüsusi buraxılış, 2001, № 8, s. 8-17.

81. Verdiyeva X.Y. XIX əsrin birinci yarısında Şimali Azərbaycanın əhalisi. Bakı: 1993, 133 s.

82. Yılmaz Reha. Birinci Dünya müharibəsinin başlanğıcında Osmanlı dövlətinin Qafqaz siyasəti / Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı: Qafqaz Universiteti Qafqaz Araşdırmaları İnstitutu nəşriyyatı, 2008, s. 57-74.

83. Yusifzadə Sevinc. Ermənistan-Azərbaycan münaqişəsi və İngiltərənin mövqeyi (1918-1920-ci illər) // Dirçəliş – XXI əsr, 2004, №76-77, s. 252-261.

84. Zamanov Elçin. Cənubi Qafqazda ictimai-siyasi vəziyyət və Azərbaycanın xarici siyasəti (1918-1920-ci illər). Bakı: Elm və təhsil, 2011, 176 s.

**Türk dilində:**

85. Akçura Yusuf. Üç tarz-ı siyaset. Ankara: Türk Tarih Kurumu yayınları, 1998, 55 s.

86. Akbulut D.A. Albayrak Olayı. Osmanlıca Belgeler. Özel Baskı. Erzurum: 1991, 159 s.

87. Armaoğlu Fahir. 19. yüzyıl siyasi tarihi (1789-1914). Ankara: Türk Tarih Kurumu, 1997, 821 s.

88. Armaoğlu Fahir. 20. yüzyıl siyasi tarihi 1980-1990: 2 ciltte, II c., Ankara: Türkiye İş Bankası Kültür yayınları, 1991, 336 s.

89. Arslanoğlu C.E. Kars Millî İslam Şûrası (5.11.1918-17.1.1919) ve Cenub-i Garbi Kafkas Hükümeti Muvakkata-i Milliyesi (18 Ocak-13 Nisan 1919). Belgeler, fotoğraflar. Azerbaycan Kültür Derneği Yayını, Ankara: 1986, 333 s.

90. Atnur İbrahim Ethem. Osmanlı yönetiminden Sovyet yönetimine kadar Nahçıvan (1918-1921). Ankara: Türk Tarih Kurumu, 2001, 488 s.

91. Attar Aygün. Ermeni ulusalcılığının siyasal oluşumu / Ermeni Araştırmaları 2. Türkiye Kongresi Bildirileri. Ankara: Avrasya Stratejik Araştırmalar Merkezi, Ermeni Araştırmaları Enstitüsü yayınları, 2007, I cilt, s. 231-252.

92. Atnur İbrahim Ethem. Osmanlı yönetiminden Sovyet yönetimine kadar Nahçıvan (1918-1921). Ankara: Türk Tarih Kurumu, 2001, 488 s.

93. Atnur İ.E. Osmanlı Birliklerinin Aras Vadisi'nden Çekilmesi ve Aras-Türk Hükümetinin Oluşumu (Ekim-Aralık 1918) // Yeni Türkiye Dergisi. Sayı 73. Temmuz-Aralık 2015. Kafkaslar Özel Sayısı-III, s. 425-434.

94. Aykun İ. Tokat'taki Ermeni Hınçak Cemiyeti ve Faaliyetleri (1893-1894) // Ermeni Araştırmaları. 1. Türkiye Kongresi Bildirileri. I silt. Ankara: Av-

rasya Stratejik Araştırmalar Merkezi, Ermeni Araştırmaları Enstitüsü Yayınları, 2003, s. 503-510

95. Avcı Halil Ersin. İngiliz-ermeni ittifakı. İstanbul: Paraf yayınları, 2010, 448 s.

96. Aşgın S. Sözde Ermeni Soykırımı İddiaları ve Taruhsel Gerçekler // Ermeni Araştırmaları. 1. Türkiye Konqresi Bildirileri. 3 ciltte. III cilt. Avrasya Stratejik Araştırmalar Merkezi, Ermeni Araştırmaları Enstitüsü Yayınları, Ankara: 2003, s. 333-352

97. Azerbaycan Belgelerinde Ermeni Sorunu (1918-1920). Ankara: T.C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü, 2001, 682 s.

98. Babayev S. Ermenilerin Azerbaycana Göç Ettirilmesi Siyaseti ve Demografik Değişim "Hayali Ermenistan ve Soykırım Hikayesi" Uluslararası Tarih Sempozyumu Bildirileri. Kars: 05 Haziran 2001, s. 19-26.

99. Bal H. Ermenistan Hükümetinin Güney Kafkasya′daki Türklere Karşı Saldırgan Politikası ve Mezalimi (1918-1920) // Ermeni Araştırmaları. 1. Türkiye Kongresi Bildirileri. 3 ciltte. I cilt. Avrasya Stratejik Araştırmalar Merkezi, Ermeni Araştırmaları Enstitüsü Yayınları. Ankara: 2003, s. 401-410

100. Başak Tolga. İngiltere'nin ermeni politikası (1830-1923). İstanbul: IQ Kültür Sanat yayıncılık, 2008, 672 s.

101. Cabbarlı H. Eduard Oganisyan′ın "Yüzyıllık Mücadele" Adlı Kitabında Ermeni Meselesi ve "Soykırım" Propagandası // Ermeni Araştırmaları. 1. Türkiye Kongresi Bildirileri. 3 ciltte. I cilt. Avrasya Stratejik Araştırmalar Merkezi, Ermeni Araşdırmaları Enstitüsü Yayınları. Ankara: 2003, s. 145-153

102. Cabbarlı H. Geçmişten Günümüze Ermenistanda Azerbaycan Türkleri // "Ermeni Araştırmaları" Üç Aylık Tarih, Politika ve Uluslararası İlişkiler Dergisi, Ankara: Aralık 2001-Ocak-Şubat 2002, Sayı 4, s. 122-146

103. Cebesoy A.F. Moskova Hatıraları. Kültür ve Turizm Bakanlığı, Ankara: 1982, 455 s.

104. Çaylak A., Çiçek A.C. Anadolu′da "Demokratik" Cumhuriyet Fikrinin Oluşumu: Cenub-i Garbi Kafkas Cumhuriyeti // Yeni Türkiye Dergisi. Sayı 73. Temmuz-Aralık 2015. Kafkaslar Özel Sayısı-III, s. 374-385

105. Çalık R.. Almanların Ermeni Olaylarına Bakışı // Ermeni Araştırmaları. 1. Türkiye Kongresi Bildirileri. 3 ciltte. I cilt. Avrasya Stratejik Araşdırmalar Merkezi, Ermeni Araşdırmaları Enstitüsü Yayınları. Ankara: 2003, s. 105-124

106. Çolak Mustafa. Alman imparatorluğu’nun Doğu siyaseti çerçevesinde Kafkasya politikası (1914-1918). Ankara: Türk Tarih Kurumu yayınları, 2006, 324 s.

107. Dayı S. Esin. Evliye-i Selâse′de (Kars, Ardahan ve Batum) Milli Teşkilatlanma. Kültür ve Eğitim Vakfı Yayınları, Erzurum, 1997, 293 s.

108. Demirci H. Cenûb-i Garbî Kafkas Hükümeti // Yeni Türkiye Dergisi. Sayı 73. Temmuz-Aralık 2015. Kafkaslar Özel Sayısı-III, s. 386-403.

109. Demirel M. İngiliz Belgelerinde Türkler ve Ermenilerle İlgili Terminoloji // Ermeni Araştırmaları. 1. Türkiye Kongresi Bildirileri. 3 ciltte. I cilt. Avrasya Stratejik Araşdırmalar Merkezi, Ermeni Araşdırmaları Enstitüsü Yayınları. Ankara: 2003, s. 93-104.

110. Erdem U. Dr. Fuat Sabit Bey'in Bolşeviklerle İlişki Kurmak İçin Görevlendirilmesi ve Kafkasya Raporu // Yeni Türkiye Dergisi. Sayı 73. Temmuz-Aralık 2015. Kafkaslar Özel Sayısı-III, s. 228-238.

111. Erden Ö. Kars Konferansı Sürecinde Türkiye ve Sovyet Rusya′nın Karşılıklı Endişeleri // Yeni Türkiye Dergisi. Sayı 73. Temmuz-Aralık 2015. Kafkaslar Özel Sayısı-III, s. 443-451.

112. Erdoğan F. Türk Ellerinde Hatıralarım. Mevsimsiz Yayınları, Ankara: 2007, 239 s.

113. Ermeniler Tarafından Yapılan Katliam Belgeleri (1914-1919). I cilt. T.C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşiv Dairesi Başkanlığı. Ankara: 2001, Yayın No 49, XXII+740 s.

114. Erşan M. Kafkasya'da Son Türk Zaferleri // Yeni Türkiye Dergisi. Sayı: 73. Temmuz-Aralık 2015, Kafkaslar Özel Sayısı-III, s. 417-424.

115. Feigl Erich. Ermeni mitomanyası. İstanbul: 2007, 168 s.

116. Gafarov V. Brest-Litovsk Barış Konferansı'nda Osmanlı Devleti'nin Kafkasya Politikası // Yeni Türkiye Dergisi. Sayı 73. Temmuz-Aralık 2015. Kafkaslar Özel Sayısı-III, s. 215-227

117. Gökdemir A.E. Cenûbî-Qarbi Kafkas Hükûmeti. Atatürk Araştırma Merkezi, Ankara: 1998, 289 s.

118. Gürün Kamuran. Ermeni dosyası. Ankara: Türk Tarih Kurumu, 1985, 215 s.

119. Gülsoy U. 1828-1829 Osmanlı-Rus Savaşında Rumeliden Rusyaya Göçürülen Reaya. İstanbul: Türk Kültürünü Araştırma Enstitüsü, 1993, 160 s.

120. Halaçoğlu Yusuf. Ermeni tehciri ve gerçekler. Ankara: Türk Tarih Kurumu yayınları, 2001, 106 s.

121. Hacıyev İ., Amanoğlu E. Tarihte ve Günümüzde Nahçıvan. Ankara: Ankara Üniversitesi Basınevi, 1998, 92 s.

122. Hopkirk Peter. İstanbul'un doğusunda bitmeyen oyun. İstanbul: Yeni Yüzyıl – Sabah yayınları, 1995, 516 s.

123. Hüseyin Ş. Ermeniler ve Karabağ // Ermeni Araştırmaları. 1. Türkiye Kongresi Bildirileri. II cilt. Avrasya Stratejik Araştırmalar Merkezi, Ermeni Araştırmaları Enstitüsü Yayınları, Ankara: 2003, s. 313-320.

124. İki Devrin Perde Arkası. Teşkilat-ı Mahsusa Başkanı Hüsamettin Ertürk, (Hazırlayan Samih Nafiz Tansu), Sebil Yayınları, 2011, 600 s.

125. İlter Erdal. Ermeni meselesi'nin doğuşunda ve gelişmesinde İngiltere'nin rolü // Ankara Üniversitesi, Osmanlı Tarihi Araştırma ve Uygulama Merkezi dergisi, 1995, sayı: 6, s. 155-171.

126. İlter Erdal. Ermeni kilisesi ve terör. Ankara: Ankara Üniversitesi Osmanlı Tarihi Araştırma və Uygulama Merkezi yayınları, 1996, 176 s.

127. İsmayılov F. Dağlık Karabağ Probleminin Jeopolitik Kökleri // Türk Dünyasına Bakışlar. İstanbul: DA Yayıncılık, 2003, s. 369-375.

128. Kârabekir K. İstiklâl Harbimiz. İstanbul: Türkiye Basımevi, 1960, 1171 s.+44 s. Belge, Fotoğraf.

129. Karabekir Kazım. İstiklal harbimiz, İstanbul, 1988, 1330 s.

130. Kârabekir K. İstiklâl Harbimiz. İstanbul: Yapı Kredi Yayınları, 2008, C. I, 660 s.

131. Kârabekir K. İstiklâl Harbimiz. İstanbul: Yapı Kredi Yayınları, 2008, C. II, 681 s.

132. Kârabekir K. İstiklâl Harbinin Esasları, Kazım Karabekir Paşanın Hatıratı. İstanbul: Basın Kitabevi, 1981, 240 s.

133. Karabekir K. 1917-20 Arasında Erzincandan Erivana Ermeni Mezalimi. İstanbul: Emre Yayınları, 2000, 384 s.

134. Kâzım Kârabekir'in Kaleminden Doğunun Kurtuluşu. Erzincan ve Erzurum'un Kurtuluşu. Erzurum: Sarıkamış, Kars ve Ötesi. Erzurum Ticaret ve Sanayi Odası, 1990, IX+526 s.

135. Karacakaya R. Kaynakçalı Ermeni Meselesi Kronolojisi (1878-1923). Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşiv Daire Başkanlığı. Yayın No 52. İstanbul, 2001, 261 s.

136. Karacakaya R. Türk Kamuoyu ve Ermeni Meselesi (1908-1923). İstanbul: Toplumsal Dönüşüm Yayınları, 2005, 472 s.

137. Karacakaya Recep. İngiltere'de ermeni propagandası ve Osmanlı devletinin buna karşı aldığı önlemler (1878-1900) // Ermeni Araştırmaları Dergisi, 2003, sayı: 11, s. 47-59.

138. Karadağ Raif. Petrol fırtınası. İstanbul: Truva yayınları, 2014, 328 s.

139. Karal E.Z. Osmanlı Tarihi. C. VIII. Ankara: Türk Tarih Kurumu Yayınları, 1988, 631 s.

140. Kaymaz İ.Ş. Mondros: Bir Ateşkesin Tahlili. 21. Yüzyıl Dergisi, Ekim / Kasım / Aralık 2008, s. 239-268.

141. Keleşyılmaz V. I. Dünya Savaşı Başlarında Kafkasya ve Çevresine İlişkin Stratejik Yaklaşım ve Faaliyetler // Yeni Türkiye Dergisi. Sayı 73. Temmuz-Aralık 2015. Kafkaslar Özel Sayısı-III, s. 203-209

142. Keykurun N. Azerbaycan İstiklal Mücadelesinden Hatıralar (1905-1920). İstanbul: İlke kitap yayınevi, 1998, 217 s.

143. Kırzıoğlu F. Milli Mücadelede Kars. I. Kitap-Belgeler. İstanbul: Kars'ı Tanıtma Derneği yayınları, 1960, 80 s.

144. Kocabaş S. Ermeni Meselesi Nedir, Ne Değildir? Ankara: 1989, 128 s.

145. Kop Y. 1828-1829 Osmanlı-Rus Savaşında Ermeniler // Ermeni Araştırmaları. 1. Türkiye Kongresi Bildirileri. I cilt. Ankara: Avrasya Stratejik Araştırmalar Merkezi, Ermeni Araştırmaları Enstitüsü Yayınları, 2003, s.553-566.

146. Krayblis N. Rusyanın Şark Siyaseti ve Vilayeti Şarkiyye Meselesi. İstanbul: Dersaadet Matbaası, 1332, 136 s.

147. Kurat A.N. Türkiye ve Rusya. Ankara: Kültür Bakanlığı Yayınları, 1990, XVI+755 s.

148. Küçük Cevdet. Osmanlı diplomasisinde ermeni meselesi'nin ortaya çıkışı (1878-1897). İstanbul: Türk Dünyası Araştırma Vakfı yayınları, 1986, 192 s.

149. Laçıner Sedat, Bal İhsan. İngiltere ermenileri, lobicilik ve ermeni sorunu // Ermeni Araştırmaları Dergisi, 2002, sayı: 7, s. 71-124.

150. Mazıcı Nurşen. Belgelerle uluslararası rekabette ermeni sorunu'nun kökeni (1878-1918). İstanbul: Gümüş basımevi, 1987, 292 s.

151. Mehmetzade Mirza Bala. Milli Azerbaycan hareketi. Ankara: Azerbaycan Kültür Derneği yayınları, 1991, 240 s.

152. Musayev İ.M. Azerbaycan-Türkiye İlişkileri (1917-1922 yılları). Bakü: Bakü Üniversitesi Yayınevi, 1998, 153 s.

153. Osmanlı'dan Günümüze Ermeni Sorunu. Ankara: Yeni Türkiye Yayınları, 2000, 281 s.

154. Öke Mim Kemal. Siyonizm'den uygarlıklar çatışmasına Filistin sorunu. İzmir: Ufuk kitapları, 2002, 507 s.

155. Özkan Zafer. Tarihsel akış içerisinde terörden poltikaya ermeni meselesi. İstanbul: Er Ofset San. ve Tic. AŞ, 2001, 282 s.

156. Perinçek M. Sovyet Arşivleri Türkiye'nin Tezlerini Doğruluyor // Ermeni Araştırmaları. 1. Türkiye Kongresi Bildirileri. 3 ciltte. I cilt. Ankara: Avrasya Stratejik Araştırmalar Merkezi, Ermeni Araştırmaları Enstitüsü Yayınları. 2003, s. 125-144

157. Sevinç N. Arşiv Belgeleriyle Tehcir. Ermeni İddiaları ve Gerçekler. Ankara: Avrasya-Bir Vakfı yayınları, 2003, 210 s.

158. Süslü Azmi. Ermeniler ve 1915 tehcir olayı. Van: Yüzüncü Yıl Üniversitesi Rektörlüğü, 1990, 244 s.

159. Şahin E. Cihan Harbi'nin Son Yılında Türkiye Maverâ-yı Kafkasya'da // Yeni Türkiye Dergisi. Sayı 73. Temmuz-Aralık 2015. Kafkaslar Özel Sayısı-III, s. 353-373

160. Şıhaliyev Emin Arif. Türkiye ve Azerbaycan açısından ermeni sorunu. Ankara: Türk Vakfı yayınları, 2002, 231 s.

161. Şıhaliyev Emin Arif. Kafkasya jeopolitiğinde Rusya, İran, Türkiye rekabetleri ve ermeni faktörü. Naturel yayınları, Ankara: 2004, 378 s.

162. Taşkıran C. Milli Mücadelede Kazım Karabekir Paşa. Ankara: Atatürk Araştırma Merkezi, 1999, 154 s.

163. Tengirşenk Y.K. Vatan Hizmetinde. Ankara: Kültür ve Turizm Bakanlığı yayınları, 1981, 286 s.

164. Uras Esat. Tarihte ermeniler ve ermeni meselesi. İstanbul: Belge yayınları, 1987, 798 s.

165. Ural S. Kafkas Cephesinde Mondros Mütarekesi'nin Tatbikatı // Yeni Türkiye Dergisi. Sayı 73. Temmuz-Aralık 2015. Kafkaslar Özel Sayısı-III, s. 239-263

166. Ünüvar V. İstiklâl Harbinde Bolşeviklerle Sekiz Ay, 1920-1921. İstanbul, 1948, 87 s.+20 s. Fotoğraf.

167. Yavi Ersal. 1856-1923 emperyalizm kıskacında türkler, ermeniler, kürtler. İzmir: Yazıcı yayınevi, 2001, 391 s.

168. Yerasimos Stefanos. Milliyetler ve sınırlar. Balkanlar, Kafkasya ve Orta Doğu. İstanbul: İletişim yayıncılık, 2000, 504 s.

**Rus dilində:**

169. Бузынина Н.К., Виноградов К.В., Лорд Керзон (1859-1925. Докум. очерк) // Новая и Новейшая История, 1973, №6, с. 116-127.

170. Волков Ф.Д. Тайны Уайтхолла и Даунинг-стрит. Москва: Мысль, 1980, 462 с.

171. Величко В.Л. Кавказ. Русское дело и междуплеменные вопросы. Баку: Элм, 1990, 144 с.

172. Вердиева Х.Ю. Переселенческая политика Российской империи в Северном Азербайджане (XIX-начале XX вв). Баку: Алтай, 1999, 300 с.

173. Глинка С. Описание армянь азербайджанских в пределы России. Баку: Элм, 1990, 144 с.

174. Гулиев Дж.Б. Борьба Коммунистической партии за осуществление Ленинской национальной политики в Азербайджане. Баку: Азернешр, 1970, 705 с.

175. Гулиев Дж.Б., Мадатов Г.А., Надиров А.А. Советская Нахичевань. Баку: Азернешр, 1984, 148 с.

176. Гурко-Кряжин В. Армянский вопрос. Баку: Коммунист, 1990, 16 с.

177. Дашнаки. Составитель Б.Гаибов. Баку: Коммунист, 1990, 40 с.

178. Денстервиль Л. Британский империализм в Баку и Персии (1917-1918). Воспоминания, пер. С Англ. Б.Руденко. Тифлис: Советский Кавказ, 1925, 281 с.

179. Джордж Ллойд. Правда о мирных договорах. В 2-х томах: Перевод с английского. Т. 2 / Д.; Под ред.: Волков Ф.Д., Никонов А.Д., Москва: Иностр. Литературы, 1957, 556 с.

180. Дубровин Н.Ф. История войны и владычества русских на Кавказе. В 8 томах. Книга III. Санкт-Петербург: 1871, 454 с.

181. Лавров С.В. Борьба в политических кругах Великобритании вокруг англо-советских переговоров 1920-1921 годов // Вопросы Истории, 1977, №6, с. 59-80.

182. Малевил Жорж де. Армянская трагедия 1915 года. Баку: Элм, 1990, 128 с.

183. Мильман А. Политический строй Азербайджана в XIX-начале XX веков. Баку: 1966, 320 с.

184. Мнацаканян А.Ш. О литературе Кавказской Албании. Ереван: издательство “Академия Наук Армянской ССР”, 1969, 220 с.

185. Парсамян В.А. История армянского народа (1801-1900). Книга первая. Ереван: Айастан, 1972, 393 с.

186. Собрание актов, относящихся к обозрению истории армянского народа. Ч. 1-й, Москва: 1833, 391 с.

187. Статическое описание Нахичеванской провинции составленное В.Г. (В.Григоревым). СПб.: Типография Департамента Внешней Торговли, 1833, 177 с.

188. Улубабян Б.А. Очерки историй Восточного края Армении (V–VII вв.). Ереван: изд-во “Академия Наук Армянской ССР”, 1982.

189. Чавчавадзе И.Г. Армянские ученые и вопиющие камни. Баку: Элм, 1990, 128 с.

190. Черчилль У. Мировой кризис. Москва: Госполитиздат, 1932, 328 с.

191. Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье. СПб.: 1911.

192. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. СПб.: Типография Императорской Академии Наук, 1852, 1232 с.

193. Эзов Г.А. Сношения Петра Великого с армянским народом. Санкт-Петербург: Типография Императорской Российской Академии, 1898, 681 с.

**İngilis dilində:**

194. Arslanian Artin H. Densterville’s adventures: a reappraisal // International Journal of Middle East Studies, 1980, vol.: 12, no: 2, p. 199-215.

195. Bowen H.V. War and British Society (1688-1815). Cambridge: Cambridge University press, 1998, 100 p.

196. Brown Philip Marshall. The mandate over Armenia // The American Journal of International Law, vol: 14, no:3, 1920, p. 396-399.

197. Ellis C.H. The Transcaspian episode (1918-1919). London: Hutchinson, 1963, 175 p.

198. Dunsterville Major-General L.C.. The adventures of Dunsterforce. London: Edward Arnold, 1920, 323 p.

199. Kazemzadeh Firuz. The struggle for Transcaucasia. Oxford: Philosophical Library, 1951, 356 p.

200. Hovannisian Richard G. The Republic of Armenia, the first year, 1918-1919. Los Angeles: University of California Press, Volume I: Berkeley, 1971, 547 p.

201. Hovannisian Richard G. The Republic of Armenia (1919-1920), from Versailles to London. Los Angeles: University of California Press, Volume II: Berkeley, 1982, 603 p.

202. Monroe Elizabeth. Britain's moment in the Middle East (1914-1956). London: Chatto & Windus, 1963, 254 p.

203. Nassibian Akaby. Britain and the Armenian Question. New York: St. Martin's Press, 1986, 294 p.

204. Robert L.Daniel. The Armenian Question and American-Turkish Relations (1914-1927) // The Mississippi Valley Historical Review, September 1959, vol: 46, №2, p. 252-275.

205. Sarınay Yusuf. What happened on April 24, 1915?, a case study on the circular of 24 April 1915 and arrest of the Armenian committee members in Istanbul // International Journal of Turkish Studies, 2008, volume: 14, №1-2, p. 75-101.

206. Sonyel S.R. The Great War and the Tragedy of Anatolia (Turks and Armenians in the Maelstrom of Major Powers). Ankara: Turkish Historical Society Printing House, 2001 (2. Edition), X+221 p.

207. Vambery Arminius. Travels in Central Asia. London: John Murray, Albemarie Street, 1864, 443 p.

**Fransız dilində:**

208. Allegations Armeniennes et Faits Historiques. Centre de Recherches Strategiques, Ankara: 1998, 72 pp.

**Dövri mətbuat:**

209. "Armenia faced with massacre". "The Times", August 16, 1919.

210. "American Troops in Armenia". New York Tribune, October 1st, 1919.

211. "British troops leaving Armenia: desire for American mandate". "The Times", August 12, 1919, Tuesday.

212. British leave Baku: Detection of the Armenians". "The Times", September 20, 1918ş

213. "Baku: Turkish version". "The Times", September 21, 1918.

214. "Baku evacuated: Armenian treachery to British". "Daily Mail", September 20, 1918.

**Arxiv materialları və rəsmi sənədlər:**

**Azərbaycan:**

210. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA): f. 2898, s. 1, iş: 6.
211. ARDA, f. 897, siy. 1, iş: 57.
212. ARDA, f. 2898, siy. 1, iş: 6.
213. ARDA, f. 2905, s. 1, iş: 20.
214. ARDA, f. 10, s. 3, iş 69
215. ARDA, f. 970, siy. 1, iş. 93.
216. ARDA, f. 379, s. 16, iş 13.
217. ARDA, f. 379, s. 25, iş 2.
218. ARDA, f. 894, s. 4, iş 65.
219. ARDA, f. 894, s. 10, iş 58.
220. ARDA, f. 894, s. 10, iş 80.
221. ARDA, f. 894, s. 10, iş 81.
222. ARDA, f. 896, s. 2, iş 3.
223. ARDA, f. 970, s. 1, iş 57.
224. ARDA, f. 970, s. 1, iş 65.
225. ARDA, f. 970, s. 1, iş 142.
226. ARDA, f.. 970, s. 1, iş 227.
227. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (ARPİİSSA): f. 277, siy: 2, iş: 18.
228. ARPİİSSA: f. 277, siy: 2, iş: 57.
229. ARPİİSSA: f. 277, siy: 2, iş: 58.
230. ARPİİSSA, f. 1, s. 1, iş 2a.
231. ARPİİSSA, f. 158, s. 6, iş 7.
232. ARPİİSSA, f. 609, s. 1, iş 71.
233. ARPİİSSA. Surət fondu.
234. AMEA Tarix İnstitutunun elmi arxivi, iş 1027.
235. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (NMRDA), f. 314, siy. 5, iş 71.
236. NMRDA, f. 63, s. 1, iş 4.
237. NMRDA, f. 314, s. 1, iş 14.
238. NMRDA, f. 314, s. 1, iş 23.
239. NMRDA, f. 314, s. 5, iş 9
240. NMRDA, f. 314, s. 5, iş 11.
241. NMRDA, f. 314, s. 5, iş 15.

242. NMRDA, f. 314, s. 5, iş 17.
243. NMRDA, f. 314, s. 5, iş 18.
244. NMRDA, f. 314, s. 5, iş 26.
245. NMRDA, f. 314, s. 5, iş 57.
246. NMRDA, f. 314, s. 5, iş 63.
247. NMRDA, f. 314, s. 5, iş 67.
248. NMRDA, f. 314, s. 5, iş 68.
249. NMRDA, f. 314, s. 5, iş 74.
250. NMRDA, f. 314, s. 5a, iş 66.

**Türkiyə:**

251. Arşiv belgelerine göre Kafkaslarda ve Anadolu'da ermeni mezalimi, Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü, Osmanlı Arşivi Daire Başkanlığı, yayın №24, 4 ciltte, cilt:2, Ankara, 1995, 460 s.

252. Osmanlı belgelerinde ermeni-ingiliz ilişkileri (1896-1922). T.C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü. Osmanlı Arşivi Daire Başkanlığı, yayın nu: 76, Ankara, 2006, 4 ciltte, cilt:4, belge №76, 460 s.

**Gürcüstan:**

253. Gürcüstan Respublikası Dövlət Arxivi, f. 63, s. 1, iş 58.

**İngiltərə:**

254. Oriental and India Office Collections (British Library): India Office Records IOR/L/P&S/11/166, Decypher. Mr. Wardrop (Tiflis), No: 209, 17th December 1919.

255. The National Archives of United Kingdom: Public Record Office Foreign Office Documents (PRO. FO): 371/3012/225901, "Military Situation in the Caucasus by Consul Stevens", Sir G.Buchanan (Petrograd) to Mr. Balfour, No: 247, November 17, 1917.

256. The National Archives of United Kingdom: Public Record Office Foreign Office Documents (PRO. FO): PRO. FO. 371/36597/134122, "Assistance for Armenians", Tilley to Foreign Office, September 20th, 1919.

257. PRO. FO. 371/3016/230983, Mr. Balfour to Lord Robert Cecil, no: 1265, December 5th, 1917.

258. PRO. FO. 608/79/20779, Armenian Information Bureau to Foreign Office, No: 94, November 25th, 1919.

259. PRO. FO. 371/3016/235937, General Shore (Tiflis) to D.M.I. (London), no: 133, December 10th, 1917.

260. PRO. FO. 371/3016/237541, J.A.Malcolm to Ronald Graham (Foreign Office), December 14th, 1917.

261. PRO. FO. 371/3018/236815, Foreign Office to Sir C.Marling (Tehran), no: 441, December 14th, 1917.

262. PRO. FO. 371/3018/237859 Foreign Office to Sir C.Marling (Tehran), no: 353, December 16th, 1917.

263. PRO. FO. 371/3018/245628, Foreign Office to Sir G.Buchanan, December 30th, 1917.

264. PRO. FO. 371/3062/231202, Aneurin Williams to Lord Robert Cecil (Foreign Office), December 4th, 1917.

265. PRO. FO. 371/3062/240614, "Letter from Boghos Nubar Pasha to Mr. Albert Thomas", Information from French sources, Department of Military Intelligence to Foreign Office, no: E.L.S, 1292, Paris, 16th December, 1917.

266. PRO. FO. 371/3062/240614, Foreign Office to Sir G.Barclay (Jassy), December 20th, 1917.

267. PRO. FO. 371/3284/75611, "Memorandum Regarding the Support Afforded to the Armenians", Department of Military Intelligence to Foreign Office, April 29th, 1918.

268. PRO. FO. 371/3300/19679, Sir C.Marling (Tehran) to Foreign Office, no: 76, January 30th, 1918.

269. PRO. FO. 371/3301/131359, C-in-C. India to War Office, no: 56896, July 20th, 1918.

270. PRO. FO. 371/3404/160092, Foreign Office to Department of Military Intelligence, Draft, September 20/21, 1918.

271. PRO. FO. 371/3404/162647, Foreign Office Minute by A.J.Toynbee, September 24th, 1918.

272. PRO. FO. 371/3404/162745, Arthur James Balfour to Boghos Nubar Pasha, (12, Avenue du Trocadero, Paris), October 12nd, 1918.

273. PRO. FO. 371/3411/158228, "Memorandum on the military position in Armenia and the Caucasus". D.M.I to Foreign Office, September 16th, 1918.

274. PRO. FO. 371/3448/178219, A.J.Toynbee to Mr. Kidston, October 26th, 1918.

275. PRO. FO. 371/3659/114087, Balfour, British Delegation, Paris to Foreign Office, August 8th, 1919.

276. PRO. FO. 371/3659/115082, Aharonian, President Delegation Armenian Republic to his excellency Lloyd George, August 11th, 1919.

277. PRO. FO. 371/3659/118402, "Telegraphic Censorship-Constantinople, Daily Report, no: 138, July 30th, 1919.

278. PRO. FO. 371/3659/134122, "Assistance for Armenians", Tilley to Foreign Office, September 20th, 1919.

279. PRO. FO. 371/3668/118562, The British-Armenian Chamber of Commerce to Arthur James Balfour, August 19th, 1919.

280. PRO. FO. 371/3668/122957, Foreign Office to Sir Henry Wilson, August 29th, 1919.

281. PRO. FO. 371/3668/123464, Mr. Balfour to War Office, August 31th, 1919.

282. PRO. FO. 371/3668/124570, "Memorandum on the Armenian Question", Foreign Office Minutes, September 1th, 1919.

283. PRO. FO. 371/3668/124999, Earl Curzon to Balfour, no: 5984, Foreign Office, September 11th, 1919.

284. PRO. FO. 371/7729/E8378/581 "Outline of events in Transcaucasia from the beginning of the Russian Revolution in the summer of 1917 to April 1921", Foreign Office Memorandum by Mr. Childs and Mr. McDonell, May 31th, 1922.

285. PRO. FO. 608/78/17107, G.H.Q., Constantinople to War Office, no: I. 6607, July 28th, 1919.

286. PRO CAB (Cabinet Papers). 23/4, War Cabinet, 255, Minutes of a Meeting of the War Cabinet held at 10, Downing Street on Tuesday, October 23th, 1917

287. PRO CAB. 23/4, War Cabinet, 294, Minutes of a Meeting of the War Cabinet held at 10, Downing Street on Friday, December 7th, 1917, at 5:30 PM.

288. PRO. CAB. 24/29, G.T.2347, General Barter, Russia to C.I.G.S. War Office, no: 1310, October 15th, 1917.

289. PRO. CAB. 24/29, G.T.2347, C.I.G.S., W.R.Robertson, C.I.G.S. to Secretary of War Cabinet, October 20th, 1917.

290. PRO. CAB. 25/120, S.W.C. 1, Secret, "Note on the Military Situation in Armenia" by Supreme War Council, British Section, Versailles, December 3th, 1917.

291. PRO. CAB. 27/24, E.C. 40th Meeting, War Cabinet, Eastern Committee, Minutes of a Meeting of the Eastern Committee held in Lord

Curzon's Room at the Privy Council Office, on Monday, December 2nd, 1918, at 3 P.M., Annex.

292. PRO. CAB. 27/36, War Cab, Eastern Committee, Volume: XII, E 2359, "Memorandum on a possible territorial policy in the Caucasus regions" by Sir Eyre A. Crowe, Foreign Office, November 7th, 1918.

293. The Parliamentary Archives, House of Lord Record Office, Lloyd George Papers/F/24/1/10, M.P.A. Hankey to Lloyd George, September 4th, 1919.

**İnternet resursları:**

294. Armenians in Madras. www.chennaionline.com

295. İbrahimova A.Z. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində / kayzen.az/blog/Azərbaycan-tarixi/5539/azərbaycan-xalq-cümhuriy-yətinin-yaranması-ərəfəsində.html

296. Mustafa N. Naxçıvan və Şərur-Dərələyəzdə erməni qırğınları. 4 sentyabr 2016-cı il / www.yknews.az

297. Nəcəfli G. Azərbaycan torpaqlarında erməni dövləti yaradılması məqsədilə tərtib olunan layihələr (XVIII əsrin I rübü) / http://1905.az

298. http://old.fact-info.az/ts_general/download/Azerbaycanlilarin_soyqirimi_ve_deportasiyasi.pdf

299. Esin Derinsu Dayı. Milli Mücadele Döneminde Elviye-i Selase ve Nahçıvan / http://www.atam.gov.tr/dergi/sayi-64-65-66/milli-mucadele-done-minde-elviye-i-selase-ve-nahcivan

300. http://www.heraldicum.ru/azerbaij/nahicevan.htm

301. http://www.omurokur.com/2014/07/sevr-antlasmasi-tam-metni-433-madde/

302. Декрет о "Турецкой Армении" 29 декабря 1917 г. (11 января 1918 г.) / www.hist.msu.ru/ER/Etext/DEKRET/17-12-29.htm

303. О "Турецкой Армении" / http://www.hrono.ru/libris/stalin/4-36.html

***          ***          ***


*Kitab «Mütərcim» TM-də səhifələnmiş və çap olunmuşdur.*

*Nəşriyyat redaktoru -* ***Əliş Mirzallı***

*Texniki redaktor –* ***Mətanət Qaraxanlı***

*Kompyuter tərtibatı* ***– Günel Muxtarova***

*Korrektor* ***- Rita Müslümova***

Çapa imzalanıb: 25.09.2017.
Format: 60x90 1/16. Qarnitur: Times.
Ofset çap. Ofset kağızı. Həcmi: 18,75 ç.v.
Tiraj: 250. Sifariş № 11.



Az 1014, Bakı, Rəsul Rza küç., 125/139b
Tel./faks 596 21 44; (055) 715 63 99
*e-mail:* mutarjim@mail.ru
www.mutercim.az